**İNAM ATA**
**(Asif Ata)**

# ON KUTSAL BİTİQ

**(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)**

***Birinci Bitiq:***

# MÜTLƏQƏ İNAM

**Atakənd – 32**
**Qanun - 2010**

**Az 2**

**Türkün (ilk) Ruhaniyyat Ocağı –
İnam Atanın (Asif Atanın)
Mütləqə İnam Ocağı**

**İNAM ATA (Asif Ata). ON KUTSAL BİTİQ** (On Müqəddəs Kitab).
(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)

***Birinci Bitiq:*** **MÜTLƏQƏ İNAM**
(Atakənd. İnam Evi. 32-ci il).
*Bakı, "Qanun" nəşriyyatı, 2010, 324 səh.*

Yaradıcısının Adı ilə "İnam Ata Sivilizasiyası", mahiyyətinə görə "Mütləqə İnam Sivilizasiyası", ulus'al kimliyinə görə "Türk Sivilizasiyası" adı ilə yeni ümumbəşər sivilizasiyası yaranmasına səbəb olacağı düşünülən dünyabaxışın fəlsəfəsi və ruhaniyyatı təqdim olunur.

Birinci Bitiyə – "Mütləqə İnam" Müqəddəs Kitabı daxildir.

ISBN 978-9952-26-119-6

© Safruh (Əliyev Elman Ağa oğlu), 2010
© Qanun, 2010



MÜTLƏQƏ İNAM PEYĞƏMBƏRİ
İNAM ATA (Asif Ata)

**Mütləqim, Müqəddəsim, Peyğəmbərim**
**İnam Ataya Ali Səcdəylə!**

# Mütləqə İnam  Sivilizasiyası…

Bəşər yeniləşməlidir – həm öz-özünə, həm də ruhani iradələrin köməyi ilə. Ancaq zorlanmadan. Ruhani intibah başlanmalıdır. Bəşər ruhani insana doğru yön almalıdır. İnsanın simalaşmasına, sifətlənməsinə doğru – Dünyanın, Həyatın, Bəşərin hər bir qayğısını öz fərdi qayğısı sayan, onlara yiyə duyğusuyla yaşayan insana – Həqiqətin Yiyəsinə doğru...

Bunun fəlsəfi-ruhani əsaslarını böyük türk (Azərbaycan) filosofu və ruhaniyyatçısı İnam Ata (Asif Ata – Əfəndiyev Asif Qasım oğlu; 1935 – 1997) yaratmışdır. On kitabda (Onluqda) nəşrini düşündüyümüz Ata İrsinin Birinci Bitiqini – "Mütləqə İnam"ı xalqa təqdim edirik. Qabaqca Onun Yaradıcısının  Ömür Yoluna qısa bir nəzər salaq.

Asif Ata 1935-ci il sentyabr ayının 25-də keçmiş Qazax mahalının Çaykənd kəndində orta məktəb müəllimləri Qasım və Növrəstə Əfəndiyevlərin ailəsində doğulmuşdur. İlk təhsilini burada almış, orta təhsilinin sonrakı illərini Gəncə və Ağstafa şəhərlərində oxumuşdur. Orta məktəbi bitirdiyi 1952-ci ildə o vaxtlar Azərbaycanın da daxil olduğu keçmiş SSR İttifaqının başkəndi Moskva şəhərinə M.Qorki adına Ədəbiyyat İnstitutunda ali təhsil almağa göndərilir. Burada keçən beş il müddətində akademik təhsildən qat-qat artıq dərəcədə özünütəhsillə məşğul olur. Dünya tarixini, fəlsəfəsini, ədəbiyyatını, dinlərini və s. müstəqil şəkildə öyrənir, özünüyaratma yoluna düşür, mövcud ictimai-siyasi doktrina ilə yol gedə bilməyəcəyini sezməyə başlayır.

Ali təhsilini bitirib Vətənə döndükdən (1957) sonra bir-iki il işsiz qalır. Ədəbi-bədii yaradıcılığın müxtəlif növlərində özünü axtarır və nəhayət ədəbiyyat tənqidçiliyində tapır. Bu sahədə elə ilk təcrübəsi cəmiyyətlə qarşıdurmaya başlanğıc verir: "Tənqid və Zaman" məqaləsi təpkilərə uğrayır. "Azərbaycan" jurnalı onu dərc eləmir. Özü bunu ruscaya çevirib "Literaturnıy Azerbaydjan" jurnalında dərc etdirir (1959, N 11). Necə olursa, bu yazı Türkiyə radiosunun

diqqətini çəkir, onu türkcəyə çevirib, efirə verirlər. Bununla da Onun, içində yaşadığı Sovet cəmiyyəti ilə münaqişəsi “rəsmiləşir”.

Bundan sonra Asif Ata ədəbiyyat tənqidçiliyi sahəsində qızğın və uğurlu işlərə başlayır, özünün janrını (“fəlsəfi-bədii izhar”) yaradır. Eyni zamanda müxtəlif ali təhsil ocaqlarında (İndiki Bakı Musiqi Akademiyası, Rus Dili və Ədəbiyyatı İnstitutu, Bakı Dövlət Universiteti) Qərb və Rus ədəbiyyatından, fəlsəfədən, estetikadan, incəsənət tarixindən dərslər aparır. Həm yüksək pafoslu mühazirələri, həm də qəzet və jurnalların artıq səxavətlə dərc etdikləri “Fəlsəfə və Poeziya”, “Sənət və Şəxsiyyət”, “Həqiqət və Yarımhəqiqət”, “Şeyx Nəsrullah əsarəti”, “Qəm və Üsyan” və b.k esseləri gəncliyin diqqətini çəkir, özünə geniş oxucu auditoriyası qazanır.

Bundan ruhlanan Asif Ata 1975-ci ildə özü üçün müstəqil dinləyici auditoriyası yaratmaq qərarına gəlir. Bu məqsədlə aidiyyatı rəsmi məqamlara müraciət edərək, işlədiyi Azərbaycan (indiki Bakı) Dövlət Universitetində “Etik və Estetik Tərbiyə Klubu” açır, onun sədri olur, ətrafına istedadlı gənclər yığışır. Öz yığıncaqlarında şeirə, musiqiyə və alovlu sözə geniş yer verən Klub tezliklə insani və milli azadlıq, ictimai-siyasi həyata yeni baxış tribunasına çevrilir. Onun toplantılarına başqa təhsil ocaqlarından da, hətta kənd rayonlarından da insanlar axışıb gəlirdilər. Həm Universitet rəhbərliyi, həm də başqa rəsmi dövlət orqanları bundan rahatsız olmağa başlayır, Klubun işini əngəlləyir, xalqın ona rəğbətini soyutmağa çalışırlar. Nəticədə Klub öz işini respublika “Bilik” cəmiyyətinə keçirməyə məcbur olur. 1978-ildə isə Klub tamamilə yasaqlanır.

Bütün bu sıxışdırmalar Asif Atanın sorğu-suala çəkilməsi, DTK tərəfindən dəfələrlə dindirilməsi ilə müşayiət olunur, Onu antisovetlikdə, antimarksistlikdə, millətçilikdə, hətta ona tamamilə yad olan dinçilik və faşizm kimi təmayüllərdə suçlayırlar, işdən və partiyadan çıxarır, ailəsinin dağılmasını (1982) təşkil edirlər. O həm də evsiz qalır... Söz yox, ətrafındakı gənclik də buxarlanır.

Belə bir vaxtda Ata Mütləqə İnam Ocağını yaradır. Bununla da adamları ideal uğrunda **maraqlanma ortaqlığından məsuliyyət ortaqlığına** çağırmış oldu. (Bu barədə bax: Safruh. “Başlanğıc”; səhifə 128). Bu, 1979-cu il idi. Ocaq ilsırası ilə 19-il Şölə ayının 5-i (1997-il, iyunun 5-i) isə Onun işıqlı dünyadakı son günü oldu...

Ata ədəbi tənqidçiliyini sarsıntılı illərində də davam etdirirdi, ömrünün Peyğəmbərlik çağında da. Bunun birinci mərhələsindəki əsərləri iki kitabda nəşr olunub: “Müdriklik səlahiyyəti” – 1976, “İnam və Şübhə” – 1989. İkinci mərhələsindəki tənqidi əsərlərini isə

“Yerdəkilərin Göy həsrəti” adlandırmışdır. Ancaq bunlar indiyədək ayrıca kitab halında nəşr olunmamışdır.

1980-ci illərdən Asif Atanın Peyğəmbərlik yaradıcılığı başlanır. O, Mütləqə İnam adlı Dünyabaxışını əsaslı şəkildə yaradıb ortaya qoymaq üçün onun ayrı-ayrı anlayışlarını, terminlərini, konsepsiyalarını müəyyənləşdirir. Çox vaxt bunlar onun ayrı-ayrı əsərləri biçimində ortaya çıxır – yəni Ata fəlsəfə alimi kimi deyil, məna izharçısı, yanğı ifadəçisi kimi çıxış edir. O, İnsan, İnam, Ruh, Həyat, Varlıq, Əxlaq, Etika, Şəxsiyyət, Xalq, Ailə, Vətən, Allah, Müqəddəslik, Ölüm, Ölümsüzlük, Meyar, Yaşam Tərzi və bu kimi anlayışlara öz baxışını yaratmalı idi.

Onun Dünyabaxışı “Mütləq” anlayışı ətrafında formalaşır. Onun Mütləqi Onun İnsanı ilə bağlıdır, iç-içədir. O, Mütləqin nəliyini “İnam” əsərində belə müəyyənləşdirir: “Mütləq – bugündə nişanələriylə, əbədi Sabahda bütöv mövcudluğuyla aşkara çıxan, nisbi hadisələrin daxilində yaşayan, ancaq onlara sığmayan, onları özlərindən kənara çıxarıb özünə yaxınlaşdıran, Dünyaya, Həyata, İnsana Ali daxili Qüvvə, İstiqamət və Meyar olan bir Qüdrətdir.”

Atanın Təlimində heç bir fövqəlbəşər, fövqəltəbiət qüvvə və varlıqlara yer yoxdur, onun ən ali varlığı insandır. Ata insana baxışda bütün bəşər fəlsəfəsini qınayıb deyir: “onda insan demək olar ki, heç vaxt tam müstəqil varlıq kimi qiymətləndirilməyib” və davam eləyir: “Biz öz fəlsəfəmizdə insanı tam müstəqil, ali varlıq kimi tədqiq edirik, insaniliyin özünəməxsus, heç bir qüvvədən asılı olmayan mahiyyətini təsdiq edirik. Bu mahiyyətin əsası – ruhdur, müqəddəslikdir, Allah ideyasıdır, sığmazlıqdır. (Asif Ata “Mütləqə İnam”, “Təbib” nəşriyyatı, 1999, səhifə 28).

Və Ata özünün “İnsanilik” əsərində insana belə bir tərif verir (817-ci Həqiqət): “İnsan – özündə Mütləqilik gəzdirən, bu səbəbdən də Şəraitdən, Mühitdən, Cəmiyyətdən üstün olan, Mütləqiliyə can atan və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır.”

Ruhu isə Ata yalnız canlı, indi yaşayan insana məxsus “İnam, İdrak, Mənəviyyat, İradə birliyi” kimi səciyyələndirir.

Onun, üstündə İnsan rəsmi (özününkü) və “İnsanlaşın – İnsanlaşdırın” sözləri yazılmış Bayrağı var. Onun Mütləqə İnam Ruhaniyyat Ocağı var. Bu Ocaq Onun ideyaları və həyat örnəyi əsasında Mütləqə İnamçı xalq və bəşər yaranmasına xidmət etməklə yükümlüdür.

Ata öz fəlsəfəsinə bir-birinə yaxın anlamlarda müxtəlif adlar vermişdir: İnsan fəlsəfəsi, Ruh fəlsəfəsi, Ata fəlsəfəsi, Mənəvi intibah

fəlsəfəsi, Mənəviyyat fəlsəfəsi, İnam fəlsəfəsi. Sonda isə Mütləqə İnam fəlsəfəsi adının üzərində dayanmışdır.

Ata öz təlimində insanı o qədər ruhaniləşdirir ki, müasir adam ona yaxın gəlmək belə istəmir – nəinki sıravi bəşər həyatında, lap açığını deyək, Ata Ocağının özündə də! Çünki “müasir adam” təpədən-dırnağa madiyyatçı, cismaniyyatçı baxışların quludur, o dərəcədə ki, “buradan bir çıxış yolu...” qımıltısının özü ona anlaşılmaz, hətta gərəksiz və ümidsiz görünür. Onlar artıq indidən bəşərin, insan növünün ölüb gedəcəyini “görürlər”. Və bu perspektiv əsasında da dişlərini, dırnaqlarını itiləyib bəşərin tarix boyu minbir əzab və ərdəmlik hesabına topladığı insani dəyərləri didib tökürlər. Ölümqabağı qarpışma gedir. Elə bir şiddətlə ki,... din “elmləşir”, elmdən özünə qoltuq ağacı düzəldir; bu iştahalar qarşısında ayağını geri qoyur. Din “müasir adam”ın içinə girməyib, onu diniləşdirə bilməyib, “müasir adam” dinin içinə girib... Onda Allahmı qalar, Müqəddəslikmi qalar?!

Ona görə də biz Ata İrsini başqa cür yox, məhz **yeni sivilizasiya** iksiri olaraq irəli sürməyi düzgün saydıq. Ruhun, İnam Ata Ruhunun həyata hərtərəfli, total müdaxiləsi olmadan “müasir adam”dan heç bir ruhani qığılcım almaq mümkün olmayacaq; “müasir adam” yamaq götürmür – o dərəcədə çürüyüb... İnam isə həyatda köklü dönüş yaratmaq üçün gəlib.

Belə bir mühitə Mütləqə İnam Ruhaniyyatı, ruhani yaşam tərzi verməliyik – bilə-bilə ki, Mühit onunla güləşəcək, din kimi onun da içinə girməyə, onu da içəridən yıxmağa çalışacaq. Burada Ata İrsinin uğurunu nə təmin edə bilər? Yalnız ayrı-ayrı müstəsna şəxsiyyətlər, Həqiqətdən başqa heç nəyi, heç kimi sevməyən şəxsiyyətlər. Biz onları “Həqiqətin Yiyələri” deyə kateqoriyalaşdırırıq. Onlar insanlaşmanı həm bilir, həm bacarır, həm istəyirlər.

... Bütün türklərin ilk milli filosofu İnam Ata həm də Ocaq Atası, Mütləqə İnam Peyğəmbəridir. (Bu barədə Safruhun “Asif Ata Peyğəmbərliyinin Beş Təsdiqi” içsəsi var. Bax: “İnama Doğru. Haraylar”, səhifə 330-341). Onun fəlsəfi İrsini, şərti olaraq, iki qismə bölmək olar: 1) yalnız Mütləqə İnam dünyabaxışını əks etdirən əsərlər, 2) dünyabaxışın ayrı-ayrı aspektlərini açan (şərh eləyən) əsərlər. Biz birinci qism Ata Əsərlərini belə təsnif etmişik:

**İNAM ATA**

**KUTSAL BİTİQLƏR**
**(MÜQƏDDƏS KİTABLAR)**
**10 cilddə**
**Nəşrin ümumi adı:**
**KUTSAL ONLUQ, qısaca ONLUQ**

| Bitiq (cild) sırası | Bitiyin adı | İçindəki Əsərlər |
|---|---|---|
| I | ***Mütləqə İnam*** | Mütləqə İnam |
| II | ***Mütləqləşmək – Var olmaq*** | Mütləqləşmək – Var olmaq |
| III | ***Görmək İnsaniliyi*** | Təzadlar; Rəmzlər; Mənalar; Mütləqilik; Olan və Olmayan; Varlıq – Yoxluq; Ruhani Xətt; Münasibətlər; Hallar |
| IV | ***Fəlsəfənin Təməli*** | İnam Fəlsəfəsi; Təməl |
| V | ***Kutsal Quruculuq*** | Yol.Ata Sözü; Sədaqət; Ruhani Hökmlər; Ruhani Sənədlər; Müqəddəs Kəlamlar |
| VI | ***İçdən Yaranma*** | Özündən Yüksək; Dünyadan Üstün; Dünyaçılıq – İnsançılıq; Gerçəkliyi Ötmək; Kamilləşmə Əməli; Daxildən Gerçəkləşmək; Bütövlük Həqiqəti |
| VII | ***Hüquqdan Haqqa*** | Haqq; Ölçü; Siyasətdən Üstün; Haqq – Haqsızlıq; İqtisadiyyat İnsansızlığı – İqtisadiyyat İnsaniliyi; Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti |
| VIII | ***Özüllər Özülü*** | Ruhaniyyat; Əxlaq; Mahiyyət |
| IX | ***Yollaşan Aqibət*** | Atalıq Xilqəti; Ömrüm – Günüm; Bədiiyyat; |
| X | ***Yetməli Olduğunuz*** | Adamlıq – İnsanlıq; Adamdan – İnsana; İnsana Yaramaq; Özümlük – Özgəlik; Dünənçilik – Sabahçılıq; İnsanilikdən Yaranan; Müqəddəslik; İnsanilik İmkanı; Həqiqət İnsaniliyi; İnsanilik |

Burada qeyd etməyi gərəkli bilirəm ki, Atanın buyuruğu ilə, həmin Onluğun içindəki əsərlərdən seçmələr əsasında "Müqəddəs Təlim" ("Kutsal Öyrəti") kitabı tərtib və nəşr olunmuşdur. Bu kitab İnamçılığın cövhəridir – müsəlmanlığın "Quranı" olan kimi.

**Burada bir ilk Evlad ərki:**

*Ey canım, şanım Əsərlər! Qeyrətim, vicdanım Əsərlər! Sizi kimə bağlayım ki, zamanlaşmayasınız, zamana bulaşmayasınız, samanlaşmayasınız – sular axıtmaya sizi; sözləşməyəsiniz – yellər aparmaya sizi?!*

*Ey vaxtından çox gec və ya çox tez doğulmuş Əsərlər! "Çox gec" deyə ümidsizləşimmi? "Çox tez" deyə ümidlənimmi? Ümidlənsəm, aldanmaram ki?!*

*Hay ver, İnam Ata! Məni buraxıb getdiyin adam selində çaşıb qalmışam. İrsini tapşırmağa insan tapmıram. Onlar Sənin İrsini söz sanırlar, kağız (saman) sanırlar, onu sellərdən, yellərdən qorumağa çalışmaqla özlərinə ad-san axtarırlar. Sənin İrsin isə kağız deyil, söz deyil, Onu yel apara, sel axıda bilməz. Onu bəylə gəlinlərin sarılığı puç edə bilər. İndi mən bu Yer üzündə bir Ağ Bəylə Bir Ağ Gəlin tapmıram ki, özüm Sənin yanına köçəndə İrsini onlara bağlayam. Çağdaşlarımın hamısı sarıdır, sapsarı, o dərəcədə ki, birini seçib qınamaq da olmur; birinin sarılığı o birinə bəraət olur.*

*Hay ver, İnamım! Çağımın sarı olmayıb ağ olanının da ağlı və hünəri topaldır. Onlara Sənin Kağızın addım atdırır, Ruhun addım atdıra bilmir. Mən isə sənə "Ruhum Ata!" deyirdim. Mən Sənin İrsinin taleyindən nigaranam - öz irsimin taleyindən olduğu kimi. ("İnama Doğru. Haraylar" səhifə 129). Əslində bizim iki irsimiz yoxdur, Ata-Oğul İrsimiz vahiddir, birdir və O, Atalı olduğu dərəcədə Atanındır.*

Dedik ki, Ata Fəlsəfəsi Mənəviyyat fəlsəfəsidir – Özü bunu dönə-dönə vurğulayıb. Habelə, Onun bütün İrsini vərəqləyən, fəlsəfədən az-çox baş çıxaran hər kəs bunu təsdiqləyər. Bu, ona görə belədir ki, Onun Fəlsəfəsi Mənəviyyatın çöküşünə cavab olaraq və dirçəlməsinə çarə olaraq yaranmışdır. (Bax: "Ocaq Məramı" içsəsi. "Yol. Ata Sözü" kitabı, səhifə 5-7). Buna görə də, musəviliklə müqayisə eləsək, Onun Tövratının "Varlıq" kitabı Onluğun II Bitiqinə daxil olan "Mövcudluq" Əsəridir. İnam Ata İrsindən bəhs edərkən bunu daim diqqət mərkəzində saxlamalı: insanın cismi, cəmdəyi Ata fəlsəfəsinin mövzusu deyildir! Burada insan mövcudluğu mənəvilik və ruhaniliklə izah olunur: "İnsani məna – ruhani mənadır"; "İnsanilik əslində ruhaniliyə bərabərdir"; "Yalnız ruhani mövcudluq – insani mövcudluqdur" kimi hökmlər verilir və bunlar Atanın "hikmətamiz

deyimləri” deyil, fəlsəfi təhkiyəsi, qəti qənaətidir. Bu Əsərdə “Mən”, “Təbiət”, “Cəmiyyət” və “İnsan” adlı dörd obraz –anlayış var. Atanın insanı burada onları qabaqca müstəqil ruhani varlıqlar kimi dərk və qəbul edir, sonra onları “özümləşdirir” – ruhani varlıqlar kimi onlara doğmalaşır, onları özündə, özünü onlarda görür, daha sonra isə özündən yüksəyə qalxır – başqalaşır. Bu – artıq Mütləqləşməkdir. Ata “Var Olmaq” deyəndə bu səviyyəni nəzərdə tutur: Mütləqləşmək – Var Olmaq! Ata fəlsəfəsi, həmin bu məqam özək alınmaqla incələnməli və gerçəkliyə gətirilməlidir. Yeni, bütöv Sivilizasiya tutumunda – hərtərəfli, total.

**Bununla bağlı bir neçə tezis:**

1. İnsan öz içi ilə məşğul olmalıdır, onu öz içindən (daxili aləmindən) qovub çıxarmaq gedişləri dayandırılmalıdır. Hazırda o, içiboş, daxili aləmi olmayan, qeyri-insani bir varlığa çevrilməkdədir.
2. Bütün xalqlar müstəqil ruhaniyyatla məşğul olmalıdırlar; mövcud dini totallıqlar rədd olunmalıdır.
3. Sosial fərqlər təzadından utanc aşılanmalı, əhali maddi bərabərliyə, ruhani “yarışa” stimullaşdırılmalıdır.
4. Cəmiyyət həyatına təbiət uyumu gətirilməli, cəmiyyət öz sürəti ilə təbiəti çaşbaş salmamalıdır.
5. Əhalinin sayı barədə düşünülməlidir (Safruh. Bəşərin “optimal sayı”. “Oğuz yönü”, səhifə 148).
6. Əhalinin yerdəyişmələri – miqrasiyalar – stimullaşdırılmamalıdır.
7. “Cəmiyyətin məqsədi – insanı təsdiq etmək” (“Mövcudluq” əsərindən); “Dövlətin məqsədi - Ruhani birlik yaratmaq” (“Dövlət” əsərindən) olmalıdır.
8. Qadın qadınlıq taxtına – ailəyə qaytarılmalıdır. Məhv olmaqdan qurtarılmalıdır.
9. 1 kişi + 1 qadın 1 insana bərabərdir (özünü təkrar yaradıb yaşada bilməyənə müstəqil varlıq deyilməz); Bəşərin sayı həmin bu insan baxımından 1-dən yox, 2-dən başlanmalıdır – “Özüm və Başqası”-deyə. Cəmiyyət sayında bu – 4 eləyir...
10. Millətə yeni təyin-tərif verilməlidir – mövcud ensiklopedik təriflər işləmir.
11. İstedad və Bacarıq özlərini ləyaqətli aparmalıdırlar. İstedad – ruhani, Bacarıq – mənəviyyatlı olmalıdır – yalnız sonucları (məhsulları) ilə yox, yaşamları və yerişləri ilə də.
12. Musiqi kütləvi çılğınlığın əlindən alınmalıdır. Musiqi – idman növü deyil, musiqi – uyuşdurucu maddə deyil.

13. İdman kürəsəlləşdirilib – beynəlxalqlaşdırılıb efemerləşdirilməməlidir – o, xalq milli həyatının təzahür biçimlərindən, üzvi tərkib hissələrindən biridir. Kütləvi idman (və onun tamaşaçılığı) bütləşdirilməməli, fəlsəfələşdirilməməli, gəlir mənbəyinə çevrilməməlidir.

14. Rekordlar, öncüllüklər stimullaşdırılmamalı, yalnız qeydə alınmalıdır.

15. Turizm, məişət səviyyəsindəki kübarlıq və seçkinlik iddia və psixologiyası anti-insani, anti-xəlqi hadisələr sayılıb rədd edilməlidir. Ruhani kübarlıq və seçkinlik isə - hər sahədə arzuolunan haldır...

16. "Ehtirasmı, etidalmı?" seçimində üstünlük etidala verilməlidir. Ehtiras – yalnız ona ehtiyac yarananda...

17. Bütövlükdə həyatın ritminin çılğınlaşdırılmasına qarşı çıxmaq, onu təbiətə doğmalaşdırmaq tələb olunur.

18. Təlim kütlənin dalınca yox, kütlə təlimin dalınca (göstərdiyi yol ilə) getməlidir – özünün uzaq perspektivlərdə var olması bunu tələb edir.

Bu, özünü toplumun bütün hüceyrələrində göstərməlidir. Dövlət və təsərrüfat quruculuğunda, elm və fəlsəfəsində, sənət və idmanında, ailə və məişətində, ideologiya və hüquq sistemində, uluslararası münasibətlərində ... – hamısında Mütləqə İnam əxlaqı və etikası!

Elmi-texniki "inkişaf"ın quduzlaşması önlənməlidir.

Kürəsələşmə ilə kürəsəlləşdirmə bir-birindən fərqləndirilməlidir. Birinci təbii sayılmalıdır: bir adam o birindən, bir kənd o birindən, bir xalq o birindən, Doğu Batıdan, Batı Doğudan nə isə götürə, öyrənə bilər. Bunun özü – tərəflərin bir-birinə yaxınlaşması deməkdir. Kürəsəlləşdirmə isə təbii gedişi, insanların iradəsini, xalq və ölkələrin simasını zorlamaqdır. Bunun sonucunda bəşər simasızlaşır, insan özündən ayrılır, dünya yiyəsiz qalır; hər bir fərd bir istehlakçı əjdahaya çevrilir – onu dünyaya öz iştahasından başqa heç nə bağlamır: ailə yox, mənəviyyat yox, Vətən yox, millət yox, ruhaniyyat (Allah, müqəddəslik, ülvilik) yox... Kürə, qlobus...

Kürəsəlləşdirənlər kimlərdir, bəşərin qalan hissəsindən onların fərqi, üstünlüyü nədir, nədədir? Biz bu mövzuda əsaslı bir söz eşitməmişik. Onlar yalnız informasiya genişliyinin və erüdisiya üstünlüyünün adını çəkə bilərlər. Bu isə bəşərin müsbət (onu yaşadası) anlamda yeniləşməsinə səbəb ola bilməz. Çünki informativlərin və erüditlərin təyinindəki insan özünə oxşamır, şüurlu, erüdisiyalı heyvan sayılır. Onların insana verdikləri təyin-tərifi dərindən incələsən, məhz belə bir sonuc alınar: şüurlu heyvan.

Şüurlu heyvan C.Lokk, T.Hobbs üfüqlərinə çatdı, əlini alnına qoyub baxdı, ondan o yana qaranlıq gördü – ölüm, yoxluq qaranlığı. Yalnız bir dövlətin əlində bəşəriyyəti bir neçə dəfə məhvetmə gücündə yaraq yaratdı, "İnsan alveri", "orqan alveri", "biznes məqsədli başkəsmələr", "cinsdəyişmə" kimi terminlər yaranmasıyla sonuclandı...

Bu "bəşər" rədd olunmalıdır, bəşər dəyişməli, yenidən yaranmalıdır – həm öz-özünə, həm də ruhani iradələrin gücü ilə. İnsan Allahlıq eləməlidir...

Bunu kim edəcək?

Bunun iki faili var: 1) İnamın Yaradıcısı. O, Öz İşini gördü, Mütləqə İnam Sivilizasiyasının fəlsəfi-ruhani cizgilərini cızdı, əsaslarını yaratdı: "Müqəddəs Amal yarandı. Ata öz borcunu yerinə yetirdi: Müqəddəs Əməl yaranmalıdır. Övlad öz müqəddəs borcunu yerinə yetirməlidir. (Bax: "Kutsal Quruculuq" Bitiqində "Müqəddəs Əməl" əsəri). 2) Türk xalqı. Türk – bəşər övladıdır. Buddanı Hind xalqı yaşatdı və bəşərə verdi; Konfusini Çin xalqı yaşatdı və bəşərə verdi, Məhəmmədi Ərəb xalqı yaşatdı və bəşərə verdi... Növbə Türk xalqınındır. O, İnamı yaşatmalı və bəşərə verməlidir.

Xalqın istedadlı Oğul və Qızları təxəyyüllərinə güc verməli, İnamın altı ideyasını: Mütləqə İnam, Kamil İnsan, Müstəqil Vətən, Ruhani Birlik, Özümlü Şərq, Ləyaqətli Bəşər - gerçəkləşdirmək üçün iş görməlidirlər. İnama qədərki sivilizasiyaların zərərlərini qabaqca öz hüceyrələrindən, sonra "müasir adam"ın və öz millətinin canından sıxıb çıxarmalı, onu Mütləqə İnam balıyla doldurmalıdırlar. Bunun üçün gərək olan bütün ruhani və elmi-fəlsəfi əsaslar Onluqda var. Mütləqə İnam Sivilizasiyası bu ideyaların gerçəkləşməsi deməkdir. İnam Atanın Mütləqə İnam İrsinin təsnifat cədvəlini burada verdik ki, öz ideyalarınızı, məktəblərinizi, sistemlərinizi, konsepsiyalarınızı yaratmaq üçün ona dörd gözlə hopasınız. Bu həm də sizi özgələrin cazibəsindən çıxarıb, öz aranızda birləşdirəcək. Siz cəzb olunandan cəzb edənə çevriləcəksiniz.

Ata İrsinin vicdanlara pıçıldadığı isə budur:

Ruhani İnsana doğru – yavaş, yavaş, yavaş...

Atamız var olsun!

**SAFRUH,**
***İnam Ata (Asif Ata) Mütləqə İnam Ocağının Odqoruyanı (Ruhani başçısı).***

7 Qürub ayı 32-il. (7.VIII.2010).
Atakənd. İnam Evi.

## *İNSANLAŞMAQ*

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.

Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

***Şölə Ayı, 7-ci il. Bakı.***
***(İyun, 1985-ci il).***

## SABAHDAŞLARA

Dedim ki, filosofun ***Sözü*** olmalıdır.
Dedilər ki, ***Sözlü*** olmaq günahdır.
Dedim ki, ***İdeyasız*** filosof səssiz xanəndəyə bərabərdir.
Dedilər ki, ***İdeya*** ağıla yükdür.
Dedim ki, filosofluq – yaradıcılıqdır.
Dedilər ki, filosofluq – yaradıcılığın şərhidir.
Dedim – fəlsəfə inkişaf etdirilməlidir.
Dedilər ki, fəlsəfə araşdırılmalıdır.
Dedim – zaman yeni fəlsəfi fikir tələb edir.
Dedilər ki, gərəkli fikirlər deyilib.
Dedim – bu, fəlsəfənin ölümü deyilmi?
Dedilər ki, yox, yeni aqibətidir.
Dedim, Azərbaycan fəlsəfəsi yaradaq.
Dedilər – bu dəlilikdir.
Dedim – Şərq ənənələrinə üz tutaq.
Dedilər – bu gerilikdir.
Dedim – klassiklərə ayıq nəzərlə baxaq.
Dedilər – bu cinayətdir.
Dedim – əxlaq pozulur.
Dedilər – yeni əxlaq yaranır.
Dedim – özümüzdən ayrılırıq.
Dedilər – sabahımızı tapırıq.
Dedim – İnam azalır.
Dedilər – şübhəyə tapınırıq.
Dedim – qeyrət azalır.
Dedilər – qeyrət maddi deyil, qoy azalsın.
Dedim – Mütləqə inanmaq lazımdır.
Dedilər – nisbini Mütləq sayırıq.
Dedim – filosof zəmanəyə sığmaz.
Dedilər – zəmanə bizi görmür.
Dedim – fəlsəfədə düşüncə səviyyəsi əsasdır.
Dedilər – fəlsəfədə rütbə səviyyəsi əsasdır.
Dedim – Sokrat zəhər içdi.
Dedilər – biz meyi xoşlayırıq.
Dedim – Diogen İsgəndəri saymadı.
Dedilər – bizi sayan görünmədi.
Dedim – həqiqət hər şeydən qiymətlidir.
Dedilər – biz onu aramırıq.

Özümü eşitdim. "Mütləqə İnam" Beşliyini ("İnsan", "İnam", "Ruh", "Həyat", "İntibah" kitablarını) yazıb qurtardım. Borana düşdü Beşlik. Çap olunmadan qadağan olundu. Bəxtiyaram. Ömür sevdam baş tutdu, arzuma çatdım. Kitablarımın, Övladlarımın Atası oldum.

Kitabları ilk növbədə azərbaycanlılar üçün yazdım. Mənim üçün Azərbaycan azərbaycanlıların cəmindən artıq, böyük, yüksək olan bir varlıqdır. İstədim ki, o, öz Müqəddəs mənasına layiq olsun.

***Kitabları həm də bütün insanlar üçün yazdım.***

Mənim üçün bəşər insanların cəmindən artıq, böyük, yüksək olan bir varlıqdır.

İstədim ki, o, öz müqəddəs mənasına layiq olsun.

***İstədim ki, insanlar yaşasınlar...***

***Yağış ayı, 5-il.***
***(Noyabr. 1983).***
***Bakı.***

# İ N S A N

## 1. İnsanilik

– Yenə də dövrdən, zəmanədən, sinfi mənsubiyyətdən təcrid olunmuş ümumi, əbədi, mütləq insan! Fəlsəfə onunla həmişəlik vidalaşmadımı, sübut etmədimi ki, insanı ictimai münasibətlərdən ayrı təsəvvür etmək olmaz?!

İnsan hansı bir mühitdəsə yetişir, hansı tarixi şəraitdəsə fəaliyyət göstərir, hansısa bir sinfi təmsil edir, onun konkret mövcudiyyəti var; o, fəhlədir, kapitalistdir, mülkədardır, kəndlidir – öz mənafeyini qoruyandır. İnsanlar əslində bir-birindən yerdən göyə qədər fərqlidir, bir-birini rədd edirlər, həyatda yaşamaq uğrunda amansız döyüş gedir. Siz isə ümumi insani cəhətlər, keyfiyyətlər axtarırsınız, dialektikanı, ictimai qanunları unudursunuz.

EHKAMÇI tez və qətiyyətlə danışırdı. Sözlər asanlıqla və ardıcıllıqla axırdı. ***Gözlər işıqsız idi.***

– Hər ictimai quruluşun öz insanı var. Siz isə dəyişilməz insan arayırsınız, cəhdiniz əbəsdir, yanlışdır, zərərlidir.

HƏQİQƏTÇİ düşüncəsində, duyğularında Ehkamçıdan çox uzaqda idi. Ancaq onu dinləyirdi. Ehkamçının susduğunu görəndə o dilləndi:

– Sizin insan saydığınız varlıq – özünü itirmiş, yarımçıq, cansız, mexaniki insandır. O, əslində yaşamır, cəmiyyət tərəfindən müəyyən olunmuş vəzifəni, funksiyanı icra edir. Əgər insan kapitalistləşir, fəhlələşir, mülkədarlaşır, kəndliləşirsə, deməli, öz bütövlüyünü, tamlığını, insaniliyini itirir.

***Sinifləşmək – özünü itirməkdir.***

Əgər insanın rolu sinfi münasibətlərlə məhdudlaşırsa, deməli, o, özünü həyatda dolğun, əsil insani şəkildə realizə edə bilmir, özündən ayrılır.

Özündən ayrılmış insanı əsil insan hesab etmək – onun müflisləşməsini əbədiləşdirmək deməkdir... Əslində cəmiyyət insanı bütöv varlıq kimi tanımır, icraçı kimi tanıyır. Ehkam isə iddia edir ki, insanın mahiyyətini onu tanımayan, dərindən dərk etməyən, onun hərtərəfli təzahürünə mane olan ictimai münasibətlərdə axtarmaq lazımdır.

İnsanı cılızlaşdırmağın, bəsitləşdirməyin, əşyalaşdırmağın elmə-bənzər nümunəsi!

Ehkam insanı bütünlükdə cəmiyyətin sərəncamına verir və cəmiyyət Allahlaşır, o, şəxsiyyəti yaradan, yaşadan, öldürən, dirildən,

taleyini müəyyən edən ilahi qüdrətə çevrilir. ***Ateistlər cəmiyyət adlanan yeni Allah yaradırlar və insanı onun bəndəsi edirlər.***

Əgər insan ictimai münasibətlərin məcmusudursa, deməli, cəmiyyət onu istədiyi şəklə sala bilər, istədiyi kimi yaşada bilər – Allah öz bəndəsini yaşatdığı kimi.

***Əslində yalnız sinfi çərçivəyə sığmayan, öz daxili məzmunuyla mühitdən, tarixi şəraitdən kənara çıxan insanı əsil insan saymaq olar.***

Belə insan cəmiyyətdə itməz, mühitin oyuncağına çevrilməz, şəraitin arxasınca sürünməz, öz əvəzsizliyini, təkrarsızlığını, müstəqilliyini təsdiq edər.

***İnsanın bütün canlılardan fərqi – özündə, dünyada, varlıqda –*** özündən, dünyadan, varlıqdan daha böyük məna tapmasındadır. ***İnsan üçün dünya heç vaxt təkcə görünən, ağılasığan, adi dünya olmayıb. İnsan üçün dünya həmişə təzahür edən, aşkara çıxan hadisələrdən qat-qat məzmunlu, ülvi, qeyri-adi varlıq olub.***

***İnsan dünyadan heç vaxt sadəcə istifadə etməyib, onun faydalı səciyyəsindən, maddi xeyirindən həmişə kənara çıxıb, ona sığmayıb. İnsan üçün göy heç vaxt yalnız göy, yer heç vaxt yalnız yer, çay yalnız çay, dağ yalnız dağ olmayıb.*** İnsan üçün onlar hamısı özlərindən, öz təzahürlərindən daha böyük olublar. İnsan təbiət üzərində hakimiyyətlə kifayətlənmədi. Bu, olsa-olsa onun fəaliyyətinin bir tərəfi idi və insani mahiyyət baxımından əsas tərəfi deyildi.

***İnsaniliyin əsas mənası yerdə, göydə, dünyada, həyatda, bəşərdə zahirə, əlamətə, görünənə, ağıla sığmayan ülvi məna kəşf etməkdir.***

İnsan dünyada dünyadan böyük məna görməsəydi, onun heyvandan fərqi olmazdı...

***Dünyanın mənasını dünyadan yüksək saymaq, onu dünyadan kənarda axtarmaq insanı insan etdi.***

İnsan anladı ki, dünya insanı bəsləmək, yedirtmək üçün yaranmayıb, o, insanı heyran etmək, vəcdə gətirmək üçün yaranıb. Beləliklə də insanın dünya ilə əsil insani münasibəti meydana gəldi.

Dünya insanı özünə, öz əsil mahiyyətinə qaytardı, qəlbini coşdurdu, düşüncəsini qanadlandırdı, idrak üfüqlərini sonsuzlaşdırdı.

***İnsanı insan eləyən ağıl yox, ruh oldu.***

Ağıl dünyanı ölçdü, biçdi, rəqiblərdən təmizlədi, öz niyyətinə uyğunlaşdırdı.

Ruh isə dünyaya sığmadı, dünyanın mənasını kəşf etdi.

Ağıl dünyanı özünə ram etdi.

Ruh dünyaya qovuşdu.

Ruh – vəcdli zəka, narahat ehtiras, məhəbbət, ehtizaz oldu, ağıl – təhlil, fayda, mətləb.

***Ruh insana dedi ki, onun öz mahiyyəti özündən alidir.***

İnsanın xilqətində sığmazlıq var.

***İnsan həmişə özündən böyükdür.***

Onun daxili imkanlarıyla real imkanları arasında məsafə intəhasızdır. Ona görə də insan dünyada heç vaxt özü olmur, özünün cüzi hissəsi olur.

***İnsan da dünya kimi özündən kənara çıxır, özünü özündən kənarda tapır.***

***Özündən kənara çıxmaq, özünə sığmamaq, özünü özündən kənarda tapmaq insanın başlıca əlamətidir.***

***İnsanın yeni dünyası – insandan və dünyadan daha gözəl, daha geniş, daha kamil dünyası yaranır.***

İnsan özünü həmin dünyanın tələbləri əsasında kamilləşdirməyə başlayır. Daxilindəki eybəcərliyi öldürür, qəlbi çirkabdan təmizləyir, ardıcıl, intizarla, həsrətlə Mütləqə qovuşmağa can atır. Platonun fəlsəfəsində İdeyalar aləminə, Hegelin təlimində Mütləq Ruha qovuşur; İsanın, Məhəmmədin dinində özünü müqəddəs mövcudluğa hazırlayır, Buddanın atəşin çağırışında mənəvi kamilləşmə ülviyyətinə yüksəlir.

Yeni, ideal, ruhani dünyanın yaranması insanla gerçəklik arasında münasibəti dəyişir.

İnsan anlayır ki, ən ali gerçəklik belə, dünyanın əsil mənasından aşağıdır. Deməli, gerçəkliyi heç vaxt mükəmməl varlıq saymaq olmaz. Deməli, gerçəkliyi yaxşılaşdırmaq, dəyişdirmək, kamilləşdirmək lazımdır.

Əgər ən qüdrətli insanın fəaliyyəti onun həmin fəaliyyətə sığmayan mənasından aşağıdırsa, deməli, insan özünü daim ideala, insani mənaya yüksəltməlidir.

***İnsan ona görə böyüdü, artdı ki, ikinci dünya – daha ali, daha gözəl, ideal, ruhani dünya yarada bildi.***

Tarixin gedişatı da bunu sübut edir. Yan Qusların, Cordano Brunoların ruhunda ikinci dünya var idi. Onlar bu dünyanı gerçəkliklə müqayisə edirdilər və gerçəkliyə lənətlər yağdırırdılar, onu inkar edirdilər, əsil dünya naminə ölümə gedirdilər.

***Musiqinin, şeirin mayasında ikinci dünya ideyası yaşayır.***

Musiqi qeyri-adi, sirli, sehirli, qəlbi titrədən, insanı Ali Həyata çağıran ehtirasların, duyğuların, düşüncələrin ifadəsidir. ***Musiqi insanı ruhun yaratdığı dünyaya qovuşdurur.***

***Əsil şeirdə gerçəklik ikinci dünyanın təzahürü kimi qiymətləndirilir.***

Çay mahnı oxuyur, dəniz insanla danışır, sevgili – ilahiləşir, səma – insaniləşir.

***İnsan idrakının ülvi məqsədi dünyanı sadəcə dərk etmək yox, dünya əsasında yeni, kamil, sonsuz, mütləq dünya yaratmaqdır.***

Bir sözlə, insanın həqiqi insani tarixi – ruhun qüdrətiylə ikinci dünyanın yaranması, insanın özünə və dünyaya sığmaması, özündən və dünyadan kənara çıxmasından başlayır.

Ehkam isə insanı nəinki dünyaya, hətta sinfə, mühitə, tarixi şəraitə pərçimləyir və anlamır ki, bununla onun mahiyyətini inkar edir, dünyada yerini, mövqeyini hədsiz dərəcədə məhdudlaşdırır, kiçildir.

***İnsanın mahiyyətini ruhani qüdrətdə axtarmaq lazımdır.***

Təbiidir ki, ruhanilik bir zəmanənin, əsrin, ictimai quruluşun məhsulu deyil, o, yaranan kimi yoxa çıxan hadisə də deyil. ***O, insanın ilkin, səciyyəvi, ölməz keyfiyyətidir.***

– Bəs insanın azğınlığı, qəddarlığı, yırtıcılığı, harınlığı, qan hərisliyi, istismar, bərabərsizlik, ədalətsizlik? Bunların peyda olmasında insan təbiətinin rolu yoxdurmu? Sizin ruhani insanınız dəhşətli eybəcərlikləri öz daxili aləmində necə gəzdirmişdir?

– Siz yəqin elə bilirsiniz ki, bu dəlilinizlə mühakimələrimi alt-üst elədiniz? Əslində isə mənim dəyirmanıma su tökürsünüz.

İnsan yalnız ruhdan ibarət deyil, təəssüf ki, onun daxilində müxtəlif heyvani instinktlər, insanı kiçildən, siniflәşdirən ehtiraslar var. Sinfi insan – əsil insan deyil, çünki onun sinifləşməsi natamlığın, naqisliyin ifadəsidir.

İnsan o zaman mülkədarlaşır, hampalaşır ki, ruhun çağırışını eşitmir, vicdanı, ədaləti, insaniliyi unudur. Deməli, biz onun insaniliyini hampalığında yox, hampalığından kənarda, sizin təbirinizlə desək, mücərrəd insanda tapmalıyıq.

***İnsan sinifləşdikcə – mənən müflisləşir.***

***İnsan ümumiləşdikcə, mücərrədləşdikcə, ruhaniləşdikcə – zənginləşir, böyüyür, bütövləşir.***

***Sinfi insan olmaq – özündən ayrılmaqdır.***

***"Ümumi" insan olmaq özünə qayıtmaqdır.***

İnsan həyatda yalnız ruhani fəaliyyətlə məşğul olmur. Onun xilqətində qaranlıq duyğular da var. Ancaq ruhani qüdrət kimi o, özü üzərində yüksələ bilir. Yalnız ruhanilik insanı kiçik "mən"indən ayırıb böyük "Mən"inə qovuşdurur. Çünki yalnız ruhanilikdə insan bütöv, başqa canlılardan fərqli bir hadisə kimi təsdiq olunur.

– Belə çıxır ki, insanın əmək aləti yaratması onun başqa canlılardan əsas fərqi deyil?

– Bəli. Bu fərq formal fərqdir. Əmək alətlərinin hazırlanması insanın özünü qoruması, yaşayış uğrunda döyüşdə qələbə çalması üçündür. Burada məqsəd, niyyət, istiqamət baxımından digər canlılardan fərqlənmə yoxdur. Buradakı fərq özünümühafizənin forması baxımından əhəmiyyətlidir, insanın insani mahiyyəti baxımından yox dərəcəsindədir.

Yalnız ruh insana heç bir canlıda müşahidə edilməyən keyfiyyət bəxş edir: ***dünyaya sığmamaq, ikinci dünya yaratmaq, dünyanın mənasını dünyadan kənarda tapmaq!***

– Bəs ruh özü nədir?

***– Ruh insanı adi vəziyyətindən ayırıb, qeyri-adi duyğulara, düşüncələrə, ehtiraslara yüksəldən mənəvi qüdrətdir.***

Ruh insanı balaca, dar, məhdud aləmdən böyük, geniş, möhtəşəm aləmə aparan daxili gücdür.

İnsan – onu əhatə edən mühitə heç vaxt sığmır, çünki ruhu var.

***Ruh – insanda həyatın naqisliyinə qarşı sonsuz nifrət və gözəlliyinə qarşı sonsuz heyrət yaradır.***

***Gözəlliyi – ağıl yox, ruh kəşf edir.*** Çünki gözəllikdə maddi, real keyfiyyətlərə sığmayan ideal keyfiyyətlər dərk olunur.

***Ruh vasitəsiylə insan məhəbbətə qovuşur, özünün özündən böyük mənasını anlayır.***

***Ruh – ehtizaz, vəcd, yanar, narahat, qeyri-adi zəka əsasında ağlın görmədiyi, dərk etmədiyi həqiqətlərə yüksəlir.***

***Ali həqiqətlərin hamısını ruh kəşf edib.***

Ruh insanda başqa canlılardan fərqli ehtiraslar, meyillər yaradır: ***fədakarlıq, ülviyyət, müqəddəslik duyğusu!***

***İnsanın ruhu ölümlə barışmır, əbədiyyətə, ölməzliyə can atır.***

Ruh vasitəsiylə səs – musiqiləşir, söz – şeirləşir, daş – heykəlləşir.

İnsanın fəaliyyətini mənfəətlə bağlamaq barbarlıqdır. “Gözəl olan – lazımlı olandır” – fikrində dəhşətli bir naşılıq var.

Həyatdakı gözəlliyin kəşf edilməsi və sənətdəki gözəlliyin yaranması faydalıq prinsipinin təsdiqi deyil! Belə olsaydı, gözəlliyin cazibədarlığı, sehri, möcüzəsi olmazdı! ***Gözəllik tələbatı – ruhani tələbatdır.***

***Ruh vasitəsiylə insan nisbidə, natamda dayanmır, Mütləqə can atır, ona səcdə qılır.***

***Ruh insana kədərli həqiqəti söyləyir: insanın imkanları, arzuları, niyyətləri, duyğuları, düşüncələri ömrə sığmır. İnsan***

***həyatda özünü tam realizə edə bilmir. Onun daxilində yaşayan min keyfiyyətin, min imkanın yalnız biri aşkara çıxır. İnsan qəbrə özüylə özünün sonsuz imkanlarını aparır.***

Ruh onu da deyir ki, ***göz vasitəsiylə qavranılan bilik heçdir.***

Dünyanı gözlə düzgün görmək olmaz, ağılla isə dünyanı tənzim etmək olar. ***Dünyanı yalnız ruhun güzgüsündə görmək olar.***

***Ağıl vasitəsiylə sən başqasını öyrənirsən.***

***Ruh vasitəsiylə sən onu özündə görürsən.***

***Ruh vasitəsiylə sən zəmanədən, mühitdən kənara çıxırsan, pis adamların içində belə yaxşı adam olaraq qalırsan.***

***Ruh vasitəsiylə təbiət insaniləşir, insan təbiətləşir.***

***Ruh vasitəsiylə sən insanda – varlını, yoxsulu, zadəganı, rəiyyəti yox, İnsanı görürsən.***

***Ruh vasitəsiylə sən "dəlicəsinə" yaşamaqdan – Məcnunlaşmaqdan, Babəkləşməkdən, Nəsimiləşməkdən çəkinmirsən.***

***Ruh vasitəsiylə sən dünyayla, təbiətlə, dünənlə, sabahla bir olursan.***

***Ruh səndə hakimi olduğun təbiətə qarşı məhəbbət ehtirası yaradır.***

***Ruh səni ideala, Mütləqə çağırır və beləliklə də ən murdar şəraitdə belə təmiz saxlayır.***

***Ruh insan qəlbini sözlə ifadəsi çətin olan incə, coşqun, ülvi hisslərlə, ehtiraslarla doldurur, təxəyyülün üfüqlərini sonsuzlaşdırır.***

***Ruh yıxılanı qaldırır, xəstəni sağaldır, qəmlini sevindirir, uzağı yaxınlaşdırır.***

***Bədən dözməyəndə – Ruh dözür, bədən məğlub olanda – ruh qalib gəlir.***

***Ruh möcüzəyə inanır, dünyanın mənasını möcüzə sayır və özü möcüzə yaradır.***

***Bir sözlə, Ruh – insanın özüdür.***

***İnsanı insan edən Ruhdur.***

Ağıl vasitəsiylə insan özünü qorudu, xilas etdi, ölmədi, yaşadı.

***Ruh vasitəsiylə insan İnsan oldu, yəni hamıdan fərqləndi, dünyanın mənasını dünyadan böyük, insanın mahiyyətini insandan ali saydı.***

***Ruhsuz insan dünyanın adi bir zərrəsi olacaqdı. Ruhla insan dünyanın zirvəsi oldu.***

– Sizin dedikləriniz fəlsəfə tarixində ruh haqqında bərqərar olmuş təsəvvürlərlə uyğun gəlmir.

– Düzdür, məsələn, Hegeldə ruh – fikrin, anlayışın sinonimidir. İrrasionalistlər – ruhu – zəkaya qarşı, həyat fəlsəfəsinin nümayəndələri isə həyata qarşı qoyurlar. Təbiidir ki, bu cür şərh olunan ruh insani mahiyyəti ifadə edə bilməz.

***Ruh sadə fikir, anlayış deyil, zəkanın xüsusi səviyyəsi, vəcdli, heyrətli, ehtizazlı, yerə-göyə sığmayan məqamıdır.***

Zəkadan kənarda ruh yoxdur. Ancaq ruh zəkanın adi vəziyyəti deyil, qeyri-adi vəziyyətidir. Ruhu zəkaya qarşı qoyanlar zəkanı ağılla eyniləşdirirlər. Ruhu zəkaya qarşı yox, soyuq, bəsit, qanadsız, nasiranə ağıla qarşı qoymaq lazımdır.

Ruh hardasa antiağıldır, onu eşitməyəndir, onun ziddinə gedəndir. Ancaq ruh zəkanın əleyhinə çıxış edən deyil.

Məcnunluq "ağılsızlıqdır", ancaq zəkasızlıq deyil, əksinə yüksək zəkilikdir...

Zəka mahiyyətə enir, əlamətdə dayanmır, ona görə də dünyaya pərçimlənib qalmır, ondan kənara çıxır. Ancaq o, yalnız ruha çevriləndə öz niyyətinə nail olur, yəni dünyanı özündə görür.

Ruhun həyata zidd olması iddiasına gəldikdə, onu demək lazımdır ki, həyat həmişə ağıllı olmur, ancaq öz ruhaniliyini heç vaxt tam itirmir. ***Çünki ağılsız dünyada insan tapılır, ancaq ruhsuz dünyada tapılmır.***

Həyatda məntiqsiz, mənasız, eybəcər hadisələr çoxdur. Lakin onlar heç vaxt tam ruhsuz dünya yaratmağa nail olmurlar. ***Çünki ruhsuz dünya ölü dünya olardı. Ona görə də ruh həyatın düşməni deyil – qanadıdır.***

Ruh həyatı eybəcərlikdən qurtarır, onun insani məziyyətlərini qoruyur, ona ülvi məna verir. Bu baxımdan, ruhsuz dünya – eybəcərliyin tam təsdiqi olardı.

Ruhun həyat üzərində ağalığına gəldikdə, biz burada ruhu ağılla eyniləşdirməyin nümunəsiylə qarşılaşırıq. Ruhda mexaniki, cansız gözəlliyə, müxtəlifliyə, həyatiliyə zidd olan keyfiyyət yoxdur.

Ruha qarşı XIX əsrin axırında başlayan və XX əsrdə öz zirvə nöqtəsinə çatan mübarizə – əslində ağılın mənfi tərəflərinə qarşı, ruhsuzluğa qarşı mübarizədir.

– Sizin söylədikləriniz qatı, ardıcıl idealizmdir – deyə Ehkamçı dilləndi. O, bərk əsəbiləşmişdi, Həqiqətçinin sözünü neçə dəfə kəsmək istəmişdi, ancaq bacarmamışdı.

O, həm də heyrətlənmişdi, qulaqlarına inana bilmirdi. İndi eşitdikləri – illərlə oxuduğu, əzbərlədiyi, beyninə həkk elədiyi kitablara, məqalələrə uyğun gəlmirdi, həm də tədris vəsaitlərində, fəlsəfə lüğətlərində lənətlənən, tənqid olunan, rədd edilən fikirlərə

bənzəyirdi. Bu səbəbdən də Ehkamçının ürəyini təlaş hissi bürümüşdü. O, bir an qulaqlarını pambıqla tıxamağa hazır idi. Ancaq qəlbinin dərinliyində deyilənlərə bir rəğbət də yaranmışdı ki, o, bu hissi qovmağa çalışırdı.

Bütün bunlar Ehkamçının əhvalına gərginlik gətirdi:

– Danışdığınızın hamısı idealizmin təkrarıdır.

Bu sözlər qeyri-təbii bir qətiyyətlə deyildi və Ehkamçının narahatlığını nisbətən azaltdı. Ona elə gəldi ki, ürəyində yaranmağa başlayan şübhəni dəf etdi.

– Əgər söhbət dünyanın dünyadan böyük mənasını dərk etməyə çalışan, Platon və Hegel kimi simalarla səciyyələnən fəlsəfi istiqamətdən gedirsə, o, insanın dünyaya əsil, insani münasibətini çox dərin və parlaq şəkildə nümayiş etdirir. Bu istiqamətdə ruhanilik özünü hərtərəfli büruzə verir, insanın başqa canlılardan fərqi bariz şəkildə aşkara çıxır. İdealizm deyir ki, sənin gördüyün, daxilində yaşadığın dünya qeyri-adi mahiyyətə malikdir, onun mənası təzahüründən alidir, ülvidir, genişdir, möhtəşəmdir. O, adi görünür, əslində isə əsrarəngizliyin təzahürüdür. O, keçici görünür, əslində isə sonsuzluğun ifadəsidir. O, natam, nöqsanlı, ölümə məhkum görünür, əslində isə kamilliyin, ölümsüzlüyün timsalıdır. Sonlu görünür, ancaq sonsuzdur. Sadə görünür, mürəkkəbdir. Bil ki, səni əhatə edən çəmən, çöl, göy, yer, gördüyün gecələr, üz, göz, ümumən bütün varlıq – daha böyük, daha ali ülviyyətin ifadəsidir. Ona görə də adini adi sayma, onun arxasında duran mənaya qovuş.

***İdealizm – dünyaya ruhani münasibətdir. Materializm – dünyaya ağıllı münasibətdir.***

Materializm üçün dünya göründüyündən artıq deyil! Ona görə də ona uyğunlaşmaq gərəkdir! Başqa dünya yoxdur, bu səbəbdən də ondan kənara çıxma! İdrak atının qantarğasını çək. O, sərhədi pozmasın! Ağac yalnız ağacdır, çay yalnız çaydır, insan yalnız insandır. Dünyanın mənası özündə olduğu üçün o, adi mənadır. Ağac meyvə gətirəndir, çay – axandır, torpaq məhsul verəndir. Dünyanın ikinci mənası və dünyada ikinci dünya yoxdur. Ona görə də dünyanı heç nəylə müqayisə etmə, onun idealını özündə axtar, tapmayanda kədərlənmə. Dünyadan istifadə etməyə çalış.

İdealizm insan idrakının məqsədini dünyanı sadəcə əks etdirməkdə görmür. O, dünyanın əsil mənasına layiq ikinci dünya yaratmağı idrakın ali məqsədi sayır. Dünyada hər şey ölümə məhkumdur, ancaq dünyanın böyük mənasında ölümsüzlük hökm sürür. Deməli, idrak ölümsüz gözəllik yaratmalıdır və yaradır. Sənət ölümə məhkum olanları ölümsüzləşdirir.

Dünyada mütləq cismani və ruhani kamillik yox dərəcəsindədir. Həyatdakı ən kamil varlıq belə nöqsanlıdır. Deməli, idrak tam, nöqsansız, mütləq kamillik yaratmalıdır və yaradır.

İdealizmdə idrak – ruhani rol oynayır, materializmdə – praqmatik, faydalı, mənfəətli.

İnsan idrakının bənzərsizliyi idealizmdə parlaq şəkildə nümayiş etdirilir.

İdealizmin nöqsanı ondadır ki, o, dünyanın ali mənasını dünyadan qabaq yaranan qüdrət sayır. Belə çıxır ki, əvvəl dünyanın ali mənası yaranıb, sonra isə onun təzahürü kimi dünya özü.

Əslində vəziyyət belə deyil; dünyanın mənası dünyanın özündə yaranıb, ancaq dünyaya sığmayıb, dünyadan kənara çıxıb.

Materializm dünyanı dünyayla məhdudlaşdırır, idealizm dünyanı dünyadan kənara çıxarır, ancaq dünyanın mənasını dünyadan ayırır, onu dünyanı yaradan qüdrət hesab edir. ***Bu, idealizmin ciddi qüsurudur.***

Əslində isə dünya özünə sığmır, özündən kənara çıxır, ancaq onun özündən kənara çıxan mənası dünyanı yaratmır. Əksinə, dünyadan doğur.

Həm materializm, həm də idealizm nöqsanlıdır. Ancaq idealizmin heyrətli, qanadlı, narahat ruhani qüdrəti yanında materializm çox sönükdür!

İdealizmdə dünya dərk olunduqca böyüyür, yüksəlir, genişlənir, ülviləşir. Materializmdə dünya dərk olunduqca – kiçilir, adiləşir, daralır. Son nəticədə, materializm – dünyanı bəsitləşdirir, idealizm isə dünyanı müqəddəsləşdirir.

Ehkamçı nəsə demək istədi, ancaq demədi. Materiyanın tərifini yada saldı, idealizmin mürtəce mahiyyəti haqqında oxuduqlarını xatırladı, amma nədənsə Həqiqətçinin əleyhinə tutarlı dəlil tapa bilmədi, ürəyində həm danışana, həm də özünə şiddətli hiddət yarandı və o, sərt bir ahənglə:

– Müqəddəslik dini cəfəngiyyatdır, – dedi. – Bəşəriyyət onunla əbədilik vidalaşdı.

– Bəşəriyyət Müqəddəsliklə vidalaşsaydı, özüylə vidalaşardı. İnsan heyvandan fərqli olaraq, dünyada, təbiətdə, insanda müqəddəs, yəni misilsiz dərəcədə yüksək, ali, qiymətli mənəvi sərvətlər görür. Torpaq insan üçün sadəcə təbiətin bir hissəsi deyil, pərəstişə, səcdəyə layiq olan bir qüdrətdir. Çünki onun ülvi mənası təbii xüsusiyyətlərindən, xassələrindən çox qiymətlidir.

Göy müqəddəsdir. Çünki o, insanın ruhani həyatında öz təbii keyfiyyətlərindən daha böyük rol oynayır.

Sevdiyin şəxs müqəddəsdir, çünki onda adi məziyyətlərdən kənara çıxan ləyaqətlər kəşf etmisən.

***Bir sözlə, müqəddəslik – dünyanın və insanın özünə sığmayan mahiyyətinin insan tərəfindən qiymətləndirilməsidir.***

Dünya, insan, yer, göy müqəddəsdir deyəndə, insan: – onlar mənim üçün sonsuz əhəmiyyətə malikdir, onlarsız mənim həyatım heçdir, onlara səcdə, pərəstiş etmək gərəkdir – deyir.

Beləliklə də, müqəddəslikdə – dünyaya sığmayan məna insana qayıdır və insan dünyaya həmin mənanın gözüylə baxır. Bu baxımdan ideallaşdırma, ilahiləşdirmə adlandırılan keyfiyyət əslində, ruhani dərketmədən başqa bir şey deyil. Mən kimisə, nəyisə ilahiləşdirirəm, deməli, kimdəsə, nədəsə göründüyündən, hiss olunduğundan daha böyük məziyyət kəşf edirəm. İnsanın heyvandan əsas fərqi elə bundan ibarətdir. İlahiləşdirməyən, ideallaşdırmayan idrak – əsil insani idrakın zəif kölgəsidir.

İnsan – dünyanı və insanı müqəddəsləşdirmədən yaşaya bilməz.

– Onda Allah ideyasına da bəraət qazandırmaq olar? – deyə Ehkamçı çılğınlıqla dilləndi.

– Özünü özündən və dünyanı dünyadan böyük görən insan Mütləqə can atır və onu Allah adlandırır. Allah mütləq qüdrətə malikdir – dünyanı və insanı yaradandır, ədalətli, möhtəşəm, ali varlıqdır. Allah vasitəsiylə insan özünün realizə edilməmiş imkanlarını təsdiq edir.

Allah arzuolunanın, istənilənin, Mütləqin təzahürüdür. Allah sonlu, keçici, natam, nisbi hadisələrin, keyfiyyətlərin, ideallların üzərində yüksələn Mütləqdir. O, kamilliyin, qeyri-adiliyin, əbədiliyin ülvi təcəssümüdür.

Allaha münasibətdə insanın qarşısıalınmaz daxili tələbi aşkara çıxır; nisbidə, natamda, keçicidə, adidə dayanmamaq, sonsuza, əbədiyə, Mütləqə qovuşmaq.

***Heyvanın Allahı yoxdur.***

İnsan həyatda tam mənəvi və cismani qüdrətə malik olmur. Ancaq onda mütləq kamilliyə sonsuz ehtiras var. Həmin realizə edilməmiş ehtiras Allah ideyasında reallaşır. İnsan həyatda ən yaxşı halda nisbi ədalət görür. Ona görə də mütləq ədalət həsrətini Allahda təcəssüm etdirir.

***Ətrafda yalnız nisbi məziyyətlər görən, ancaq onlarla kifayətlənməyən insan – arzularını Allahda həyata keçirir***. O, Allahda özünün ali mahiyyətini tapır və bu mahiyyətə pərəstiş edir. ***Bu baxımdan allahsız İnsan yoxdur və ola da bilməz!*** Çünki

Mütləqsiz yaşamaq müşküldür! Təbiidir ki, yeri-göyü yaradan, insanı törədən, kainatı idarə edən Allah yoxdur! Bunu indi uşaq da bilir.

***Ancaq Allah ideyası insanın ən ilkin, ən dərin, əbədi ruhani tələbindən doğub.*** Allahı izah etmək – əslində insanı izah etmək deməkdir. Yeri-göyü yaradan Allahdan əl çəkmək asandır. Ancaq Mütləqin rəmzi olan Allahdan insan heç vaxt əl çəkməyib. Hətta əl çəkdiyinə inananda belə. ***Çünki həmişə Mütləqə can atıb.*** Göydəki Allahı yerdə axtarıb, sərkərdələri, hökmdarları, şöhrətliləri, səlahiyyətliləri Allahlaşdırıb. Bu səbəbdən də Allah sözündən, Allah anlayışının ifrat tərəflərindən əl çəkmək olar, ***amma Allah tələbindən əl çəkmək olmaz. Mütləqə tələb qurtaran yerdə insanilik də qurtarır.***

– Onda bəlkə dini də dirildəsiniz?

– Din müqəddəsliyin təsdiqidir, ancaq əfsanəvi, nağılvari, alleqorik, məcazi təsdiqidir. Dində o dünya, bu dünya ideyası, xurafat, şeytan, cin, çoxçeşidli aldanışlar, dumanlı, xülyavari təsəvvürlər çoxdur. Bu baxımdan – din ehtizazı, Mütləqə qovuşma ehtirasını yanlış istiqamətləndirir. Ona görə din – bir forma kimi ali məzmuna təzyiq göstərir, onun təzahürünə mane olur. Bu səbəbdən də dinə qayıtmaq lazım deyil.

***Ancaq din tərəfindən təsdiq, vəsf və təbliğ edilən müqəddəslik ideyasına, Allah ideyasının ülvi mənasına, həmin mənanın yaratdığı vəcdə, heyrətə, səcdə ülviyyətinə qayıtmaq mütləq lazımdır. İnsanlar özlərini özlərindən böyük görəndə özlərinə qayıdacaqlar.***

Bunun üçün Allahı öldürmək yox, insaniləşdirmək lazımdır.

– Bu cahanşümul vəzifəni necə yerinə yetirəcəksiniz? – deyə Ehkamçı istehza və hiddətlə soruşdu.

– Bu zəruri ideal – ***Mənəvi İntibah*** fəlsəfəsinin qüdrətiylə həyata keçiriləcək. Fəlsəfə müdrikliyə sevgi deməkdir. Ən böyük müdriklik insan ilə dünyanın münasibətini izah etməkdir. Fəlsəfənin əsas məqsədi insan ilə dünyanın əlaqəsini kəşf etməkdir. “İnsan dünyada kimdir, dünya insan üçün nədir?” Fəlsəfənin birinci sualı budur. “İnsanın Mütləqə, ideala münasibəti necədir?” Fəlsəfənin ikinci sualı budur. “İnsanı ideala yaxınlaşdırmaq üçün nə etmək gərəkdir?” Bu üçüncü sualda fəlsəfənin peyğəmbərlik siqləti aşkara çıxır. “İnsanın cəmiyyətdə yeri, vəziyyəti, taleyi necədir? ***Bu, fəlsəfənin dördüncü sualıdır.*** “İnsanın öz əsilliyinə qayıtması üçün nə lazımdır?” Bu, fəlsəfənin beşinci sualıdır.

***Bir sözlə, fəlsəfə insan aqibətini şərh, təhlil və təyin edən müdriklikdir.***

Bu baxımdan fəlsəfənin zəngin imkanları çox sönük realizə olunub. Fəlsəfəni cəmiyyət haqqında elm səviyyəsinə endiriblər, bu, fəlsəfənin ölümü deməkdir. Fəlsəfəni idealizmin ruhani qüdsiyyətindən, idraki ülviyyətindən məhrum ediblər, qadirsizləşdiriblər. Fəlsəfəni – dinin alleqorik şəkildə ifadə etdiyi müqəddəs əxlaqi ideyalardan, sonsuzluq, əbədilik, mütləq kamillik, müqəddəslik ehtiyacından – təcrid ediblər, müflisləşdiriblər. Fəlsəfənin peyğəmbərlik siqlətini – İnsanın mənəviyyatında İntibah yaratmaq qüdrətini məhv ediblər.

Bir zamanlar fəlsəfə insanı ardıcıl şəkildə İdeala yaxınlaşdırırdı. İndi insan cəmiyyətin öhdəsindədir. Ona görə də özünə bənzəmir.

Fəlsəfənin bədiiyyatla, hissiyyatla, ehtizazla əlaqələrini ləğv ediblər, onu elmin kölgəsinə çeviriblər, onun misilsiz idraki-emosional təsirini yox ediblər.

Fəlsəfə – şeiriyyətli, musiqili, vəcdli, əlvan biçimli bir möcüzə idi. İndi o möcüzədən əsər-əlamət qalmayıb. Fəlsəfəni siyasətin xidmətçisinə, özü də kölə, qorxaq, məzlum xidmətçisinə çevirdilər: onun məqsədini – siyasətə bəraət qazandırmaqda, onu hər vəchlə müdafiə etməkdə, təbliğ etməkdə gördülər. Beləliklə də fəlsəfənin və idrakın əsas cəhəti: yeni dünya yaratmaq və gerçək dünyaya tənqidi münasibət bəsləmək qabiliyyəti – aradan qaldırıldı. Fəlsəfi məzmun hədsiz dərəcədə bəsitləşdi: fəlsəfə tarixi haqqında söhbət – idealizmlə materializmin mübarizəsiylə, dünya haqqında söhbət – şüurun, yaxud materiyanın birinci olmasıyla, dialektika – üç qanunun və bir neçə kateqoriyanın şərhiylə, cəmiyyət problemi – istehsal münasibətləriylə, idrak nəzəriyyəsi – inikasla məhdudlaşdı. Məzmun kasadlığı – fəlsəfəyə sırf sosioloji, tarixi, publisist, siyasi məlumatların dolmasıyla – "aradan qaldırıldı" və fəlsəfə görünməmiş dərəcədə bayağılaşdı.

***İnsanilik haqqında idrak olan fəlsəfə təbiət elmlərinin heç kəsə lazım olmayan metodologiyası səviyyəsinə endi və gərəksizləşdi.***

Bir sözlə, fəlsəfə fəlsəfəliyindən ayrıldı, özünün tam əksinə çevrildi. İndi məqsəd fəlsəfəni özünə qaytarmaqdır. ***Dövrün yeni fəlsəfəsi – fəlsəfə tarixinin yetirdiyi yüksək ideyaların ölməz mənasını özündə cəmləşdirən, onlara yüksək idraki səviyyədə qayıdan, onların əsasında ucalan fəlsəfə olacaqdır.***

Keçmiş fəlsəfələrin çoxu biri digərini inkar etməkdə inkişaf nöqtəsi arayırdılar. ***Bizim fəlsəfəmiz isə – özündən əvvəlki fəlsəfi fikirdə gözəl, ali, ülvi nə varsa, özündə təcəssüm etdirəcək, ancaq onların heç birinə bənzəməyəcək, tam yeni fəlsəfə olacaq!***

Zərdüştdən Platona, Platondan bu günə qədər olan idraki, mənəvi fikir, ideya, hissiyyat, ehtizaz fəlsəfəmizin qəlbində döyünəcək, ancaq qəlb özümüzün, bu günün, XX əsrin, mənəvi İntibahın, Şərqə üz çevirən bəşərin olacaq!

Fəlsəfə tarixi heyrətamiz idrak xəzinəsidir. Lakin onda insan demək olar ki, heç vaxt tam müstəqil varlıq kimi qiymətləndirilməyib. Zərdüştdə insanın taleyini Hürmüzd, Buddada İnsanın özündən təcrid olunması, Platonda ideyalar aləmi, İsada fədakar, özündən keçən Allah oğlu, Məhəmməddə – Allahın özü, Hegeldə mütləq ruh, Marksda – iqtisadi münasibətlər, Freyddə – şəhvani ehtiras həll edir. Yalnız Mənsur Həllacla başlayan və Nəimi-Nəsimi zirvəsiylə tamamlanan Hürufilikdə İnsan – Müstəqildir, Alidir. Allahın özüdür... Ancaq burada onun müstəqilliyi Allaha qovuşmaqla bağlıdır. Yəni insan yalnız Allaha qovuşanda, Allaha çevriləndə Allah (müstəqil) olur. ("Mən Onu sevdim və O oldum". Mənsur Həllac).

Biz öz fəlsəfəmizdə insanı tam müstəqil, ali varlıq kimi tədqiq edirik, insaniliyin özünəməxsus, heç bir qüvvədən asılı olmayan mahiyyətini təsdiq edirik. ***Bu mahiyyətin əsası – ruhdur, müqəddəslikdir, Allah ideyasıdır, sığmazlıqdır. Onlar İnsanın dünyayla, təbiətlə, cəmiyyətlə, özüylə, İdealla, Mütləqlə və Ölümlə görüşlərində aşkara çıxır.***

...HƏQİQƏTÇİ sözünü qurtardı. Ancaq EHKAMÇINI yerində görmədi. O, qeyb olmuşdu.

## 2. Dünyayla Görüş

İnsan ana bətnindən dünyaya uçuruma düşən kimi düşdü. Yadlıq, naməlumluq, məchulluq onun qəlbini qorxuyla, təlaşla doldurdu. Uzaqlığın sehri insanda həm də dərin və gözlənilməz bir heyrət oyatdı.

Dünya insana yad idi, ancaq bu yadlıqda anlaşılmaz bir cazibədarlıq vardı.

Dünyayla ilk görüşdə yadlıq insana dəhşətli göründü. O, dünyaya gəlməsini müdhiş çığırtı ilə bildirdi. Bu çığırtıda acı fəryad da var idi, sonsuz maraq da.

Uçurum qorxunc idi, ancaq həm də cazibədar, əfsunlu, möcüzəli idi. İnsan dünyada yaşadı və böyüdükcə dünyaya münasibəti də böyüdü. İnsanı yalqızlıq fəlakətindən ANA qurtardı. O, balasını bağrına basdı, əzizlədi, sevdi və insan anasını dünya saydı. Uçurumun dəhşəti yox oldu, cazibədarlığı qaldı. Ana bətnindən

qopub dünyaya düşmüş insan ana məhəbbətində öz ilkin mənəvi məskənini tapdı və bu məskəni ağlında, təxəyyülündə yenidən yaratmağa başladı.

Dünyayla ilk təmasda qəlbində yaranan maraq, heyrət duyğusu çiçəkləndi. Ana adlanan adi varlıq yerə-göyə sığmayan qüdrətə çevrildi.

Anayla görüşməklə insan dünyayla görüşdü. Ananın üzündə, təbəssümündə, nəvazişində dünya başlanırdı və qurtarırdı.

İnsan anladı ki, ana dünyası möcüzəli dünyadır. Ananın əlləri adi əl deyil, gözləri adi göz deyil, analıqda sonsuz gözəllik var. Deməli, insanın düşdüyü uçurum da adi uçurum deyil və dünya insana yad deyil, ***dünya ilə insan birdirlər.*** Ana ilə bala bir olan kimi. Dünyayla insan arasında münasibətin mənasını həssas uşaq qəlbi çox tez duydu. Ana adi qadındırmı? YOX. Deməli, dünya da adi dünya deyil. Ana övladından ayrıdırmı? YOX. Deməli, dünya da insandan ayrı deyil. Ana hamının gördüyü, bildiyi adamdırmı? YOX. Anayla balanın təmasda olduğu otaq hamının gördüyü, bildiyi otaqdırmı? YOX. O, nağıldır, sehrdir, möcüzədir. Dünyanın əsil mənasını bala anasında tapdı.

Sonralar o, böyüdü, yetkinləşdi, dünyada yalan, ədalətsizlik, eybəcərlik, qəddarlıq, məkr, riya gördü, qəmləndi, göz yaşı tökdü, ancaq dünyanın ana ülviyyətindən əl çəkmədi! İnsanlara biganə dünya – dünya deyil! – dedi. Alçaqlara meydan verən dünya – dünya deyil! – dedi. Yalanı taxta mindirən dünya – dünya deyil! – dedi. Hər görünən dünya – dünya deyil! – dedi. Hər yaşayan dünya – dünya deyil! – dedi.

Əgər insanların göz yaşı dənizin sularından çoxdursa, əgər coşqun arzular insana səadət yox, fəlakət gətirirlərsə, əgər dünyanın yaratdığı insanın ürəyi çirkabla doludursa, əgər məzlumlar cəlladlara səcdə qılırsa, əgər naşılıq müdrikliyi üstələyirsə, əgər məkr sədaqəti lağa qoyursa, deməli, dünya – dünya deyil!

Uçurumun dünya olduğunu biləndən sonra insan uçuruma bənzər dünyanı dünya saymadı! Çünki o, dünyanın əsil mənasına qovuşdu. Analıq şəfqəti İnsanı dünyayla aşina etmişdi.

***İnsan anladı ki, onu əhatə edən dünya əsil dünyanın özü deyil!***

Burada əsil dünyanın yalnız ayrı-ayrı nişanələri var. Ülvi məhəbbət adlanan nişanəsi! Qəhrəmanlıq, fədakarlıq adlanan nişanəsi! Gözəllik adlanan nişanəsi! İdrak eşqi adlanan nişanəsi!

İnsanın gerçəklikdə yeni yadlığı başladı. O, başqasıyla tam mənəvi vəhdətə can atdı, ancaq bacarmadı, mütləq mənəvi vəhdət

yaranmadı, yadlıq aradan qalxmadı. İnsan həqiqət yolu tutdu, ancaq həqiqətpərəstlik sevilmədi, yalan həqiqəti əvəz etdi. İnsan sədaqət istədi – ona xəyanət bəxş etdilər, məhəbbət istədi – nifrət verdilər, səmimiyyət istədi – məkrlə öyündülər. Vəhşilik, yırtıcılıq, şəhvanilik, zalımlıq yerə-göyə sığmadı! Ürəklə ürək arasında uçurum yarandı! Dünyadan qorxdular, küsdülər, qaçdılar!

"Bu, dünya deyil!" – deyə İnsan dilləndi! Dünyanı özündə axtar!

Dünya murdardır, sən murdar olma! Dünya naşıdır, sən naşı olma! Dünya çirkindir, sən çirkin olma! Özünü xalisləşdir, ülviləşdir, dünyalaşdır! Naqis dünyanı qanınla təmizlə! Öl – dünyanı diriltmək üçün! Qoy səni çarmıxa çəksinlər, qoy dərini boğazından çıxartsınlar, bədənini tonqallarda yandırsınlar! Bununla sən əsil dünyanı təsdiq edəcəksən! Torpağı, yeri, göyü, çəməni, çayı şeirinlə bəzə, ilahiləşdir, musiqinlə əsil dünyanın səsini eşit.

***İnsan ətrafındakı dünyanın dünya olduğuna inanmadı, gerçəkliyə sığmadı.*** Həyatda yalnız o, bircə dəfə dünyaya sığmışdı: Anasının qucağında. Ancaq onda dünya adi dünya deyildi, ondan hədsiz dərəcədə böyük, ali, əsrarəngiz idi!

***Bir sözlə, İnsan dünyaya öz dünyasını özüylə, ruhunda gətirmişdi.***

İnsan dünyaya atılmışdı. Gerçəklikdə o, heç vaxt yadlıqdan ayrıla bilməmişdi. Ancaq yadlıq onu məhv etməmişdi. Çünki öz dünyası vardı. Gerçəkliklə insan döyüşmüşdü, onun üzərində qələbə çalmışdı, ancaq dünya yadlığından tam ayrıla bilməmişdi.

İnsan bilmişdi ki, bahar onun üçün açılmır, payız onun üçün ağlamır, qış onun üçün torpağı qara qərq etmir, yay onun üçün kainatı isitmir, səma onun üçün qaranlığa bürünmür! Ancaq o, gecədə də, səhərdə də, qışda da, baharda da öz dünyasını görürdü, qəlbi təbiətlə danışırdı. O, gerçək dünyada əsil dünyanın nişanələrinə qovuşurdu. Beləliklə də dünyada iki dünya yaranırdı: İnsana yad və İnsana doğma olan dünya! Səhərin açılması təbiətin insandan asılı olmayan qanunları əsasında baş verirdi. Ancaq insan onda öz daxili tələbinə uyğun olan keyfiyyətlər görürdü: yəni təbii hadisə insan üçün doğma olurdu. Səhər insana yad bir səbəbdən açılırdı, ancaq onun açılması insana son dərəcə zəruri görünürdü. Bahar insana sevinc bəxş etmək üçün açılmırdı. Ancaq sevinc bəxş edirdi.

Beləliklə də insan dərk etdi ki, dünya öz böyük, ali mənasına görə İnsana doğmadır, dünya ilə İnsan arasında qırılmaz vəhdət var. Dünya dağı, çayı – insanı sevindirmək, ilhamlandırmaq, vəcdə gətirmək üçün yaratmamışdır! Ancaq dağsız, çaysız insan həyatı

sönük olardı. Dünyayla insanın yaxınlığı insanın yalqızlığını, yadlığını azaldırdı. Ancaq insan dünyaya adi baxımdan yanaşanda yalqızlıq dəhşəti yenidən oyanırdı.

Dağdan, çaydan maddi faydalananda insan təbiət ilə ülvi vəhdətini itirirdi.

Adamların biri-biri ilə əlaqəsində də bu cəhət özünü göstərirdi, sərkərdənin əsgərə, fatehin fəth etdiyi ölkəyə, səlahiyyətlinin rəiyyətə münasibətində yadlıq təsdiq olunurdu. Beləliklə də insan onu əhatə edən dünyada daim yalqızlığa qayıdırdı. Ancaq heç vaxt gerçəkliklə məhdudlaşmır, bu səbəbdən də yadlıq tam qələbə çalmırdı. Bir çox hallarda İnsan süni vəhdətin şahidi olurdu. Camaat qəddar, zalım, qan hərislərini özünə yaxın hesab edib, onların qüdrətiylə öyünürdü. İnsan bu "doğmalığın" ən eybəcər yadlıq olduğunu bilirdi, o dərk etmişdi ki, dünya üzərində hakimiyyət əslində dünyadan uzaq olmaq deməkdir.

Bir zamanlar dünyada saysız-hesabsız heyvanlar var idi. İnsan ağlının gücüylə onlara qalib gəldi, öldürdüyünü öldürdü, saxladığını saxladı, kainatın ağası oldu və bununla da öz yalqızlığını sonsuz dərəcədə artırdı. İndi yer-göy insanın ixtiyarındadır, ancaq dünya insandan uzaqdır. İnsanın dünya üzərində qələbələri ona möhtəşəmlik gətirdi, doğmalıq gətirmədi. İnsanın yalqızlığı, yadlığı daim artdı.

Ancaq insan sarsılmadı. O, doğmalığı, həmahəngliyi, birliyi gerçəklikdə yox, öz dünyasında aradı və tapdı. O, ətrafdakı dünyaya sığmadı. İnsan özünü öyrəndi, özünü bəyənmədi, özüylə tam doğmalaşmadı, özündən aralandı...

O gördü ki, daxilində ülviyyətlə yanaşı, qəbahət də yaşayır. Hissiyyat aləmi vəhşi, yırtıcı instinktlərlə doludur.

Daxili dünyaya endikcə insan özünü lənətlədi, döydü, ancaq özünə və dünyaya inamını itirmədi. "Sən əsil İnsan deyilsən, ona görə naqissən!" – dedi. Əsil olmaq üçün özünü təzədən yaratmalısan! Özünü öldürməlisən və təzədən diriltməlisən! Əsil dünyanın tələbləri əsasında yaşamalısan.

İnsan gördü ki, dünyada sonsuz bəlalar, qocalıq dəhşəti, ölüm sonluğu var. İnsan gördü ki, bu gün eybəcər qocadır, sabah isə məzara gömülən cəsəd! Arzular, niyyətlər əlçatmazlıq zirvəsində ülvi görünürlər, həyata keçdikdə kiçilir, adiləşir, bayağılaşırlar, insan çox axtarıb az tapır, yaşadıqca ölümə yaxınlaşır, həyat bağçasında zəhərli güllər də bitir, səadətin ömrü qısa, fəlakətinki uzun olur. Dünyadakılar çalışır, çabalayır, nəsə yaradır, sonra yaratdığını öz

əliylə uçurub yox edir, sonra təzəsini yaradır, ancaq onu da dağıdır, daim təzədən başlayırlar.

İnsan bunları gördü, kədərləndi, ağladı, ancaq iradəsini topladı, göz yaşını sildi və gerçək dünyaya üz tutub dedi: “Bil və agah ol ki, sən – bu möhtəşəm, böyük, intəhasız dünya – mən İNSAN üçün məhdud, kiçik, natam və naqissən. Mən buraya özüm gəlmədim. Məni buraya gətirdilər və dedilər: yaşa! Ancaq bu mənim, İnsanın dünyası deyil! Mənim dünyam özümdə, ruhumda, təxəyyülümdə, arzularımdadır. Mənim dünyam səndən sonsuz dərəcədə gözəldir, kamildir, ülvidir, mənalıdır. Sən olsa-olsa onun çox zəif və sönük bir təzahürüsən! Əsil dünya – olacaq, olmalı, əlçatmaz, mütləq dünyadır. İnsanın məkanı odur.

Əsil dünya, mənim dünyam – əbədi sabahdır, heç vaxt bu gün olmayan, bugünə tam çevrilməyən, bugünlə məhdudlaşmayan, bugünə sığmayan, sonsuz, hədsiz, mütləq SABAH!”

İnsan bugünlə heç vaxt kifayətlənməyib! İnsanı bugündə saxlayan, bugündə dayandıran, bugünlə barışdıran güc yoxdur. İnsanın dünyası sonu görünməyən uzaqlıqdır.

***İnsan yaxınlıqda mövcud olur, uzaqlıqda yaşayır.*** O, ana bətnindən dünyaya öz dünyasını axtarmaq üçün gəlib. O, ana bətninə sığmadı, dünyadan kənara çıxdı, heç yerdə dayanmadı, məchulluğa, kamilliyə, əsilliyə doğru daim addımlayır.

İnsan sözünü qurtardı və yola düzəldi.

Göy yerə səpilən yağışıyla İnsana uğurlar dilədi.

## 3. Təbiətə Etiraf

– Sən məni başqa canlılar kimi yaratmışdın. Ancaq mən sənin istəyinə sığmadım, görünməmiş, bilinməmiş, nəzərdə tutulmamış bir varlıq kimi həyata gəldim. Öz gəlişimlə səni təəccübləndirdim. Anam təbiətin ahəngini pozdum. Sağ qalmaq, yaşamaq, yaşatmaq üçün mən bütün canlıların, təbiətin üzərində hakim olmalıydım, yeri-göyü, heyvanatı, bitki dünyasını özümə tabe etməliydim, ya da məhv olmalıydım!

Başqa canlıların heç birinin aqibətində belə kəskin təzad olmamışdı. Şir maralı parçalayırdı. Ancaq bütün heyvanları qırıb-tökmürdü. Qurd quzuyla yemlənirdi. Ancaq canlıların hamısını özünə tabe etməyə cəhd göstərmirdi. Böyük balıqlar kiçik balıqları udurdular. Ancaq bütün su heyvanlarını öldürmürdülər. Dünyada insandan başqa heç bir canlı bütöv təbiətə hakim olmağa səy

etmirdi. İnsan səy edirdi, çünki başqa cür sağ qala bilməzdi. O, şirləri, pələngləri, canavarları məhv etməliydi, çaylara, meşələrə, torpağa sahib olmalıydı!

Elə bil sən – təbiət mən – insanı özünün üzərində hakim olmaq üçün dünyaya gətirdin. Təbiətin elə bir guşəsi olmadı ki, mən ora müdaxilə etməyim, elə bir canlısı olmadı ki, onu özümə ram etməyim. Yer üzərində nə var idisə, mənim hökmümə tabe oldu. DÜNYANIN AĞASI OLDUM.

Təbiətin çaylarında, dənizlərində çimdim, meşələrindən, çəmənlərindən bəhrələndim, təbiəti öz xidmətçimə çevirdim. Bunun üçün sən mənə imkan yaratmışdın – ağıl bəxş etmişdin.

Ağıl vasitəsiylə əmək alətləri hazırladım, özümü qorudum, təbiəti zəbt etdim. ANCAQ HAKİM ÖLÇÜSÜNƏ SIĞMADIM.

Təbiət üzərində ağalığın ən müdhiş məqamında belə, təbiətə vuruldum, təbiəti döydüm, həm də vəsf etdim, ilahiləşdirdim. Canavarı öldürdüm, həm də özümə rəmzi rəhbər seçdim! Şiri tələyə saldım, ancaq övladlarımın adını Şir qoydum. Atı özümə ram etdim, həm də dost etdim. Dağa, çaya, çölə-çəmənə, günəşə mahnılar qoşdum. Təbiətlə itirilmiş vəhdət həsrətini qəmimdə, nisgilimdə tapdım. Sevdiyim qadını Gül deyə çağırdım.

Təəssüf ki, təbiət məni başqa canlılar kimi vəhşi yaratmışdır. Üstəlik, vəhşilikdən qurtarmaq üçün imkan heç cür yox idi. Mən ətrafdakıları vəhşicəsinə qırmalıydım. Təbii vəziyyətim bunu məndən tələb edirdi. Mən tüfəng icad etməliydim, çünki qollarım çox güclü deyildi, fiziki qüdrətim məhdud idi; mənə pələng pəncəsi, canavar dişi verilməmişdi. Mən vəhşiləri məhv etməsəm, onlar məni məhv edəcəkdilər! Mən çox qan axıtdım, təbiətə çox yaralar vurdum, təbiətdən çox aralandım.

***Ancaq bu yadlıq ürəyimdə kədərlə səsləndi.*** İlk qəmli nəğmələrim təbiət həsrətinin ifadəsiydi! Mən öz hakimiyyətimlə nəinki qürrələnmədim, əksinə, fatehliyim mənə qüssə gətirdi və mən təzədən təbiətin əsil ülvi mənasına qayıtdım. ***Bunu məndən ruh tələb etdi. Ən vəhşi məqamda belə İnsanı tərk etməyən ali qüdrət!***

İndi mən təbiətdə özümün əsil mahiyyətimə qovuşdum! Anladım ki, təbiət ona hakim olmaq üçün yaranmayıb, onun qeyri-adi mənası var və bu məna insaniliyə çox doğmadır. Dərk etdim ki, döyülən, əzilən, tapdanan, insanın sərəncamına verilən təbiət öz əzəli gözəlliyindən, şeiriyyətindən uzaqlaşır. Duydum ki, bu ucu-bucağı görünməyən dağların başına dolanan yollar, yamaclar, dəniz əzəməti, gecə qüssəsi, qürub sükutu, ulduz ülviyyəti – insanın ali

mənasını ifadə edir! Sən bu geniş səmanın, gülün, çiçəyin, baharın, səhərin, ceyranlı, pələngli dünyanın bir hissəsisən! Bu ruhani hikmətə yüksəldim və mənimlə Təbiət arasında yadlıq aradan götürüldü. Ancaq ruhani həyat ilə adi həyat arasındakı təzad aradan götürülmədi. Adi həyatda mən yenə də təbiəti döydüm, ruhani həyatda isə ona mahnılar qoşdum. Beləliklə də mən – ikiləşdim... Adi adam kimi təbiət üzərində hökmümü artırdım, ruhani İNSAN kimi təbiətlə özüm arasında həmahənglik gördüm, təbiəti insaniləşdirdim, insanı təbiətləşdirdim. Öz əsil üstünlüyümü də təbiətlə ruhani qovuşma məqamında hiss etdim.

Ağalıq məqamında üstünlük bilinmir, çünki insanilik yox olur. Təbiətlə qovuşanda mənim təbiətlə yarışım başlayırdı. Sənə qarşı münasibətimdə mürəkkəblik meydana gəlirdi. Sənə xas olan müdriklik, ahəngdarlıq, rəvanlıq məni valeh edirdi. Ancaq sənin bütün canlılarına xas olan çılpaq, yırtıcı zorakılığı ruhum qəbul etmirdi. Ona görə də ruh səni təqlid etmir, səni tamamlayır, sənin üzərində yüksəlirdi.

Səslərindən musiqi, rənglərindən rəsm əsərləri, daşlarından heykəllər yaratdım. Özümü də diqqətlə öyrəndim. Gördüm ki, təbiiliyimdə iki cəhət var: vəhşilik və ülvilik. Vəhşiliyimlə – yırtıcılığımla, şəhvaniliyimlə, hərisliyimlə, qəddarlığımla, xudpəsəndliyimlə döyüşdüm. Həm təbiiliyimə yaxınlaşdım, həm də ondan uzaqlaşdım! Sənin gözəlliyinlə öz gözəlliyim arasında uyğunluğu da gördüm, fərqi də. Mənim üzümdə təbii gözəllik var. Ancaq o, ruhani gözəlliyin ifadəsi kimi daha gözəldir! Mənim üzümdə sənin bəxş etdiyindən daha çox ruhun bəxş etdiyi var! Ruhu mənə sən verdin.

Ancaq o, səndən ayrılandan sonra daim artdı, böyüdü və məni böyütdü. Və mən dünyanı öz yaratdığım gözəlliklərlə bəzədim. Sənin gözəlliyini də kəşf edən mən oldum. Sənin ən amansız düşmənin də mən oldum, ən alovlu pərəstişkarın da! Nə tam düşmənin ola bildim, nə də tam dostun! Bir əlimlə düşmənlik elədim, bir əlimlə dostluq! Bəlkə də həyatda mənim ən böyük faciəm elə budur! Yaşamaq üçün, məhv olmamaq üçün mən şəhərlər salmalıyam, evlər tikməliyəm, taxıl becərməliyəm, buna görə də sənə zülm etməliyəm. Ancaq səni həm də özüm qədər sevirəm, səninlə yarışıram, səni ötürəm, səni əvəz edəcək maşın icad etmək iddiasındayam. Ancaq ruh mənə deyir ki, sən təbiətin hissəsisən! Bunu bilirəm. ***Fəqət səndə qala bilmirəm. Sənə sığmıram.*** Böyüklüyünlə, aliliyinlə, şeiriyyətinlə, kamilliyinlə, möhtəşəmliyinlə, müdrikliyinlə – mənim üçün azsan! Səndə dayana bilmirəm! Bağışla məni, ANAM

## 4. Cəmiyyətlə Görüş

İnsan başqaları ilə birgə yaşamağa can atdı: o, kiminsə əlindən tutmalıydı, kiməsə həmdəm olmalıydı, həm də öz gücünü artırmalıydı. İnsan belə hesab edirdi ki, cəmiyyətdə onun ruhani qüdrəti daha parlaq şəkildə meydana çıxacaq. Bir sözlə, insan cəmə qovuşdu, cəmin içindən özünə başçı seçdi, onu fərqləndirdi, yüksəltdi.Ona inandı.

Hamılıqla təbiət üzərində qələbə çaldılar, dünyaya sahib oldular. Ancaq insan özünü cəmiyyətdə tapmadı, itirdi və indi də itirmiş sayır. Fərqləndirdiyi, özündən ayırdığı, ucaltdığı başçı özünü insana qarşı qoydu, özü ilə insan arasında uçurum yaratdı və İnsanı həmin uçuruma atdı. Öz möhtəşəmliyini təsdiq edən başçı insaniliyi unutdu və insanı öz xidmətçisinə çevirdi. İnsan öz fəaliyyətinin kölgəsinə döndü, əkinçi oldu, ovçu oldu, ancaq insan olmadı, cəmiyyətdə insan kimi görünmədi.

Başçı insanın insani mahiyyətini mənimsədi. Sonralar dövlət yarandı, başçını hökmdar əvəz etdi, insan hakiminin köləsinə döndü, minlər bir nəfərin sərəncamına verildi. Cəmiyyət ilə insan arasında barışmaz ziddiyyət törədi. Hökmdarlar əzəmətli imperiyalar yaratdılar və minlərlə insanı bu niyyətə qurban verdilər. Onları insan saymadılar, əsgər saydılar.

Cəmiyyətdə insan olmaq və əsgər olmaq başqa-başqa şeylər idi. Hökmdarın ölümü cəmiyyət üçün misilsiz faciə idi. Ancaq minlərlə adilərin ölümü ölüm deyildi! İnsan sözünün mənası dəyişilmişdi. Bu söz böyüklüyünü itirmişdi. Onun yerini başqa anlayışlar tutmuşdu: hakim, zadəgan, rəiyyət!

Artıq insana “insan” deyə müraciət etmirdilər. Çünki əsil bütöv İnsan cəmiyyətdən xaric edilmişdi. Cəmiyyətdə isə insan yox idi. Hökmdar da insan deyildi, qorxunc, yad, heybətli qüvvə idi! Zadəganda insanı axtarmırdılar, var-dövlət axtarırdılar. Rəiyyət heç cür insan deyildi. Cəmiyyət onu insan hesab etmirdi. Ona qarşı qəddar və amansız idi. Rəiyyətin aqibətində insanilik itmişdi. Beləliklə də cəmiyyəti yaradan insan cəmiyyətdə məhv olmuşdu. Onun daxili aləmindən cəmiyyətin xəbəri yox idi. Çünki o, cəmiyyətə gərəkli deyildi. Cəmiyyətə insan yox, alət lazımdı. Cəmiyyətə insanın arzuları, niyyətləri gərəksiz idi. Çünki cəmiyyətdə insan özü istədiyi kimi yaşamırdı, istənilən kimi yaşayırdı. Cəmiyyət öz arzularını həyata keçirməklə məşğul idi və insan səadətini nəzərə almırdı. Qeyri-adi qüdrət, möhtəşəm dövlət yaradırdı və insanı görünməmiş

müsibətlərə düçar edirdi. Ancaq bu, müsibət sayılmırdı, qabiliyyət sayılırdı. Neçə-neçə sinələrə dağ çəkilirdi, şəhərlər, ölkələr yerlə-yeksan edilirdi, insan kəllələrindən binalar ucaldılırdı, ancaq səlahiyyətli cəlladlar lənət əvəzinə, pərəstiş qazanırdılar.

Təbiidir ki, belə cəmiyyət insanı özünə pərçimləyə bilirdi. Ən dəhşətlisi o idi ki, İnsan öz taleyini özündə yox, cəmiyyətdə aramağa başladı. Bu, qətlə məhkum olunanın öz səadətini qatildə axtarmağına bərabər idi. İnsan artıq bilirdi ki, hökmdar öz fəaliyyətində, niyyətində onun mənafeyini heç vaxt nəzərə almayacaq, ona görə də nəinki dünyanın taleyi, hətta özünün – insanın taleyi də öz əlində deyil! Bu onun qəlbini təlaş hissiylə doldururdu! İnsan bir şəxsiyyət kimi parçalanır, paralanırdı.

Cəmiyyət İNSANI siniflərə, silklərə bölmüşdü. Bu, insanlar arasında doğmalığı öldürmüşdü. İnsanlar bir-birinə qohum olduqlarını unutmuşdular. Varlı – yoxsulu, səlahiyyətli – əməkçini, hökmdar – rəiyyəti insan saymırdı. Ülvi duyğular tükənirdi. Kin, nifrət, hiddət ürəklərə sığmırdı, oda çevrilib ətrafı yandırırdı; köhnə cəmiyyəti dağıdıb yenisini qurdular, ümid seli dünyanı tutdu, ancaq tezliklə köhnə fəlakətlər təkrar olundu, insan yenidən cəmiyyətin köləsinə, kölgəsinə çevrildi. Şəhərlər salındı, mədəniyyət çiçəkləndi, ancaq insanilik artmadı – azaldı. İnsan insan axtardı. Cəmiyyət ona rəis–icraçı, varlı–yoxsul təqdim etdi... Qəribə vəziyyət yarandı. İnsan yalqızlığından, yadlığından xilas olmaq üçün cəmiyyətə qovuşdu, əvəzində isə misilsiz yalqızlıq, yadlıq əldə etdi. İnsan cəmiyyəti öz insaniliyini təsdiq etmək üçün yaratmışdı, ancaq cəmiyyətdə o öz insaniliyini itirdi. İnsan cəmiyyətdə heç vaxt özü olmadı, həqiqəti söyləyə bilmədi, daxili dünyasını qıfıllamalı oldu. Cəmiyyətdə insanın yalnız cəmiyyət tərəfindən qəbul olunan, təqdir edilən fəaliyyəti gərək idi. Cəmiyyət insana cansız əşyaya baxan kimi baxırdı. İstəyəndə başa çəkirdi, istəməyəndə aşağıda saxlayırdı; istəyəndə sığallayırdı, istəməyəndə başını kəsirdi.

O, İnsan ömrünün istiqamətini əvvəldən müəyyən etmişdi... Həmin istiqamətdə bütün insani keyfiyyətlər tədricən yoxa çıxırdı. İnsan tamamilə kölələşmişdi. Ona deyirdilər “qalx” – qalxırdı, “otur” – otururdu!

Cəmiyyət insanı daim eyni dairədə saxlayırdı. İnsanın öz daxili dünyasına enməyə imkanı olmurdu. İnsana bəzən elə gəlirdi ki, o, daxili dünyasını haradasa itirib.

Dəhşətli ruhsuzluq bəlası peyda olmuşdu. İnsanın özünəməxsusluğu, fərdiyyəti heç kəsə və heç nəyə lazım olmurdu. Onu heç görmürdülər də!

Orduda insan əsgər, yaxud zabit idi; idarədə rəis, yaxud icraçı idi.

Daxili böyüklük, əsillik, ləyaqət nəzərə alınmırdı... İnsan cəmiyyət adlanan dəyirmanı fırladan sulardan fərqli deyildi! Ona görə də cəmiyyətə daxil olmaq özünü tərk etmək demək idi. Özünü tərk edən məqamda insan məcmuu – sürüyə çevrilirdi. Sənin özünəməxsusluğun itirdi, sən çox asanlıqla hamılaşırdın və bu eybəcər məqamda şiddətli bir kəskinliklə hiss edirdin ki, sənin mənliyini əlindən alıb səlahiyyətlilərə veriblər. Səlahiyyətlinin hər adi xüsusiyyəti misilsiz sərvət sayılır, onun paltarının rəngindən başlamış, bayağı vərdişlərinə qədər nə varsa – səmaviləşir. Sən anlayırsan ki, səlahiyyətli əslində oğrudur. O, sənin mənliyini oğurlayıb. Bu, həm də sənin ona könüllü bəxşişindir. Sən özündən kəsib ona calamısan. Ancaq indi o, sənin kimi minləri yer üzündən silə bilər.

Onun zalım, əxlaqsız, kinli, qəddar, mənəviyyatsız olmağa haqqı var. O, insaniliyi hər addımda tapdalayır, ancaq bunu hamı onun alçaqlığı yox, üstünlüyü sayır.

İki bir-birinə zidd baxış yarandı: dövlət baxışı və insan baxışı. Dövlət baxışına görə, insani ləyaqəti qurban vermək – qəbahət sayılmır. Çünki dövlətin mənafeyi İnsanın mənafeyindən yüksəkdir. Dövlət mənafeyi xatirinə hər cür vasitəyə, hətta ən alçaq cinayətə belə əl atmaq məqbuldur. Məlum olur ki, dövlət insan üçün, onun səadəti, ləyaqəti, mənəvi təsdiqi üçün deyilmiş.

Deməli, mən – İnsan dövlət yaratmaqla özümü dəhşətli quyuya salmışam. Deməli, mən – İnsan möhtəşəm səltənətdə qul vəziyyətində yaşasam da, hər addımda mənliyim təhqir olunsa da, sevincimdən, iftixarımdan yerə-göyə sığmamalıyam, çünki qüdərtli ölkənin vətəndaşıyam... Faciəvi bir vəziyyət yarandı. İnsan – insan kimi yaşamaq üçün tər tökdü, qan axıtdı, əzəmətli dövlət yaratdı və dövlət onu heç etdi. Bunu anlayan İnsan hiddətləndi: dövlətə qarşı vuruşdu, dövləti yıxdı, yeni dövlət yaratdı, ancaq həmin dövlət də İnsanı heç saydı.

İnsan cəmiyyəti insaniləşdirməyin yeni yollarını aradı, monarxiyanı (hökmdarın hakimiyyətini) demokratiyayla (xalqın hakimiyyətiylə) əvəz etdi. Ancaq xalqın hakimiyyəti bərqərar olmadı və demokratiya monarxiya şəklinə düşdü; hakimiyyətə sahib olmuş demokrat monarxlaşdı, İnsan üzərində ağalıq etməyə başladı. Dövlət baxışı ilə İnsan baxışı arasındakı ziddiyyət daim artdı.

İnsani baxışa əsasən – yalan danışmaq günahdır. Dövlət baxışına əsasən – ali məqsəd naminə yalan danışmaq müdriklikdir. İnsani baxışa əsasən – bir şəxsin məhvi belə faciədir. Dövlət

baxışına əsasən – böyük bir ordunun – tarixi nailiyyət naminə – məhvi faciə deyil, zəruri hadisədir. İnsani məntiqə əsasən – məhəbbəti zorla qazanmaq olmaz, dövlət baxımına görə – zorla sevdirmək mümkündür. İnsani baxışa görə – insanın sözü ilə işi arasında təzad olmamalıdır, dövlət baxışına görə – bu, zəruridir. İnsani baxışa görə – vicdana xəyanət etmək olmaz, dövlət baxışında vicdana yer yoxdur. İnsani baxışa görə – bir şəxs bəşərin gözü qabağında və bəşərin hesabına özünü dəbdəbəli şəkildə təsdiq eləyə bilməz, dövlət baxışında – bu mümkündür, qılınc sahibləri ad-san qazanmaq üçün milyonları qurban verirdilər...

İnsan dövlətə baxırdı, bu yad qüvvənin öz məhsulu olduğuna inanmırdı, hiddətlənirdi, qeyzlənirdi, ancaq cəmiyyətə tabe olurdu. Çünki cəmiyyət İnsanın üzərinə topla-tüfənglə gəlirdi. Silahı insan vəhşi heyvanlarla vuruşmaq üçün icad etmişdi. Sonralar onu insanlara qarşı çevirdilər. Silahlar ordulara tapşırıldı, ordular fatehlərə tabe oldu, fatehlər bəşərin bir hissəsini qırıb tökdülər. Dövlət insandan ayrılandan sonra ordu İnsana qarşı çevrildi. O, İnsana dedi: “Sən istədiyin, bacardığın, öz mahiyyətinə uyğun hesab etdiyin kimi yaşamayacaqsan, dövlət deyən kimi yaşayacaqsan”. Beləliklə də həyat iki hissəyə bölündü: CƏMİYYƏT və İNSAN. Cəmiyyətdə İnsan rol oynadı, yaşamadı, öz əsil dünyasını dostluqda, məhəbbətdə, sənətdə, idrakda və xüsusilə Peyğəmbərlərin kəlamlarında tapdı.

Peyğəmbərlər dedilər ki, dünyanın, həyatın, dövlətin mənası İnsandır. İnsanilikdən ali möhtəşəmlik yoxdur. Əgər dövlət İnsanın əleyhinədirsə, İnsaniliyi itirirsə – o, məhv olmalıdır. Min dövlət bir insan səadətinə bərabər deyil – yüz ordunun qələbəsi bir insanın fəlakətini əvəz edə bilmir. Teymurləng bəzən bir döyüşdə minlərlə insanı divara basdırırdı, Nəimi isə insanı Allah sayırdı. Peyğəmbərlər hökmdarları inkar edirdilər. Hökmdarlar insanı alçaldırdılar və bununla da özlərini təsdiq edirdilər. Peyğəmbərlər insanı yüksəldir və bununla da insanlara məhəbbətlərini bəyan edirdilər. Napoleonlar milyonların fəlakətini yaradırdılar və bununla da özlərinin insanlardan fərqini təsdiq edirdilər. İsalar insanlardan ötrü ölümə gedirdilər və bununla da İnsanı ali sərvət kimi qiymətləndirirdilər. Ancaq cəmiyyət İsanı çarmıxa çəkirdi, Napoleona isə heykəl qoyurdu. Çünki Napoleon imperiya və yeni Avropa yaradırdı, İsa isə əsil İnsan.

İnsan peyğəmbərləri eşitdi, ancaq hökmdarlara yenə də tabe oldu. Hökmdarlar peyğəmbərlərlə döyüşdülər, ancaq döyüşdə məğlub oldular, peyğəmbərləri özlərinə uyğunlaşdırdılar, onların təlimini öyrəndilər və özlərini həmin təlimlərin ardıcılları kimi qələmə

verdilər. Qəddarlığın, zorakılığın məhəbbətlə, mərhəmətlə bir olduğunu sübuta çalışdılar, insanları öz gücünə tabe etdilər. Cəmiyyətə cəmiyyətin gözüylə baxan İnsan təxəyyülündə hökmdarı böyütdü, fədakar, qəhrəman saydı. Ona elə gəldi ki, hökmdarlar İnsana xidmət edirlər.

Beləliklə də İnsan sonsuz yanlışlıqlar içərisində itib-batdı, cəmiyyətə pərçimləndi, cəmiyyət adamına döndü. Ancaq daxilində yaşayan ruh onu özü haqqında gərgin düşünməyə vadar etdi.

Necə olur ki, sən özünlə, dostunla, sevgilinlə olanda bir adam olursan, cəmiyyətdə isə başqa adam? Niyə sən öz kiçik aləmində düşünən, daşınan, canlı, fəal şəxs, cəmiyyətdə isə məzlum, cansız əşya olursan?! Niyə sən burada həqiqətə, orada isə yalana pənah gətirirsən? Niyə sən öz ruhani aləmində şairanə xilqət, cəmiyyətdə isə itaətkar alət olursan? Dünyanın, təbiətin hissəsi olduğunu niyə unutmusan, öz yaşayışını niyə cəmiyyətlə məhdudlaşdırırsan?

Ruh insanı öz daxilinə qaytardı və insan həqiqəti tapdı. Onun qəlbində həyəcanlı kəlmələr səsləndi:

– Mənim özüm qeyri-kamil, natamam, nöqsanlı olduğum üçün yaratdığım cəmiyyət də naqis oldu. Mən özümü yaxşı tanımamışam. Mən elə bilmişəm ki, ali mahiyyətim – insaniliyim döyüşsüz, davasız, ziddiyyətsiz aşkara çıxacaq! Bu mənim səhvim imiş! Mən özümü dəyişdirməli, təmizləməli, ülviləşdirməliyəm. Kamil cəmiyyət qurmaq üçün mən özüm kamil İnsan olmalıydım, qəlbimdən çirkin duyğuları silib atmalıydım. Onda mən ali cəmiyyət qura bilərdim. Mən isə olanla kifayətləndim, özümü Mütləqə yaxınlaşdırmadım və mənim qüsurlarım cəmiyyətimdə aşkara çıxdı. Cəmiyyət adlanan güzgü mənim eybəcərliyimi gözəl göstərdi. Mən özümü yenidən yaratmalıyam, onda insaniliyim tam aşkara çıxacaq, ruhum instinktlərimin üzərində tam qələbə çalacaq; yalnız onda mən öz əsil cəmiyyətimi yaradacam. İndiki cəmiyyətlərin heç biri mənim cəmiyyətim ola bilməzdi. Əsil cəmiyyətimi mən indən sonra yaradacağam. Öz üzərimdə çaldığım qələbələrdə kamil cəmiyyətimin nişanələri görünəcək. Mən bu ali həqiqəti hədsiz qurbanlar, iztirablar, faciələr bahasına qazandım!

## 5. Özüylə Görüş

### Hissiyyat

İnsan öz daxili aləminə endi və ***ŞƏR*** ehtiraslarla qarşılaşdı. Onun rastlaşdığı ilk duyğu – ***yırtıcılıq*** idi. İnsan, içərisində yaşayan bu dəhşətli hissin zəhmindən sarsıldı. Ancaq iradəsinin qüdrətiylə özünü ələ aldı və ***yırtıcının*** yerə-göyə meydan oxuyan sözlərini dinlədi:

– Mənim nəşəm, səadətim – parçalamaq, yıxmaq, məhv etmək, yerlə yeksan etməkdir. Ətrafımda nə varsa, pəncəmin əzəmətini bilməlidir. Mən dünyaya dünyanı dağıtmaq üçün gəlmişəm. Mənim xoşbəxtliyim – yıxılanın, heçliyə yuvarlananın, parçalananın fəlakətindən törəyir. Mən bu fəlakətlə yaşayıram, onunla nəfəs alıram. Zəifi, zərifi, məzlumu ayaqlar altında tapdamaq sonsuz sevincdir. Yeri-göyü lərzəyə salan, adamların başı üzərində şimşək tək çaxan, amansız gücün təsdiqi – gözəldir! Sonsuz cazibədarlıq var – parçalamaq həvəsinin sel kimi daşmasında! Bunun heybətli şeiriyyətini sözlə ifadə etmək çətindir. O, insanı bihuş edir. Nifrət mənim ürəyimdir. Kin-küdurət anında o, canavar əzəmətinə malik olur. Qurdun quzunu parçalamasında cazibədarlıq heyrətlidir! Qurd quzunu məhv etməsə, özü olmaz! Canavar qəddarlığında vəhşi bir ardıcıllıq var. Bu ardıcıllığın qorxunc, inadkar gözəlliyi yanında digər gözəlliklər sönükdür.

Mənim arzum odur ki, qan su yerinə axsın, ehtirasımın möhtəşəmliyindən yer-göy titrəsin, vüqarlı görünən – meyid görünsün. Ətrafdakıları ölü, yaralı, parçalanmış görəndə özümün böyüklüyümdən vəcdə gəlirəm. Bir az bundan əvvəl meyidə çevrilmiş bu xilqət sağ idi, indisə ölüdür. Bir az bundan qabaq o, mənim mövcudluğumu hiss etmirdi, mənim gücümdən kənarda yaşayırdı. Mən onu öldürməklə özümü ona təqdim etdim. Mənim içərimdəki nifrət mənə deyir ki, ətrafdakılar sənə yaddırlar, onların səninlə birgə yaşamaları eybəcərlikdir. Həmin duyğu onu da deyir ki, var olanı heçə çevirmədən sən özünü hər şey saya bilməzsən. Sənin böyüklüyün üçün gözəlliklər tapdanmalı, əzəmətlər heçə çevrilməlidir. Özümdən kənardakını məhv etmək – əvəzsiz, ardıcıl, tufanlı, daxili ehtiyacımdır. Qoy hər yerdə pəncəmin izi qalsın, qoy iradəm qan dənizləri törətsin, qoy təbiətlə öcəşim, onun yaratdıqlarını vaxtından qabaq məzara göndərim! Qoy fəlakətlərdən düzəldilmiş meyi iri piyalələrdə nuş edim! Qoy yer, göy, insan, bütün varlıq dəhşətimdən titrəsin! Qoy məni yandıran – dünyanı yandırsın!

***Yırtıcının*** söhbətinə ***Hakimiyyət ehtirası*** qoşuldu:

– Mən istəyirəm canlıları cansızlaşdırım, ota, daşa, ağaca çevirim. Mən insanlarla birləşməyi, onlardan biri olmağı dünyada ən dəhşətli fəlakət sayıram. Sənin iradənlə, səlahiyyətinlə, əmrinlə hamı oyuncağa çevrilir – budur səadətin ali nöqtəsi! Hamının biri olmaq və hamı üçün yeganə Qüdrət sayılmaq! Bu iki söz arasında Dünya qədər məsafə var! Hakimlikdə – minlərin məqsədi Sənə – Aliyə, Böyüyə xidmət etmək olur. Sən onları öldürə də bilərsən, dirildə də. Onlarınn nəyi varsa – sənindir. Ancaq onlar hamısı bir yerdə – SƏN deyilsən! Sən onların cəmindən yüksəksən! Müstəqilliyin, fərqlənməyin, möhtəşəmliyin ən gözəli – hakimiyyətdir. Onun verdiyi fərəhin tayı-bərabəri yoxdur. Allahın hakimiyyəti gözlə görünməyən hakimiyyətdir, mənimki isə görünən, duyulan, vəcdə gətirən, qibtə yaradan! Biçimdə sənə oxşayan minlər sənin əsirinə, quluna, kölənə dönürlər, sanki sən onları tilsimə salırsan! Onların sənin şəninə söylədikləri mədhlər, göyləri sarsıdan alqış nidaları ürəyi cuşa gətirir, ömrü təzələyir. Sən özün öz gözündə Allaha çevrilirsən və ətrafdakılara qarşı ürəyində məhəbbət yox, qəribə bir ikrah yaranır. Görürsən ki, onlar köləliklərini köləlik saymır və bu da səndə onlara qarşı ikrah duyğusu oyadır. Bu duyğunun verdiyi nəşə ölçüyə gəlməz! Gör bir nə güc sahibisən ki, İnsanı heç eləmisən! Dünyanın ali sevinci – başqalarını özündən asılı etməkdir, başqasını özündə əritməkdir. Bu məqamda sənin mənliyin başqalarının mənliyini əlindən alır və bu, sənə sonsuz sevinclər gətirir. Adi adamlar həyatda istədiklərinin cüzi hissəsini həyata keçirirlər. Hakimiyyətdə İnsan ehtiyaclarının hamısını, o cümlədən qeyri-əxlaqi tələblərini də ödəyir. Daxildə hansı ehtiyac varsa, hamısı ödənilir.

Bu cəhətdən hakimiyyət insanı xeyir və şər ölçüsündən uzaqlaşdırır, ona intəhasızlıq bəxş edir. Dünyada hakimin istəklərinə, niyyətlərinə qarşı duran qüvvə yoxdur. Hakimiyyət həvəsi möhtəşəm həvəsdir. Bütün dünya həmin ehtirasa baş əyir. Səmanın bağrında parlayan şimşək göyün yer üzərində hakimiyyət cəhdidir. Qışda çaylar buzun hakimiyyətinə tabe olurlar. Hökmsüz olmaq – tapdanmaq, alçalmaq, enmək, kiçilmək, hamılaşmaq, heç olmaqdır. İnsanı yüksəldən, irəli aparan mənəm. Sərkərdə, şair, hökmdar, alim – insanların üzərində hakim olmaq üçün çalışır, çabalayır, qan tökür, mətanət göstərir. Mənim gücüm ölçülməzdir. Hansı qəlbə daxil oldummu, onu bütünlüklə zəbt edirəm, mənəvi aləmə tam hakim olur, onu istədiyim istiqamətə yönəldirəm. Hakim qəlbində adi insani hisslərə yer qalmır, ən mərhəmətli şəxs bir an içində qəddar müstəbidə çevrilir. Mənim qarşıma çıxan qüdrət tanımıram. Çünki

hakimiyyətdən doymaq olmur, məni başqa duyğularla əvəz etmək müşkül işdir, çünki hakimiyyət və səadət əkiz qardaşdırlar.

Hakimiyyət ehtirası susanda ***Şəhvət*** hissi dilləndi:

– Dünyada bütün canlıların, o cümlədən, İnsanların ən alisinin, misilsizinin üzərində əsil hökmran mənəm! Mən ürəklərə daxil olanda mənəviyyat sönür, iradə sarsılır, insan oyuncağa çevrilir. Vicdan, həqiqət, ülviyyət mənimlə bacara bilmirlər, mən onları insana yaxın qoymuram. Alini, böyüyü, xalisi, əsili tələyə salıram. Məğlub etdiyimi heyvan səviyyəsinə endirirəm və bundan əvəzsiz həzz alıram.

Gözəlliyin ülvi mənasını rədd edirəm, qadını əşyaya çevirirəm. Həya, ismət məndən oddan qaçan kimi qaçır. Nəfəsim şiddətli külək kimi incəlikləri, zərifllikləri qırıb tökür. Mən peyda oldummu, insan insanda insanı görmür, ani nəşə mənbəyini görür.

Mən peyda oldummu, insanın üzərinə ağır yük düşür, çiyin yükə tab gətirmir və mən qalib gəlirəm. İnsan ruhuyla, müqəddəsliyiylə, Allah ideyasıyla yox olur, onun əvəzinə miskin, iradəsiz, ehtiras odunda qovrulan, onunla bir olan, onda itən, onun son nöqtəsinə çatan və onunla ikrah hissiylə vidalaşan məxluq yaranır. Mən peyda oldumsa, gözlərdə heyvani qığılcım parlayır, çılğın qovuşma seli daxili aləmi bürüyür, həmin seldə ruhanilik itir, həya, ismət telləri qırılır, vəhşiliyin çılğın gücü insanı insanilikdən məhrum edir.

Mən peyda oldumsa, insanın heyvana yaxınlığı dəhşətli bir aydınlıqla aşkara çıxır. Çünki mən insanları bir-birinə heyvan kimi münasibət bəsləməyə vadar edirəm. Mən insanı heyvan səviyyəsinə endirirəm və əvəzində ona nəşə bəxş edirəm. Mən onu itaətkar qula çevirirəm; o, qarşımda titrəyir, əmrimə müntəzir vəziyyətdə dayanır və dediklərimə əməl edir. Mən qadınlığın ülvi mənasını dəyişdirib onu şəhvanilik təcəssümünə çevirirəm. Bununla mən qadınlığı məhv edirəm. Onu bəsit nəşə mənbəyinə çevirirəm. Bəsit nəşə mənbəyi kimi o, alçaldı, kişilərə xoş gəlmək üçün ruhani zərifliyindən əl çəkdi, şəhvaniliyi qabartdı. Məhəbbət daşlara çırpılıb çilik-çilik oldu.

Qadını məhəbbətə yox, şəhvətə hazırladılar. Bütün bu oyunu adamların başına gətirən mən oldum. İnsanın haqqında əsil həqiqəti mən dedim: o, Allahın bəndəsi yox, mənim bəndəmdir. İnsan mənəm, onun ikinci adı – Şəhvətdir.

Şəhvətin nitqini ***Paxıllıq*** davam etdirdi:

– Mən istəmərəm ki, göydə günəş çıxsın, bağda güllər açılsın, çayda sular çağlasın. Mən istəyirəm ki, günəş göyü tərk etsin, güllər açılmamış solsun, sular qurusun! Mən istəmirəm ki, dünyada gözəl qızlar, xoşbəxt analar, qadir kişilər olsun. Mən istəyirəm ki, dünya çirkinliklərlə dolsun, gözəllik dünyanı tərk etsin, idrakın qanadları

qırılsın, duyğular, hisslər qurusun! Sevmirəm ağacların ucasını, kişilərin igidini, qadınların sadiqini, seviləni, seçiləni! İstəmirəm böyüklərin yanında cılız görünəm, ona görə də böyükləri sevmirəm! İstəyirəm dünya bilsin ki, mən də varam. Məni görmək istəməsən də – varam, ucaya, xalisə zərbə vura bilərəm, gözəllikdə eybəcərlik taparam, özümü sənə tanıtdıraram. Təbiətin sevimli balasına qəsd edərəm, təbiətdən intiqamımı alaram. Niyə o məni cılız yaradıb? Niyə başqaları vəcdə, heyrətə səbəb olurlar, mən isə adi hörmət də qazana bilmirəm? Təbiət ədalətsizliyə yol verib, ona görə də mən onun şah əsərlərinə qəsd etməliyəm. Bu mənə hədsiz dərəcədə lazımdır. Çünki əks təqdirdə içimdə alışan hiddət məni yandırıb kül edə bilər, rahatlığım həmişəlik pozular, yuxum ərşə çəkilər.

Bağçada qəşəng bir gülün bitməsi qəlbimi qana döndərir. Üzdə gözəllik nişanəsinin görünməsi ürəyimi ağrıdır. İdrakda yeni fikrin yaranması məni cəhənnəm əzabına salır. Hər bir nailiyyət, qələbə daxilimi nifrət zülmətinə qərq edir. İnsanların sevincini, səadətini sevmirəm, müsibətini, məşəqqətini sevirəm və bu sevgiylə yaşayıram. Bəzən daxilimə gizlənirəm, ancaq içərim yanır, hərarətim ətrafdakıları yandırır. Məni yer üzündən silməyə çalışırlar, fəqət bacarmırlar, çünki məni də təbiət yaradıb, deməli, mən də lazımam! Böyüklüyü, ülviliyi, əsilliyi sevənlə yanaşı, onu inkar edən də gərəkdir! Mən yalnız şərə xidmət etməyi bacarıram; bunun üçün dünyaya gəlmişəm. Mən təmizliyin üzərinə çirkab atmalıyam, çünki bacardığım budur, təbii meylim, həvəsim bunadır. Mən içimi didib-parçalamalıyam, ətrafdakılara hiddətimi, nifrətimi aşkara çıxartmalıyam, "mən də varam" – deyə haray qoparmalıyam, çünki damarlarımda axan qan bunu məndən tələb edir. Çünki xamırım belə yoğurulub, çünki ürəyimi dolduran zülmətli duyğular üzə çıxmalıdır.

Miqyaslı fəaliyyətim də olub, məhdud da. Məbədləri yandırmağı da bacarıram, budaqları sındırmağı da. Ölkələr arasında çaxnaşma salmağı da, ailələri dağıtmağı da. Şər qazanı qaynatmağı da, xeyir ocağına su tökməyi də. Yaxşını pis kimi qələmə verməyi də, şikəsti sağlam kimi təqdim etməyi də.

Məkr və riya əlimdən tutur, əmrimi yerinə yetirirlər. Ancaq rahatlığım yoxdur. Çünki bahar yenə də çiçək açır, analar yenə də məlahətli qızlar və qeyrətli oğullar doğur, dahilər yenə də ali əsərlər yazır, məhəbbətlilər – sevir, sevilir. ***Mən sarsılıram, hiddətlənirəm, ancaq həyatın gedişatını saxlaya bilmirəm və odum özümü yandırır.***

Paxıllıq söhbətini qurtaranda ***Xudpəsəndlik*** sözə başladı:

– Dünyada nə edirəmsə, nə eyləyəcəmsə – özüm üçün eləyirəm. Qəhrəmanlığım da özüm üçündür: qoy məni tanısınlar, barmaqla göstərsinlər. Yaradıcılığım da, əməli işim də – hamısı özüm üçündür. Şəhərlər salıram, dövlət yaradıram – ancaq özüm üçün. Adilərə oxşamaq istəmirəm, istəyirəm mənə səcdə qılsınlar, pərəstiş etsinlər. Döyüşüm, davam da özüm üçündür: maddi rifahım üçün, dolanışığım üçün. Başqasına daxilən qovuşa bilmirəm, zahirən, ani qovuşuram. Başa düşürəm ki, adamlar yanaşı addımlayanda belə, bir-birindən yerdən göyə qədər aralıdırlar. Məhəbbətim də – özüm üçündür, öz dünyamı yaratmaq üçün. Bilirəm ki, insanlar hamısı – dostluqdan, sevgidən dəm vursalar da – yalnız özlərini sevirlər. Sənin dost saydığın şəxs öz kiçik mənafeyi naminə meyidinin üstündən sakitcə keçər. Dünya möhtəşəmdir, ancaq mən orada təkəm və ümumən dünyadakılar təkdirlər. Hər addımda rəqabətlə rastlaşıram. ***İnsani münasibətlər və rəqabət – eyni şeydir. İnsanla qarşılaşmaq – rəqiblə qarşılaşmaq deməkdir.*** Məndə müsbət nə varsa, arxasında özümlük dayanır. ***Hakimiyyətə gəlirəm – özümü təsdiq etmək üçün! Gecə-gündüz çalışıram, tər tökürəm, qabıqdan çıxıram*** – ***özümü təsdiq etmək üçün! Ölkələr fəth edirəm, sülalələr məhv edirəm – özümü təsdiq etmək üçün! Mənim ikinci adım – Şöhrətdir.*** Ölümü ölümsüzləşdirmək, nəsillərin xatirində qalmaq, heykəlləşmək – ən şiddətli arzum budur.

İnsan dünyada əslində heç kəsi və heç nəyi görmür, özünə meyil edir, özüylə yaşayır, özünü sevir, yüksəldir.

Xudpəsəndlik sözünü bitirdi. ***Hərisliyin*** gur səsi ətrafa yayıldı:

– Yerə, göyə, çəmənlərə, bitkilərə, canlılara, cansızlara sahib olmaq istəyirəm. Zəmilər, biyabanlar, göyün ulduzu, ayı, günəşi mənim olmalıdır! Ən nadir daş-qaşlar, üzlərdəki ilahi məlahət, gözlərdəki səmavi cazibədarlıq mənə qismət olmalıdır. Bulaq suyunun şirinliyi, okean dalğalarının əzəməti mənə xidmət etməlidir. Xoşbəxtliklərin, nailiyyətlərin, qələbələrin, sevinclərin hamısı mənə bəxş edilməlidir. Mən onları başqalarının ömründən qoparmalıyam, əlindən yerə salmalıyam. Gözəlliklərin əvəzsiz fərəhi, hakimiyyətin möhtəşəm vüqarı, nəşələrin bütün çeşidləri, təbiətin bütün rəngləri mənim olmalıdır. Şöhrətlərin cəmi, gül-çiçəklərin hamısı, yazın mehi, qışın qarı, çayın axarı mənə məxsus olmalıdır. Ehtiraslarımın, eşqimin hüdudu yoxdur. Göydə uçan quş – mənim olacaqsan! Dağın başına qonan qartal – mənim olacaqsan! Göyün bağrından qopan şimşək – mənim olacaqsan! Çöllərə, çəmənlərə yağan yağış – mənim olacaqsan! Dünyaya sahib olmaq haqqını mənə kim verib, bilmirəm. Ancaq duyğum daxilimi yandırır. Ceyran görürəm, maral

görürəm – mənimkisən deyib, öldürürəm. Uca, gözəl ağac görürəm – mənimkisən deyib, baltalayıram.

İncə qamət görürəm, parlaq qadınlıq görürəm – mənimkisən deyib mənimsəyirəm. Arının balını, inəyin südünü əlindən alıram. Bəzən zülmətə də deyirəm mənimkisən, tufana, çovğuna da deyirəm mənimkisən. Ətrafımda nə varsa, mənimsəyirəm, əxz edirəm. Ancaq doymuram, usanmıram, rahatlanmıram! Axtarıram, arayıram, tapıram, sevincim aləmə sığmır. Ancaq daxilimdəki dəhşətli ehtiras – sahib olmaq həsrəti – bir an da azalmır və mən onun arxasınca gedirəm. Kiminin çörəyini əlindən alıram, kiminin məhəbbətini, kimini hakimiyyətdən məhrum edirəm, kimini ümiddən. Bəzən kədərə də, göz yaşına da, əzaba da demək istəyirəm ki, mənimsən! Gecə, mənsiz niyə çıxırsan? Səhər, mənsiz niyə açılırsan? Axşam, mənsiz niyə düşürsən? Düşünürəm, daşınıram, dünyanı mənimsəmək həvəsim aşıb-daşır. Bağçada gül açdı – hamısını dərməliyəm. Ağacda meyvə bitdi hamısını yeməliyəm. Qadınlığın mehri, kişiliyin əzəməti, evlərin işığı – mənimdir. Biri xoşbəxtliyə çatanda hiddətimin hüdudu olmur: elə bil mənim səadətimi ona veriblər. Biri şöhrətlənəndə, varlananda, hiddətim coşur: sanki mənim şöhrətimi, dövlətimi əlimdən alıblar. Biri seviləndə, hörmətlənəndə, fərqlənəndə sevgini, hörməti, fərqlənməni ondan almaq istəyirəm. Daxilimdəki ehtiras mənə deyir ki, dünyada nə varsa, sənindir.

Dövlətlər yaradılır – mənimkidir, binalar tikilir – mənimkidir, adi çay daşlarından başlamış, səyyarələrə kimi dünyada nə varsa, hamısına sahib olmaq istəyirəm.

İstəyirəm ki, yaz günəşi təkcə məni isitsin, torpağın üzərində təkcə mən yeriyim, təbiət təkcə mənim məskənim olsun, ölkələr yalnız məni sinəsində gəzdirsinlər. Gül üstünə şeh düşdümü – mənimdir! Üzlərdə günəş şüaları oynadımı – mənimdir! Dağların başına dolanan yollar – mənimdir! Yaylaqların qoyunları, quzuları, bulaqları, quzeyləri, güneyləri mənimdir! Zərifliklər, məlahətlər, gözəlliklər, səslər, ahənglər mənimdir! Hər şeyə sahib olmayınca rahat olmayacağam. Ya hər şeyə sahib olacağam, ya da məhv olacağam...

Hərisliyin səsi yeri-göyü tutmuşdu. İnsan ətrafına baxdı, özünü dəhşətli cəhənnəmdə hiss elədi və onun qəlbində kədərli bir nida səsləndi: – “MƏN BUYAMMI?”

***Qayğı*** İnsanı məşəqqətli hisslərdən ayırdı:

– Dünyada nə varsa – hamısını bəsləmək, böyütmək, yüksəltmək istəyirəm! Dünyada nə varsa – hamısına dayaq olmaq istəyirəm. İstəyirəm mehrimlə dünya bəzənsin, gözəlləşsin, cilvələnsin.

İstəyirəm dünyada nə varsa – duyğularımın oduna isinsin! İstəyirəm ülfət bulağından hamı içsin! İstəyirəm günəş olub yayılam dünyaya, yağış olub səpələnəm çöllərə! Körpələrə ana olam, böyüklərə ata! Ağacların vüqarında yaşamaq istəyirəm, xoşbəxtlərin gülüşündə, kişilərin qüdrətində, qadınların ismətində, göylərin aydınlığında, gözlərin işığında, cavanların arzularında, qocaların izzətində! İstəyirəm hicran vüsala dönsün, həsrət səadətə, istək gerçəkliyə!

İstəyirəm evlərdən toy səsi gəlsin, könüllərdən fərəh sədası; meşədəki ağaclar çoxalsın, çəməndəki otlar ucalsın, xəstələr sağalsın. Məlhəm olmaq istəyirəm yaralara, işıq olmaq istəyirəm zülmətdə qalanlara, əlindən tutmaq istəyirəm əlilin, su olmaq istəyirəm yanan dodaqlarda. Qovmaq istəyirəm qüssəni ömürdən, həsrəti taledən, ürək olmaq istəyirəm ürəksizə, cürət olmaq istəyirəm cürətsizə! İstəmirəm ağacların ən kiçik budağı belə, qırılsın!

İstəmirəm adi bir qarışqa belə, ayaqlar altında tapdansın. İstəmirəm dünyadan zəriflik, həzinlik azalsın. İstəmirəm dünyanın başından bir tük də əskik olsun! Bir binanın uçmasını, bir budağın qırılmasını, bir bulağın qurumasını, bir ürəyin ağrımasını belə, istəmirəm. İstəyirəm bahar mehi çiçəkləri titrətsin, məhəbbət seli ürəkləri bürüsün, dostluq şəfqəti ömürlərə çilənsin! Sevilməyənlərə sevgili olmaq istəyirəm, sevinməyənlərə sevinc! Təhqir olunanlara, döyülənlərə, söyülənlərə, insan sayılmayanlara doğmayam! Gözü yaşlıların göz yaşlarını silirəm, nisgilli qəlbləri isidirəm! Birinin əli qanayanda ürəyim qanayır! Dünyada nə varsa – yaşamağa layiqdir! Uca səma da, bir qarış torpaq da dünyaya gərəkdirlər. Çünki bir qarış torpaqsız dünya dünya olmazdı. Çünki bir qarış torpağın da asimanlı dünyada özünəməxsus yeri var. Çünki bir qarış torpaqsız dünya öz ahəngini itirərdi. Dünyada böyüklərə yer olduğu kimi, kiçiklərə də yer var. Dünyada böyüklər zəruri olduğu kimi, kiçiklər də zəruridir. Balaca kəpənək də dünyanın zinətidir! Körpənin ilk addımı – ülvidir! Məqam əsr qədər əzəmətli ola bilər! Okean bulağı əvəz edə bilmir! Dünyaya tufan da gərəkdir, meh də! Təbəssüm, ani ümid, beşik mahnısı, ismət qızartısı, ürək həssaslığı, zərif xatirələr – əzəmətli gözəllikdir! Dünyada bir ürək sınanda – dünya əksilir! Ağacdan bir budaq qırılanda – dünya əksilir! Bir insan ləyaqəti tapdananda – dünya əksilir! Bir ümid şüşəsi çilik-çilik olanda – dünya əksilir! Bir ədalət piyaləsi yerə çırpılanda – dünya əksilir! Bir çıraq sönəndə – dünya əksilir! Bir kiçik xalq yer üzündən silinəndə – dünya əksilir! Bir insan itəndə – dünya əksilir! Bir səs, bir rəng azalanda – dünya əksilir! Buna görə də dünyanın ən cüzi hissəsini belə qoruyuram. Əllərim körpə saçlarını sığallamasa, ağlayanı

kiritməsəm, nisgillini murada çatdırmasam, xəstəni sağaltmasam, qaranlıqda çıraq yandırmasam, mən mən olmaram. Harada başı bəlalı, müsibətli, əzablı varsa – orada mən də varam! Mən varamsa – güllər açır, dünya işığa qərq olur, sevinc aşıb-daşır, bulaqlar qaynayır, mərhəmət qəlblərə hakim olur, əllər əllərə, gözlər gözlərə gərək olur. Mən daim məni çağıran səs eşidirəm. Uzaq səmalardan, ölkələrdən, yaxın ellərdən, diyarlardan, sonu görünməyən yollardan, arzulardan, niyyətlərdən! Bu səs əfsunlu, möcüzəli, sirli, sehirlidir! O məni çağırır və mən onun ardınca qarşısıalınmaz, şiddətli bir ehtirasla, həvəslə gedirəm: başa düşürəm ki, təbiət məni bu ilahi səsin arxasınca getmək üçün həyata gətirib və bu əvəzsiz səadətimlə qanadlanıram!

***Dostluq*** sözə başladı:

– Özümü başqasında tapmaq istəyirəm. Başqasından ayrı özümü parçalanmış, şaqqalanmış sanıram. Başqasına qovuşmadan – özüm ola bilmirəm. Çünki başqası mənim ömrümə əvəzsiz ahəng gətirir. Çünki tək özümdə qala bilmirəm. Özümdən kənara çıxıram, özümdən kənardakına can atıram. Çünki sevincim, kədərim, həsrətim, ümidim təkliyi sevmir. Çünki başqasında özümə qayıdıram. Çünki başqasıyla birləşəndə dünyayla birləşirəm. Mahiyyətimdə, taleyimdə başqası olmaq, başqasına çevrilmək ehtirası yaşayır. Hisslərim, həyəcanlarım, düşüncələrim başqasının dünyasına yön alır. Həm də başqasının arzuları, duyğuları ürəyimdə səslənir. Mən başqasına can atıram, başqası mənə. İki aləm bir-birinə qovuşur və yeni dünya yaranır. Birinin ağrısı o birinin cismində səslənir. Birinin sevinci o birisinin qəlbinə axır. Gözlərin işığı, üzlərin nuru bir olur. Başqalaşırsan, ancaq özündən ayrılmırsan. Çünki başqasını özündə, özünü başqasında görürsən, öz əvəzsizliyini daha aydın dərk edirsən. Çünki başqasında özünü hərtərəfli ifadə eləyə bilirsən. Daxili vəhdət sənə deyir ki, dünyada sənin ikinci mənin də varmış və sən bu ikinci mənsiz sən ola bilməzdin! Sən mütləq öz cismani sərhədini aşmalıydın. Sən ən çox başqası üçün yaşayanda – özün üçün yaşayırsan! Əvəzsiz vəhdət yaranır! Başqasıyla bir olursan, həm də tam özün olursan! Başqasına mənən qovuşduğun üçün, onunla sənin aranda yadlıq aradan qalxdığı üçün özünəməxsus duyursan, düşünürsən, həyat sürürsən! Sünilik, riya, yalan ömrünü tərk edir. Yad dünyada sən özün ola bilməzdin. Mənəvi qovuşma məqamında sən özünlə görüşürsən... Sənə məlum olur ki, qan qohumluğundan başqa dünyada ruhani qohumlar da varmış. Duyğu duyğunun qardaşı ola bilərmiş. Qəlbin sevinc şərikliyinə ehtiyacı sonsuzmuş! Başqasının sevincinə çevrilməyən sevinc – sevinc deyilmiş!

Başqasıyla birgə duyulmayan kədər daxili yandırıb kül edə bilər, qəm başqasının qəmində sönməlidir. İnsan anlayır ki, dünyaya tək gəlsə də, təkliklə vidalaşmalıdır. Təkliklə vidalaşmağın yolu – mənəvi qovuşmadır. Mənəvi qovuşma zamanı insan mənən zənginləşir, bu məqamda insan ilə insanın əsil münasibəti yaranır. İnsan anlayır ki, insanın insana ləyaqətli münasibəti hakimlik yox, daxili birlikdir. Çünki yalnız bu vaxt İnsan özünəlayiq qiymətləndirilir. Məlum olur ki, birinin ömrü başqasının ömründən asılıdır. İnsanın insandan ali asılılığı yaranır.

Mən sənin ağlından, arzularından, mənəviyyatından, idrakından asılıyam, çünki onlarsız yaşaya bilmərəm. Mənəvi asılılıq hakimiyyət asılılığından yerdən göyə qədər fərqlidir. Hakimiyyət asılılığı birinin digəri üzərində yüksəlməsi, birinin digərini rədd etməsi, birinin digərinin ləyaqətini əlindən alması deməkdir. Mənəvi asılılıqda biri digərini böyüdür, ucaldır, təsdiq edir. Hakimanə asılılıqda zor təsdiq olunur. Mənəvi qovuşmada ürək ürəyi tələb edir, ürək ürəyin yükünü çəkir. Hakimiyyətdə biri özünü başqasından fərqləndirir. Mənəvi qovuşmada fərq birliyə çevrilir. Hakimiyyətdə biri digərinin mənliyini əlindən alır və həmin vasitəylə möhtəşəm mən yaranır. Mənəvi vəhdətdə – bir mən başqa mənlə birləşir, vahid, böyük MƏN əmələ gəlir. Hakimiyyətdə biri digərinə sahib olur. Mənəvi asılılıqda biri digərində yaşayır. Hakimiyyətdə “mənimkisən” sözü “məndən aşağısan”, “mənim hökmümə tabesən”, “mənə baş əyməlisən” – kimi səslənir! Mənəvi qovuşmada o, “mənim üçün əzizsən”, “əvəzsizsən” – kimi səslənir! Çay məcrasına necə qovuşursa, sən başqasına o cür qovuşursan! Dalğa dalğalara necə bağlanırsa, sən də başqasına o cür bağlanırsan! Özünə başqasının güzgüsündə baxırsan, başqalaşırsan, həm də öz əsilliyinə qayıdırsan. Dərk edirsən ki, sən özündən böyüksən, özünə sığmırsan. Bu səbəbdən də başqasına çevrilirsən, başqasında yaşayırsan.

Cəmiyyətdə hökm sürən birlik və məndə bərqərar olan birlik – düşməndirlər. Birincidə insanlar bir-birinə əşyavari bənzəyirlər. İkincidə onlar bir-birinə ruhani cəhətdən oxşayırlar, bu bənzəyişdə insanlar mənən dirilirlər. Cəmiyyətdəki birlikdə insan öz daxili dünyasını itirir, məndə həmin dünyanı tapır. Cəmiyyətdəki birlikdə insanlar biri digərini tanımır, mənəvi qovuşmada onlar bir-birini tanıyırlar. Cəmiyyətin yaratdığı birlikdə insan tənhadır, yalqızdır, mənim yaratdığım birlikdə o, tənhalığı dəf edir. Cəmiyyətdə bərqərar olmuş birlikdə insan şəxsiyyət kimi yox olur, mənəvi qovuşmada o, öz şəxsiyyətini təsdiq edir. Cəmiyyətin yaratdığı birlikdə ürək iştirak etmir, mənəvi qovuşmanı ürək yaradır. Cəmiyyətin təsdiq etdiyi

birlikdə – eybəcərlik, nasiranəlik, mənəvi qovuşmada isə gözəllik, şeiriyyət hökm sürür. Cəmiyyətdə insan alətə çevrilir, mənəvi qovuşmada sərvətə. İnsan məndə özünü tanıyır!

***Dostluq*** söhbətini qurtardı. ***Qeyrət*** danışmağa başladı:

– Şöhrəti, qızğın, coşqun, heyvani ehtirasları ram etməyi bacarıram. Nəşə həvəsinin mütləq qadirliyi haqqında söhbətlər yalandır! Şəhvət selinin insanı öz dalğalarında itirməsi haqqında iddia yalandır. İnsanın şəhvət qarşısında labüd titrəməsi, ona əsir olması haqqında deyilənlər yalandır. İnsan mənəviyyatını heyvani ehtiraslar məskəni saymaq yalandır. Ali duyğuları cinsi meylin təzahürü hesab etmək yalandır. Şəhvəti insanı sarsıdan vulkan saymaq – yalandır! Cinsi instinkti insan taleyini müəyyən edən güc saymaq yalandır. İnsanın şəhvət qarşısında acizliyi – eybəcərlikdir... Vəhşiləşmək, ruhu itirmək, şəhvət sacında qovrulmaq – zəlillikdir. Şəhvətin ürəklərdən məhəbbəti, mərhəməti, hörməti qovması – miskinliyin qələbəsidir! Kişinin erkəyə, qadının dişiyə çevrilməsi – ölümdür! Bədənin ruha qarşı üsyanı murdarlıqdır! Mənəvi əlillərin nəşə köləliyi – səfalətdir!

Mən peyda oluram və duyğular nizamlanır, gözəlləşir, ülvilik ürəklərə axır, paklıq çiçək açır. Mən peyda oluram və daxili aləmdə məhəbbət, heyrət, hörmət oyanır, insan insanın gözündə yüksəlir, müqəddəslik işığı mənəviyyata yayılır. Mən peyda oluram və aşiqliyin ruhani mənası təsdiq olunur, vəfanın, sədaqətin qüdrəti aşkara çıxır, ömürlər ömürlərə calanır. Mən peyda oluram və insani ləyaqət bərpa olunur, insan ali varlıq, ülviyyət, mənəviyyat və idrak təcəssümünə çevrilir. O, dərk edir ki, dünyaya şəhvani ehtiraslarını ödəmək üçün gəlməyib, müqəddəsliyə qovuşmaq üçün gəlib və onun insaniliyi – hərcayi ehtirasların üzərində qələbə çalmaqda meydana çıxır. İnsan ona görə qüdrətlidir ki, kiçik duyğularını böyük duyğularına qurban verə bilir. Mən peyda oluram – kişilik və qadınlıq öz əsil qiymətini tapır.

KİŞİLİK – özü üzərində qələbə çalmaq, ehtiraslarını cilovlamaq, onları Amala tabe etmək, qadın ləyaqətini təsdiq etmək; əzaba, iztiraba, işgəncəyə tab gətirmək, özünü təzədən yaratmaq deməkdir.

QADINLIQ – mənəvi incəlik, mehr, nəvaziş təcəssümü, analıq ülviyyəti, şəfqət, həssaslıq, sədaqət, vəfa, ruhani ahəngdarlıq və zahiri cazibədarlıq deməkdir.

KİŞİLİK – qadına verilən səadətlə, qadın uğrunda çəkilən əzab-əziyyətlə, heyrət sabitliyi və iradə əzəmətiylə ölçülür.

QADINLIQ – məlahətin, mərhəmətin, məhəbbətin gücüylə, mehrin sonsuzluğuyla, sədaqətin ülviyyətiylə, duyğuların qüdsiyyətiylə ölçülür.

Kişini kişi eləyən ***əzm və mətanət,*** qadını qadın eləyən ***həya və ismətdir.***

İSMƏT – qadınlığın özünü təsdiqidir, daxili zərifliyin daxili güc ilə birləşməsidir.

İSMƏT – qadınlığın vüqar taxtına çıxmasıdır.

İSMƏT – ehtirasların məcraya salınması, bir səmtə axmasıdır.

İSMƏT – analıq müqəddəsliyinin hifz edilməsidir.

İSMƏT – "nəşəsevərlik bəxtiyarlığının" əxlaq kamilliyinə qurban verilməsidir.

İSMƏT – ruhun bədən üzərində qələbəsidir...

İsmətlə bərabər ***həya*** yaranır.

HƏYA – daxili aləmin eybəcər hisslərdən ayrılmasıdır.

HƏYA – duyğu kamilliyidir!

HƏYA – ruhani şeiriyyətdir!

HƏYA – heyvaniliyin inkarıdır.

HƏYA – ləyaqət gözəlliyidir.

HƏYA – ehtirasların cilalanması, təmizlənməsi, insaniləşməsidir.

HƏYA – hissiyyatın mənəviyyata tabe olmasıdır.

HƏYA – insanın öz insani mahiyyətini anlamasıdır.

HƏYA – başqasını düzgün qiymətləndirmək, onu hörmətə mindirmək, ucaltmaqdır.

HƏYA – insanın öz naqisliyi üzərində yüksəlməsidir.

HƏYA – insanın müqəddəslik duyğusundan asılılığıdır.

HƏYA – vəhşiliyin mənəviyyatdan qovulmasıdır.

HƏYA – ali mövcudluğa qovuşmaqdır.

Mən gəlirəm və insanlar dərk edirlər ki, ləyaqəti keçici həzzlərə qurban verməzlər. Ləyaqət naminə lazım olarsa – ölərlər. Mən gəlirəm və insan bilir ki, insani ömür sürmək – özünün üzərində yüksəlmək deməkdir.

***İnsanpərəstlik*** sözə başladı:

Gözəl üz görürəm – sevinirəm – "bəşər övladı nə gözəldir!" – deyirəm! Parlaq idrak görürəm – sevinirəm – "bəşər övladı nə idraklıdır!" – deyirəm! Ali qəhrəmanlıq görürəm – sevinirəm – "bəşər övladı nə hünərlidir!" – deyirəm! Sonsuz fədakarlıq görürəm – sevinirəm – "bəşər övladı nə fədakardır!" – deyirəm!" Ülvi ruhanilik görürəm – sevinirəm – "bəşər övladı nə ruhludur!" – deyirəm!

Bəşəri özümdə görürəm, özümü bəşər sayıram, duyğularımla, düşüncələrimlə, fəaliyyətimlə bəşərə qovuşuram. Xoşbəxt insan

görürəm – özümü xoşbəxt sayıram. Qalib şəxsiyyət görürəm – özümü qalib sayıram. Aşiqlik görürəm – Aşiqə çevrilirəm. Dahilik görürəm – dahiləşirəm. Müqəddəslik görürəm – müqəddəsləşirəm. Sehirli gözəlliklər görürəm – sehirlənirəm! Səmaya ucalan qəlb sədası eşidirəm – səmaya ucalıram! Özünü özündən böyük görənlə rastlaşıram – özümü özümdən böyük görürəm. Evlərdə işıq yanır – mənimkidir! Gözlərdə ümid parlayır – mənimkidir!

Fikir biçimə, duyğu ifadəyə, söz ahəngə yaraşır – fərəhlənirəm! Zahiri gözəllik daxili gözəlliyə yaraşır – fərəhlənirəm! Ana qucağında balasını tutur və bu şeiriyyət dünyaya yaraşır – fərəhlənirəm! Baharın gəlişi arzu təravətinə qarışır – fərəhlənirəm! Musiqi ecazkarlığı təbiət sehrinə yaraşır – fərəhlənirəm!

Niyyət paklığı qar saflığına yaraşır – fərəhlənirəm! İnsan qorxusunu daxildən qovur – fərəhlənirəm! İnsan özünü naqis ehtiraslardan təmizləyir – fərəhlənirəm! Hər tikilən bina – mənimdir, yazılan əsər – mənimdir, hər ürəyi riqqətə gətirən musiqi – mənimdir, hər vəcd yaradan gözəllik mənimdir, hər dürlü kəlam – mənimdir, hər əsil vüqar, böyüklük, möhtəşəmlik, zəriflik, cazibədarlıq – mənimdir!

Bəşər övladını sevirəm! O kədərlənəndə – qəmə qərq oluram, məğlubiyyətə düçar olanda – müsibətə düçar oluram, əzab çəkəndə – sinəmə dağ çəkilir. Bəşər övladına, insaniyyətə məhəbbətim sonsuzdur. O, dünyada peyda oldu və dünya özünü tanıdı. O, dünyada peyda oldu və Yer səmaviləşdi, səma – müqəddəsləşdi. O, dünyada peyda oldu və Mütləqə qovuşma həsrətində Mütləqin sonsuz böyüklüyü dərk olundu. O, dünyada peyda oldu və gözəllik öz gözəlliyini anladı. O, dünyada peyda oldu və ruhani, sehirli səslər dünyanı bürüdü, söz ahəngi təbiət ahəngiylə yarışdı. O, dünyada peyda oldu və ulduzlar, aylar könül evinə daxil oldular. O, dünyada peyda oldu və məhəbbət bulağı qaynadı, dünya müqəddəsləşdi, kainat ülviləşdi. O, peyda oldu və analıq mehri, dostluq əzəməti, qeyrət, kişilik təsdiq olundu. O, peyda oldu və fədakarlıq, özündənkeçmə böyüklüyü yarandı. O, peyda oldu və insanın öz heyvaniliyiylə döyüş tarixi başlandı. O, peyda oldu və ölüm sarsıldı. O, peyda oldu və ülvi mənalar, şeiriyyətli duyğular, heyrətli kəlamlar yarandı. O, peyda oldu və göz yaşının, təbəssümün, sevincin, kədərin ali mənası aşkara çıxdı. O, peyda oldu və bədəndə ruhanilik zühur etdi. O, peyda oldu və göydəki quşların, yerdəki bitkilərin yeni mənası, torpağın, suyun müqəddəsliyi təsdiq olundu. O, peyda oldu və dünya ruhla birləşdi, ruhaniləşdi.

Bəşər olmasaydı, dünya dünyalığını büruzə verə bilməzdi.

İnsaniyyəti sevirəm, onu özüm sayıram və onun özündən aralanmasına, özünü inkar etməsinə həddsiz dərəcədə acıyıram.

Alçaqlıq, heyvanlıq, eybəcərlik, yırtıcılıq görürəm – qüssələnirəm – “insan insanlığını itirdi” – deyirəm, qəlbim qanla dolur. Naşılıq, lovğalıq, bədxahlıq görürəm – kədərlənirəm – “insan insanlığını itirdi” – deyirəm, qəlbim qanla dolur. Köləlik, mütilik, miskinlik görürəm – qüssəm yerə-göyə sığmır – “insan özündən uzaqlaşır” – deyirəm, qəlbim qanla dolur. Duyğu kasadlığı, məhəbbət qıtlığı görürəm – kədər dəryasına qərq oluram – “insan özünü rədd edir” – deyib, haray qoparıram. Müqəddəslik, ruhanilik azalır – kədər burulğanına düşürəm.

Amansızlıq, qəddarlıq artır – “insan insaniyyətindən əl çəkir” – deyə fəryad edirəm. İnsan əşyalaşır, cansızlaşır – qəm məni sarsıdır, “insan məhv olur” – deyə bağırıram. Bəşərin gözəlliyi də, eybəcərliyi də, səadəti də, əzabı da, qüdrəti də, zilləti də mənimdir. Mən bəşərin bir hissəsiyəm, həm də özüyəm. Çünki onu həmişə özümdə görürəm. Ona görə də sonsuz dərəcədə vüqarlıyam! Kədərliyəm, ancaq dünyalar qədər xoşbəxtəm. Çünki kədəri sevincə çevirə bilirəm.

***Dünyapərəstliyin*** coşqun etirafı səsləndi:

– Özümü dünyadan ayrı təsəvvür etmirəm! Elə bilirəm Yerəm, Göyəm, dağam, meşəyəm, çəmənəm! Baharam, qışam, payızam, yayam! Dünənəm, Bugünəm, Sabaham, Tarixəm, Gələcəyəm! Dənizəm, Okeanam, Qitəyəm, xalqam, ölkəyəm! Şəhərəm, kəndəm, meşəyəm, çiçəyəm! Uşağam, cavanam, yaşlıyam, qocayam! Səhərəm, axşamam, gecəyəm, Günəşəm, ulduzam, Ayam! Dan yeriyəm, qürub çağıyam! Atalarla, analarla, körpələrlə, sevənlərlə, sevilənlərlə – birgəyəm! Qəmlilərlə, gözüyaşlılarla, sinəsi dağlılarla – birgəyəm! Ümidsizlərlə, niskillilərlə – birgəyəm! Fədakarla, qəhrəmanla, zəiflərlə, zəriflərlə – birgəyəm! Şimşəyəm, yağışam, bulağam! Şəhərlərin gur işığıyam, maşınların, qatarların, təyyarələrin sürətiyəm, yolların intəhasızlığı, üfüqlərin genişliyiyəm! Tonqallarda yanan bədənlər, döyüşlərdə axan qanlar, amala qurban verilən ömürlər – mənəm!

Təbiətin zənginlikləri, sərvəti – mənəm! Bəşərin dünyada ilk addımları, özüylə və təbiətlə döyüşü, ümidləri, tələbləri, qələbəsi, məğlubiyyəti, dahiliyi, naqisliyi, aliliyi, adiliyi – mənəm! Qışın yaza, yazın yaya keçidi – mənəm! Külək səsi, tufan qasırğası, şimşək nərəsi – mənəm! İllərin illərə calanması, əsrlərin əsrlərə qovuşması, dünənlə bugünün, bugünlə sabahın əlaqəsi – mənəm! Günəşin

Göylə, dalğanın dənizlə ahəngdarlığı – mənəm! Ədalət, həqiqət, məhəbbət ehtirasının ürəklərə hakim olması – mənəm!

Ən cılız ağacın qırılmasını – istəmirəm! Ən adi böcəyin ayaqlar altında qalmasını – istəmirəm! Ən kiçik çayın qurumasını – istəmirəm! Ən balaca otun ayaqlar altında qalmasını – istəmirəm! Dünyada bir şey itəndə, mən də itirəm! Dünyada bir nəqş pozulursa, bir gözəllik azalırsa – mən məğlub oluram! Dünya – mənəm! Gecəsiz, axşamsız, səhərsiz, ulduzsuz, aysız, dağsız, çaysız, bəşərsiz, tarixsiz rənglər, səslər, lisanlar, arzular, xalqlar, talelər çeşidindən kənarda – mən yoxam! Dünyanı sevmişəm. Dünyalaşmışam. Dünyaya çevrilmişəm. Dünyanı özümləşdirmişəm, Özümü Dünyalaşdırmışam!

***Məhəbbətin*** ehtizazlı səsi ətrafa yayıldı:

– Özümü Özümdən Alidə tapıram. Özümdən alini ilahiləşdirirəm, özümü kiçildirəm, ancaq bu kiçilmədə böyüyürəm, çünki ülvi dünyaya qovuşuram. Başqasıyla bir oluram, özümlə başqası arasında sonsuz vəhdət görürəm. Öz Mənliyim ilə Başqasının Mənliyi arasında fərq yox olur.

Sevgilimi qəlbimdə təzədən yaradıram, onu aşiqliyim yaradır. Mənəvi aləmə heyrətlə daxil oluram, bir anda İnsan möcüzəyə, sehrə qərq olur. Sifət, təbəssüm, daxili dünya, ümumən sevgilimin mövcudluğu müqəddəs sərvətə çevrilir. Sözün, səsin mənası, məqamların, günlərin, ayların gözəlliyi səmaviləşir, ürək kainatla həmdəmləşir. Duyğu seli daxilə sığmır, söhbətin ahəngi qeyri-adiləşir.

Mən gəlirəm və ömrə kədər gəlir. Bu kədərin hikməti yanında başqa hikmətlər sönükdür. Onun söylədiyi həqiqət dərin və şairanədir! Sevgilim mənim üçün həyatın özüdür; odur ki, onsuz keçən məqamlarım fəlakətlidir. Məndə insan insanın qədir-qiymətini bilir. Anlayır ki, onsuz dünyada sevinc, gözəllik yoxdur. Məndə şər duyğular: xudpəsəndlik, yırtıcılıq, şöhrətpərəstlik, hakimiyyətsevərlik, şəhvanilik – ölür. Mənəvi aləm büllurlaşır, bəsitlik, eybəcərlik qovulur. Mənim insana gətirdiyim müdrik kədər hərcayi sevincdən üstündür. Dünyaya məhəbbət kədərinin gözüylə baxan şəxs – həssaslığın dərin qatlarına enir. Kədərlənmək – İnsanı yüksək qiymətləndirmək-dir. Mənim kədərim deyir ki, dünyada əvəzsiz xilqət var, ondan ayrı düşmək – dəhşətdir! Mən gəlirəm və çiyinə ağır, dözülməz əzab, əziyyət yükü düşür və Aşiqliyin qəhrəmanlıq, fədakarlıq, özündənkeçmə siqləti üzə çıxır. Məlum olur ki, məhəbbət yükünü hər kəs çiynində gəzdirə bilməz, aşiqlik – ürək ağrısı, göz yaşı, dözüm, maneələr üzərində qələbə deməkdir.

Məhəbbəti gözlərin bəbəyində, iradənin qaya xislətində, sinəyə çəkilən dağlarda yaşadırlar. Ancaq Aşiq öz müsibətli, məşəqqətli ömründə bənzərsiz bəxtiyarlıq, sevinc qazanır. Mən aşiqlərin həyatına ağır xəstəlik kimi daxil oluram. Ancaq həmin xəstəlik Aşiqə dərmanların hamısından şəfalı gəlir. Aşiq həmin xəstəliyin ömrə hakim olmasını istəyir. Çünki bu xəstəlik özü ən böyük nicatdır, çünki nicat eşqdən aşağıdır. Eşq xəstələri məhəbbət xoşbəxtliyinə düçar olurlar. Onlar vəcdin qanadında əlçatmaz yüksəkliyə qalxırlar. Hər kəsin duymadığını, duya bilmədiyini duyurlar və bu duyğuyla pərvazlanırlar! Eşq xəstələri – kamal əhlinə dönürlər, dünyanın, insanın nə olduğunu anlayır, naşılıq bəlasından xilas olurlar. Əslində müdrikliyin zirvəsi – Aşiqlikdir! Aşiqlik Aliyə məhəbbət vasitəsiylə bəşərə məhəbbət səviyyəsinə yüksəlir... Aşiq məhəbbət Qəmi vasitəsiylə dünya qəminə qovuşur! Aşiq məhəbbət əzabı vasitəsiylə dünya əzabına qatlaşır. Məhəbbətə qəhrəmananə – fədakar xidmətlə o, fədakarlığın, qəhrəmanlığın böyüklüyünü təsdiq edir. Başqasıyla Mənəvi vəhdət yaratmaq vasitəsiylə Aşiq Mənəvi vəhdətin zəruriliyini göstərir. Bir sözlə, Aşiq sevgidə əsil insani mövcudluğa yüksəlir.

Mən gəlirəm və aşiqanə sərməstlik yaranır. Bu sərməstlikdə dünyanın eybəcər, bəsit, bayağı tərəfləri unudulur, insan ali hisslər, düşüncələr dünyasına qapılır. Bu sərməstlikdə həyat – birtərəfləşir, məhəbbət aləmində məhdudlaşır. Ancaq bu “məhdud dünyada” sonsuz gözəlliklər, şeiriyyətlər, qəhrəmanlıqlar, musiqilər əmələ gəlir. Məhəbbətlə bağlı nə varsa – görüş dəqiqələrinin ecazkarlığı, hicranın dəhşəti, adi sözlərin qeyri-adi mənası, günlər arasında yaranan məlahətli ahəng, duyğuların duyğulara calanması və bir səmtə axması, gözlərin gözlərlə pünhan söhbəti – ilahilik kəsb edir. Sərməstlik məqamında daxili göz çox iti görür. O, Yerdən, Göydən, zamandan, məkandan aralanır və qeyri-adiliyin mənasına tam qovuşur. Sərməstlik insanı kamillik libası geymiş naşılıqdan, gözəllik libasına bürünmüş eybəcərlikdən, parlaq görünən bəsitlikdən, yalandan, saxtakarlıqdan ayırır. Sərməstlik onu da deyir ki, dünyada məhəbbət dəliliyi adlanan dahi müdriklik var. Bu “dəliliyin” dərk etdiyi həqiqətlər adi şüura sığmır. Məhəbbət dəliliyi deyir ki, sevilən – adilikdən, hamılıqdan, keçicilikdən, ölümə məhkumluqdan təcrid olunur, onun yeni ülviliyi peyda olur ki, ona səcdə qılmaq, özünü həmin səcdədə itirmək gərəkdir. Əgər sevirsənsə – deməli, özündən daha böyük üçün yaşayırsan, ondan kənarda yoxsan, onda yoxa çıxmısan və bu yoxa çıxmaqla sözlə ifadəsi mümkün olmayan səadət əldə etmisən! Həmin dəliliyin, məcnunluğun ali mənası deyir ki, başqasında itmək – bəxtiyarlıqdır, yüksəlməkdir, çünki burada

sənin keçiciliyin, bəsitliyin itir, ölməzliyin, sonsuzluğun, qeyri-adiliyin, sığmazlığın təsdiq olunur.

Həmin müdriklik sənə deyir ki, məhəbbət vəcdinin verdiyi nəşə əvəzsizdir, vəcdə layiq olmayan dünya, naqis ehtirasları öldürə bilməyən dünya – dünya deyil!

Məndə insan özünə və dünyaya sığmır, onlardan kənara çıxır, özünü özündən yüksəkdə tapır. Mən insanı ilahiləşdirirəm, onun özündən böyük mənasını özünə göstərirəm.

Məhəbbətin ruhani kəlamları İnsanın qəlbini nurla doldurdu.

## Mənəviyyat

İnsan anladı ki, özüylə, daxilindəki şər ehtiraslarla döyüşmək lazımdır. Bu döyüş ***İmtina*** zəruriliyini yaratdı. İnsan Şərin vəd etdiyi səadətlərdən əl çəkdi, onları ***heç*** saydı. Onda hərcayi hisslərlə vidalaşmaq əzmi yarandı və o, daxili aləmini eybəcərliklərdən təmizlədi. ***İmtina*** insana dedi ki, sənin daxilində ***hər şey sayılan,*** lakin ***heç nə*** olan duyğular da yaşayır. Onlar ***heçliklə səciyyələnən*** hadisələr törədirlər. Sən dəbdəbəli möhtəşəmliyin, Yerə-Göyə sığmayan qüdrətin ***heçliyini*** dərk etməlisən. Yırtıcılığı sarsılmaz, ölməz qüdrət sayanlar var. Ancaq əsil insan onun heçliyini anlamalıdır, ondan əl çəkməlidir. Yırtıcılıq – qorxudur, məhv edir, öldürür, zəbt edir, ancaq bütün bununla bərabər, o, ***heçlikdir.*** Ümumən dünyada ***hər şey*** kimi təqdim olunan, şərh olunan, təbliğ olunan, əslində ***heç şey olan*** hadisələr var.

Onların heçliyini gözlə və ağılla görmək olmur, ruhla görmək olur.

***GÖZ*** – zahiri tərəfləri görür, mahiyyətə enmir, görünənlə kifayətlənir.

***AĞIL*** – zahirdəkini daxili məzmunla eyniləşdirir. Yalnız RUH heçliyi dərk edir, çünki daxili məzmuna sirayət edir, mahiyyəti aşkara çıxarır.

**RUH** deyir ki, gözün və ağlın heyrət etdikləri əzəmət əslində heçə bərabərdir və ondan İmtina etmək gərəkdir. Heçliyi kəşf etməklə Mənəviyyat Müdriklik qüdrəti qazanır. Hakimiyyət əzəməti – idraki nailiyyət və ilahi qüdrət sayıla bilər. Ancaq ***RUH*** insana deyir ki, bu zabitəli ehtişam əslində heçlikdir və dağ kimi görünən heç daş da deyil.

İnsanların ağlını söndürən, duyğularını bulandıran, iradəsini sarsıdan hakimiyyət ehtirası – bir heçdir.

Şəhvətin mütləq hökmü haqqında təsəvvürlər bəsit ağıllarda kök salsa da, cinsi ehtirasın köləyə çevirdiyi iradələr, yıxdığı evlər hədsiz olsa da – şəhvət heçdir!

Ruhun söylədiyi bu həqiqət İmtina zəruriliyini tələb edir. Ruh deyir ki, gözə görünən çox vaxt hadisənin məzmununu ifadə etmir, cılız mahiyyətini ***hər şey kimi qələmə verən*** hadisələrin əsil mənası heçə bərabərdir.

Şöhrətpərəstliyin, xudpəsəndliyin, hərisliyin azğın hökmü səni aldatmasın. Bu hökm ona görə sonsuz görünür ki, onun heç olmasını insanlar bilmir.

Mənəviyyatın ilk pilləsi – özüylədöyüş məqamı ***İmtina labüdlüyünü*** təsdiq edir.

Bu pillə insanı özüylə və dünyayla razılaşmamağa, kifayətlənməməyə, özündəki heçlikdən azad olmağa çağırır. İnsan mənəviyyatın ilk məqamında dərk edir ki, o, özünü dünyada təbiətin yaratdığı kimi realizə etməməlidir, çünki təbiətin yaratdığı xilqət kimi onun daxili aləmi bulanıq və qaranlıqdır, orada ***hər şeylə*** yanaşı, ***heç şey də var,*** özünün ruhani mahiyyətini, sığmazlıq xilqətini, ilahi böyüklüyünü aşkara çıxartmaq üçün o, mütləq ***heçlikdən*** İmtina etməlidir. Bir sözlə, ***İnsanın həyat və özü qarşısında borcu – özünü daim kamilləşdirmək, özünə yaxınlaşmaq, özünə çatmaqdır!*** Bunun üçün o, özünün müəyyən cəhətlərindən əl çəkməli, təbiətin səhvini düzəltməli, təbiətin verdiyiylə kifayətlənməməli, məhdudlaşmamalıdır.

İnsan qət etdi ki, onun insani aqibətində gərginlik, iradənin Şər ehtiraslar üzərində qələbəsi əsas olacaqdır... İnsan bildi ki, mənəviyyat – İradənin ömürdə ruhani rol oynamasıdır, yəni iradə ruhun tələbi əsasında insanı mənən kamilləşdirir, özünə yüksəldir.

Ruh iradəni istiqamətləndirir. İradə ruhun əmrini yerinə yetirir, nəticədə mənəviyyat yaranır. Təbiətin övladı olan ilkin insan – ruhun, insanın özünün yaratdığı ikinci insana çevrilir. İkinci insanın peyda olması ***İmtina mərhələsində*** baş verir. İmtina deyir ki, Mən – İnsan sən – Təbiətin yaratdığı MƏNlə razılaşmıram, onun naqisliyindən əl çəkirəm və daha gözəl, daha kamil MƏNimi yaratmağa başlayıram.

Mənəviyyatın ikinci pilləsində ***VİCDAN*** qüdsiyyəti təsdiq olunur. Vicdan insana deyir ki, sən insan olduğun üçün məhəbbətli, mərhəmətli, həqiqətsevər, xeyirxah, ədalətli olmalısan! Sən insan olduğun, insan sayıldığın üçün qüdsiyyətdən, ali hisslərdən uzaq ola bilməzsən! Sənin insaniliyin sənin mənəvi hökmdarındır. Mərhəmətsiz, məhəbbətsiz, həqiqətsiz olsan – insanlığın səni dara çəkər. ***Vicdan*** ülviyyətinin ali mənası bundadır. Cəmiyyət

qanunlarının verdikləri cəzayla yanaşı, mənəviyyatın, ruhaniliyin, vicdanın verdiyi cəza da var. Mənəvi eybəcərliyin qəlbini qana döndərər, hissiyyatını sarsıdar, sən özünü cəzalandırarsan və bu cəza dünyada ən ağır cəza olar. Rəhmsizliyin, zalımlığın, qəbahətin zahiri qanunla cəzalanmasa, daxili hakimin əmriylə mütləq cəzalanacaqsan və içərində cəhənnəm odu yanacaq, həmin od səni daim yandırıb yaxacaq.

***Vicdan*** insanı özünün hökmdarına çevirdi, bu, insana verilən ən böyük qiymət idi. Bununla vicdan dedi ki, insan özü üzərində hakim olmağa layiqdir, onun başı üzərində qılınc kimi dayanan cəmiyyət qanunlarından daha qüdrətli, daha təsirli mənəviyyat qanunları var və insan bu qanunların tələbi əsasında yaşamalıdır. ***Vicdanın*** təsdiqiylə İnsan özündə ikinci insanı yaratmaq yolunda böyük qələbə əldə etdi.

***Vicdan*** insan taleyini, aqibətini insanın sərəncamına verdi, onun ali xilqətinə tam inandı, zahiri qanunların nisbiliyini aşkar etdi. O, insanın daxili dünyasında yaşayan ruhani duyğuları kəşf etdi, insanın insan və dünyayla vəhdətini təsdiq etdi. Vicdan vasitəsiylə İnsan özünü yenidən tanıdı; mən özümə sahib ola bilərəm, özümlə döyüşdə qələbə çala bilərəm, özümə layiq ola bilərəm, – dedi.

Mənəviyyatın üçüncü və ən yüksək pilləsində insan Özündənkeçmə müqəddəsliyinə ucalır. Özündənkeçmədə, fədakarlıqda, qəhrəmanlıqda insan özünün özündən yüksək mahiyyətini tam dərk edir.

***Özündənkeçmə*** insanın özünü özündən yüksəkdə büruzə verməsidir. Burada imtinayla özünütəsdiqin əvəzsiz vəhdəti meydana gəlir. İnsan öz həyatından, rahatlığından, adi insani tələblərindən, rifahından imtina edir, özündən əl çəkir. Ancaq bu özündən əl çəkmədə o, özündən daha böyük qüdrətə qovuşur: əqidəyə, məhəbbətə, bəşərə, vətənə, sabaha, ideala! Özünün gerçək Mənindən əl çəkməklə o, ideal, ruhani, bugündə tam aşkara çıxmayan, özündən böyükdə təcəssüm olunan “Mən”inə qovuşur.

Qəhrəman cismən məhv olur, yaxud dəhşətli əzaba düçar olur, Yer səadətindən məhrum olur.

Təbiidir ki, burada İmtina gücü çox böyük olur. Ancaq qəhrəmanlar, fədakarlar, əzabkeşlər bununla həm də özlərini, iradələrini, ağıllarını, mətanəti, qorxmazlığı sonsuz bir gözəlliklə təsdiq etmiş olurlar. Çünki onlar özündən böyüklə eyniləşir, onun ikinci adı, ikinci mənası olurlar. Ən kiçik özündənkeçmə belə, özündən yüksəyə qalxmaqdır. Başqasının əzabını bölüşdürürsən, daxili “Mən”in artır, böyüyür, yüksəlir, sənin “Mən”inə digərinin “Mən”i

qovuşur. Dünyada özündənkeçmə zəruriliyi var və bu daxili zəruriyyətdir. İnsanda özünü başqasına həsr etmək, duyğularını, düşüncələrini başqalarına bəxş etmək, bəşərləşmək, dünyalaşmaq ehtirası güclüdür. Bu meylin arxasında insanın qeyri-şüuri şəkildə özünün sığmazlığını dərk etməsi dayanır. İnsan anlayır ki, özündə qala bilməz, özüylə məhdudlaşa bilməz. O, özündən kənara çıxmalı, özünü özündən böyükdə tapmalıdır. İnsanda həm də özünü qurban vermək meyli böyükdür. Bu duyğuda insanın öz ruhaniliyini anlaması və cismani mövcudluğa qeyri-şüuri etinasızlıq var. Mən cismimi amalıma fəda edirəm və bununla da ruhumu təsdiq edirəm; az əhəmiyyətlini çox əhəmiyyətliyə qurban verirəm. Amalım, Əqidəm, Məhəbbətim o qədər müqəddəsdir ki, özümü onlardan ayrı təsəvvür etmirəm. Onlar məndən böyükdürlər, ancaq mən yalnız onlarda tam özüm oluram. Mən onlara can atıram, özümü onlarda itirirəm, həm də onlara cevrilirəm, onlar oluram. Mənim bəsitliyim itir – qeyri-adiliyim qalır, təkcəliyim itir – hamılığım qalır, adiliyim itir – müqəddəsliyim qalır, təbii varlığım itir –ilahiliyim qalır.

***Özündəkeçmə*** İnsanda özündən yüksəyə olan vəcdin, ehtizazın, heyrətin hüdudsuzluğuyla bağlıdır. Heyranlıq İnsanı özündən kənara çıxarır, aliyə qovuşdurur. Heyran olmaq – özünə sığmamaq, özündə qalmamaq, özündən kənardakına can atmaq, özünü onda itirmək deməkdir.

İmtinada İnsan heyvaniliyindən ayrılır, Vicdanda ləyaqətini təsdiq edir, Özündənkeçmədə özünün özündən böyük mənasını tapır.

## İdrak

İnsan dünyanı əvvəl ***Ağılla*** dərk etdi. Ağıl dünyanı insana tanıtdı, canlıların, cansızların, Yerin, Göyün, tarixin, bugünün xüsusiyyətlərini insana anlatdı. Ağıl insana dedi ki, bunlar hamısı səndən kənardadırlar, sən onları öyrənməli və mənimsəməlisən. Ağıl insana dedi ki, sən dünyaya uyğunlaşmalısan; dünya səndən böyükdür, genişdir, qüdrətlidir, sənin taleyin dünyanın əlindədir. Sən özünün tələblərinlə dünyanın xassələri arasında uyğunluq tapmalısan, ondan istifadə etməlisən. Adi çöpdən başlamış, əzəmətli təbiət möcüzələrinə qədər nə varsa, öyrənməlisən, öz məqsədlərinə tabe etməlisən! Dünya – sənin yaşamaq məskənindir, burada, ömür sürmək üçün lazım olan hər şey var. Sən onları tapmalısan, bilməlisən ki, torpaq sənə nə verə bilər, yağış sənə nə verə bilər, yazın günəşi, qışın qarı sənə necə yarayar, özünümühafizə uğrunda

döyüşdə qələbə çalmaq üçün dünyadan necə bəhrələnmək olar? İldırımın gücü, şimşəyin nərəsi, heyvanat aləminin yırtıcılığı, tarixin gedişatındakı ziddiyyətlər, insani münasibətlərin faydalı və faydasız tərəfləri, dənizlərin, dağların, çöllərin sərvətləri – sənin yaşayışına nə verə bilər? ***Dünya Ağılın güzgüsündə mənimsənilən varlığa çevrildi.***

Bu varlıq insandan kənarda idi, ondan böyük və geniş idi, ona yad idi, ondan uzaq idi, ancaq insana nə lazım idisə özündə cəmləşdirmişdi! İnsan dünyadan öyrənirdi, dünyadan faydalanırdı, ancaq özüylə dünya arasında sədd görürdü. O, dünyadan istifadə edirdi, ancaq dünyanı özümləşdirmirdi, dünyaya qovuşmurdu. Dünya ***Ağılın*** gözündə vəhdət təcəssümü idi, ancaq bu vəhdətin mənasını dərk etmirdi. Ağıl ağacların meşəyə çevrilməsini, meşə yaratmasını görürdü. Ancaq meşə mahiyyətini anlamırdı. Çünki onun üçün meşə müxtəlif ağacların sadəcə məcmusu idi. Ağıl İnsanın da mənasını dərk etmədi. O, insanın fiziki xüsusiyyətlərini təhlil etdi, onun dünyadakı, canlılar və cansızlar arasındakı yerini müəyyən etməyə çalışdı, ancaq İnsan ülviyyətini kəşf etmədi, çünki insana məqsəd kimi yox, vasitə kimi baxdı. Bu səbəbdən də İnsan əvəzinə orqanizm, ət, sümük, qan, hüceyrə yığımı, yaxud cəmiyyətdə itən adi əşya göründü! Ağıl insanı dünyaya yaxınlaşdırdı, ancaq dünyanı İnsandan ayırdı, insan ilə dünyanı bir-birinə qarşı qoydu və nəticədə dünyanın insani mənası gizli qaldı.

İnsanı dünyaya ZƏKA qovuşdurdu. O, insana dedi ki, dünya sənin faydalanmağın, bəhrələnməyin üçün yaranmayıb. Dünyanın mənası bundan sonsuz dərəcə böyükdür və bu məna sənə qətiyyən yad deyil, sən özünün ülviliyinlə ona qovuşursan, onunla bir olursan. Çünki əslində sənin özünün də mahiyyətin həyatdan sadəcə bəhrələnmək, faydalanmaq, dünyaya uygunlaşmaq deyil. Bu, olsa-olsa sənin ən ibtidai mövcudluğundur. Əslində sənin mahiyyətin bu mövcudluğa sığmır, ondan kənara çıxır, dünyayla birləşir. Bu möhtəşəm, əbədi, qədim və daim yeni dünya və sən – birsiniz! Həmin dünya öz ali mənasıyla səni özünə, böyüklüyə, ülviliyə çağırır, sən – Yerin, Göyün, ölkələrin, xalqların taleyindən kənarda yaşaya bilməzsən. Sən öz insaniliyinlə dünyaya labüd şəkildə qovuşmalıydın və bilməliydin ki, dünya ağılın əks etdirdiyi varlığa qətiyyən bənzəmir, onun faydalı məziyyətlərindən hədsiz dərəcədə ali olan mənası var. Dünya – ülviyyət, gözəllik, ahəngdarlıq, müxtəliflik və vahidlik, təzad və vəhdət timsalıdır və həmin xüsusiyyətlər insana doğmadır, ancaq həmin doğmalığı insan yalnız dünyaya qovuşanda hiss edir. Zəka insana söylədi ki, dünya insandan fərqlidir, ancaq onun ali mənası

insandan kənarda deyil, İnsandan kənar olan, uzaq olan – dünyanın keçici əlamətidir.

***İnsan dünyaya qovuşmasa, onu dərk edə bilməz. Dünyaya qovuşmaq – dünyanın mahiyyətini aşkara çıxarmaq deməkdir.***

Ağlın dərk etdiyi vəhdət – zahiri vəhdətdir. Bu vəhdət müxtəlifliyi adi mövcuddur. Zəka tamamilə başqa vəhdəti kəşf edir, burada hadisələrin yeni mənası yaranır. Meşə ağacların sadə məcmusu deyil, onları birləşdirən daha geniş, daha dərin mənanın ifadəsidir! Bəşəriyyət – ayrı-ayrı fərdlərin sadə məcmusu deyil, onlardan fərqli, geniş mahiyyətin ifadəsidir! Tarix müxtəlif hadisələrin, illərin, ayların, qərinələrin cəmi deyil, onlardan daha yüksək mənadır. İnsan – bədən üzvlərinin məcmusu deyil, onlardan kənara çıxan, ciddi surətdə fərqlənən hadisədir. İnsanın dünyaya ağıllı münasibətində insan dünyadan ayrılır.

İnsanın dünyaya ***zəkalı*** münasibətində insan dünyayla bir olur.

İdrakın sonuncu – ***Ruhani*** pilləsində insan dünyadan kənara çıxır, yəni dünyanın dünyadan böyük mənasını kəşf edir. Ruh deyir ki, dünyanın mənası dünyadan böyükdür, dünya görünən dünya deyil. Dünya hadisələrinin görünən cəhətləriylə yanaşı, qeyri-adi, ülvi mənası da var. Qeyri-adi məna dünyadan kənara çıxan, təzahürə sığmayan mənadır. Sevimli Şəxsin Üzü Aşiqin nəzərində Müqəddəs Kitabdır. Bu qiymət adi məntiqə sığmır, ancaq burada əsil, böyük məna öz parlaq ifadəsini tapır. Adi qiymət – müqəddəslik tanımır, onu izah edə bilmir, onun qeyri-adi məntiqini anlamır. İnsani gözəllik – sadəcə cismani kamillik deyil, həm də ilahiliyin ifadəsidir. Bəsit şüur ilahilik tanımır. Buna görə də gözəlliyi dərk etmir. Çörəyin, torpağın, səmanın, analığın müqəddəs mənası – dünyəvilik səddini aşır.

İdrakın Ruhani pilləsində insan dünyaya sığmır, dünyadan kənara çıxır, dünyanın mənasını dünyadan kənarda tapır. Bu, insanın öz adiliyi, cismaniliyi üzərində yüksəlməsidir. ***Dünyanı tanımaq, dünyaya qovuşmaq, dünyadan kənara çıxmaq*** – İnsan idrakının üç başlıca xüsusiyyəti bunlardır.

İdrakın sonuncu – ***Ruhani mərhələsində Vəcdin, Ehtizazın və Vəhyin atəşin fəaliyyəti başlanır.***

***Vəcddə*** – İnsan coşqun ehtiraslar burulğanına düşür, hərarətli heyrət məqamında, həqiqəti, yəni ali mənanı dərk edir.

***Ehtizazda*** – İnsan özünü ali mənada itirir, ona çevrilir, özünü Onda, Onu özündə görür.

***Vəhydə*** – vəcdin və ehtizazın təsiri ilə insan həqiqəti riqqətlə, coşqun, ülvi hissiyyat məqamında ifadə edir. Həm vəcd, həm ehtizaz, həm də vəhydə İnsan həqiqətlə birləşir, Ali məna İnsanın

taleyinə çevrilir. Bu səbəbdən də Ruhani bilik – adi bilik olmur, insanı sarsıdan, öldürən və dirildən, insanları öz arxasınca aparan, ürəklərə, iradələrə sahib olan, dünyanı dəyişdirə bilən, insanı özü üzərində ucalda bilən bilik olur. İnsan idrakla dünyanı dərk edir, ancaq dünyaya sığmır, dünyadan kənara çıxır, dünyanın mənasını dünyadan kənarda tapır və daha ali dünyaya yüksəlir!..

## 6. İdealla söhbət

– Niyə Sən əlçatmazsan: məni cəlb edirsən, cəzb edirsən, çağırırsan, həm də daim məndən uzaqlaşırsan? Niyə sən gerçəklikdə özün olmursan, özünə bənzəmirsən, öz əksinə çevrilirsən?

– Çünki mən SƏNİN hüdudsuz arzularından doğuram. Arzuların sonsuzdur, kamildir, ülvidir, ancaq hissiyyatın, mənəviyyatın, idrakın hələ naqisdir, adidir, nöqsanlıdır. Sən qədim olsan da, özünü tapmamısan, özünə çatmamısan, özünün ali imkanlarından uzaqsan. Sənə sığmazlıq, ruhanilik, müqəddəslik bəxş olunub, ancaq sən onları indiyə qədər tam aşkara çıxara bilməmisən. Bunun səbəbi odur ki, səndə əsil insani ehtiraslarla, düşüncələrlə, meyillərlə yanaşı, naqis duyğular, fikirlər, əməllər də var.

Sənə sığmazlıq, sonsuzluq, ruhanilik bəxş olunub, ancaq sən onları tam aşkara çıxara bilmirsən. Sənin daxili aləmində kamillik, ülvilik, gözəlliklə bərabər, bəsitlik, eybəcərlik, hərcayilik də yaşayır. Sən mənəviyyatını, idrakını, hissiyyatını onlardan təmizləyə bilməmisən.

İdrakının gücü möhtəşəmdir, ancaq onda həqiqətə atəşin məhəbbətlə yanaşı, yanlışlığa, naşılığa, xülyaya meyil də var. Sən həyatda özündən kiçiksən.

Sənə ilahi qüdrət verilib, ancaq sən həyatda Allah ola bilməmisən. Mən sənin ilahiliyinin ifadəsiyəm, ancaq gerçəklikdə zəifliyinin, keçiciliyinin, adiliyinin, natamlığının təcəssümünə dönürəm, özümdən əl çəkirəm, özüm olmuram. Xəyalda, təsəvvürdə, niyyətdə mən sənin Mütləq mahiyyətini, gerçəklikdə nisbi, adi mənanı əks etdirirəm. Mən öz ziddiyyətim, mürəkkəbliyim, ikiliyimlə sənin ziddiyyətini, mürəkkəbliyini, ikiliyini təsdiq edirəm. “Sən busan!” – deyirəm: imkanda sonsuz, qeyri-adi, kamil, gerçəklikdə – keçici, adi, natam!

Sənin özündən təcrid olunmağının ikinci səbəbi – cəmiyyətdir. Sən indiyə qədər insani böyüklüyünü, aliliyini, ruhaniliyini təsdiq edən cəmiyyət yarada bilməmisən! Əksinə, yaratdığın cəmiyyətlərin

hamısı səni özündən ayırıb, səndəki cılız duyğuları, çirkin ehtirasları alışdırıb, ali duyğuları söndürməyə çalışıb, səni əşyalaşdırıb, cansızlaşdırıb. Özünə layiq cəmiyyət yaratmağa idrakının, mənəviyyatının, hissiyyatının gücü çatmayıb. Daxilindəki natamlıqlar, naqisliklər belə cəmiyyəti qurmağa imkan verməyiblər. Yırtıcılığın, xudpəsəndliyin, hakimiyyət ehtirasın, şöhrətpərəstliyin, paxıllığın səni soyuq, yad, qeyri-insani cəmiyyətdə yaşamağa vadar edib.

– Bəs insandan kənarda olan ictimai, iqtisadi qanunlar? Onların mənim taleyimə təsirini inkar etmək olarmı?

– Belə yanlış fikirlərə uyduğun üçün özünə qovuşa bilmirsən. İnsan taleyini ictimai qanunlar yox, insan özü həll edir. Çünki ictimai münasibətlər İnsanı yaratmır, əksinə, insan ictimai münasibətləri yaradır. İctimai münasibətlərin səviyyəsi insan mənəviyyatının, hissiyyatının, idrakının səviyyəsiylə müəyyən olunur. Cəmiyyətdəki naqislik insani naqisliyin ifadəsidir.

Yaxşı cəmiyyət qurmaq üçün yaxşı insan olmalısan. ***Dünyanı dəyişdirmək üçün özünü dəyişdirməlisən.*** Dünya sənin ikinci MƏNİNDİR. Sən – İnsan nəsənsə – Dünya odur. İctimai münasibətləri dəyişdirmək vasitəsiylə İnsanı dəyişdirmək iddiası yanlış xülyadır. İnsanı dəyişdirmədən, ondakı böyüklüyü, kamilliyi, ülviliyi təsdiq etmədən ali cəmiyyət qurmaq olmaz; həmin cəmiyyət tez bir zamanda öz əksinə çevrilər, köhnə vəziyyətinə qayıdar.

İctimai münasibətləri kim dəyişdirir: kamil, yaxud qeyri-kamil adam, vicdanlı, yoxsa vicdansız adam, ülviliyə tapınan, yaxud bəsitlikdə səadət tapan adam, insanı sevən, yaxud insana nifrət bəsləyən adam?! Bütün məsələ bundadır. Naqis insanın yaratdığı dünya mütləq naqis olacaq. Kamil dünyanı yalnız kamil insanlar yarada bilərlər.

– Eybəcər mühitdə, insana zidd şəraitdə İnsan özünü necə kamilləşdirə bilər?

***– Sənin səhvlərindən biri də odur ki, şəraiti, mühiti insandan güclü sanırsan, insanı mühitin, şəraitin məhdud çərçivəsində görürsən***. Sənə elə gəlir ki, mühit insanı istədiyi şəklə sala bilər, özünə inanmırsan, anlamırsan ki, öz böyüklüyünlə, aliliyinlə mühitdən, şəraitdən yüksəksən. Dərk etmirsən ki, sən mühitin qulu deyilsən, onunla daim gizli və aşkar şəkildə döyüşürsən, heç vaxt ona sığmırsan. Ona görə də ən eybəcər mühitdə belə, insan olaraq qalmaq, özünü mənən kamilləşdirmək imkanın var və yalnız özünə yüksəlmək yolunda sən əsil insani cəmiyyət qura bilərsən.

***Cəmiyyətdə İnsanlığını saxlayırsan, artırırsan, öz Ali Mənəvi səviyyənə can atırsan, yüksəlirsən – bununla da cəmiyyəti***

***dəyişdirirsən, indiki səviyyənə uyğunlaşdırırsan. Tərəqqinin əsil yolu budur.***

– Deməli, mən əvvəl özümü mənən yüksəltməliyəm və yalnız bundan sonra həyatı dəyişdirməliyəm?

– Sənin özünə yetməyin və dünyanı dəyişdirməyin vahid hadisədir. ***Sən daxilən təmizlənirsən, böyüyürsən və eybəcər mühitdən mənən aralanırsan, ona qarşı nifrətin, etirazın artır, onun sənin üzərində hakimiyyətini heçə endirirsən, onu zəruriyyət taxtından salırsan, ona zidd olan yeni həyat arzusunu qəlbində və zəkanda yetirirsən və gerçəkliyə çevirirsən.***

Sənin İnkarın əsil, dərin, yetkin İnkar olur, zahiri, kal, tələsik İnkar olmur. Sən arzunu daxilində bəsləyirsən, böyüdürsən və bu səbəbdən də o, uzun ömürlü, davamlı, təbii olur. Sənin yaratdığın Sabah Mənəvi İntibahın Bəhrəsi kimi meydana gəlir, İnsanın yeniləşməsi, kamilləşməsi, böyüməsi, özünə qayıtmasıyla vəhdətdə yaranır.

***İnsan mənəvi böyüklüyünə yaxınlaşdıqca əsil insani cəmiyyətə yaxınlaşacaq.***

Bundan kənarda yaranan yeniliyi tərəqqi saymıram. Ədalətsizliyə qarşı vuruşurlar, ədalətsiz ictimai quruluşu ləğv edirlər, yenisini yaradırlar, ancaq ədalətsizlik yenidən bərpa olunur.

***Anlamırlar ki, ədalətsizlik – insanın hissiyyatında, mənəviyyatında, idrakındadır və onu insanın daxili dünyasından silmədən – cəmiyyətdən silmək olmaz.***

Bərabərlik axtarırlar, zorla fərdi mülkiyyəti ümumi mülkiyyətlə əvəz edirlər, lakin bərabərlik yaranmır. Çünki bərabərsizliyi bir mülkiyyətin başqa mülkiyyətlə əvəz edilməsiylə aradan qaldırmaq olmaz. Əgər insan hissiyyatında, mənəviyyatında, idrakında bərabərsizliyə meyil məhv olmayıbsa, o, cəmiyyətdə də məhv olmayacaq, mütləq başqa biçimdə aşkara çıxacaq. Çünki ləğv olunan fərdi mülkiyyət insanın mənəvi səviyyəsindən doğub, həmin səviyyədən yüksəyə qalxmamısansa, bərabərlik xülyan əbəsdir.

Sənin ən böyük səhvin onda oldu ki, özündən kənar qüvvələrin gücünə uydun, onlarda nicat axtardın, özünü qiymətləndirmədin.

O dərəcədə özünü alçaltdın ki, səni istehsal əlaqələrinin adi ünsürü səviyyəsinə endirdilər. Unutdun ki, cəmiyyəti də, istehsal münasibətlərini də, dövləti də, ictimai quruluşu da yaradan sənsən, onlar sənin mənəvi halını göstərən güzgülərdir. Yanlış fikirlərinlə özünü dəhşətli dərəcədə kölələşdirdin, yaratdıqlarının alətinə çevrildin, miskinləşdin, səadətini özündə yox, ictimai, iqtisadi qanunlarda aradın. Azadlıq axtardın – fikirlərində, təsəvvürlərində

zəncirləndin, ona görə də azadlığa qovuşmadın. Həqiqət axtardın – ehkamla buxovlandın. Ağlının kəsiri səni naşılıq bataqlığına yuvarladı... Naşılığın sənə dedi ki, dünyanı yalnız zorla dəyişdirmək olar. Bu, daxilindəki yırtıcılıq hissini alışdırdı. Nifrət, hiddət, kin odu aləmi yandırdı. Ocaqlar söndü, dünya qan dənizinə çevrildi, nifrətdən nifrət doğdu, qan qanı çağırdı, dünyanı qəzəb suyunda çimdirdilər, ancaq dünya təmizlənmədi, çünki insan məhv oldu.

Müəssisələr dəyişdi – insan dəyişmədi, mənəviyyat söndü. Zorla yaranmış yeni həyat görünməmiş zor yetirdi, zor yalana tapındı, yalan ürəklərə çirkli su kimi axdı, mənəviyyatı bulandırdı. İnsan neçə əsr geri düşdü. Ağlının kəsiri səni inandırmışdı ki, bütün bəlaların səbəbi fərdi mülkiyyətdir. Onu ümumi, ictimai mülkiyyətlə əvəz edən kimi bütün fəlakətlərə, müsibətlərə son qoyulacaq, insan özünə qayıdacaq. Lakin ümumi mülkiyyət insana səadət vermədi, onu əşyalaşdırdı, cansızlaşdırdı, miskinləşdirdi. Məlum oldu ki, insan yenə də özündən Yerdən Göyə qədər uzaqdır. Fərdi mülkiyyətin ümumi mülkiyyətlə əvəz olunması – insanı mülkiyyətin sahibi eləmədi, aləti elədi.

***Zorun*** yaratdığı dünyaya İnsan yox, Zor özü sahib oldu və Zor insana dedi ki, sən ağ günə çıxmısan, əgər bunu anlamırsansa, deməli, cinayətkarsan və səni məhv etmək gərəkdir.

***Zor QORXU*** yaratdı və qorxu ildırımı insanı vurdu. İnsana dedilər ki, arzuladığın səadət elə budur. O, sənin gözünə səadət yox, fəlakət kimi görünürsə, bu, gözün təqsiridir.

Zor dedi ki, həyatın əsasını maddi amillər təşkil edir, ancaq maddi amillərin mənəviyyatdan asılılığını unutdu və maddi rifah yaranmadı. Maddilik xurafatı ruhaniliyi inkar etdi. İnsanı maddi nemətlər istehsal edən alətə çevirdi, ancaq maddi güzəran yarada bilmədi.

Son nəticədə insan cəmiyyətdə itdi. ***“Yeni həyat” yarandı, ancaq orada insana yer tapılmadı.*** Çünki insan dərdin əlacını özündə yox, özündən xaricdə axtardı.

Əgər müəssisələrdə döyüşə həsr elədiyin gücün cüzi bir hissəsini özünü kamilləşdirməyə həsr eləsəydin, istədiyinə çatardın. Ancaq sən mənəviyyatını, idrakını, hissiyyatını çirkabdan təmizləmədən dünyanı çirkabdan təmizləmək niyyətinə düşdün, maddini ruhanidən üstün tutdun və fəlakətli surətdə yanıldın.

– Bəs nicatımı nədə görürsən?

– Səndə Mütləq Mənəvi Qüdrət – Allah var. Onu özündə tap. Onda ali dünyanı taparsan.

## 7. Mütləqlə Görüş

– Sən əbədisən, möhtəşəmsən, sonsuzsan, əvəzsizsən, sənə səcdə qılıram.

– Mən Sənəm, Özünü yaxşı tanı. Mən Səndə Varam.

– Mən Sən ola bilmərəm. Ağlım naqisdir, hissiyyatım bulanıqdır, iradəm zəifdir, qədim olsam da, naşıyam, özümə ləyaqətli həyat qura bilməmişəm, yanlışlıqlar içərisində itmişəm, çox axtarıb az tapıram, yaratdıqlarıma sahib olmamışam, ehtiraslarımı cilovlamağı bacarmamışam, daxilimdəki şəri öldürməmişəm. Mən Sən deyiləm. Sən ola bilmərəm. Özünü mənə oxşatma. ***Sənin yanında mən bir heçəm.***

– Ona görə ki, özündə deyilsən, özün ola bilməmisən. Ruhun alidir, Mütləqdir – onu eşitməmisən! Məhəbbətin ilahidir – onu qəlbindən qovmusan! Müqəddəslik duyğun ülvidir – ondan əl çəkmisən! Peyğəmbərlik siqlətin əzəmətlidir – onu anlamamısan! Özündən aliyə qovuşmaq həvəsin zəruridir – ondan əl çəkmisən! Mahiyyətin, mənan genişdir, lakin mühitə sığmısan! İndiyə qədər sən özün olmamısan!

– Zəif olduğum üçün olmamışam! Zəifliyimi dərk etmişəm və zəif qalmışam. Sən hədsiz dərəcədə güclüsən və bu səbəbdən də gücünü dərk etmisən. ***Mən Sən olsaydım, güclü olardım.***

– Sən öz Allahlığını özündən ayırıb nadir övladlarında təcəssüm etdirmisən. Peyğəmbərlərin səni öz ürəklərində görüblər, dahi sənətkarların əsərlərində vəsf ediblər, musiqidə ilahi səsi eşitmisən, qəhrəmanlarında, fədakarlarında ölümsüz qüdrətini hiss etmisən. Özün isə özündən ayrı düşmüsən, çünki naşılıgın, şərin, naqisliyin sözünü eşitmisən və öz təbiətinin əksinə yaşamısan!

– Hərcayi sözlərə qulaq asanı Mütləq saymaq olarmı? ***Mütləq olsaydım, Şəri eşitməzdim.***

– Sənin ruhani mənan ilahidir, cismani mənan bəsitdir. Daxilində həm Mütləq, həm də Nisbilik yaşayır. Ancaq mahiyyətin – Mütləqdir, buna görə də sən şəri daxilindən silməyə qadirsən. Ancaq sən bunu eləmirsən, Mütləqin gücünə arxalanmırsan, Mütləqi unudursan, onu qəlbində görmürsən və nisbi, natam, bayağı ehtiraslar, düşüncələr həyatına hakim olur. Sən elə bilirsən ki, busan, özünə inamın sarsılır və şər qüvvələr səni öz alətinə çevirir.

– ***Deməli, mən yenə də Sən deyiləm.*** Sən bütövsən, mən yarımçığam, sən vahidsən – mən müxtəlifəm, sən paksan – mən bulanığam.

– Mən ***Mütləqəm, sən özündə Mütləqi gəzdirən.*** Fərqimiz bundadır. Mən İşığam, qəlbinə axmışam. Sən İşığı unutmusan, qaranlığa qovuşmusan. Sənin bütövlüyün mahiyyətindədir, Mahiyyətin isə – Mənəm. ***Sən – Mənsən!***

Mahiyyətinin ifadəsində – Mütləqlə yanaşı, nisbi, yanlış, şər də aşkara çıxırsa – bu səni çaşdırmasın. ***İfadə mahiyyətdən aşağıdır.*** Sənin bəlan ondadır ki, zahirdəkinə uyursan, daxildəkini unudursan, Allahlığından ayrılırsan. O zaman ki, sən öz Peyğəmbərlərinə, Qəhrəmanlarına mənən, idraklı, hissi yaxınlaşacaqsan, onda özün olacaqsan, Mütləqə qovuşacaqsan.

– Demək istəyirsən ki, mənim gücüm sonsuz, duyğularım, düşüncələrim mütləq mənada ülvi olacaq, idealım tam həyata keçəcək, mən Sənin kimi ölümsüz olacağam?! Bu mümkündürmü?!

– Özünü dərindən anla! Bunların hamısı səndə var. Özündən əl çəkdiyin üçün onları özündə görmürsən. Ruhani qüdrətin hüdudsuzdur: o səni ülvi şəxsiyyətə çevirə bilər, daxili aləmini mütləq mənada saflaşdıra bilər, sənə ölümsüzlük bəxş edə bilər, bir şərtlə ki, özündəki Mütləqi görəsən, özünə tam qayıdasan! Əgər özündə Mütləqi görmürsənsə, deməli, insan kimi yaşamırsan. Sən – Mütləqsən, ancaq bunu bilmirsən. Faciən bundadır. Mütləqliyini bilsəydin, ruhsuz, mənəviyyatsız, idraksız həyatı həyat saymazdın, mühitdə itməzdin, maddi nemətlərin əsiri olmazdın, heyvanat dünyasıyla öz dünyan arasında fərqi görərdin, məhəbbətin ilahi mənasını qoruyardın, daxilini çirkin duyğulardan təmizləyərdin, mütilikdən, köləlikdən, qorxu kabusundan xilas olardın, həqiqəti, ədaləti özün qədər sevərdin. Bunlardan ona görə uzaqsan ki, özündəki Mütləqi görməmisən!

– Mütləqdən ayrılmışam, deməli, Mütləq olmağa layiq deyilmişəm! Özünü mənə bənzətmə! Mütləqsən, ona görə də özündən ayrılmamısan!

– Sənin Mütləqə qayıtmaqdan başqa əlacın yoxdur. Nisbi idrakla, mənəviyyatla, hissiyyatla sən yaşaya bilməyəcəksən. Ya Allah olmalısan, ya da ölməlisən! Başqa yol yoxdur!

Mütləqin səsi zəhmli, hökmlü və sərt idi!

## 8. Ölümlə Görüş

– Məni aparmağamı gəlmisən, Ölüm? Gedək. Səndən qorxum yoxdur! Çünki sən məni öldürə bilməyəcəksən! ***Cismim itməyəcək.*** Sabahkılarda təzədən peyda olacaq. Gözüm, üzüm, saçlarım, dodaqlarım kimdəsə təkrar olunacaq. Sən olsa-olsa mənim indiki cismani biçimimi öldürürsən. Bu, ani ölümdür!

Cismimdə nə varsa – başqasında bərpa olunacaq: gözüm birinə qismət olacaq, saçım digərinə, əllərim bir başqasına. ***Cismimdən heç nə itməyəcək.*** Kimsə dünyaya mənim gözlərimlə baxacaq, mənim dodaqlarımla güləcək. Sən mənimlə bacara bilməzsən, ölüm! İndi tamam, vahidəm, sabah səpiləcəm ömürlərə, talelərə!

Ruhaniliyimə heç cür xələl gətirə bilməzsən! Heç bir ali fikrim, duyğum, vəcdim, ehtizazım ölmür! Peyğəmbərliyim, filosofluğum, şairliyim ölmür! Hərarətli misram, vəcdli ideyam ölmür! Bir vaxt naşıydım, zəifdim; gəlişini dəhşət sanırdım, elə bilirdim gəlməyinlə heçə çevriləcəm. İndi başa düşdüm, gördüm ki, qarşımda acizsən! Müqəddəsliyim əbədidir – öldürə bilmədin! Dahiliyim, Qəhrəmanlığım əbədidir – öldürə bilmədin! Məhəbbətim əbədidir – öldürə bilmədin! Zərdüştüm də sağdır – Füzulim də, Muğamatım da sağdır – Nəsimim də, Buddam da sağdır – Platonum da. Ruhum onlarda cəmlənib, onları öldürə bilməmisən!

Sən məndə böyüklüyü öldürə bilmirsən – balacalığı öldürürsən, sonsuzluğu öldürə bilmirsən – keçiciliyi öldürürsən, Mənəviliyi öldürə bilmirsən – heyvaniliyi öldürürsən. Sən mənim bugünümü əlimdən alırsan, ancaq sabaha qovuşdurursan! Mənə oxşayan saysız-hesabsız körpələr gələcək dünyaya və ürəklərdə əbədi ruhanilik gəzdirəcəklər! Naşısan, ölüm! Elə bildin məni Yer üzündən siləcəksən! Səhv elədin, ölüm.

Mənə ölüm Yoxdur!

## 9. Aqibət

İnsanı torpağa basdırdılar. Tabutunun üzərində göz yaşı tökdülər, baş daşına ismini, doğulduğu tarixi həkk elədilər, xatirələrini yad etdilər.

Biri dedi: Gözəl ailə başçısı öldü.

O biri dedi: Səmimi dost öldü.

Biri dedi: Xeyirxah, xalqsevər öldü.

Digəri dedi: İti, parlaq zəka məhv oldu.

Biri dedi: Həssas, zərif, hərarətli ürək sahibini itirdik.

O biri dedi: İşıqlı mənəviyyat söndü.

Mərhumun vəfadarlığından, fədakarlığından, mətanətindən doyunca danışdılar. Lakin bu sözlərin hamısı bir yerdə İnsanı ifadə etmirdi. Çünki İnsan bu deyilənlərdən sonsuz dərəcə artıq idi, onlara sığmırdı. Əslində İnsanı heç kəs tanıya bilməmişdi. O, həyata naməlum gəlib, naməlum da gedirdi, heç kəs onun kim olduğunu dərk etməmişdi, o, dünyaya, adi təsəvvürlərə sığmamışdı, torpağa da sığmayacaqdı, təbiətlə birgə oyanacaq, üzlərə, saçlara, dodaqlara, əllərə, ruhani niyyətlərə, arzulara, fikrə, duyğuya çevriləcəkdi, tapmadığı dünyasını daim arayacaq, arayacaqdı.

***Çiçək ayı, 3-cü il.***
***(Aprel, 1981-ci il).***

# İ N A M

# I FƏSİL:

# MÜTLƏQƏ İNAM

## Ürəkdən Gələn Səs

Dünyada, Həyatda, İnsanda – dünyaya, həyata, insana sığmayan, onlardan yüksək olan, ali, böyük olan, onlarda təzahür edən, nişanələriylə aşkara çıxan, onları böyüdən, yüksəldən Mütləq yaşayır.

Dünyada, Həyatda, İnsanda gözəl, kamil, ülvi nə varsa – hamısında Mütləq var. Gözəlliklər, ülviliklər, kamilliklər Mütləqin əlamətləridir. Ancaq dünyada, həyatda, insanda gözəlliklərlə, kamilliklərlə, ülviliklərlə yanaşı, eybəcərliklər, naqisliklər, bəsitliklər də yaşayır. Mütləq onlara yaddır, düşməndir, onları rədd edəndir.

Mütləq – dünyada, həyatda, insanda nə varsa, hamısını kamilləşməyə, ucalmağa, şərə, çirkinliyə qələbə çalmağa sövq edir, onları özlərindən kənara çıxarır, Mütləq gözəlliyə, Mütləq xeyirə səsləyir, onların qarşısında sonsuz üfüqlər açır, onlara sığmazlıq xisləti bəxş edir. Dünya, Həyat, İnsan çoxcəhətlidir, əlvandır, mürəkkəbdir, ziddiyyətlidir, bulanıqdır, ancaq həm də Mütləqlə səciyyələnən, yetişən, gözəlləşən, özündən yüksəyə qalxan, sonsuzluğa doğru hərəkət edəndir. Dünyanın, Həyatın, İnsanın məziyyətləri nisbi səciyyə daşıyır. Nisbi gözəllik, nisbi kamillik, nisbi xeyir var dünyada. ***Lakin nisbidə Mütləq var****.* Nisbi gözəlliyin, nisbi kamilliyin, nisbi xeyirin mayasında Mütləq yaşayır.

Əslində nisbilik nisbi olanın mahiyyətini ifadə etmir. ***Nisbiliyin mahiyyəti nisbi deyil, Mütləqdir***. Bu o deməkdir ki, nisbi öz nisbiliyində qalmayacaq, onun üzərində qələbə çalacaq, daxilində yaşatdığı Mütləqin çağırışıyla, təsiriylə, hökmüylə daha yüksək mövcudiyyata qədəm qoyacaq, özündə dayanmayacaq, özündən ucalığa can atacaq. Mütləq – dünyanı, insanı, həyatı Mütləqə doğru istiqamətləndirir; onlara əbədi kamilləşmə, gözəlləşmə, ülviləşmə səadəti verir.

Bir tərəfdən Mütləq bizə deyir ki, nisbi hadisələrə ciddi yanaşın, onları düzgün qiymətləndirin – onlar Mütləqin təzahürləridir. Onlar nisbi olsa da, özlərində Mütləqi daşıyırlar. O biri tərəfdən Mütləq bizə deyir ki, nisbi gözəlliklər, xeyirlər, kamilliklər öz indiki səviyyələrində qalmayacaq, Mütləqə yaxınlaşacaq, özlərindən yüksəyə qalxmağa meyil göstərəcək, artacaq, böyüyəcək, gözəlləşəcəklər.

Mütləq heç vaxt özünü hadisələrdə tam ifadə etmir, lakin hadisələrin heç birini özündə dayanmağa, özüylə kifayətlənməyə qoymur, onları özünə, Mütləqə yaxınlaşdırır.

Mütləq – hadisələrin daxilində yaşayır və hadisələri öz arxasınca aparır. Mütləq ilə hadisələr arasında həm qırılmaz əlaqə, həm də sonsuz sədd var. Hadisələrin heç biri və hadisələrin hamısı bir yerdə Mütləqi bütövlükdə ifadə etmir. Ancaq Mütləq heç vaxt hadisələrdən kənarda olmur. O, Hadisələrdə yaşayır. Hadisələr də öz növbəsində heç vaxt tək Mütləqdən ibarət olmur. Onlar həm də naşılıqdan, yanlışlıqdan, şərdən, çirkinlikdən ibarət olur. Ancaq hadisələr həmişə Mütləqin hökmünə əməl edir, Mütləq olmağa can atır. Dünyanın heç bir məqamı, vəziyyəti – Mütləq məziyyətə malik olmur. Ancaq dünyanın heç bir məqamı, vəziyyəti həm də özündə qalmır, özündən kənara çıxmağa can atır. Bu baxımdan, Mütləq zamanın əbədi gedişatında, Sabahda, bir-birini əvəz edən sonsuz məqamlar, vəziyyətlər, hadisələr axarında yaşayır. Dünya, Həyat, İnsan – Mütləqin təsiriylə, Mütləqin istiqamətində, Mütləqin yollarında addımlayırlar.

Mütləq ağlasığmaz dərəcədə kamildir, əlçatmazdır, təsəvvürə gətirilməz dərəcədə alidir, bu səbəbdən də o, dünyanın, həyatın, insanın ülvi xislətini təyin edir. Bu səbəbdən də dünya, həyat, insan heç bir vəziyyətdə qalmır, bu vəziyyətdən kənara çıxır, onunla kifayətlənmir, onun üzərində yüksəlir.

Beləliklə də ***Mütləq – bugündə nişanələriylə, əbədi Sabahda bütöv mövcudluğuyla aşkara çıxan, nisbi hadisələrin daxilində yaşayan, ancaq onlara sığmayan, onları özlərindən kənara çıxarıb özünə yaxınlaşdıran, Dünyaya, Həyata, İnsana Ali Daxili Qüvvə, İstiqamət və Meyar olan bir Qüdrətdir.***

Bu Qüdrəti laboratoriyalarla, riyazi hesablamalarla, elmi tədqiqatlarla dərk etmək olmaz. Çünki o, ağılasığmazdır. Ağıla sığmamaq – var olmamaq deyil. Mütləq ağıla sığmır, gözlə görünmür, ancaq o, var: ***– Dünyanın, insanın, həyatın ideala yaxınlaşmaq meylində, bugünlə sabahın təmasında, dünyanın daimi dəyişməsi, təkmilləşməsində, insanın özüylə, dünyayla, həyatla kifayətlənməməsində, daim ədalətə, həqiqətə can atmasında, idrakda, sənətdə, qəhrəmanlıqda, təbiətin sehrində.*** Mütləq heç vaxt tam gözə görünmür, çünki tarixə, dünyaya, həyata sığmır, gözlə görünən onun nişanələridir. Ancaq o, var. ***Çünki dünya nisbidə dayanmır.***

Nisbinin nisbidən yüksəyə qalxması – Mütləqin yaşamasıdır. Bu meylin ölməzliyi, əbədiliyi Mütləqin yaşamasıdır. Dünyanın Mütləqə yaxınlaşdırmaq istiqamətində əbədi gedişi – Mütləqin yaşamasıdır.

Yaşamaq – yalnız zahirə çıxmaq deyil.

Yaşamaq həm də hadisənin daxili məzmununu, inkişaf meyilini müəyyən etmək, onun hərəkətverici qüvvəsinə çevrilməkdir. Bu baxımdan, Mütləq həmişə yaşayır, hadisələrin daxilində təzahür edir, həm də hadisələri özlərindən kənara çıxarıb, özünə yaxınlaşdırır.

Əgər dünyada, həyatda, insanda Mütləq olmasaydı, dünya, həyat, insan nisbi hadisələrə pərçimlənib qalardı, sabahla bugün arasında fərq olmazdı, dünya, həyat, insan artmazdı, İnsan özünüdəyişdirməyə, insanı yaxşılaşdırmağa çalışmazdı, dünya, həyat, insan yerində sayardı.

İnsan özünü özüylə yox, Mütləqlə müqayisə etdiyindən özündən yüksəyə qalxdı, özüylə razılaşmadı, kifayətlənmədi.

O, ən yaxşı insanı yox, Mütləqi özünə meyar seçdi. Mütləq insanın əsil inkişaf tarixini yaratdı. Onda ki, İnsan özünü Mütləqlə yox, özüylə, İnsanla müqayisə etdi, özüylə razılaşdı, barışdı, kifayətləndi, onda adiləşdi, kiçildi, çünki insanın ən alisi belə, İnsan üçün azdır. Mütləqdən ayrıldıqca insan müflisləşdi. Mütləqə qovuşduqca yüksəldi.

Mütləqə can atmaq, özünə Mütləq ölçüsüylə yanaşmaq İnsanda özüylədöyüş ləyaqəti yaratdı və İnsan özünü təsdiq etməklə yanaşı, özünü inkar etməyi də öyrəndi və özünün özündən böyük səviyyəsini dərk etdi.

Köhnə peyğəmbərlər Mütləqi Allah adlandırdılar və həyatı, dünyanı, insanı yaradan Qüdrət saydılar. Onlar həyatda, dünyada, insanda Mütləqin olduğuna inanmadılar. Onlara elə gəldi ki, dünyanı, həyatı, insanı kimsə yaratmalıdır.

Onlar bəlkə də bilmədən, istəmədən Mütləqi insanilşdirdilər. İnsan alətlər yaradırdı və onlara elə gəlirdi ki, dünyada nə varsa, hamısının yaradıcısı var. Bu yaradıcı – Allahdır. Yeri-göyü, kainatı yaradan odur.

İstəmədən, bilmədən peyğəmbərlər Mütləqi kiçildirdilər, insan səviyyəsinə endirirdilər, ona insan səviyyəsində yanaşırdılar. Onlara elə gəlirdi ki, böyüklüyün yeganə meyarı yaratmaq qabiliyyətidir. Əgər Allah yeri-göyü yaratmayıbsa, yer-göy özü peyda olubsa, deməli, Allah mütləq gücə malik deyil.

Bu, yanlış təsəvvür idi. Peyğəmbərlər Mütləqin mütləqliyini həyatın, dünyanın, insanın özündə görmürdülər.

Onlar mütləq qüdrətin olduğunu dərk etmişdilər, həmin Qüdrətə səcdə qılır, onu ürəklərində gəzdirir, bəşəriyyəti həmin Qüdrətə məhəbbət ruhunda bəsləyirdilər, həmin Qüdrəti Ali Varlıq səviyyəsində insanlara təqdim edirdilər. Ancaq onu dünyadan, həyatdan, insandan tam ayırırdılar. Ali Qüdrət dünyanı, həyatı, insanı yaradırdı, ancaq ondan təcrid olunurdu. O, dünyanın daxilində yox, fövqündə yaşayırdı. Peyğəmbərlər dünyanın heç bir varlıq tərəfindən yaradılmamasına inanmırdılar. Onlar yeri, göyü, dünyanı, insanı yarada bilməyənin Mütləq Qüdrətə malik olmasını ağıllarına gətirmirdilər. Əgər Mütləqsənsə, deməli, Dünyanı yaratmalısan, Dünyanı yaratmayırsansa, deməli, Mütləq deyilsən. Dünya öz-özünə yarana, yaşaya bilməz! Həyatda hər bir hadisənin yaradıcısı var, deməli, dünyanın da yaradıcısı olmalıdır. Həmin yaradıcı Allahdır.

Allahı dünyanın yaradıcısına çevirən peyğəmbərlər onu qeyri-ixtiyari olaraq insani keyfiyyətlərlə səciyyələndirirdilər. Allah insan kimi qeyzli, mərhəmətli, amansız, ağıllı olurdu, insan kimi yaşayırdı, bəndələrinə sahiblik edirdi, insanları cəzalandırır, mükafatlandırır, cənnət-cəhənnəm divanı, cin-şeytanlar, hurilər-pərilər aləmi icad edirdi. Bir sözlə, peyğəmbərlər özləri də hiss etmədən Mütləqi Mütləqlik taxtından salır, onu nisbilik səviyyəsinə endirirdilər. Allah qeyri-insani möhtəşəmliyə malik olurdu, ancaq insan münasibətləri, xasiyyəti məntiqinə uyğun davranırdı. Allahın o dünyası da mahiyyət etibarilə bu dünyaya, insani dünyaya bənzəyir. İlahi möcüzələr – insan arzularını, niyyətlərini ifadə edirdi. Allah insan diləklərindən, təxəyyülündən çox asılı idi. O, həm də haradasa yer hakimlərinə bənzəyirdi. İnsanların Allaha münasibətində rəiyyət – hakim əlaqələri təkrar olunurdu. Allaha baş əyirdilər, ondan qorxurdular, çəkinirdilər, ona yalvarırdılar, ondan səadət umurdular.

Bir sözlə, peyğəmbərlərin yeri, göyü, insanı yaradan Allahı əslində İnsan mövcudluğunu təqlid edirdi. Üstəlik, zehinlərə həkk olunan xurafat cəfəngiyyatı Mütləqin ülvi mənasına xələl gətirirdi və inkarçılar həmin naqislikdən istifadə edib Mütləqi dandılar. Allahla döyüş əslində dünyanın, həyatın və insanın ali mənasıyla döyüş oldu. İnkarçılar dünyadan, həyatdan, insandan Mütləqi sildilər və dünyaya, həyata, insana dəhşətli zərbə vurdular. Dünyanı, həyatı, insanı nisbi hadisələrin cəminə çevirdilər, nisbi hadisələrə qapılıb qaldılar, yalnız olanı gördülər, olanda yalnız nisbini sezdilər, nisbiyə tapındılar… Görünənə sığındılar, dünyada, həyatda, insanda dünyadan, həyatdan, insandan yüksək heç nə tapmadılar, dünyayla, həyatla, insanla kifayətləndilər, barışdılar. Dünyanın, həyatın, insanın

nisbi mənasını saxladılar, Mütləq mənasını itirdilər. Dünya müqəddəslik mahiyyətindən məhrum oldu.

Əgər dünyadakılar nisbi məziyyətə malikdirlərsə, nisbi məziyyətlərin arxasında heç bir mütləq məna dayanmırsa, dünyanın gedişatında Mütləqə yaxınlaşmaq meyli yoxsa, deməli – onda qeyri-adi xüsusiyyət, müqəddəs mahiyyət axtarmaq əbəsdir. İnsan elə insandır, yəni nisbi keyfiyyətlərə malik bir varlıqdır, onda nisbi mənadan kənara çıxmaq, mütləq məna axtarmaq lazım deyil. Əgər insan bütöv mahiyyət kimi adidirsə, deməli, onun müxtəlif keyfiyyətləri: məhəbbəti, analığı, qəhrəmanlığı, fədakarlığı və s. də müqəddəslikdən məhrumdur. Beləliklə də insanı ucaltmaq niyyətini aləmə car çəkən inkarçılıq əslində insanı son dərəcə alçaltdı, qiymətdən saldı.

Mütləqi alçaltmaq yoluyla İnsanı ucaltmaq cəhdi acı nəticə verdi. Müqəddəsliyin ləğvi həm də dünyanı İnsanın gözündən saldı.

Köhnə peyğəmbərlər dünyaya inanmadılar, onu icad edən Qüvvə axtardılar. İnkarçılar yenə də dünyaya inanmadılar, ona xas olan mütləqliyi dandılar. Hər ikisində şübhə hökm sürür. Əslində isə dünyanın yaradıcısı allah yoxdur, ancaq dünyaya ülvilik, kamillik, gözəllik gətirən Mütləq var və o özünü dünyada aşkara çıxarır. O, dünyanın ümumi gedişindən, istiqamətindən kənarda deyil, dünyanın daxilindədir, o hər bir nisbi hadisənin, tarixi məqamın mənasından böyük, ali və yüksəkdir, bu baxımdan, özünü dünyanın, həyatın, insanın sonsuz, əbədi gedişatında realizə edir. Onu adi gözlə görmək olmaz, onun şəklini çəkmək olmaz, ancaq o var. Onu dünyanın, həyatın, insanın daimi kamilləşməsində görmək olar.

Əgər dünya bir yerdə qalmırsa, dəyişirsə, gözəlləşirsə, ülviləşirsə, – deməli, Mütləq var!

Əgər insan bir vəziyyətdə qalmırsa, özüylə kifayətlənmirsə, özüylə döyüş vasitəsiylə özünün üzərində ucalırsa, özündən daha kamil, daha ali olursa, – deməli, Mütləq var!

Əgər həyat bir səmtdə, bir məqamda qalmırsa, dayanmırsa, daim yaxşılaşmağa, gözəlləşməyə meyil edirsə, – deməli, Mütləq var!

Əgər şərə qarşı nifrət azalmırsa, əksinə, artırsa, əgər xeyirə qarşı məhəbbət azalmırsa, əksinə, çoxalırsa, əgər məşəqqətlərə, yanlışlıqlara, xülyalara, qəddarlığa baxmayaraq, bəşər şərin yox, xeyirin arxasınca gedirsə, – deməli, Mütləq var!

Əgər Məhəbbət, Müqəddəslik, Ülviyyət naminə ölənlər həmişə tapılırsa, əgər heç bir qüvvə Qüdsiyyət odunu söndürə bilmirsə, – deməli, Mütləq var! Dünyanın, Həyatın, İnsanın Meyarı – Dünya, Həyat, İnsan ola bilməz – yalnız Mütləq ola bilər. Dünyanın, Həyatın,

İnsanın əsas yolu – Mütləqə aparan yoldur. Əsil mövcudluq – Mütləqə yaxınlaşmaqdır.

Bu sözlər Əbədi, Sonsuz, Müqəddəs qəlbdən gələn səslərin əks-sədası idi. Onlar qədimlərdən gəlib Əbədi Sabaha yollanırdı.

## Təbiətdə Mütləq

***Dağların vüqarı*** – Mütləqin ifadəsidir.

Çünki burada dağın adi xassəsi yox, gözəl mənası aşkara çıxır.

***Qürub çağının qüssəsi*** – Mütləqin ifadəsidir.

Çünki burada təbiət məqamının sadə cəhəti yox, ali xüsusiyyəti aşkara çıxır.

***Qışın qarı*** – Mütləqin ifadəsidir. Çünki burada təbiətin paklıq, saflıq, xalislik rəmzi olan keyfiyyətləri meydana çıxır.

***Göyün şimşəyi*** – Mütləqin ifadəsidir. Çünki burada göyün möhtəşəm qüdrəti təsdiq olunur.

***Fəsillərin bir-birini əvəz etməsi*** – Mütləqin təzahürüdür. Çünki burada əbədi, pozulmaz, qırılmaz Məntiq təsdiq olunur.

Ceyran məsumluğunda, şir əzəmətində, durna uçuşunda Mütləq yaşayır. Səhər oyanmasında, gecə sehrində Mütləq yaşayır. Günəşin öz şəfqətini yerə səxavətlə paylamasında, yağışın torpağa hərarətlə səpələnməsində, sərv ağacının göyə ucalan qamətində, çayın axarında, yolların sonsuzluğunda, çöllərin genişliyində Mütləq yaşayır. Torpağın insanla doğmalaşmasında, Vətən səviyyəsinə qalxmasında Mütləq yaşayır. Yaranışda, doğuluşda Mütləq yaşayır. Bülbülün nəğməsi, çiçəyin məlahəti – Mütləqin ifadəsidir. Bunlar nisbi hadisələrin daxilində olsalar da, nisbiyə sığmırlar, nisbidə dayanmırlar. Mütləq keyfiyyətlər hadisələrə yeni məna, gözəllik, ülvilik verir.

Dağın vüqarı dağın mənasını dəyişdirir. Qürub çağının qüssəsi qürub çağının mənasını dəyişdirir. Qışın qarı – qışın mənasını dəyişdirir. Bülbülün nəğməsi – bülbülün mənasını dəyişdirir, onu nisbilikdən ayırır.

Təbiətin əlindən Mütləqliyi al və o, həmin an solsun, sönsün. Torpağın vətən səviyyəsini əlindən al və torpaq – kiçilsin, adiləşsin, bəsitləşsin! Yolların sonsuzluğundakı, çöllərin genişliyindəki şeiriyyəti onlardan al və çölləri, yolları həmin an öldür.

Mütləqsiz təbiət ölü təbiət olardı! O, yox olan kimi var olardı. Nisbiylə kifayətlənərdi, nisbidə dayanardı, qalardı. Qəlbi çağırmazdı,

sevindirməzdi, kədərləndirməzdi, riqqətə gətirməzdi. Özünü realizə etməzdi, natam qalardı.

Nəğməsiz bülbül – bülbül deyil, yeri lərzəyə salmayan şimşək – şimşək deyil, vüqarsız dağ – dağ deyil!

Təbiət təkcə Mütləqdən ibarət deyil, onda nisbi keyfiyyətlər daha çoxdur. Onda Mütləqin tam özü yox, nişanələri, əlamətləri yaşayır və həmin əlamətlər, nişanələr nisbi keyfiyyətlərlə yanaşı yaşayır. Təbiət tam Mütləqə çevrilə bilmir, ancaq təkcə nisbiylə də kifayətlənmir, Mütləqi özündə daşıyır. Lakin Mütləq əlaməti təbiətə tamamilə yeni məna verir, təbiət adi mənasından kənara çıxır. İnsan artıq təbiətə təbiət kimi baxmır. O, dağla, çəmənlə, çayla, asimanla daxilən bir olur, onlarda özünü görür, onlarla qaynayıb-qarışır, onlara qovuşur. Təbiətlə insan arasında sədd aradan qalxır. İnsan indi təbiətdə yalnız nemət axtarmır, müqəddəslik axtarır. Təbiətdə isə nisbi Mütləqlə yanaşı yaşayır, özünü təsdiq etməyə can atır və buna nail olur.

Qış yalnız qar gözəlliyindən ibarət olmur, həm də şaxta amansızlığından ibarət olur; baharda oyanma, canlanma sehriylə yanaşı, dağıtma şəri də olur; payız yalnız ali kədərlə yox, həm də təbiətin saralıb-solmasıyla səciyyələnir. Qartal məğrurluğunda həris yırtıcılıq da yaşayır, şir əzəmətində quzu fəryadı səslənir; şimşək gözəlliyə qıyır.

Hadisə Mütləqi heç vaxt tam ifadə etmir, o həmişə Mütləqin bir tərəfini ifadə edir, Mütləq nisbiylə əhatə olunur. Günəş – göyün ali səxavətidir və bu baxımdan Mütləqin təzahürüdür. Ancaq günəş istisində canlı üçün təhlükə var. Günəş səxavəti canlını yandırmaq təhlükəsini də özündə yaşadır. Təbiətin elə bir gözəlliyi, ülviyyəti yoxdur ki, onda natamlıq, nisbilik, naqislik olmasın. Lakin təbiətdə həmişə Mütləqin təzahürləri, ifadələri, nişanələri var. Təbiət tam Mütləq olmur, ancaq Mütləqsiz də olmur. Təbiət Mütləqin böyüklüyünü, qeyri-adiliyini naqisliklə təzad şəklində göstərir; şər ilə xeyiri yanaşı yaşadır, onların vəhdətindən mürəkkəblik yaradır və Mütləqi həmin vəhdətin işığında təqdim edir. Dünyanı qaranlığa qərq edən gecə – ürəyimizi riqqətə gətirir; sevinclə yanaşı, qəm doğan səhər – xəyalımızı qanadlandırır; təbiəti solduran payızın nəğməsindən doymuruq; şaxtasında donduğumuz qışa mahnılar qoşuruq; cismimizi isladan yağışda səma sehri görürük.

***Ən çətin vəziyyətdə, ən ağır məqamda belə, Təbiət bizə Mütləqin təbəssümüylə gülümsünür.***

## Cəmiyyətdə Mütləq

İnsan cəmiyyəti ona görə yaratdı ki, tək qalmasın, başqalarıyla birləşsin, qüdrətini, gücünü artırsın, hamılaşsın, xudpəsəndliyinin üzərində qələbə çalsın. Bu arzu onun qarşısıalınmaz cismani və mənəvi tələbindən doğmuşdu.

İnsan özündə qala bilməzdi, özünü başqalarında tapmalıydı. Bu, mənəviyyatın Mütləq hökmü idi. Ancaq cəmiyyətdə insan özünü təsdiq edə bilmədi. Çünki cəmiyyət bütöv şəkildə Mütləq səviyyəsinə qalxmadı; cəmiyyətdə Mütləqin yalnız nişanələri, əlamətləri var idi və onlar naqis keyfiyyətlərlə əhatə olunmuşdur. İnsan öz təkliyindən ayrılıb cəmə qovuşmaq istədi, bu – Mütləqin təzahürü idi. Ancaq cəmiyyət Mütləqin tələblərindən uzaq idi. O, özündə Mütləqin nişanələrini gəzdirirdi, ancaq həm də Şəri yaşadırdı. Bu baxımdan, bəşər tarixi Mütləq ilə Şərin döyüşü tarixi sayılmalıdır.

Cəmiyyət şərdə, naqislikdə, çirkinlikdə dayanmadı, cünki onun daxilində Mütləq var idi və o, cəmiyyəti bir vəziyyətdə dayanmaga, qalmaga qoymurdu. Ancaq cəmiyyətin gedişi heç vaxt Mütləqin tam qələbəsiylə nəticələnmirdi, çünki həmişə cəmiyyətdə Mütləqlə yanaşı, qeyi-Mütləq, anti-Mütləq, şər, eybəcərlik, naqislik olurdu. İnsanın Mütləq mahiyyətli arzusu həmişə nisbi, natam şəkildə həyata keçirdi.

***İnsan özünü tapmaq üçün cəmiyyət yaratdı, ancaq özünü cəmiyyətdə itirdi.*** O, öz qüdrətini, gücünü, imkanlarını realizə etmək üçün cəmə qovuşdu, ancaq onun qüdrətini, gücünü, imkanlarını cəmiyyət sahibləri mənimsədilər.

Tənhalıqda insan "məni" insana ağırlıq edirdi, cəmiyyətdə o, həmin "Məndən" əl çəkməli oldu. Birincidə "Mən" var idi, ancaq o, yükə çevrilmişdi, ikincidə o, yoxa çıxdı. Birincidə insan özünü "Mənliyinin" sərəncamına vermişdi, ikincidə cəmiyyət hakimlərinə. Birincidə insan təklik qazanmışdı, ikincidə zülm. Zülm insanın əlindən ləyaqətini alır, onu özündən tam ayırır, əşyalaşdırırdı; insana sahiblik edirdilər və bu sahiblikdə o, yox olurdu.

***O, ot kimi, daş kimi, çöp kimi yaşayırdı.***

Cəmiyyətdə Şərin Mütləqlə düşmənçiliyi kəskin, amansız və ardıcıl şəkildə meydana çıxırdı: Mütləq dediyini Şər inkar edirdi. Ancaq Mütləq ölmürdü, yaşayırdı, özünü Ədalət Arzusu şəklində büruzə verirdi. Həmin arzu ən murdar cəmiyyətdə belə yaşayırdı. Cəmiyyət onu məhv etməyə çalışırdı, bacarmırdı, əbədi tələbi ürəklərdən qova bilmirdi. Son nəticədə həmin Arzu zülmkar cəmiyyəti dağıdırdı və onun yerinə yeni cəmiyyət yaradırdı. Ancaq həmin

cəmiyyətdə ədalət bərqərar olmurdu, elan edilirdi, vəd olunurdu, lakin həyata keçirilmirdi. ***Orada Mütləqin yalnız nişanələri görünürdü.*** Cəmiyyət yenə də natam, nisbi məziyyətlərə malik olurdu. Mütləq yenə Şərin əhatəsində yaşıyırdı. Bəzən hətta Şər Mütləqin üzərinə kölgə salırdı. Bu vaxt insanlara elə gəlirdi ki, Mütləq onları tərk edib, dünya Şərin əlindədir. Ancaq Ədalət hissi ən qaranlıq səmada belə parlayır, cəmiyyəti bir vəziyyətdə, bir məqamda dayanmağa qoymur və insanların qəlbində Azadlıq adlanan ülvi arzu yaradırdı.

Bir zamanlar insan cəmiyyətdən azad idi, ancaq dünyadan, təbiətdən asılı idi. Sonra insan cəmlə birləşdi, dünyadan asılı olmadı, dünyanı özünə ram etdi, ancaq başqa insandan asılı oldu, başqası onu özünə tabe etdi, azadlığını əlindən aldı.

İndi insan özünün insandan asılılığını dəf etməyə başladı. Cəmiyyətlə vuruşdu, azad cəmiyyət arzuladı. Elə bir cəmiyyət ki, insan səlahiyyətlilərin, amansız, antiinsani qanunların köləsinə, alətinə çevrilməsin. Bu döyüşdə o, müxtəlif yollar aradı, gah dövləti tam ləğv etmək fikrinə düşdü, gah cəmiyyətin yüksək silkini öldürüb, aşağı silkini saxlamaq istədi, ancaq arzusuna çatmadı, itirilmiş “Mən” bərpa olmadı. Mütləq cəmiyyətə hakim olmadı, yalnız nişanə, əlamət kimi aşkara çıxdı. Ancaq nişanə, əlamət kimi təzahür edən Mütləq cəmiyyəti özüylə razılaşmağa, barışmağa qoymadı, onu özündən kənara çıxmağa sövq etdi. Təkcə Mütləqlə yox, həm də Şərlə, natamla, nisbiylə səciyyələnən cəmiyyət Mütləqin təsiriylə, hökmüylə Mənfiylə döyüşdü, ancaq onu məhv etmədi, yer üzündən silmədi. Şər yenidən bərpa olundu, yaşadı. Şərsiz cəmiyyət yoxdur, ancaq Mütləqsiz də o, yoxdur. ***Şər ölmür, fəqət Mütləq də ölmür.*** İnsan taleyinin faciəviliyi və böyüklüyü elə bundadır. İnsan idrakı və mənəviyyatında İnamla Şübhəni, Kədərlə Ümidi birgə yaşadan budur.

Şər özünü cəmiyyətdə hakim sayanda belə, Mütləq mövcud olur və Şərin məhvini hazırlayır. Lakin bir şəkildə, bir vəziyyətdə, bir tarixi məqamda məhv olan Şər, başqa şəraitdə, başqa biçimdə yenidən meydana çıxır. Ancaq Mütləqi yox edə bilmir. Şər olan yerdə Mütləq də olur, Mütləq olan yerdə Şər də.

Cəmiyyətdə İnsan özünün yaradıcı mahiyyətini aşkara çıxarmaq istəyirdi. O, bu mahiyyəti dövlət yaratmaqda görürdü. Dövlət onun iradəsinin, ağlının və duyğularının təsdiqi olmalıydı. O, Mütləq Qüdrətin ifadəsi kimi düşünülmüşdü. Dövlət Qanunlarında İnsan Özünün təbiət, heyvanat üzərində qələbəsinin rəmzini görürdü. O, həmin qanunlara müqəddəslik əzəməti vermək xəyalındaydı. Onlar insanın ləyaqətini qorumalı, vüqarını təsdiq etməli, onu ucaltmalı,

yüksəltməli, Mütləqə yaxınlaşdırmalıydı. Əslində isə Qanunlar insanı sevmədi, alçaltdı, kiçiltdi, dövlət insanı zəbt etdi. Ancaq cəmiyyətin daxilində Şərlə yanaşı, heç vaxt ölməyən, itməyən Mütləq cəmiyyəti həmin qanunlarla kifayətlənməyə, onlarda qapılıb qalmağa qoymadı, onu yeni qanunlar aramağa, özünün indiki vəziyyətindən kənara çıxmağa vadar etdi. İnsan ona görə cəmə qovuşdu ki, xalisləşməyə, insaniləşməyə, mənəvi təmizlənməyə meyildə özünə arxa, dayaq tapsın. Ona elə gəldi ki, başqalarıyla birləşəndə o, öz yırtıcı, heyvani xüsusiyyətlərindən daha mütəşəkkil şəkildə azad ola biləcək. Ancaq cəmiyyət insandakı yırtıcılığı daha da alışdırdı, insanilik, bəşərsevərlik əvəzinə insanların bir-birinə qənim kəsilməsi qəbahəti peyda oldu, insan insana heyvani münasibət bəslədi, bir-birini didib-parçaladı, qırıb-tökdü, vəhşiləşdi.

Mütləq niyyət həyata keçmədi. Ancaq Mütləq insanları vəhşiləşmə məqamına əbədilik pərçimlənməyə qoymadı, onu daxildəki eybəcərliklə döyüşməyə çağırdı, lakin Şəri ürəklərdən qova bilmədi. Mütləqlə Şərin döyüşü davam edir…

## İnsanda Mütləq

İnsanın Mütləq mahiyyəti Ruhda aşkar oldu. Ruh insanı özündən yüksəyə qaldırdı, həm də dünyanın, həyatın dünyadan, həyatdan daha böyük mənasını ona anlatdı.

***Ruh*** vasitəsiylə İnsan həyatı, dünyanı, özünü yenidən yaratdı və yaratdıqlarının heç birinə sığmadı, ülviyyətə, sonsuzluğa qovuşdu.

Ruh vasitəsiylə İnsan dünyanı insaniləşdirdi, insanı dünyalaşdırdı, duyğularına, ehtiraslarına yeni məna verdi, insanı heyvanilikdən ayırdı, onun insani taleyini yaratdı. Ruh vasitəsiylə İnsan təbiətə insani məzmun verdi, həm də onunla yanaşı, öz insani aləmini yaratdı.

Ruh insana dünyaya sığmamaq qüdrəti bəxş etdi. Ruh dünyayla insanın ali əlaqəsini təsdiq etdi. Ruh insana dedi ki, hadisələrin adi mənasına inanma. Onların mənası özlərindən böyükdür.

Ruh insana dedi ki, gerçəklik həmişə azdır, mahiyyəti həmişə ifadə edə bilmir. Bu səbəbdən də insan onda dayanıb qala bilməz, onunla kifayətlənə bilməz. İnsanın həyat səmti – Sabah yönlüdür.

Ruh dedi ki, dünyanın mənası dünyadan yüksək olduğu kimi, insanın da mənası onun mövcudluğundan yüksəkdir. İnsan bir tərəfdən dünyanın ali mahiyyətini dərk edir, bilir ki, dünya yalnız

görünən, ağılla dərk olunan dünya deyil, həm də ondan daha böyük dünyadır. Digər tərəfdən, o bilir ki, dünyaya sığmır.

İnsan həm dünyanın hissəsidir, həm də dünyadan böyükdür. Dünya insanı yaradıb, ancaq İnsan dünyayla kifayətlənmir.

***İnsanı dünya yaradır, ancaq insan həm də öz dünyasını yaradır.*** Ruh insana iki mütləq xassə verdi: dünyada, həyatda, insanda dünyadan, həyatdan, insandan daha böyük məna görmək və dünyayla, həyatla, insanla kifayətlənməyib, onlardan daha böyük, daha gözəl, daha ali, insani dünya yaratmaq.

Ruh insana dedi ki, gördüyün adini adi sayma, onu ali say, çünki dünyanın gözəlliyi, ülviliyi təzahüründən yüksəkdir, ağılının dərk etdiyi və gözünün gördüyü dünya əsil dünya deyil, onun natam, nisbi ifadəsidir. Ruh insana həm də onu dedi ki, dünya öz əsil mahiyyəti etibarilə nə qədər yüksək olsa da, insan üçün azdır. ***Ona görə də insan öz dünyasını mütləq yaratmalıdır.***

Dünya necə varsa, azdır, İnsan öz aləmini yaratmalıdır. Həyat necə varsa, azdır, sən, İnsan, yeni, ali və yüksək həyat yaratmalısan! Sən, İnsan, necə varsansa, azsan, özündən daha ali, daha yüksək, ülvi İnsan yaratmalısan!

Ruh dünyaya, həyata, insana sığmadı, dünyayla, həyatla, İnsanla razılaşmadı, barışmadı, yeni dünya, yeni həyat, yeni insan yaratmaq yoluna qədəm qoydu, özündən kənara çıxdı və qarşısıalınmaz ardıcıllıqla, vəcdlə, ehtizazla Mütləqə qovuşmağa can atdı.

Ruhun Mütləq Mahiyyəti onun Mütləqlə bir olmaq meylində aşkara çıxır. Bununla Ruh İnsanın dünyada yerini, mövqeyini təyin edir.

Sən – insan bütün canlılardan fərqli olaraq, dünyaya yalnız həyat sürmək, qidalanmaq, özünü mühafizə etmək, cismani tələbləri ödəmək üçün gəlməmisən. Sən özündən böyüyə, aliyə ucalmaq, heyvaniliyi rədd etmək, Mütləqə yüksəlmək üçün gəlmisən. Bu səbəbdən də heyvanat aləminə xas olan keyfiyyətlər səndə yeni mahiyyət kəsb edir, mənəviyyatında ülvilik peyda oldu, analıq, qəhrəmanlıq, aşiqlik, idrakilik qüdsiyyəti doğdu. Şəhvaniliyin üzərində qələbə çalıb məhəbbət yaratdın, xudpəsəndliyi öldürüb, qəhrəmanlıq zirvəsinə qalxdın, özünü dostluqda tapdın, idrakınla dünyaya qovuşdun, ideal arzulara, niyyətlərə tapındın, dünyayla, özünlə kifayətlənmədin, Mütləqlə bir olmağa can atdın. Dünya, həyat sənə nə verdisə – az oldu, həm də dünyanın, həyatın əsil mənasını dərk etdin. Məhəbbətdə özündən yüksəyə calandın, dostluqda özündən kənara çıxdın, musiqidə Mütləqin səsini eşitdin, idealda dünyanı, həyatı və özünü kamillik zirvəsinə qaldırmaga cəhd göstərdin,

gözəlliyin mənasını kəşf etdin, ülviyyəti qəlb evinə gətirdin, əqidə, amal Müqəddəsliyinə səcdə qıldın, cəmiyyətə, mühitə, sığmadın. Dünyada Mütləqin nişanələrini gördün və ona heyrət etdin. Başqa İnsanda Mütləqin təzahürünü gördün və Aşiqlik ülviyyəti əldə etdin. Dünyanın Mütləq mənasını dərk etməyə çalışdın və dahilik yüksəkliyi əldə etdin. Amalda – Mütləqin ifadəsini tapdın və cəngavərlik Qüdsiyyəti əldə etdin. İnsanı Mütləqə yaxınlaşdırmaq Qüdrətində Mütləq Məna kəşf etdin və Peyğəmbərlik siqləti əldə etdin.

Bəsitdə, bayağıda dayanmadın, ucalığa, sonsuzluğa meyil etdin və xəyal ənginliyi əldə etdin. Mütləqi sadəcə dərk etmədin, o, sənin qəlbində, Mənəviyyatında təzahür etdi və onları təlatümlü, vəcdli, ehtizazlı duyğularla doldurdu. Mütləq Mənəviyyatını həm işıqlandırdı, həm də sarsıtdı, həm nizamladı, həm də vəcd məqamına çatdırdı.

İnsanın Mütləqə pərəstişi Mütləq səciyyə daşıyıb. İnsan sevgilisinə baxıb – onda Mütləqi görüb! Dostuna baxıb – onda Mütləqi görüb! İdealına baxıb – onda Mütləqi görüb! Amalına, əqidəsinə baxıb – onda Mütləqi görüb! Özünə baxıb və özündə Mütləqə canatma tələbi görüb və özünü mənən təmizləməyə, ülviləşdirməyə, xalisləşdirməyə, özündən yüksəyə qaldırmağa çalışıb.

Mütləq tələb onda Əxlaq zəruriyyəti yaratdı. Əxlaq insanı çirkabdan, eybəcərlikdən, heyvanilikdən xilas olmağa çağırdı.

***Vicdan*** – başqasının Mütləq mənasını dərk etmək, onu qiymətləndirmək, sevməkdir.

Sən İnsansan, deməli, Başqasına yalnız ***Başqası*** kimi baxa bilməzsən, ona özünə baxan kimi baxmalısan! Vicdanın tələbi budur!

Heyvanat aləmi – yırtıcı aləmdir və bu aləmdə başqası – yaddır, düşməndir, şikardır, qurbandır. Sən isə başqalarına belə münasibət bəsləyə bilməzsən – vicdanın ağrıyar.

Dünyadakıların hamısından fərqli olaraq insan dünya tərəfindən həyata gətirilir, ancaq özü tərəfindən yenidən yaradılır. Dünyanın verdiyindən insan tamamilə yeni varlıq, keyfiyyət yaradır.

Həyata yeni canlı gətirmək təbiətə xas olan ümdə xüsusiyyətdir. Ancaq insanda o, ***Analıq*** ülviyyətinə yüksəlir. Analıq – mehrin, məhəbbətin, dözümün, fədakarlığın, özündənkeçmənin ali, rəmzi səviyyəsinə qalxır.

Təbiətdə dişilik kimi meydana gələn bir keyfiyyət insanda ***qadınlıq*** ucalığına çatır. Burada daxili zəriflik, mənəvi və cismani məlahət, sehirli, sirli əzəmət, mərhəmət, nəvaziş öz gözəl ifadəsini tapır.

Təbiətdə erkəklik şəklində təzahür edən bir keyfiyyət insanda ***kişilik*** möhtəşəmliyi yaradır. Burada mətanət, vüqar, iradə, cəsarət özünün parlaq ifadəsini tapır.

Təbiətdə yalnız nəsil artımına və fizioloji ehtiyaca arxalanan cinsi əlaqələr, insanda məhəbbət şeiriyyəti və ***ailə*** qüdsiyyəti yaradır, ***ata-ana*** müqəddəsliyi, ***övlad*** ləyaqəti törədir.

Dünyadakıların hamısı gerçəkliklə, bugünlə məhdudlaşır, ona pərçimlənir, ancaq insan gerçəkliyə sığmır, ondan kənara çıxır.

Dünyadakıların hamısında Mütləqin nişanələri olur. Ancaq onlar üçün Mütləqin özü yoxdur, onların heç biri Mütləqi dərk etmir, Mütləqlə yaşamır. Tək insan Mütləqi Mənəviyyatında görür, onunla bir olmağa can atır.

Dünyadakıların hamısı təbiətə təmənnalı münasibət bəsləyir, onu mənimsəyir. Yalnız insan dünyaya təmənnasız münasibət bəsləyir, təbiətə heyrətlə baxır, onu insaniləşdirir.

Dünyadakıların hamısı üçün dünya ondan kənarda mövcuddur. Yalnız insan üçün dünya onunla birgə yaşayır. İnsan özüylə dünya arasında fərqi gördü, ancaq bu, insanı dünyayla yadlaşdırmadı, insanla dünyanın vəhdətinə mane olmadı.

Dünyadakıların hamısı təbiətlə bir qaldılar, yalnız insan təbiətdə qala bilmədi, ondan ayrıldı, öz dünyasını, tarixini, idrakını yaratdı, ancaq təbiətə biganə qalmadı, onu sevdi.

İnsan dünyadakılardan ayrılmalıydı, çünki onlardan çox uzağa getmişdi, fərqlənmişdi, öz ruhani xilqətiylə dünyaya sığmırdı. Dünyadakıların heç biri dünyanı dərk etməmişdi, onlar üçün dünya dolanma mənbəyi idi, onlarda təmənnasız dərketmə ehtiyacı yox idi. Yalnız insanda sönməz və sonsuz idrak eşqi yaşayırdı.

Dünyadakıların heç birində Xeyir və Şər təsəvvürü, Xeyirə qarşı məhəbbət, Şərə qarşı nifrət yox idi. Yalnız insan Xeyiri Şərdən ayırdı, Xeyir ilə Şərin dərin, təzadlı fərqini, Xeyirin Müqəddəsliyini, Şərin qəbahətini dərk etdi, Xeyiri sevdi, Şəri lənətlədi.

Dünyadakıların heç birində maddi həyatdan kənara çıxan mənəvi ehtiyac yaranmadı. İnsan üçün maddi həyat az idi, əsil insani yaşayış ondan kənarda, onun üzərində idi.

Dünyadakıların heç birində ideal, kamil dünyaya meyil yox idi. Yalnız insan kamil dünya, kamil həyat və kamil insan idealı yaratdı.

Dünyadakıların hamısından fərqli olaraq, insan söz səlahiyyətinə malik oldu və söz vasitəsiylə Mütləqi ifadə etdi. Dünyadakıların hamısı nə dünyaya qovuşa bildi, nə də dünyada öz müstəqil mahiyyətini saxladı.

Yalnız insan həm dünyaya qovuşdu, həm özünün müstəqilliyini saxladı, həm də özü olaraq qaldı.

Dünyadakıların heç biri başqası üçün ölmək, əzab çəkmək böyüklüyünün nəşəsini dadmadı. Bu ali səadət yalnız insan bəxtinə düşdü.

Dünyadakıların hamısı qismətini dünyaya tapşırdı, öz qismətlərinin sahibi olmadı! Tək insan öz qismətinin sahibi oldu.

Lakin insan da başqa canlılar kimi Mütləq ola bilmədi, çünki onda naqislik, natamlıq, eybəcərlik oldu. İnsan təbiətdən ali, Mütləqdən aşağı oldu. Mütləqə ən çox yaxın oldusa da, Mütləqlə insan arasında böyük sədd peyda oldu. İnsan Mütləq qədər möhtəşəm, pak, gözəl, müqəddəs ola bilmədi. Naqislik, natamlıq, eybəcərlik onu addımbaaddım izlədi, Məhəbbətlə yanaşı, qəlbində qızğın şəhvət yaşadı. Mərhəmətlə yanaşı, nifrət, kin-küdurət, vəhşi parçalamaq hərisliyi insanda qoşalaşdı: insan dünyanı qan dənizinə qərq etdi.

Vicdanla yanaşı, xudpəsəndlik, qəddarlıq, amansızlıq, xəbislik, hakimiyyət ehtirası insan ülviyyətini sarsıtdı.

Analıq, yüksək qadınlıq şeiriyyəti ilə yanaşı, nəşəsevərlik, məkr, var-dövlət əsarəti! Həya, ismət qüdsiyyətiylə yanaşı, vəhşilərdən miras qalmış hərcayilik! Kişi qeyrətiylə yanaşı, kişi qorxaqlığı, alçaqlığı, qəbahəti! Mənəvi ləyaqət əvəzinə – azğınlıq, xəyanət, hiylə! Həqiqət eşqi əvəzinə – yalana tapınmaq, yarımhəqiqətə qapılıb qalmaq, həqiqətdən qorxmaq!

İnam əvəzinə – xurafat, qorxu, zor!

Gözəlliyə səcdə əvəzinə – eybəcərliyə qovuşma! Heyvanilikdən qorxmaq əvəzinə – mənəviyyatdan qorxmaq! Ruhani duyğularla yaşamaq əvəzinə – maddi mənfəətdə ilişib qalmaq! Özüylə döyüş əzəməti əvəzinə – çirkin ehtirasların gözəl ehtiraslar üzərində qələbəsi! Özündənkeçmə əvəzinə – böyüklükdən, ucalıqdan, əsillikdən keçmə! Fədakarlıq əvəzinə – fəndgirlik, ruhanilik əvəzinə – yırtıcılıq! Mütləqə qovuşmaq əvəzinə – cılız “Mən”ə qovuşmaq və onu Mütləq saymaq! Əsil Mütləq əvəzinə – saysız-hesabsız yalançı Mütləqlər!

İdealda Mütləqə can atmaq və gerçəklikdə nisbiyə çatmaq! Xeyrə can atmaq və Şəri qəbul etmək! Aldanmaq və aldatmaq, əsil böyüklüyü görməmək, kiçiklikdə böyüklük axtarmaq! Bugündən kənara çıxmaq həvəsi və bugündə dayanmaq ətaləti! Ani olaraq ülvilik zirvəsinə qalxmaq və onda dayana bilməmək, bəsitliyə enmək! Əzabkeşliyi vəsf etmək və əzabdan qaçmaq! Ali niyyəti alçaq vasitələrlə həyata keçirmək! Ruhani qohumluğu rəqabət yadlığıyla zəhərləmək! Vəhşiliyi damğalamaq və daim özündə daşımaq! Özünə

inanmaq və özündən əl çəkmək! Günahdan çəkinmək və günaha meyil etmək! Bir biçimli şəri məhv edib, başqa biçimli şəri qəbul etmək! Eybəcərliyi ülvilik şəklində təsdiq etmək!..

İnsan Mütləq olmağa çox cəhd göstərdi. Ancaq ola bilmədi.

Daxilindəki naqisliklər, eybəcərliklər, natamlıqlar buna imkan vermədi, özünün əvvəlki çirkinliklərindən və sonra qazandığı qəbahətlərdən xilas ola bilmədi. Lakin Mütləq İnsan, Mütləq Dünya və Mütləq Həyat inadından əl çəkmədi. Nə qədər ki, bu niyyət vardı, İnsan yaşayırdı. Həmin niyyət, arzu ölsəydi, İnsan da ölərdi.

## İdealda Mütləq

İdeal – insanda həmişə Mütləq səviyyəsində peyda olur.

İdeal – gerçəklikdə həmişə nisbi səviyyədə təsdiq olunur. İnsan öz idealında həyata sığmır. İnsanın İdeal aləmi həmişə gerçəklikdən üstün olur. Burada gerçəkliyə xas olan naqisliklər, natamlıqlar, eybəcərliklər aradan qalxır.

İdealda İnsan Mütləq gözəlliyi, Mütləq kamilliyi, Mütləq xeyiri təsdiq edir. Bu cəhətdən İdeal həmişə gerçəkliyə zidd olur, onunla razılaşmır, barışmır, kifayətlənmir.

İdealın gerçəkliyə dediyi söz: "Sən azsan, məhdudsan, qeyri-kamilsən" – sözü olur.

İdeal – gerçəkliyin inkarı kimi meydana çıxır. İdeal həmişə Mütləqdir, həyat həmişə nisbidir.

***İnsan Mütləqə can atır, nisbini tapır.***

Mütləq tələb, arzu, niyyət gerçəklikdə nisbi nəticə verir. Həyatda aşkara çıxan, təzahür edən, özünü büruzə verən ideal deyil, onun natam, nöqsanlı əlamətidir.

***İdealın tam bu günü olmur, yalnız əbədi sabahı olur.*** İnsan qeyri-ideal gerçəklikdə yaşayır, ancaq qəlbində, ağlında, arzularında ideal gözəlliyi, xeyiri, kamilliyi yaşadır. Gerçəklik insanı təmin etmir, o, gerçəklikdən qat-qat gözəl, kamil həyat istəyir.

***Gerçəkliklə razılaşan, barışan İdeal – İdeal deyil!***

Gerçəklikdə İdeal Mütləqliyini itirir, ancaq insan həyatla kifayətlənmir və İdealın arxasınca gedir. ***İnsan Mütləqsiz keçinə bilməz.***

***İnsan Mütləq axtarır – nisbi tapır, ancaq nisbidə dayanmır, Mütləqin arxasınca gedir.***

İdeal cəmiyyət axtarır – tapa bilmir, ideal gözəllik axtarır – tapa bilmir. Lakin əbədi axtarışdan əl çəkmir. ***Çünki ideala ehtirası Mütləq səciyyə daşıyır.***

Dünyadakıların heç biri İdealın Mütləqiliyini ifadə etmir. Qeyri-gerçəklik xüsusiyyətinə malik olmayan İdeal – İdeal deyil. Gerçək imkana sığan İdeal – İdeal deyil.

Gerçəklikdə ideal olmadığı halda İnsan Mütləq kamillik arzusunu haradan alır? Ruhani tələbin hökmündən! Ruh insan mənəviyyatında gerçəkliklə kifayətlənməmək ülviyyəti yaradır.

Canlıların hamısı üçün gerçəklik kifayətdir. İnsan üçün o, kifayət deyil! Çünki ruhani xislət Mütləqi tələb edir. İnsanın İdeal arzularıyla gerçəkliyin imkanları arasında yerlə-göy qədər fərq var. Gerçək – həmişə asılıdır, ideal niyyət azaddır. Gerçək – həmişə imkana tabedir, ideal niyyət imkandan genişdir. Gerçəklik – həmişə məhduddur, İdeal – həmişə sonsuzdur. Gerçəklik – keçicidir, İdeal – əbədidir. Gerçəklik – həmişə nisbidir, İdeal – həmişə Mütləqdir. Gerçəklik – ölüm tanıyır, İdeal – ölüm tanımır. Gerçəklik qəbahət tanıyır, İdeal – qəbahət tanımır. Gerçəklik – eybəcərlik tanıyır, İdeal – eybəcərlik tanımır. Gerçəklik – Şər tanıyır, İdeal – Şər tanımır.

İdeal – insanın ruhani dünyasında Ali Ümid kimi yaranır, gerçəklikdə kədər kimi yaşayır. Mütləq inam nisbi nailiyyətlə nəticələnir, nisbi nailiyyət Şübhə törədir, Şübhə Qüssəni həyata gətirir. Ancaq Şübhə İdeala əbədi meyli öldürə bilmir. Kədər çılğın səslənir, ancaq ruhun Mütləq diləyini məhv etmir, kədər toxumundan ümid ağacı bitir.

Həyatda sonsuz məhəbbət istəyir insan – ani, keçici qüdsiyyət görür. Əbədiyyət arzulayır – ölüm görür. Əbədi həqiqət arzulayır – xülya qazanır. Özünü, İnsanı Mütləq mənada kamil görmək istəyir – nisbi mənada kamil görür.

Dünyaya Mütləqin tələbiylə yanaşan İnsan öz məntiqini həyatın məntiqinə qarşı qoyur. Ancaq insan şəri Mütləq mənada həyatdan silmək istəyir. Bu baxımdan, İnsan hardasa antigerçək, antihəyatdır.

Həyatı həyat eləyən Şər ilə Xeyirin döyüşüdür. İnsan bu döyüşü yox etmək, bitirmək istəyir. Onun daxilində yaşayan mütləq rühani tələb – Şəri Yer üzündən silmək, yoxa çıxarmaq zəruriyyətini meydana gətirdi. Bu baxımdan, İnsan dünyadan, həyatdan qat-qat üstün olan yeni həyat, yeni dünya, hardasa antihəyat, antidünya yaratmaq səyinə gəlib çıxır.

Əslində İnsanın məqsədi – Şəri tamamilə ləğv etmək, Şərsiz həyata çatmaqdır. Lakin Şərsiz gerçəklik yoxdur. Bu ziddiyyətdə İnsan mövcudluğunun dərin, faciəvi mahiyyəti aşkara çıxır. Dünya,

Həyat nisbi məziyyətlərə malikdir, onda yaşamaq üçün ona nisbi tələblə yanaşmaq gərəkdir, çünki dünya yalnız nisbi tələblərə cavab verir, nisbi tələbləri ödəyə bilir.

İnsan isə nisbi tələblərlə kifayətlənmir, həyata Mütləq həyat baxımından yanaşır və həmin baxımdan dünyanı kamilləşdirməyə səy göstərir.

Mütləq mənada kamilləşən dünya – Şəri öz daxilindən silən dünyadır. Şərsiz də həyat yoxdur. Bu səbəbdən də insan arzularının gerçəklənməsi – əslində həyatın məhvi, Yeni həyatın, həyata bənzəməyən həyatın təsdiq olunması deməkdir.

Bu niyyətin daxilində kəskin faciəvilik var. Ancaq İnsanın Mütləq qüdrəti faciəvilik təhlükəsinin qarşısında dayanıb qalmayacaq, onu adlayıb keçəcək, öz ruhani xislətini təsdiq edəcək.

Şərsiz dünya İdealını insan – o dünya, apokalipsis, Hürmüzd qələbəsi idealında, Buddanın İmtinasında ifadə edir.

Bu dünyaya bənzəməyən o dünya var. Cənnət aləmində Şərə yer yoxdur. Bu dünyanın Ali və Dəhşətli ittihamı başlanacaq. Xeyir tam qələbə çalacaq və onun dünyası bərqərar olacaq.

Budda insanı şər dünyasından, onun bütün nemətlərindən azad olmağa və öz daxilində şərsiz dünya yaratmağa çağırırdı.

Zərdüştün Hürmüzdü gec-tez Şər allahı Əhrimən üzərində qələbə çalmalı və Mütləq mənada ədalətli dünya yaratmalı idi.

İnsan kainata xas olan əbədi qanunlarla da razılaşmırdı. O, ölümlə, insanın ölümə məhkum olmasıyla barışmırdı, əbədilik arzusunu ruhun ölümsüzlüyü ideyasında ifadə edirdi.

İnsanın mahiyyəti ruhdur, ruh isə ölmür, deməli, İnsan bütün canlılardan fərqli olaraq təbiətin qanunlarına tabe olmur.

İnsanın ali mənada antihəyatiliyi, antigerçəkliyi onun ölümü rədd etməsində parlaq şəkildə aşkara çıxır.

İnsan gerçəklikdə özü ola bilmir, özündən ayrılır, kiçilir, alçalır, ancaq öz Mütləq mahiyyətindən əl çəkmir və gerçəklikdən kənara çıxır. Bəzən o, Mütləq arzuyla həyat arasında hədsiz ziddiyyətdən usanır və gerçəkliyə uyğunlaşan, adi təsəvvürlərə sığan süni ideallara tapınır. Adini – ideallaşdırır, gerçəkliyi mütləqləşdirir. Lakin nisbi idealın yalançı mahiyyəti tez üzə çıxır və insan onu qəlbindən qovub yenə də Mütləqə üz tutur.

İdeal əlçatmazdır, ancaq insan ideala aparan yollarda yorulmur. İdeal tam həyata keçmir, ancaq həyatı özündə qalmağa da qoymur, irəli aparır.

İdeal insanda tam təzahür etmir, ancaq onu özündə qalmağa qoymur, özüylədöyüşə sövq edir. Özündə tam ideala çatmayan,

Məcnunluğunda, dahiliyində, qəhrəmanlığında ona yaxınlaşan insan Mütləqə səcdə saflığına ucalır.

İnsan ideala çatmadı, ancaq özündə dayanmadı, Mütləqə can atdı, özü üzərində yüksəldi.

## Mütləq Tələb

Mütləqə İnamın Mütləq olsun! Özünü Mütləqlə müqayisə et! Mütləqi Kamillik, Gözəllik və Xeyir meyarına çevir!

Özünə tələbin Mütləq olsun!

Gerçəkliyi Mütləqləşdirmə – Mütləqdən uzaqlaşarsan!

Həyata sığınma, onun üzərində yüksəl!

Mütləqin nişanələrini sev, onların ali mənasını qan, bu mənaya heyrət et!

İdrakın vəcddən ayrı düşməsin, Mütləqə və onun əlamətlərinə vəcdin işığında bax!

Qəlbin Mütləq eşqiylə çırpınsın, Mütləqlə danışsın!

Xeyirə məhəbbətin, Şərə nifrətin Mütləq olsun!

Dünyadakı Mütləqə inan və dünyayla barışma!

Özünlə qane olma, bil ki, həmişə öz Mütləq mənin üçün azsan! Sən Mütləqin nişanəsisən, zəmanədən üstünsən, yüksəksən, zəmanənin havasına oynama, qoy zəmanə sənin havana oynasın!

Daxilini nəzarətsiz qoyma, oraya oğrular, qarətçilər girə bilər.

Günahını bağışlama – Mütləqi küsdürərsən!

Maddini yüksək tutma – orada Mütləqilik yoxdur!

İmtinan Mütləq olsun!

Mütləqə çatmaq əzmin Mütləq olsun!

Hərəkətlərində, fikirlərində, duyğularında Mütləqlə görüş!

Ömrünü Mütləq kökündə sazla!

# II FƏSİL

# DÜNYAYA İNAM

## Xeyirli Dünya

Ümidlisən, məhəbbətlisən, səmalısan, baharlısan, müjdəlisən, bərəkətlisən, səxavətlisən, cavanlısan, gözəllisən, bulaqlısan, səslisən, rənglisən, musiqilisən, sözlüsən, mərhəmətlisən, məlahətlisən, paklısan, nurlusan, qəhrəmanlı – fədakarlısan, torpaqlısan, çaylısan, mehirlisən, vüqarlısan!

Körpəlikdə – ana səsi, ilk günəş şüası, gecə ənginliyi, meşələrin ilk qüssəsi, əllərin əllərə mehri, sədalarla dolmuş təbiət, ilk gül, ilk mehr, doğmaların istisi, kəndinə, şəhərinə, evinə heyrət, ilk qar, ilk mahnı, düşüncə, arzu tumurcuqları.

Gənclikdə – təbiətlə birləşməyin, yerlə-göylə bir olmağın, sevginin musiqisi, hicran anının məşəqqətli ülviyyəti, dostluq kitabının oxunması, qəlbin təlatümlü, tufanlı çağı, duyğu seli, arzuların səmaviliyi, idrak eşqinin alışması, qeyri-adiliyə qovuşma, torpaqda, daşda insan nəfəsi duymaq, gözlərin, üzlərin ali mənası, hərarətli İnam, qüdsiyyət yağışında çimmək!

Yetkinlikdə – Atalıq-Analıq səadəti, kişilik səlahiyyəti, qadınlıq ləyaqəti, vicdan əzəməti, qələbələr, nailiyyətlər şərafəti, özünütəsdiq bəxtiyarlığı, xalqsevərlik ülviyyəti, məhəbbətin, dostluğun kamilliyi, idrakın məhsul vədəsi, ömür çayının aramla axması, musiqinin, sözün mənəviyyatla birliyi, ülfət gözəlliyi, yenidən doğulmaq səadəti!

Qocalıqda – ürək səbatlığı, dünyanı anlamaq kamilliyi, örnək olmaq səlahiyyəti, Mütləqlə təmas müqəddəsliyi, idrakın zirvə məqamı, mənəviyyatın paklıq vədəsi, başqalarında özünü görmək qüdsiyyəti, Ağsaqqallıq məlahəti, düşüncə, duyğu ciddiyyəti, ruhani rəvanlıq, ömürdə qədimliyin ifadəsi!

Ey dünya, sən yalnız bunlardan ibarət olsaydın, mən səni Mütləq sanardım, səndə dayanardım! Ancaq Xeyirli Dünya olduğun qədər də Şərli Dünyasan! Buna görə də mənim üçün azsan!

## Şərli Dünya

Ölüm, aldanış, məkr, kin, riya, şəhvət, xurafat, qəbahət, köləlik, zülm, xəyanət, həqarət!

Çağırırsan, cəlb edirsən və məhv edirsən, düz yol adıyla azdırırsan, dəniz vəd edib, damla verirsən, mələk libasında görünürsən – ifritə xislətində olursan, mərhəmətli bilinirsən – qəddar davranırsan, xilas yolu göstərirsən – quyuya salırsan, yola dəvət edirsən – yarı yolda qoyursan, mərifəti – qəlbdən, həyanı – üzdən, qeyrəti – kişilikdən, isməti – qadınlıqdan qovursan, böyüklüyə qənim kəsilirsən, zəifi tapdalayırsan, həqiqəti endirirsən, yalanı ucaldırsan, körpə məsumluğuna, gənclik hərarətinə, yetkinlik möhtəşəmliyinə, qoca müdrikliyinə düşmənsən, müqəddəsliyi ürəkdən silmək istəyirsən, Mütləqi danırsan, gözəlliyə qıyırsan, insanı maddiyə pərçimləyib, rühanilikdən uzaq salırsan, onda ilanı, canavarı bərpa edirsən, qəbahət toxumunu usanmadan, yorulmadan səpirsən, qadınlığı dişilik, kişiliyi erkəklik səviyyəsinə alçaldırsan, duyğu çiçəklərini soldurursan, fikir ağaclarını sındırırsan, biçim ilə məzmun arasında nifaq salırsan, güləni ağladırsan, dinəni susdurursan, nakam ömürlər, talelər yaradırsan, üzün məlahətini, biləyin gücünü, qadın zərifliyini, kişi əzəmətini, zəka qüdrətini, duyğu coşqunluğunu oğurlayırsan, məhəbbətə qarışıb xəyanət, ülviyyətə qarışıb səfatət törədirsən, naqisliyi – xalislik, naşılığı – aqillik, xəbisliyi – xeyirxahlıq, riyakarlığı – müdriklik libasında göstərirsən! Şərinlə dəhşətlisən!

Sənə nifrət edərdim, səndən üz döndərərdim Şərlə məhdudlaşsaydın, həm də Xeyirli Dünya olmasaydın!

## Sevincli Dünya

Günəş görürəm – sevinirəm, səma görürəm – sevinirəm, müqəddəs analıq, möhtəşəm atalıq, zərif ürək görürəm – sevinirəm, Mütləqə can atmaq ehtiyacı görürəm – sevinirəm, məhəbbət görürəm, mərhəmət görürəm, həqiqət görürəm – sevinirəm, körpə dil açır – sevinirəm, ulduz göydən boylanır – sevinirəm, səhər açılır – sevinirəm, ürəklərdə arzu doğur – sevinirəm, yollar yollara calanır – sevinirəm, ocaq qalanır, çıraq yanır – sevinirəm, ceyran məsumluğu, bənövşə incəliyi görürəm – sevinirəm, ilahi səs eşidirəm, əqidə-amal qüdsiyyəti görürəm – sevinirəm, doğmalıq, həyanlıq görürəm – sevinirəm, qəhrəmanlığın, özündənkeçmənin əfsanələrə sığmayan əzəmətini görürəm – sevinirəm, insanın heyvanilik üzərində qələbə-

sini görürəm – sevinirəm, ruhani vəcd görürəm – sevinirəm; bulağın qaynaması sevincimdir, üzlərdə həya qızartısı – sevincimdir, göy qurşağı, duyğu əlvanlığı, bahar təzəliyi, imtina qətiliyi – sevincimdir, qaranquş sədası, körpə səsi – sevincimdir, qar üstündə cüyür izləri, xatirələr oyanışı – sevincimdir, təpələrin genişliyi, qayaların sakitliyi, yaz selinin çılğınlığı – sevincimdir; qədimliyə qayıtmağım, qarışmağım – sevincimdir; balaların anasına, aşiqlərin məşuqələrə qovuşması – sevincimdir; ağaclarn çiçəyi, sifətlərin məlahəti, gözlərin şəfqəti – sevincimdir!

Körpəliyimdə – anamın gəlişi, gəncliyimdə – eşq atəşi, yetkinliyimdə – özümlə döyüşüm, qocalığımda – özümlə görüşüm – sevincimdir!

Sevincin böyükdür, dünya! Səni Mütləq sanardım, səndə dayanıb qalardım, sevincinə bərabər Kədərin olmasaydı!

## Kədərli Dünya

Zülmət görürəm – kədərlənirəm, zillət görürəm – kədərlənirəm, yadlıq görürəm – kədərlənirəm, yalan görürəm – kədərlənirəm, naşılıq, hərcayilik, miskinlik görürəm – kədərlənirəm, ananı balasından, duyğunu ürəkdən, hikməti sözdən, insanı Mütləqdən ayrı salırsan, izzəti azaldıb, möhnəti artırırsan, məhəbbət çayını bulandırırsan, ülvilik bulağını qurudursan, möhtəşəmliyi parçalayırsan, mətanəti sındırırsan, məlahəti soldurursan, körpəliyin paklığına, gəncliyin hərarətinə, yetkinliyin rəvanlığına, qocalığın müqəddəsliyinə qəsd edirsən; torpağı çürüdürsən, arzuları gözdə qoyursan, ədaləti ədalətsizə, gözəlliyi eybəcərliyə, alini naqisə tapşırırsan, ürəklərdə iblisə yer verirsən, xalisi ağladırsan, xəbisi güldürürsən, göz yaşıyla suvarılırsan, Dünya!

Vəcdli zəkaları susdurursan, parlaq gözləri kor edirsən, vüqarlı qaməti əyirsən, nurlu üzü qırışdırırsan, gülü soldurursan, bülbülü susdurursan!

Elə bir ömür binası yoxdur ki, uçurmayasan, elə bir ağac yoxdur ki, qırmayasan, elə bir çıraq yoxdur ki, söndürməyəsən, elə bir xeyir yoxdur ki, şərin ayağına verməyəsən, elə bir yanlışlıq yoxdur ki, həqiqət kimi təqdim etməyəsən.

Ülviləri bəlalara düçar edirsən, bəsitləri səadət gölündə üzdürürsən, mərdi namərdə möhtac edirsən, qüdsiyyətin qarşısına çəpər çəkirsən, dodaqları kilidləyir, səsləri kəsirsən, çayları məcrasından, insanları vətənindən, odu ocağından, quşu

səmasından ayırırsan, aqili aldadırsan, yazılanı pozursan, bitəni itirirsən!

Kədərin sonsuzdur, Dünya! Səndən bezərdim, əgər həm də Sevincli Dünya olmasaydın.

## Nəşəli Dünya

Müqəddəsliyə tapınmaq nəşəsi, İdrak nəşəsi, analıq nəşəsi, cəngavərlik nəşəsi, təbiətə qovuşmaq nəşəsi, ehtizaz nəşəsi, özündənkeçmə nəşəsi, vətənsevərlik nəşəsi, qələbə nəşəsi, özüylə-döyüş nəşəsi, ruhani paklıq nəşəsi, gənclik nəşəsi, eybəcərliyə nifrət nəşəsi, şərlə dava nəşəsi, xoş xəbər nəşəsi, gözəlliyə heyranlıq nəşəsi, xalqsevərlik nəşəsi, ucalığa can atmaq nəşəsi, ucalıqda yaşamaq nəşəsi, ilk addım, ilk söz, ilk görüş, ilk dərs, ilk sevinc nəşəsi, sədanın sədaya, duyğunun duyğuya qovuşmaq nəşəsi, gecə sehrinin, səhər təravətinin yaratdığı nəşə, dostluğun, həmdəmliyin nəşəsi, təravət, səxavət, ədalət nəşəsi, qədimliyə, tarixə, adət-ənənəyə sədaqət nəşəsi, xilaskarlıq, məlhəmlik, mərhəmlik nəşəsi, həqiqəti tapmaq, həqiqətçün döyüşmək nəşəsi, iradə möhtəşəmliyinin, ağıl yetkinliyinin, ürək hərarətinin yaratdığı nəşə, fikir genişliyinin, duyğu ucalığının, heyrət qüdsiyyətinin, ruhani ehtizazın yaratdığı nəşə, mənəvi qüdrət əzəmətinin, cəfakeşlik səlahiyyətinin, aşiqlik ülviyyətinin yaratdığı nəşə, daxili yanğının yaratdığı nəşə, arzuya çatmaq, kama yetmək nəşəsi, kədərdən yaranan sevincin nəşəsi, həsrətdən yaranan vüsalın nəşəsi, ürəkdən ürəyə aparan yolların nəşəsi, gözlərin, üzlərin ali mənasından alınan nəşə, ölümlə öcəşmək nəşəsi, özünüdərketmə nəşəsi, Mütləq İnam nəşəsi, qadınlığın, məşuqəliyin, vəfadarlığın yaratdığı nəşə, çay səsindən, torpaq ətrindən, dəniz ənginliyindən alınan nəşə, Mütləq mənəvi görüş nəşəsi, ürəkləri fəth etmək nəşəsi, vətənlə vəhdət nəşəsi, çöllərin, meşələrin, yolların nəşəsi, ani baxışın, doğma təbəssümün, ülvi xatirənin nəşəsi, atalıq nəşəsi, zülməti yaran işığın, ürəyi isidən sözün nəşəsi! Gənclik həvəsinin, qocalıq müdrikliyinin verdiyi nəşə! Müqəddəs səs, zəruri kəlam nəşəsi! Heyrət əzəmətinin, paklıq nemətinin, kişi qeyrətinin yaratdığı nəşə! Hərarətli nəfəsin, möcüzəli sirrin, müqəddəs ehtirasın nəşəsi!

Nəşən çoxdur, Dünya! Ancaq nəşənlə bərabər Əzabın var! Buna görə də Mütləq deyilsən, Mütləq ola bilmirsən, Mütləqə çatmırsan, nisbidə qalırsan!

## Əzablı Dünya

Naşılığın verdiyi əzab, xəbisliyin verdiyi əzab, həqiqətsizliyin, ədalətsizliyin verdiyi əzab, şəhvaniliyin, heyvaniliyin verdiyi əzab, biganəliyin, riyakarlığın, yüzsifətliliyin verdiyi əzab, xeyir libası geyinmiş eybəcərliyin, müqəddəslik libası geyinmiş qəbahətin, qədimsizliyin, qədirsizliyin verdiyi əzab, özündənayrılmanın, özünə yad olmanın, özünün əksinə çevrilmənin verdiyi əzab, miskinliyin, zəlilliyin, köləliyin verdiyi əzab, qadınlaşan kişiliyin, kişiləşən qadınlığın verdiyi əzab, əşyalaşan canlıların, canlılaşan əşyaların verdiyi əzab, qeyrətsizlik, ismətsizlik fəlakətinin verdiyi əzab, yalançı peyğəmbərliyin, qarabaş xanımlığın, gəda bəyliyin verdiyi əzab, yırtıcılıq hərisliyinin, maddi nemət əsirliyinin verdiyi əzab, ruhaniliyə yadlıq dəhşətinin verdiyi əzab, böyüklüyün kiçikliyə, yüksəkliyin alçaqlığa möhtaclığından yaranan əzab, balıqların pıçqıllanmasından yaranan əzab, möhtəşəm ədaların, biçimlərin miskin mahiyyəti pərdələməsindən yaranan əzab, təcavüzkar idraksızlığın, mütəşəkkil qəbahətin yaratdığı əzab, qorxaqlığın cəsarətli, xudpəsəndliyin fədakar, həqarətin nəzakətli görünməsindən yaranan əzab. Ağalıq ehtirasının idrakı söndürməsindən yaranan əzab! Cahillərin aqillər məskənini talamasından yaranan əzab!

Bəşərin körpəliyindən, sadəlövhlüyündən alınan əzab! Məhəbbətlilərin, mərifətlilərin, bütövlərin, xalislərin əzabı! Əzabkeşlərin, amalsevərlərin, xalqsevərlərin əzabı! Analığın, atalığın, övladlığın əzabı! Əyilənlərin, vüqar dağından enənlərin, yalana tapınanların, ləyaqətini ayaqlar altına salanların arasında yaşamaq əzabı! Aldadanlar, fitnə yaradanlar, yalançı andlar arasında yaşamaq əzabı!

Amalı yoxun – amaldan danışması, məhəbbəti yoxun – məhəbbətdən danışması, ruhu yoxun – ruhdan danışması əzabı! Hərcayinin hərcayiliyi pisləməsi, ləyaqətdən əl çəkənin ləyaqəti mədh etməsi, mənsəbpərəstin təmənnasızlığı vəsf etməsi əzabı! Özünü gəlin otağı kimi bəzəyənlərin arasında yaşamaq əzabı! İnsanilikdən əl çəkib yüksələn şöhrətlilər arasında yaşamaq əzabı! Kişilərin üzündə qadın ədası, işvəsi görmək əzabı! Məkrin – xalislik, fitnəkarlığın – əsillik, müxənnətliyin – mərdlik, riyakarlığın – alicənablıq üzərində ağalığından yaranan əzab! İnsanın insana gərəksizliyi dəhşətindən yaranan əzab! Paxıllığın, azğınlığın, qəddarlığın, amansızlığın iradə, ağıl və ehtiras üzərində qələbəsinin əzabı!

Pislərin yaxşılara qənim olması əzabı! İnsanların Mütləqə, Müqəddəsliyə, Ülviliyə yabançılığından doğan əzab!

Bəşərin Atasızlığından, Yetimliyindən doğan əzab!

Gözün işığı sevməməsindən doğan əzab! Xəstəlik əzabı, gənclik əzabı, qocalıq əzabı!

Ali saydığında qəbahət görmək əzabı! Ayrılıq, həsrət əzabı! Həssasların, idrakilərin, vicdanlıların əzabı! Qorxaqlığın, harınlığın, azğınlığın, hakimiyyət ehtirasının qulu olan insanlar arasında yaşamaq əzabı!

Paxıllıq duyğusunu qəlbində söndürə bilməyən bədnamlar arasında yaşamaq əzabı! Böyüklüyü sevməyən, cılızlığa alışan, bəsitliyə qarışanlar arasında yaşamaq əzabı!

Müqəddəsliyə tapınmayan, Mütləqi tanımayan, ülviliyə can atmayan, çirkinliyə pərçimlənib qalan yazıqlar arasında yaşamaq əzabı!

İnsan kimi dünyaya gəlib, ancaq insan kimi yaşamayan, insan kimi yaşamağın nə olduğunu bilməyənlər arasında yaşamaq əzabı! Özünü təsdiq eləmək üçün ləyaqətdən keçənlər arasında yaşamaq əzabı!

İnsanların yanlış təsəvvürlərin, saxta loğmanların arxasınca getmələrini görmək – əzabdır! İnsanın insaniliyə balaca, ürkək, inamsız addımlarla, heyvaniliyə isə böyük, inamlı və fərəhli addımlarla getdiyini görmək – əzabdır! Məhəbbətin qədir-qiymətdən düşməsi, gözəlliyin satılması, aldanması – əzabdır! Bəşərin öz əsillərini tonqalda yandırmağı əzabdır! Nadanla mübahisə – əzabdır, ürək yarası – əzabdır, övlad niskili, yetimlik, atasızlıq, anasızlıq – əzabdır! Ağsaqqallığın – izzət, müdrikliyin – inam, gözəlliyin – məhəbbət taxtından salınması – əzabdır! İblislə insan üzündə daim görüşmək – əzabdır! Zindan qəfəsi, zülm işgəncəsi, cəllad həmləsi – əzabdır!

Əzabın ağırdır, Dünya! Səni lənətləyərdim, əgər nəşələrimdə Əzabımdan ayrılmasaydım!

## Gəlimli Dünya

İşıq gəlişi, Səhər gəlişi, Günəş gəlişi, Yağış gəlişi, Hicran gəlişi, Vüsal gəlişi, Ana gəlişi, Ata gəlişi, Fikir gəlişi, Bulaq gəlişi, Ümid gəlişi, İnam gəlişi, Həya gəlişi, Qeyrət gəlişi, etiqad gəlişi, qollara qüvvət, idraka vəcd, torpağa bərəkət gəlişi.

Yenidən doğulanların dünyaya yenidən gəlişi, arzu gəlişi, şəfqət gəlişi, ruhani heyrət gəlişi. Ali söz, ülvi kəlam gəlişi, ömrə məna, taleyə rövnəq gəlişi. Aşiq gəlişi, yüksək səda gəlişi, müqəddəsliyə

səcdə gəlişi, qəhrəmanlıq, fədakarlıq gəlişi, imtina gəlişi. Dağlara qar gəlişi, yollara yolçu gəlişi, səmaya ulduz gəlişi, doğma səs, doğma söz gəlişi.

Qıza cazibədarlıq, kişiyə əzəmət gəlişi. Ana qucağına bala gəlişi. İlk addım, ilk sevinc, ilk arzu gəlişi.

Ruha Mütləq gəlişi. Ehtizaz gəlişi. Həqiqət yanğısının, ədalət tələbinin, ülviyyət ehtiyacının gəlişi.

Səmanın qurşaq gəlişi, qadınlığın məlahət, kişiliyin qüdrət gəlişi. Soyuqda şəfəq gəlişi, qüssədə sevinc gəlişi, yalqızlıqda dost gəlişi, məhəbbətdə məşuqə gəlişi.

Əsarətdə ümid gəlişi, səfalətdə nicat gəlişi.

Dağlara qar gəlir, quşlara qanad gəlir, üzlərə nur gəlir, ömürlərə sınaq gəlir.

Dillər açılır, sinələr duyğularla dolur, evlərə doğmalıq gəlir, ellərə cürət gəlir. Məhəbbətli günlər, aylar, illər gəlir. Xatirələr gəlir.

Gecəyə çıraq gəlişi, yuxuya Sabah gəlişi, çöllərə ceyran gəlişi, meşəyə bülbül gəlişi, hisslərə ilham gəlişi, torpaga su gəlişi, güllərə şeh gəlişi.

Gözəlliyin möcüzə biçimində, sədaqətin dözüm biçimində, müdrikliyin imtina biçimində, gəncliyin təravət biçimində gəlişi.

Qədimliyin bugünə gəlişi, çayın məcrasına gəlişi, xalqların tarixə gəlişi, qaranquşun yaza gəlişi, sevdanın ürəyə gəlişi, ilhamın duyğuya gəlişi, yolların dağlara gəlişi, qəribin vətənə gəlişi, lalənin düzlərə gəlişi, canlının həyata gəlişi.

Gəlimlisən, dünya, həm də gedimlisən. Həm mənimkisən, həm də özgəsən. Həm doğmasan, həm də yadsan.

## Gedimli Dünya

İşığın bəbəkdən getməsi, çiçəyin çəməndən getməsi, sevginin sevdadan getməsi!

İlhamın duyğudan getməsi! Ümidin ürəkdən getməsi! Heyrətin gözlərdən getməsi! Mütləqin mənəviyyatdan getməsi! Eşqin hissiyyatdan getməsi! Doğmalığın səsdən getməsi!

Ağacın qırılması! Çayların quruması! Gözəlliyin solması! Bədənin məzara qoyulması!

Həsrət gedişi! Hiddət gedişi! Məqam, gün, ay, il gedişi! Yolların yollardan ayrılması! Biçimin məzmundan ayrılması! Övladın anadan ayrılması! Aşiqin məşuqdan ayrılması! İdrakın ehtizazdan ayrılması! Könülün Müqəddəslikdən ayrılması! Tarixin qədimlikdən ayrılması!

Vicdanın əməldən ayrılması! Budağın kökündən ayrılması! Gözəlliyin saflıqdan ayrılması! Sözün həqiqətdən ayrılması! Şöhrətin ləyaqətdən ayrılması! Ömrün gənclikdən ayrılması! Qocalığın ağsaqqallıqdan ayrılması! Məhəbbətin qüdsiyyətdən ayrılması! Möhtəşəmliyin mərhəmətdən ayrılması!

Rəyasətin ruhanilikdən ayrılması! Vüsalın həsrətdən ayrılması! Qadınlığın mənəvi zəriflikdən ayrılması! Səsin könüldən, nəfəsin sinədən, insanın Vətəndən ayrılması! Durnanın qatardan, ağacın meşədən ayrılması! İgidin cərgədən ayrılması!

Dünyadan qəhrəman gedib, fədakar gedib, mahnısını çağıra bilməyən gedib, ürəyini açmayan, sözünü deməyən gedib, arzusunu, istəyini, qalibiyyətini özüylə qəbirə aparan gedib! Çiçəkləri açılmayan ağaclar, otları bitməyən çöllər, suları qaynamayan bulaqlar, danışmayan dodaqlar olub dünyada.

Zəkaların itiliyi itib, duyğuların incəliyi itib, gözəlliyin cazibədarlığı itib, firkin vüsəti, iradənin iqtidarı itib, heyrətin təbiiliyi itib, hicranın əzabı, vüsalın dadı itib, şirin zəhmi, maralın cəzbi itib.

Aşıq sazından ayrılıb, çay məcrasından ayrılıb, yanaq həyasından ayrılıb, doğma doğmasından ayrılıb, munis munisindən ayrılıb, bəşər Alisindən ayrılıb, neçə səadət binaları uçulub, neçə qanad qırılıb, dəniz sudan ayrılıb, ləçək güldən ayrılıb, neçə Koroğlu aldanıb, neçə Məcnun məzara gömülüb, neçə Qırat qaçırılıb, mizrab simdən ayrılıb.

Neçə fatehi yer fəth eləyib, neçə natiqi susdurub, neçə mərdi namərdə qurban eləyib, neçə vüqarlı başları əyib, neçə torpaq sahibini torpağa basdırıb, neçə təbibi dərdə salıb, neçə ucalanı alçaldıb, neçə nəğməni susdurub, neçə ürəyi qıfıllı saxlayıb, neçə kürəyi yerə qoyub, neçə beyni çürüdüb, neçə bədəni əridib, neçə zərifi əzib, neçə sinəyə dağ çəkib! Saysız ölkələr dağılıb, saysız yazılar pozulub, saysız qalalar uçulub! Saysız dözüm tükənib, fəryad tükənib, qüvvət tükənib!

Qırğın seli dünyanı götürüb! Fatehlər Qırğını, Hakimlər Qırğını, Tufan Qırğını, Əcəl Qırğını. Cismin ölümü, Ləyaqətin ölümü, Ümidin ölümü, İnamın ölümü.

Yalançı dirilik Ölümü, Yalançı müdriklik Ölümü. Yalançı fədakar ölümü. Yalançı böyüklük ölümü. Yalançı məhəbbət ölümü. Xurafat ölümü. Aldanış ölümü. Əyri yol ölümü. Özünüyanılma, özündənayrılma ölümü. Yalançı oyanma ölümü. Hərcayi dolanma ölümü.

***Çoxluq ölümü.*** Şəhvət çoxluğu. Qorxaq çoxluğu. Əşya çoxluğu. Kölə çoxluğu. Bəzək çoxluğu. Loğman çoxluğu. Korlar, karlar çoxluğu, vüqarsızlar çoxluğu.

***Yekrənglik ölümü.*** Düşüncə yekrəngliyi, ehtiras yekrəngliyi, məna yekrəngliyi, arzu yekrəngliyi, sifət yekrəngliyi, yaraşıq yekrəngliyi, Mütləqsizlik yekrəngliyi!

Gedimlisən, dünya! Payızda fəsillərin gəncliyi, ağacların yarpaqları gedir, qışda təbiətin hərarəti gedir, yazda qışın qarı gedir, yayda yazın təravəti gedir, cavanlıqda körpəliyin məsumluğu gedir, yetkinlikdə gəncliyin coşqunluğu gedir, qocalıqda yetkinliyin gücü gedir, saçların dənində saçların qaralığı gedir.

Yağışı torpaqda itirirsən, çayları düzlərdə itirirsən! Evə matəm gətirirsən, ürəyə qəm gətirirsən, yetirdiyin hər nə varsa, hamısını itirisən, gedimli Dünya! Sənə qeyzlənirəm, ancaq səndən usanmıram! Məni hiddətimdən ayırırsan, sehrkar dünya!

## Gözəl Dünya

Ruh gözəlliyi. Sifət gözəlliyi. Günəş gözəlliyi. İlqar gözəlliyi. Ağıl gözəlliyi. Sevda gözəlliyi. Səhər gözəlliyi. Kədər gözəlliyi. Arzu gözəlliyi. Qeyrət gözəlliyi. Çöl gözəlliyi. Yol gözəlliyi. Hicran gözəlliyi. Vüsal gözəlliyi. Gecə gözəlliyi. Duyğu gözəlliyi.

Analıq gözəlliyi. Bulaq gözəlliyi. Mütləqə qovuşmaq gözəlliyi. Amal gözəlliyi. Həsrət gözəlliyi. Fəryad gözəlliyi. Söz gözəlliyi. İmtina gözəlliyi.Özündənkeçmə gözəlliyi. Torpaq gözəlliyi. Ürək gözəlliyi. İlham gözəlliyi. İnam gözəlliyi. Yuxu gözəlliyi.

Səma gözəlliyi. Mərdlik gözəlliyi. Dostluq gözəlliyi. Şəlalə gözəlliyi. Hilal gözəlliyi. Hikmət gözəlliyi. Səxavət gözəlliyi. Məhəbbət gözəlliyi. Ədalət gözəlliyi. Mərhəmət gözəlliyi. İdrak gözəlliyi. Vətən gözəlliyi. Körpə gözəlliyi. Cürət gözəlliyi.

Heyrət gözəlliyi. Vüqar gözəlliyi. Dözüm gözəlliyi. Tufan gözəlliyi. Sükut gözəlliyi. Fərəh gözəlliyi. Qürub gözəlliyi. Çinar gözəlliyi. Qaya gözəlliyi. İzzət gözəlliyi. Həya gözəlliyi. Cəfa gözəlliyi. Alov gözəlliyi. Səcdə gözəlliyi. Özüylədöyüş gözəlliyi. Özünüdərketmə gözəlliyi. Ölümlə öcəşmə gözəlliyi.

Gözəlliklə görüş gözəlliyi. Təhlükə gözəlliyi. Zirvə gözəlliyi. Ehtizaz gözəlliyi. Ölümsüzlük gözəlliyi. Məcnunluq gözəlliyi. Dalğa gözəlliyi. Səhra gözəlliyi. Nicat gözəlliyi. Ümid gözəlliyi. Müjdə gözəlliyi. Təravət gözəlliyi. Biçim gözəlliyi. Məzmun gözəlliyi. Özünəbənzəmək gözəlliyi. Bənzərsizlik gözəlliyi. Xalq gözəlliyi.

Həyanlıq gözəlliyi. Doğru yol, Halal söz gözəlliyi. Qədimlik gözəlliyi. Yenilik gözəlliyi. Əsillik gözəlliyi. Müqəddəs əzab gözəlliyi. Ali ahəng gözəlliyi.

Həzin gözəllik, coşqun gözəllik, sakit gözəllik, gerçək gözəllik, xəyali gözəllik, məsum gözəllik, yetkin gözəllik, səsli gözəllik, səssiz gözəllik, güldürən gözəllik, ağladan gözəllik, zərif gözəllik, möhtəşəm gözəllik. Hər fəslin öz gözəlliyi. Dəniz gözəlliyi. Qartal gözəlliyi. Hiddət gözəlliyi. Nərə gözəlliyi. Çörək gözəlliyi. Hikmət gözəlliyi.

Tonqallarda yandırılmaq gözəlliyi. Dərisi dabanından soyulmaq gözəlliyi. Məhəbbətə qurban olmaq gözəlliyi. Həmzələrə aldanmaq gözəlliyi. Dalğa gözəlliyi. Sel gözəlliyi. Bənövşə gözəlliyi. Riqqətli etiraf gözəlliyi. Zəruri kəlam gözəlliyi. Kövrək duyğu gözəlliyi. Titrək arzu gözəlliyi. Dil gözəlliyi. Təb gözəlliyi. Yoxuş gözəlliyi. Eniş gözəlliyi. İnsanları anlamaq, dərdə qalmaq gözəlliyi. Doğma ocaq gözəlliyi. Ata gözəlliyi. Vicdan gözəlliyi. Əhdi-peyman gözəlliyi. Ali and gözəlliyi. Təmiz ad gözəlliyi. Pərvanə gözəlliyi.

Gözəldir Dünya! Ona səcdə qılardım, çirkinliyi olmasaydı!

## Çirkin Dünya

Köləlik çirkinliyi. Zəlillik çirkinliyi. Cəhalət çirkinliyi. Qəbahət çirkinliyi. Xəbislik çirkinliyi. Xəsislik çirkinliyi. Heyvanilik çirkinliyi. Şəhvanilik çirkinliyi. Fitnəkarlıq çirkinliyi. Riyakarlıq çirkinliyi. Hərislik çirkinliyi. Sünilik çirkinliyi. Yalan çirkinliyi. Xülya çirkinliyi. Xəyal çirkinliyi. Küdurət çirkinliyi. Qorxaqlıq çirkinliyi. Ruhsuzluq çirkinliyi. Həqiqətsizlik çirkinliyi.

Duyğu karlığı, idrak korluğu. Harınlıq vəhşiliyi, qan içmək vəhşiliyi, yadlıq, özgəlik vəhşiliyi, gözəlliyə, ülviliyə biganəlik vəhşiliyi! Hərcayilik əsarəti! Var-dövlət əsarəti! Əyri yol əsarəti! Cismani nəşə əsarəti! Bər-bəzək əsarəti! Təmtəraq əsarəti!

Hakimi Mütləq saymaq çirkinliyi! Səlahiyyətliyə səcdə qılmaq çirkinliyi! Tərif, təltif, mükafat əsarəti! Böyüklüyə nifrət əsarəti. Süni bütlər əsarəti! Sürüləşmə əsarəti. Ölüləşmə əsarəti. Aldanmağa alışmaq əsarəti. Şəhvətin zəkanı söndürməsi. Vəhşiliyə qayıtmaq vəhşiliyi! Qadınların qadınlıqdan ayrılması!

…Əbədi tələbəlik əsarəti. Çürümək çirkinliyi. Qurmamaq çirkinliyi. Dağıtmaq çirkinliyi. Əbədi körpəlik əsarəti. Zora qəyyumluq əsarəti. Ağalıq çirkinliyi. Yalançı Peyğəmbərlik çirkinliyi. İnsanı əşya saymaq şirkinliyi. Kütləvi əşyalaşma çirkinliyi. Xurafata alışmaq çirkinliyi. Sürülmək, sürünmək çirkinliyi. Diriykən məzara gömülmək çirkinliyi.

Dinməmək, bilməmək, görməmək çirkinliyi. Cəsarəti, hünəri daxildə öldürmək çirkinliyi!

Zülmətə qarışmaq, zülmətdə itmək çirkinliyi! Əhdi pozmaq, anda xilaf çıxmaq çirkinliyi! Heçin dəbdəbəyə meyili! Cılızın izdihama meyili! Çirkinliyi gizlətmək çirkinliyi! Zahirin batinə yadlığı! Həyatın ruha yadlığı! Maddinin mənəviyə yadlığı! Xalqın özünə yadlığı! Ürəyin inama yadlığı! Vüqarın əmələ yadlığı! Bəzəkli bəsitlik çirkinliyi! Ədalı naşılıq çirkinliyi! Zəkalı bədən çirkinliyi! Balıq soyuqluğu! Müstəbid çılğınlığı! Uydurma çirkinliyi! Qudurma çirkinliyi!

Dəllal xisləti. Zülmkar xisləti. Mənsəbpərəst xisləti. Sifətsizlər, vüqarsızlar. Yalan danışan dodaqlar, əyri görən gözlər. Tərs eşidən qulaqlar. Nifrətin məhəbbəti öldürməsi! Küdurətin mərhəməti öldürməsi! Eyş-işrətin sədaqəti öldürməsi! Ağılın duyğunu öldürməsi. Qəzəbin idrakı söndürməsi.

Müstəbidin dahiliyi. Satılmışın sərbəstliyi. Qarımışın şuxluğu. Gümüş saçlarda gizlənən qəbahət! Ağsaqqallıq sanbalında gizlənən hərcayilik! Xeyirin əzəmətində gizlənən Şər! Qələbə libasında məğlubiyyət! Sahiblik libasında əsirlik! Məsumluq libasında zalımlıq! Çirkli vicdan, çirkli əl, çirkli əməl, çirkli yol! Böhtan ləkəsi, Qan ləkəsi.

Saxta alqış yağışı. Kəsilən dillər, çıxarılan gözlər, zəhərlənən bədənlər, yerlə-yeksan edilən ölkələr! Neronların, Borçiaların, İrodların hakimiyyəti! Çirkli suyun təmiz suyu bulandırması! Çirkli suyun təmiz su sayılması! Saxta işıqların gözləri qamaşdırması! Cəlladlıq peşəsinə ehtiyac! Sərsəm nəşələrə ehtiyac! Don Juanlara maraq.

Aldatmaq çirkinliyi. Ağlatmaq çirkinliyi! Ucalıqdan yanıltmaq çirkinliyi! Kor etmək, kar etmək, lal etmək çirkinliyi! Həyadan, ismətdən, qeyrətdən “sağalmaq” çirkinliyi! Mərifətdən xilas etmək çirkinliyi! Təbiilikdən azad etmək çirkinliyi! Vəcddən, ehtizazdan, müqəddəslik duyğusundan azad etmək çirkinliyi!

Çirkinliyin saysızdır, dünya! Səni rədd edərdim, gözəlliklərin olmasaydı!

## Çağıran Dünya

Mütləq çağırışı! Müqəddəslik çağırışı! Ruh çağırışı! Təbiət çağırışı! Məhəbbət çağırışı! Səma çağırışı! Dağ çağırışı! Ana çağırışı! Övlad çağırışı. Torpaq çağırışı. Gözəllik çağırışı. Səda çağırışı. Möcüzə çağırışı. Ürək çağırışı. Sifət çağırışı. Qədimlik çağırışı. Doğmalıq çağırışı. Meşə çağırışı.

Gecə çağırışı. Günəş çağırışı. Bahar çağırışı. Dəniz çağırışı. Çay çağırışı. Amal çağırışı. Arzu çağırışı. İnam çağırışı. Od çağırışı. Körpəlik çağırışı. Ucalıq çağırışı. Bulaq çağırışı. Qaya çağırışı. Dalğa çağırışı. Çinar çağırışı. Ümid çağırışı. İmdad çağırışı. Fəryad çağırışı. Hicran çağırışı. Vüsal çağırışı. Qüssə çağırışı. Əllər, dodaqlar, gözlər çağırışı.

Təbəssüm çağırışı. Baxış çağırışı. İşıq çağırışı. Vəcd, ehtizaz çağırışı. İmtina çağırışı. Ədalət çağırışı. Səadət çağırışı. Ehtiras çağırışı. Zəka çağırışı. Cəfa çağırışı. Özündənkeçmə çağırışı. Maneələr çağırışı.

Cəngavərlik çağırışı. Namus çağırışı. Sədaqət çağırışı. Qəzəb çağırışı. Əzab çağırışı. Hissiyyat çağırışı. Heysiyyət çağırışı. Xatirə çağırışı. Uzaqlıq çağırışı. Xəyal çağırışı. Sabah çağırışı.

Çağırış harayı. Çağırış sükutu. Çağırış vüqarı. Çağırış nəşəsi. Çağırış zəruriyyəti.

Çayın sahili çağırması. Qayanın meşəni çağırması. Ürəyin ürəyi çağırması. Çəmənin çiçəyi çağırması. Quşların baharı çağırması. Buludun yağışı çağırması. Quzeyin güneyi çağırması… Əllərin əlləri çağırması. Gözlərin gözləri çağırması. Zillətin hiddəti çağırması! Həsrətin Ümidi çağırması! Səmanın ulduzu çağırması! Daxildən gələn səs! Ucalıqdan gələn səs!

Körpə çağırışı. Qoca çağırışı. İgid çağırışı. Səslərin səsləri çağırması. Rənglərin rəngləri çağırması. Aşiqin məşuqəni çağırması. Dalğanın dalğanı çağırması…

Dənizin tufanı çağırması. Zülmətin işığı çağırması.

Sel çağırışı. Meh çağırışı.

Ani çağırış. Sonsuz çağırış. Açıq çağırış. Pünhan çağırış. Atəşin çağırış. Həzin çağırış. Böyüklüyə çağırış. Təbiiliyə çağırış. İnsanlığa çağırış. İlkinliyə çağırış. Bütövlüyə çağırış. Ülfət çağırışı. Heyrət çağırışı!

Çağırandır dünya! Həm də aldadandır! Cəzb edəndir və cəzbində itirəndir!

## Aldadan Dünya

Nəşə aldanışı. Arzu aldanışı. Nicat aldanışı. Xəyal aldanışı. Cəzb aldanışı. Zəka aldanışı. Ürək aldanışı. Söz aldanışı. Əhd aldanışı.

Yalançı İnam. Yalançı Loğman. Yalançı qəhrəman. Yalançı gözəllik. Yalançı idrak. Yalançı Qüdrət.

Çağırış aldanışı. Bağırış aldanışı. Bəzək aldanışı. Dəbdəbə aldanışı. Rütbə aldanışı. Şöhrət aldanışı. Səlahiyyət aldanışı.

Saxta cəfakeşlik. Saxta müqəddəslik. Saxta möhtəşəmlik. Bəşərsevərlik biçimində xudpəsəndlik. Azadsevərlik biçimində müstəbidlik. Xalislik biçimində xəbislik. Aşiqlik biçimində əyyaşlıq. Qanunsevərlik biçimində cəlladlıq. Xalqsevərlik biçimində hakimiyyətsevərlik. Fikrin əmələ yadlığı. Dilin ruha yadlığı. Zahirin batinə yadlığı. Dodağın sözə yadlığı.

Məhəbbətdə gizlənən nifrət. Mərhəmətdə gizlənən küdurət. Gürzədə gizlənən zəhər. Tərifdə gizlənən təhqir. Cəzbdə gizlənən məkr. Təmtəraqda gizlənən yüngüllük. Qətiyyətdə gizlənən şübhə. Məlahətdə gizlənən həqarət!

Milçəyin fil aldanışı. Böcəyin dağ aldanışı.

Aldadılan körpələr. Aldadılan ölkələr. Aldadılan nəsillər. Yalan quyusu. Yalan tilsimi. Daşadönmüşlər. Açıq aldadanlar. Gizli aldadanlar. Şübhəsini qəbrə aparanlar. Dəniz axtarıb arx tapanlar. Yolunu azanlar. Özünü aldadanlar. Aldanışla yaşayanlar. Tüstüyə günəş deyənlər. Fərəh axtarıb zillət tapanlar. İşıq axtarıb zülmət tapanlar. Bəsit aldanış. Zor aldanış. Xoş aldanış. Sərt aldanış. Mehriban aldanış. Yolların yolları aldatması.

Dillərin dilləri aldatması. Güclünün zəifi aldatması. Böyüyün kiçiyi aldatması. Yalançı əzəmət. Yalançı möhtəşəmlik. Yalançı haray. Yalançı fəryad. Yalançı vüsal. Yalançı ləyaqət. Yalançı ideal. Yalançı mehr. Yalançı doğmalıq. Şəhvətin verdiyi səadət. Tərif meyilinin təsiri. Maddi nemət yalanı.

Yaxın yalan. Uzaq yalan. Təbii yalan. Gizli mahiyyət. Gizli fəlakət. Gizli xəyanət. Ümid səpib, kədər biçmək. Vəfa səpib,  cəfa biçmək. Dağ axtarıb, dərə tapmaq. Ruh axtarıb, bədən tapmaq. Gur işıqlar aldanışı. Şirin vədlər aldanışı. Coşqun sözlər aldanışı. Mənalı baxışlar aldanışı. Parıltılı libaslar aldanışı. Məğrur duruşlar aldanışı. Səliqəli ömürlər aldanışı. Sol gözün sağ gözü aldatması. Sol əlin sağ əli aldatması.

İnsan mürəkkəbliyi. Həyat mürəkkəbliyi. Düşüncə mürəkkəbliyi. Duyğu mürəkkəbliyi. Dünya mürəkkəbliyi. Qorxu aldanışı. Yuxu aldanışı. Xəyalı aldadan gerçəklik. Amalı aldadan varislik. Məsumu aldadan zalımlıq. Ovçunun şikarı aldatması. Zailin qabili aldatması. Hakimin məhkumu aldatması. Sarbanın karvanı aldatması. Övladın ananı aldatması.

Namərd aldanışı. Özünü aldadanlar. Xalqı aldadanlar. Qəlbi aldadanlar. İsməti aldadanlar. Qeyrəti aldadanlar. Yalançı qismət. Yalançı aqibət. Yalançı izzət. Qondarma ülvilik. Qondarma

müqəddəslik. Qondarma Mütləq. Formal qəhrəmanlıq. Formal vətənsevərlik. Formal övladlıq. Formal ilham. Formal idrak. Müasir məhəbbət. Amalsızlıq yalanı. İnamsızlıq yalanı. Vicdansızlıq yalanı. Cəmiyyət yalanı. Şəxsiyyət yalanı. Ülviliyə istehza. Həqiqətə istehza. Haylı-küylü səadət. Ölçülü cəsarət.

Bəsit bütlər. Saxta yaraşıq. Saxta işıq. Saxta əlac. Saxta təbib. Saxta sahib.

Yalanla dolusan, dünya! Yaxşı ki, həm də doğrusan, dünya!

## Natam Dünya

Natam ömür. Natam sevinc. Natam gözəllik. Natam vüsal. Natam hicran. Natam qəzəb. Natam əzab. Natam tale. Natam qismət. Natam vüqar. Natam heyrət. Natam sevgi. Natam cürət. Natam nəğmə. Natam dostluq. Natam xeyir. Natam nifrət. Natam hörmət. Natam ləyaqət. Natam ismət. Natam kədər. Natam vəcd. Natam aşiqlik. Natam pərəstiş. Natam fədakarlıq. Natam qəhrəmanlıq. Natam müqəddəslik. Natam xalislik. Natam idrak. Natam hissiyyat. Natam bədiyyat. Natam xatirə. Natam iradə. Natam oyanma. Natam ehtiras. Natam həvəs. Natam işıq.

Rəng natamlığı. Ahəng natamlığı. İlham natamlığı. İnam natamlığı. Namus natamlığı. Təsdiq natamlığı. İnkar natamlığı. Bütövlük natamlığı. Kövrəklik natamlığı. Bulaq natamlığı. Çıraq natamlığı. Atəş natamlığı. Şəfqət natamlığı. Şüa natamlığı. Səda natamlığı. Əməl natamlığı. Amal natamlığı. Adət natamlığı. Sənət natamlığı. Dözüm natamlığı. İmtina natamlığı. Qüdsiyyət natamlığı. Sədaqət natamlığı. Səadət natamlığı.

Yarımçıq şərəf. Yarımçıq zəfər. Yarımçıq hünər. Yarımçıq fədailik. Yarımçıq qadınlıq. Yarımçıq kişilik. Yarımçıq əzəmət. Yarımçıq mətanət. Yarımçıq həqiqət. Yarımçıq yol. Yarımçıq ümid. Yarımçıq nailiyyət. Yarımçıq bərəkət. Yarımçıq səxavət.

Yetişməmiş meyvə. Yetişməmiş fikir. Yetişməmiş duyğu. Yetişməmiş mənəviyyat. Yetişməmiş hissiyyat. Yarımçıq ülvilik. Yarımçıq mərdlik. Yarımçıq həmdərdlik. Yarımçıq əzabkeşlik. Yarımçıq aşiqlik. Yarımçıq qətiyyət. Yarımçıq məlahət. Yarımçıq iqtidar. Yarımçıq vicdan.

Yarıməsil. Yarımürək. Yarımtəbii. Yarımsərt. Yarımqayğı. Yarımdost. Yarımdoğma. Yarımdoğru. Yarımmüəllim. Yarımailə. Yarımövlad. Yarımata. Yarımdahi. Yarımxalq. Yarımpeyğəmbər. Yarımsəs. Yarımünsiyyət. Yarımhəyat.

İkilikdə tənhalıq. Coşqunluqda soyuqluq. Yaraşıqda çirkinlik. Mövcudluqda itkinlik. Doğmalıqda naşılıq. Sədaqətdə xəyanət.

Yaxınlıqda uzaqlıq. Çağıran yol həsrəti. Körpənin dil həsrəti. Ulduzun ay həsrəti. Təpənin dağ həsrəti. Səslərin söz həsrəti. Yarımçıq ölkələr. Yarımçıq tarixlər. Yarımçıq şəhərlər. Yarımçıq kəndlər.

İnamsız addımlar. İnamsız inamlar.

Yanmayan çıraqlar. Eşidilməyən səslər. Deyilməyən sözlər. Məhsulsuz çöllər. Meyvəsiz bağlar. Qıfıllı dillər. Ölü fikirlər. Şamsız pərvanələr. Ayıq divanələr. Sərxoş müdriklər. Meyxoş zahidlər. Göyçək ilanlar. Nəzakətli tülkülər.

Həyata pərçimlənmək və yaşamaq. İstəyə calanmaq və yaşamaq! Özünü təsdiq etmək və yaşamaq! Dolanmaq və yaşamaq! Zamanın əbədiyyət qarşısında kiçikliyi! Adamın insan qarşısında kiçikliyi! Gerçəkliyin ideal qarşısında kiçikliyi! Cismin ruh qarşısında kiçikliyi! İnsanın Mütləq qarşısında kiçikliyi! Ömrün insan qarşısında kiçikliyi! Ağlın zəka qarşısında kiçikliyi! İnsanın öz mahiyyəti qarşısında kiçikliyi!

Natamdır Dünya! Yaxşı ki, özündə qalmayandır Dünya!

## Özünə Sığmayan Dünya

Günəş səmaya sığmır. Dilək ürəyə sığmır. Dəniz məcraya sığmır. Ruh bədənə sığmır. Səs sinəyə sığmır. Fikir sözə sığmır. İnsan ölümə sığmır. Ömür taleyə sığmır. Səda sükuta sığmır. Gecə zülmətə sığmır. İnsan özünə sığmır. Bəbək gözünə sığmır. Çiçək çöllərə sığmır. Meyvə budağa sığmır. Ayaq yollara sığmır. Qartal dağlara sığmır. Heyrət tərifə sığmır. Qüdrət tarixə sığmır. Pələng meşəyə sığmır. Zəka ağıla sığmır. İgid qorxuya sığmır. Müdrik dövrana sığmır.

Körpə bələyə sığmır. Aşiq bəlaya sığmır. Qəzəb acığa sığmır. Dalğa dənizə sığmır. Çalğı pərdəyə sığmır. Atəş daxilə sığmır. Kəlmə dodağa sığmır. Maral oylağa sığmır. Vüqar dağlara sığmır. Sellər çaylara sığmır. Əllər əllərə sığmır. İsmət qiymətə sığmır.

Göz yaşı gözdə qalmır. Hərarət gözdə qalmır. Həqiqət sözdə qalmır. İldırım göydə qalmır. Toxum torpaqda qalmır. Xəyal gerçəkdə qalmır. Amal diləkdə qalmır. İgid ölümə sığmır. Dözüm zülmə sığmır. Hiddət qüssəyə sığmır. Mütləq idraka sığmır. Niyyət illərə sığmır. Məna zahirə sığmır. Ümid zillətə sığmır. Dünya dünyaya sığmır. Səhər gecəyə sığmır. Zəfər döyüşə sığmır. Müjdə fərəhə sığmır.

Ülvilik zora sığmır. Əməl həvəsə sığmır. İşıq kölgəyə sığmır. Amal ömürə sığmır. Atlı meydana sığmır. Şəfqət əlaca sığmır. Şəfəq sulara sığmır. Sevgi yalana sığmır. Ağac xəzana sığmır.

Təmənnaya sığmayan yaxşılıq. Şöhrətə sığmayan zəhmət. Zəmanəyə sığmayan ləyaqət. Ehtiyaca sığmayan qəhrəmanlıq. Həyata sığmayan mənəviyyat! Ölçüyə sığmayan kamillik! Yerlərdən göylərə boylanan çinarlar! Bugündən sabaha boylanan könüllər! Nisbidən Mütləqə boylanan xalislər!

Zamandan qabağa boylanan zəkilər! Qədimdən bugünə boylanan ilkinlər! Hərfə sığmayan məzmun. Ünsiyyətə sığmayan doğmalıq. Kitablara sığmayan müqəddəslik! Sifətə sığmayan mənəvi nur! Bəzəyə sığmayan gözəllik! Naxışa sığmayan təravət! İnkara sığmayan imtina! Özünə sığmayan özüylədöyüş! Mühitə sığmayan ləyaqət! Ucalıq həvəsi! Hüdudsuzluq həvəsi. Dalğalarla döyüşmək həvəsi.

Azsan, Dünya! Natamsan, Dünya! Ancaq həm də özündən kənara çıxansan, özündən gözəl olansan, özündən yüksəyə qalxansan, Dünya! Buna görə də sevimlisən, Dünya! Özünə sığmadığın üçün, özünlə razılaşmadığın üçün sənə inanıram, Dünya! Özünü özündən aliyə aparan dünya! Özüylə barışmayan Dünya!

## III FƏSİL

## İNSANA İNAM

### İnsan Ləyaqəti

İdeala heyrət. Gözəlliyə heyrət. Mütləqlə vəhdət.

Zamana sığmamaq. Mühitə sığmamaq.

Yalansızlıq. Ehkamsızlıq. Xülyasızlıq. Cəhalətsizlik. Cinayətsizlik.

Tək yanmaqdan çəkinməmək.

Yırtıcılıq üzərində qələbə. Xudpəsəndlik üzərində qələbə. Qorxaqlıq üzərində qələbə. Hərcayilik üzərində qələbə. Məkr, fitnə üzərində qələbə. Ətalət üzərində qələbə.

Həqiqət eşqi. İdrak eşqi. Xeyir eşqi. Təbiət eşqi.

Vətənsevərlik. Bəşərsevərlik.

Ruhun dünyaya qovuşması. Ürəyin ürəyə qovuşması.

Düşüncə ləyaqəti. Duyğu ləyaqəti. Sifət ləyaqəti. Baxış ləyaqəti. Ruhun Mütləq heyrəti. Mənəviyyatın müqəddəslik heyrəti. Hissiyyatın məhəbbət heyrəti.

Dözüm əzəməti. Əbədi yolçuluq əzəməti. Nifrət əzəməti. İzzət əzəməti. Vüqarlı səadət. Zülmə hiddət.

İnamsızlar arasında inamlı qalmaq! Vicdansızlar arasında vicdanlı qalmaq! Sönüklər arasında sönməmək!

Atalıq yükü. Analıq yükü. Övladlıq yükü! Peyğəmbərlik yükü. Dahilik yükü. Qəhrəmanlıq yükü. Aşiqlik yükü! Qadınlıq imtahanı! Kişilik imtahanı!

Sərvət yükündən imtina! Şöhrət yükündən imtina! İşrət yükündən imtina! Qafil dərsindən imtina! Cəllad zəhmindən imtina!

Zindanlara salınmaq ləyaqəti! Saysız öldürülmək ləyaqəti! Vaxtsız məzara qoyulmaq ləyaqəti! Saflıq ləyaqəti! Barışmazlıq ləyaqəti! Riyasızlıq ləyaqəti! Alabaşı hürdürmək ləyaqəti! Naşını güldürmək ləyaqəti! Susanı dindirmək ləyaqəti! Vəcd ləyaqəti! Heyrət ləyaqəti! Yuxudan ayılmaq ləyaqəti! Divanə sayılmaq ləyaqəti! Şimşək kimi şığımaq ləyaqəti! İldırım kimi çaxmaq ləyaqəti! Vaxtında dünyaya gəlmək ləyaqəti! Vaxtında ölmək ləyaqəti! Əzabı sevmək ləyaqəti. Heçliyi görmək ləyaqəti. Beyinin fikir ləyaqəti. Ürəyin duyğu ləyaqəti.

Günəş şəfqəti. Od hərarəti. Həmdəmlik ləyaqəti. Həmdərdlik ləyaqəti. Yenidən doğulmaq ləyaqəti. İşgəncə oduna qalanmaq

ləyaqəti. Özünü dərindən anlamaq ləyaqəti. Bəşərin dərdinə ağlamaq ləyaqəti. İnkar yağışında çimmək. Avam qarğışında çimmək.

Müqəddəs sərsəmlik. Cəfakeş sabitliyi. Nəcabət sabitliyi. Məhəbbət sabitliyi.

Ümid sədası. İlqar sədası.

Qadının ismət ləyaqəti. Kişinin qeyrət ləyaqəti. Daxili vəhdət ləyaqəti. Hicranın fəryad ləyaqəti. Vüsalın sevinc ləyaqəti. Qədimlik ləyaqəti. Doğmalıq ləyaqəti. Etiqad ləyaqəti. Təhlükə ləyaqəti. Körpənin ilkin ləyaqəti. Cavanın şux ləyaqəti. Qocanın müdrik ləyaqəti.

Gözəl niyyətdə çirkin vasitədən imtina. Aldatmaq fəhmindən imtina.

Müqəddəsliyə tapınma ləyaqəti. Xalq ləyaqəti. Ənənə ləyaqəti. Özündənkeçmək və sevinmək. Şaqqalanmaq, parçalanmaq, paralanmaq və sevinmək.

Mütləq qarşısında sarsılmaq! Ruhanilik qarşısında sarsılmaq. Ata qarşısında sarsılmaq!

Peyğəmbərin Ali Kəlam etirafı! İnamlının Ruhani heyrət etirafı!

Həsrət ləyaqəti. İntizar ləyaqəti.

Əsgərin döyüş imtahanı. Qadınlığın Ana imtahanı. Kişiliyin Ata imtahanı. Aşiqin Məcnunluq zirvəsi. İdrakın İnam zirvəsi. Ünsiyyətin dostluq zirvəsi.

Təbəssümün şəfqəti. Ata zəhmi. Ana mehri.

Əqidə bəxtiyarlığı. Düşüncə bəxtiyarlığı.

Ölülər içində diri qalmaq. Sünilər içində əsil qalmaq. Əyrilər içində doğru qalmaq.

Dövrə bənzəməmək ləyaqəti. Ləyaqəti qorumaq ləyaqəti. Gözlərin səmavi xisləti. Sözlərin ruhani xisləti. Üzün nurani xisləti.

Ləyaqətlidir İnsan. Həm də qəbahətlidir. Mütləqə yaxındır, həm də Mütləqdən uzaqdır.

## İnsan Qəbahəti

Mütləqdən ayrılmaq. Müqəddəslikdən ayrılmaq. Həqiqətdən ayrılmaq. Ədalətdən ayrılmaq. İlkinlikdən ayrılmaq. Ruhanilikdən ayrılmaq. Heyrətdən ayrılmaq. Həsrətdən ayrılmaq. Cürətdən ayrılmaq. Tarixdən ayrılmaq. Qəhrəmanlıqdan ayrılmaq. Fədakarlıqdan ayrılmaq. Aşiqlikdən ayrılmaq. Dahilikdən ayrılmaq. Ülvi yollardan ayrılmaq. Vüsaldan ayrılmaq.

Mühitə pərçimlənmək. Maddidə mənəvini itirmək. Alçaltmaq, alçalmaq. Titrətmək, titrəmək.

Hörmətin yaltaqlıq uçurumu. Qeyrətin yaltaqlıq uçurumu. Sözün yalan uçurumu. Üzün riya uçurumu. Ağılın xülya uçurumu. Hissin həqarət uçurumu.

Parçalamaq ehtirası. Bəd niyyət ehtirası. Hakimiyyət ehtirası. Cinayət ehtirası.

Murdarlığa həvəs. Mənəvi idbarlığa həvəs. Azğınlıq ehtirası.

Özgə kədərindən sevinmək. Özgə sevincindən kədərlənmək.

Tapdamaq dəbdəbəsi. Tapdanmaq naləsi. Əsir etmək arzusu. Köləlik aqibəti. Gücə əyilmək həqarəti.

Sözün məddahlıq fəlakəti. Arzunun bədxahlıq fəlakəti. Ləyaqətin işrətə təslim olması. Iradənin zillətə təslim olması. Qəddarlığın mərhəməti öldürməsi. Çirkinliyin məlahəti öldürməsi.

Dəyişkən etiqad. Dəyişkən sevgi. Dəyişkən dostluq. Ani sevinc. Ani cəfa. Ani heyrət.

Ürəklərdə ilan ağusu. Xəyalda qatil bıçağı. Ağızda canavar dişi. Təbəssümdə nifrət. Mərhəmlikdə yadlıq. Ünsiyyətdə yağılıq.

Çirkli suyun təmiz suyu bulandırması! Bəd duyğunun saf duyğunu bulandırması!

Daxildə gizlənmiş həsəd! Daxildə gizlənmiş hiylə! Daxildə gizlənmiş əyyaşlıq! Daxildə gizlənmiş cəlladlıq! Daxildə gizlənmiş müstəbidlik!

Bəd əməl sevinci! Bəd xəbərlər sevinci! Yanlış yollar sevinci! Bəsit hisslər sevinci!

Şəhvətdə heyvanı üstələmək! yırtıcılıqda heyvanı üstələmək! Azğınlıqda heyvanı üstələmək!

Qan tökmək məharəti. Tora salmaq məharəti. Aldatma, ağlatma məharəti. Oynama, oynatma məharəti. Təqlid etmə, təlqin etmə məharəti. Bataqlığa salma məharəti. Yolundan azmaq, azdırmaq məharəti. Sürüyə çevirmə, çevrilmə məharəti.

Ruhsuzlaşma cəhaləti. Maddiləşmə cəhaləti. Dilsizləşmə cəhaləti.

Lal ürəklər. Qanlı gözlər. Rəngli üzlər.

Eyş-işrət yuxusu! Var-dövlət yuxusu! Naz-nemət yuxusu! Cənnnət yuxusu! Tərif yuxusu! Təltif yuxusu. Nəfs yuxusu! Keçici həvəs yuxusu!

Həsəd əzabı! Mənsəb əzabı!

Hakim biçimində rəqqas! Müdrik biçimində cahil! Nəvaziş biçimində qəddarlıq! Zəriflik biçimində qəddarlıq!

Dost biçimində düşmən! Vəcd biçimində inkar. Səcdə biçimində nifrət.

Şərin törətdiyi xeyir. Yalanın törətdiyi doğru. Fəlakətin törətdiyi möhtəşəmlik. Günahın törətdiyi nailiyyət.

Qorxu səfaləti. Nəşəsevərlik əsarəti. Maddi nemət səadəti. Süni hörmət səadəti. Ruhi karlıq səadəti. Qarnın toxluq səadəti.

Köləliyə alışanlar. Rəzalətlə barışanlar.

Alətə çevrilmək adəti. Yalanda yaşamaq adəti.

Alabaşnəzərlik. Qarabaşnəzərlik. Təşəxxüs paylamaq! Ədalı banlamaq! Əzəmət cildində görünmək. Məhəbbət cildində görünmək. Ehtizaz cildində görünmək.

Cırtdanın fil kini. Cılızın div kini.

Satılmış aqibət. Satılmış gözəllik. Satılmış idrak. Satılmış ilham.

Daxili zülmət. Daxili cinayət. Haram cəzbi. Yalan cəzbi. Çirkab cəzbi. Günah cəzbi.

Fatehlik cəhaləti. Ağalıq cəhaləti. Nökər sədaqəti.

Alini tonqallarda yandırmaq. Ülvini dabanından soymaq. Aşiqi dəli saymaq.

Özünə çatmamaq. Özünü tanımamaq.

Zəkanın – işgəncələr kəşfi. Təxəyyülün – mənəvi eybəcərliklər kəşfi. Əyyaşın – rəzil nəşələr kəşfi!

Ev yıxmaq həvəsi. Köləyə çevirmək, köləләşmək həvəsi. Xoş avaza uymaq həvəsi! Daxildəki düşmənə tabe olmaq həvəsi! Yaşamadan ölmək həvəsi!

Həm qəbahətə, həm də ləyaqətə qadirsən, İnsan! Həm ali, həm də adisən, İnsan!

## İnsan Xeyiri

Mütləqi tanımaq! Ulunu tanımaq! Ruhlunu tanımaq!

Torpaqda doğmalıq kəşf etmək! Dağlarda ucalıq kəşf etmək! Ürəyi riqqətə gətirmək! Üzü şəfəqə bürümək!

Peyğəmbəranə söz müqəddəsliyi! Aşiqanə göz müqəddəsliyi! Ata müqəddəsliyi! Ana müqəddəsliyi! And müqəddəsliyi! El müqəddəsliyi! Ev müqəddəsliyi! Vəcd müqəddəsliyi! Ehtizaz müqəddəsliyi! Dil müqəddəsliyi! Sirr müqəddəsliyi! Ülviyyət müqəddəsliyi! Mütləqlə görüş müqəddəsliyi! Özüylədöyüş müqəddəsliyi! Mənəvi imtahan müqəddəsliyi! İmtina müqəddəsliyi! Günəş müqəddəsliyi! Atəş müqəddəsliyi!

Yıxılanı qaldırmaq. Ağlayanı güldürmək. Əlsizə əl olmaq. Dilsizə dil olmaq.

Əsillik toxumu səpmək! Doğruluq toxumu səpmək! Qeyrət toxumu səpmək! İsmət toxumu səpmək!

İnsandakı heyvanı öldürmək! Nadandakı iddianı öldürmək! Zəkadakı yanlışlığı öldürmək!

Həqiqət itən yerdə həqiqət bitirmək! Ədalət itən yerdə ədalət bitirmək! Cəsarət itən yerdə cəsarət bitirmək! Xəyanət bitən yerdə sədaqət yetirmək!

Dünyanı özünə qaytarmaq. İnsanı özünə qaytarmaq.

Ruhsuzlara ruh vermək. Cansızlara can vermək. Zəruri gəlim sevinci! Zəruri ölüm sevinci!

Qəhrəmanlıq zəruriliyi. Fədakarlıq zəruriliyi. Əzabkeşlik zəruriliyi. Cəfakeşlik zəruriliyi.

İnamsızlar arasında inam saxlamaq! Anlamazlar arasında anlamaq! Qorxaqlar arasında qorxmazlıq! Qonaqlar arasında sahiblik!

Atəşin vəcd məqamı. Ülvi səcdə məqamı. Yenidən doğulma məqamı.

Gözlərin göy həsrəti. Əllərin ucalıq həsrəti. Yaxının uzaqlıq həsrəti.

Daşadönmüşləri insana çevirmək! Quşadönmüşləri insana çevirmək! Tozadönmüşləri insana çevirmək! Çirkabları insana çevirmək. Bataqlıqları insana çevirmək.

Təbiətdə gözəlliyin kəşfi. İnsanda ölməzliyin kəşfi. İnamda sonsuzluğun kəşfi. İnkarda yolsuzluğun kəşfi.

Həyatı iblisdən qorumaq. Xalisi xəbisdən qorumaq. Məsumu azğından qorumaq. Munisi pozğundan qorumaq. Çiçəyi çovğundan qorumaq. Doğrunu oğrudan qorumaq.

Səxavət sevinci. Əziyyət sevinci. Xilaskarlıq sevinci. Günahsızlıq sevinci.

Səsin ruhani mənası! Sözün ruhani mənası!

Xeyirin sonsuzdur, İnsan! Ruhun sönməzdir, İnsan!

## İnsan Şəri

Riyalı məhəbbət! Boyalı məhəbbət! Qondarma əzəmət! Uydurma səadət!

Cəsarət libasında cinayət! Ləyaqət libasında qəbahət! İlkinlik libasında çirkinlik! Doğruluq libasında əyrilik! Nicat libasında əsarət! Ədalət libasında məşəqqət! Cəfakeşlik libasında müstəbidlik! Cəngavərlik libasında cahangirlik! Xalqsevərlik libasında zorsevərlik!

Quyu qazmaq məharəti! Yazı pozmaq məharəti! Fitnəkar əməli! Zülmkar əməli!
Zahirin batinə yadlığı! Sözlərin niyyətə yadlığı!
Yanılma uçurumu! Aldanma uçurumu! Mərhəmət biçimində əsarət. Doğmalıq biçimində düşmənlik. Analıq biçimində yamanlıq. Atalıq biçimində zalımlıq.
Balanı anadan ayırmaq. Üzü həyadan ayırmaq. Bəşəri Mütləqdən ayırmaq. İnsanı vətəndən ayırmaq. Duyğunu əxlaqdan ayırmaq.
Ucanı alçaltmaq. Böyüyü kiçiltmək. Həqiqətə yağılıq. Qüdsiyyətə yağılıq. Doğrunun əyriyə uyması. Batinin zahirə uyması.
Köləlik dəhşəti. Yalançı dirilik dəhşəti.
Mənəvi işgəncə! Cismani işgəncə! Qorxudan işgəncə! Sarsıdan işgəncə! Keçici işgəncə! Əbədi işgəncə!
Ülviyyətə istehza! Zəkaya istehza! Mənəviyyata istehza! İnama istehza!
Duyğunu aldatmaq. Arzunu aldatmaq.
Zülmdən sevinmək! Ölümdən sevinmək!
Nəfs hökmü. Haram hökmü. Murdar həvəs hökmü.
Həsəd yanğısı. Hiddət yanğısı. Fitnə yanğısı. Fəsad yanğısı.
Sürüləşmə rəzaləti. Kölələşmə rəzaləti.
Gözəlliyin çirkinliyə xidməti! Ucalığın alçaqlığa xidməti!
Kölgənin canlını əvəz etməsi! Bəsitin alini əvəz etməsi! Naqisin xalisi əvəz etməsi! Zailin qabili əvəz etməsi!
Zəhərli qədəhlər. Zəhərli fərəhlər. Zəhərli ümidlər. Zəhərli ürəklər.
Xəyanət çirkabı. Süni həqiqət çirkabı.
Məcnunun odlara yanması. Nadanın aşiqi danması. Fərhadın ölümü. Xosrovun sevinci.
Rəqabət çirkabı. Xəbisin yamanlıq arzusu. Qatilin amansızlıq arzusu. Fəndgirin amansızlıq arzusu.
Şeytan toxumu səpmək. Böhtan toxumu səpmək. Nifaq toxumu səpmək. Nifrət toxumu səpmək. Zülmət toxumu səpmək.
Eybəcər olub gözəl görünmək! Qəddar olub məsum görünmək! Qara olub ağ görünmək! Ölü olub sağ görünmək!
Rütbəyə sığınmaq. Dəbdəbəyə sığınmaq. Ağılı söndürmək. Gözü kor etmək. Qulağı kar etmək. Dodaqları kilidləmək. Dilləri kəsmək.
Ölü cəsədlər yığımı. Keçilməz sədlər yığımı. Kəsilmiş başlar yığımı. Tökülmüş qanlar yığımı. Uçurulmuş xanimanlar yığımı. Satılmış dostlar yığımı. Pozulmuş əhdlər yığımı. Atılmış balalar yığımı. Müsibətli bəlalar yığımı.
Qatil atalar. Qatil analar. Aldanmış kişilər. Aldanmış qadınlar. Dağılmış ailələr. Şəhvətə bulaşmış sevgilər. Xəyanətə bulaşmış

sədaqət. Yalana bulaşmış səmimiyyət. Şübhəyə bulaşmış inamlar. Günaha bulaşmış günahsızlar. Yolsuz yolçular. Fərəhsiz gülüşlər. Süni baxışlar. Məkrli alqışlar.

Şərin böyükdür, İnsan!
Taleyinə yükdür, İnsan!

## İnsan Sevinci

Səcdə sevinci. Sevda sevinci. Səma sevinci. Ümid sevinci. İşıq sevinci. İnam sevinci. Bəşər sevinci. Vətən sevinci. Ata sevinci. Övlad sevinci. İdrak sevinci. Vəcd sevinci. Ülvi səda sevinci. Ali saflıq sevinci. Xeyirxahlıq sevinci. Cəfakeşlik sevinci.

Qorxunun ölümü. Həsədin ölümü. Mənəvi zülmətin ölümü. Duyğuda vəhşinin ölümü. Ağılda nadanın ölümü. Dodaqda yalanın ölümü. Üzdə riyanın ölümü. Tamahın ölümü. Günahın ölümü.

Mütləqə qovuşma sevinci. Özüylə vuruşma sevinci. Günəş sevinci. Atəş sevinci. Dağ sevinci. Çay sevinci.

Gözlərin gözəllik sevinci. Sözlərin həqiqət sevinci. Üzlərin səadət sevinci. Qəlblərin sədaqət sevinci. Aşiqin Məcnunluq sevinci. İgidin təhlükə sevinci. Dahinin düşüncə sevinci. Alinin işgəncə sevinci. Qanadın ucalıq sevinci. İnadın maneə sevinci. Təravət sevinci. Doğmalıq sevinci. Şəhidlik sevinci. Həmdəmlik sevinci. Təmənnasızlıq sevinci. Fədakarlıq sevinci. Xalis duyğular sevinci. Möhtəşəm arzular sevinci.

Niskilin könüldən getməsi. Həsrətin ömürdən getməsi.

Tərəddüd halından imtina. Köləlik halından imtina. Cəhalət torundan imtina. Xurafat yolundan imtina.

Ruhani kamillik sevinci. Amala sadiqlik sevinci. Vüqarı qorumaq sevinci. İlqarı qorumaq sevinci.

Torpağın sevinci. Yarpağın sevinci. Bulağın sevinci. Budağın sevinci. Pərvanəlik sevinci. “Divanəlik” sevinci. Mərdanəlik sevinci.

Təbiətə heyranlıq. Gözəlliyə heyranlıq. Əqidəyə vurğunluq. İdrak eşqi. Hünər eşqi. Müqəddəs kədər eşqi. İlk addım sevinci. Nurlu qədəh sevinci.

Sağalan yaralar. Oxunan yazılar. Bəstələnən nəğmələr. Əfsunlu sədalar. Heyrətli haraylar.

Peyğəmbər kəlamı. Sənətkar ilhamı.

Həyanlıq sevinci. Halallıq sevinci. Doğruçuluq sevinci! Yolçuluq sevinci! Yaz qədəmi! Şair qələmi! Aydınlıq sevinci! Qəhrəmanlıq sevinci!

Çeşid-çeşid sevinci var İnsanın! Həm də çeşid-çeşid kədəri!

## İnsan Kədəri

Əsarət. Ətalət. Rəzalət. Ruhsuzluq. İnsansızlıq. Atasızlıq. Anasızlıq. Pünhansızlıq. İnamsızlıq. Yolsuzluq. Mütləqsizlik. Qismətsizlik.

Məhəbbət azlığı. Cəsarət azlığı. Səadət azlığı. Pərvanə azlığı.

Peyğəmbər yoxluğu. Cəngavər yoxluğu. Dirilər yoxluğu. Ölülər çoxluğu.

Duyğu qəbiristanlığı. Fikir qəbiristanlığı. Amal qəbiristanlığı. Vicdan qəbiristanlığı. İdrak qəbiristanlığı. İnam qəbiristanlığı.

Fikirdə əyrilik. Əməldə əyrilik. Gözlərin tərs görməsi. Qulaqların tərs eşitməsi. Ürəyin əyri vurması.

Köləliyə sevinmək. Əlilliyə sevinmək. Aldanışa alışmaq. Cəhalətə qovuşmaq.

Mehr itkisi. Sehr itkisi. Vəcd itkisi. Sirr itkisi.

Salam yalanı. Fərəh yalanı. Həmdəm yalanı. Həmdərd yalanı.

Nifrətin məhəbbəti üstələməsi. Qəbahətin ləyaqəti üstələməsi. Xəyanətin sədaqəti üstələməsi.

Fikirdə ülviyyət azlığı. Duyğuda qüdsiyyət azlığı.

Quduz təmtəraq. Cılız möhtəşəmlik. Alçağın ucalıq hipnozu! Əyyaşın aşiqlik hipnozu! Çirkinin gözəllik hipnozu!

Əsilsizlər çoxluğu! Nəsilsizlər çoxluğu! Döyüşkən canavar çoxluğu! Sürüşkən Amallar çoxluğu! Dişilər, erkəklər çoxluğu!

İzzətin itməsi! Qüdrətin itməsi! Bağlarda zəhərli meyvələr bitməsi! Vüqarın dağlardan dərəyə enməsi. Pələngin pişiyə dönməsi.

Beşiksiz körpələr. Fikirsiz idrak. Tutuquşu alimliyi. Biçimin məzmunu öldürməsi! İşrətin qeyrəti öldürməsi!

Min naqis içində bir xalis! Min naşı içində bir zəki! Min əyri içində bir doğru! Min saxta içində bir əsil! Min qəyyum içində bir qohum!

Zorla sevilmək. Zorla düşünmək. Zorla ağlamaq. Zorla böyütmək. Zorla yüksəltmək.

Məddah akrobatikası. Yaltaq akrobatikası. Rütbə akrobatikası. Mənsəb akrobatikası.

Əyilmiş bellər. Yalançı dillər. Qaldırılmışlar. Satılmışlar. Atılmışlar. Əhliləşmiş şücaət.

Əhliləşmiş ləyaqət.

Gədanın bəy ədası. Qarabaşın xanım ədası. Milçəyin fil təşəxxüsü. Böcəyin şir təşəxxüsü.

Cəllad mülayimliyi. Tülkü mərdanəliyi. Qəddar mərhəməti. Xəsis səxavəti. Xəbis məhəbbəti.

Qadında quş gözəlliyi. Kişidə quş ürəyi.

Sevilən əyyaşlar. Hərcayi alqışlar. Şəhvət meyi. Şöhrət meyi.

Ciddi yüngüllər. Pozğun təmizlər. Riyabənizlər.

Həya qıtlığı. Vəfa qıtlığı.

Ünsiyyət oyunu. Səadət oyunu.

Şikəst cavanlıq. Azad nadanlıq. Yarımqadınlıq. Yarımanalıq. Özünə bənzəməyən dünya. Özünə bənzəməyən xalq. Özünə bənzəməyən insan.

Təqlid çirkabı. Özünəyadlıq çirkabı.

Qabaqcıl cəhalət. Qabaqcıl qəbahət. Qabaqcıl cinayət. Çeşidli xəyanət.

Söz rəqqaslığı! Göz rəqqaslığı. Üz rəqqaslığı! Dil rəqqaslığı!

Fitnə yayanlar. Fəsada uyanlar. Pusquda duranlar.

Zavallı qarğışlar. Zərərli gülüşlər. Məkrli baxışlar.

Tərcümə arzular. Tərcümə qaydalar. Tərcümə adamlar. Tərcümə ailə. Tərcümə əlaqə.

Tənhalıq qisməti. Özünə həyanlıq qisməti. Özüylə pünhanlıq qisməti.

Axtarmaq – tapmamaq! Yüyürmək – çatmamaq!

Ləkəli gözəllik! Kölgəli ülvilik!

Ürəyin ürəkdən ikrahı! Gözlərin bəbəkdən ikrahı!

Saxta ümidlər! Bayağı bütlər!

Kədərlisən, İnsan! Çünki müdriksən!

## İnsan Möhtəşəmliyi

Peyğəmbərlik. Cəngavərlik.

İztirab zirvəsi. Fəda zirvəsi. Aşiqlik zirvəsi.

Mütləqə səcdə zirvəsi. Özüylədöyüş zirvəsi. Ülvi kədər zirvəsi. İnsana çatmaq zirvəsi.

Yandırılmaq. Parçalanmaq. Paralanmaq.

İradə mətinliyi. Ağıl zənginliyi. Duyğu dərinliyi.

Dahi Qayğı! Dahi Arzu! Qorxusuzluq. Ölümsüzlük. Vətənsevərlik. Bəşərsevərlik zirvəsi! Naqisliyə nifrət zirvəsi! Zirvə səsi! Zirvə sözü! Zirvə hikməti!

Hünər qisməti! Müqəddəs yolçuluq zirvəsi! Nurlu idrak zirvəsi! Sədaqət zirvəsi!

Zəmanəyə əyilməmək! Rütbəyə sığmamaq! Müasir sayılmamaq! Zorluya alçalmamaq! Xəbisə yaramamaq! Çirkə bulaşmamaq! Zülmə alışmamaq! Yadla barışmamaq!

Fitnəni əvvəldən duymaq zirvəsi! Şeytanı görmək zirvəsi!

Yolsuzlar içində yolundan dönməmək! Zülmətdə sönməmək! Şaxtada daxili hərarət zirvəsi! Ölü öyüddən imtina zirvəsi! Diri meyitdən imtina zirvəsi! Qorxaq sözündən imtina zirvəsi! Bədxah gözündən imtina zirvəsi! Mühitə sığmaqdan imtina zirvəsi! Kölələr içində məğrurluq zirvəsi! Əyrilər içində doğruluq zirvəsi!

Sürünənlər arasında yerimək! Ölənlər arasında dirilmək! Korlar arasında görmək! Karlar arasında eşitmək! Gəda ədasına dözmək! Matəm sədasına dözmək! Rəzil ittihamına dözmək! Zail töhmətinə dözmək! Müstəbid “mərhəmətinə” dözmək! Xəbis “səxavətinə” dözmək! Nacins səlahiyyətinə dözmək! Rüzgar sərtliyinə dözmək! Tülkü mərdliyinə dözmək!

Sinədə dağ gəzdirmək, Ürəkdə kin gəzdirməmək! Xeyirə həsrət qalmaq, Şəri qəlbə qoymamaq! Küldən alışmamaq. Ölüyə qarışmamaq. Yalanla barışmamaq.

Həqiqət görməmək və həqiqətə inanmaq! İnsan görməmək və insana inanmaq! Aldanmaq və aldatmamaq! Gözəllərdə yanılıb, gözəlliyə inanmaq! Dostlarda yanılıb, dostluğa inanmaq! Bütlərdə yanılıb, Mütləqə inanmaq! Adamda yanılıb, bəşərə inanmaq! Alimdə yanılıb, idraka inanmaq! Qadında yanılıb, qadınlığa inanmaq! Kişidə yanılıb, kişiliyə inanmaq! Bugündə yanılıb, Sabaha inanmaq!

Şübhəylə rastlaşmaq, inama tapınmaq! Pislərlə yaşayıb, yaxşıya inanmaq!

Dəhşət görmək – sarsılmamaq! Vəhşət görmək – sarsılmamaq! Fəlakət görmək – sarsılmamaq! Xəyanət görmək – sarsılmamaq! Cəhalət görmək – sarsılmamaq! Şəri taxtda görmək – sarsılmamaq! Xeyiri ayaqda görmək – sarsılmamaq!

Qeyrətsizlər arasında qeyrət saxlamaq! İsmətsizlər arasında ismət saxlamaq! Yetimlər arasında atalı qalmaq!

Möhtəşəmsən, İnsan! Yoxsa dünyada yaşaya bilməzdin!

## İnsan Kiçikliyi

Sürü yekdilliyi. Canavar qəddarlığı.

Hakimə səcdə qılmaq. Mühitə sığmaq. Zülmdən qorxmaq. Ölümdən qorxmaq.

Yırtıcı ehtiras kiçikliyi. Məkrli qisas kiçikliyi. İnamsız yaşamaq kiçikliyi! Sabahsız yaşamaq kiçikliyi! Vüqarsız yaşamaq kiçikliyi! İlqarsız yaşamaq kiçikliyi! Ayaqlar altına sərilmək kiçikliyi! Ayaqlar

altında sürünmək kiçikliyi! Kor qalmaq, kar qalmaq, kal qalmaq kiçikliyi!

Alçalıb sevinmək kiçikliyi! Əyilib öyünmək kiçikliyi! Palaz tək döyülmək kiçikliyi! Köləleşmək kiçikliyi! Kölgələşmək kiçikliyi! Əsarətə salmaq kiçikliyi! Zahirə uymaq kiçikliyi! Qafilə uymaq kiçikliyi! Zailə hörmət kiçikliyi! Aliyə lənət kiçikliyi! Həsəd havasına oynamaq kiçikliyi! Həvəs havasına oynamaq kiçikliyi!

İblisə uymaq! Naqisə uymaq! İşıltını işıq saymaq! Hərcayini Aşiq saymaq! İşığı görməmək! Aşiqi görməmək! Yoxuşda təntimək! Bəd ayaqda sarsılmaq!

Asan gündə dostlaşmaq! Yaman gündə yadlaşmaq!

Əzaba əyilmək! Qəzəbə əyilmək! Tamaha əyilmək! Günaha əyilmək! Silaha əyilmək!

Xalisi naqisə dəyişmək! Çətini asana dəyişmək! Ağırı yüngülə dəyişmək! Amalı yalana dəyişmək! Yolundan dönmək! Tez alışıb, tez sönmək! Zirvədən enmək!

Özgə kədərinə sevinmək! Fateh zəfərinə sevinmək! Nadan tənəsindən sarsılmaq! Vəhşi pəncəsindən sarsılmaq! Cəllad işgəncəsindən sarsılmaq! Qatil zəhmindən sarsılmaq! Cahil biganəliyindən sarsılmaq! Gəda əzəmətindən sarsılmaq!

Yanmaqdan usanmaq! Şübhədən yoğrulmaq!

Tikansız gül arzusu! Yoxuşsuz yol arzusu! Şimşəksiz göy arzusu! Dumansız dağ arzusu!

Ani coşqunluq! Ani vurğunluq! Ani heyranlıq! Ani həyanlıq!

Özündə həsədi öldürə bilməmək! Özündə yırtıcı xisləti öldürə bilməmək! Çirkabı ürəkdən silməmək!

Tərəddüd zənciri. Ətalət zənciri. Var-dövlət zənciri. Ruhsuz həyat. Əməlsiz söz. İdealsız ömür. Zəkasız idrak. Vicdansız mənəviyyat. Təhlükəsiz qəhrəmanlıq. İztirabsız peyğəmbərlik. Qurbansız nailiyyət.

Düz yolda yanılmaq. Əyri yolda yanılmamaq. İttihamda yanılmaq. Ehtimalda yanılmaq.

Addım cılızlığı. Arzu cılızlığı. Şəfqət cılızlığı. Şəfəq cılızlığı.

Balaca mərdlər. Balaca hiddətlər. Balaca tufanlar. Balaca üsyanlar. Balaca qadınlıq. Balaca analıq. Balaca doğmalıq.

Bilməzlik quyusu. Görməzlik quyusu. Dinməzlik quyusu. Sevinmədən sevinmək. Sevilmədən sevilmək. Düşüncəsiz düşüncə. Amalsız amal. Duyğusuz duyğu. Həyasız həya. Yaşamadan yaşamaq.

Özündən kiçiksən, İnsan! Həm də böyüksən!

## İnsan Ülviyyəti

Ruhanilik. Nuranilik. Müqəddəslik tələbi. Mütləq saflıq tələbi. Dünyada dünyadan böyük məna tapmaq. İnsanda insandan böyük məna tapmaq. Təbiətdə təbiətdən böyük məna tapmaq.

Heyvaniliyin süqutu. Şəhvaniliyin süqutu.

Maddiyə sığmamaq. Aliyə ucalmaq.

Səsin ülvi mənası. Sözün ülvi mənası. Vəcdli kəlam. Coşqun ilham. Peyğəmbərin Mütləqə vurğunluğu. Aşiqin məşuqa vurğunluğu. Qəhrəmanın hünərə vurğunluğu. Cəngavərin amala vurğunluğu. Müdrikin kəlama vurğunluğu. Kişinin qeyrətə vurğunluğu. Qadının ismətə vurğunluğu.

Ehtizaz hərarəti. Əməl qətiyyəti. Yenidən doğulmaq. İşıqdan yoğrulmaq.

Üzün ikinci mənası. Gözlərin ikinci mənası. Əllərin ikinci mənası.

Mütləqə qovuşmaq. Mütləqə oxşamaq. Özündə Mütləqi daşımaq.

Məhəbbət qisməti. Həqiqət qisməti. Mütləqə səcdə nəşəsi. Müqəddəs sevda nəşəsi.

Parçalanmaq nəşəsi. Dara çəkilmək nəşəsi.

Ürəyin müqəddəs riqqəti. Gözlərin müqəddəs riqqəti.

Alçaqların tənəsiylə ucalmaq. Naşıların töhmətiylə ucalmaq. Çirkabda gözəllik bitirmək. Sabahı bugünə gətirmək. Quraqlıqda yağış olmaq. Qaranlıqda işıq olmaq. Susuzluqda bulaq olmaq.

Şübhəyə enməmək. Qorxuya enməmək. Həsədə enməmək.

Ruhsuzlar arasında ruhanilik. Quduzlar arasında insanilik. Donmuşlar arasında yanmaq. Sönüklər arasında ehtizaz. Yalanlar arasında həqiqət. Tənha qalmaqdan qorxmamaq. Nişanə qalmaqdan qorxmamaq.

İnkarla təsdiqlənmək. Kədərlə sevinmək. Təhqirlə öyünmək. Böhtanla bilinmək.

Maddinin mənəvidən asılılığı. Dilin ürəkdən asılılığı.

Nurani xalislik. Mənəvi varislik. Məhəbbətin şəhvətdən ayrılması. Ləyaqətin qəbahətdən ayrılması. Zəkanın ətalətdən ayrılması. Mənəviyyatın əsarətdən ayrılması.

Dünyanı yenidən görmək. İnsanı yenidən görmək. Torpağı yenidən görmək. Doğmanı yenidən görmək. Həyatı yenidən duymaq. Sabahı yenidən duymaq.

Gözlərdə vəcd işığı. Üzlərdə nur yağışı. Ürəyin coşqun məqamı. Dodağın ülvi kəlamı. Mütləqə sevgidən sarsılmaq. Aliyə heyrətdən sarsılmaq. Heyvanlaşmaq qismətinə inanmamaq. Əşyalaşma

qismətinə inanmamaq. İnamsızlar harayına inanmamaq. Mütləqsizlər böhtanına inanmamaq.

Dərdlilərlə həmdərdlik. Doğrularla həmdəmlik.

İnam hiddəti. Amal lənəti. Sədaqət atəşi. Etiqad günəşi. Ülviyyət dağın ucadır, İnsan! Bəsitlik quyun dərindir!

## İnsan Bəsitliyi

Məqama pərçimlənmək. Zamana pərçimlənmək. Məişətə pərçimlənmək. Var-dövlətə pərçimlənmək.

Mənəvi atəşsizlik. Mənəvi günəşsizlik.

Qanadsız doğulmaq. Özünə yaramaq.

İməkləmək – yeriməmək. Dolanmaq – yaşamamaq. Ölmək – dirilməmək. Mənimsəmək – yaratmamaq.

Maddidə itmək. Mənsəbdə itmək. Bəzəkdə itmək.

Qul sərməstliyi. Quş sərbəstliyi. Əyyaş qələbəsi. İştah qələbəsi. Dostluq alveri. Sevgi alveri. Əməl alveri. Fikir alveri. Duyğu alveri. Qazanmaq ehtirası. Azmaq ehtirası.

Yer səadəti. Yem səadəti. Geyim səadəti. Ruhani yetimlik səadəti. Keyf-damaq səadəti. Eybəcər yaşamaq səadəti. Hünərsiz kişilər. Sevdasız qadınlar. Ağıllı qorxaqlar. Pərdəli alçaqlar. Ölçülü yamanlar. Ölü rəvanlar. Təhlükəsiz qəhrəmanlıq. Cəfasız fədakarlıq.

Kövrək ziya. Titrək vüqar. Ani qübar. Ani ilqar.

Rahatlıq. Ölü səbatlıq. İradə iflici. Duyğu quraqlığı.

Pənahsızlar. Miskin günahsızlar. Ruhdan imtina. Mənəvi nurdan imtina. Özüylə barışmaq. Süquta alışmaq.

Qarışqa addımı. Kəpənək yardımı. Amalsızlıq sevinci. Sabahsızlıq sevinci. Yolsuz “bəxtəvərlər”. İdealsız “bəxtəvərlər”. Yararsız igidlər. Barsız söyüdlər. Qəflət yuxusu. Qeyrət yuxusu. İnsaniyyət yuxusu.

Çirkabı bəzəmək. Mühitə bənzəmək. Vətəni unutmaq. Yetənə sığınmaq.

Ziyalı sayılmaq. Ziyasız dolanmaq. Həyata daraşmaq. Pay üstə dalaşmaq. Yamanlıq əkib firavanlıq biçmək. Səfalət əkib güzəranlıq biçmək. Köləlik əkib nəşə biçmək. Zəlillik əkib fərəh biçmək.

Zail dahilik. Cahil loğmanlıq. Barsız bağmanlıq.

Dəbdəbə hərisliyi. Təmtəraq hərisliyi. Parıltı hərisliyi. Çığırtı hərisliyi.

İsinmədən qaynamaq. Coşmadan daşmaq. Ocağın kül məqamı. Dillərin lal məqamı. Çayların qış məqamı. Dalğanın dinc məqamı. Hərarətsiz məhəbbət. Həqiqətsiz kəlam. Vəcdsiz ilham. Qəmsiz hicran. Mütləqsiz dövran.

Nurani gözlərin sükutu. Ruhani göylərin sükutu.

Fəlakətində sabitsən, İnsan! Heç bir ülviyyət dənizi bəsitliyini yuya bilməyib!

## İnsan Müdrikliyi

Həqiqətin Mütləq siqləti. Ədalətin Mütləq siqləti. Qəhrəmanlığın Mütləq siqləti. Fədakarlığın Mütləq siqləti.

Sərvəti səadət saymamaq. Həvəsi ehtiras saymamaq. Hakimi peyğəmbər saymamaq. Məqamı əbədiyyət saymamaq. Şöhrəti qiymət saymamaq. Fitnəni fəhm saymamaq. Qorxunu zəhm saymamaq. İniltini qəm saymamaq. Bəzəyi gözəl saymamaq. Ruhsuzu diri saymamaq. Doğrunu əyri saymamaq. Aldanışı sehr saymamaq. Zoru güc saymamaq.

Bəd ahəngi tanımaq. Saxta rəngi tanımaq. Yalan vədi tanımaq. Əhdi tanımaq. Dəbdəbəni tanımaq. Qondarmanı tanımaq. Hər işığa uymamaq. Yaraşığa uymamaq. Ehtişama uymamaq.

Bugündə sabahı görmək. Dözümdə vüqarı görmək. Kiçikdə böyüyü görmək. Möhtəşəmdə süqutu görmək. Adamda insanı görmək. Kölədə qəhrəmanı görmək. Sahibdə əsiri görmək. Ucalanda yıxılanı görmək. Mülayimdə vəhşini görmək. Zahirdə batini görmək. Asanda çətini görmək. Çirkində gözəli görmək. Biləndə avamı görmək. Söyüləndə Alini görmək. Döyüləndə dahini görmək. Adildə xaini görmək. Qabildə cahili görmək.

Ağ üzdə qara əməl təzadı. Şux bədəndə qarımış ruh təzadı. İnkişafda ətalətin, azadlıqda əsarətin surəti. Kamillikdə xəsarətin surəti.

Gözün görmədiyini görmək. Agılın bilmədiyini bilmək. Döyülənin qələbəsini görmək. Söyülənin sevilməsini görmək. Hörmətsizlərin hörmətini görmək. Gücsüzlərin qüvvətini görmək. Bir günün hökmünə inanmamaq. Bugünün hökmünə inanmamaq. Məqam qətiyyətinə inanmamaq.

Nadan gülüşünə inanmamaq. Adam hürüşünə inanmamaq. Xəbis çağırışına inanmamaq. Zəlil çağırışına inanmamaq.

Günəşdə Mütləqi görmək. Atəşdə Mütləqi görmək. Çiçəkdə Mütləqi görmək. Üzdə Mütləqi görmək. Sədada Mütləqi görmək. Kəlamda Mütləqi görmək.

Mütləqin hökmünü dinləmək. Dünyaya Mütləqlik diləmək. İnsana Mütləqlik diləmək. Nisbi Həqiqəti Həqiqət saymamaq. Nisbi Ədaləti Ədalət saymamaq. Nisbi İdealı İdeal saymamaq. Nisbiyə aldanmamaq.

Qədimlərə bənzəmək. Müasir sayılmamaq. Qədim sayılmaq.

Bədəni çirkabdan qorumaq. Ürəyi Günahdan qorumaq. Ölümü saymamaq. Naqis Harayından sarsılmamaq. Böhtan qarasından sarsılmamaq. Təhqir yarasından sarsılmamaq.

Zail lənətindən sevinmək. Cahil hiddətindən sevinmək.

Zindan əzəməti. Vicdan əzəməti. Ziynətsizlik əzəməti. Minnətsizlik əzəməti.

Xülya zülmündən imtina. Şöhrət meyilindən imtina. İşrət diləyindən imtina. Hakim mehrindən imtina. Qafil sehrindən imtina.

Həvəsdə tələsməmək. Qəfəsdə çırpınmamaq. Tufanda sarsılmamaq. Zamanda itməmək.

Müdrikliyin ucadır, İnsan! Ancaq ucalıqdan enirsən! Mütləq ola bilmirsən!

## İnsan Naşılığı

Duyğu naşılığı. Arzu naşılığı. Sevda naşılığı. Qismət naşılığı. Alim naşılığı. Cahil naşılığı. Cavan naşılığı. Zaman naşılığı. Qoca naşılığı. Adam naşılığı. Məxluq naşılığı. Xülya naşılığı. Röya naşılığı. Rütbə naşılığı. Şöhrət naşılığı. Fateh naşılığı.

Naşı azadlıq. Naşı ləyaqət. Naşı təfəkkür. Naşı təşəxxüs. Naşı söz. Naşı əməl. Naşı zəfər. Naşı qisas. Naşı lənət. Naşı etiraf. Naşı pənah. Naşı xilaskar. Naşı zülmkar. Naşı ölkə. Naşı kölgə. Naşı dost. Naşı düşmən.

Hakim naşılığı. Zalım naşılığı. Xudbin naşılığı. Əyyaş naşılığı.

Naşı coşqunluq. Naşı heyranlıq. Naşı həyanlıq. Naşı aydınlıq. Naşı ilham. Naşı çağırış. Naşı yarış. Naşı aldanış. Naşı səadət. Naşı sədaqət.

Adi naşılıq. Dahi naşılıq. Məzlum naşılıq. Azğın naşılıq.

Naşı kişilik. Naşı qadınlıq. Naşı sərkərdə. Naşı əsgər. Naşı ölüm. Naşı zülm. Naşı ümid. Naşı istək. Naşı ağıl. Naşı ürək. Naşı nikbin. Naşı bədbin. Naşı yoxsul. Naşı zəngin. Naşı quzu. Naşı canavar. Naşı tufan. Naşı tüğyan. Naşı ilqar. Naşı vüqar. Naşı yollar. Naşı

heyrət. Naşı adət. Naşı ehtiram. Naşı ehtişam. Naşı çağırış. Naşı alqış. Naşı pərəstiş. Naşı nəvaziş. Naşı böyüklük. Naşı igidlik. Naşı fərəh. Naşı kömək. Naşı dərs. Naşı səs. Naşı sahib. Naşı əsir. Naşı müəllimlik. Naşı tələbəlik. Naşı cəlal. Naşı xəyal.

Naşı bənzəyiş. Naşı irəliləyiş. Naşı aqil. Naşı kamil.

Naşı təsdiq. Naşı inkar.

Zahiri batindən ayırmaq. Asanı çətindən ayırmaq.

Naşı cəmiyyət. Naşı qətiyyət. Naşı əziyyət.

Rəyasət naşılığı. Səlahiyyət naşılığı.

Naşı yara. Naşı çarə. Naşı xəstə. Naşı dərman.

Heçliyi möhtəşəmlik saymaq. Yalana uymaq.

Naşı ülfət. Naşı hörmət.

Gurultunu yağış saymaq. Avazı məna saymaq.

Ruha inanmamaq. Vəcdə inanmamaq. Ehtizaza inanmamaq.

Sehrə inanmamaq. Sirrə inanmamaq.

Naşı başlanğıc. Naşı nəticə. Naşı əyləncə.

Cəllad naşılığı. Müstəbid naşılığı.

Vəcdsiz idrak naşılığı.

Ani hikmət naşılığı. Ani qiymət naşılığı.

Gizli niyyət naşılığı.

Dünyanı bilmək – anlamamaq.

İnsanı görmək – anlamamaq.

Naşı həsrət. Naşı ayrılıq. Naşı fəallıq. Naşı səbatlıq.

Naşı gözəllik. Naşı ilkinlik. Naşı yetkinlik. Naşı təravət.

Dünyanı dünyadan böyük saymamaq.

İnsanı insandan böyük saymamaq.

Nisbidə mütləqi görməmək. Adidə Alini görməmək.

Müqəddəs duyğudan imtina. Nurani arzudan imtina.

Cismi görmək – ruhu görməmək.

Bugünü görmək – sabahı görməmək.

Üzü görmək – ürəyi görməmək.

Əzabı görmək – nəşəni görməmək.

Kədəri görmək – fərəhi görməmək.

İnkarı görmək – təsdiqi görməmək.

Təzyiqi görmək – qüdrəti görməmək.

Dərdi görmək – dərmanı görməmək.

Zülməti görmək – ulduzu görməmək.

Yaranı görmək – çarəni görməmək.

Yenini görmək – qədimi görməmək.

Dözümü görmək – sevinci görməmək.

Təmənnalı xidmət naşılığı.

Qərəzli qiymət naşılığı.
Qatildən imdad diləmək.
Zaildən idrak diləmək.
Yırtıcıya sığınmaq. Riyakara tapınmaq.
Özünə inanmamaq.
Qədərsiz naşılığını görəndə, səndən usanıram, İnsan!
Səndə yanılıram, İnsan!
Səni tanımıram, İnsan!

## İnsan Gözəlliyi

Səmaya bənzəmək. Günəşə bənzəmək. Dağlara bənzəmək.
Bulağa bənzəmək. Çırağa bənzəmək.
Ananın ürəyi. Atanın zəkası. Aşiqin fəryadı. İgidin cürəti. Körpənin təravəti. Ayrılığın kədəri. Vüsalın sevinci. İdrakın vəcdi. Sevgi məqamı. Gəlin vüqarı. Həya qızartısı.
Aşiqin Məcnun çağı.
Şəhidin ölüm çağı.
Yolçunun yoxuş çağı.
İlqarın sınaq çağı.
Zəkanın yanar çağı.
Üzdə görünən gözəllik.
Ağıldan süzülən gözəllik.
Şəfəqə bürünən gözəllik.
Səcdə məlahəti. Hünər səxavəti. Əzab səadəti.
Cahilləri bəyənməmək gözəlliyi.
Zaillərə bənzəməmək gözəlliyi.
Zindanda yaranan gözəllik.
Vicdanda yaranan gözəllik.
Ruhun bədənlə birliyi.
Ömrün Vətənlə birliyi.
Qəlbin Mütləqlə birliyi.
Müqəddəs səda gözəlliyi.
Müqəddəs cəfa gözəlliyi.
Müqəddəs etiraf gözəlliyi.
Müqəddəs pənah gözəlliyi.
Müqəddəs sima gözəlliyi.
Müqəddəs məna gözəlliyi.
Şəffaf duyğu. Sərraf qiymət. Sərrast fikir.
Çağıran gözəllikdən imtina.

Bağıran gözəllikdən imtina.
Çirkaba qarışan gözəllikdən imtina.
Üzlərdə ruh çiçəyi.
Gözlərdə ruh işığı.
Əllərdə ruh istisi.
Gülüşdə ruh saflığı.
Ürəkdə ruh atəşi.
Ömürdə ruh günəşi.
Çətin suallar gözəlliyi. Çətin yollar gözəlliyi.
Doğru dillər gözəlliyi. Ülvi sirlər gözəlliyi.
Mütləqə qovuşma məqamı.
Şübhəylə döyüşmə məqamı.
İnamı doğuran gözəllik.
İsmətdən yoğrulan gözəllik.
Arzuya bənzəyən gözəllik.
Süniliyin ölümü. Dəbdəbənin ölümü.
Uydurmanın ölümü. Qondarmanın ölümü.
Gözəl kədər məqamı.
Gözəl fəryad məqamı.
Gözəl fərəh məqamı.
Çaylar kimi çağlayan gözəllik.
Sinə dağlayan gözəllik.
Ağladan gözəllik.
Qəlbə yağış tək tökülən gözəllik.
Ömrə ulduz tək səpilən gözəllik.
Həyatın səmtini dəyişən gözəllik.
Həyatla döyüşən gözəllik.
Taleyə quş kimi qonan gözəllik.
Yandıran, yanan gözəllik.
Zəriflik gözəlliyi.
Nəciblik gözəlliyi.
Əsillik gözəlliyi.
Gözlərin nəğməsi.
Əllərin nəğməsi.
Göz ilə qaş ahəngi.
Dil ilə söz ahəngi.
Saç ilə üz ahəngi.
Ana–övlad ahəngi.
İnsan–Vətən ahəngi.
Əzab–sevinc ahəngi.
Bəşər – Mütləq ahəngi.

Xatirələr gözəli.
Dəqiqələr gözəli.
Təbiətlə söhbət bəxtiyarlığı.
Ruhani səyahət bəxtiyarlığı.
Ehtizaza yaramaq gözəlliyi.
Gözəlliyi qorumaq gözəlliyi
Məkrli gözəllikdən imtina.
Fitnəli gözəllikdən imtina.
Müstəbid gözəllikdən imtina.
Cəllad gözəllikdən imtina.
Quduz gözəllikdən imtina.
Cılız gözəllikdən imtina.
Gəda gözəllikdən imtina.
Kölə gözəllikdən imtina.
Hədyan gözəllikdən imtina.
Əşya gözəllikdən imtina.
Bəzəksiz gözəllik. Bənzərsiz gözəllik.
Ləkəsiz gözəllik. Kölgəsiz gözəllik.
Gözəlliyinə həyanam, İnsan!
Çirkinliyinə yağıyam!

## İnsan Çirkinliyi

Ruhsuz bədən. Amalsız əməl. İsmətsiz gözəl.
Həsəd yanğısı. Fitnə yanğısı.
Cəllad sevinci. Qəddar sevinci. Satqın sevinci.
Azğın sevinci.
Quyu qazanlar. Tələ quranlar.
Haramlıq harınlığı. Zalımlıq harınlığı.
Xəyanət harınlığı. Qəbahət harınlığı.
İdraklı görünmək. Vicdanlı bilinmək. Yalana bürünmək.
Alçalmaq – öyünmək. Alçaltmaq – sevinmək.
Yaltaqlıq yetkinliyi. Saxtalıq yetkinliyi.
Qorxu əsarəti. Nəşə əsarəti. Sərvət əsarəti.
Sürünmək məharəti. Əyilən başlar. Titrəyən dizlər.
Aldanan üzlər.
Həya azadlığı. Riya azadlığı.
Yalan azadlığı. Böhtan azadlığı.
Canavar məharəti. Tülkü mərdliyi.
Nəcabətli qatillər. Əzazil adillər.

Zəhər olub çörək görünənlər.
Zəhər olub kömək görünənlər.
Əyrinin doğruya münasibəti.
Xainin aliyə münasibəti.
Alabaşın filə münasibəti.
Naşının aqilə münasibəti.
Satqının sadiqə münasibəti.
Cahilin müdrikə münasibəti.
Paxıl səmimiyyəti.
Yırtıcı ünsiyyəti.
Aydınlıq libasında qaranlıq.
Xeyirxahlıq libasında yamanlıq.
Aldatmaq məğlubiyyəti.
Ağlatmaq məğlubiyyəti.
Həqiqət oyunu. Ədalət oyunu. Səadət oyunu.
Bəsit adamlıq. Parlaq avamlıq.
Çirkabda bitən qadınlıq.
İtən qadınlıq. Açıq hədyanlıq.
Soyuq həyanlıq. Açıqlıq. Yazıqlıq.
Qəşəngliyin gözəlliyi öldürməsi.
Səriştənin təravəti öldürməsi.
Özündən ayrılmaq sərbəstliyi.
Erkək sayılmaq sərbəstliyi.
Ülvi məlahət qıtlığı.
Qəlbdə hərarət qıtlığı.
Zərif nəvaziş qıtlığı.
Müqəddəs gəliş qıtlığı.
Özünəyadlıq əsarəti. Yarımarvadlıq əsarəti.
Yarımbeşik keşikçisi. Yarımev sahibəsi.
İncə satılmaq. Kobud atılmaq.
Ani sevilmək. Şirin döyülmək. Yetkin əzilmək. Qəşəng əyilmək.
Yad cazibədarlıq. Yad bəxtiyarlıq. Yad evdarlıq.
İşrət sacında qovrulan kişilər.
Çirkabdan yoğrulan kişilər.
Xəyanətdə sərbəst kişilər.
Cinayətdə sərbəst kişilər.
Köləlikdə sərbəst kişilər.
Rəzalətdə sərbəst kişilər.
Sözlü kişilər. Söhbətli kişilər.
Ədalı kişilər. Sevdalı kişilər.
Üzgüçülər. Rəqqaslar. Qəssablar.

Niyyəti gizlədənlər. Özünü gizlədənlər.
Əxlaqdan utananlar.
Məsləki dananlar.
Qabaqcıl davrananlar.
Vəhşiyə tapınanlar.
Vüqardan keçənlər.
İlqardan keçənlər.
Tir-tir əsənlər.
Baş kəsənlər.
Kölələşənlər. Kölgələşənlər.
Təhlükəlisən, İnsan! Gözəlliyinlə çirkinliyini yumasaydın, dünya çirkabla dolardı!

## İnsan Azadlığı

Qorxudan azad olmaq. Həsəddən azad olmaq. Mənəvi xəsarətdən azad olmaq. Naqis fikirdən azad olmaq. Məkrdən azad olmaq. Rəzalət əsarətindən, küdurət əsarətindən azad olmaq.
Vətənsizlik həqarətindən azad olmaq.
İnamsızlıq fəlakətindən azad olmaq.
Cılız məhəbbətdən, ani mərhəmətdən, süni sədaqətdən azad olmaq.
Xülya zəncirini qırmaq.
Hiylə zəncirini qırmaq.
Fitnə zəncirini qırmaq.
Qibtə zəncirini qırmaq.
Daxildəki ilanı öldürmək.
Yalanı öldürmək.
Özünü sarsıtmaq. Özünə qayıtmaq.
Özündə köləni öldürmək. Özündə öləni öldürmək.
Özündə vəhşini öldürmək. Özündə cəlladı öldürmək.
Yarımdostluq bəlasından imtina.
Yarımsevgi səfasından imtina.
Yarımülfət vəfasından imtina.
Tərəddüd quyusundan çıxmaq.
Təkəbbür quyusundan çıxmaq.
Təşəxxüs quyusundan çıxmaq.
Bədxah niyyətdən imtina.
Naşı qiymətdən imtina.
İblis nemətindən imtina.

Həris qismətindən imtina.
Kölə sahiblikdən imtina.
Kölə qaliblikdən imtina.
Kölə çörəkdən imtina.
Kölə fərəhdən imtina.
Ot kimi biçilmək, kiçilmək aqibətindən imtina.
Daş kimi soyumaq, çöp kimi qurumaq aqibətindən imtina.
Şərafətli köləlikdən imtina.
Dəbdəbəli köləlikdən imtina.
Təmtəraqlı köləlikdən imtina.
Ləyaqətli köləlikdən imtina.
Sədaqətli köləlikdən imtina.
Səadətli köləlikdən imtina.
Azad köləlikdən imtina.
Abad köləlikdən imtina.
Mütləqsizlik köləliyindən imtina.
Səcdəsizlik köləliyindən imtina.
Müqəddəsliyə qayıtmaq.
Ölüb yenidən dirilmək.
Azad azğınlardan imtina.
Azad quzğunlardan imtina.
Azadlıq zindanından imtina.
Qəyyum sədəqəsindən imtina.
Fateh mərhəmətindən imtina.
Alçalmaq azadlığından imtina.
Alçaltmaq azadlığından imtina.
Oynamaq azadlığından imtina.
Oynatmaq azadlığından imtina.
Ətəkdən yapışmaq azadlığından imtina.
Çirkaba qarışmaq azadlığından imtina.
Azadlıq yanğısı.
Azadlıq nağılı.
Aldadan azadlıq.
Çağıran azadlıq.
Çığıran azadlıq.
Azan, azdıran azadlıq.
Xəyalda doğulan, həyatda qovulan azadlıq.
Qəhrəmanların Leylisi.
Loğmanların pərisi.
Ağladan azadlıq.
Sinəni doğrayan azadlıq.

Azadlıq biçimində – cinayət.
Azadlıq biçimində – xəyanət.
Azadlıq biçimində – həqarət.
…Azadlıq ən çox niyyətin olub, İnsan!
Qismətin olmayıb!

## İnsan Əsarəti

Özünü yanıltmaq. Özündən ayrılmaq. Özünü danmaq. Özünə qapılmaq.

Bilməzlik əsarəti. Dinməzlik əsarəti. Dilsizlik əsarəti. Elsizlik əsarəti.

Ətalət inadı. Cəhalət inadı. Xəyanət inadı. Həqarət inadı.

Avamlıq tilsimi. Yarımadamlıq tilsimi. Maddi zənginlik tilsimi. Məzlum bədbəxtlik tilsimi.

Hərislik quyusu. Harınlıq quyusu. Saxta həyanlıq quyusu.
Ehtişam əsarəti. İzdiham əsarəti.
Yalançı büt əsarəti. Saxta igid əsarəti.
Təqlid əsarəti. Təhqir əsarəti.
Hakim əsarəti. Həkim əsarəti.
Xilas əsarəti. Qisas əsarəti.
Məddah əsarəti. Pənah əsarəti. Günah əsarəti.
Xalisin naqisdən asılılığı.
Ülvinin bəsitdən asılılığı.
Məsumun cəlladdan asılılığı.
Sağlamın şikəstdən asılılığı.
Mənəvinin maddidən asılılığı.
Ləyaqətin qəbahətdən asılılığı.
Ədalətin cinayətdən asılılığı.
Parlağın sönükdən asılılığı.
Sadiqin dönükdən asılılığı.
Yalan yol əsarəti. Zor əsarəti.
Qul olub – sahib sayılmaq.
Məğlub olub – qalib sayılmaq.
Alçalıb – ucalan sayılmaq.
Yıxılıb–qalxan sayılmaq.
Heç olub – hər şey sayılmaq.
Gec ayılmaq.
Şirin vədlər əsarəti.
Yalan əhdlər əsarəti.

Yaman gözlər əsarəti.
Yaman üzlər əsarəti.
Şər niyyəti görməmək.
Bəd qisməti görməmək.
Köləliyi görməmək.
Ölülüyü görməmək.
Səxavətli aldanma. Səxavətli alçalma.
Sözlə əməl döyüşü. İşlə amal döyüşü.
Oyuncaq iradə. Oyuncaq tale. Oyuncaq xalq.
Oyuncaq qeyrət. Oyuncaq ismət.
Gizli zəncir. Gizli zindan. Gizli yağı. Gizli ağrı.
Düşmən dostlar.
Namərd mərdlər.
Yalançı peyğəmbərlər.
Yalançı fədakarlar.
Ağıllı nadanlar.
Miskin zənginlər.
Nikbin bədbinlər.
Yalançı iman. Yalançı imkan.
Tələ nicatı. Riya nicatı. Fitnə nicatı. Qibtə nicatı.
Təmənnalı cəfakar. Təmənnalı vəfadar.
Evli eşiksiz. Fərəhli fərəhsiz.
Bəzəkli köləlik. Şərəfli köləlik. Tərifli köləlik.
Təltifli köləlik. Qabaqcıl köləlik. İnadcıl köləlik.
Əsarət daşlarından tikilən binalar.
Əsarət suyundan suvarılan düzlər.
Əsarət taxtında oturan səlahiyyətlilər.
Əsarət toxumundan törəyən meyvələr.
İnamsızlıq zənciri. Pənahsızlıq zənciri.
Yamanla barışmaq. Yamana alışmaq.
Ürəyi Mütləqdən ayırmaq.
Zəkanı vəcddən ayırmaq.
Həyatı müqəddəslikdən ayırmaq.
Yeknəsəqlik əsarəti. Yekrənglik əsarəti.
Yekrəylik əsarəti. Yeksəylik əsarəti.
Haqsevərlik biçimində əsarət.
Xalqsevərlik biçimində əsarət.
Çağırılmamış qonaq əsarəti.
Qurumuş bulaq fəlakəti.
Qudurmuş silah cinayəti.
Saxta bilik əsarəti.

Yanlış dilək əsarəti.
Dönük ürək əsarəti.
Haram çörək əsarəti.
Buyuruq əsarəti.
Yumruq əsarəti.
Zaman əsarəti. Məkan əsarəti.
Çirkabla ünsiyyət əsarəti.
Günahla ünsiyyət əsarəti.
Pişiyin aslan ziyankarlığı.
Cılızın quduz ziyankarlığı.
Kirpinin ilan ziyankarlığı.
Milçəyin fil ziyankarlığı.
Böcəyin dağ ziyankarlığı.
Müstəbid canfəşanlığı. Fateh avamlığı.
Şəhvət cəzbi. Cəllad zəhmi. Dəllal fəhmi.
Xalisin naqislə bərabərliyi.
Alinin nacinslə bərabərliyi.
Aqilin cahillə bərabərliyi.
Qabilin zaillə bərabərliyi.
Sadiqin xainlə bərabərliyi.
Doğrunun əyriylə bərabərliyi.
İgidin qorxaqla bərabərliyi.
Ucanın alçaqla bərabərliyi.
Əsarət dağın böyükdür, İnsan!
Uçura bilmirsən!

## İnsan  Fədakarlığı

Amalsız ömürdən imtina.
Şərəfsiz ömürdən imtina.
Əzabsız sevincdən imtina.
Hünərsiz əməldən imtina.
Tonqallarda yandırılmaq sevinci.
Dabanından soyulmaq sevinci.
Sevincdən ayrılmaq sevinci.
Nəşədən ayrılmaq sevinci.
Müdhiş ağrılar sevinci.
Məhkum doğrular sevinci.
Qurbanlıq aqibəti. Mütləqə heyranlıq aqibəti.
Ruhani gözlər. Müqəddəs üzlər.

Haqqını tanımaq. Xalqını tanımaq.
Sadiqlik ülviyyəti. Xalislik ülviyyəti.
Cismin ruhda itməsi.
Gözün nurda itməsi.
Ölümü öldürənlər.
Əzabı sevdirənlər.
Özündənkeçənlər.
Alini seçənlər.
Fəlakətli fərəh. Müsibətli nəşə.
Faciə üstünlüyü. İşgəncə üstünlüyü.
Çətin həyat. Qədim həyat.
Alidə itən həyat.
Mütləqə yetən həyat.
Torpaq olub əkilmək.
Toxum olub səpilmək.
Ocaq olub qalanmaq.
Cismi ruha tapşıranlar.
Canı yola tapşıranlar.
Nisbini Mütləqə tapşıranlar.
Kiçiyi böyüyə tapşıranlar.
Həyatdan keçən həyatsevərlər.
Özündənkeçən bəşərsevərlər.
Nəşədən keçən nəşəsevərlər.
Şöhrətdən keçən ölümsüzlər.
Fəlakətli nikbinlər.
Məşəqqətli ilkinlər.
Kədərli bəxtəvərlər.
Zillətli məğrurlar.
Bəlalı uğurlar.
Qibtəyə layiq qibtəsizlik. Həsədə layiq həsədsizlik.
Gündəlik qəhrəmanlıq. Gündəlik cəngavərlik.
Mənanı təzahürdən üstün tutmaq.
Mahiyyəti əlamətdən üstün tutmaq.
Sonsuzu sonludan üstün tutmaq.
Ülvi “Mən”in cılız “Mən”i öldürməsi.
Ali “Mən”in quduz “Mən”i  öldürməsi.
Xalis “Mən”in naqis “Mən”i  öldürməsi.
Hissiyyatda heyvan ölümü.
Mənəviyyatda şeytan ölümü.
İradədə tərəddüd ölümü.
Vüqarda təşəxxüs ölümü.

Ülfətdə yalan ölümü.
Ürəkdə qorxu ölümü.
İnsanlıq imtahanı. Analıq imtahanı.
Atalıq imtahanı. Övladlıq imtahanı.
İnsanın mütləq mahiyyəti.
Vicdanın mütləq mahiyyəti.
Müqəddəs duyğu. Müqəddəs zəka.
Müqəddəs iradə. Müqəddəs yol.
Həqiqət atəşi. Sədaqət atəşi. Ruhani səadət atəşi.
Fədakarlığında Mütləqə çatırsan, İnsan!
Günahkarlığında ondan uzaqlaşırsan!

## İnsan Günahkarlığı

Mütləqi unutmaq. İnsanı unutmaq. Vicdanı unutmaq.
Çirkinlik bataqlığı.
Xudbinlik bataqlığı.
Hərislik bataqlığı.
Əsirlik bataqlığı.
Vəhşilik bataqlığı.
Dişilik bataqlığı.
Erkəklik bataqlığı.
Əyrilik bataqlığı.
Qəbahətə tapınmaq. Ülviyyəti yanılmaq.
Xalisi atıb naqisi tutmaq.
Ucanı atıb alçağı tutmaq.
İgidi atıb qorxağı tutmaq.
Alini atıb bəsiti tutmaq.
Qüdrəti nemətə qurban vermək.
Ölməzliyi şöhrətə qurban vermək.
Əbədini keçiciyə qurban vermək.
Ruhu bədənə qurban vermək.
Zəkanı ağıla qurban vermək.
İdrakı xülyaya qurban vermək.
Eşqi işrətə qurban vermək.
Məişətdə itmək. Var-dövlətdə itmək.
Nifrət çoxluğu. Fitnə çoxluğu. Qibtə çoxluğu.
Zalım çoxluğu. Qatil çoxluğu. Cəllad çoxluğu.
Dağıtmaq hərisliyi. Ağlatmaq hərisliyi.
Aldatmaq hərisliyi. Sarsıtmaq hərisliyi.

Tapdamaq hərisliyi. Qul etmək hərisliyi.
Yox etmək hərisliyi. Bulanıq hissiyyat köləliyi.
Çirkli mənəviyyat köləliyi. Dönük iradə köləliyi.
Sönük zəka köləliyi.
İnsanın insanda ölməsi.
Azğınlığın məsumluğa qənimliyi.
Çirkinliyin gözəlliyə qənimliyi.
Hərcayinin qeyrətliyə qənimliyi.
Həsədlinin qüdrətliyə qənimliyi.
Fitnəkarın fədakara qənimliyi.
Xəyanətdən ayılmamaq. Cəhalətdən ayılmamaq.
Harınlıqdan ayılmamaq. Zalımlıqdan ayılmamaq.
İşığı görüb zülməti seçmək.
Haqqı görüb nahaqqı seçmək.
Saflığı görüb çirkabı seçmək.
İblisə uymaq. Xəbisə uymaq.
Yaxşıya qıymaq. Xalisə qıymaq. Aliyə qıymaq.
Murdarlıq ehtiyacı. İdbarlıq ehtiyacı.
Bədxahlıq ehtiyacı. Qəddarlıq ehtiyacı.
Əxlaq bəndini aşmaq. Mərhəmət bəndini aşmaq.
Həqiqət bəndini aşmaq. Mərifət bəndini aşmaq.
Ölməyən cəlladlıq. İtməyən qəddarlıq.
Getməyən nadanlıq.
Gecikən cürət. Gecikən ülfət.
Çirkaba qarışanlar. Peşimanlar. Pərişanlar.
İkrahsızlar. İlqarsızlar. Nəfs edamı.
Murdar həvəs edamı. Xain niyyət edamı.
Məhəbbətliləri çarmıxa çəkənlər.
Ədalətliləri tonqalda yandıranlar.
Ülviləri dabanından soyanlar.
Mənəvi korlar.
Riya qələbəsi.
Hiylə qələbəsi.
Vəhşi qələbəsi.
Naşı qələbəsi.
Yalan qələbəsi.
Yaman qələbəsi.
Qisas qələbəsi.
Yas qələbəsi.
Qanadı olub uçmamaq.
Gözü olub baxmamaq.

Ayağı olub qaçmamaq.
Dili olub dinməmək.
Qəlbi olub duymamaq.
…Özündən uzaqsan, İnsan!
Yazıqsan, İnsan!

## İnsan Yüksəkliyi

Aşiqlik aqibəti. Peyğəmbərlik aqibəti. İmtina qətiyyəti.
Duyğu ciddiyyəti. Vəcd əzəməti.
Ülvi səda hikməti. Ali kəlam qüdrəti.
Heyranlıq təlatümü. Vurğunluq təlatümü.
Müqəddəs istək. Müqəddəs ürək. Müqəddəs gözlər.
Müqəddəs əllər. Müqəddəs Səma. Müqəddəs ana.
Müqəddəs torpaq. Müqəddəs kəlam.
Müqəddəs sükut. Müqəddəs məqam.
Səhər müqəddəsliyi.
Gecə müqəddəsliyi.
Çay müqəddəsliyi.
Dağ müqəddəsliyi.
Xatirə müqəddəsliyi.
Əməl müqəddəsliyi.
Mütləqlə söhbət. Ürəklə söhbət. Təbiətlə söhbət.
Ruh qanadı. Vəhy qanadı. Təb qanadı.
Müqəddəsçi taleyi.
Həqiqətçi taleyi.
Dözüm zirvəsi. Səbr zirvəsi.
Həsədə enməmək.
Fəsada enməmək.
Küdurətə enməmək.
İşrətə enməmək.
Harınlığa enməmək.
Azğınlığa enməmək.
Məhəbbət ucalığında yaşamaq.
Sədaqət ucalığında yaşamaq.
Saflıq ucalığında yaşamaq.
Səcdə ucalığında yaşamaq.
İlkinlik ucalığında yaşamaq.
Kamillik ucalığında yaşamaq.
Bədəni çirkabdan qorumaq.

İnamı inkardan qorumaq.
Yalandan imtina.
Yamandan imtina.
İblisdən ayrılma.
Xəbisdən ayrılma.
Köləlik yükündən imtina.
Kölgəlik yükündən imtina.
Tərəddüd yükündən imtina.
Təkəbbür yükündən imtina.
Aldanış yükündən imtina.
Yalvarış yükündən imtina.
Qorxaqlıq yükündən imtina.
Alçaqlıq yükündən imtina.
Qaranlıqda görmək.
Səhrada bitmək.
Soyuqda isitmək.
Gurultuda eşitmək.
Qibtəyə enməmək.
Fitnəyə enməmək.
Saxta rəngə uymamaq.
Bəd ahəngə uymamaq.
Tufandan sarsılmamaq.
Çovğundan sarsılmamaq.
Ruh səbatlığı.
Ruh qanadlığı.
Ruh analığı.
Ruh coşqunluğu.
Ruh rəvanlığı.
Ruh qədimliyi.
Ruh mətinliyi.
Ruh həqiqəti.
Ruh səadəti.
Yollar çağırışı. Müqəddəs dillər çağırışı.
Nurani üzlər çağırışı. Silinməz izlər çağırışı.
Çirkinliyə bulaşmamaq. Qəbahətlə barışmamaq.
Xalisi hərisdən qorumaq.
Qabili cahildən qorumaq.
Aşiqi naşıdan qorumaq.
Çirkabı eşitməmək. Günahı eşitməmək.
Əyyaşı eşitməmək. Sərxoşu eşitməmək.
Əzabın qədərini unutmamaq.

Sevincin kədərini unutmamaq.
Yoxuşların sayını unutmamaq.
Yaraların ağrısını unutmamaq.
Yüksəkliyə qalxırsan, İnsan!
Fəqət orada qala bilmirsən!
Alçaqlara enirsən.

## İnsan Alçaqlığı

Mütləqsizlik. İnamsızlıq. Sabahsızlıq.
Köləliyə alışmaq. Kölgəliyə alışmaq.
Sürünmək aqibəti. Sürülmək aqibəti.
Əsarət fərəhi. Ətalət fərəhi.
Minüzlülük. Dargözlülük. İlqarsızlıq.
Satılmaq və yaşamaq. Satmaq və yaşamaq.
Aldanmaq və yaşamaq. Aldatmaq və yaşamaq.
Daşlaşmaq və yaşamaq. Otlaşmaq və yaşamaq.
Riyanı sevmək. Fitnəni sevmək.
Erkəkləşmə aqibəti. Dişiləşmə aqibəti.
Eyniləşmə aqibəti. Süniləşmə aqibəti.
Müqəddəsdən ayrılmaq. Ülvi səsdən ayrılmaq.
Gözəlliyə qıymaq. Körpəliyə qıymaq.
İlkinliyə qıymaq. Məsumluğa qıymaq.
Oyuncaq qüdrət. Oyuncaq səadət.
Zalım ədalət. Sadiq xəyanət. Zəngin səfalət.
Rəzalət cəzbi. Həqarət cəzbi. Çirkab cəzbi. Günah cəzbi.
Yalanla bəzənmək. Şeytana bənzəmək.
Satılmış təbəssüm. Satılmış məlahət. Satılmış əzəmət.
Satılmış heyranlıq. Satılmış həyanlıq.
Satılmış qurbanlıq. Satılmış pərəstiş.
Satılmış nəvaziş.
Qatil qətiyyəti. Yaltaq məlahəti. Xəsis səxavəti.
Özündən ayrılma fəlakəti. İblisə tapınma fəlakəti.
Qəhrəmanı sevməmək. Yaradanı sevməmək.
Təskinlik yuxusu. Həqiqət yuxusu.
Əyləncə qadınlıq. Oyuncaq kişilik.
Əllərin harama batması.
Dillərin doğrudan qaçması. Gözlərin qaranlıq saçması.
Bədən əsarəti. Boğaz qəbahəti.
Quduz işrət. Cılız istək. Heyvanlaşmaq. Yamanlaşmaq.

Yırtıcı duyğu. Yırtıcı arzu. Yırtıcı həmdəmlik.
Yırtıcı həyanlıq. Yırtıcı sürülük. Yırtıcı birlik.
Ağalıq ehtirası. Gədalıq ehtirası.
Vəhşi niyyət. Vəhşi əzəmət.
Yad doğmalıq. Yad sevdalıq. Yad ailə. Yad əməl.
Ürək süqutu. Dilək süqutu. Heyrət süqutu. Vəcd süqutu.
Ehtizaz süqutu. Nəvaziş süqutu. Pərəstiş süqutu.
Nikbin bədbinlik. Süni ilkinlik.
Gizlənən üzlər. Titrəyən dizlər.
Qatil sevinci. Rəzil sevinci. Paxıl sevinci.
Fateh sevinci. Əyyaş sevinci.
Müstəbid mərhəməti. Qorxaq cəsarəti.
Nəşə dilənmək. Mənsəb dilənmək. Rütbə dilənmək.
Hörmət dilənmək. Zora əyilmək.
Zalımsevənlər. Əzab verənlər.
Nahaq qanlıq. Qudurğanlıq.
Əzazil hakim. Zəlil alim. Ölü rəiyyət. Diri qəbahət.
Alçaqlığında İnsan kimi görünmürsən, İnsan!
İnsan bilinmirsən, İnsan!

## Özüylə Barışan İnsan

Xüdbinliklə barışmaq. Çirkinliklə barışmaq.
Əyyaşlıqla barışmaq. Sərxoşluqla barışmaq.
Küdurətlə barışmaq. Ətalətlə barışmaq.
Zalımlıqla barışmaq.
Avamlıqla barışmaq. Qorxaqlıqla barışmaq.
Alçaqlıqla barışmaq.
Cəlladlıqla barışmaq. Qəddarlıqla barışmaq.
Riyakarla barışmaq.
Fitnəkarla barışmaq. Süniliklə barışmaq.
Sürülüklə barışmaq.
Zəlilliklə barışmaq. Miskinliklə barışmaq.
Azğınlıqla barışmaq.
Külü od saymaq. Damcını sel saymaq.
Yağışı tufan saymaq.
Xülyanı gerçək saymaq. Çirkini göyçək saymaq.
Çirkaba bulanmaq. Yalana aldanmaq.
Qəbahətlə barışmaq. Cinayətlə barışmaq.
Xəyanətə alışmaq. Daxildəki yırtıcıyla barışmaq.

Ürəkdəki hərcayiylə barışmaq.
Ağıldakı naqislikla barışmaq.
Arzudakı xəbisliklə barışmaq.
Tamahdakı hərisliklə barışmaq.
Əməldəki bəsitliklə barışmaq.
Murdarlıqla barışmaq. İdbarlıqla barışmaq.
Tikanı gül saymaq. Dumanı göy saymaq. Yalanı düz saymaq.
Həya azlığıyla barışmaq.
İsmət azlığıyla barışmaq.
Qeyrət azlığıyla barışmaq.
Cürət azlığıyla barışmaq.
Ədalət azlığıyla barışmaq.
Həqiqət azlığıyla barışmaq.
Sədaqət azlığıyla barışmaq.
Ülfət azlığıyla barışmaq.
Səadət azlığıyla barışmaq.
Soyuq hərarətlə barışmaq. Saxta səmimiyyətlə barışmaq.
Miskin əzəmətlə barışmaq. Səthi dərinliklə barışmaq.
Acı şirinliklə barışmaq.
Yarımigidlə barışmaq.
Yarımmeyidlə barışmaq.
Yarımxalislə barışmaq.
Yarımmunislə barışmaq.
Yarıməsillə barışmaq.
Yarıməsirlə barışmaq.
Zəkada vəcd azlığı.
Sözdə atəş azlığı.
Ürəkdə günəş azlığı.
Bədəndə ruh azlığı.
Sarsılan iradə. Aldanan duyğu.
Nifrət qarışıqlı məhəbbət.
Qorxu qarışıqlı şücaət.
Çirkab qarışıqlı qüdsiyyət.
Yalan qarışıqlı həqiqət.
Məğlubiyyət qarışıqlı qələbə.
Xəyanət qarışıqlı sədaqət.
İkrah qarışıq heyrət.
Həsəd qarışıqlı qiymət.
Göy istəyib – yerdə qalmaq.
Yola çıxıb – yolda qalmaq.
Enişdə yüyürmək, yoxuşda təntimək.

Məhəbbəti vəsf etmək – işrətdə yaşamaq.
Müqəddəsi bəyənmək – bəsitdə yaşamaq.
Arzuda ucalmaq – həyatda əylənmək.
Mənəviyə can atmaq – maddidə dayanmaq.
Əzab həddi. Dözüm həddi. Cəfa həddi.
Vəfa həddi. Mətanət həddi.
Qəhrəmanlıq həddi. Səcdə həddi. İlham həddi.
Ləyaqət həddi.
Fəlakətdən sarsılmaq. Müsibətdən sarsılmaq.
Ədavət qarışıqlı dostluq.
Rəqabət qarışıqlı həyanlıq.
Qəbahətli cavanlıq. Cəhalətli yetkinlik. Zavallı qocalıq.
Balaca böyüklük. Alçaq ucalıq.
Xeyirin Şərlə qoşalaşması.
İnamın Şübhəylə qoşalaşması.
Xalisin naqislə qoşalaşması.
Qabilin cahillə qoşalaşması.
Müdrikin naşıyla qoşalaşması.
Aşiqin əyyaşla qoşalaşması.
İgidin qorxaqla qoşalaşması.
Pənahın günahla qoşalaşması.
İşığın zülmətlə qoşalaşması.
Təmizin çirkabla qoşalaşması.
Mərdin namərdlə qoşalaşması.
Ədalətin rəzalətlə qoşalaşması.
Özünütanımamaq. Özünəçatmamaq.
Yaman yanılırsan, İnsan!
Özünlə barışan kimi özündən ayrılırsan, İnsan!

## Özüylə Döyüşən İnsan

Çirkabla döyüş. Günahla döyüş.
Yalanla döyüş. Yamanla döyüş.
Köləliklə döyüş. Kölgəliklə döyüş.
Həqarətlə döyüş.
Əsarətlə döyüş.
Bədbinliklə döyüş. Azğınlıqla döyüş.

Açıq çirkabla döyüş.
Gizli çirkabla döyüş. Sirli çirkabla döyüş.
Çirkab cəzbiylə döyüş.
Qorxu zəhmiylə döyüş. Zalımlıqla döyüş.
Miskinliklə döyüş. Avamlıqla döyüş.
Duyğunu yamandan qorumaq.
Zəkanı yalandan qorumaq.
Əlləri haramdan qorumaq.
Xalisdəki naqisliyə nifrət.
Alidəki alçaqlığa nifrət.
Ülvidəki bəsitliyə nifrət.
Nisbi məhəbbətlə döyüş. Nisbi həqiqətlə döyüş.
Nisbi mərhəmətlə döyüş.
Nisbi ədalətlə döyüş. Nisbi qüdsiyyətlə döyüş.
Yarımfədakarla döyüş. Yarımcəfakarla döyüş.
Yarımqəhrəmanla döyüş.
Yarımvicdanla döyüş. Yarımümidlə döyüş.
Yarımsədaqətlə döyüş.
Daxildəki vəhşini öldürmək.
Daxildəki naşını öldürmək.
Daxildəki əsiri öldürmək.
Daxildəki hərisi öldürmək.
Daxildəki zalımı öldürmək.
Daxildəki məzlumu öldürmək.
Daxildəki inamsızı öldürmək.
Daxildəki qansızı öldürmək.
Daxildəki xülyanı öldürmək.
Daxildəki ölünü öldürmək.
Daxildəki səfili öldürmək.
Daxildəki əlili öldürmək.
Daxildəki əyyaşı öldürmək.
Daxildəki sərxoşu öldürmək.
Dünyanı yenidən görmək. Həyatı yenidən duymaq.
Təbiətlə yeni görüş. Ülviyyətlə yeni görüş.
Məhəbbətlə yeni görüş.
İşığın yeni mənası. Zülmətin yeni mənası.
Səadətin yeni mənası.
Məşəqqətin yeni mənası. Dodağın yeni kəlməsi.
Ürəyin yeni riqqəti.
Əllərin yeni hərarəti. Ayağın yeni yürüşü.
Ruhun bədənə sahib olması.

İradənin əmələ sahib olması.
Vicdanın mənəviyyata sahib olması.
Məhəbbətin hissiyyata sahib olması.
Ehtizazın zəkaya sahib olması.
Həqiqətin idraka sahib olması.
Yırtıcının ölümü. Hərcayinin ölümü.
Özünü tanımaq. Özünü anlamaq. Özünü öldürmək.
Özünü diriltmək.
Mütləqi nisbidən ayırmaq.
Xalisi naqisdən ayırmaq.
Cəsuru qorxaqdan ayırmaq.
Məğruru yaltaqdan ayırmaq.
Nöqsandan ayrılmaq. Əbədi ayılmaq.
Sevgini işrətdən ayırmaq.
Qüdrəti şöhrətdən ayırmaq.
Böyüyü cılızdan ayırmaq.
Məsumu cılızdan ayırmaq.
Doğrunu əyridən ayırmaq.
Qadınlaşan qadınlıq. Kişiləşən kişilik.
Gözəlləşən gözəllik.
Təmizləşən təmizlik. Vətənləşən vətən. Xalqlaşan xalq.
Saf heyranlıq.
Saf qurbanlıq.
Saf xəyal.
Saf Amal.
Saf fərəh.
Saf qələbə.
Saf and.
Saf inad.
Özüylədöyüşün – özün olmağındır, İnsan!
Hayıf ki, bunu unutmusan!

## İnsan Natamlığı

Natam İnam. Natam İlham. Natam vəcd.
Natam ehtizaz. Natam məhəbbət.
Natam ismət. Natam fərəh. Natam xəyal.
Natam amal. Natam cürət.
Natam vüsət. Natam nəvaziş. Natam pərəstiş.
Natam iradə. Natam zəka.

Natam duyğu. Natam arzu. Natam sirr.
Natam dil. Natam yol. Natam səs.
Natam nəfəs. Natam həvəs. Natam böyük. Natam ali. Natam diri.
Natam açıq. Natam gizli. Natam mərd. Natam sərt.
Natam ata. Natam ana.
Natam qardaş. Natam sirdaş. Natam kamil. Natam aqil.
Natam qabil. Natam sahib.
Natam kömək. Natam istək. Natam dayaq. Natam oyaq. Natam nicat.
Natam ümid. Natam döyüş. Natam görüş. Natam heyrət.
Natam nifrət. Natam hiddət.
Natam övlad. Natam qanad. Natam xalis.
Natam munis. Natam ali. Natam adil.
Natam vüqar. Natam səcdə. Natam sevda.
Natam izzət. Natam şəfqət.
Natam saflıq. Natam işıq. Natam əzab.
Natam qəzəb. Natam göz.
Natam yeriş.
Natam saat. Natam gün. Natam il. Natam həyat.
Natam ailə. Natam xalq. Natam bəşər.
Natam tərəqqi. Natam nailiyyət. Natam əzəmət.
Natam pərvanəlik. Natam divanəlik.
Natam ilkinlik. Natam nikbinlik.
Natam vətənsevərlik. Natam bəşərsevərlik.
Natam dünyasevərlik. Natam gözəllik. Natam qadınlıq.
Natam kişilik. Natam zəriflik. Natam qədimlik.
Natam həyanlıq. Natam heyranlıq. Natam ehtiras.
Natam etiraz. Natam dözüm. Natam özül.
Natam haray. Natam fəryad. Natam imdad.
Natam sükut. Natam süqut. Natam ideal. Natam xəyal.
Natam körpəlik. Natam cavanlıq.
Natam yetkinlik. Natam qocalıq.
Natam ucalıq. Natam fikir. Natam duyğu.
Natam idrak. Natam mənəviyyat.
Natam hissiyyat. Natam heysiyyət. Natam hərarət.
Natam səmimiyyət.
Natam inkar. Natam təsdiq.
Natam ruh. Natam nur. Natam sirr. Natam sehr.
Natam həya. Natam imtahan.
Zamana pərçimlənmək və əbədiyyət axtarmaq.
Şöhrətə güvənmək və ölümsüzlük axtarmaq.

Ölümdən qorxmaq və qəhrəman bilinmək.
İşrəti sevmək və aşiq bilinmək.
Çirkaba qarışmaq və ülvi bilinmək.
Dünyadan yapışmaq və müdrik bilinmək.
Qüvvətə əyilmək və məğrur bilinmək.
Əzabdan çəkinmək – cəfakeş bilinmək.
Mənsəbə vurulmaq – xalqsevər bilinmək.
Maddiyə sığınmaq – mənəvi bilinmək.
Bədənlə barışmaq – ruhani bilinmək.
Yalana söykənmək – möhtəşəm bilinmək.
Yaltağa küsənmək – hörmətli bilinmək.
Hiyləyə tapınmaq – ağıllı bilinmək.
Bugünə qapılmaq – sabahlı bilinmək.
Natamlığın yağındır, sənin, İnsan!
Ölmür, itmir!

## İnsan Sığmazlığı

Ölüm ölümə sığmır. Arzu ömürə sığmır.
Zəka ağıla sığmır. Duyğu ürəyə sığmır.
Günlər illərə sığmır. Heyrət hörmətə sığmır.
Səcdə izzətə sığmır.
Siqlət xislətə sığmır.
Qanad göylərə sığmır.
Ayaq yerlərə sığmır.
Məslək həvəsə sığmır.
Qeyrət qorxuya sığmır.
Məna sözlərə sığmır.
Fikir yazıya sığmır.
Hicran kədərə sığmır.
Vüsal sevincə sığmır.
Dahi zamana sığmır.
İgid cürətə sığmır.
Ölmək şöhrətə sığmır.
Xəyal  gerçəyə sığmır.
Hünər zəfərə sığmır.
Ehtizaz hissə sığmır.
Vicdan ölçüyə sığmır.
Cürət zindana sığmır.
Ehtişama sığmayan möhtəşəmlik.

Dəbdəbəyə sığmayan ülvilik.
Bugünə sığmayan sabah.
Arzuya sığmayan Amal.
Dünyaya sığmayan xəyal.
Təsəvvürə sığmayan fədakarlıq.
Heyrətə sığmayan qəhrəmanlıq.
İdraka sığmayan həqiqət.
Duyğuya sığmayan məhəbbət.
Fəhmə sığmayan qabiliyyət.
Zəhmə sığmayan əzəmət.
Bədənə sığmayan ruh.
Xəyala sığmayan müqəddəslik.
Əzəmətə sığmayan vüqar.
İmkana sığmayan əməl.
Ali kişilik. Ali qadınlıq. Ali müdriklik.
Qüdrətə sığmayan qüdrət.
Sədaqətə sığmayan sədaqət.
Səadətə sığmayan səadət.
Mühitə sığmayan ünsiyyət.
Qəşəngliyə sığmayan gözəllik.
Gözəlliyə sığmayan ülvilik.
İşgəncəyə sığmamaq. Təhqirə sığmamaq.
Tənhalığa sığmamaq.
Tənəyə sığmamaq. Tərəddüdə sığmamaq.
Ətalətə sığmamaq.
Əsarətə sığmamaq. Cəhalətə sığmamaq.
Qəbahətə sığmamaq.
Mühitə sığmamaq. Aldanışa sığmamaq.
Yanlışa sığmamaq.
Etirafa sığmamaq. İzhara sığmamaq.
Zəfərə sığmamaq.
Fərəhə sığmamaq. Kədərə sığmamaq.
Taleyə sığmamaq. İmkana sığmamaq.
Məqama sığmamaq. Zamana sığmamaq.
Gözəlliyə sığmamaq. Biliyə sığmamaq.
Diləyə sığmamaq. Körpəliyə sığmamaq.
Cavanlığa sığmamaq. Yetkinliyə sığmamaq.
Qocalığa sığmamaq.
Fəsillərə sığmamaq. Nəsillərə sığmamaq.
Torpağa sığmamaq. Səmaya sığmamaq.
Dünyaya sığmamaq. Rahatlığa sığmamaq.

Əzaba sığmamaq. İşrətə sığmamaq.
Şöhrətə sığmamaq. İşığa sığmamaq.
Alova sığmamaq. Özünə sığmamaq.
Azsan, İnsan, ancaq özündə qalmayansan, özündən kənara çıxansan, özünəsığmayansan, İnsan!
Ona görə də böyüksən, alisən, gözəlsən, İnsan!

## Mütləq İnam

Dünyaya sığmayan Dünyaya İnam!
İnsana sığmayan İnsana İnam!
Dünyanı, İnsanı özündə qalmağa, özünə sığmağa, özüylə barışmağa qoymayan, özündən kənara çıxaran;
Özünə yaxınlaşdıran –
**MÜTLƏQƏ İNAM! MÜTLƏQ İNAM!**

***4-cü ilin Çiçək ayı.***
***(Aprel, 1982-ci il). BAKI.***

# R U H

## 1. RUHANİLİK

***Ruh – Mütləqin İnsanda ifadəsidir.***
***Mütləq kamildir, əbədidir, sonsuzdur.***
Bu səbəbdən də ruhanilik –
Qeyri-kamil – dünyada kamil yaşamaqdır.
Sonlu dünyada – sonsuz yaşamaqdır.
Keçici dünyada – əbədi yaşamaqdır.

Əbədi yaşamaq – mənəvi yaşamaqdır.

Mənəvi yaşamaq – cismanilikdən çıxmaqdır.

Cismən insan keçicidir, mənən – əbədidir.

Həyatın mənası cismanidən böyükdür, həyat özünü cismanidən alidə, böyükdə, ülvidə tapır.

Maddiyyata sığan dünya, maddiyyatda qalan dünya, dayanan dünya qeyri-kamil dünyadır!

Həmin dünya ilə kifayətlənməyən, həmin dünyaya pərçimlənməyən, ondan yüksəyə, böyüyüə can atan – kamilliyə can atır! Maddiyyat kamili çağırar, cəlb edər, cəzb edər, fəqət kamil onda qalmaz, dayanmaz, ondan aliyə yüksələr, ondan ülvini yaradar.

Gerçəklik sonludur. Ancaq insan sonsuza, əbədiyə meyillidir.

O, sonsuzluq, əbədilik baxımından yaşayır, artır, kamilləşir, əsilləşir.

Ruhun yönü – gerçəklikdən, maddiyyatdan, bugündən yüksəyədir.

Dünyada gözlə görünənin çoxu keçicidir, qeyri-kamildir, nisbidir.

***Ruh – gözlə görünməyəni görür.***

Dünyada sözlə ifadə olunanın çoxu keçicidir, sonludur.

***Ruh sözlə ifadə olunmayanı ifadə edir.***

Keçicini, sonlunu, qeyri-kamili dərk etmək üçün ağıl kifayətdir.

Ancaq əbədini, kamili, sonsuzu dərk etmək üçün ruhani idrak gərəkdir.

Ağıl axtarır, ruh qovuşur; ağıl öyrədir, ruh yaradır; ağıl yeriyir, ruh pərvazlanır; ağıl dinir, ruh çağırır! Ağıl insanı dünyaya bağlayır, ruh Mütləqə qaldırır.

***Ruhanilik – nisbi səciyyə daşıyan gerçəklikdə Mütləqin tələbi əsasında yaşamaqdır.***

Bu baxımdan, ruhanilik gerçəkliyin görmədiyini görməkdir, duymadığını duymaqdır, demədiyini deməkdir.

***Ruhanilik – dünyada olmayanın dünyaya gətirilməsidir, dünyada Mütləq əsasında yenidən yaradılmasıdır.***

Gerçəkliyin bacarmadığını ruh bacarır və bununla da o, gerçəkliyi ötüb keçir, onun üzərində yüksəlir.

Ruh həm də həvəs duyğusunu gerçəkliyə gətirir və gerçəkliyə müqəddəs vəcd işığı çiləyir.

Gerçəklik Mütləqə yaxınlaşan, kamilliyə can atan şəxsiyyət yaratmır.

Bunu ruh yaradır, Ruhun tələbi və əməli gerçəkliyə gətirir. Təbiətin övladı olan insanı ruh Mütləqin yaratdığı kamillik səviyyəsinə yüksəldir.

Ədalət imperativini gerçəklik özü yaratmayıb, ruh yaradıb, gerçəkliyə təlqin edib, gerçəklikdən ədaləti təsdiq etməyi tələb edib və bu tələb əsasında onu özündən kənara çıxarıb. Məhəbbət də, qəhrəmanlıq da, ülviyyət də, gerçəklikdən yüksək, gerçəklikdən alidirlər.

***Məhəbbət – ruhani münasibət, ruhani qiymət, ruhani idrakdır.***

Burada ruh gerçəkliklə barışmır, onun məntiqini rədd edir. Gerçəklik – hörmətlə kifayətlənir, ruh – heyrət tələb edir. Gerçəklik – xidmətlə kifayətlənir, ruh – özündən keçmə tələb edir. Gerçəklik – ünsiyyətlə kifayətlənir, ruh – daxili vəhdət tələb edir. Gerçəklik – ağılla kifayətlənir, ruh ehtizaz tələb edir. Gerçəklik – qəmlə kifayətlənir, ruh fəryad tələb edir.

Qəhrəmanlıqda insan öz gerçək imkanlarından yüksəyə qalxır, onları ötüb keçir.

Gerçəklik – ölümdən çəkinir. Qəhrəmanlıq ölümlə öcəşir. Gerçəklik işgəncədən, bəladan, əzabdan qorxur. Qəhrəmanlıq onları saymır.

***Gerçəklik təhlükədən çəkinir, qəhrəman – təhlükənin ağuşuna atılır.***

Gerçəklikdə cismani bəslənilir, qəhrəmanlıqda o, unudulur, fəda edilir, qurban verilir.

***Gerçəklikdə nisbilik təsdiq olunur, qəhrəmanlıqda** – **mütləqilik.***

***Ülviyyət*** gerçəkliyi kölgədə qoyur, onun nisbiliyini göstərir, onu sarsıdır. Ülviyyət – Mütləq paklıqdır, gerçəklikdə isə olsa-olsa nisbi paklıq mövcud olur. Ülviyyət – Mütləq gözəllikdir, gerçəklikdə isə olsa-olsa nisbi gözəllik mövcud olur. Ülviyyət – Mütləq mənəvi kamillikdir. Gerçəklikdə isə olsa-olsa nisbi kamillik mövcud olur. Ülviyyət – əbədi möhtəşəmlikdir. Gerçəklikdə isə keçici, nisbi möhtəşəmlik mövcud olur. Ülviyyət biçimə sığmayan Mənadır. Gerçəklikdə isə Mənayla biçimin ahəngdar birliyi təsdiq olunur. Ülviyyət ölçüsüzdür, gerçəklikdə isə hər şey ölçülüdür. Bu səbəbdən

də ülviyyət İnsanı vəcdə gətirir, sarsıdır, sözə sığmır, gerçəkliyə gərgin və hissiyyatlı bir əzəmət gətirir.

***Ruh vasitəsiylə gerçəklik müqəddəsləşir.***

Ruh gerçəkliyin mahiyyətini onun özündən daha yaxşı dərk edir.

***Müqəddəslik nisbidə Mütləqin görünməsidir.***

Nisbinin Mütləq mahiyyəti müqəddəslikdə qiymətləndirilir.

Gerçəklik keçici hadisələr axarı doğurur. Ruh həmin hadisələrin arxasında duran mənanı gerçəkliyə qaytarır.

***Müqəddəslik – ruhun gerçəkliyi öz səviyyəsinə qaldırmasıdır.***

İnsan dünyaya ruhun gözü ilə baxanda dünya müqəddəsləşir.

Gerçəklik mütləq tanımır.

Ruh Mütləqi tanıyır, çünki Mütləqin ifadəsidir, onu özündə yaşadır, yəni mütləq mənada mövcud olur, dünyanı mütləq tələb əsasında dərk edir və son nəticədə Mütləqlə bir olmağa, ona tam qayıtmağa can atır.

***Mütləq mənada mövcud olmaq – gerçəklik qanunları əsasında yox, mütləq qanunlar əsasında – əbədilik, kamillik və sonsuzluq tələbləri əsasında yaşamaq deməkdir.***

Özündən artıq, özündən yaxşı, özündən mənalı, özündən saf yaşamaq – cismani səddi adlamaq, özünü yenidən yaratmaq deməkdir. Mütləq mövcudluqda insan gerçəklikdən uca olan yeni həyat tərzi əsasında yaşayır. O, gerçəkliyin nisbi səviyyəsinə enmir, onun cəzbinə aldanmır, bəxşişinə küsənmir, qiymətinə tapınmır, gerçəklikdən üstün həyat sürür, öz ömrünü, aqibətini Mütləqin hökmünə tabe edir.

***Mütləq mənada dərketmə yalnız Mütləq olanı həqiqət saymaqdır, Mütləq həqiqəti təsdiq etməkdir, həm də həmin həqiqəti daxilində gəzdirmək, onunla bir olmaq, onu taleyə, hissiyyata, hala çevirmək, onun canlı mövcudluğunu – ahəngini, səsini hifz etmək, onunla mənəvi həmdəm olmaq deməkdir.***

Bu həm də vəcd, ehtizaz, vəhy adlanan mütləq idrak vasitələrinə əsaslanan: Mütləqi Mütləqlə dərk etməni, ehtiraslı, möcüzəli, ilhamlı dərk etməni idrakın zirvəsi saymaqdır.

Mütləq idrakda – idrak öz gerçək imkanlarından kənara çıxır, nisbiliyi aradan qaldırır, dərk edənlə dərk olunan arasındakı səddi uçurur, ürəyi zəkayla birləşdirir, Mütləqləşir.

Mütləqi dərk etmək əslində Mütləq əsasında yaşamağa bərabərdir. Çünki Mütləqin tələbi əsasında yaşamadan Mütləqi dərk etmək olmaz. Dərk etmək və mövcud olmaq mütləq tələbdə eyni hadisədir. Yalnız Mütləq kimi mövcud olduqda sən Mütləqə tam qovuşa bilərsən, əsil mövcudluğun nə olduğunu dərk edərsən!

Yalnız mütləq mənada mövcud olanda idrakın Mütləqi görə bilər!

Sən Mütləq kimi yaşayanda idrakın Mütləqi görür.

Mütləqi görərkən idrak əbədi, sonsuz, kamil həqiqəti dərk edir!

Bu həqiqət ruhda bənzərsiz coşqunluq, ehtiras, sarsıntı, vəcd seli yaradır.

Bu təbiidir.

Ruh Mütləqdə özünü, əsil mahiyyətini tapır, özünə çatır və bu onun varlığını müqəddəs heyrət işığına bürüyür!

Ruh nisbini Mütləqə, gerçəkliyi ideala yüksəldir.

Ruh gerçəklik əsasında yeni gerçəklik yaradır.

Həmin gerçəklik ***Amal*** biçimində meydana çıxır.

Amal – gerçəklikdən artıqdır, ona sığmayan, onu ötüb keçəndir. O, gerçəkliyin məntiqini qəbul etmir, öz məntiqini təsdiq edir, gerçəkliyi həmin məntiqə uyğun surətdə dəyişdirir, kamilləşdirir.

Gerçəklik özünü bəyənir, Amal – onu yox.

Gerçəklik nisbiliyə, qeyri-kamilliyə bəraət qazandırır. Amal gerçəkliklə barışmır.

Gerçəklik real imkana əsaslanır, Amal real imkan səddini dağıdır.

Gerçəklik adi həyat normasını təsdiq edir, Amal – qeyri-adi, qəhrəmani, ruhani həyat normasını təsdiq edir.

Gerçəklik zaman, məkan məhdudiyyətində təzahür edir. Amal – zamana, məkana sığmır.

Gerçəklikdə xeyir ilə şər, gözəlliklə eybəcərlik yanaşı yaşayırlar.

Amal – Xeyiri Şərdən, gözəlliyi eybəcərlikdən ayırır.

***Amal – gerçəkliyi yenidən doğur.***

***Amalda gerçəklik ölür və dirirlir.***

Ruh insanın daxili aləmində Mütləqə canatma adlanan müqəddəs ehtiras yaradır və həmin ehtiras insan həyatının yönünü kökündən dəyişir. Bu səbəbdən də insan bütün canlılardan fərqli olaraq, ömrünün mənasını axtarır və tapır.

Ruh insana deyir ki, sən dünyaya yeməyə-içməyə, nəsil artırmağa və ölməyə gəlməmisən, sənin həyatının bunlardan böyük mənası var.

***Sən dünyaya Mütləqə bərabər olmaq, əbədi, kamil, sonsuz olmaq üçün gəlmisən!***

Sənin əsil aqibətin – Mütləqləşmək, müqəddəsləşmək, ülviləşməkdir!

Gerçəklik sənin ömrünə məna vermir. Sən özünə məna verənsən, ömrünə məna gətirənsən! Mütləq olmaq üçün, Mütləqə qovuşmaq üçün sən Mütləqin, ruhun tələbiylə yaşamalısan!

İnsanın daxilində səslənən bu ülvi səda onu insan həyatına aparır. Həmin səs onda özünə qarşı yeni tələb yaradır, o, özüylə döyüşməyə, özü üzərində yüksəlməyə başlayır, özünü Mütləqin tələbləri əsasında yenidən yaradır.

Ruh insanların bir-birinə münasibətinə yeni məna gətirir, onu maddi faydalılıq çərçivəsindən kənara çıxarır.

İnsanlar bir-birində ruhani sərvət görməyə başlayırlar, vətən məhəbbəti, xalq qüdsiyyəti peyda olur.

Ruh insanda maddi təminat, maddi mühafizə, dolanma səviyyəsindən hədsiz dərəcədə uca olan duyğular, ehtiraslar, düşüncələr oyadır.

İnsan təbiətdə – təbiətdən böyük, həyatda – həyatdan böyük, insanda – insandan böyük olanı görür, duyur, əks etdirir, vəsf edir.

Bunun əsasında o, xeyir və gözəllik meyarı yaradır və həmin meyar əsasında yaşayır.

Ruhani faydalıq – məhəbbətin, dostluğun, sədaqətin, qeyrətin, mərhəmətin, fədakarlığın, ülviyyətin təsdiqi olur.

Ruh sənət vasitəsi ilə Mütləqə heyrəti, həsrəti, peyğəmbərlərin simasında Mütləq çağırışını, tələbini ifadə edir.

***Sənət Mütləqə məhəbbət izhar edir, peyğəmbərlər Mütləqin hökmünü insanlara çatdırırlar.***

Mütləqə canatma ehtirası hər kəsin qəlbində yaşasa da, mənəvi dünyanı zəbt etsə də, peyğəmbər ruhundakı amiranə əzəmət insanın Mütləqləşməsinə əvəzsiz təkan verir.

Peyğəmbərlikdə insanla Mütləqin birləşməsi özünün ali səviyyəsinə qalxır.

Peyğəmbər insanlar arasında Mütləqə ən yaxın olan qüdrətdir.

O, özündə, düşüncəsində, fəaliyyətində Mütləqin bütöv mahiyyətini təcəssüm etdirir.

Həmin mahiyyət peyğəmbərin həyatına qeyri-adi bir ruhani yanğı gətirir, atəşli fikir qəlbə sığmır, cismi yandırır və insanı Müqəddəslik odunda təmizləyir.

Peyğəmbər insanın Mütləqə doğru yolunu qısaldır, insanı Mütləqə qovuşmağa hazırlayır. Peyğəmbərlərin verdikləri ruhani qanunlar –

əslində insanın qəlbində yaşayan müqəddəslik duyğusunun əks etməsidir. Lakin gerçəklikdə, real insan həyatında həmin ülvilik naqisliklə birgə yaşayır və bəzən naqislik ülviliyin üzərinə kölgə salır.

Peyğəmbər qanunu ülvilikdən naqisliklə döyüş tələb edir, ülviliyin naqislik üzərində qələbəsinə nail olur.

Gerçəklikdə, nisbidə nisbiylə yanaşı yaşayan Mütləq – peyğəmbər qanununda nisbidən təmizlənmiş şəkildə, xalis tərzdə aşkara çıxır.

Peyğəmbərlikdə ruha xas olan üç cəhət: Mütləq düşüncə, Mütləq duyğu və Mütləq iradə öz parlaq təzahürünü tapır.

***Mütləq düşüncə ağılın fəhm etmədiyini fəhm edən, görmədiyini görən, bilmədiyini bilən, ağılasığmayan, ağılıeşitməyən, çox hallarda onun əksinə hərəkət edən düşüncədir.***

Ağıl Mütləqi görmür, çünki Mütləq gözə görünmür, Ruh Mütləqi görür, çünki o, batinə enə bilir, daxili mənanı dərk edir, dünyaya qovuşur və dünyadan kənara çıxır. Gerçəkliyə pərçimlənmir.

***Ağıl gözəli görür, gözəlliyi görmür; qadını görür, qadınlığı görmür; qəhrəmanı görür, qəhrəmanlığı görmür.***

Ona görə də o, qadınlığın qadından, böyüklüyün böyükdən, kişiliyin kişidən artıq olduğunu bilmir.

Ağıl canı anlayır, can verməyi anlamır; dünyanı görür, dünyanın mənasını görmür; adi sevinci anlayır, əzablı sevinci anlamır; keçicini anlayır, sonsuzu anlamır. Buna görə də Ruhu dərk edə bilmir.

***Mütləq duyğu adi duyğu səviyyəsindən kənara çıxan duyğudur.***

Adi duyğu ehtizaz tanımır, müqəddəs sarsıntı tanımır, Mütləqə heyrət və səcdə bəxtiyarlığına yaddır. Ülvilik həsrətində qovrulmur, qəlbə sığır, bədənə sığır, şimşək kimi çaxmır, yeri-göyü titrətmir, ömrün çiyninə zindan kimi düşmür, daxildə tufan yaratmır. Mənəviyyatı həyəcan selinə qərq etmir, müqəddəslik önündə titrəmir, vəcddən sərməst olmur.

***Mütləq duyğu – adi duyğunun ölməsi və təzədən dirilməsidir. Onun təzahürü Mütləq, gücü Mütləq, məqsədi Mütləqdir. O, Mütləq səciyyəlidir və Mütləq üçündür.***

***Adi iradə gerçək inam, hədd daxilində fəaliyyət göstərən, nisbi qüdrətə, nisbi nailiyyətə, ağılasığan qabiliyyətə malik olan iradədir.***

Ruhani iradə – gerçəyə sığmaz, imkana sığmaz, nisbiliyə sığmaz qüdrətin ifadəsidir.

Ruhani iradə – ağılasığmaz təsir gücünə malik olur, heyrətamiz əməllər törədir, normativ təsəvvürləri alt-üst edir.

Ruhani iradə – əbədi görünən saxta möhtəşəmlikləri məhv edir, qaranlıqları qovur, buzlaqları əridir, yatmışları oyadır, imansızları imana gətirir, mənəvi ölüləri dirildir, qorxudan, şübhədən azad olur, möhnətin, əzabın, işgəncələrin zirvəsini fəth edir, ölümlə öcəşir, Mütləqlə yarışır.

Ruh – insan deməkdir.

İnsanilik – ruhanilikdir.

Təbiət – İnsanı doğur, Mütləq – yaşadır.

# 2. RUHANİ TƏZAHÜR

## İnsan Mahiyyəti

İnsan göründüyündən çox, görünməyəndir, zahirdəkindən çox, batindəkidir. Zahirdəki, biçimdəki sonlu, ölümlü – insanın mahiyyətindən aşağı gerçək mövcudluqdur.

Batindəki, mənadakı, əbədilikdəki, kamillikdəki – insanın mahiyyətidir.

İnsanın mövcudluğu həmişə ruhani olmasa da, mahiyyəti həmişə ruhanidir.

***İnsanın mövcudluğu, adi gerçəkliyi onun mahiyyətinə bərabər deyil. Bu səbəbdən də insan ziddiyyətlidir.***

Mahiyyət ruhanidir, buna görə də insan ölməzdir. İnsanın ruhani mənası əbədidir. Çünki həmin mənada Mütləq yaşayır.

Düşüncə ölmür, duyğu ölmür, həqiqət, ədalət, qüdsiyyət, kamilləşmə, təmizlənmə ehtirası, məhəbbət, yaradıcılıq, gözəllik duyğusu, xeyirə heyrət, şərə nifrət, xalqsevərlik, bəşərsevərlik, müqəddəslik, dostluq, həmdəmlik, aşiqlik, analıq, qadınlıq qüdsiyyəti, söz hikməti, qeyrət, müdriklik, fədakarlıq ölmür. Ölən onların gerçəklikdə aşkara çıxan ayrı-ayrı nümunələri, hadisələri olur.

Əslində insanı başqa canlılardan fərqləndirən nə varsa, əbədidir.

***Yalnız əbədi olan insanidir.***

Bədən, onun tələbləri, hərcayi duyğular, həvəslər, arzular – ölümlüdür. Yanlışlıq, zəiflik, zəlillik, yalan, qəddarlıq, şəhvanilik, yırtıcılıq, naşılıq, kin-küdurət… insanın mahiyyəti yox, əlamətidir.

Mahiyyət sonsuzluğa, əlamət keçiciliyə; mahiyyət əbədiliyə, əlamət ölümə; mahiyyət kamilliyə, əlamət qeyri-kamilliyə; mahiyyət bütövlüyə, əlamət natamlığa can atır.

***Həqiqət Mahiyyət kimi Mütləqdir.***

Həyatda, gerçəklikdə, əlamətdə o, öz nisbi cəhətləriylə aşkara çıxır.

Həyatdakı həqiqilik həqiqəti tam ifadə etmir.

Gerçəklikdə həqiqət nisbi mənada meydana çıxır.

***Həqiqət*** – insan idrakının mahiyyətini ifadə edən, əbədi, sonsuz, kamil bir keyfiyyətdir.

Gerçəklikdə, reallıqda, imkanda təzahür edən həqiqilik isə həmin mahiyyətin qeyri-kamil, ölümlü, sonlu əksidir.

***Mənəviyyat*** – mahiyyət etibari ilə insanın zəiflikləri, naqislikləri üzərində qələbəsi deməkdir. Bu mahiyyət Mütləqə yaxınlaşan kamil şəxsiyyət tələb edir.

Həyatda isə adətən, mənəvilik Mütləq səviyyənin nisbi təzahürü kimi təsdiq olunur.

İnsan sevinci, insan kədəri, insan ümidi, insan səcdəsi, insan qayğısı, insan ülfəti, insan istəyi, insan aqibəti gerçəklikdə həmişə özünün qeyri-kamil, qeyri-bütöv əksini tapır.

Onlar mahiyyət kimi daha ali, daha ülvi, daha kamildirlər. Sevinən insan – sevinci tam ifadə etmir. Sevinc mahiyyət kimi sonsuzdur, gerçəklik kimi, fərdi sevinc kimi sonludur. Həyatdakı kədər müəyyən vaxtda yaranan, yaşayan və yox olan duyğudur.

Mahiyyətcə isə o, əbədidir, bitməzdir.

Ümid ümidlidən, xeyir xeyirlidən, böyüklük böyükdən, sənət sənətkardan, gənclik gənclərdən, ləyaqət ləyaqətlidən artıqdır.

***Mahiyyət ruhanidir.*** Bu səbəbdən də maddiyyat insanın mahiyyəti ola bilməz. Maddiyyatda cismaniliyə ruhanilik yeni məna gətirir.

Üz ölümlüdür, ancaq üzdə əks olunan ruhani məna ölümsüzdür. Bədən ölümlüdür, ancaq bədəndə yaşayan mənəvilik ölümsüzdür. Şəhərlər, səltənətlər, ixtiralar, cihazlar ölümlüdür, ancaq onlarda həkk olunan idraki qüdrət ölümsüzdür, kamildir, sonsuzdur. Daş, rəng, səs sonludur, ancaq onlarda aşkara şıxan ruhanilik sonsuzdur.

Zəhmət sonludur, keçicidir, qeyri-kamildir, ancaq onun ruhanilik mahiyyəti əbədidir.

Qadir görünəndir – qüdrət görünməzdir, qabil görünəndir – qabiliyyət görünməzdir, sadiq görünəndir – sədaqət görünməzdir. Görünməz əbədidir – görünən sonludur. Görünməzlik – insan ilə başqa canlılar arasındakı fərqi aşkara çıxarır.

İnsan xaricə, zahirə, göz görənə pərçimlənmir – daxili mənaya yüksəlir, üzə çıxanda, təzahür edəndə dayanmır – mahiyyətə varır, şöhrətlidə dayanmır – ölümsüzlüyə varır.

***Hadisə həmişə nisbidir, mahiyyət həmişə Mütləqdir.***

Əməl nisbidir – Amal Mütləqdir, yolçu nisbidir – yol Mütləqdir, izhar nisbidir – məna Mütləqdir, aşiq nisbidir – eşq Mütləqdir, ömür nisbidir – həyat Mütləqdir.

Ruhani mahiyyət Mütləq olduğundan bədənə sığmır, dünyaya sığmır, mövcudluğa sığmır.

Bədənə sığmır və ona ruhani ləyaqət verir. Ancaq nisbi Mütləq ola bilmir, bu səbəbdən də bədən Mütləqin yükünü çəkə bilmir, sarsılır. Ruhani mahiyyət dünyaya sığmır, buna görə də dünyanın bir vəziyyətdə qalmasına yol vermir, onu özündən yüksəyə qalxmağa, özündən böyük olmağa vadar edir.

Ruhani mahiyyət adi mövcudluğa sığmır və bu səbəbdən də özünü həmin mahiyyətə həsr edən və özüylə döyüş vasitəsi ilə müqəddəsləşən ülvilər yaradır. Həmin ülvilər bəsit gerçəklikdən imtina edir, mahiyyətə qovuşmaq bəxtiyarlığına yüksəlirlər. Ruhani mahiyyət adi sözə sığmır, ali sözdə aşkara çıxır, ülvi səsdə, ahəngdə təzahür edir.

İnsan arzuda, niyyətdə, idealda mövcudluğunu mahiyyətinə bərabər görmək istəyir.

İnsan daim özünə çatmaq istəyir, heç vaxt tam özü olmur.

***İnsan ömürdən artıqdır,*** çünki ömür insan mahiyyətini aşkara çıxara bilmir.

***İnsan əməldən artıqdır,*** çünki heç bir əməl insani mahiyyəti tam aşkara çıxara bilmir.

***İnsan zamandan artıqdır,*** çünki heç bir zaman insan mahiyyətini tam aşkara çıxarmır.

***İnsan məkandan artıqdır,*** çünki heç bir məkan insan mahiyyətini tam aşkara çıxarmır.

***İnsan həyatdan artıqdır,*** çünki heç bir həyat insan mahiyyətini tam aşkara çıxarmır.

İnsan doğuluşdan və ölümdən artıqdır, çünki ruha bərabərdir.

## Xalq

Xalq ruhani xilqət olduğundan kamildir, əbədidir, sonsuzdur.

Bu səbəbdən də o, fərdlərin adi cəmi deyil, yalnız məkan birliyinə əsaslanan birlik deyil, keçici hadisə deyil.

Bu səbəbdən də xalq həyatı hadisəsi var.

Xalq mənəviyyatı hadisəsi var.

Xalq idealı hadisəsi var.

Xalq idrakı hadisəsi var.

Xalq ölməzliyi hadisəsi var.

***Xalq həyatı – ruhaniliyi, Mütləqi ifadə edən həyatdır.***

***İnsanların daxili dünyasında Mütləq ideyası yarananda xalq yaranır.***

***Həmin ideya xəlqi birliyi təsdiq edir.***

Birlik cismani, bəsit, maddi keyfiyyət kimi yox, müqəddəs, əbədi, əvəzsiz keyfiyyət kimi təzahür edir. Maddi birlik əsasında xalq yox, insan cəmi peyda olur. Çünki burada həmin cəmi müqəddəsləşdirən ruhanilik yoxdur.

Birlik maddi faydalığa əsaslananda xalq yaranmır.

Birlik – müqəddəsliyi, ruhaniliyi ifadə edəndə, insanların mənəvi aləmində yaşayan Mütləqə can atmaq duyğusunu aşkara çıxaranda, fərdlər arasında ülvi əlaqələr bərqərar olanda – xalq yaranır.

Bir sözlə, birlik insanın əlamətini yox, mahiyyətini, ölümlüyünü yox, ölümsüzlüyünü, keçiciliyini yox, əbədiliyini təsdiq edəndə – xalq yaranır.

Həmin varlıqda fərdlərə xas olan ruhani məna hərtərəfli və parlaq şəkildə aşkara çıxır.

***Xəlqi birlikdə insanlar sadəcə bir yerdə yaşamırlar, bir tərzdə yaşayırlar.***

Bir tərzdə yaşamaq o zaman zəruri olur ki, o, insanların dərin ruhani tələblərini ödəsin.

***Bir sözlə, xalq həyatı Mütləqi təsdiq edən birlikdir.***

Bu səbəbdən də o, müqəddəsdir, yəni qeyri-adi dərəcədə qiymətli, xeyirli, zəruridir.

Bu səbəbdən də o, özündə ölümsüzlüyü, kamilliyi və sonsuzluğu yaşadır.

Bu səbəbdən də burada maddiyyat ruhaniləşir.

***Xalq mənəviyyatı Mütləqin tələbinə uyğun özünü kamilləşdirmə ehtiyacının təzahürüdür.***

Mənəviyyatlı xalq – qeyrətli xalqdır, qorxu duyğusu üzərində qələbə çalmış xalqdır. Həm də qeyrəti həyati imperativə çevirən xalqdır. Nəticə etibarı ilə Mütləqə yanaşan, Mütləqlə yaşayan xalqdır.

***Mənəviyyatlı xalq – ümumini təsdiq edən, fərdi ümumiyə tabe edən, nisbini Mütləqə tapşıran və bununla da Mütləqi təsdiq edən xalqdır. Müstəqilliyi hifz etmək – əslində Mütləqiliyi hifz etməkdir. Çünki müstəqillik Mütləqiliyin ifadəsidir. Mənəviyyatlı xalq – azadlıqsevər xalqdır. Azadlığı sevmək – Mütləqi sevməkdir, çünki azadlıq Mütləqin ifadəsidir. Çünki əslində yalnız ruhani olan azaddır. Sonlu, keçici, ölümlü – qeyri-azaddır. Azadlığı sevmək – xəlqi birliyin ruhani mahiyyətini sevməkdir. Mənəviyyatlı xalq – tarixi, qədimliyi sevən xalqdır. Qədimliyi sevmək – əbədiliyi sevməkdir. Əbədiliyi sevmək – ruhaniliyi təsdiq etməkdir.***

Mənəviyyatlı xalq – insansevər, xeyirsevər, gözəlliksevər xalqdır.

Xeyiri sevmək – Mütləqi sevməkdir.

İnsanı sevmək – Mütləqi sevməkdir.

Gözəlliyi sevmək – Mütləqi sevməkdir.

Şərə nifrət bəsləmək – Mütləqi sevməkdir.

Eybəcərliyi rədd etmək – Mütləqi sevməkdir.

Mənəviyyatlı olmaq – Mütləqli olmaqdır.

Xalq idealı xeyirin və ədalətin – xalq həyatının mənasına çevrilməsidir.

Bu baxımdan, xalq ideal vasitəsiylə Mütləqə yüksəlir, idealı təsdiq etməklə yaşayan Mütləqlə vəhdət ehtirasını təsdiq etmiş olur.

Nisbi xeyir – xeyir deyil, nisbi ədalət – ədalət deyil.

Mütləqilik – xeyirin, ədalətin əsas xüsusiyyətidir.

Bu baxımdan, idealda xalq Mütləqi təsdiq edir.

O, həm də bəşərin Mütləq mahiyyətini ifadə edir.

Xalqın ideal saydığı, can atdığı xeyir sonsuzdur, əbədidir, kamildir. Bu səbəbdən də onu həyata keçirməyə can atan xalq öz gerçək imkanlarından kənara çıxır, bir vəziyyətdə dayanmır, artır, böyüyür, müqəddəsləşir, Mütləqə yaxınlaşmağa səy edir. Ədalət əbədidir, sonsuzdur, kamildir, nöqsansızdır, bu cəhətdən onu həyata keçirməyə çalışan, ona can atan xalq özündə qalmır, Mütləqə yüksəlməyə can atır.

Xeyiri, ədaləti həyatının mənasına çevirməklə, xalq ölməzlik qazanır.

***Xalq ölmür, çünki həyatını ölməzliyə həsr edir.***

***Xeyir, ədalət ölməz olduğundan, onlara həsr olunan həyat da ölməzdir.***

Bu nöqteyi-nəzərdən, xalq həm də bəşəriyyətin ifadəsidir. Xalqdan və xalqlardan kənar bəşər yoxdur. Bəşərdə ali, yüksək, böyük, möhtəşəm nə varsa, xalqda aşkara çıxır.

Bəşər adlanan toxum özünü xalq adlanan bitkidə təsdiq edir. Bitki yoxdursa, deməli toxum ölüb.

Xalqlardan təcrid olunmuş bəşər – ölü toxumdur. Bəşəriyyətin salamatlığı xalqın salamatlığıdır.

***Xalqsız bəşəriyyət – ölü bəşəriyyətdir.***

“Xeyiri, ədaləti bəşəriyyət bir cür, konkret xalq isə başqa cür ifadə edir” – fikrində ciddi yanlışlıq var.

Əslində bəşər Mütləq sərvətləri yalnız və yalnız xalq vasitəsiylə təsdiq edir, Bəşər öz idraki qabiliyyətini xalqlar arasında hissə-hissə paylamır, o, xalqda öz keyfiyyətlərini bütöv şəkildə büruzə verir. Bu cəhətdən xalq ilə bəşər arasında elə bir fərq yoxdur.

Xalq elə bəşərdir. Bəşər elə xalqdır. Buna görə də xalq idealı həm də bəşər idealıdır.

Hər ikisində ruhanilik təsdiq olunur. Xalq idrakı həqiqəti dərk etməyə can atır, həqiqət – Mütləq səciyyəlidir.

Nisbi həqiqət – həqiqət deyil.

Qeyri-kamil həqiqət – həqiqət deyil.

Sonlu həqiqət – həqiqət deyil.

Xalq həqiqəti dərk etməyə can atmaqla ölümsüzlüyə, sonsuzluğa, kamilliyə can atır, ölümlülük, sonluluq, qeyri-kamilliklə barışmır, özünün gerçək vəziyyətindən kənara çıxır.

Mütləqi nisbi qabiliyyətlə dərk etmək olmaz. Bu səbəbdən xalq öz idraki fəaliyyətini təkmilləşdirməli olur. Mütləqi dərk etmək – həm də nisbi mövcudluqla barışmamaq, Mütləq mövcudluğa ucalmaq tələb edir.

***Mütləq idrak – Mütləq mövcudluq istəyir.***

Xalq həyatının ən dramatik xüsusiyyəti ondan ibarətdir ki, öz mahiyyəti etibarı ilə Mütləq, sonsuz, əbədi, kamil olan xalq sonlu şəkildə təzahür edib.

Xalq indiyə qədər mahiyyətdən aşağı yaşayıb, onun gerçəkliyi mahiyyətinə bərabər olmayıb. Bir çox hallarda o, özünü mahiyyətinin ziddinə realizə edib.

***Xalq həyatında*** sonlu, qeyri-kamil hadisələr çox vaxt əbədi hadisələri üstələyib, yaradılan dövlətlərin, səltənətlərin çoxu məhv olub, səpilən toxumun çoxu bitməyib, nifrət məhəbbətə, bəsitlik müqəddəsliyə qənim olub, qüdrət, qeyrət, ülfət nisbi səciyyə daşıyıb, qorxu, həsəd, nadanlıq ləyaqətin üzərinə kölgə salıb, xalislər təhqir olunub, naqislər sevinib, xalq zora əyilib, yalana tapınıb.

***Xalq mənəviyyatında*** ülviyyətlə qəbahət, gözəlliklə eybəcərlik birgə yaşayıb, xalq daxilindəki naqisliyi öldürə bilməyib, maddiyyat mənəviyyata qalib gəlib.

***Xalq gerçəkliyə pərçimlənib qalıb***, ideal əsasında yox, təmənna əsasında yaşayıb, müqəddəslikdən ayrılıb, öz mahiyyəti səviyyəsinə yüksəlməyib, xalq çox hallarda nisbi həqiqətlə kifayətlənib, onunla barışıb, ona uyub, pənah gətirib. Xalq öz ölməzliyini çox vaxt dərk etməyib, bu səbəbdən də özünə layiq yaşamayıb, keçici hadisələrə, xassələrə, keyfiyyətlərə tapınıb, böyüyü kiçikdən, alini alçaqdan seçə bilməyib, özündən aşağı mövcud olub.

***Xalq hələlik nisbi mənada özünü tanıyıb, nisbi mənada tanıdıb, nisbi mənada dərk edib, nisbi mənada yaradıb, nisbi mənada inanıb.***

O, öz mahiyyətinə layiq yaşamayıb, Mütləq mahiyyət nisbi əlamətlər şəklində təzahür edib.

Bu səbəbdən də xalq Mütləq mənada hələ yaşamayıb.

## Fərd

Fərd – özüylə kifayətlənmir, barışmır –
ona görə ruhanidir.
Fərd – mühitlə kifayətlənmir, barışmır –
ona görə ruhanidir.
Fərd – bədənlə kifayətlənmir, barışmır –
ona görə ruhanidir.

Fərd – nisbiylə kifayətlənmir, barışmır. Mütləqə can atır – ona görə ruhanidir.

Fərd – dünyada müqəddəsliyi kəşf edir, yaradır, müqəddəsliyə tapınır – ona görə ruhanidir.

Fərd – dünyada öz dünyasını yarada bilir – ona görə ruhanidir.

Fərd – mütləq mahiyyətli olduğundan özünün mənəvi səviyyəsiylə barışmır, özü üzərində yüksəlir. Mütləqə yaxınlaşmağa can atır. Daxilindəki Mütləq ona deyir ki, nə qədər kamil görünsən də – özünə çatmamısan. Nə qədər qüdrətli görünsən də – özünə çatmamısan.

Bu səbəbdən də daim özündən kənara çıxmalısan, özündən ucaya can atmalısan – sənin imkanların mövcudluğundan hədsiz dərəcə artıqdır.

Ruhun səsi fərdi özünü dərindən dərk etməyə, kamilləşdirməyə, yenidən yaratmağa sövq edir.

İnsanın mahiyyətini tam ifadə edən, həmin mahiyyətə layiq olan mühit tarixdə görünməyib.

Ancaq insan öz insani ləyaqətini hifz edə bilib.

Çünki mühitə sığmayıb, özünü onda itirməyib, müqəddəsliyini təsdiq edə bilib.

***Ən eybəcər mühitdə belə, fərd öz gözəlliyini saxlayıb, çünki fərd mühitdən artıqdır.***

Çünki fərd təkcə cismanilik deyil, həm də ruhanilikdir, bu səbəbdən də o, əşyalaşmayıb, mühitləşməyib. Mühitə uyğunlaşanda belə, onun qaydalarına riayət edəndə belə, fərd mühitə tam bənzəməyib.

Fərd mühitə tabe olanda belə, mühitdən asılı olanda belə, mühitdən azad olub. Ən müdhiş mühit belə, fərdin iradəsini sarsıtmayıb, nəticə etibarilə mühit fərdi özünə ram edə bilməyib, bu səbəbdən də mühitlər dəyişilib, fərdin müstəqil xisləti dəyişilməyib. Mühitləri dəyişdirən, həyatı bir yerdə dayanmağa qoymayan insanın ruhani mahiyyətidir.

Həmin mahiyyət fərdi eybəcər mühitə uyğunlaşmağa, onun qaydalarına tabe olmağa qoymur.

***Ruh insanı daxilən mühitdən azad eləyir.***

İnsan yeni-yeni mühitlər yaradır, ancaq onların heç birinə sığmır, heç biriylə barışmır, heç bir mühit insan tələblərini tam ödəmir.

Mühit insanı yox, insan mühiti dəyişir: çünki mühit insan üçün daim azdır, məhduddur, qeyri-insanidir, qeyri-ruhanidir. Mühitin dəyişməsi insanı dəyişdirmir: ***çünki dəyişilən mühitdir, dəyişən insan.***

Fərdin tələbləri Mütləq, ruhani tələblərdir, mühit isə ən yaxşı halda belə, nisbi məziyyətlərə malikdir. Nisbi Mütləqi dəyişdirə bilməz, ancaq Mütləq – nisbini dəyişdirə bilər.

Şərait insana təsir edir. Ancaq şərait insanı yaratmır. İnsan şəraitdən yüksəkdir.

Fərd şəraitin övladı yox – Mütləqin övladıdır.

Mütləq – şəraitdən üstündür.

Buna görə də insanın özünü dəyişdirməsi şəraitin dəyişilməsindən asılı deyil, insanın özündən, zəkasından, duyğularından, iradəsindən asılıdır. Fərdin öz həyatını ruhani tələb əsasında yenidən qurmasından asılıdır.

***Bu baxımdan, ən murdar mühitdə belə, yaxşı insan olaraq qalmaq olar və eybəcər mühiti yalnız yaxşı insan dəyişdirə bilər.***

Fərd əslində mühitdə daxilindəki Mütləqlə birlikdə yaşayır və buna görə də mühitin qaydalarından çox, Mütləqin hökmünü eşidir və həmin hökm onu mühiti dəyişdirməyə sövq edir. Bu cəhətdən mühitin taleyi fərdin əlində olur.

Ruhanilik fərdi əslində mühitin sahibinə çevirir.

İnsani cismanilik heyvani cismanilikdən yerdən göyə qədər fərqlənir.

İnsani cismanilik insanın mahiyyətini ifadə etmir. Əslində insani mahiyyət cismanilikdən kənardadır. Bu baxımdan, fərd cismanilikdən hədsiz dərəcə artıqdır, öz mahiyyəti etibarilə o, qeyri-cismanidir.

Fərd ruhani mahiyyət kimi sonsuzdur, kamildir, əbədidir, bədən isə keçicidir, qeyri-kamildir, ölümlüdür.

***Fərd – sonlu cismdə sonsuz mahiyyətin yaşamasıdır.***

Buna görə də insan həyatı həm də ruhun bədənlə döyüşüdür. Fərddə ölümlə ölümsüzlük, sonluyla sonsuz daim vuruşur. Fərd həmişə nisbi hadisələr, keyfiyyətlər, xassələr arasında yaşayır, fəqət heç vaxt onlarla kifayətlənmir, barışmır, nisbidən kənara çıxmağa, Mütləqə yaxınlaşmağa can atır. Nisbi fərdi qane etmir, buna görə də fərdin daxili dünyasında əbədi bir narahatlıq oyanır. Ürək Mütləq arayır, tam, bütöv hadisələr, keyfiyyətlər, məziyyətlər həsrətiylə qovrulur və bu, onun yönünü Mütləqə tərəf çevirir.

O, arzularında, təsəvvürlərində, xəyalında Mütləqi görür, öz həyatını Mütləqin tələbləri əsasında yenidən qurur.

Fərdin daxili aləminin əsas cəhəti, mənası, qayəsi bundan ibarətdir. Bu səbəbdən də o, dünyada dünyadan böyük, insanda insandan böyük mahiyyət kəşf edə bilir.

İnsan təbiətə baxır və təbiətdə təbiətdən böyük, nisbidən böyük, maddiyyatdan böyük, Mütləq, Ruhani, əbədi məna tapır, təbiət insanilәşir, yəni Mütləqləşir…

Fərd insana baxır və onda nisbidən, cismanidən böyük, Mütləq, Ruhani İnsan, ətrafında həmişə ətrafdakılardan böyük, ali, yüksək məna görür. Çünki insanın dünyaya münasibəti əslində Mütləq axtarışıdır. Mütləqi tapmaq ehtirasının təzahürüdür.

Təbiətə qovuşmaq – Mütləqə qovuşmaqdır.

İnsana qovuşmaq – Mütləqə qovuşmaqdır.

Amala qovuşmaq – Mütləqə qovuşmaqdır.

Məhəbbət, dostluq – Mütləqə qovuşmaqdır.

Nisbi görünənin Mütləq mənasını, cismani görünənin ruhani mənasını kəşf etməklə insan müqəddəsliyi kəşf edir və ona tapınır.

***Müqəddəs olan Mütləq mənada qiymətli olandır. Fərd ruhani xilqət olduğundan onu dərk edir.***

Dünyada, insanda Müqəddəslik tapmaqla o, dünyanın gözə görünməyən, hadisələrə sığmayan mənasını kəşf edir. Ruhanilik insana həm də dünyada öz dünyasını, ətraf dünyadan fərqli, ondan daha yüksək, daha böyük olan aləmini yaratmaq imkanı bəxş edir. İnsan dünyada öz yeni, ikinci dünyasını yaradır, dünyayla yarışır, Mütləq tələbini, Mütləq ehtiyacını, Mütləqə canatma ehtirasını həyata keçirməyə cəhd göstərir. Dünya dərk edilir, həm də dünya əsasında yeni dünya yaradılır. Nəhayət, fərd xalq adlanan cəmdə özünün Mütləq, ruhani, müqəddəs mahiyyətini təsdiq etməyə imkan tapır.

Xalq ruhuyla fərdi ruhun birləşməsi insanın ali qələbələrindən biridir. Ancaq fərd burada xalq ruhuna yad olan, fərdi özünə yadlaşdıran, özgələşdirən, əşyalaşdıran ictimai münasibətlərlə qarşılaşır. Həmin münasibətlər sözün əsil mənasında ruhani olmayıb, orada bərqərar olan qanunlar maddiyyata, cismaniliyə, nisbiliyə əsaslanıb. Fərd həmin münasibətlərdə müflisləşib, kiçilib, onun daxilində həmin əlaqələrə qarşı etiraz duyğusu yaranıb, həmin duyğu daim artıb və bəzən fərdi cəmiyyətdən əl çəkməyə, özünə qapılmağa, özünü özündə tapmağa vadar edib, fərd ilə cəmiyyət arasında uçurum yaranıb.

Nicat yolu – cəmiyyəti ruhaniləşdirmək, onu xalq ruhunun tələblərinə tabe etmək, ruhaniliyi, Mütləqiliyi əsillik meyarına çevirməkdir.

Fərd ruhani xilqət olduğundan, onun mövcudluğu ruhani cəmiyyət tələb edir. Bəşər indiyə qədər belə bir cəmiyyət yarada bilməmişdir, fəqət yaratmalıdır.

## Tarix

Tarix həmişə əbədiliyə, kamilliyə, sonsuzluğa can atıb.

Bu baxımdan o, ruhanidir.

Tarix həmişə nisbini, qeyri-kamili, sonlunu təsdiq edib.

Bu baxımdan o, qeyri-ruhanidir.

Tarixdə nisbilik – Mütləqilik, sonlu – sonsuz, maddi – mənəvi biçimdə təzahür edib, qeyri-ruhanilik ruhanilik şəklində təqdim olunub.

Tarixdə ruhani niyyətlə qeyri-ruhani gerçəklik, ruhani məqsədlə qeyri-ruhani nəticə arasında daim uçurum olmuşdur.

Tarixdə möhtəşəmlik, qüdrət və tərəqqi adıyla qəddarlıq, amansızlıq, yırtıcılıq təsdiq olunub.

Tarixin vəsf etdiyi böyüklüyün, əzəmətin çoxu qeyri-ruhaniliyin, qeyri-insaniliyin, ədalətsizliyin, həqiqətsizliyin təzahürü olub. Tarixdə ruhani görünən məqsədlər çox hallarda qeyri-ruhani vasitələrlə həyata keçirilib və bu səbəbdən ruhaniliyi tərk edib, özünün əksinə çevrilib.

Tarixdə insan mahiyyəti, ləyaqəti hələlik heç vaxt inkişafın əsas istiqaməti olmayıb, o, istənilib, elan edilib, şüara çevrilib, ancaq həyata keçməyib.

Tarixi insan yaratsa da, tarix bilavasitə ona xidmət göstərməyib, onu təsdiq etməyib, ondan kənardakı qüvvələri təsdiq edib.

Tarixin gedişatında ruhani keyfiyyətlər, ülviyyətlər, bəşərsevərlik, həqiqət, ədalət çox zəif təzahür edib. Tarix insanın ruhani mahiyyətinin aşkara çıxmasına xidmət göstərməyib. Tarixi simalar bir çox hallarda ruhani məqsədlərə, keyfiyyətlərə yox, nisbi, sonlu, hətta eybəcər məqsədlərə, keyfiyyətlərə əsaslanıblar.

Məkr, xəbislik, xəyanət, zalımlıq, şöhrətpərəstlik, eqoizm, şəhvət, yalan – tarixi fəaliyyət bunlara arxalanmışdır.

Tarixi gedişatın ümumi nəticəsində ruhanilik var: insanın təkmilləşməsi, təbiət üzərində qələbəsi.

Ancaq bu nəticənin özündə belə qeyri-ruhani cəhətlər görünür: insanın qüdrəti onu ruhaniliyə, mənəviliyə yüksəltmir.

İnsanın dünyanın sahibi olması, təbiəti özünə tabe etməsi – bəşərin qələbəsidir. Lakin bu qələbə onun ruhani böyüklüyünü təsdiq etmir, əqli və cismani böyüklüyünü təsdiq edir. Çünki tarixi nailiyyətlər insanı öz ruhani mahiyyətinə ucaltmır, insan tarixi prosesdə mənən yüksəlmir, artmır, yeni ruhani zirvələr zəbt etmir: o, yeni möhtəşəmlik qazanırsa da, yeni ruhanilik qazanmır. İnsan təbiəti ram edirsə də, daxilindəki yırtıcılığı, vəhşiliyi, naqisliyi ram etmir, öz nisbiliyindən, qeyri-Mütləqiliyindən, qeyri-kamilliyindən ayrılmır. Gedişatın istiqaməti nöqteyi-nəzərindən qeyri-ruhani xüsusiyyətlərə malik olan tarix özünün təzahür formalarında qeyri-ruhaniliyi hərtərəfli təsdiq edir. Tarix bir ictimai vəziyyətdən başqa ictimai vəziyyətə keçməyi Mütləq mənada bəşərin inkişafı kimi qələmə verib. Nəticədə isə dəyişiklik əsas ziddiyyətləri aradan qaldırmayıb. Olsa-olsa bir ziddiyyəti başqa ziddiyyətlə əvəz edib. Dəyişiklik vasitəsiylə yaranan yeni həyat qeyri-ruhani cəhətləri ləğv etməyib: qeyri-ruhanilik əslində nəinki azalmayıb, hətta çoxalıb. Məsələn, tarixdə qulun vassala çevrilməsi prosesi ümumi mənada ruhaniliyin təsdiqidir. Lakin bu təsdiq nisbi səciyyə daşıyır. Çünki insan sayılmaq hələ insan kimi yaşamaq deyil.

Vassal insan sayılsa da, sahibinin əmlakı səviyyəsində qiymətləndirilirdi.

Antiinsanilik, antiruhanilik ancaq şəklini dəyişmişdi, mahiyyət əvvəlki idi.

Bəşərin bir idarə üsulundan digər idarə üsuluna keçməsində biz həmin qanunauyğunluqla rastlaşırıq. Məsələn, müstəbid monarxizmdən antik demokratiyaya keçid əslində ruhaniliyin qələbəsi ola bilərdi. Burada adi insan öz ləyaqətini qorumaq üçün imkan əldə edirdi, hakimiyyətin və hökmdarın kölgəsi olmurdu. Ancaq əslində hakimiyyət yenə də bir şəxsin əlinə keçirdi, xalq yenə də hakimiyyətdən məhrum idi, mahiyyət etibarı ilə demokratiya elə monarxiya idi. Sonralar inqilablar respublika formasını bərqərar etdilər. Hakimiyyət guya xalqın əlinə keçdi, əslində hakimiyyət yenə də xalqın olmadı, tarixi simanın oldu.

Napoleonun inqilabi Fransanı imperiya elan etməsi tamamilə təbii bir hadisəydi. Çünki tarixdə hakimiyyət yalnız bir şəxsin hökmünü, varlığını, iradəsini ifadə edir.

Tarix qanlı döyüşlər bahasına yeni-yeni idarə üsulları yaradır, ancaq həmin üsullar bir-birindən seçilmirlər və bu səbəbdən də insanın ruhani təsdiqi baş tutmur.

Bu nöqteyi-nəzərdən tarixdə Mütləq kimi qələmə verilən nə varsa, qeyri-kamilin təsdiqi olub. Əbədi səltənətlər, basılmaz ordular, mütləq möhtəşəmliklər, əbədi səadətlər, misilsiz ədalətlər, təmənnasız xidmətlər – əslində nisbi, qeyri-kamil, keçici hadisələrin təzahüründən başqa bir şey deyildilər.

Ölümsüz sayılanlar ölür, kamillər naqis görünür, möhtəşəmliklər kiçilir, təmənnasızlıq – şöhrətpərəstliyin, bəşərsevərlik – hakimiyyətsevərliyin ifadəsi olurdu. Ədalət pərdəsi altında hədsiz ədalətsizliklər, həqiqət pərdəsi altında hədsiz yalanlar, tərəqqi pərdəsi altında sonsuz qırğınlar yarandı. Maddiyyat təsdiq olundu – mənəviyyat təsdiq olunmadı, əşya təsdiq olundu – insan təsdiq olunmadı, silah təsdiq olundu – zəka təsdiq olunmadı, nifrət təsdiq olundu – məhəbbət təsdiq olunmadı, şüar təsdiq olundu – həqiqət təsdiq olunmadı, zor təsdiq olundu – vicdan təsdiq olunmadı.

Tarix bir xalqı başqa xalqların sahibinə çevirmək istədi, bir üsul-idarəni bütün xalqların üsul-idarəsinə çevirmək istədi, sonsuz qadalar yaratdı və özünün qeyri-kamilliyini, nisbiliyini, ölümlülüyünü sübut etdi.

Bu baxımdan tarix insani, ruhani tarix olmadı.

Hələlik o, xalqların bir-birilə amansız çarpışma tarixi, üsuli-idarələr tarixi, vəhşi ehtiraslar tarixi, yanlışlıqlar, xülyalar tarixi olub.

***Hələlik insan özünü tarixdə təsdiq etməyib.***

***İnsanın ruhani rəhbərləri, xadimləri olub, ancaq ruhani tarixi olmayıb.***

***Çünki ruhani rəhbərlər tarixin gedişatına təkan verə bilməyiblər.***

***Ruhani tarixi öz ruhani mahiyyətinə çatmış insan yarada bilər.***

***Ruhani tarix ruhani bəşər tələb edir.***

## Cəmiyyət

Cəmiyyətin məqsədi ruhanidir: insanın ləyaqətini, böyüklüyünü, qüdrətini təsdiq etmək, sonsuz, əbədi, kamil mahiyyətini aşkara çıxarmaq.

İnsan təklikdə özünə çata bilmirdi.

O, cəmdə özünə çatmaq istədi.

İnsanın daxilindəki ruhanilik – sonsuzluğa, əbədiliyə, kamilliyə meyil onu özündən kənara çıxmağa, özünü cəmiyyətdə tapmağa sövq etdi.

Buna görə də o, öz azadlığını, sərbəstliyini cəmiyyətə tabe etdi. İnsan bu tabeçiliyi təbii saydı, onunla barışdı, ona əməl etdi.

Ancaq cəmiyyət insanın özünütəsdiqinə zidd oldu. İnsan cəmiyyətdə özünün ruhani təbiətinin əleyhinə yaşamağa məcbur oldu.

Cəmiyyətdə insan öz bütövlüyünü, zənginliyini, fərdi müstəqilliyini itirdi.

İnsan arzularından yaranmış cəmiyyət insani yox, antiinsani cəmiyyətdir. Cəmiyyətdə hakimiyyət cəmin hakimliyi biçimində təsdiq olunur: yəni fərd cəmin hökmünə tabe olur. Həmin hökm müxtəlif fərdlərin kollektiv hökmündən fərqlidir: ***bu, xüsusi cəmiyyət hökmüdür.***

Fərd həmin hökmə mütləq mənada tabe olmalı, əməl etməlidir. Hakimliyin bu xüsusiyyəti özü-özlüyündə antiinsani səciyyə daşımır.

Ancaq gerçəklikdə hakimlik – fərdi itaətdə saxlayan, onun azadlığını əlindən alan, iradəsini sarsıdan, taleyinə qənim kəsilən son dərəcə yad bir qüvvəyə çevrildi. Həmin qüvvə insanı yox, onun mahiyyətini yox, hakimiyyətin özünü təsdiq etməyə başladı.

Hakimiyyət hakimlə eyniləşdikdə hakim öz xudpəsənd, azğın, hərcayi arzularını, niyyətlərini həyata keçirməyə başladı.

***Birinci – hər şey, ikinci – heç şey oldu.***

***İnsan cəmiyyət adlanan dəyirmanda üyüdüldü.***

***Onun həyatı, taleyi hakimin ixtiyarına verildi.***

***Hakim fərdin ağası oldu.***

İnsan cəmiyyətdə yalnız cismani, maddi varlıq kimi mövcud oldu, onun ruhani ləyaqəti tapdalandı.

Ona cismani varlıq kimi yanaşdılar, ondan cismani varlıq kimi istifadə etdilər, onu alətə çevirdilər.

Hakim – fərdi rəiyyət səviyyəsinə endirməklə onun ruhaniliyini əlindən aldı.

Cəmiyyətdə fərd istehsal münasibətlərində iştirak edirdi. Burada o, öz mahiyyətindən uzaq düşdü. Burada onun daxili dünyası, ruhani keyfiyyətləri lazım olmadı, onun istehsal etmək funksiyası, qabiliyyəti lazım oldu, həmin qabiliyyət başqa keyfiyyətlərdən təcrid olundu.

İnsan ruhani xilqət yox, istehsalçı oldu.

Cəmiyyət silklər, siniflər yaratmaqla insanlar arasında doğmalığı aradan qaldırdı, ictimai həyatda düşmənçilik bərqərar oldu, yırtıcı duyğular, vəhşi ehtiraslar, ədalətsizlik, həqiqətsizlik, şər, qəbahət cəmiyyəti bürüdü. Cəmiyyət insanın daxilindəki naqis duyğuları alışdırdı, insan ruhaniliyini unutdu, ona yad oldu. Cəmiyyət mexaniki,

ruhsuz, düşüncəsiz ifaçılıq – ictimai xidmət, hakimliyə səcdə, rütbəyə pərəstiş yaratdı.

Nəhayət, cəmiyyət insanı fərdi mühitin quluna, alətinə, kölgəsinə çevirdi.

Mühit insanı böyütdü, ömrünü müəyyən etdi, onu istədiyi biçimə saldı və insan özünün mühitdən böyük, mühitəsığmaz mahiyyətini unutdu, bu səbəbdən də o, mühitə uyğunlaşmağa, ona pərçimlənməyə başladı: fəlakətli ruhsuzluq bəlası törədi***. Buna baxmayaraq, cəmiyyət insanı öldürə bilmədi.***

İnsan cəmiyyətin daxilində vətəndaşlıq ülviyyəti yaratdı və bu ülviyyətdə öz ruhani mahiyyətini təsdiq etdi, vətənsevərlik, xalqsevərlik səviyyəsinə ucaltdı. İnsan cəmiyyətlə barışmadı, onunla daim vuruşdu, onun antiruhani xislətini dərk etdi, cəmiyyətə sığmadı, ondan kənara çıxdı və onu öz ruhani tələbləri əsasında dəyişməyə çalışdı. Cəmiyyət maddiyyatı tərəqqinin meyarına çevirmək istədisə də, insan mənəvini özünə meyar seçdi və bu səbəbdən də cəmiyyəti bir vəziyyətdə qalmağa qoymadı.

Cəmiyyətin şəxsiyyətə layiq olmaması – insan tarixinin ən dəhşətli ziddiyyətidir.

Bu ziddiyyəti aradan qaldırmaq üçün bəşər ruhani cəmiyyət qurmalıdır!

## Ailə

Ailə cismani əlaqələrin ruhani əlaqələrə yüksəlməsidir.

Ailədə insan cismanini ruhaniləşdirir, sonlunu sonsuzlaşdırır, ölümlünü ölümsüzləşdirir.

Ailə məhəbbət əsasında yaranır.

Məhəbbət cismani ehtirasın ruhani münasibətə çevrilməsidir.

Ailədə cinsi duyğu ruhani məqsədlərə xidmət edir.

Ailə kişilik, qadınlıq və övladlıq ülviyyəti yaradır.

Kişiliyin ruhani mahiyyəti üç şəkildə aşkara çıxır: evin atası, övrətin yaxın dostu və övladın valideyni şəklində.

Kişilik ilk növbədə evin atası deməkdir.

Burada nisbi, cinsi, cismani – Mütləq, müqəddəs, ruhani rol oynayır. Ata ailəyə Mütləqin gözüylə baxır, Mütləqin tələbiylə yanaşır, həm də ailədə Mütləqin təzahürünü görür.

Atanın məqsədi ailənin müqəddəs mənasını təsdiq etməkdir. Bu nöqteyi-nəzərdən ailəyə ata xidməti Mütləqə xidmətə bərabərdir.

Atanın məntiqində ailə bütöv bir varlıq kimi Mütləqin təzahürüdür və buna görə də Müqəddəsdir.

Bu o deməkdir ki, ailənin həyatı, müqəddəratı, taleyi Mütləq mənaya malikdir.

Bu o deməkdir ki, ailənin dağılması fəlakətdir, onun qarşısını almaq – müqəddəs borcdur.

Bu o deməkdir ki, ailədə ülvi, mənəvi vəhdət yaranıb və həmin vəhdəti hifz etmək Mütləq vəzifədir.

Bu o deməkdir ki, etibar, vəfa Mütləqin təzahürləridir və onların məhvi – Mütləq mənada süqutdur. Ailənin sarsılması, öz müqəddəsliyini itirməsi – mütləq günahdır. Ona görə də namus, qeyrət – müqəddəs duyğulardır. Ailə başçısı öz ehtiraslarını ailənin müqəddəs mahiyyətinə tabe etməlidir. O, ailənin Mütləq mahiyyətinə tapınmalıdır.

Qeyrətin böyüklüyü elə bundadır.

Ailə iki şəxsin ruhani əlaqəsidir.

Ailəyə xəyanət etmək təkcə bir şəxsə xəyanət eləmək deyil, Mütləqə xəyanət eləməkdir.

Çünki ailənin Mahiyyəti onun təcəssümündən artıqdır. Ona görə də qeyrətin hökmü – Mütləqin hökmüdür.

Ailədə qadınlıq – qadın məziyyətlərinin yeni, ruhani pilləyə qalxmasıdır. Burada cazibədarlıq, məlahət, mənəvi zəriflik ailənin Mütləq mahiyyətinə xidmət edir.

Ailə qadının analıq ülviyyətini, müqəddəsliyini təsdiq edir. Analıqda qadın Mütləqə yaxınlaşır. Analıqda qadınlıq Mütləq mövcudluğun təzahürü səviyyəsinə yüksəlir.

Ana övladını Mütləq mənada sevir, anayla bala arasında Mütləq mənəvi vəhdət yaranır.

Qayğı Mütləqliyi, nəvaziş Mütləqliyi, sevinc Mütləqliyi, fədakarlıq Mütləqliyi, kədər Mütləqliyi – Analığın Mütləqlik çalarları sonsuzdur.

***Qadınlıq – Analıqda Mütləqləşir.***

Qadına xas olan keyfiyyətlər analıqda zirvə səviyyəsinə qalxır.

***Analığın qüdrəti məhəbbətdədir.***

Məhəbbətdə insan öz nisbiliyindən, keçiciliyindən ayrılır, fitnə ölür, soyuqluq, biganəlik ölür, Mütləq heyrət, Mütləq həsrət, Mütləq daxili vəhdət təsdiq olunur.

Ailə həm də övladlıq ülviyyəti yaradır.

Valideyn övlad vasitəsiylə özünün ölməzliyini, kamilliyini, ruhaniliyini təsdiq edir.

Bu nöqteyi-nəzərdən, valideyn sevinci təmənnasız, ali və müdrik sevincdir.

Həmin sevinc – sonsuz fədakarlıq, cəfakeşlik yaradır. Həmin sevinc artdıqca onun gətirdiyi iztirab da artır: sevinc iztirab odunda bərkiyir.

Övladlıq həm də övladın ailə müqəddəsliyinə pənah gətirməsidir. Övlad ailə müqəddəsliyinin həm yetirməsi, məhsulu, həm də onu yaşadan qüdrətdir.

Övlad ailə müqəddəsliyindən törəyir, öz daxili aləmində, həyatında, taleyində həmin müqəddəsliyi gəzdirir, həm də onu sabaha aparır.

Bu, ***övlad borcu*** adlanan müqəddəs hadisə yaradır. Mahiyyətində müqəddəslik gəzdirən, ailəyə, valideynə bağlanan övlad həm də müqəddəsliyin sabahkı taleyini ağır yük kimi çiyninə götürür. Müqəddəslikdən yaranan övlad valideynlərinə ülvi münasibət bəsləyir. Bu baxımdan, övladlıq valideynliyin Mütləq mənasını təsdiq edir. Övladlıq vasitəsiylə ailə müqəddəsliyi əbədiləşir.

Lakin insana xas olan naqislik, nisbiyə, keçiciyə, bəsitliyə meyil ailənin ruhani mahiyyətinin tam aşkara çıxmasına mane olur. Yəni ailənin ruhani mahiyyətilə gerçək ifadəsi arasında ziddiyyət yaranır.

Ram olunmayan, aşıb-daşan, cilovsuz duyğular müqəddəslik səddini aşır, xəyanət və yalan qəbahəti peyda olur, kişiliyin atalıq, qadınlığın analıq səviyyəsi aşağı düşür, eqoizm, maddi sərvət əsarəti qüdsiyyəti öldürür, valideynlik nüfuzu, övladlıq borcu sarsılır, ailənin ahəngi pozulur, şəhvətpərəstlik ülviyyəti üstələyir.

Heç bir vəziyyətdə, heç bir biçimdə özünə bərabər olmayan, özünə çatmayan insan ailənin ruhani mahiyyətinə tam bərabər ola bilmir.

Kişiylə qadın, valideynlə övlad arasında yadlaşma baş verir, ailəyə qarşı biganəlik, nifrət, üsyan yaranır. İnsanın daxili aləmində cismanilik və ruhanilik, xudbinlik və mənəvi vəhdət döyüşür.

Ata zülmü, qadın əsarəti, övlad zilləti ailənin müqəddəs mənasına qəddar müstəbidlik gətirir. Ailənin ləğvi, məhvi təhlükəsi yaranır.

Ancaq ailə ruhani mahiyyətə malik olduğu üçün daim yaşayır və yaşayacaq, yüksələcək, kamilləşəcək. Çünki insan Mütləqsiz yaşaya bilməz.

Çünki ailə əbədi və əvəzsiz ruhani tələbatdır.

## Gözəllik

Gözəllik nisbi biçimdə aşkara çıxır.

Ancaq Mütləqə xidmət edir.

Gözəllik cismani biçimdə aşkara çıxır.
Ancaq ruhaniliyə xidmət edir.
Gözəllik sonlu biçimdə aşkara çıxır.
Ancaq sonsuzluğa xidmət edir.
Gözəllik ölümlü biçimdə aşkara çıxır.
Ancaq ölümsüzlüyə xidmət edir.
Gözəllik qeyri-kamil biçimdə aşkara çıxır.
Ancaq kamilliyə xidmət edir.
Gözəllik – rəmzdir, nişandır.
Onun təmsil elədiyi üzə çıxandan artıqdır, böyükdür, alidir.
Cismani cazibədarlıq vasitəsiylə gözəllik – ruhani məna təsdiq edir.
Gözəlliyin bizdə yaratdığı duyğu, düşüncə cismani cazibədarlıqla məhdudlaşmır, ondan kənara çıxır, onun üzərində yüksəlir. Gözəl üzdəki məlahət əslində nişan rolunu oynayır.
O, özündən hədsiz dərəcədə böyük olan mahiyyətdən nişan verir. Cismanilik gözəllikdə – ruhani zəriflikdən, məsumluqdan, qüdsiyyətdən, ucalıqdan xəbər verir. Burada ruhani – cismanilikdə, sonsuz – sonluda, əbədi – ölümlüdə təzahür edir. Bu səbəbdən də gözəllik həmişə görünəndən artıq söyləyir. Sevimli üz əslində təkcə cismani kamilliyə malik olan üz deyil, bundan daha qiymətli mənanı təcəssüm etdirən üzdür.
***Sevimli üz – doğmalıqdan, saflıqdan, coşqun və ülvi duyğulardan nişan verən gözəllikdir.***
Gözəl bədən – cismani bədən səviyyəsindən kənara çıxır, ülvi məzmun kəsb edir.
Əl, dodaq, saç – gözəllikdə rəmzi məna daşıyır.
***Gözəl olmaq – əslində cismanilik üzərində yüksəlmək deməkdir.***
Gözəlliyin mənası özündən yüksəkdir.
Gözəllik – cismani olduğundan nisbidir.
Gözəllik ruhaninin təcəssümü olduğu üçün Mütləqin təzahürüdür.
Cismanilik – ruhaniliyin üzə çıxan, zahirdə görünən tərəfidir.
Gözəllik sonsuza, əbədiyə, kamilə xidmət edir, ancaq onları sonlu, ölümlü, qeyri-kamil biçimdə təmsil edir. Bu səbəbdən də ruhanilik cismaniliyə sığmır. Gözəllik onu tam ifadə etmir, onu nişan verir.
***Mahiyyət nişandan artıqdır.***
Ancaq mahiyyət – nişan şəklində təzahür edir.
Gözəlliyin sirli cəzbi və həm də məhdudluğu bundadır.
Gözəllik həmişə özündən böyüyü təsdiq edir.

Təbiətdə insan təbiətdən artığını, yüksəyini görür.

Çayda – çaydan böyük, dağda – dağdan böyük, gecədə – gecədən böyük, çiçəkdə – çiçəkdən böyük məna var.

Gecə – sirlər dünyasının təcəssümü, dağ – vüqar və müdriklik rəmzi, çiçək – təmizlik və təravət nişanı kimi dərk olunur. Gözəllikdə heç vaxt hadisə yalnız maddi varlıq kimi meydana çıxmır, mənəvi varlıq kimi meydana çıxır.

***Gözəllik – cismanidə həkk olunmuş ruhanilikdir.***

Gözəllik özündən böyük mənaya aparandır, həmin ***mənanı nişan verən, təmsil edəndir.*** Gözəllik hadisələr biçimində aşkara çıxır, bu səbəbdən də o, nisbidir.

Ancaq həmin hadisələr Mütləq mənanı təsdiq edirlər.

Gözəl insan – nisbidir, lakin o, özündə Mütləqi yaşadır.

Gözəl qadın – sonludur, keçicidir, ölümlüdür, lakin həmin gözəllikdə qadınlığın əbədi mənası həkk olunur.

Həmin sonlu, keçici gözəllik əslində sonsuz, əbədi keyfiyyəti təmsil eləyir.

Gözəlliyin Əzəli məqsədi həmin ölümsüzlükdən, sonsuzluqdan, kamillikdən xəbər vermək, nişan verməkdir. Gözəlliyin dərəcəsi nişanın səviyyəsilə bağlıdır.

***Ruhaniliyi ən yaxşı təmsil eləyən, onu ən yaxşı nişan verən*** – ***ən gözəldir!***

Gözəl iş, əməl – ölümlüdür, keçicidir, ancaq onların nişan verdikləri mahiyyət əbədidir!

Gözəl əməl – ülvi amaldan xəbər verir, gözəl iş – əbədi qüdrətdən xəbər verir.

Yaradıcı – ölümlüdür, yaradıcılıq – ölümsüzdür!

Gənc – ölümlüdür, gənclik – ölümsüzdür!

Hadisələr biçimində aşkara çıxdığı üçün gözəllik qeyri-kamildir. Lakin həmin hadisələrin təsdiq etdiyi mahiyyət kamildir.

Gerçəklikdə nöqsansız gözəllik yoxdur, lakin qeyri-kamil gözəllik – kamil mənaya xidmət göstərir.

Təbii gözəlliklərdə nöqsan tapmaq olar. Ancaq bu nöqsanlı gözəlliklərin mənası nöqsansızdır, onun bizdə oyatdığı duyğular kamildir.

İnsanın yaratdığı gözəlliklərdə nöqsan tapmaq olar.

Ancaq həmin nöqsanlı gözəlliklər nöqsansız, Mütləq mənalara aparar.

Ən sevimli şəxsdə belə, nöqsan tapmaq mümkündür.

Ancaq nöqsanlı şəxs nöqsansız mahiyyəti təmsil edir.

Bu səbəbdən də məhəbbətdə gözəlliyin nöqsanı görünmür.

Sevən sevilənə aşiq gözüylə baxdığından nöqsanın arxasında dayanmış mahiyyətin özünü görür.

Bu cəhətdən, aşiqanə baxış adi baxışdan fərqlənən müdrik baxışdır. Gözəllikdə ruh cismani təzahürün zirvəsinə qalxır. Bu zirvədə cismani təzahürün məhdudluğu da aşkara çıxır, sonlunun sonsuzdan, nisbinin Mütləqdən, gözəlliyin xeyirdən fərqi görünür. Aydın olur ki, mahiyyəti nişan verən gözəllik onu tam ifadə edə bilmir, cismanilik ruha yaxınlaşmağa cəhd göstərirsə də, ona bərabər ola bilmir.

Qəşənglikdə gözəlliyin ülvi məziyyəti itir. Bir çox hallarda cismaniylə ruhani arasında yadlıq yaranır.

Cismanilik Mütləqi ifadə etməkdə çətinlik çəkir.

Ruhanilik gözəlliyin mövcudluğuna gərginlik gətirir.

Gözəllik ruhaniliyin təzyiqindən sarsılır.

Gözəllik biçim cazibədarlığı səviyyəsinə enir.

Ruhun cismaniliklə ahəngdarlığı pozulur.

Ruh gözəlliyə sığmır.

O, özünə ruhani ifadə biçimi axtarır.

Həmin biçimi o, xeyirdə tapır.

## Xeyir

Xeyir – hadisə deyil, mahiyyətdir, sonlu deyil, sonsuzdur, ölümlü deyil, ölümsüzdür.

Xeyir – ruhun özüdür.

***Buna görə də o, gerçəklikdən artıqdır, böyükdür, alidir.***

Xeyirin məqsədi – nisbini mütləqləşdirmək, sonlunu sonsuzlaşdırmaq, qeyri-kamili kamilləşdirmək, ölümlünü ölümsüzləşdirməkdir.

Xeyir əslində yeni gerçəklik yaradır.

***Xeyir – Mütləq mənanın Mütləq şəkildə təsdiqidir.***

Gözəllik – xeyir səviyyəsinə qalxmır, xeyir gerçəklik səviyyəsinə enmir, ancaq gerçəkliyi bir vəziyyətdə qalmağa qoymur, onu özündən kənara çıxarır.

***Xeyir – gerçəklikdən üstün olan xalis ruhanilikdir.***

Xeyir – gerçəklikdə aşkara çıxan xeyirlidən hədsiz dərəcədə artıqdır. O, özünü həyatın əbədi gedişatında tam büruzə verir.

Xeyir – Mütləq ədalət tələbidir, gerçəklikdə isə olsa-olsa nisbi ədalət mövcud olur.

Xeyir – Mütləq İnsanseverlik tələbidir. Gerçəklikdə isə olsa-olsa nisbi insanseverlik mövcud olur.

Xeyir – Mütləq Mənəvi kamillik tələbidir. Gerçəklikdə isə olsa-olsa nisbi mənəvi kamillik mövcud olur.

Xeyir – Mütləq məhəbbət tələbidir. Gerçəklikdə isə olsa-olsa nisbi məhəbbət mövcud olur.

Xeyir – Mütləq həqiqət tələbidir. Gerçəklikdə isə olsa-olsa nisbi həqiqət təsdiq olunur.

Xeyir – Mütləq ruhanilik tələbidir. Gerçəklikdə isə olsa-olsa nisbi ruhanilik tələb olunur.

Bu səbəbdən də Xeyir – gerçəklikdə özünü tapmır, tam özü ola bilmir, ancaq gerçəkliyi də əvvəlki vəziyyətində qalmağa qoymur, onu özündən yüksəyə qaldırır.

Xeyir – Mütləq ruhanilikdirsə, Şər – Mütləq naqislikdir.

Ancaq Şər gerçəkliyə sığır, çünki Şəri yaradan gerçəklik özüdür, daha doğrusu, gerçəkliyə xas olan naqislik, nöqsan, nisbilik, sonluluq, ölümlülük, cismanilik.

***Şər nisbidə, sonluda, ölümlüdə olan naqisliyin Mütləq səviyyəsidir.***

Gerçəklik Şərin düşməni deyil, Şərin düşməni Xeyirdir.

Xeyir gerçəklikdən üstün olduğundan Şərlə barışmır.

Xeyir – Mütləqin nisbi şəkildə, sonsuzun sonlu şəkildə, kamilin qeyri-kamil şəkildə təzahürünə ziddir.

O, Mütləqin Mütləq şəkildə, sonsuzun sonsuz şəkildə, əbədinin əbədi şəkildə təzahürünü istəyir.

Gerçəklik Mütləqin tələbinə cavab vermir.

Bu cəhətdən Xeyir haradasa gerçəkliyin ziddinə olan bir qüvvədir. Xeyir gerçəkliyin özünə bənzəməməsini, özündən yerdən-göyə qədər fərqli olmasını diləyir.

Şərlə döyüş əslində gerçəkliyin kökündən dəyişilməsi uğrunda döyüşdür.

Şər – ədalətə, məhəbbətə, həqiqətə düşməndir, ancaq gerçəkliyə düşmən deyil.

Gerçəklik Şəri rədd etmir, bəzən hətta ona arxalanır, o, Şəri özünə yabançı saymır. Çünki özü yırtıcılıqdan, məkrdən, fitnədən, xudbinlikdən, kin-küdurətdən, haqsızlıqdan, yalandan xali deyil.

***Şəri yaşadan elə gerçəkliyin özüdür.***

Gerçəklik ən çox Xeyirə qarşı vuruşur, Xeyiri təqib edir, Xeyirə lənətlər yağdırır. Bu səbəbdən də Xeyirin doğma gerçəkliyi, demək olar ki, olmur. Bu səbəbdən də Xeyir gerçəkliyə qarşı vuruşmalı olur. Bu səbəbdən də Xeyirin vuruşması qurban tələb edir və həmin qurban böyük olur. Bu səbəbdən də Xeyir məğlub olan, öldürülən,

yandırılan, yer üzündən silinən kimi görünür, ancaq heç vaxt məğlub olmur, yer üzündən silinmir.

Bu səbəbdən də Şər təqib olunmur, yandırılmır, gerçəkliyə sığınır, ancaq xeyirlə döyüşdə həmişə geri çəkilir, ölmür, itmir, lakin gerçəkliyə tam hakim ola bilmir.

***Gerçəkliyin taleyi gerçəkliyin öz əlində yox, Xeyirin əlində olur.***

Gerçəklikdə Xeyir mənfəət səviyyəsinə enir, həmin səviyyədə ruhani ülviyyəti itir.

Mənfəətdə şəxsiyyət özünü başqasına qarşı qoyur, özüylə başqası arasında təzad yaradır.

Həmin təzad həyatda insaniliyin təsdiqinə mane olur. Bu cəhətdən də mənfəət son nəticədə Şərə xidmət edir.

Xeyirlə mənfəət arasındakı fərq – ruhaniliklə cismaniliyin arasındakı fərqə bərabərdir.

Mənfəət insaniliyi təsdiq etmir, ayrı-ayrı fərdlərin, silklərin, siniflərin yadlığını, düşmənçiliyini təsdiq edir.

Mənfəətdə – insanın qeyri-Mütləq, qeyri-kamil, keçici cəhətləri təzahür edir.

Mənfəət rəqabət yaradır, rəqabətdə insanilik itir.

Mənfəət insanı maddiyyata, zəmanəyə, mühitə bağlayır və onu ruhani mahiyyətdən ayırır. Mənfəət xeyir sayılırsa da, Xeyirdən uzaqdır.

***Mənfəətdə xeyirxahlıq yoxdur.***

Mənfəət gerçəkliyin törətdiyi son dərəcə nisbi, qeyri-kamil, qeyri-ruhani hadisədir.

O, gerçəkliyə sığır, gerçəkliklə barışır, gerçəkliyi ifadə edir.

Xeyir həyatda özünü ən çox təmənnasızlıq və fədakarlıq şəklində büruzə verir.

Təmənnasızlıq – Xeyirin mütləq mənasının təsdiqidir.

Təmənnasızlıq – Xeyirin özünə xidmət edir, çünki dünyada Xeyirdən yüksək, böyük, ali heç nə tanımır.

Onun üçün Xeyir hər şeydir: səadətdir, nəşədir, ülvi nemətdir.

Təmənnasızlıq – Xeyiri ömrün mənasına çevirir. Onun üçün Xeyir yolunda çəkilən əzab sevincdir, Xeyir uğrunda ölmək – şərəfdir.

Xeyirin özündən böyük mükafatı yoxdur.

***Xeyirin hökmü gerçəkliyin hökmündən artıqdır.***

Bu səbəbdən də gerçəklik təmənnasızlığa yaddır, onunla döyüşür, onu təqib edir. Bu səbəbdən də gerçəklikdə təmənnasızlıq qeyri-adi, nadir hal kimi təzahür edir. Gerçəklik – həyata, insana, dünyaya təmənnalı münasibət yaradır. Buna görə də təmənnasızlıq

gerçəkliyin məntiqini rədd edir, öz məntiqini təsdiq edir və gerçəkliyi özündən yüksəyə qalxmağa vadar edir.

***Fədakarlıq da gerçəklikdən üstündür.***

Gerçəklik insanı dünyadan faydalanmağa, özünü mühafizə etməyə, qorumağa çağırır.

Fədakarlıq isə – həyatın verdiyi nemətlərdən, hətta ömürdən belə imtina etməyi tələb edir.

Gerçəklik insanı nəşəyə bağlayır.

Fədakarlıq həyatda əzaba, cəfaya qatlaşmağı tələb edir.

Gerçəklik fərdi mənfəətə pərçimləyir, fədakarlıq onu mənfəətdən ayırır. Bir sözlə, fədakarlıq – gerçəkliyin verdiyi imkanları ötüb keçmək, gerçəklikdən yüksək yaşamaqdır. Həm fədakarlıq, həm də təmənnasızlıq insanın gerçəklikdən Xeyirə ucalmasıdır.

## Ədalət

Ədalət – Mütləq haqq tələbidir.

Gerçəklik Mütləq Haqq səviyyəsinə qalxmır.

Bu cəhətdən Ədalət gerçəklikdən üstündür.

Ədalət – Xeyirin tam, əbədi təntənəsini tələb edir.

Gerçəklik isə Xeyirlə Şərin döyüşüdür.

Bu cəhətdən o, gerçəkliyə ziddir, onunla barışmır.

Ədalət həyatda özünü bütöv şəkildə təsdiq edə bilmir.

Bu cəhətdən Ədalət gerçəkliyə ziddir, onunla barışmır.

Ədalət ruhani məziyyətlərin yüksək qiymətləndirilməsini tələb edir.

Bu səbəbdən də Ədalət gerçəkliyə ziddir, onunla barışmır.

Ədalət əlamətə yox – mahiyyətə, zahirə yox – batinə, keçiciyə yox – əbədiyə, sonluya yox – sonsuza arxalanır. Gerçəklikdə isə əlamət mahiyyəti, zahir batini üstələyir. Buna görə də Ədalət gerçəkliyə yaddır, onunla barışmır. Ədalət nisbi ola bilməz. Gerçəklikdə isə hər şey nisbidir.

Ədalət keçici ola bilməz – gerçəklikdə isə hər şey keçicidir. Ədalət ölümlü ola bilməz – gerçəklikdə isə hər şey ölümlüdür. Bu səbəbdən də Ədalət real gerçəkliyi rədd edir, yeni gerçəklik tələb edir.

***Ədaləti gerçəklik yox, insanın ruhani, sonsuz, əbədi mahiyyəti yaradır. Ədalət gerçəkliyin imkanlarından hədsiz dərəcədə artıqdır, bu səbəbdən də o, gerçəkliyi özündən kənara çıxarır, özündən böyük, özündən üstün edir.***

Ədalət həm də özünün gerçəklikdə ***Ədalətlilik*** biçimində təzahüründən artıqdır.

***Ədalətlilik*** – gerçəkliyə uyğunlaşır, nisbi, keçici, qeyri-kamil səciyyə daşıyır.

***Ədalətlilik*** ədalətdən hədsiz dərəcədə fərqlidir. Gerçəklikdə ədalətli sayılmaq əslində ədalətin ülvi mənasından aşağı olmaq deməkdir.

***Ədalətlilik*** gerçəkliyin məhdud imkanlarıyla barışır, onların səviyyəsinə enir. Gerçəkliyin ədalətli saydığı cəmiyyət – əslində nöqsanlı, natam, qeyri-mükəmməl cəmiyyətdir. Burada cəmiyyətə Mütləq tələblə yanaşılmır, ona görə də ədalət təsdiq olunmur. "Ədalətli hökm" deyəndə – gerçəkliyin, cəmiyyətin məhdud imkanlarına, naqisliyinə, qeyri-Mütləqiliyinə uyğun olan hadisə nəzərdə tutulur.

"Ədalətli qiymət" deyəndə yenə də nisbi mənada haqlı qiymətdən söhbət gedir.

Ədalət – insana xalis ruh kimi münasibət bəsləyir, onu bu nöqteyi-nəzərdən qiymətləndirir.

Buna görə də onun insana tələbi Mütləq səciyyə daşıyır. İnsan isə gerçəklikdə cismani, nisbi, keçici şəkildə mövcud olur. Bu səbəbdən də o, ədalətin tələbinə tam cavab verə bilmir, ***ən ədalətli fəaliyyətində, düşüncəsində, duyğusunda belə, ədalət yüksəkliyinə qalxa bilmir.***

Ədalət gerçəkliyə gerçəkliyin mövcudluğu baxımından yox, onun özündən böyük mənası baxımından yanaşır.

Gerçəklik isə öz mənasından, mahiyyətindən uzaqdır. Buna görə də o, ədalətin Mütləq tələbinə cavab verə bilmir, ədalətli hadisələrin heç birində ədalət səviyyəsinə ucala bilmir. Ədalət cəmiyyətə cəmiyyətin ruhani məqsədi nöqteyi-nəzərindən yanaşır. Cəmiyyət isə öz ruhani məqsədindən ayrılıb. Buna görə də Mütləq tələbə cavab verə bilmir, öz ədalətli əməllərində, nailiyyətlərində heç vaxt ədalətə çata bilmir. Ədalətin tam qələbəsi üçün gerçəkliyin mövcudluğu mahiyyətinə bərabər olmalıdır.

Bu isə yalnız gerçəkliyin əbədi inkişafında yarana bilər. Ədalət həmin inkişafa təkan verən Mütləq qüdrətdir. Bəşər tarixində ən fəlakətli hallar ədalətin boş biçim səviyyəsinə endirilməsi və yalana, uydurmaya çevrilməsidir.

Ədalət – şüara çevrilir, şüar həyata keçmir, ancaq həyatda qalır və ədalətsizliyi pərdələyir.

Şüar əzbərlənir, boş biçimə çevrilmiş məzmun olur, ədalətin ülvi mənası itir.

Şüarlaşan ədalət ədaləti ruhanilik taxtından salır. Ədalət mahiyyətdən, biçim məzmundan ayrılır.

Tarixdə ədalət həm də ədalətsiz, qəddar, eybəcər hadisələrə, fəaliyyətlərə bəraət qazandıran vasitə rolu oynamışdır.

Çeşid-çeşid qəbahətlər ədalət müqəddəsliyinə arxalana bilmişlər. Ədalət uğrunda döyüş əslində mənfəət uğrunda döyüşə çevrilmiş, ədalət bayrağı altında əsarət təsdiq olunmuşdur.

Gerçəklikdə ədalət özünə heç vaxt bənzəməmişdir.

***Çünki ədalət – Mütləq hadisədir. Ona görə də gerçəklikdən artıqdır.***

Gerçəklikdə ədalət özünə bərabər olmur, ədalət gerçəkliyi özünə bərabər etmək istəyir və buna görə də onu özündən aliyə ucaldır.

## Məhəbbət

Məhəbbət Mütləq ruhani vəhdətdir.

***Buna görə də o, gerçəkliyin imkanlarından üstündür.***

Məhəbbət – yadlığın, düşmənçiliyin, yabançılığın ölümüdür.

Gerçəklikdə isə yadlıq, düşmənçilik, yabançılıq ölmür.

Məhəbbət – başqasında özünü tapmaq, başqasına çevrilmək, başqasında itməkdir.

Gerçəklikdə isə ruhani qovuşma nisbi səciyyə daşıyır. Məhəbbət – insanın ilahiləşdirilməsi, Mütləqləşdirilməsidir.

***Sevmək – Mütləqi yerdə tapmaqdır.***

Gerçəklikdə isə Mütləq özünü heç vaxt tam aşkara çıxarmır. ***Buna görə də sevmək – gerçəklikdən yüksək yaşamaqdır.*** Məhəbbət yeni məntiqi – aşiqlik məntiqini təsdiq edir. Aşiqlik məntiqi – gerçəklik məntiqinə ziddir.

Gerçəkliyin naqis saydığını məhəbbət ülvi sayır, rədd etdiyini vəsf edir.

Gerçəklikdə qəm lənətlənir – məhəbbətdə vəsf olunur, gerçəklikdə iztirab pislənir – məhəbbətdə təqdir olunur, gerçəklik – ölçülü, məhəbbət – ölçüsüz ehtirası təsdiq edir. Gerçəkliyin yaratdığı təsəvvürləri, hökmləri məhəbbət rədd edir, çünki o, Mütləqə, kamilə, sonsuza əsaslanır. Gerçəklik isə nisbiyə, keçiciyə, qeyri-kamilə arxalanır.

Məhəbbətdə adi – qeyri-adiləşir, sonsuzlaşır, əbədiləşir.

Bu baxımdan, məhəbbət gerçəkliyi Mütləqə yaxınlaşdırır, nisbinin Mütləq, keçicinin sonsuz mənasını təsdiq edir. Gerçək hadisələr məhəbbətdə öz gerçək məhdudluğundan kənara çıxırlar.

***Məhəbbətdə gerçək özündən böyük görünür.***

Sevilən ən adi, nöqsanlı insan – sevgidə alidir, yüksəkdir. Çünki məhəbbətdə sevilənin mövcudluğu mahiyyətinə bərabər olur, aşiqlik istedadı – fədakarcasına, qəhrəmancasına yaşamaq, əzaba, işgəncəyə tab gətirməkdir.

Məhəbbətdə gerçəkliyə sığmayan heyrət hökm sürür.

Sevgidə heyrətamiz sayılan gerçəklikdə adi sayıla bilər.

***Leylilərə hamı heyrət etməz, Məcnunlar heyrət edərlər.***

Məhəbbətdə heyrət – vəcd, ehtizaz səviyyəsinə qalxır.

***Məhəbbətdə Mütləqə Mütləq münasibət hökm sürür.***

***Sevilən Mütləqləşir, bu səbəbdən də aşiqdə özünə qarşı Mütləq münasibət yaradır. Bununla da gerçəklik özündən yüksəyə qalxır.***

Məhəbbət gerçəklikdə baş verir. Ancaq gerçəklik məhdudiyyətindən kənara çıxır.

Məhəbbətdə insan öz nisbiliyindən ayrılır, Mütləq məna kəsb edir. İnsan Məhəbbətdə iki mənada Mütləqləşir:

Sevilənin Aşiqin gözündə Mütləqə çevrilməsi mənasında; Aşiqlik aqibəti mənasında.

Məhəbbət insanın Mütləqləşmək çağıdır.

Ancaq nisbi məziyyətlərə malik olan, mövcudluğu mahiyyətinə bərabər olmayan insan həmin Mütləq yüksəklikdə axıra qədər qala bilmir.

Şəhvət Mütləq Heyrəti tədricən azaldır, ülvi münasibətlərə bəsitlik, bayağılıq gətirir, İnsanı gerçəkliyə və öz qarışıq təbiətinə uyğunlaşdırır.

Şəhvət Mütləqiliyi görmür – nisbiliyi görür, ruhaniliyi görmür – sonlunu görür və son nəticədə adam gözündə Mütləqi əvəz edir.

***Məhəbbətin ikinci düşməni cismanilikdir.***

Ruhani mahiyyət gerçəklikdə cismani biçimdə meydana çıxır. Ancaq cismani əbədi deyil, kamil deyil, Mütləq deyil. Cismanilik tədricən öz cazibədarlığını itirir, cəzbin itməsi – naqis, nöqsanlı insanın gözündə məhəbbətin Mütləqiliyini azaldır, onu adi cinsi münasibətlər səviyyəsinə endirir. İnsan məhəbbətin zirvəsində xidbinliyindən əl çəkə bilir, ancaq müqəddəsliyin azalması xudbinliyin artmasıyla nəticələnir.

***Xudbinlik məhəbbəti ülvilik taxtından salır.***

İnsanın daxili aləmində Xeyirlə yanaşı Şər, gözəlliklə yanaşı eybəcərlik, böyüklüklə yanaşı kiçiklik yaşayır. Məhəbbətin zirvəsində yalnız ülvi, gözəl, ali keyfiyyətlər görünür.

Məhəbbətin ülvi qüdrəti azalanda həmin naqisliklər üzə çıxır və ruhaniliyi üstələyir.

***İnsanın Mütləqdən aşağı olması, Mütləqə bərabər olmaması aşkara çıxır. İnsan Mütləq səviyyəyə qalxa bilir, ancaq həmin səviyyədə dayana bilmir.***

İnsan Mütləq mahiyyəti Mütləqin özündə axtarmalı olur. ***Mütləq eşqi adlanan müqəddəs hadisə yaranır.***

## Həqiqət

***Yalnız Mütləq olan həqiqidir.***

Gerçəklik isə nisbi həqiqətlərə tapınır.

Bu səbəbdən də Həqiqət gerçəklikdən artıqdır.

***Yalnız sonsuz olan həqiqidir.***

Gerçəklik isə sonlu hadisələrdən ibarətdir.

Bu səbəbdən də Həqiqət gerçəklikdən artıqdır.

***Yalnız əbədi olan həqiqidir.***

Gerçəklik isə ölümlü hadisələr məcmusudur.

Bu səbəbdən də Həqiqət gerçəklikdən artıqdır.

***Yalnız kamil olan həqiqidir.***

Gerçəklik isə qeyri-kamil hadisələrlə doludur.

Bu səbəbdən də Həqiqət gerçəklikdən artıqdır.

Gerçəklik yarımhəqiqətə və həqiqətsizliyə arxalanır.

Bu səbəbdən də həqiqət haradasa gerçəkliyə ziddir, gerçəkliyin əksinədir, gerçəkliyə qarşıdır. Gerçəklik həqiqətin tələbinə cavab vermir. Həqiqət çox hallarda gerçəkliyi rədd edir.

Həqiqət – həyat, dünya və insan haqqında Mütləq mənada düzgün təsəvvür, bilik və hökmdür.

***Həqiqət – dünyanın, həyatın, insanın özünə sığmaması, özündən kənara çıxması haqqında Mütləq düzgün təsəvvür , bilik və hökmdür.***

***Həqiqət insanın, dünyanın, həyatın özündən böyük mahiyyəti haqqında Mütləq düzgün təsəvvür, bilik və hökmdür.***

***Həqiqət – həm də insanın özüylədöyüşü, özündən yüksəyə qalxması haqqında olan Mütləq təsəvvür, bilik və hökmdür.***

Həqiqət gerçəklikdən böyükdür və ruha bərabərdir; bu səbəbdən də ***o, insanın mahiyyətindən kənarda deyil, mahiyyətin özündədir, daha doğrusu, mahiyyətin digər şəkildə ifadəsidir.***

Həqiqət – insanın taleyində, daxili dünyasında, mövcudluğunda təzahür edir

***Həqiqət – həm dünyaya Mütləq baxışdır, həm də Mütləqin dərkidir.*** Mütləq baxışla Mütləqin dərki arasında qırılmaz vəhdət var.

Dünyaya Mütləqin gözüylə baxmaq, onu Mütləqin tələbləri əsasında qiymətləndirmək – dünyayla Mütləqin münasibətlərini dərk etmək deməkdir.

Həqiqət dünyaya uyğunlaşmır, dünyayla barışmır, onu Mütləq mənada düzgün şərh edir, qiymətləndirir.

Bununla da o, Mütləqi təsdiq edir.

Həm də gerçəkliyin Mütləqdən aşağı olmasını göstərir. Həqiqətin mütləq tələbinə cavab vermək – Mütləq olmaqdır. Gerçəklik Mütləqin tələbinə cavab vermir, ona görə də o, Mütləq deyil!

Mütləq deyil, ancaq Mütləqə can atandır, öz nisbiliyindən yüksəyə qalxmağa çalışandır.

Həqiqət gerçəkliyin bu cəhdinə təkan verir, onu özüylə barışmağa, özündə dayanıb qalmağa qoymur.

Həqiqət gerçək ***gözəlliyə*** deyir ki, sən nisbisən, nöqsanlısan, ölümlüsən, Mütləqdən aşağısan, buna görə də özünlə barışma, özündə qalma, özünlə razılaşma, Mütləqə yaxınlaş!

Həqiqət gerçək ***mənəviyyata*** deyir ki, sən nöqsanlısan, nisbisən, özünlə kifayətlənmə, özündən yüksəyə qalx, Mütləqə oxşa, özündə dayanma.

Həqiqət gerçək ***həqiqətə*** deyir ki, sən naqissən, nisbisən, həyata pərçimlənmisən, biliyin natamdır, özündən ucaya qalx, Mütləq vəhdətə nail ol!

Həqiqət gerçək ***ədalətə*** deyir ki, sən qeyri-kamilsən, azsan, zəifsən, özünü bəyənmə, özünlə qürrələnmə, özünün Mütləq yanında cılızlığını, məhdudluğunu dərk et, Mütləqə bənzəməyə çalış!

Həqiqət gerçək ***azadlığa*** deyir ki, yalanla qarışıqsan, çox vəd edib, az verənsən, Mütləqdən uzaqsan, ona yaxınlaş!

Həqiqət gerçək ***böyüklüyə*** deyir ki, əsil böyük deyilsən, natam, təxmini böyüksən, çünki Mütləqə bənzəmirsən, özündən yüksəyə qalx!

Həqiqət gerçək ***qüdrətə*** deyir ki, zəifsən, keçicisən, ölümlüsən, özünə yapışıb qalma, özündən böyük ol!

Həqiqət gerçək ***müdrikliyə*** deyir ki, naşısan, bəsitsən, nisbisən, Mütləqə ucal!

Həqiqət gerçək ***səadətə*** deyir ki, səadətin nə olduğunu bilmirsən, Mütləqi gör, onun səadətinə çat, onunla bərabərləş!

Həqiqət gerçək ***tərəqqiyə*** deyir ki, nisbidə dayanma, Mütləqə çat, onda özünü taparsan!

Həqiqət gerçəkliyi sarsıdır, onu özüylə məhdudlaşmağa qoymur. Yalan gerçəkliyi qoruyur, təsdiq edir, vəsf edir, onu özüylə barışdırır, gerçəkliyin Mütləqdən sonsuz fərqini gizlədir, Mütləqin tələbindən

qorxur və onu nəzərə almır, nisbini Mütləq kimi, sonlunu sonsuz kimi, ölümlünü əbədi kimi təqdim edir. Yalan – yarımhəqiqət və həqiqətsizlik eybəcərliyi yaradır, gerçəkliyin özü haqqındakı xülyanı təsdiq edir. Yalan həyatı bir səviyyədə saxlamağa çalışır, onun Mütləqə tərəf yerişini ləngidir.

***Həqiqət ruhun gerçəklik üzərində qələbəsidirsə, yalan – gerçəkliyin özünü ruhun tələbindən gizləməsidir. Həqiqət yalanın düşmənidir, çünki yalan gerçəkliklə barışır.*** Həqiqət yalanı məhv edə bilmir, çünki gerçəklik Mütləqə bərabər ola bilmir. Ancaq həqiqət yalanı daim məğlub edir.

## Qəhrəmanlıq

***Qəhrəmanlıq – insanın öz nisbi, qeyri-kamil, sonlu, ölümlü imkanlarından kənara çıxması, onların üzərində yüksəlməsidir. Qəhrəmanlıqda insan özünün gerçək səviyyəsindən artıq işlər görür.***

Qəhrəmanlıq gerçəkliyin insan haqqında olan təsəvvürünü, biliyini, hökmünü rədd edir: yeni təsəvvür, yeni bilik, yeni hökm yaradır.

Bu cəhətdən qəhrəmanlıq gerçəklikdən artıqdır.

***Qəhrəmanlıq – insanın nisbi gerçəklikdə Mütləq fəaliyyət göstərməsidir. Ona görə də qəhrəmanlıq Mütləq iradə, Mütləq mənəviyyat və Mütləq zəka tələb edir.***

***Mütləq iradə*** vasitəsiylə qəhrəman gerçəkliyə sığmayan hünər göstərir. Mütləq mənada böyük, ali əməllər yaradır, təsəvvürə gəlməyən nailiyyətlər əldə edir.

***Mütləq mənəviyyat*** vasitəsiylə o, Amal ülviyyətinə yüksəlir, həyatın, taleyin, ömrün istiqamətini nisbidən Mütləqə, gerçəklikdən ideala yönəldir, özündən yüksəyə çatır.

***Mütləq zəka*** vasitəsiylə o, gerçəklikdən, gerçək müdriklikdən böyük olan Mütləq həqiqəti dərk edir və onu insanlara aşılayır, həqiqətin işığıyla qaranlıqları yarır.

Bu nöqteyi-nəzərdən, ***qəhrəmanlıq – insanın Mütləq səviyyəsində yaşaması, yaratması, fəaliyyət göstərməsidir.***

(Həmin səbəbdən də qəhrəmanlıq son dərəcə nadir hadisədir və insan tarixi barmaqla sayıla biləcək qədər qəhrəmanlar yetişdirə bilmişdir).

Lakin bəşərə xas olan nöqsanlılıq, qeyri-kamillik qəhrəmanlığı adiləşdirmiş, bəsitləşdirmiş, onun ülviyyətinə xələl gətirmiş, onu kamillik taxtından salmışdır.

Bəşər, qəhrəmanlığı ən çox döyüş rəşadətilə, bir çox hallarda fatehliklə, qəsbkarlıqla məhdudlaşdırmışdır.

Əslində isə döyüş rəşadətində qəhrəmanlığın yalnız bəzi keyfiyyətləri: cəsarət, qələbə əzmi öz ifadəsini tapıb.

***Fatehlikdə və qəsbkarlıqda ülvilik yoxdur, ona görə də qəhrəmanlıq yoxdur.***

Bəşər Mütləq iradə ilə güclü iradəni eyniləşdirmiş və axırıncını qəhrəmanlıq saymışdır.

Əslində isə ruhani, ülvi məqsədlərə xidmət eləyən iradə qəhrəmanlıq səviyyəsinə yüksəlir.

Müstəbidliyə, xudbinliyə, zalımlığa, şöhrət hərisliyinə həsr olunan ən güclü iradə belə, qəhrəmanlığa ziddir.

Dönməz, güclü, fəqət mənəviyyatsız, əxlaqsız, vicdansız iradə canavarlıq qəbahəti yaradır ki, onu qəhrəmanlıq saymaq günahdır, fəqət bəşər onu qəhrəmanlıq sayır və günaha batır, həmin "qəhrəmanlığın" əfsununa təslim olur. Ümumən qəhrəmanlığın qiymətləndirilməsində bəşər mənəviliyin əhəmiyyətini həmişə azaltmışdır.

Əslində qəhrəmanlıq yüksək mənəviyyat tələb eləməyən keyfiyyət sayılmış, hətta onun mənəvi kamilliyə, saflığa yad olması haqqında sayıqlamalara da bəşər uymuşdur.

"Qəhrəman" hansı cinayətə yol verirsə, bəşər ona bəraət qazandırır. Beləliklə də, ruhaniliyin ali təzahürlərindən biri olan qəhrəmanlıq antiruhani hadisəyə çevrilir.

Bəşər güclü zəkayla qəhrəmani zəkanı eyniləşdirir, unudur ki, qəhrəmani zəka ali və yüksək amala xidmət edir. Bəsit niyyətlərə, xudbin arzulara xidmət eləyən zəkanı – qəhrəmani zəka saymaq olmaz.

***Qəhrəmani zəka Mütləqə əsaslanan, mənəviyyatla qaynayıb-qarışan, onunla qanadlanan zəkadır.***

Onun məqsədi müstəbidin, fatehin keçici, ölümlü, qeyri-kamil şöhrətini yaratmaq yox, bəşəri yüksək səviyyəyə qaldırmaqdır.

***Qəhrəmanlıq gerçəkliyi qəbul etmir.***

Çünki qəhrəmanlıq Mütləqin ifadəsidir, gerçəklikdə isə nisbilik hökm sürür, qəhrəmanlıq sonsuzluğun ifadəsidir, gerçəklikdə isə sonluluq hökm sürür, qəhrəmanlıq əbədiliyin ifadəsidir, gerçəklikdə isə ölüm hökm sürür.

Buna görə də gerçəkliyə sığan, gerçəklik tərəfindən sevilən, təqdir olunan qəhrəmanlıq – əsil qəhrəmanlıq deyil!

Əksər hallarda o, yalançı, saxta qəhrəmanlıqdır.

***Gerçəklik həmişə Mütləqdən aşağıdır.***

***Qəhrəmanın məqsədi – gerçəkliyi Mütləqləşdirməkdir.***

Bu səbəbdən də o, gerçəkliyi qəbul edə bilməz, onunla barışa bilməz, gerçəklik tərəfindən sevilə bilməz.

Əksinə, gerçəklik tərəfindən döyülər, söyülər, təqib olunar. Qəhrəmanlığın başlıca xüsusiyyətlərindən biri gerçəkliyin təhqirinə, təqibinə dözməkdir.

Əzabkeşlik, cəfakeşlik – qəhrəmanlığın ümdə keyfiyyətidir.

Qəhrəman – gerçəklikdə mövcud olur, Mütləqdə, Mütləq üçün, Mütləq tələb əsasında yaşayır.

## Müqəddəslik

Gerçəklikdə nisbi hadisələr mövcuddur.

Müqəddəslik onların Mütləq mənasını təsdiq edir.

Gerçəklikdə qeyri-kamil hadisələr mövcuddur.

Müqəddəslik onların kamil mənasını təsdiq edir.

Gerçəklikdə cismani hadisələr mövcuddur.

Müqəddəslik onların ruhani mənasını təsdiq edir.

Gerçəklikdə keçici hadisələr mövcuddur.

Müqəddəslik onların əbədi mənasını təsdiq edir.

Gerçəklikdə ölümlü hadisələr mövcuddur.

Müqəddəslik onların əbədi mənasını təsdiq edir.

***Torpaq*** – maddi, nisbi varlıqdır.

Müqəddəslik onun ruhani, Mütləq mənasını ifadə edir.

***İşıq*** – maddi, nisbi, sonlu varlıqdır.

Müqəddəslik onun ruhani, Mütləq mənasını ifadə edir.

***Od*** – maddi, nisbi, keçici varlıqdır.

Müqəddəslik onun ruhani, Mütləq mənasını ifadə edir.

***Günəş*** – maddi varlıqdır.

Müqəddəslik onun ruhani, Mütləq mənasını ifadə edir.

***İnsan*** – gerçəklikdə nisbi, keçici, ölümlü, qeyri-kamil biçimdə təzahür edir.

Müqəddəslik onun Mütləq, ruhani, sonsuz, əbədi mənasını təsdiq edir.

***Körpə*** – cismani, nisbi, sonlu, ölümlü varlıqdır.

Müqəddəslik onun Mütləq, ruhani, sonsuz, əbədi mənasını təsdiq edir.

***Ana*** – cismani, nisbi, sonlu, ölümlü varlıqdır.

Müqəddəslik onun ruhani, Mütləq, sonsuz, əbədi mənasını ifadə edir.

***Ata*** – cismani, nisbi, ölümlü varlıqdır.

Müqəddəslik onun ruhani, Mütləq, sonsuz, əbədi mənasını ifadə edir.

***Əmək*** – sonlu, nisbi hadisədir, Amal səviyyəsində o, sonsuz, Mütləq mənanı ifadə edir.

***Dostluq*** – müqəddəsdir, çünki gerçəkliyə, sonluya, ölümə, qeyri-kamilə, nisbiyə sığmayan ülvi mənadır.

***Qeyrət*** – müqəddəsdir, çünki gerçəkliyə sığmayan ülvi mənadır.

***Müqəddəslik – gerçəklikdə gerçəkliyin görmədiyini görmək, duymadığını duymaq, anlamadığını anlamaqdır.***

***Gerçəklik insana baxır, müqəddəslik onu tanıyır.***

Gerçəklik insanda insandan artıq heç nə görmür.

Müqəddəslik insanda insandan böyük, ali, yüksək, Mütləq məna görür.

Gerçəklik təbiətdə təbiətdən artıq heç nə görmür.

Müqəddəslik təbiətdə Mütləqin təzahürünü görür.

Gerçəklik mənəvi kamilliyə meyili görür, ancaq onun Mütləq ülviyyətini görmür. Müqəddəslik kamillikdə Mütləqin təzahürünü görür.

Gerçəklik dünyaya baxır, müqəddəslik dünyada Mütləqi tapır. Müqəddəslik dünyaya böyük qiymət verir, bununla da dünyanı özündən yüksəyə qaldırır.

***Müqəddəsləşən dünya təzədən tapılan dünya olur.***

***Dünyaya müqəddəs münasibət müqəddəs şəxsiyyət yaradır.***

***Müqəddəs şəxsiyyət gerçəkliyə Mütləqin gözüylə baxır.***

Onun üçün adi təbiət, adi varlıq yoxdur, onların qeyri-adi, müqəddəs mənası var.

Müqəddəsin daxili aləmi, mənəviyyatı, idrakı həmin mütləq mənaya uyğundur.

Müqəddəsin daxili aləmi müqəddəsdir, bu səbəbdən də o, Müqəddəsliyi dərk edir.

Müqəddəsliyi dərk etmək – müqəddəs mövcudluq tələb edir.

***Müqəddəs mövcudluq – mənəviyyatın ülvi mənaya bərabər olmasıdır.***

Müqəddəsliyi müqəddəslər dərk edirlər.

Özünü müqəddəsləşdirən – dünyanı müqəddəsləşdirir.

İnsanın mahiyyəti Mütləq, gerçəkliyi nisbidir.

Deməli, mahiyyət səviyyəsində yaşamaq lazımdır.

Müqəddəslər – mahiyyət səviyyəsində yaşayırlar.

Ən yüksək müqəddəslik – Mütləqin özüdür.

Həmin müqəddəslik hadisələrdə təzahür edən müqəddəslikdən əsaslı surətdə fərqlənir.

Müqəddəs hadisələr Mütləqlə nisbətdə müqəddəs sayılır, Mütləqə bənzədilir, Mütləq isə özünə nisbətdə müqəddəsdir, yalnız özünə bənzəyəndir.

***Hadisələrin müqəddəslik meyarı Mütləqdir, Mütləqin meyarı isə özüdür.***

***Hadisələr öz işığını Mütləqdən alırlar, Mütləq isə öz işığıyla işıqlanır.***

***Hadisələrin hər biri Mütləqin bir keyfiyyətini aşkara çıxarır, yalnız Mütləq – müqəddəsliyin bütöv təsdiqidir. Hadisələr özlərini Mütləqdə tapırlarsa, Mütləq özünü özündə tapır.***

Hadisələr Müqəddəslikdə özlərindən böyük mənaya yüksəlirlərsə, Mütləqin mənası özünə bərabər olur. Hadisələrin mövcudluğu mahiyyətindən aşağıdırsa, Mütləqin mahiyyəti mövcudluğuna bərabərdir.

Mütləq – hadisələrdə təzahür edir, ancaq hadisələrdən artıqdır. Mütləq – müqəddəsliyin özüdür, hadisələr müqəddəsliyin təzahürüdür. Bəşər hadisələrin müqəddəs mahiyyətini təsdiq etməklə Mütləqə yaxınlaşır.

Ancaq bəşər mövcudluğunda nisbi, naqis, keçici cəhətlər Mütləq, ruhani, sonsuz keyfiyyətlərlə daim döyüşür. Gerçəklikdə Müqəddəslik bəsitləşir, bayağılaşır, eybəcərləşir, öz əksinə çevrilir.

Bəşər çox hallarda ali məqsədləri maddi mənfəətə qurban vermiş, ruhaniliyin ülvi ləyaqətini tapdamışdır.

Mütləq – nisbiləşmiş, ruhanilik – maddiləşmiş, insan – heyvaniləşmişdir.

Xidmət əvəzinə zillət, böyüklük əvəzinə qəddarlıq, fədakarlıq əvəzinə şöhrətpərəstlik təsdiq olunmuş, Amal müqəddəsliyi yalan çirkabında boğulmuşdur, müqəddəs niyyətlər əksər hallarda bəsit nəticələr yaratmışlar. Bəşər həm də yalançı müqəddəsliklərə tapınmışdır. Müqəddəsləşən hakimlik, qılınc, var-dövlət səlahiyyəti, maddiyyata səcdə, gurultu, parıltı zəhmi, yırtıcılıq, hərcayilik ehtirası, zora pərəstiş, cənnət vədləri, oyun cəzbi, imperiyalar əzəməti – yalançı müqəddəsliklərin çeşidləri sonsuzdur.

Əsil müqəddəslərini, fədakarlarını bəşər çox vaxt anlamayıb, onları iztirablara, işgəncələrə düçar edib.

Çünki bəşər özü heç vaxt müqəddəslik yüksəkliklərinə qalxmayıb. Tarixdə ruhani şəxslər olub, lakin ruhani bəşər olmayıb. Ruhanilik – ruhani bəşərdə təzahür edəndə özünü gerçəklikdə tam təsdiq edəcək.

## 3. RUHANİ İDRAK

### Vəhy

Fikir seli.
Düşüncə təlatümü.
Həqiqətin ömrə gəlişi.
İdrakın iradəyə hakim olması.
Zəkanın yürüşü.
Mahiyyətin zururu.
Məntiqə sığmayan məntiq!
Sübuta sığmayan sübut!
Riqqətlə söylənən kəlam!
Alov tək şığıyan hikmət!
Bir anda açılan sirr!
Bir anda zülməti parçalayan işıq!
Bir anda qovulan naşılıq!
Bir anda dəyişən idrak!
Bir anda bilinən qüdrət!
Qəti hökm!
Qəti inam!
Fikir yağışı!
Fikir qatarı!
Fikir şimşəyi!
Fikir zərbəsi!
Fikir çağırışı!
Təhlilə sığmayan fikir!
Təcrübəyə sığmayan fikir!
Ömrə calanan Fikir!
Fateh fikir!
Amiranə fikir.
Müstəbid fikir.
Öldürüb yenidən dirildən fikir!
Mütləqə qovuşduran fikir.
Özüylə aparan fikir.
Mütləqləşən fikir.
Qocalmayan fikir.
Qaranlığı yaran fikir.
Dalğalı fikir.
Peyğəmbər  fikir.
Müqəddəs fikir.

Ruhanı izhar.
Aşiq fikir.
Məşuqə fikir.
Fikir işığı.
Fikir oyunu.
Fikir sevdası.
Çılğın fikir.
Çaynaqlı fikir.
Sahib fikir.
Sədalı fikir.
İməkləmədən yeriyən fikir.
Həmişə qədim və həmişə yeni fikir.
Tufan kimi hayqıran fikir.
Vulkan kimi püskürən fikir.
Məhəbbətli fikir.
Şəfqətli fikir.
Xilaskar fikir.
İnadkar fikir.
Müqəddəs təsdiq.
Müqəddəs inkar.
Ruhun Mütləqə çatması.

## Vəcd

Şiddətli məftunluq!
Şiddətli coşqunluq!
Atəşin qiymət!
Atəşin ricət!
Atəşin tərənnüm!
Daşqın etiras!
Çılğın etiraf!
Həyəcanın ülviyyət məqamı!
Bədənin ruhani əsirliyi!
Sarsıdan həqiqət!
Sarsıdan məhəbbət!
Sarsıdan səadət!
Sarsıdan izhar.
Heyrət ildırımı!
Daxili hərarət ildırımı!
Müqəddəs şəfqət ildırımı!

Ruhani həyanlıq sığmazlığı!
Həssaslıq sığmazlığı!
Sarsılan söz!
Sarsılan səs!
Sarsılan ömür!
Duyğudan böyük duyğu!
Ülfətdən böyük ülfət!
Ürəyin təzə riqqəti!
Gözün təzə işığı!
Üzün yeni mənası!
Xeyirin yeni əzəməti!
Gözəlliyin yeni ləyaqəti!
Müqəddəs sərməstlik.
Müqəddəs iqtidarsızlıq.
Müqəddəs təzyiq.
Müqəddəs təqib.
Müqəddəs cəfa.
Müqəddəs yük.
Özünütanıma.
Mütləqəçatma.
Sevincə sığmayan sevinc.
Təlaşa sığmayan təlaş.
Mütləqləşən hissiyyat!
Mütləqləşən mənəviyyat!
Sonsuzluğa qovuşma!
Ruhanı sehr!

## Səcdə

Mütləq qiymət.
Mütləq mərifət.
Mütləq ləyaqət.
Mütləq inam.
Mütləq etiraf.
Mütləq səmimiyyət.
Balaca “mən“in ölümü.
Xudbinliyin ölümü.
Ruhani naşılığın ölümü.
Vəhşiliyin ölümü.
Özünü özündən böyükdə tapmaq.

İnsanilik.
Duyğu zirvəsi.
Sədaqət zirvəsi.
Təmənnasızlıq.
Şübhəsizlik.
Ruhani bilik.
Ruhani əzəmət.
Mütləq doğmalıq.
Mütləq övladlıq.
Mütləq rühani ucalıq.
Mütləq ruhani nəşə.
Müqəddəsliyin dərki.
İbadət saflığı.
Fədai həqiqəti.
Aşiq həqiqəti.
Ülvi tale.
Ülvi söz!
Ülvi məntiq!
Mütləq eşqi!
Ucalıq cəzbi.
Kamillik cəzbi.
Qədimlik cəzbi.
Əbədilik cəzbi.
Mütləqilik cəzbi.
Ulu yol!
Ulu nemət!
İnsanı anlamaq!
Dünyanı anlamaq!
Ruhani yetkinlik!
Ruhani ilkinlik.
Ruhani qanad.
Müqəddəs tələb.
Müqəddəs şərəf.
Müqəddəs çağırış.

## Ehtizaz

Mütləqə vurulmaq.
Atəşdə qovrulmaq.
Mütləqə qovuşmaq.

Coşqun zəka.
Unudulan bədən.
Titrək dodaq.
Böyüklük zəhmi.
Ucalıq zəhmi!
Kamillik zəhmi.
İdrakın məhvərindən çıxması.
Hissiyyat zəlzələsi.
Mütləq yanğısı!
Mütləq niskili!
Mütləq hökmü!
Müqəddəs seyr!
Ağılın ağıl səddini aşması!
Zəkanın zəka səddini aşması!
Ürəyin ürək səddini aşması!
Heyrətin heyrət səddini aşması!
Ruhun bədən səddini aşması!
Kədərin kədər həddini aşması!
Fərəhin fərəh həddini aşması!
Zamanın zaman həddini aşması!
Məkanın məkan həddini aşması!
İnsanın özündən kənara çıxması.
Gerçəyin gerçəklikdən kənara çıxması.
Nisbinin Mütləq həsrəti.
Ruhun ruhani həsrəti.
Qovuşma təlaşı!
Qovuşma atəşi!
Qovuşma intizarı!
Qovuşma intibahı!
Şiddətli istək.
Sonlunun sonsuz eşqi!
Qeyri-kamilin kamil eşqi!
Ölümlünün əbədi eşqi!
Adinin qeyri-adi eşqi!
Ruhani yük.
Ruhani yoxuş.
Ruhani sıçrayış.
Mahiyyətini tapmış gerçək.
Özünü tapmış ruh.
Amalını tapmış əməl.
Mənasını tapmış ömür.

Müqəddəs təzad əfsunu!
Müqəddəs vəhdət əfsunu!
Xalisləşmək əfsunu!
Mütləqləşmək əfsunu!

## Etiqad

Mütləq inam.
Mütləq özünütəsdiq.
Mütləq hökm.
Mütləq qanun.
Seçilmiş yol.
Seçilmiş tale.
Seçilmiş ömür.
İnam bəxtiyarlığı.
İnam vəfadarlığı.
İnam qəhrəmanlığı.
Amala vurulmaq.
Amaldan yoğrulmaq.
Tərəddüdün ölümü.
Xəyanətin ölümü.
Əbədi yolçuluq.
Əbədi doğruçuluq.
Müqəddəs bağçada bitmək.
Müqəddəs ağacda yetişmək.
Kamala yetmək.
Müqəddəs vahidlik.
Müqəddəs ardıcıllıq.
Müqəddəs sınaq.
Müqəddəs inad.
Müqəddəs əzab.
Müqəddəs tələb.
Yenidən doğulmaq.
Yuxudan ayılmaq.
İnsan sayılmaq.
And Müqəddəsliyi.
Qurban Müqəddəsliyi.
Dönməzlik!
Ölməzlik!
Qeyrətə çevrilən Həqiqət!

Ülfətə çevrilən Həqiqət!
Qanada çevrilən Həqiqət!
Həyata çevrilən Həqiqət!
Sevdaya çevrilən Həqiqət!
Səcdəyə çevrilən Həqiqət!

## Aşiqlik

Mütləq ruhani vəhdət.
Müqəddəs əsarət.
Xeyirin dərki.
Əbədinin dərki.
Kamilin dərki.
Sonsuzun dərki.
Mənəviyyatın ali zirvəsi.
Hissiyyatın ali zirvəsi.
Nisbidə Mütləqi görmək.
Cismanidə ruhu görmək.
Özünü itirmək ülviyyəti!
Özünü yenidən tapmaq ülviyyəti!
Mənəvi sədlərin ölümü!
Yadların ölümü!
Zahirlə batinin birliyi!
Pünhanla aşkarın birliyi!
İfadəylə mahiyyətin birliyi!
Təzahürlə mənanın birliyi!
İdrakla duyğunun birliyi!
Adiylə ülvinin birliyi!
Kədərin yeni mənası!
Sevincin yeni mənası!
Əzabın yeni mənası!
Nəşənin yeni mənası!
Həyatın yeni mənası!
Fəryadın yeni mənası!
Üzlərin yeni mənası!
Gözlərin yeni mənası!
Rənglərin yeni mənası!
Səslərin yeni mənası!
Həsrətin yeni mənası!

Dövrün yeni mənası!
Hicran hikməti!
Vüsal hikməti!
Ağıla sığmayan ağıl.
Duyğuya sığmayan ağıl.
Müdrikliyə sığmayan müdriklik.
Böyüklüyə sığmayan böyüklük.
Yanmaq həqiqəti.
Yandırmaq həqiqəti.
Aşiqanə bilik həqiqəti.
Aşiqanə ürək həqiqəti.
Aşiqanə kamal həqiqəti.
Aşiqanə iqbal həqiqəti.

# 4. RUHANİ MÖVCUDLUQ

## Zamandan Yüksək Yaşamaq

Zaman – məhdud, nöqsanlı, natamam keyfiyyətləri təsdiq edir.

Bu səbəbdən də insan zamandan yüksək yaşamalıdır.

Zaman nisbi məziyyətlərə tapınır.

Bu səbəbdən də insan zamandan yüksək yaşamalıdır.

Zaman qeyri-Mütləq niyyətləri həyata keçirir.

İnsanın Mütləq mahiyyəti həmin niyyətlərə sığmır.

Bu səbəbdən də insan zamandan yüksək yaşamalıdır.

Zaman insanı keçiciyə, maddiyə bağlayır.

Bu səbəbdən də insan zamandan yüksək yaşamalıdır.

Zaman qeyri-Mütləq idrak, mənəviyyat, hissiyyat normaları yaradır. İnsan mahiyyəti həmin normalara sığmır.

Bu səbəbdən də insan zamandan yüksək yaşamalıdır.

Zaman Mütləq paklıq tanımır. Lakin Mütləq paklıq olmadan insani mahiyyət təsdiq olunmaz. İnsanda Mütləq paklığa qarşısıalınmaz meyil var.

Bu səbəbdən də o, Mütləq paklığa can atır və zamanı üstələyir.

Zaman – Müqəddəsliyə çağırmır, insandan Müqəddəslik yüksəkliyi tələb etmir.

Lakin Müqəddəsliyə qovuşmadan insani mahiyyəti təsdiq etmək olmaz. Buna görə insan Müqəddəsliyə can atır və zamanı üstələyir.

Zaman – insandan mütləq mənada ülvi mənəviyyat tələb etmir.

Lakin mütləq mənada ülvi mənəviyyata yüksəlmədən insani mahiyyəti təsdiq etmək olmaz.

Bu səbəbdən də insan ülviyyətə can atır, mənəviyyatını çirkabdan təmizləyir və zamanı üstələyir.

Zaman – insandan mütləq mənada ədalətli olmağı tələb etmir.

Lakin Mütləq ədalət olmayan yerdə ruhani mahiyyət yoxdur.

Bu səbəbdən də insan Mütləq ədalətə can atır və zamanı üstələyir.

Zaman – insandan mütləq mənada həqiqətçi olmağı tələb etmir.

Ancaq Mütləq həqiqətə tapınmayan insan özünə çata bilməz.

Bu səbəbdən də o, Mütləq həqiqətçi olmağa can atır və zamanı üstələyir.

Zaman – insandan mütləq mənada məhəbbətli olmağı tələb etmir.

Lakin Mütləq məhəbbətə nail olmadan insan öz mahiyyətini təsdiq edə bilməz.

Bu səbəbdən də insan Mütləq məhəbbətə can atır və zamanı üstələyir.

Zaman – insandan mütləq mənada fədakar olmağı tələb etmir.

Lakin Mütləq fədakarlıq olmayan yerdə ruhanilik də yoxdur.

Bu səbəbdən də insan Mütləq fədakarlığa can atır və zamanı üstələyir.

Zaman – İnsandan Mütləq qəhrəmanlıq tələb etmir.

Lakin Mütləq qəhrəmanlıq İnsani Mahiyyətin müqəddəs təzahürlərindən biridir, buna görə də insan ona can atır və zamanı üstələyir.

***İnsan həyatının daxili mənası mövcudluğun mahiyyətə bərabər olmasıdır.***

***Bu ruhani məna insanı zamandan yüksək yaşamağa vadar edir.***

Zaman – insanı özündən aşağı, məhdud, balaca, adi yaşamağa çağırır, ancaq insan zamanın çağırışını eşitmir, ruhun çağırışını eşidir. Lakin zaman həm də insanın Mütləq mövcudluğuna mane olur və insanla zaman arasında düşmənçilik yaranır, insan zamanla döyüşməli olur. Zaman insanın Mütləqə ucalmaq arzusunun qarşısında durur.

Bununla da o, insanın ruhani mahiyyətinə qarşı çıxır. İnsanla zaman arasında uçurum yaranır.

Zaman – insana yalnız nisbiylə kifayətlən – deyir, Mütləq pisdir – deyir. O, insana Mütləqə can atmağı qadağan edir və bununla da insanın ləyaqətini tapdayır. Bu cəhətdən zaman insanı heç vaxt anlamır, onun zamandan ali, zamandan böyük mənasını dərk etmir.

***Zaman – insanı zaman çərçivəsində qavrayır.***

***İnsanın zamanla döyüşü – insan mahiyyətinin zaman çərçivəsindən kənarda olduğunu göstərir.***

Ruhani mahiyyət Mütləq mənada kamil mövcudluq tələb edir. Zaman isə ən yaxşı halda nisbi mənada kamil mövcudluq yarada bilir və həmin mövcudluğu yeganə insani mövcudluq sayır. Bu, bütün zəmanələrin ən böyük səhvi olmuşdur. Nisbi olduğu halda, zaman nədənsə özünü Mütləq saymış, qeyri-kamil olduğu halda nədənsə özünü kamil saymış, sonlu olduğu halda, nədənsə özünü sonsuz saymışdır.

İnsan zamanın iddialarını qəbul etmir, onun sədlərinə, sərhədlərinə sığmır, ondan yüksəyə qalxır.

Zamana sığan mövcudluq əsil mövcudluq olmur.

Nisbi mənada xeyirli hadisələr törədən zaman həm də eybəcər, naqis hadisələr doğurur. Zaman yalanı dəhşət saymır, qəddarlığı,

vəhşiliyi, dəhşət saymır, onları ittiham edəndə belə, tam rədd etmir. Əslində zamanın məqsədi – olanı təsdiq etməkdir. İnsan isə ən cüzi yalanı, ən cılız görünən ədalətsizliyi, çirkinliyi dəhşət sayır. Çünki həyata Mütləqin gözüylə baxır. Bu cəhətdən zamanla həmahəng olan mövcudluq əslində şərlə, antiinsaniliklə, heyvaniliklə həmahəng olan mövcudluqdur.

***Zamandan yüksək yaşamadan insan kimi yaşamaq olmaz. Zaman insandan aşağıdır, çünki insan ruhanidir.***

## Məkandan Yüksək Yaşamaq

İnsan cismən ən məhdud, kiçik məkana sığır. Ancaq fikrən, ruhən ən geniş, ən böyük məkana sığmır.

Buna görə də o, məkandan yalnız cismani mənada asılı olur. İnsan ömrü boyu bir evdə, bir şəhərdə, bir yerdə yaşaya bilər. Ancaq düşüncəsiylə, arzusuyla, duyğularıyla həmin evə, həmin şəhərə, həmin yerə sığmaz. Buna görə də o, həmin evdən, şəhərdən, yerdən yalnız cismani mənada asılı olur. İnsan yaxında mövcud olur, ən çox yaxınlıqda ünsiyyət yaradır, ancaq yaxınlığa sığmır, ruhani ucalığa can atır. Buna görə də o, yaxınlıqdan yalnız nisbi mənada asılı olur. İnsan məhdudda, kiçikdə geniş və böyük mahiyyət kəşf edir, evində, torpağında, şəhərində, qeyri-adi, müqəddəs, sonsuz, əbədi məna tapır. Bu səbəbdən də o, gördüyündən yalnız nisbi mənada asılı olur, ***görünəndən daha çox görür***. İnsan müəyyən bir ölkədə yaşayır, ancaq həmin ölkədə dünyanın rəmzi mənasını tapır, buna görə də o, ölkənin vətəndaşı olduğu dərəcədə dünyanın vətəndaşı olur, öz ölkəsini sevdiyi dərəcədə dünyanı sevir. Həyat insana məkan daxilində yaşamaq imkanı verir. Ancaq insan bu imkanla kifayətlənmir, məkandan yüksək yaşayır.

Bu o deməkdir ki, onun duyğuları məkana pərçimlənən duyğular olmur, ondan böyük, ali duyğular olur.

O, yalnız məkan çərçivəsinə sığanı sevmir, dünyanı, bəşəri, təbiəti sevir.

Bu o deməkdir ki, o, özünün məkanla vəhdətini məhdud keyfiyyət sayır, ondan daha böyük vəhdət arayır və tapır. Dünyayla vəhdət ucalığına çatır.

Bu o deməkdir ki, onun sevinci, kədəri, məhəbbəti, nifrəti məkan həddi tanımır.

Bu o deməkdir ki, insan dünyanı gəzməsə də, tanıyır, çünki onu ruhunda gəzdirir.

Bu o deməkdir ki, insan məkanın məntiqini qəbul etmir.
Məkana uyğun olan həqiqət yoxdur.
Məkana uyğun olan ədalət yoxdur.
Məkana uyğun olan gözəllik yoxdur.
Məkana uyğun olan mənəvi kamillik yoxdur.
Məkana uyğun olan ülvilik yoxdur.
Məkana uyğun olan əsil insani ləyaqət yoxdur.
Məkana uyğun olan əsil insani niyyət yoxdur.
Mənəviyyatın ilkin, əzəli məqsədi – məkan məntiqindən yüksəyə qalxmaqdır.
Məkan insana deyir ki, sənin dünyan mənəm, sənin mövcudluğun mənimlə başlayır və qurtarır.
İnsan məkana deyir ki, mənim dünyam sən deyilsən, o səndən hədsiz dərəcədə genişdir, böyükdür, ucadır, sən mənim cismimin dünyasısan, ruhumun dünyası deyilsən!
Məkan insana deyir ki, sən mənə xidmət etməlisən!
İnsan məkana deyir ki, mən sənə yox, sonsuza, kamilə, əbədiyə xidmət üçün həyata gəlmişəm.
Məkan insana deyir ki, sənin qeyri-kamilliyin, naqisliyin səni mənim ixtiyarıma verir.
İnsan məkana deyir ki, sənin ixtiyarında olan cismimdir, ruhum sənin ixtiyarında deyil, o, məni daim kamilləşməyə, naqisliyimdən ayrılmağa sövq edir və sənin hökmünü rədd edir.
Məkan insana deyir ki, sənin bəxtiyarlığın, qələbələrin, özünütəsdiqin məkan daxilində yaranır.
İnsan məkana deyir ki, mənim bəxtiyarlığımın, qələbələrimin, özümü təsdiqimin mənası məkandan artıqdır, onlar məkanda baş verirlər, ancaq məkandan böyükdürlər.
Məkan insana deyir ki, insani məziyyətlərin səddini təyin etmişəm, nə qədər çalışsan da, onları aşa bilməyəcəksən.
İnsan məkana deyir ki, mən həmin sədləri aşıram, çünki mahiyyətimdə Mütləqilik var.
Məkan insana deyir ki, sən bədənindən aralana bilməzsən, bədən isə məndə yaşayır, mənimkidir.
İnsan məkana deyir ki, bədənim ruhumdan aşağıdır, o, məni ifadə eləmir, bu səbəbdən də mən səndə olsam da, səninki deyiləm.
Məkan insana deyir ki, Vətən müqəddəsliyində mənimlə bir olursan.
İnsan məkana deyir ki, Vətən müqəddəsliyində mən səni məhdud mövcudluğundan ayırıram, sənə sonsuzluq, kamillik, əbədilik bəxş edirəm, səni özündən yüksəyə qaldırıram.

Məkandan yüksəkdə yaşayan zəka – sonsuzu, kamili, əbədini kəşf edir.

Məkandan yüksəkdə yaşayan mənəviyyat – sonsuz, əbədi kamilliyə can atır.

Məkandan yüksəkdə yaşayan hissiyyat – müqəddəs duyğular doğurur.

Məkandan yüksəkdə yaşayan iradə – sonsuz, əbədi, kamil Amala xidmət edir.

***Məkandan yüksəkdə yaşamaq – ruhani yüksəklikdə yaşamaq deməkdir.***

## Gerçəklikdən Yüksək Yaşamaq

Gerçəklik nöqsanlını kamil kimi qələmə verir.

Gerçəklik keçicini sonsuz kimi qələmə verir.

Gerçəklik ölümlünü ölümsüz kimi qələmə verir.

Gerçəklik insanı aldadır.

İnsan gerçəkliklə döyüşür.

İnsan gerçəkliyin yalanını rədd edir.

İnsan gerçəkliyin tələbini eşitmir, onun məntiqinə inanmır. İnsan gerçəkliyə deyir ki, sənin həqiqət kimi təqdim etdiyin həqiqət deyil, ülviyyət kimi təqdim etdiyin ülviyyət deyil, zirvə kimi təqdim etdiyin zirvə deyil; sən mənim üçün azsan. Mən sənin həqiqətindən, ülviyyətindən, zirvəndən daha yüksək həqiqət, ülviyyət və zirvə yarada bilərəm.

Mən sənə bənzəmək üçün yox, səni təkrar etmək üçün yox, səndən yüksəyə qalxmaq, səndən yaxşısını yaratmaq üçün dünyaya gəlmişəm.

Çünki mən ruhani xilqətəm və mənim mahiyyətimdə Mütləq yaşayır. Mən sənin daxilində yaşasam da, səndən yüksəkdə yaşayıram. Sənin nöqsanlı kamilliyin mənim üçün azdır və mən əsil sonsuzluq yaradıram; səndən fərqli, səndən uca yaşayıram.

İnsan öz həyatıyla gerçəkliyə deyir ki, mən sənin normaların əsasında ömür sürmürəm, sənin təsdiq etdiyin nisbi kamillik, nisbi xeyir, nisbi saflıq mənim üçün azdır. Mən Mütləq mənada xeyirli, saf, qüdrətli ömür sürmək üçün dünyaya gəlmişəm. Bunu məndən ruhani mahiyyətim tələb edir. Nisbi məziyyətlərlə kifayətlənsəydim, öz mahiyyətimin əksinə çıxardım. Mahiyyətimə bərabər yaşamaq üçün mən səndən yüksəkdə yaşamalıyam.

İnsan öz həyatıyla gerçəkliyə deyir ki, mən səndə tam özüm ola bilmirəm, özümü tam aşkara çıxara bilmirəm, sən isə mənim bu halımı zirvə kimi təqdim edirsən və bununla da mənim əsil mənliyimi gizlədirsən.

Sən mənə nisbi mənada yaxşı ol deyirsən, mən Mütləq mənada saf olmağa can atıram.

Sənin məntiqinə görə – mən ölümlüyəm, ona görə də özümün qeyri-kamilliyimlə barışmalıyam.

Mən həmin məntiqi rədd edirəm: Ölümlü mənim bədənimdir, ölümsüz əməllər – ölümsüzlüyümdür!

Sənin məntiqinə görə – mən əzəli mənada nöqsanlıyam, təbii şəkildə naqisəm və bu zəruriyyətlə barışmalıyam.

Mən həmin məntiqi qəbul etmirəm, Mütləq mənada kamil olmağa çalışıram.

Sənin məntiqinə görə – qüdrətim hədd tanıyır və mən bu zəruriyyətlə razılaşmalıyam.

Mən bu məntiqi inkar edirəm və qüdrətimin Mütləq səviyyəsinə çatmaq istəyirəm.

Gerçəklik insana deyir ki, məziyyətlərini, ideallarını, niyyətlərini mən yaratmışam.

İnsan gerçəkliyə deyir ki, məziyyətlərimi, ideallarımı, niyyətlərimi sən yox, ruh yaradıb və buna görə də onlar səndən artıq, böyük və kamildirlər.

Arzularımın həyata keçməsi də səndən yox, mənim Mütləqə yaxın olmağımdan asılıdır.

Mənim qələbəmi, nailiyyətimi şərait yaratmır, ona sığmayan ruhani qüdrət yaradır.

***Ruh şəraitin havasına oynamır, şərait ruhun havasına oynayır.***

Gerçəklik insana deyir ki, ideyaları, mənəvi imperativləri mən yaradıram, sən mənim yaratdığımın hökmüylə yaşayırsan. İnsan gerçəkliyə deyir ki, ideyaları, mənəvi imperativləri sən yaratmırsan, bu sənin xülyandır. Onları mənim ruhum, Mütləq mahiyyətim yaradır, bu səbəbdən də onlar səndən yüksəkdirlər.

Gerçəklik insana deyir ki, müqəddəsliyin, ülviliyin mənim məhsulumdur, səndə nə varsa – mənimdir, sən mənsən, bundan artıq bir şey deyilsən!

İnsan gerçəkliyə deyir ki, mənim ülviliyim – səndən yüksəyə qalxmağımdır, mənim müqəddəsliyim – səndən yüksəyə qalxmağımdır. Mənim insani özünəməxsusluğum bir də ondadır ki,

mən sən deyiləm, sənin səviyyənə enəndə, səninlə kifayətlənəndə özüm olmuram.

Gerçəklik insana deyir ki, mən əsasam, birinciyəm, sən əsas deyilsən, ikincisən, mən işığam, sən mənim işığımla işıqlanırsan, ancaq bunu öz işığın sayırsan, mən sənsiz varam, sən mənsiz yoxsan.

İnsan gerçəkliyə deyir ki, insaniliyim – ruhaniliyimdədir, ruh isə səndən artıqdır, böyükdür, yüksəkdir. Bu səbəbdən də sən mənim həyatımın əsası ola bilməzsən. Ruhani mövcudluq gerçək mövcudluqdan alidir.

Gerçəklik insana deyir ki, sən Mütləqləşə, Müqəddəsləşə bilməzsən, çünki mənə bərabərsən.

İnsan gerçəkliyə deyir ki, sənə uyğunlaşmağım mənim zəifliyim, tərəddüdüm, miskinliyim, yanlışlığımdır. Qüdrətim – səndən yüksəyə qalxmağımdır.

Gerçəklik insana deyir ki, məndən kənarda tapdığın nə varsa, əfsanədir, var olan yalnız mənəm.

İnsan gerçəkliyə deyir ki, səndə olan – varlığın cüzi, natamam, adi, bəsit ifadəsidir, əsil həyat səndən yüksəkdədir. Səndən yüksək yaşamaq – Mütləq mənada yaşamaq deməkdir.

Yalnız Mütləq mənada yaşayan – insan kimi yaşayır.

## Özündən Yüksək Yaşamaq

Sən, insan, özün olmaq üşün, özünə çatmaq üçün özündən yüksəyə qalxmalısan!

Çünki necə varsansa – azsan, mahiyyətdən aşağısan, məhdudsan, özündən uzaqsan.

Çünki sənin gerçək mövcudluğun sənin Mütləq mövcudluğundan hədsiz dərəcədə aşağıdır. Çünki sən öz gerçək mövcudluğunda nöqsanlısan, sonlusan. Bu səbəbdən də özünlə kifayətlənə, özündə dayana, qala bilməzsən. Sənin daxili dünyanda yırtıcılıq, vəhşilik yaşayır. Bu ehtirasla sən özünə çata bilməzsən. Həmin antiruhani ehtirası qəlbindən silməsən – özün olmazsan!

Özün olmaq üçün – özündən böyük olmalısan!

Özündəki yırtıcılığı öldürməlisən.

Sənin daxilində şəhvanilik murdarlığı var! Onu qəlbindən silməsən – özünə çatmazsan.

Sənin mənəviyyatında həsəd yaşayır. Onu qəlbindən silməsən – özünə çatmazsan!

Sənin həyatında hərcayilik, şöhrətsevərlik qadası var. Onu daxilindən qovmasan – özünə çata bilməzsən!

Sənin ömründə gerçəkliyə pərçimlənmə zəifliyi var. Həmin zəifliyi dəf etmədən özünə çatmazsan!

Qorxuya baş əyənsən, ona görə də özündən uzaqsan.

Qorxu tabeliyindən azad olmadan özünə çata bilməzsən!

Daxilində xudbinlik çirkinliyi gəzdirirsən.

Xudbinliyi öldürməsən, özünə çata bilməzsən!

Fatehlik, hakimlik cəzbinə uyansan, məst olansan!

Bu cəzbdən ayrılmasan, özünə çatmazsan!

Səndə cəlladlıq, qəddarlıq ehtirası böyükdür. Onu məhv etməsən, özünə çata bilməzsən!

Sən zora əyilənsən, zordan sarsılansan! Bu qəbahəti daxilindən silmədən – özünə çata bilməzsən!

Keçiciyə, ölümlüyə, nöqsanlıya aludəsən – sonsuza, əbədiyə, kamilə biganəsən.

Əzəli naşılığından ayrılmasan – özünə çata bilməzsən!

Maddiyyatı ruhanilikdən üstün tutmusan, özünü unutmusan, özünə yad olmusan!

Özünə çatmaq üçün maddiyyat xurafatından ayrılmalısan!

Məhəbbətli olmusan – məhəbbətə çatmamısan.

Ədalətli olmusan – ədalətə çatmamısan.

Ülviyyətli olmusan – ülviyyətə çatmamısan.

Həqiqətli olmusan – həqiqətə çatmamısan.

İdeallı olmusan – ideala çatmamısan.

Böyük olmusan – böyüklüyə çatmamısan.

Özündən aşağı yaşamısan!

Müqəddəsliyi bəsitlik çirkabına bulamısan, tam müqəddəs olmamısan. Özünə çatmamısan.

Eybəcərliyin Gözəllik biçiminə, Şərin Xeyir biçiminə uymusan. Mütləq Müdrikliyə yüksəlmədən, özünə çata bilməzsən! Mütləq dözüm, Mütləq mətanət, Mütləq İnam səviyyəsinə qalxmamısan. Bunsuz sən özünə çatmazsan! Bir sözlə, indiyə qədər sən nisbi yaşamısan, deməli, yaşamamısan. İnsan kimi yaşamaq üçün özünü inkar etməlisən, rədd etməlisən və yenidən yaratmalısan! Özünü təsdiq etmək üçün özündən imtina etməlisən!

## Ölümdən Yüksək Yaşamaq

Ölümün məqsədi İnsanı heçə çevirməkdir.

İnsanın məqsədi ölümü dəf etməkdir.

Ölüm insanı cismani varlıq kimi tanıyır və öldürür. İnsan ***ruhani varlıq kimi*** ölümə qalib gəlir.

Ölüm dünyanın yaratdıqlarını məhv edə bilir, insanın yaratdıqlarını məhv edə bilmir.

***Ölüm maddinin qənimidir, ruhaninin qənimi ola bilmir.***

Maddi ölümə tabe olur, ruhani ölümə tabe olmur. Ruhanilik – ölümsüz mövcudluq yaradır.

***İnsan ölümdən sonra yaşaya bilir,*** çünki yaratdıqları maddiyyat çərçivəsinə sığmır.

Cismanidə mənəvi yaşayır.

Mənəviyyat ölmür, çünki cismanidən yüksəkdir.

Gerçəklik maddiyyat çərçivəsində dayanır, buna görə də ölümlüdür.

Mənəviyyat gerçəklik səddini keçir.

Bu səbəbdən də mənəvi olmaq **–** əbədi olmaqdır.

İnsani hissiyyat – ülviyyət səviyyəsinə qalxır, heyvaniliyin üzərində yüksəlir, buna görə də ölmür.

İdrak gerçəklikdən ucadır, buna görə də ölümsüzdür. Xeyir ölümsüzdür, çünki maddi gerçəklikdən artıqdır. Gözəllik ölümsüzdür, çünki cismaniliyin ruhanilik rəmzinə çevrilməsidir.

Əsil sevinc ölümsüzdür, çünki maddi gerçəklikdən yüksəkdir!

Fədakarlıq ölməzdir, çünki maddi gerçəklikdən yüksəkdir!

Qəhrəmanlıq ölməzdir, çünki burada cismanilik ruhaniliyə qurban verilir.

Məhəbbət ölməzdir, çünki şəhvaniliyin ölümüdür!

Həqiqət ölməzdir, çünki yalanın ölümüdür!

***Ölməzlik əslində insaniliyin ikinci adıdır!***

İnsan maddiyyata pərçimlənəndə, maddiyyata çevriləndə, əşyalaşanda, güzəranlaşanda, mühitləşəndə, zamanlaşanda – ölür.

***Ölmək** – **naqis yaşamaqdır!***

Ölüm sübut etmək istəyir ki, insanın həyatı puçdur, o, dünyaya ölmək üçün gəlib, onun yaşaması mahiyyət etibarilə ölümə hazırlanmasıdır.

İnsan ölümə sübut edir ki, o, dünyaya əbədi yaşamaq üçün gəlib, o, ölmür, çünki cismanidən artıqdır.

Ölüm insana başqa varlıqlara baxan kimi baxır.

İnsan həmin baxışı rədd edir, özünə yeni, fərqli baxımdan yanaşmağı tələb edir.

***Ruhani xilqət olan İnsan ölümü öldürür!***

***Köçəri ayı, 4-cü il.***
***(Fevral – 1983).***

# H Ə Y A T

# 1. HƏYATİLİK

***Həyat – maddinin, cismaninin ruhaniləşməsidir.***

Buna görə də o, əşyavariliyə və vəhşivariliyə ziddir.

Əşyavarilikdə insan maddiyyat səviyyəsinə enir.

Vəhşivarilikdə o, heyvanat səviyyəsinə enir.

Hər ikisində yaşayış ruhanilikdən məhrum olur.

***Əşyavarilikdə*** insan cansızlaşır, ***əşyalaşır,*** özünə sahib olmur, özündən kənardakından, özünə yaddan asılı olur, şəraitin, cəmiyyətin alətinə çevrilir, istənilən şəklə salınır, oynadılır, özümsüzləşdirilir, yaşamadan öldürülür, düşüncələrində, duyğularında, hərəkətlərində ***zəruriyyət, labüdlük adlanan məhdudiyyətə pərçimlənib qalır.***

***Əşyavarilikdə*** insan mahiyyət etibarilə cansızların heç birindən fərqlənmir, zəruriyyət küləyinin təsiriylə titrəyir, yaxud qırılır, zəruriyyət çayının selinə qərq olur, zəruriyyət şimşəyinin zərbəsindən sarsılır.

***Əşyavarilikdə*** insan taleyini qeyri-Ruhani amillər həll edir. İnsan ruha yox, cismə xidmət edir, cismanilik insana sahib olur, onu istədiyi səmtə sürükləyir, istədiyi kimi yaşadır. Cismaninin hökmü insanı cansızlaşdırır, çünki ***canlı olmaq özünə sahib olmaqdır.***

Əşyavarilikdə cismani tələbat insanı öz əsarətinə salır, insan onun müstəbid ağalığını qəbul edir; insan sürülür, sürünür, onda insanilikdən əsər-əlamət qalmır, ancaq yoxluq varlıq sayılır.

***İnsan əşyalara sahib olmaq vasitəsiylə əşyalaşır,*** çünki əslində o, əşyaya yox, əşya ona sahib olur. Çünki əşyaya sahib olmaq üçün o, əşyanın hökmünə baş əyməlidir, bu hökmün əsasında hərəkət etməli, bu hökmə tabe olmalıdır. Maddiyyat əsasında yeni əşya yaradanda da insan əşyavarilikdən xilas olmur. Çünki burada da o, ağlını, iradəsini maddiyyat qanunlarına tabe edir, həmin qanunlar əsasında fəaliyyət göstərir. Digər tərəfdən, insan ruhani varlıq olduğundan özünü əşyada tapa bilməz. Əşya yaratmaq – zəruri bir ehtiyacdır, amma insanın mahiyyətini ifadə etmək qüdrətinə malik deyil.

***Əşyavarilik cəmiyyətdə rəis–tabeçi, hökmdar–rəiyyət, yuxarı pillə–aşağı pillə münasibətlərində də təzahür edir.***

Çünki burada başda oturan ayaqda oturana sahib olur, onun iradəsini əlindən alır, insani bütövlüyünü rədd edir, ictimai məntiq hökm-tabe münasibətindən kənarda heç nə görmür: kim olursan ol, hansı şəxsi insani məziyyətlərə malik olursan ol, sən, özündən

yuxarıdakından asılısan, onun əmrini yerinə yetirməlisən, sahibliyini qəbul etməlisən.

***Bu cəhətdən, insanı hökm–tabe münasibətlərində tanımaq – tanımamaqdır.***

***Yalançı dostluqda, yalançı məhəbbətdə, yalançı valideynlikdə, yalançı övladlıqda əşyavarilik parlaq şəkildə meydana çıxır.***

Əgər övlad valideynə zorla, yaxud üzəvari hörmət eləyirsə, o, əşyalaşmışdır. ***Onu həmin süni hörmət əşyaya çevirmişdir.*** Əgər dostlar arasında ruhani bağlılıq yoxdursa və dostluq davam edirsə, həmin dostluqda adamlar əşyalaşmışlar. Onların münasibəti cansız, əşyavari münasibətdir. Əgər ailədə mənəvi vəhdət yoxdursa, ancaq intim əlaqə davam edirsə, deməli adamların bir-birinə əşyavari münasibəti bərqərar olub, onlar bir-birinə əşya kimi baxır, bir-birindən əşya kimi istifadə edirlər.

Əşyavarilikdə cismani ruhaniləşmir, əksinə, ruhani varlıq olan insan cismaniləşir.

Bu baxımdan əşyavarilikdə həyatilik yoxdur.

***Vəhşivarilik –*** insanın heyvani münasibətlər, ehtiraslar, hərəkətlər səviyyəsinə alçalmasıdır. Burada canlılıq heyvanlıq dairəsindən kənara çıxmır. Burada canlılıq var, ancaq ruhanilik yoxdur.

***Şəhvət ehtirasının*** iradə bəndini aşması – insanın süqutudur. Çünki burada heyvani ehtiras insana hakim olur. Bu cəhətdən, vəhşivarilik mahiyyət etibarilə əşyavariliyə doğmadır. Burada da insan əşyalaşır, yəni kölələşir. Burada da insan özünə sahib olmur, heyvanlıq insanlığı əsir edir.

Qəddarlıq, cəlladlıq, qatillik – "canlı" duyğulardır. Ancaq bu canlılıqda insanın ruhani xislətinin ölməsi var.

Əgər insan heyvana oxşayırsa, o, ölüdür, çünki qeyri-ruhanidir. Bu cəhətdən, ***qəddarlıq*** da əslində əşyavarilikdir, heyvanlığın adama sahib olmasıdır.

***Zora arxalanmaq*** ruhaniliyin ölümüdür, bu səbəbdən də əşyavarilikdir. Zorda insan heyvana baş əyir. Zorda insan ruhani xislət kimi heç nə qazanmır, heyvan kimi qazanır, heyvanın məntiqinə tabe olur, ona sığınır. Burada heyvan qələbə çalır – insan yox.

***Qorxu –*** güclü duyğudur***,*** ancaq insanın heyvanla bərabərləşməsinə dəlalət edən duyğudur, çünki qorxunun arxasında heyvani özünümühafizə durur.

Qorxaq adam – özünü heyvan kimi mühafizə edir, insan kimi təsdiq etmir.

***Xudbinlik*** – heyvaniliyin təsdiqidir, çünki heyvan üçün ***başqası*** yoxdur.

Heyvan üçün dünya özündə başlayır və özündə qurtarır. Heyvan özü üçün yaşayır və həmişə yalnız özünü düşünür.

***Hərislik*** – fəal duyğudur, ancaq insan üçün ölü duyğudur, çünki adamla heyvanın oxşarlığını sübut eləyir, hərislikdə adam heyvani ehtirasın qulu olur.

***Kin*** – son dərəcə davamlı, ardıcıl duyğudur, ancaq onun arxasında heyvani bir ehtiras: məhv etmək, parçalamaq, paralamaq, yerlə yeksan eləmək arzusu dayanır.

***Müstəbidlik*** – insan iradəsinin təsdiqi kimi görünə bilər. Əslində isə o, qeyri-ruhani hadisədir; insanları heyvan sürüsü səviyyəsində, asılı, kölə vəziyyətində görmək, oyuncağa çevirmək, heç eləmək meylidir.

Müstəbid, insana heyvani münasibət bəsləyir.

***Müharibə*** – igidlik meydanı olmaqla bərabər, həm də dəhşətli heyvanlaşma, heyvani ehtiraslara qapılma, insana heyvan kimi baxma meydanıdır.

Müharibədə insan iki mənada ölür: insanı öldürür, unudur ki, bu – insandır, məhəbbətlidir, Mütləqlidir, ruhludur; digər tərəfdən, o, özünü ruhani varlıq kimi öldürür – heyvani fəaliyyəti həyata keçirir.

***Fateh*** – dünyaya sahib olmadığı kimi, özünə də sahib olmur, heyvaniliyə tabe olur, heyvaniliyi təsdiq edir; – zora, qəddarlığa, cəlladlığa arxalanır.

***İrqçilik*** – bir irqi hər şey, başqa irqləri heç şey sayırsa da, əslində qatı heyvanilik – başqasını görməmək, itirmək, öldürmək – arzusunu ifadə edir.

***İrqçi*** – insanlara heyvani münasibət bəsləyir. Heyvan üçün başqa heyvanlar artıqdır. İrqçi üçün başqa insanlar artıqdır.

Əxlaq bəndini aşan "mənəviyyat zəncirini qıran" "fövqəlinsan" əslində heyvaniliyin təsdiqidir, çünki heyvanilikdə mənəviyyat yoxdur.

***Mənəviyyat insanın özünə sahib olmasıdır.***

***Mənəviyyatsızlıq – heyvanın insana sahib olmasıdır.***

Başkəsənlərin "günahsız vicdan səviyyəsi" – əslində heyvanların yüksək heyvani səviyyəsidir. Heyvana çevrilən "fövqəlinsan" əslində cansız əşyadır. Nitsşeçilərin tərifli "fövqəlinsan"ı heyvani ehtirasların əlində oyuncağa çevrilmiş kölədir.

***Mütləqsizlik – vəhşilikdir.***

***Heyvanın Mütləqi yoxdur.***

Bu cəhətdən, Mütləqə inanmamaq – dünyaya heyvan gözüylə baxmaqdır.

***Mənfəətpərəstlik*** heyvanilikdir, çünki heyvan üçün dünyada mənfəətdən kənar heç nə yoxdur. Heyvanın dünyaya münasibəti – sırf təmənnalı münasibətdir. Mənfəətpərəstlər dünyaya vəhşi münasibət bəsləyirlər.

Müqəddəsliyə inanmamaq – heyvaniliyi təsdiq etməkdir, çünki heyvan üçün müqəddəs heç nə yoxdur. Müqəddəsliyi inkar eləyən özünün heyvandan fərqli olmasını inkar eləyir.

Həyat əşyavariliyi və vəhşivariliyi tam aradan qaldıra bilmir, çünki o, ruhaniliyin mütləq təsdiqi deyil, cismaniliyin ruhaniləşməsidir.

Ruhun qələbəsi həyatda baş vermir, ***Ali Həyatda*** baş verir. Həyat əşyavariliyin və vəhşivariliyin aradan qalxmasına çalışır, onun istiqaməti, mənası, mahiyyəti bununla bağlıdır.

Həyat maddini maddi vəziyyətində, cismanini cismani vəziyyətində qalmağa qoymur, onlara ruhani siqlət, qüdsiyyət, ucalıq verməyə çalışır.

Bu səbəbdən də o, əşyavariliklə, vəhşivariliklə döyüşür, onlara ciddi zərbələr vurur, ancaq dünyadan qova bilmir, çünki həyat özü tam Ruh ola bilmir.

Həyatiliyin xüsusiyyəti, imkanları və məhdudluğu bundadır. Bu cəhətdən, həyat nə qədər gözəl, cazibəli, məzmunlu görünsə də, əslində azdır; o, özündən böyük, kamil, ülvi olan ali həyatı hazırlayır.

Həyat Antihəyat ilə Ali Həyat arasında körpüdür. Həyat maddiyyatla, cismaniliklə kifayətlənmir, onları ruhaniləşdirir.

Ancaq maddiyyatın, cismaninin mütləq ruhani səviyyəsini biz yalnız Ali Həyatda görürük.

Maddiyyatın ruhaniləşməsi hadisəsi Həyatdan başlayır – Ali Həyatda başa çatır.

# II. ANTİHƏYAT

## İnsansızlıq

Can var, cəsəd var, əl var, göz var – ancaq insan yoxdur, çünki cana, cəsədə, ələ, gözə ***insandan kənar iradə*** hakim olub.

Can sənin deyil, çünki onun aqibəti özgə qüvvədən asılıdır; göz sənin deyil, çünki sən dünyaya öz gözünlə baxmırsan; əl sənin deyil, çünki əslində onu səndən kənardakı ***iradə*** işlədir.

Sən sən deyilsən, sən ***möhtəşəm iradənin*** təzahürüsən. Canın var, fəqət cansızsan; gözün var, fəqət gözsüzsən; varsan, fəqət yoxsan. Ağlın var, ürəyin var, ancaq özün yoxsan. Çünki ağlını, ürəyini əlindən alıblar; çünki dünyaya öz ağlınla yanaşmırsan, İradənin ağlıyla yanaşırsan; çünki duyğularını ifadə etmirsən, İradənin arzusunu ifadə edirsən. Öz insani iradən olsa da, əslində iradəsizsən, çünki taleyini İradəyə tapşırıblar.

Ömürlüsən, həm də ömürsüzsən. Çünki günlərini, aylarını İradənin sərəncamına vermisən.

Azad görünürsən, ancaq dünyadan hədsiz dərəcədə asılısan: dünya nemətləri səni sənin əlindən alıb.

Ruhlusan, ancaq bədənə qulluq edirsən, ruhsuzluq bəlasına düçar olmusan, bədənə çevrilmisən, bədəndən ibarət olmusan.

Gözəlliyi görmürsən, Xeyiri sevmirsən, çünki özündə deyilsən, maddiyyata pərçimlənmisən.

İnsanlısan, həm də insansızsan, çünki ürəyinin qapısını insanın üzünə bağlamısan, özündəki insanı itirmisən.

Danışırsan, fəqət danışmırsan, çünki yalana tapınmısan; sevinirsən, fəqət sevinmirsən, çünki yalana tapınmısan; qəmlənirsən, fəqət qəmlənmirsən, çünki yalana tapınmısan; sevirsən, fəqət sevmirsən, çünki yalana tapınmısan.

Dünya məhvərindən çıxır – barışırsan; qan tökülür – barışırsan; ləyaqət tapdanır – barışırsan; qəbahət dünyanı tutur – barışırsan, həyatın ahəngi pozulur – barışırsan. Çünki ruhani xislət kimi yoxsan.

***Tərəqqi*** insan üçün yox, insan tərəqqi üçün olanda – Antihəyat yaranır!

***İqtisadiyyat*** insan üçün yox, insan iqtisadiyyat üçün olanda – Antihəyat yaranır!

***Maddiyyat*** inkişaf meyarına çevriləndə – Antihəyat yaranır..

***Dövlət*** insana yox, insan dövlətə həsr olunanda – Antihəyat yaranır.

***Hakimlik*** İnsana yox, İnsan hakimliyə həsr olunanda – Antihəyat yaranır.

***Mənəviyyat*** yox, ***varidat*** seçiləndə, fərqlənəndə – Antihəyat yaranır.

İnsan ***istehsalatın adi ünsürü*** səviyyəsinə enəndə – Antihəyat yaranır.

İnsan ***məqsəd*** dağından ***vasitə*** biyabanına düşəndə – Antihəyat yaranır.

İnsan ***cəmdə*** itəndə, itiriləndə – Antihəyat yaranır.

***Maddiyyata sitayiş*** bərqərar olanda – Antihəyat yaranır.

İnsan ***silki münasibətlər*** çərçivəsində qapılıb qalanda – Antihəyat yaranır.

İnsan ***inkişaf arabasına*** zorla qoşulanda – Antihəyat yaranır.

İnsan ***saxta həyata*** alışanda – Antihəyat yaranır.

İnsanlar arasında ***doğmalıq tükənəndə*** – Antihəyat yaranır.

***İnsan ölümü heç kəsi sarsıtmayan yerdə*** – Antihəyat yaranır.

***Kişi kişiyə, qadın qadına, cavan cavana, qoca qocaya bənzəməyən yerdə*** – Antihəyat yaşayır.

***Dünyanın ahəngi zorla pozulan yerdə*** – Antihəyat yaranır.

***İnsan öz naqisliyinə güvənən yerdə*** – Antihəyat yaranır…

Antihəyatda insan görünmür: maddiyyat, cimanilik, cəmiyyət, dövlət görünür, ancaq ruhani xilqət görünmür. Çünki Antihəyatda maddiyyat, çismanilik, cəmiyyət, dövlət insana istinad edib, insan üçün olduqlarını bəyan edirlərsə də, əslində özlərinə xidmət edirlər, vasitə əvəzinə məqsədə çevrilirlər, özlərini təsdiq edirlər.

***Antihəyatda*** insan yad dünyada yaşayır, insansızlaşır.

## Mütləqsizlik

***Dünya*** var, həm də yoxdur, çünki dünyada yalnız nisbini görürsən, Mütləqi görmürsən, dünyanın dünyadan böyük mənası sənə yaddır, bü səbəbdən də əslində dünyasızsan!

***İnsanlısan,*** həm də insansızsan, çünki insanda yalnız nisbini, keçicini, ölümlünü görürsən, Mütləqi, sonsuzu, əbədini görmürsən, insanın insandan böyük mənası sənə yaddır!

***Vətənlisən,*** həm də Vətənsizsən, çünki Vətəndə nisbini görürsən, nisbinin arxasında duran Mütləq mahiyyəti görmürsən. Vətənin Vətəndən böyük mənasına yadsan!

***Təbiətlisən,*** həm də təbiətsizsən, çünki təbiətdə yalnız nisbini, adini görürsən, onun Mütləq mahiyyətini görmürsən, təbiətin özündən böyük mənasına yadsan!

***Atalısan,*** ancaq həm də atasızsan çünki atada nisbini görürsən, Mütləqin təzahürünü görmürsən, atanın atadan böyük mənası sənə yaddır!

***Analısan,*** ancaq həm də anasızsan, çünki onda yalnız nisbini görürsən, Mütləqi görmürsən, ananın anadan böyük mənası sənə yaddır!

***Övladlısan,*** ancaq həm də övladsızsan, çünki övladda Mütləq mahiyyəti görmürsən, nisbi əlamət görürsən, övladın övladdan böyük mənası sənə yaddır!

***Məhəbbətlisən,*** həm də məhəbbətsizsən, çünki məhəbbətin Mütləq mahiyyətindən uzaqsan, nisbiliyinə aşinasan, məhəbbətin əsil mənası sənə yaddır!

***Əməllisən,*** ancaq ***Amallı*** deyilsən, çünki əməlin Mütləq mahiyyətindən uzaqsan, əməlin özündən böyük mənası sənə yaddır!

***Biliklisən,*** ancaq həqiqətli deyilsən, çünki idrakın nisbiliyinə tapınmısan, onun Mütləq mahiyyətindən uzaqsan.

***Həyatın*** var, həm də yoxdur, çünki müqəddəslik duyğusundan məhrumsan, həyatın həyatdan böyük mənası sənə yaddır.

***Dünyada*** Mütləq görmədiyin üçün dünyaya münasibətin də nisbilik səviyyəsində qalır.

***Hörmətin*** var, ***heyrətin*** yoxdur; ***marağın*** var, ***sitayişin*** yoxdur; ***fərəhin*** var, ***ehtizazın*** yoxdur!

***Vətəni*** adi sayırsan, bu səbəbdən də vətən üçün canından keçmirsən.

***Amalı*** adi sayırsan, bu səbəbdən də fədailik ucalığına çatmırsan!

***İdealı*** adi sayırsan, bu səbəbdən də ideal səviyyəsinə yüksəlmirsən!

***Xalqı*** nisbi, keçici sayırsan, bu səbəbdən də xalq yolunda cəfakeşlik ülviyyətinə yadsan!

***Bəşəri*** nisbi sayırsan, bu səbəbdən də bəşərə məhəbbətin nisbi olur.

***Xeyiri*** nisbi sayırsan, onun Mütləq mənasını dərk etmirsən, bu səbəbdən də Xeyirə məhəbbətin nisbi olur.

***Alidə*** adini görürsən, gözəldə çirkini görürsən, böyükdə kiçiyi görürsən, məlahətdə qəbahəti, kamillikdə naqisliyi, ucalıqda alçaqlığı, sədaqətdə xəyanəti, paklıqda riyakarlığı, mərdlikdə müxənnətliyi görürsən.

***Əlamətdə*** dayanırsan, mahiyyətə varmırsan. Bilmirsən ki, bu adi, nisbi, nöqsanlı dünya əslində Mütləq, qeyri-adi, kamil mahiyyətin təzahürüdür; gördüyün hadisələrin, keyfiyyətlərin arxasında Mütləq məna dayanır. Bu səbəbdən də sənin nisbi, keçici, nöqsanlı saydığın dünya əslində Mütləq, əbədi və kamildir; o dərəcədə Mütləq, əbədi və kamildir ki, özündəki hadisələrin, keyfiyyətlərin heç birinə sığmır, hamısından artıqdır. Bu səbəbdən də ***inam şübhəni, heyrət tərəddüdü susdurmalıdır.*** Bu səbəbdən də Amal müqəddəsliyi yaranmalıdır.

Mütləqsiz – dünyanı görür, ancaq dünyanın arxasındakı müqəddəsliyi görmür, dünyaya müqəddəslik baxımından yanaşmır, gerçəkliyi mahiyyətə, Mütləqə yaxınlaşdırmağa cəhd göstərmir, nisbiylə məhdudlaşır, nisbidə nisbidən başqa heç nə görmür.

***Bu səbəbdən də Mütləqsizin dünyası olmur.***

Mütləqsiz üçün ağaclar cəmi var – meşə şeiriyyəti yoxdur, insan cəmi var – bəşər ülviyyəti yoxdur, əməl fəallığı var – Amal ülviyyəti yoxdur, həyat tərzi var – əqidə yoxdur, məkan var – vətən yoxdur.

Mütləqsiz özündəki Mütləqə yad olduğundan özüylə barışır, kifayətlənir.

Mütləqsiz əsil mənəviyyat tanımır, çünki Mütləq tanımır. O, daxili dünyasını təkmilləşdirməyə çalışmır, nisbini Mütləq səviyyəsinə qaldırmaq zərurətini duymur, Mütləqin tələbini eşitmir.

Mən Mütləq deyiləm, deməli, qismətimə qane olmalıyam, təbiətimə uyğun yaşamalıyam – deyir.

Paxılamsa, rəziləmsə, riyakaramsa, şəhvətpərəstəmsə, qorxağamsa – bu təbiidir, çünki Mütləq deyiləm, təbiət məni belə yaradıb.

Necə varamsa, özümə layiqəm, bərabərəm.

Dünyaya munasibətim nisbi olduğu kimi, özümə tələbim də nisbidir.

Özümdən Mütləq ləyaqət tələb etmirəm, nisbi ləyaqətlə kifayətlənirəm.

Özüm özümə, təbiətimə təslim oluram.

Təbiətim məni qəddarlığa, qatilliyə, əyyaşlığa sövq edirsə, bu xassələr təbiətimə uyğundursa, mən onlardan əl çəkməyə cəhd göstərmərəm, çünki Mütləq tələbi qəbul etmirəm, Mütləqə inanmıram.

Mən təbiətimə inanıram, onun tələbini ödəyirəm.

Əgər mənim mənəvi dünyamda Mütləq yoxsa, deməli, Xeyir ilə Şər arasında da elə bir xüsusi fərq yoxdur. Xeyir hardasa elə Şərdir, Şər haradasa elə Xeyirdir.

Bu səbəbdən də mənfi keyfiyyətləri qəti şəkildə ittiham etmək olmaz.

Xəyanətkaram, çünki Mütləq deyiləm!

Riyakaram, çünki Mütləq deyiləm!

Vicdansızam, çünki Mütləq deyiləm!

Qeyrətsizəm, çünki Mütləq deyiləm!

Məkrliyəm, çünki Mütləq deyiləm!

İnsanam – özümə bərabərəm.

(Bu, Mütləqsizin böyük səhvlərindən biridir. İnsan Mahiyyət etibariylə özünə yox, Mütləqə bərabər olmalıdır).

Mütləqsiz insan yetimdir, köməksizdir. Onun çətin gündə əlindən tutan, məsləhət verən, düz yola çağıran, qanadlandıran arxası, dayağı yoxdur.

Ona ***nisbi ağıl*** məsləhət verir bə bu, səhv olur.

Ona ***nisbi iradə*** gərək olur, ancaq o, insanı dərddən qurtara bilmir.

O, ***nisbi gücə*** sığınır, ancaq həmin güc insanı bəlalardan xilas etmir.

O, ***nisbi duyğuların*** əmrinə tabe olur və yolunu azır, cəhalət bataqlığına düşür.

Mütləqi unudanda insan heç vaxt özü bərabərində, özü qüdrətində, özü qabiliyyətində olmur. Həyat insandan Mütləq Qüdrət tələb edir, nisbi qüdrətlə həyatda ləyaqəti təsdiq etmək olmaz.

***Əsil mənəvi imtahan*** – Mütləq ruhani qüvvə tələb edir, nisbi qüvvəylə bu imtahandan çıxmaq olmaz.

***Əsil döyüş*** – Mütləq rəşadət tələb edir. Nisbi rəşadətlə qələbə qazanmaq olmaz.

***Amal*** – Mütləq özündənkeçmə, fədailik tələb edir. Nisbi fədakarlıqla Amala xidmət etmək olmaz.

***Məhəbbət*** – Mütləq ruhani vəhdət tələb edir. Nisbi ruhani vəhdətlə Aşiqlik zirvəsinə çatmaq olmaz.

***Qəhrəmanlıq*** – Mütləq dözüm, Mütləq əzabkeşlik, Mütləq qorxmazlıq tələb edir, nisbi məziyyətlərlə qəhrəmanlıq yüksəkliyinə qalxmaq olmaz.

***Paklıq*** – Mütləq imtina tələb edir, nisbi imtinayla paklıq müqəddəsliyinə yetmək olmaz.

***Əqidə*** – Mütləq inam tələb edir. Nisbi inamla əqidəçi olmaq mümkün deyil.

***Mütləqsiz yaşayanlar – yaşamırlar.***

***Mütləqsiz dünya – yaşamayanların dünyasıdı.***

## Sürüləşmə

***Əqidəyə*** xidmət edirsən, ancaq əqidəsizsən, çünki ona inanmırsan, ağlınla, duyğularınla ona bağlanmırsan – ***ona riayət edirsən! Çünki hamı ona tapınır.***

***Hamıdan yapışırsan, hamılaşırsan,*** çünki özün ola bilmirsən, özün olmaq istəmirsən, özün olmağının zəhmi səni basır, hamıyla bir olursan ki, özün olmayasan!

***İnama*** xidmət edirsən, ancaq inamsızsan, çünki İnamı ağlında, qəlbində yaşatmırsan, ona tabe olursan. Hamıdan yapışırsan, hamılaşırsan, çünki özün ola bilmirsən, özün olmaq istəmirsən, özün olmağının zəhmi səni basır, hamıya qovuşmaqla özündən azad olursan.

Özündən kənardakı ***Möhtəşəm Qüdrətə*** xidmət edirsən, ancaq qüdrətsizsən, çünki Qüdrətə ağlında, duyğularında yer yoxdur, sən ***hamının təsiriylə, hamıyla birgə*** Qüdrətə baş əyirsən, çünki əks təqdirdə ***səni özün olmaq təhlükəsi gözləyir.***

Həmin təhlükədən yaxa qurtarmaq üçün hamıdan yapışırsan, hamılaşırsan.

Bir sözlə, səni hamıya qovuşduran, hamıyla eyniləşdirən sənin zəifliyin, acizliyin, kiçikliyindir.

Sən özünə layiq olmadığın üçün hamıya layiq olmusan! Ağlın sənə düz yol göstərə bilməyib, ona görə də ***hamının*** ağlına tapınmısan.

Qəlbin səni aldadıb, bu səbəbdən də öz qəlbinə yox, ***hamının*** qəlbinə inanmısan.

İradən səni azdırıb, bu səbəbdən də öz iradənə yox, ***hamının*** iradəsinə tapınmısan, baş əymisən.

Unutmusan ki, hamılaşmaqla sən düz yola çıxmamısan, çünki əsl doğru həyat – fərdi ağılı, iradəni, qəlbi məhv etmir, əksinə, onlara əsaslanır, əsil vəhdət, ***əsil hamılıq*** şəxsiyyətin fərdiliyini rədd etmir, əksinə, daha yüksək səviyyəyə qaldırır.

Həmin əsil ***Birlikdə*** şəxsiyyət cəmə özündən ayrılmış, özünün əksinə çevrilmiş şəkildə qovuşmur, özünün fərdi zənginliyiylə qovuşur.

Belə vəziyyətdə fərd öz gəlişiylə cəmi zənginləşdirir, fərd cəmdən asılı olduğu kimi, cəm də fərddən asılı olur.

Ümumi fikir, duyğy, iradə – fərdi fikri, duyğunu, iradəni daha yüksək, daha yetkin, daha parlaq şəkildə təsdiq edir.

Cəmə qovuşmaqla fərd özünü cəmdə itirmir, tapır. ***Sürüləşmədə*** isə şəxsiyyət öz fərdi keyfiyyətlərini ağır yük kimi çiynindən atır və

özündən əl çəkir, özünü hamının iradəsinə tapşırır, çünki fərd olmaq ağır işdir, məsuliyyətli işdir, burada səhv etmək, gərgin həyəcan keçirmək, dara düşmək qorxusu var, cəmdə, hamılaşmaqda isə məsuliyyətdən, çətinlikdən xilas olursan.

İndi taleyin ***hamının*** əlindədir.

Hamılıqda sən yaşamırsan, ***hamı*** yaşayır, bu səbəbdən də ömrün istiqaməti, mənası, fəaliyyətinin mahiyyəti – özündən ayrılmış, özündən fərqlənmiş biçimdə meydana çıxır. Sən yoxsan, yalnız ***hamı*** var, hamılıqla birgə asan, yüngül, aydın yaşayırsan.

“Həqiqət nədir, yalan nədir?” – bu suala sən cavab vermirsən, ***hamı*** cavab verir.

“Haqq nədir, nahaq nədir?” – bu suala sən cavab vermirsən, ***hamı*** cavab verir.

“Ləyaqət nədir, qəbahət nədir?” – bu suala sən cavab vermirsən, ***hamı*** cavab verir.

“Paklıq nədir, günah nədir?” – bu suala sən cavab vermirsən, ***hamı*** cavab verir.

“Ölməli kimdir, yaşamalı kim; dost kimdir, düşmən kim;  böyük kimdir, kiçik kim? – bu suallara sən cavab vermirsən, ***hamı*** cavab verir.

***Hamı*** səhv edə bilməz, yanlış düşünə, hərəkət edə bilməz. Sən isə bir fərd kimi bir çox hallarda səhv edirsən, yanlış düşünür və hərəkət edirsən.

Deməli, səndə olmayanların hamısı ***hamıda*** var. Bu səbəbdən də ona tabe olmalısan.

Beləliklə də ***hamının*** böyüklüyü sənin kiçikliyinin təsdiqindən yaranır. Ancaq bu təsdiqlə sən həm də ağır yükdən – ***özündən*** xilas olursan.

Nöqsanlı, təhlükəli, təlaşlı yaşamaqdansa, özünü ***hamılığa*** təhvil vermək yaxşı deyilmi?

***Hamının biri olmaq*** – gərgin düşünməmək, duymamaq, yaşamamaq deməkdir.

Gərgin düşünmək, duymaq, yaşamaq fəlakətini ***hamıya*** həvalə eləmək – bundan böyük bəxtiyarlıq və hakimlik olarmı?!

Əgər ***hamı*** birini seçirsə, onun arxasınca gedirsə, mən niyə onun arxasınca getməyim?

***Hamı*** birini dara çəkirsə, mən niyə onu dara çəkməyim?

***Hamı*** bir ideyanı alqışlayır, başqa ideyanı pisləyirsə, mən niyə bunu eləməyim?!

Nəyi səadət, nəyi köləlik saymağı ***hamı*** bilir.

Nəyi xeyir, nəyi şər saymağı ***hamı*** bilir.

Nədən sevinməyi, nədən kədərlənməyi ***hamı*** bilir.
Nəyə baş əyməyi, nəyə nifrət eləməyi ***hamı*** bilir.
***Hamı*** bilirsə – sənin bilməyinə xüsusi bir ehtiyac varmı?
***Hamı*** duyursa – sənin duymağına xüsusi bir ehtiyac varmı?
***Sənin qismətin yaşamadan yaşamaqdır.***
***Sürüləşmə*** səni həm də başqa bir səmtdən xilas edir.

Daxilində şər duyğular çoxdur. Onları aşkara çıxarmağa, büruzə verməyə fərdi qüdrətin çatmır. ***Hamıyla*** birlikdə sən yırtıcılığını, naqisliyini parlaq şəkildə üzə çıxarırsan.

Qan tökməkdə, xarabazarlıq yaratmaqda, ləyaqət tapdalamaqda möcüzələr göstərirsən, qorxmursan – ürkmürsən, çünki bilirsən ki, cinayət ***hamıyla*** birgə edilib, ***hamının*** bəyəndiyi niyyət naminə edilib, bu səbəbdən də törətdiklərin cinayət sayılmayacaq.

Bir adamın başını tək kəssən, bu, cinayət sayılardı. Minlərin başını ***hamıyla*** birgə kəsmisən, ***hamının*** bəyəndiyi niyyət naminə kəsmisən – cinayətkar deyilsən, qəhrəmansan. Həmin qəhrəmanlıqlar sənə imkan verir ki, illərlə qəlbində gəzdirdiyin qara duyğular qadağan bəndini aşsın, aləmi yandırsın, sənə sevinc gətirsin.

Sürüləşən öz məziyyətlərini də ***hamıya*** bəxş edir.

Sürüləşənin ***fərdi vüqarı*** yoxdur. O, vüqarını ***hamıya*** bəxş edir, hamı vüqarlı olduğu üçün fərdin vüqarlı olmağa ehtiyacı yoxdur.

Sürüləşənin ***fərdi qeyrəti*** yoxdur. ***Hamının*** qeyrəti naminə o, öz fərdi qeyrətindən keçir.

Sürüləşənin ***fərdi həyat tərzi*** yoxdur. O, öz fərdi həyat tərzini ***hamıya*** bağışlamışdır. ***Hamıya*** xas olan ümumi həyat tərzi fərdi həyat tərzinə ehtiyacı yox edir.

***Sürüləşən*** daxili aləminin qapısını başqalarının və özünün üzünə həmişəlik bağlayır.

Bu dünya unudulmalı, itirilməlidir, çünki onun mövcudluğu ***hamılığın*** məntiqinə uyğun gəlmir. Daxili dünya – fərqli dünyadır. ***Hamılıq*** fərdiliyi aradan qaldırır. ***Sürüləşənin*** taleyi yoxdur. ***Hamılığın*** taleyi olan yerdə fərdin taleyi olmamalıdır.

***Sürüləşən*** öləndə dünyadan heç nə əksilmir. Çünki ***hamılıq*** qalır. ***Çünki yaşamayan ölməz.***

## Ruhsuzluq

Dünyaya baxırsan – maddiyyatı görürsən, ruhaniliyi görmürsən; insana baxırsan – maddiyyatı görürsən, ruhaniliyi görmürsən; tarixə

baxırsan – maddiyyatı görürsən, ruhaniliyi görmürsən; cəmiyyətə baxırsan – maddiyyatı görürsən, ruhaniliyi görmürsən.

Bədəni, cismi görürsən, onlara sığmayan insaniyyəti görmürsən.

Tarixdə mənafe toqquşmasını, maddi nemətlər uğrunda döyüşü görürsən, ruhani təzahürü görmürsən.

Bilmirsən ki, maddi münasibətlər tarixdə ruhani niyyətləri üstələsə də, ruhaniliyə – yəni mənəvi ideala, kamilliyə, əbədiliyə, sonsuzluğa meyil ölmədi, tarixin əsil mənası da əslində elə bundadır.

***Tarix – ruhaniliyə qələbə çalmadı, ruhanilik tarixə qələbə çaldı.***

İnsanın mahiyyəti onun naqisliyini, vəhşivariliyini, əşyavariliyini üstələdi.

Bu əsil, ilkin ruhani mahiyyət tarixin gedişatında tam və hərtərəfli aşkara çıxmadı, üzdə silklərin, siniflərin maddi mənafe uğrunda amansız mübarizəsi göründü, bu səbəbdən də sən həmin mübarizəni tarixin əsası saydın, maddiyyatın arxasında dayanan ruhaniliyi görmədin. Cəmiyyətə baxırsan və belə hesab edirsən ki, onun əsasını iqtisadi münasibətlər, maddi nemətlər istehsalı təşkil edir.

Sənə elə gəlir ki, bəşərin, xalqın qüdrəti iqtisadiyyatın qüdrətinə bərabərdir.

Unudursan ki, bəşər həyatının mənası maddi tələbatı ödəmək deyil, ***mənəvi kamillik səviyyəsinə yüksəlməkdir***. Bu məqsədin həyata keçirilməsində iqtisadi amil əsas rol oynaya biməz.

İqtisadiyyat insanın maddi ehtiyaclarını ödəyə bilir, mənəvi, ruhani ehtiyaclarını ödəmir.

Maddiyyat insanı yedizdirir, geyindirir, ancaq ***kamilləşdirmir.***

İqtisadiyyat insanı ac və çılpaq qalmaq fəlakətindən qurtarır, mənəviyyatsızlıq bəlasından qurtarmır. Bu bəladan insanı maddiyyat yox, insanın ruhani xisləti, fəaliyyəti, ağılın, iradənin, duyğuların ruhani məqsədə yönəldilməsi xilas edir.

Maddiyyatın insan həyatında rolu sən düşündüyündən çox kiçikdir.

Sən elə bilirsən ki, az qala qabaqcıl maddiyyat ali mənəviyyat deməkdir, yenilikçi iqtisadiyyat yüksək ruhanilik deməkdir.

Sənin təsəvvüründə iqtisadiyyat mənəviyyatın özül daşıdır. Bu ona oxşayır ki, deyəsən: ən tox adam ən yaxşı adamdır, ən varlı adam ən yaxşı adamdır, otaqlı otaqsızdan, gözəl geyinən adi geyinəndən mənən üstündür, ən çox əşyası olan adam ən böyük mənəviyyata malik olan adamdır. İddianın belə adi, açıq səviyyəsində sən onun cəfəngiyyat olduğunu hiss edirsən, ancaq

onun loğmanvari səviyyəsinə uyursan və dünyaya həmin nöqteyi-nəzərdən baxırsan. Əvvəl maddiyyat, sonra mənəviyyat – deyirsən. Birinci pillə – maddiyyat, ikinci pillə – mənəviyyat deyirsən.

İqtisadiyyat mənəviyyatın özülüdür – deyirsən.

Buradan ən azı ***üç cəfəng nəticə*** çıxır.

***Birinci***, iqtisadi cəhətcə inkişaf etmiş xalq iqtisadi cəhətcə inkişaf etməmiş xalqdan mənəviyyatca mütləq yuxarı olmalıdır.

***İkinci,*** iqtisadi məsələnin həlli – eyni dərəcədə mənəvi məsələnin həllidir.

***Üçüncü,*** belə vəziyyətdə mənəviyyat məsələsini xüsusi, müstəqil bir məsələ saymağa ehtiyac yoxdur. İqtisadiyyatı inkişaf elətdirmək mənəviyyatı inkişaf elətdirmək deməkdir.

Əslində isə ***mənəvini maddi yaratmır, insanın ruhani xisləti yaradır.*** Sən onu görmürsən. Sənin üçün insan maddiyyatla başlanır və maddiyyatda qurtarır. Sənin nöqteyi-nəzərindən, insan heyrətə layiq varlıq ola bilməz. Çünki o, maddi varlıqlardan biridir, bəlkə də birincisidir, ancaq, hər halda, onu bütün canlılardan fərqləndirən ruhanilik xassəsi sənə məlum deyil. Bu baxımdan, sənin məntiqində məhəbbətə də yer qalmır. Maddi olanla ruhani vəhdət yaranmaz. Maddidən fərqlənməyənə aşiq nəzəri ilə baxmaq olmaz. Ruhsuz dostunda da dostu görməz, maddi mənfəəti görər; qardaşında qardaşını görməz, maddi mənfəəti görər; Vətənində vətənini görməz, maddi mənfəəti görər; bəşərdə ali insani mahiyyət görməz, maddi mənfəəti görər; sevgilisində sevgilini görməz, maddi mənfəəti görər.

***Ruhsuz*** üçün maddi münasibətlərdən kənar heç nə yoxdur.

Ruhsuz üçün ***vicdan*** sözü anlaşılmazdır, çünki vicdan maddi münasibətlərdən kənardadır.

Ruhsuz üçün ***fədakarlıq*** yoxdur, çünki o, maddiyyat münasibətlərindən kənardadır.

Ruhsuz üçün əsl ***ideal*** yoxdur.

Çünki ruhsuzun İdealı, ən yaxşı halda, – maddi tərəqqidir.

Maddi tərəqqi isə ideala xidmət eləyə bilər, lakin İdeal ola bilməz, çünki idealın mənası insanın ruhani mahiyyətini təsdiq etməkdir.

Ruhsuz, ruhani dünyanı dərk etməkdən uzaqdır, çünki onun üçün müstəqil, maddiyyatın əsiri olmayan ruhani dünya yoxdur.

Ruhsuz üçün maddiyyatı dərk etmək elə ruhaniliyi dərk etməkdir. Bu səbəbdən də ruhsuz üçün idraki fəaliyyət maddiyyatla məhdudlaşır, ruhaniliyə münasibətində o, maddiyyat qanunlarından kənara çıxmır, ruhaniliyi maddiləşdirir.

Ruhsuz üçün insanın xüsusi daxili dünyası yoxdur, o, maddiyyat aləmindən fərqlənmir.

Bu səbəbdən də onu ölçü, hesab, təhlil əsasında öyrənmək olar, vəhyə, vəcdə, ehtizaza, ilhama ehtiyac yoxdur.

Ruhsuz maddi qüvvəyə inanır, mənəvi qüvvəyə inanmır.

Ruhsuz insanı dəyişmənin yeganə yolunu maddi şəraitin, cəmiyyətin dəyişməsində görür.

Ruhsuzun məntiqində insan cəmiyyəti yox, cəmiyyət insanı yaradır. Bu səbəbdən də yüksək cəmiyyət yüksək insan yetirir. Pis adamları yaxşı adamlara çevirən cəmiyyət haqqında düşünərkən ruhsuz unudur ki, yaxşı cəmiyyəti yalnız yaxşı adamlar yarada bilərlər.

Yalnız yüksək mənəviyyat sahibləri insana layiq cəmiyyət qura bilərlər. Əks təqdirdə cəmiyyət dəyişir, insan dəyişmir və çox keçmir ki, yaxşı cəmiyyət ən pis cəmiyyətə çevrilir.

Ruhsuz insanın ruhani intibahına, özünü daxilən dəyişdirməsinə, özü üzərində qələbə çalmasına, öz mahiyyətinə çatmasına inanmır. Bu səbəbdən də o, ümidini zora, davaya, münaqişəyə bağlayır. Ruhsuzun məntiqinə görə, dünya əbədi ictimai zəlzələlər, dağıntılar, qan-qadalar əsasında inkişaf etməlidir.

Təbiidir ki, belə dünyanın düzəlmək imkanı dağılmaq imkanından azdır.

Ruhsuz dünyaya bağban kimi baxmır, onu yetirmir – şaqqalayır. Dünya insandan küsür, həyat həyatiliyindən məhrum olur.

***Ruhsuzluq – dünyanı maddiyyatda itirməkdir.***

## Amalsızlıq

Amal – Ali Həyat istəyidir.

Bu istəyi qəlbində gəzdirən – adi həyatdan beşəlli yapışmaz, onu hər şey saymaz, onunla kifayətlənməz. O, adi həyatın Ali Həyata zidd olan cəhətlərindən imtina eləyər.

***Amalsız*** – adi həyatdan kənarda həyat görməz, ona pərçimlənər: həyatın natamamlığını – bütövlük, naqisliyini – əsillik, bəsitliyini – ülvilik, həqarətini – ləyaqət sayar.

O, həyatın böyüklüyüylə yanaşı, kiçikliyini də təqdir edir; ucalığıyla yanaşı, alçaqlığını da təqdir edir; şəhvətə aludədir, şöhrətə aludədir, nemətə aludədir.

Həyat amalsız üçün çəmənlikdir – otunu yeməlidir, bağdır – meyvəsini dərməlidir.

***Amalsız*** – namus, qeyrət bəndini aşanda da həyatı sevir, əyyaşlıq bataqlığına düşəndə də həyatı sevir, xudbinlik, fitnəkarlıq,

qatillik, xəyanət, çirkabına batanda da həyatı sevir. O, həyatda qalmaq üçün, yaşamaq üçün insani qəbahətlərin bütün çeşidlərindən yapışar. Sürünər, sürülər, mənliyindən keçər, kölələşər, kölgələşər, vüqarını itirər; yeri gələndə quduzlaşar, yeri gələndə canavarlaşar – yorulmaz, usanmaz!

***Amalsız*** deyir ki, "dünyada həyatdan gözəl heç nə yoxdur. Buna görə də namus, vicdan, insaniyyət – həyatdan, yaşamaqdan aşağıdır".

***Amalsız*** deyir ki, "həyatı heç nəyə qurban vermək olmaz. Buna görə də qəhrəmanlığa ehtiyac yoxdur".

***Amalsız*** deyir ki, "həyatın nemətləri hər şeydən üstündür. Buna görə də əxlaqa tapınmaq ağılsızlıqdır".

"Yaşamaq hər şeydir" – deyir ***Amalsız*** və insani ləyaqətindən əl çəkir.

"Həyat – fərəhdir" – deyir ***Amalsız*** və mətanəti zəruri keyfiyyət saymır.

"Həyat mənimkidir" – deyir ***Amalsız*** və başqasına yaşamaq imkanı vermir.

Həyat naminə, yəni yaşamaq naminə ***Amalsız***, ömürlərə, talelərə qənim kəsilir, bulaqları qurudur, çıraqları söndürür.

Həyat naminə, yəni həyatdan kam almaq naminə ***Amalsız*** aldadır, fitnə qurur, tələyə salır və "yaşadım, kam aldım" – deyə qürrələnir.

***Amalsız*** üçün insani münasibətlər ovçu – ov münasibətləridir. O, bəzən ovçu olur, bəzən ov, ancaq özünü həmişə ovçu sayır. "Yaşamaq hər şeydir, qalan heç şey" – deyir ***Amalsız*** və əslində yaşamır, ancaq yaşamadığını anlamır. "Yaşamaq hər şeydir", – deyir ***Amalsız*** və başqalarının nemətinə göz dikir, başqalarının nemətini əlindən alır.  "Yaşamaq hər şeydir", – deyir ***Amalsız*** və həyatdan bolluca götürür, həyata heç nə vermir.

"Həyat hər şeydir" – deyir ***Amalsız*** və özünü bəyənir, qəbul edir, təsdiq edir.

"Həyatın yaratdığı nə varsa, gözəldir" – deyir Amalsız.

Yırtıcıyamsa – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, yırtıcılığımla döyüşməyə lüzum yoxdur.

Xəbisəmsə – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, özümlə döyüşməyə lüzum yoxdur.

Alçağamsa – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, özümə nifrət eləməyə haqqım yoxdur.

Qorxağam – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, özümü lənətləməyə haqqım yoxdur.

Yaltağam – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, özümü tənbeh eləməyə dəyməz.

Tamahkaram – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, narahat olmağa dəyməz.

Qaniçənəm – həyat belə yaradıb, həyat səhv edə bilməz, demək, məqbulam, həyata gərəyəm.

***Amallı olmaq*** – özündən keçməkdir, amalsız özündən keçməz, çünki özünə bağlıdır.

***Amallı olmaq*** – iztiraba dözməkdir, amalsız əzaba dözməz, çünki nəşəyə aşiyandır.

***Amallı olmaq*** – ideala vurulmaqdır, amalsız ideala vurulmaz, çünki onun üçün həyat İdealdan artıqdır.

Amallı olmaq – həyat nemətlərinə göz yummaqdır, amalsız həyat nemətlərinə göz yummaz, çünki onları hər şey hesab edir.

Amalsız İdeala inanmadığı üçün özünü ***həyatlı*** sayır.

***Amalsız amallını həyatsız sayır.***

Amal – insandan Aşiqlik qüdsiyyəti tələb edir.

Amalsızda həyata maraq böyükdür, ancan aşiqlik yoxdur, çünki əslində o, həyatı mənimsəyir, sevmir.

Amallı – həyatı dəyişdirir, Amalsız – həyatdan bəhrələnir.

Amallı həyatı Amaldan aşağı sayır. Bu səbəbdən də onu Amal səviyyəsinə qaldırmağa çalışır.

Amalsız, həyata uyğunlaşır.

Amalsız üçün həyatda nə varsa, gözəldir! Əgər həyatda ədalətsizlik varsa, o, əslində, dərindən düşünəndə ədalətdir; əgər həyatda eybəcərlik varsa, o, əslində, dərindən düşünəndə gözəllikdir; əgər həyatda şər varsa, o, əslində, dərindən düşünəndə xeyirdir; əgər həyatda xəyanət varsa, bu, əslində, dərindən düşünəndə sədaqətdir.

Həyata belə münasibət bəsləməklə ***amalsız*** ondan istənilən qədər faydalana bilir.

Bu səbəbdən də ***amalsıza*** həyat haqqında həqiqəti bilmək lazım deyil.

Əslində ***amalsız*** həyatsevərliyinin əsası – həqiqətsizlikdir. Antihəyat Həyatı ya rədd edir, ya da mütləqləşdirir. Hər ikisində onun Ali Həyata aparan yol olduğu inkar edilir.

Bununla da həyata xəyanət edilir.

# III. HƏYAT

## Maddiyyat – Ruhanilik

***İnsan həyatının mənası, maddinin ruhaniləşməsidir.*** Ancaq həyatda maddi tam ruhaniləşmir, bu baxımdan həyatın mənası özündən böyükdür. Həyatın sirli, faciəvi, müəmmalı xüsusiyyəti bundan ibarətdir. İnsan həyatda maddini maddidə qalmağa, dayanmağa qoymur, ona ruhanilik keyfiyyəti bəxş edir. Onu özündən kənara çıxarır, özündən yüksəyə qaldırır.

İnsanın dünyaya və özünə ruhani münasibəti həyatda öz ifadəsini tapır. Ancaq həmin ifadə Mütləq səciyyə daşımır, həyatda maddi Mütləq mənada yox, yalnız nisbi mənada ruhaniləşir.

Bu cəhətdən, həyat özündə bitmir, qurtarmır, Ali Həyata keçir, Ali Həyatda özünün mahiyyətini daha kamil, bütöv və hərtərəfli şəkildə təsdiq edir, həyat özünü özündə yox, Ali Həyatda tapır.

Həyatda insan ölümlünün, sonlunun, keçicinin mövcudluğuna əbədilik, sonsuzluq, kamillik gətirir, maddinin naqis xassələri ilə vuruşur, ancaq maddini tam ruhaniləşdirə bilmir. Maddinin naqis xassələrini tam rədd edə bilmir. Naqislik xalisliklə yanaşı yaşayır, həyat ruhaniliklə maddiliyin cəmi şəklində mövcud olur, ancaq həmin cəm münaqişə, ziddiyyət, döyüş əsasında cərəyan edir.

Bu səbəbdən də həyat gərgin dramatizm yaratmaya bilmir. İnsani yaşamaq – ətrafdakıları və özünü ruhani səviyyəyə qaldırmaqdır.

Ancaq Mütləq ruhani səviyyə həyatda yaranmır. İnsan həyatın özündə həmin səviyyəyə çata bilmir, can atır, cəhd göstərir, ancaq maddi insana güclü müqavimət göstərir, bu səbəbdən də insan həyatı əzablı, cəfalı, sarsıntılı olur.

Maddi ruhaniyə uyuşmur, ona qovuşmağa can atır, buna görə də maddinin ruhaniləşməsi gərgin mənəvi münaqişələr, döyüşlər tələb edir.

Ancaq mübarizənin sarsıntılı, məşəqqətli, ardıcıl olmasına baxmayaraq, həyat Ruhun qələbəsini yaratmır, maddi öz maddiliyində, keçiciliyində, sonluluğunda, ölümlülüyündə qalır. Bu, Ruhun cəhdini heçə endirmir, yerə vurmur, lakin onu yetkin, bütöv, tam qələbədən məhrum edir, buna görə də insan həyatda muradına çatmır, həyat ona yalnız yarımçıq qələbələr, yarımçıq nailiyyətlər, səadətlər bəxş edə bilir.

***İnsanilik – ruhanilik olduğundan, insan bəxtiyarlığı – ruhani bəxtiyarlıqdır.***

Bu baxımdan, Mütləq səadət Mütləq ruhanilik tələb edir. Həyatda isə yalnız nisbi ruhanilik təsdiq olunur. Buna görə də həyat insana əsl səadət vermir. Həyat insana səadətin yolunu göstərir, nişanələrini aşkara çıxarır, ancaq səadətin qapısında dayanır.

***Səadətin qapısı Ali Həyatdır.***

Bu baxımdan, həyat həmişə azdır.

Bu baxımdan, həyatla kifayətlənmək olmaz.

Bu baxımdan, həyatı Gözəl saymaq olmaz.

Bu baxımdan, həyatı Xeyir saymaq olmaz.

Bu baxımdan, həyatı Kamil saymaq olmaz.

Bu baxımdan, həyatı Ülvi saymaq olmaz.

Bu baxımdan, həyatı Həqiqətin meyarı saymaq olmaz.

Həyatda ***gözəllik*** var, ancaq bütövlükdə həyat gözəl deyil, eybəcərliklə gözəlliyin əbədi döyüşüdür və bu döyüşdə eybəcərlik tam məğlub olmur.

Həyatda ***xeyirli*** hadisələr, keyfiyyətlər çoxdur, ancaq bütöv şəkildə həyat xeyir deyil, Xeyirlə Şərin əbədi döyüşüdür və bu döyüşdə Şər tam məğlub olmur.

Həyatda ayrı-ayrı ***kamil*** hadisələr, keyfiyyətlər var, ancaq bütöv şəkildə həyat kamil deyil, həyat kamilliklə naqisliyin döyüşüdür və döyüşdə naqislik tam məğlub olmur.

Həyatda ***ülvi*** hadisələr, keyfiyyətlər var, ancaq bütövlükdə həyat ülvi deyil, ülviyyətlə bəsitliyin döyüşüdür və bu döyüşdə bəsitlik tam məğlub olmur.

Həyatda ***həqiqəti*** təsdiq edən hadisələr, keyfiyyətlər var, ancaq həyat həqiqətin meyarı ola bilməz, çünki onda həqiqətlə yalan döyüşür və bu döyüşdə yalan tam məğlub olmur.

Həyat maddiyyatla ruhaniliyin cəmi sərhədindən kənara çıxa bilmir.

Həyatda maddi maddiliyində qalır. Maddinin ruhaniləşməsi insanın maddi dünyanı mənimsəməsindən başlayır.

İnsan maddi istehsal qüvvəsi yaradarkən şəhərlər, kəndlər salarkən, maşınlar icad edərkən təkcə öz maddi ehtiyaclarını ödəmirdi. O həm də maddiyyat vasitəsiylə özünün ruhani mahiyyətini təsdiq etmək istəyirdi. Ancaq bu mərhələdə insanın ruhani xisləti çox cılız, cüzi, cansız şəkildə aşkara çıxdı.

Əslində maddiyyat insanın cismani xüsusiyyətlərini təsdiq etdi, o, ruhaniyə yox, maddiyə xidmət göstərdi. Maddi yaradıcılıqda insan özünü tapa bilmədi. Şəhərlər salındı – ruhanilik azaldı, maşınlar icad olundu – ruhanilik azaldı.

Maddi ruhaniliyi öz səviyyəsinə endirə bilməsə də, ruhanilik səviyyəsinə də qalxmırdı.

Ruhun maddiyyat əsarətinə qarşı döyüşü başlandı.

İnsan şəhərlərdən, maşınlardan əl çəkmirdi, ancaq onların əsarətindən azad olmağa çalışırdı və bununla da nisbi mənada maddiyyatı ruhaniliyə yaxınlaşdırırdı. Çox ibtidai bir ruhaniləşmə baş verirdi, təbiidir ki, onu Ruhun qələbəsi saymaq olmazdı.

İnsan ağacı özünə alət elədi, daşı özünə alət elədi, yerdən, göydən, torpaqdan, çaydan, dənizdən istifadə etdi və bu cəhətdən maddini insan həyatının ahənginə uyğunlaşdırdı, müəyyən mənada ruhaniləşdirdi.

Ancaq ağac insanın ruhani mahiyyətini təsdiq edə bilmədi, daş insanın ruhani mahiyyətini təsdiq edə bilmədi, dəniz, çay insanın ruhani mahiyyətini təsdiq edə bilmədi. Maddi ruhaniliyə yaxınlaşdı, ancaq ona qovuşmadı.

Ruhaniləşmənin digər mərhələsi – insanın ***varidatla*** qarşılaşmasında aşkara çıxır.

***Varidat – insan həyatında yalançı özünütəsdiqin ifadəsi rolunu oynayır.***

Varidat vasitəsiylə insan öz yalançı qüdrətini təsdiq edir.

Varidatın xüsusiyyəti bir də ondadır ki, o, yalnız maddi ehtiyacları ödəmir, həm də yalançı zövqə, yalançı nailiyyətə, qələbəyə, böyüklüyə xidmət edir.

Varidat vasitəsiylə cahil “Mən varam” deyir. Əslində isə həmin “mən varam” “mən yoxam” demək olur. Çünki burada ruhani xilqət olan insan özünü ruhanilik vasitəsiylə yox, maddilik vasitəsiylə təsdiq edir. Əslində varidat insanı özündən ayırır, ruhaniliyi maddiləşdirir. Bu səbəbdən də ruhaniyyat varidat köləliyi ilə döyüşür.

Ancaq bu döyüş nə qədər uğurlu olsa da, varidat insanların üzərində öz hakimliyini saxlayır. Ruhanilik ayrı-ayrı şəxslərdə tam qələbə çalsa da, ümumən bu onun tam qələbəsi olmur, çünki həyatda varidat tilsimi qırılmır.

Ruhaniliyin daha yüksək mərhələsi – insanın öz duyğularını, ehtiraslarını mənəviyyat səviyyəsinə qaldırmasıdır. İnsan maddiyyat qanunlarına tabe olan ***cinsi əlaqəni*** ən çox ruhaniyyat qanunlarına tabe olan ***məhəbbət*** səviyyəsinə yüksəltdi. Fəqət o, maddiyyatın, cismaniliyin bariz ifadəsi olan şəhvəti həyatdan qovmadı və məhəbbəti heyvanilik təhlükəsindən tam qurtara bilmədi.

İnsan maddiyyat qanunlarına tabe olan ***dişilik*** keyfiyyətini ***analıq və qadınlıq*** səviyyəsinə yüksəltdi. Fəqət o, dişiliyi həyatdan qova bilmədi və qadınlığı dişilik təhlükəsindən tam qurtara bilmədi.

İnsan maddiyyat qanunlarına tabe olan ***erkəklik*** keyfiyyətini ruhanilik qanunlarına tabe olan ***kişilik və atalıq*** səviyyəsinə yüksəltdi. Ancaq erkəkliyi həyatdan qova bilmədi və bu səbəbdən kişiliyi erkəklik təhlükəsindən tam xilas edə bilmədi.

İnsan ***xudbinlik*** adlanan heyvani keyfiyyəti ***fədakarlıq*** adlı ruhani keyfiyyətlə əvəz etdi, ancaq xudbinliyi həyatdan qova bilmədi və fədakarlığı xudbinlik təhlükəsindən tam qurtara bilmədi.

İnsan – heyvanat dünyasının maddi xislətindən doğan ***qorxu*** duyğusunu ***qəhrəmanlıq*** ülviyyətiylə əvəz etdi, fəqət qorxunu həyatdan qova bilmədi və bu səbəbdən də qəhrəmanlığı qorxu təhlükəsindən tam qurtara bilmədi.

İnsan ***Mütləqi tanıdı, Müqəddəsliyə tapındı,*** bununla belə, naşılığı, naqisliyi, şübhəçiliyi, xurafatı, cəfəngiyyatı həyatdan qova bilmədi.

İnsan maddi olan ***səsdən*** ruhani olan ***musiqi, söz*** yaratdı, ancaq həyatda ruh sözə, ahəngə sığmadı. İnsan ***cismanilik*** qanunlarına tabe olan ***yırtıcılığı*** ruhanilik qanunlarına tabe olan olan ***dostluq hissi*** ilə əvəz etdi, ancaq yırtıcılığı həyatdan qova bilmədi. Bu səbəbdən də o, dostluğu yırtıcılıq təhlükəsindən xilas edə bilmədi.

İnsan ***dava eybəcərliyini, fateh qəddarlığını,*** müstəbid zalımlığını, şöhrətpərəstlik naşılığını, küdurət iztirabını, zor nəşəsini, yalan tələsini, cəhalət çirkabıını həyatdan silə bilmədi.

İnsan maddi olan ***bədəni ruhanilik*** yüksəkliyinə qaldırmağa çalışdı, gözə, üzə, ələ, dodağa ruhani xassələr bəxş etdi, göz ruhaniləşdi, üz ruhaniləşdi, dodaq ruhaniləşdi, ancaq bədən maddiyyat qanunlarına tabe oldu, ruhu tərk etdi.

Ölüm həyatda maddiyyatın ruhaniləşmə imkanlarının məhdudluğunu göstərir. Ölüm deyir ki, "həyat məndən zəifdir, çünki son nəticədə ruhani yox, maddi təsdiq olunur".

Ölüm səhv edir, çünki həyat ölmür, Ali Həyata qovuşur.

## Xeyir – Şər

Həyatda Xeyirlə Şər yanaşı yaşayır, bir-biri ilə döyüşür, lakin biri digərini məğlub edə bilmir, həyat Xeyiri Şərin qalibi etmir, düşməni edir.

Xeyir Şəri həyatdan silmək istəyir, silə bilmir. Şər bəzən geri çəkilsə də, ölmür, itmir, yenidən meydana atılır, öz fəaliyyətini davam etdirir.

Şər yalnız Ali Həyatda tam məğlub olur, həyatda isə o, başlıca keyfiyyət rolu oynayır. Həm də burada İnsan Xeyiri təsdiq etmək üçün bir çox hallarda Şərə arxalanır, Xeyirə Şər vasitəsi ilə nail olur və bu dəhşətli dərəcədə yanlış yol olsa da, həyat onu haqq sayır və qəbul edir.

Bir sözlə, həyatda dünya Xeyirə məxsus olmur, o öz qoynunda həm Xeyirə, həm də Şərə yer verir. Bu səbəbdən də Xeyir Şərlə toqquşmalı olur, lakin bu toqquşmada Şər ölmür, yaşayır. Şəri həyatdan silirlər, o silinmir. Şər ağacının köklərini həyat həmişə hifz edir. Bu baxımdan, Şərsiz həyat yoxdur. Eyni zamanda, Xeyirsiz də həyat yoxdur.

Həyat – Xeyirlə Şərin qoşa mövcudluğu və döyüşüdür. Həyat ***zülm*** adlanan Şərə öz qoynunda yer verir. Həyat həm də ***ədalət*** adlanan Xeyirə öz qoynunda yer verir, onları döyüşdürür.

Ancaq bu döyüşdə ədalət tam qələbə əldə etmir, zülmü həyatdan silmək mümkün olmur.

Həyat ***xəbislik*** adlanan Şərə öz qoynunda yer verir. O, həm də ***munislik*** adlanan Xeyirə öz qoynunda yer verir, həyatda munislik xəbisliklə döyüşür, ancaq bu döyüşdə o, tam qələbə əldə etmir, xəbisliyi dünyadan silmək mümkün olmur.

Həyat ***fitnə*** adlanan Şərə qoynunda yer verir. O, həm də ***Qüdsiyyət*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda qüdsiyyət fitnə ilə döyüşür, fəqət bu döyüş qüdsiyyətin tam qələbəsi ilə qurtarmır, fitnəni həyatdan silmək mümkün olmur.

Həyat ***məkr*** adlanan Şərə qoynunda yer verir. Həyat həm də ***Mərdlik*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda mərdlik məkrlə döyüşür, fəqət bu döyüş mərdliyin tam qələbəsi ilə qurtarmır, məkri həyatdan silmək mümkün olmur.

Həyat ***xəyanət*** adlanan Şərə qoynunda yer verir. Həyat həm də ***Sədaqət*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda sədaqət xəyanətlə döyüşür, fəqət bu döyüş sədaqətin tam qələbəsi ilə nəticələnmir, xəyanəti həyatdan silmək mümkün olmur.

Həyat ***cinayət*** adlanan Şərə qoynunda yer verir. Həyat həm də ***Vicdan*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda vicdan cinayətlə döyüşür, fəqət bu döyüş vicdanın tam qələbəsi ilə qurtarmır, cinayəti həyatdan silmək mümkün olmur.

Həyat ***cəlladlıq*** adlanan Şərə öz qoynunda yer verir. Həyat həm də ***Məhəbbət*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda məhəbbət cəlladlıqla döyüşür, ancaq bu döyüş məhəbbətin tam qələbəsi ilə başa çatmır, cəlladlığı həyatdan silmək mümkün olmur.

Həyat ***sünilik*** adlanan Şərə öz qoynunda yer verir. Həyat həm də ***Təbiilik*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda təbiilik süniliklə döyüşür, ancaq bu döyüş təbiiliyin tam qələbəsiylə qurtarmır, süniliyi həyatdan silmək mümkün olmur.

Həyat ***riya*** adlanan Şərə öz qoynunda yer verir. Həyat həm də ***Həya*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda həya riyayla döyüşür, fəqət bu döyüş həyanın tam qələbəsiylə başa çatmır, riyanı həyatdan silmək mümkün olmur.

Həyat ***həqarət*** adlı Şərə öz qoynunda yer verir. Həyat həm də ***Şərafət*** adlı Xeyirə öz qoynunda yer verir. Həyatda Şərafət həqarətlə döyüşür, ancaq bu döyüş şərafətin tam qələləbəsiylə qurtarmır, həqarəti həyatdan silmək mümkün olmur.

Həyat ***inamsızlıq*** adlı Şərə öz qoynunda yer verir. Həyat həm də ***İnam*** adlı Xeyirə öz qoynunda yer verir. Həyatda inam inamsızlıqla döyüşür, lakin bu döyüş inamın tam qələbəsiylə nəticələnmir, inamsızlığı həyatdan silmək mümkün olmur.

Həyat ***əsarət*** adlı Şərə öz qoynunda yer verir. Həyat həm də ***Azadlıq*** adlı xeyirə öz qoynunda yer verir. Həyatda azadlıq əsarətlə döyüşür, ancaq bu döyüş azadlığın tam qələbəsiylə qurtarmır, əsarəti həyatdan silmək mümkün olmur.

Həyat ***düşmənçilik*** adlanan Şərə öz qoynunda yer verir. Həyat həm də ***dostluq*** adlanan Xeyirə öz qoynunda yer verir. Həyatda dostluq düşmənçiliklə döyüşür, ancaq bu döyüş dostluğun tam qələbəsiylə bitmir, düşmənçiliyi həyatdan silmək mümkün olmur.

Həyat ***ölüm*** adlı Şərə öz qoynunda yer verir. Həyat həm də ***Doğuluş*** adlı Xeyirə öz qoynunda yer verir. Həyatda doğuluş ölümlə vuruşur, ancaq bu vuruş doğuluşun tam qələbəsiylə nəticələnmir, ölümü həyatdan silmək mümkün olmur.

Həyat Xeyirin Şər vasitəsiylə təsdiq olunmasına dözür, bunu Şər saymır, Xeyir sayır.

Xeyir naminə qan tökülür, göz çıxarılır, şəhərlər talan olunur, insan yırtıcılaşır, xəyanət, fitnə məkr, riya, həqarət seli aləmi bürüyür, ancaq bunu qəbahət saymırlar, yüksək əməl sayırlar, əslində isə burada Şər təsdiq olunur.

***Ədalət naminə zülm – Şərdir.***
***Həya naminə riya – Şərdir.***
***Azadlıq naminə əsarət – Şərdir.***
***Sədaqət naminə xəyanət – Şərdir.***
***Şərafət naminə həqarət – Şərdir.***
***Dostluq naminə düşmənlik – Şərdir.***
***Təbiilik naminə sünilik – Şərdir.***

***İnam naminə inamsızlıq – Şərdir.***
***Məhəbbət naminə cəlladlıq – Şərdir.***

Xeyiri yalnız xeyirlə təsdiq etmək olar.
Həyat bu həqiqəti dərk etmir.
Bu həqiqəti dərk etmək üçün o, Ali Həyat olmalıdır.
Həyat xeyirlidir və şərlidir, bu səbəbdən də o, nə Xeyirdir, nə də Şər.
Həyat Xeyir ola bilmir, çünki Şərdən azad ola bilmir.

## Gözəllik – Eybəcərlik

Həyatda tam, bütöv, Mütləq gözəllik yoxdur, həyatdakı gözəllik nöqsanlıdır, eybəcərlikdən xali deyil, eybəcərliklə yanaşı yaşayır, onunla döyüşür, lakin onu dünyadan həmişəlik poza bilmir.

Eybəcərlik həyatda demək olar ki, həmişə gözəlliyin üstünə kölgə salır, onun kamilliyinə xələl gətirir, ümumi ahəngini pozur.

Həyatdakı gözəllik demək olar ki, həmişə özündə eybəcərlik gəzdirir.

Bu səbəbdən də o, Mütləq Gözəllikdən aşağı olur, ona çatmır.

İnsanın cismani gözəlliyində naqislik özünü demək olar ki, həmişə göstərir.

Üzdə gözəlliklə yanaşı, qeyri-gözəllik, bədəndə gözəlliklə yanaşı, qeyri-gözəllik həmişə olur.

Digər tərəfdən, cismani gözəlliklə mənəvi gözəllik arasında tam uyğunluq səviyyəsinə həyat heç vaxt çatmır. Çox vaxt zahiri gözəlliyin arxasında daxili naqislik dayanır və əksinə, kamillik cismani naqisliklə birgə mövcud olur.

Bu cəhətdən, zahiri gözəllik bir çox hallarda daxili eybəcərliyi gizləyir.

Gözəl dodaq yalan danışmağı bacarar!
Gözəl bədən məkri, fitnəni, qəbahəti bəzəyə bilər!
Şəhla gözlərdə xəyanət qaranlığı gizlənə bilər!
Ceyran baxışlarda xudbinlik yaşaya bilər!
İncə əllər kobud əməllər törədə bilər!
Çiçək yanaqlarda riya gizlənə bilər.
Gözəl erkək – mənən çirkin kişi ola bilər.
Gözəl dişi – mənən çirkin qadın ola bilər.
Sərv boyun kölgəsində köləlik daldalana bilər.

Şahanə yerişin kölgəsində aldanış daldalana bilər.

Zərif çöhrə kobud qəlbi gizlədə bilər.

Cismani cazibədarlıq ruhaniliyə xidmət etdiyi qədər də maddiyyata xidmət edir.

Bir tərəfdən, cismani gözəllik vasitəsiylə ruhani mahiyyət aşkara çıxır; biçim ahəngdarlığı, cazibədarlığı Mütləqin rəmzi səviyyəsinə yüksəlir.

Digər tərəfdən, son nəticədə cismani gözəllik cinsi əlaqə adlanan maddi hadisəyə xidmət edir.

Gözəllik heyrətləndirir, vəcdə gətirir, ilahiləşir, ancaq son nəticədə adiləşir.

Ən heyrətamiz üz sonradan, dünənki Aşiqin, dəlinin, vurğunun gözündə adi üzə çevrilir, heyrət tükənir.

Ən heyrətamiz baxış sonradan, dünənki Aşiqin, dəlinin, vurğunun gözündə adiləşir, heyrət tükənir.

Əfsanəvi məqamlar adiləşir, həsrət yanğısını vüsal suyu söndürür, cismanilik tədricən öz ruhani mənasını itirməyə başlayır.

İnsana elə gəlir ki, üz üzdən artıq, dodaq dodaqdan artıq, göz gözdən artıq bir şey deyil.

Əslində bu, həyatın böyük səhvlərindən biridir. Cismani gözəllik heç vaxt maddiyyat olaraq qalmır, o, özündə ruhanilik, müqəddəslik, Mütləqlik gəzdirir. Həyat bir həqiqəti sübut eləyir: gözəl olmayan ruhani ola bilər, gözəllik ruhaniliyin yeganə və tam ifadəsi deyil, o, ruhanilikdən aşağıdır.

Gözəllik ruhaniliyin cazibədar ifadəsidir. Lakin öz daxili imkanları nöqteyi-nəzərindən o, ruhaniliyə bərabər deyil.

Ruhanilik gözəllikdə öz ifadəsini tapırsa da, gözəllik ruhaniliyə bərabər ola bilmir.

Gözəllik ruhanini ifadə edən maddiyyatdır.

O, ruhaniliyin ani vəziyyətidir, əbədi vəziyyəti deyil. Bu səbəbdən də gözəllik – dəyişkən, keçici, ölümlüdür.

Ən gözəl üz – qırışlarla örtülür, son nəticədə isə torpağa çevrilir, ən gözəl bədən – torpağa çevrilir.

Cismaninin ölümə məhkum olmasında maddiyyatın ruhanilik imkanlarının məhdudluğu aşkara çıxır.

Ölüm məqamında cismani gözəlliyin natamamlığı, naqisliyi bilinir.

Gözəllik bir anlığa ruha məxsus olsa da, əslində ölümündür. Öz natamamlığına, naqisliyinə baxmayaraq, gözəllik həyatda eybəcərliklə daim vuruşur, ancaq bu vuruşmada eybəcərliyə tam qalib gələ bilmir, eybəcərliyi həyatdan qova bilmir.

İnsanın daxili aləmində ahəngdarlıq, rəvanlıqla yanaşı, qarışıqlıq, pozğunluq da yaşayır.

Birincini gözəllik, ikincini eybəcərlik yaradır.

Həyatda gözəllik eybəcərliklə vuruşur, ancaq həmin vuruşda tam qələbə çalmır, eybəcərliyi daxili aləmdən qovmaq olmur.

İnsani münasibətlərdə ahəngdarlıqla, rəvanlıqla yanaşı, qarışıqlıq, pozğunluq da yaşayır.

Birincini gözəllik, ikincini eybəcərlik yaradır.

Həyatda gözəllik eybəcərliklə vuruşur, ancaq bu vuruşda tam qələbə əldə etmir, eybəcərliyi insan münasibətlərindən qovmaq olmur.

***Cəmiyyətdə*** ahəngdarlıqla, rəvanlıqla yanaşı, qarışıqlıq, pozğunluq da yaşayır. Həyatda gözəllik eybəcərliklə vuruşur, ancaq bu vuruşda tam qələbə çala bilmir, eybəcərliyi cəmiyyətdən qova bilmir.

***İnsanın arzularında, niyyətlərində, istəklərində*** ahəngdarlıqla, rəvanlıqla yanaşı, qarışıqlıq, pozğunluq da yaşayır. Birincini gözəllik, ikincini eybəcərlik yaradır. Həyatda gözəllik eybəcərliklə vuruşur, lakin eybəcərliyin üzərində tam qələbə çala bilmir, eybəcərliyi insan istəklərindən qova bilmir.

***İdrakda*** ahəngdarlıqla, rəvanlıqla yanaşı, qarışıqlıq, pozğunluq da yaşayır.

Birincini gözəllik, ikincini eybəcərlik yaradır. Həyatda gözəllik eybəcərliklə vuruşur, fəqət eybəcərliyi tam dəf edə bilmir, idrakdan qova bilmir.

İnsan həyatdakı eybəcərliyə qarşı ***sənət*** adlı gözəlliyi qoyur. Ancaq burada da eybəcərlik özünə yer tapır, sənət əsərlərinin çoxu kamil gözəllik səviyyəsinə qalxmır, bədiiyyata heyranlıq bir çox hallarda işə, əmələ, fəaliyyətə biganəlik yaradır, gözəlliyi tərənnüm edənlər həyatda eybəcərliyə qapılırlar. Bir sözlə, həyatın təsdiq etdiyi sənət gözəlliklə eybəcərliyin cəmindən ibarət olur, Mütləq Gözəlliyə çatmır.

Mütləq Gözəlliyə yalnız Ali Həyatın tələbi əsasında yaşayanlar çatır ki, onların sayı son dərəcə azdır.

Həyat gözəl ola bilmir, çünki eybəcərlikdən xilas ola bilmir.

## Saflıq – Günah

İnsan özüylə barışanda, kifayətlənəndə günaha batır.

Yırtıcılığıyla barışır – günaha batır!

Zorakılığıyla barışır – günaha batır!
Zəlilliyiylə barışır – günaha batır!
Qəddarlığıyla barışır – günaha batır!
Şöhrətpərəstliyiylə barışır – günaha batır!
Süniliyiylə barışır – günaha batır!
İnamsızlığıyla barışır – günaha batır!
Nankorluğuyla barışır – günaha batır!
Bədxahlığıyla barışır – günaha batır!
Qorxuyla barışır – günaha batır!
Müxənnətliklə barışır – günaha batır!
Məhəbbətsizliklə barışır – günaha batır!
İlqarsızlığıyla barışır – günaha batır!
Qibtəsiylə barışır – günaha batır!
Ədalətsizliyiylə barışır – günaha batır!
Ətalətiylə barışır – günaha batır!
İşrətsevərliyiylə barışır – günaha batır!
Naşılığıyla barışır – günaha batır!
***İmtina olmayan yerdə insan günaha batır!***

Çünki həyatda insan nöqsanlıdır, naqisdir, qarışıqdır, natamdır. Bu səbəbdən də o,öz daxili dünyasıyla döyüşməli olur. Saflıq həmin döyüşün nəticəsi kimi meydana çıxır. İnsan qəlbindən, düşüncəsindən, əməllərindən günahı silməyə çalışır. Ancaq həyatda bu döyüş saflığın tam qələbəsiylə bitmir, günah həyatdan silinmir.

Həyatda saflıq həmişə nisbi səciyyə daşıyır. Bu səbəbdən də onu tam saflıq adlandırmaq olmaz. Bu nöqteyi-nəzərdən, yaşamaq – hardasa günah işlətmək deməkdir.

Həyat nisbi saflıqla barışdığından, insan həyatı günahkar həyat olur.

Çünki kiçik günah da əslində günahdır, kiçik xəyanət də xəyanətdir, kiçik nankorluq da nankorluqdur, kiçik yalan da yalandır, kiçik sünilik də sünilikdir, kiçik həqarət də həqarətdir.

***Saflıq bulağı çirk götürmür.***
***Həyat isə çirkdən azad deyil.***

Bu səbəbdən də həyat saflıq bulağı yarada bilmir.

Saflıq – mütləq günahsızlıq tələb edir.

Həyatda isə yalnız nisbi günahsızlıq mövcud olur.

Bu səbəbdən də günahın çeşidləri sonsuzdur.

Övlad ana qarşısında günahkar ola bilər.

Şəxsiyyət xalq qarşısında günahkar olduğu kimi, haradasa xalq da şəxsiyyət qarşısında günahkar ola bilər.

Tələbə ustad qarşısında günahkar olduğu kimi, haradasa ustad da tələbə qarşısında günahkar ola bilər.

Müttəhim hakim qarşısında günahkar olduğu kimi, haradasa hakim də müttəhim qarşısında günahkar ola bilər.

Vətəndaş vətən qarşısında günahkar olduğu kimi, haradasa vətən də vətəndaş qarşısında günahkar ola bilər.

Cavan qoca qarşısında günahkar olduğu kimi, haradasa qoca da cavan qarşısında günahkar ola bilər.

Diri ölü qarşısında günahkar olduğu kimi, haradasa ölü də diri qarşısında günahkar ola bilər.

Uşaqlıqda insan anasını incidir – günaha batır, cavanlıqda həyanı unudur – günaha batır, yetkinlikdə həyata uyğunlaşır – günaha batır, qocalıqda – özünü günahkar saymır – günaha batır!

Saflığa can atan insan Həyatın məntiqini rəqq edir, Ali Həyatın məntiqini qəbul edir.

Bu səbəbdən də saflıq insanı həyatdan yüksəyə qaldırır. Ali Həyatın məntiqiylə yaşayan, özü üzərində qələbə çalan şəxs həyatdan böyük olur.

## Müqəddəslik – Hərcayilik

***Müqəddəslik*** – hadisələrin, keyfiyyətlərin, xassələrin əbədi, sonsuz, kamil, mütləq mənasını təsdiq edir.

***Hərcayilik*** – hadisələrin, keyfiyyətlərin, xassələrin ölümlü, keçici, qeyri-kamil, nisbi mövcudluğunu təsdiq edir.

Bu cəhətdən, müqəddəsliklə hərcayilik bir-biriylə yanaşı yaşayır və vuruşur.

Həyat onların heç birinə tam qələbə gətirmir, hər ikisini yaşadır.

O, insanın qəlbində yaşayan iki duyğunun – həyatın həyatdan böyük mənasını qiymətləndirmə meylinin və həyata həyatın gözüylə baxmaq həvəsinin – hər ikisinə özünü təsdiq imkanı verir.

Bəşər – müqəddəsdir, çünki insanlığın ruhani mahiyyətində həyata sığmayan, ondan kənara çıxan, yüksəyə qalxan Mütləq Xeyir, Gözəllik, Kamillik yaşayır.

Eyni zamanda, bəşərə adi varlıqların cəmi kimi də baxmaq olar və həmin baxış həyatın ümumi məntiqinə zidd gəlməz. Çünki bəşər gerçəklikdə öz müqəddəs mahiyyətini naqis, nisbi, qeyri-kamil biçimdə aşkara çıxarır. Buna görə də hərcayilik öz qiymətinə haqq qazandırmağı bacarır.

Hərcayilik deyə bilər ki, müqəddəs sayılan bəşər naşılıqdan, zəlillikdən, aldanışdan, xəbislikdən xali deyil, həm də bəşər övladı keçicidir, ölümlüdür. Bu səbəbdən də ona adi bir hadisə kimi baxmaq lazımdır.

Hərcayilik nəzərə almır, anlamır ki, bəşərin mahiyyəti təzahüründən böyükdür, yüksəkdir, artıqdır, bu səbəbdən də onu təzahür çərçivəsində qiymətləndirmək olmaz, o, göründüyündən, bilindiyindən, dərk ediləndən fərqlidir.

***Müqəddəslik mahiyyətə varır, hərcayilik təzahürdə qalır.***

Həyat müqəddəsliklə hərcayilik arasında gedən mübahisədə müqəddəsliyə üstünlük verir.

Bu, həyata üzəvari genişlik gətirirsə də, əslində onu hərcayiliyin mahiyyətindən xilas etmir, əksinə, həmin məhdudiyyəti qoruyan qüvvəyə çevirir.

Müqəddəslik hərcayiliyi həyatdan qova bilmir, çünki əslində hərcayiliyin arxasında həyatın özü durur.

***Amal*** müqəddəsdir, çünki öz mahiyyəti etibarilə əbədi, sonsuz və kamildir, həyatdan artıqdır, yüksəkdir və böyükdür.

Hərcayilik Amala – həyatda təzahür edən, aşkara çıxan əməllər baxımından yanaşır, onlarda naqislik, keçicilik, qeyri-kamillik gördüyündən, Amalda da onları görür və Amalın Mütləq mənasını qavraya bilmir.

Müqəddəslik hərcayiliklə döyüşür, ancaq hərcayiliyə tam qələbə çala bilmir. Çünki bu naşılığın arxasında həyatın özü dayanır, bu naşılığı əslində həyatın özü qoruyur.

Beləliklə də Amal müqəddəsliyi hərcayilik vasitəsiylə əməl adiliyinə endirilir.

Müqəddəslik hərcayiliklə döyüşür, ancaq hərcayiliyə tam qələbə çala bilmir, çünki hərcayilik həyata yaxın, uyğun olduğu üçün həyatda həmişə özünə yer tapır.

***Xeyir*** – müqəddəsdir, çünki Mütləq mənada kamil, əbədi və sonsuzdur.

Lakin hərcayilik Xeyirin həyatdakı nisbi, nöqsanlı, keçici təzahürləriylə kifayətləndiyindən, barışdığından, əlamətə pərçimlənib mahiyyətə çata bilmədiyindən – Xeyiri müqəddəs saymır, ona bəsit nəzərlərlə baxır.

Müqəddəslik hərcayiliklə döyüşürsə də, hərcayiliyi həyatdan itirə bilmir, çünki həyat bunu istəmir.

Çünki həyat müqəddəsliyə düşmən olmasa da, hərcayiliyə də yaxındır. ***Müqəddəslik həyata gərginlik gətirir,*** ona təsir göstərir,

onun naqisliyiylə barışmır. Bu baxımdan, müqəddəslik həyatın istəkli övladı ola bilmir.

***Hərcayilik isə həyatla həmahəng yaşayır, onu bütünlüklə qəbul edir, onun axarında, ahəngində itir, bu səbəbdən də həyatın xoşuna gəlir.***

Müqəddəslik hərcayiliklə döyüşürsə də, onu həyatdan qova bilmir, çünki bunu həyat özü istəmir.

***Mütləq*** Müqəddəsdir, çünki mahiyyətdir, ruhanidir, sığmazdır.

Hərcayilik Mütləqin özünü dərk edə bilmir, o, Mütləqin həyatda nisbi təzahürləriylə rastlaşır, onları Mütləq sayır və bu səbəbdən Mütləqin müqəddəsliyini qəbul etmir. Müqəddəslik hərcayiliklə döyüşür, ancaq hərcayiliyi həyatdan qova bilmir, çünki həyat özü bunu istəmir.

***İnam*** müqəddəsdir, çünki Mütləq mahiyyətə, mənaya malikdir. Hərcayilik İnamın həyatdakı nisbi, naqis, yarıinam, yarışübhə təzahürləriylə qarşılaşır, onları İnam sayır, əlaməti mahiyyət hesab edir və bu səbəbdən də İnamın müqəddəsliyini inkar edir. Müqəddəslik hərcayiliklə döyüşür, İnamın Mütləq mahiyyətini təsdiq edir, ancaq hərcayiliyi həyatdan qova bilmir, çünki həyat özü bunu istəmir.

***Vətən*** – müqəddəsdir, çünki Mütləq, əbədi, kamil, sonsuz mənaya malikdir.

Hərcayilik vətənlə daim təmasda olsa da, adiliyin arxasında dayanan qeyri-adiliyi görmür, Vətən onun gözündə adiləşir, hərcayilikdə Vətən müqəddəsliyi itir. Müqəddəslik hərcayiliklə mübarizə aparır, ancaq bu mübarizədə tam qələbəyə nail olmur, hərcayilik məğlub olmur, çünki həyat hərcayiliyə havadarlıq eləyir.

***Məhəbbət*** – müqəddəsdir, çünki əbədi, sonsuz və kamil mənaya malikdir. Hərcayilik məhəbbətin yarımçıq, natam, qeyri-kamil nişanələriylə, əlamətləriylə məhdudlaşdığından, onun müqəddəsliyini təsdiq etmir. Müqəddəslik hərcayiliklə vuruşur, ancaq hərcayiliyi həyatdan qova bilmir, çünki həyat hərcayiliyin tərəfini saxlayır.

***Analıq*** – müqəddəsdir, çünki əbədi, kamil, sonsuz mənaya malikdir. Hərcayilik bu mənanı duymur, o, analığın keçiciliyini, ölümlüyünü, qeyri-kamilliyini görür və müqəddəsliyini inkar edir. Müqəddəslik hərcayiliklə döyüşür, fəqət bu döyüşdə o, istəyinə nail olmur, hərcayilik həyatı tərk etmir, çünki həyat özü bunu istəmir.

***Atalıq*** – müqəddəsdir, çünki əbədi, kamil, sonsuz mənaya malikdir. Hərcayilik isə həyatda atalığın natam, naqis, qeyri-kamil təzahürüylə məhdudlaşdığından, onun müqəddəsliyini danır.

Müqəddəslik hərcayiliklə döyüşür, ancaq hərcayiliyi həyatdan qopara bilmir, çünki həyat hərcayiliyi qoruyur.

***Fədakarlıq*** – müqəddəsdir, çünki özündə əbədi, sonsuz, kamil məna daşıyır. Ancaq hərcayilik “yaşamaq hər şeydir” iddiasına əsaslanaraq, fədakarlığın müqəddəsliyini inkar edir, özünümühafizəni özündən keçməkdən yüksək sayır. Müqəddəslik hərcayiliklə döyüşür, ancaq döyüşün nəticəsi Mütləq olmur, hərcayilik ölmür, çünki həyat onu hifz edir.

***Vicdan*** – müqəddəsdir, çünki əbədi, kamil, sonsuz mahiyyətə malikdir. Hərcayilik isə vicdanın həyatda nisbi, nöqsanlı, natam təzahürüylə məhdudlaşdığından, onun müqəddəsliyinə inanmır. Müqəddəslik hərcayiliklə döyüşür, ancaq bu döyüş istənilən nəticəni vermir, çünki həyat hərcayiliyə kömək eləyir.

***Ruhanilik*** – müqəddəsdir, çünki Mütləq mənada əbədi, sonsuz, kamildir.

Hərcayilik həyatda ruhaniliyin nöqsanlı, zəif, natam, qeyri-kamil təzahürüylə məhdudlaşdığından, onun müqəddəsliyini inkar edir. Müqəddəslik hərcayiliklə döyüşür, ancaq həmin döyüşün qələbəsi Mütləq səciyyə daşımır, hərcayilik ölmür, çünki həyat tərəfindən istənilir.

Hərcayilik həm də müqəddəsliyi öz səviyyəsinə uyğunlaşdırmağa, öz mənafeyinə tabe etməyə, mənimsəməyə cəhd göstərir.

***Mütləq uğrunda döyüş*** pərdəsi altında – fatehlik mənfəəti həyata keçir.

***Amal uğrunda döyüş*** pərdəsi altında müstəbidlik mənfəəti həyata keçir.

***Vətən uğrunda döyüş*** pərdəsi altında hakimlik mənfəəti həyata keçir.

***Vicdan uğrunda döyüş*** pərdəsi altında mənəvi əsarət qəbahəti həyata keçir.

***Fədakarlıq pərdəsi altında*** şöhrətpərəstlik mənfəəti həyata keçir.

Əlamətə qapılıb qalan, mahiyyəti dərk etməyən, ona çatmayan hərcayilik “Müqəddəslik yoxdur!” – deyə bağırır.

“Qəhrəmanlıq yoxdur, yalnız şəxsin özünütəsdiq ehtirası var!” – deyir.

Məhəbbət yoxdur, yalnız nəşə qılığı var! – deyir.

Xeyir yoxdur, yalnız təmənna var! – deyir.

Ruhanilik yoxdur, yalnız maddi fayda var! – deyir.

Ülviyyət yoxdur, yalnız mənafe toqquşması var! – deyir.

Dostluq yoxdur, oyun var! – deyir.

İnam yoxdur, zor var! – deyir.

Mərdlik yoxdur, yırtıcılıq var! – deyir.

***Hərcayiliyin gözü müqəddəsliyi görmür.***

Hərcayiliyin gördüyü dünya müqəddəsliyini itirmiş dünya olur.

Həyatın antimüqəddəslik dövrü, zamanı, məqamı olur. Bu vaxt o, antihəyat səviyyəsinə enir. Ancaq gec-tez müqəddəslik yenə də həyatda bərqərar olur. Çünki hərcayiliyi qoruyan həyat müqəddəssiz də keçinə bilmir.

Birinci – onu cismaniylə, nisbiylə, ikinci – ruhaniylə, Mütləqlə bağlayır.

## İnam – Şübhə

***İnam*** həyatda əbədi, sonsuz, kamil mahiyyət görür.

***Şübhə*** həyatda yalnız keçici, ölümlü, qeyri-kamil əlamət görür.

İnam deyir ki, bütün nöqsanlarıyla yanaşı, həyat təsdiqə layiqdir, çünki o, özündən, görünəndən, təzahür edəndən artıqdır, böyükdür, yüksəkdir, onun keçiciliyinin arxasında sonsuzluq, qeyri-kamilliyinin arxasında kamillik dayanır.

Şübhə deyir ki, həyatda əbədi, sonsuz, kamil heç nə yoxdur, bu səbəbdən də o, təsdiqə layiq deyil.

İnam deyir ki, əslində ölümlü ölümsüzlüyün ifadəsidir, adi alinin ifadəsidir, dəyişkənlik sabitliyin ifadəsidir.

Həyatı təsdiq etmək üçün ona həyatdan yüksək nəzərlə baxmaq lazımdır.

Şübhə deyir ki, həyat təsdiqə layiq deyil, çünki onda müəyyənlik yoxdur, bu gün gənc olan – sabah qocadır, o biri gün isə ölüdür; bu gün həqiqət sayılan – sabah yalan sayılır. Həyatda Mütləq saflıq, böyüklük, ləyaqət olmur, müsbət keyfiyyətlər nisbi səciyyə daşıyır; gözəl çirkinə nisbətən gözəldir, xeyirxah bədxaha nisbətən xeyirxahdır, möhtəşəm zəifə nisbətən möhtəşəmdir, ədalətli zülmkara nisbətən ədalətlidir, sevinc kədərə nisbətən sevincdir, azadlıq əsarətə nisbətən azadlıqdır.

Həyatdakı hadisələr, keyfiyyətlər, xassələr haqqında qəti söz demək olmur.

***Kimdir insan?***

Tovuz quşu kimi bəzənən, çay kimi şırıldayan, günəşlə bir oyanan, məhəbbətli, ehtiraslı gəncmi, yoxsa duyğuları sönmüş, zəif, zəlil qocamı, yaxud torpağa çevrilib bir an içində heçə dönən ölümü?

***Kimdir insan?***

Məhəbbət dəlisi Aşiqmi, yoxsa nəşə dəlisi əyyaşmı?

Vətən dəlisi müdrikmi, yoxsa cah-cəlal dəlisi cahilmi?

***Kimdir insan?***

Sədaqətlimi – xəyanətlimi, qanadlımı – qarışqa yerişlimi, vicdanlımı – günahlımı?

Qadın – anadırmı, yoxsa nəşə alətidirmi, kişi – atadırmı, yoxsa nəşə köləsidirmi?

***Kimdir insan?***

Əyilənmi, ucalanmı, sevilənmi, sevdirənmi, doğulanmı, ölənmi, silahlımı, ilhamlımı, aldadanmı, aldananmı, cəmdən ayrılanmı, cəmə qovuşanmı, şəhərlər salanmı, ölkələr talan eləyənmi?

Canavaramı bənzəyir, quzuyamı?
Şirəmi bənzəyir – filəmi?
Tülküyəmi – ceyranamı?
İlanamı – pərvanəyəmi?
Şimşəyəmi – yağışamı?

***Nədir həyat?***

Cəfəngiyyatmi – mənamı?
Evmi – səhramı?
Yolmu – bulaqmı?
Selmi – alovmu?
***Həyatın məntiqi varmı?***

“Qeyrətli ol” – deyirlər. Ancaq Mütləq qeyrətlə yaşamaq mümkündürmü?

Yaşamaq üçün kimisə satmalısan, kiməsə xain çıxmalısan, əhdini pozmalısan!

Başqa cür yaşamaq olmaz.

Çünki həyatın əsaslı məntiqi yoxdur, onun məntiqi məntiqsizlikdir.

“Məhəbbətli ol” – deyirlər. Mütləq məhəbbətlə yaşamaq olmaz. Çünki yaşamaq üçün kiminsə başını kəsməlisən, kimisə tapdamalısan, meyidinin üzərindən keçməlisən.

“Vicdanlı ol, günaha batma!” – deyirlər. Günah işlətmədən yaşamaq olmaz.

Ya günaha batmalısan, ya da yaşamamalısan!

***Həyatın əsaslı məntiqi yoxdur. Onun məntiqi – məntiqsizlikdir.***

“Mənəvi ol!” – deyirlər. Mütləq mənəviliklə yaşamaq bir araya sığmır.

Mənəvi cəhətcə kamil olmaq – yaşamamaq deməkdir, çünki yaşamaq – haradasa pozğunluq, əxlaqsızlıq, heyvanilik deməkdir.

***Çünki həyatın əsaslı məntiqi yoxdur.***

***Həyatın məntiqi məntiqsizliyindədir.***

"Ədalətli ol!" – deyirlər. Ancaq Mütləq ədalətlə yaşamaq olmaz, çünki insanda hakimliyə, ağalığa meyil böyükdür.

Bu meyilə ədalətlə xidmət eləmək olmaz.

Ədalət vasitəsiylə ağalıq niyyətinə çatmaq olmaz.

***Çünki həyatın əsaslı məntiqi yoxdur.***

***Həyatın məntiqi məntiqsizlikdir.***

"Doğru ol!" – deyirlər. Mütləq doğruluqla yaşamaq mümkün deyil. Yaşamaq üçün yalana sığınmalısan.

***Həyatın əsaslı məntiqi yoxdur.***

***Həyatın məntiqi məntiqsizlikdir.***

"Vüqarlı ol!" – deyirlər və unudurlar ki, Mütləq vüqarla yaşamaq olmaz. Yaşamaq üçün vüqarı qurban verməlisən!

Həyat əyilən başları sayır.

***Həyatın əsaslı məntiqi yoxdur, onun məntiqi məntiqsizlikdir.***

"Mütləqi eşit!" – deyirlər. Mütləq tələblə yaşamaq – yaşamamaqdır.

"Fitnəkar olma!" deyirlər. Fitnəkar olmamaq – fitnəyə aldanmağa bərabərdir.

Çünki həyat fitnəylə doludur və insanlar, əslində aldananlara və aldadanlara bölünürlər.

***Çünki həyatın məntiqi məntiqsizlikdir.***

***İnam*** şübhəyə deyir ki, həyat sənin gördüyün həyat deyil, dünya sənin gördüyün dünya deyil, insan sənin gördüyün insan deyil; həyatı, dünyanı, insanı gözlə görmək mümkün deyil, çünki mahiyyət etibarilə onlar özlərindən artıq, böyük və yüksəkdirlər.

Bu baxımdan, əsil yaşamaq elə qeyrətli yaşamaqdır, çünki həyatın mənasına, mahiyyətinə uyğundur.

Bu səbəbdən insan vicdanlı yaşamalıdır, çünki bu, həyatın mənasına, mahiyyətinə uyğundur.

İnsan həqiqətçi kimi yaşamalıdır, çünki bu, həyatın əsl mənasına uyğundur.

İnsan məhəbbətli, mərhəmətli yaşamalıdır, çünki bu, həyatın əsl mənasına uyğundur.

İnsan vüqarlı yaşamalıdır, çünki bu, həyatın əsl mahiyyətinə uyğundur.

Əslində qeyrətsiz, məhəbbətsiz, vicdansız, vüqarsız yaşamaq – yaşamamaqdır. Çünki həyat özü özlüyündə yaşamağın meyarı ola bilməz.

Həyat yaşamağın qarışıq, natam ifadəsi olduğundan vüqarsızlıqla, qeyrətsizliklə barışa bilər.

Buna görə də yaşamaq – ***həyatın məntiqsiz məntiqindən imtina etmək deməkdir.***

***Yaşamaq – həm də həyatı eşitməmək deməkdir.***

Bu nöqteyi-nəzərdən həyatı rədd eləyən, qamçılayan Şübhə əslində onu qəbul edir, təsdiq edir, çünki insana, dünyaya həyatın məntiqi əsasında yanaşır.

Dünya öz mahiyyəti etibariylə əbədidir, kamildir, sonsuzdur: insan ölür – insanlıq ölmür; aşiq ölür – məhəbbət ölmür; qadın ölür – qadınlıq ölmür; qeyrətli ölür – qeyrət ölmür.

İnsan xəyanətə meyil etsə də, onu təqdir etmir; sədaqətə tapınır, sədaqəti təqdir və təsdiq edir.

İnsan əyyaşlığa meyil etsə də, əyyaşlığı təqdir etmir; məhəbbəti təqdir və təsdiq edir.

İnsan canavara bənzəyəndə belə, canavarlığı təqdir etmir; baş kəsəndə belə, başkəsənliyi təqdir etmir; günaha batanda belə, günahı təqdir etmir.

Çünki öz mahiyyəti etibariylə insan sədaqətlidir, qeyrətlidir, məhəbbətlidir, buna görə də ən çox özünə – insana bənzəyir.

İnsanın faciəsi ondadır ki, o hələlik demək olar heç vaxt öz mahiyyətinə uyğun yaşamayıb, onun gerçək həyatı mahiyyətindən, ruhani imkanlarından çox aşağı, çox məhdud, çox kiçik olub.

Bu səbəbdən də o, gerçəklikdə heç vaxt özü olmayıb.

Bu səbəbdən də o, özündə israf olunmamış, üzə çıxmamış sonsuz qüdrət gəzdirir.

Bu Qüdrət həyatdan böyük olduğundan həyata sığmır və həyatı Ali Həyat səviyyəsinə ucaldır.

Həyatda İnamla Şübhə daim döyüşür, ancaq bu döyüşdə İnam tam qələbə çalmır, Şübhə həyatdan silinmir, o, həyatla yanaşı yaşayır.

Şübhə bəzən yalançı İnam şəklində meydana çıxır.

Xurafat biçimində o, insanları o dünya cəfəngiyyatıyla, hurilər-pərilər bəxtiyarlığıyla, cənnət xülyasıyla, Yeri-Göyü yaradan Allah uydurmasıyla aldadır.

Bu aldanışın arxasında insana, onun ağlına, duyğularına hədsiz şübhə dayanır.

Şübhə insanın ağılsız, naşı, xülyapərəst olduğuna inandığından, cəfəngiyyatı həqiqət biçimində təqdim etməkdən çəkinmir.

Ancaq Şübhə səhv eləyir.

İnsan Mütləqə inandığı dərəcədə xurafata inanmır.

Şübhə Mütləq tanımır, çünki önü gözlə görmək olmaz, Mütləq – dünyanın, həyatın, insanın əbədi inkişafında, kamilləşməsində, xeyirləşməsində aşkara çıxır.

Bunu yalnız ruhun gözüylə görmək olar.

Şübhə öz qənaətlərində yanılır.

O, "xain olmayan yaşamır" – deyir.

Əslində yalnız xain olmayan yaşayır, çünki yaşamaq həyatın mahiyyətinə uyğun gəlməkdir.

Şübhə "yalan danışmayan yaşamır" – deyir.

Əslində isə yalnız yalan danışmayan yaşayır, çünki əsil yaşamaq – həyatın mahiyyətinə uyğun yaşamaqdır.

Şübhə "mənəvi olan yaşamır" – deyir, əslində isə yalnız mənəvi olan yaşayır, çünki əsil yaşamaq – həyatın mahiyyətinə uyğun yaşamaqdır.

Şübhə "Mütləqlə yaşayan yaşamır" – deyir.

Əslində isə yalnız Mütləqlə yaşayan yaşayır, çünki bununla o, həyatı ötüb keçir.

Şübhə insanı həyatda saxlamağa çalışır.

İnam insanı Ali Həyata yüksəldir.

## Ədalət – Zülm

***Ədalət*** həyatda öz müxtəlif nişanələriylə təzahür edir.

***Zülm*** həyatda köklü, əsaslı, davamlı hadisə kimi təzahür edir. ***Ədalət*** zülmlə döyüşür, ancaq zülmə qələbə çala bilmir, zülm həyatdan silinmir, öz biçimini dəyişdirir və yaşayır. Son nəticədə həyatda ədalətin təzahürü artır, ancaq zülmün kökü kəsilmir. ***Zülm*** həyatı tərk etmir.

***Ədalət*** deyir ki, dünya hamınındır, bu səbəbdən də hamının dünyadan bəhrələnməyə eyni dərəcədə haqqı var.

***Zülm*** deyir ki, dünya – hamının deyil, zorlunun, güclünün, hakimindir, hamı zora, gücə, hakimiyyətə əyilməlidir.

***Ədalət*** deyir ki, cəmiyyət hamınındır, bu səbəbdən də hamı cəmiyyətdən eyni dərəcədə bəhrələnməlidir.

***Zülm*** deyir ki, cəmiyyət – güclünün, varlının, zorlunun, hakim olanındır, bu səbəbdən də hamı, gücə, vara, zora, hakimliyə əyilməlidir.

***Ədalət*** deyir ki, insan kim olursa-olsun, qiymətlidir, hörmətə layiqdir.

***Zülm*** deyir ki, yalnız güclü, zorlu, hakim insan hörmətə, izzətə layiqdir, başqaları gücə, zora, hakimliyə əyilməlidirlər.

***Ədalət*** deyir ki, bütün xalqlar eyni dərəcədə bəşərin övladlarıdır və dünyada eyni hüquqa malik olmalıdır.

***Zülm*** deyir ki, yalnız zorlu, güclü, varlı, möhtəşəm xalq bəşəri təmsil eləyə bilər, başqaları ona əyilməlidir.

***Ədalət*** deyir ki, insan naləsindən, fəryadından, göz yaşından ürəklər od tutub yanır.

***Zülm*** deyir ki, zorun, gücün, hakimliyin özünü təsdiq etməsi üçün nalələr, fəryadlar, göz yaşları zəruridir.

***Ədalət*** deyir ki, həqiqətin qələbəsi – insanın şərəfidir.

***Zülm*** deyir ki, həqiqət zora, gücə, hakimliyə baş əyməlidir.

***Ədalət*** deyir ki, insan azad yaşamalı, düşünməli, duymalıdır.

***Zülm*** deyir ki, insan gücə, zora, hakimliyə əyilməlidir.

***Ədalət*** deyir ki, insan ləyaqətini tapdamaq olmaz, çünki ləyaqət insan həyatının mənasını təsdiq edir.

***Zülm*** deyir ki, güc, zor və hakimlik ləyaqəti var, başqa ləyaqətlər yoxdur, çünki dünyada nə varsa, gücə, zora və hakimliyə baş əyir.

***Ədalət*** deyir ki, qan tökmək günahdır.

***Zülm*** deyir ki, qan tökmək zorun, gücün, hakimliyin təsdiqidir, ona görə də labüddür.

***Ədalət*** deyir ki, ölkələri viran qoymaq günahdır.

***Zülm*** deyir ki, bu, zorun, gücün, hakimliyin təsdiqidir, ona görə də labüddür.

***Ədalət*** deyir ki, insanı əşyaya çevirmək günahdır.

***Zülm*** deyir ki, bu, zorun, gücün, hakimliyin təsdiqidir, bu səbəbdən də labüddür.

***Ədalət*** deyir ki, insan üzərində ağalıq günahdır.

***Zülm*** deyir ki, bu, zorun, gücün, hakimliyin təsdiqidir və bu səbəbdən də labüddür.

***Ədalət*** deyir ki, insanın böyüklüyü onun ruhaniliyə xidmət etməsiylə ölçülür.

***Zülm*** deyir ki, onun böyüklüyü zora, gücə, hakimliyə gərək olmasıyla ölçülür.

***Ədalət*** məhəbbət yaradır, ***zülm*** – nifrət!

***Ədalət*** sədaqət yaradır, ***zülm*** – xəyanət!

***Ədalət*** saflıq yaradır, ***zülm*** – hərcayilik!

***Ədalətin*** üzü birdir, ***zülmün*** üzü – min!

***Zülm ədalət donuna girə bilir.***

Qəbahətlər törədir – ləyaqət kimi görünməyə çalışır.

Fəlakətə sürükləyir – nicat verən kimi görünməyə çalışır.

Cəhalətə salır – cəhalətdən qurtaran kimi görünməyə çalışır.

Əsarətə salır – azadlığa çıxaran kimi görünür.

Düşməndir – dost kimi görünür.

Azğındır – mərhəmətli kimi görünür.

Zülmətdir – işıq kimi görünür.

***Ədalətlə*** döyüşdə ***zülm*** ani məğlubiyyətə uğrayır, geri çəkilir, cildini dəyişir, lakin yenidən peyda olur, yaşayır.

***Zülmdən qurtarmaq üçün həyat Ali Həyata çevrilməlidir.***

Ədalətin zülm üzərində tam qələbəsi Ali Həyatda baş verir!

## Azadlıq – Əsarət

***Azadlıq – insanın ruhani varlıq kimi təsdiqi deməkdir.***

***Əsarət – insanın ruhani varlıq kimi inkarı deməkdir.***

Azadlıqda ruhanilik – müstəqillik, özünəməxsusluq, özünəsahiblik şəklində aşkara çıxır.

Ruhanilik – müstəqillik, özünəməxsusluq, özünəsahiblik deməkdir, çünki onlarsız kamillik, əbədilik və sonsuzluq yoxdur. Əsarətdə insan müstəqilliyini, özünəməxsusluğunu, özünəsahibliyini itirir və bununla da öz ruhani mahiyyətindən məhrum olur, çünki qeyri-müstəqil olmaq qeyri-ruhani olmaqdır.

Həyatda insan özünün tam sahibi olmur.

Eyni zamanda həyatda insan qeyri-müstəqil, asılı, əsarətli vəziyyətdə də yaşaya bilmir.

Həyatda azadlıqla əsarət daim döyüşür, ancaq bu döyüşdə azadlıq heç vaxt tam qələbə çala bilmir, bu döyüş demək olar ki, heç vaxt əsarəti tam məğlub etmir.

Həyatda azadlıqla əsarətin döyüşü əbədi olduğu kimi, onların bir-biriylə yanaşı yaşaması da əbədidir.

Həyat bu çərçivədən kənara çıxa bilmir.

Bu baxımdan, həyat azadlıq və əsarətin döyüşü və qoşa yaşamasıdır.

Azadlıqla döyüşdə əsarətin ani məğlubiyyəti, geriyə çəkilməsi həmişə olur, ancaq əsarət heç vaxt həyatdan yox olmur, daim təzədən başqa biçimdə həyatda bərqərar olur.

Azadlıq əsarəti yer üzündən silə bilmir və həyat əsarətdən heç vaxt xali olmur.

Azadlıqla əsarətin döyüşü insanın özüylə döyüşündə aşkara çıxır.

Özünə sahib olmaq üçün insan öz naqisliyi üzərində qələbə çalmalıdır, özü üzərində yüksəlməlidir, daxilindəki düşməni öldürməlidir, xəbisliyi, qəddarlığı, hevaniliyi, məkri, fitnəni, zəlilliyi, miskinliyi, riyanı, mənfəətpərəstliyi, inamsızlığı məhv etməlidir.

İnsan ilk növbədə özünün əsarətindən qurtarmalıdır. Bu döyüşdə hələlik insan heç vaxt tam qələbə çala bilməyib, özünü kamilləşdirməyə çalışıbsa da, buna tam nail ola bilməyib, insanın daxili aləmi çirkinliklərdən təmizlənməyib , insanın özü üzərində qələbəsi həmişə nisbi səciyyə daşıyır.

Bu cəhətdən insan öz həyatında demək olar ki, heç vaxt tam ruhani varlıq kimi yaşamayıb...

Yalnız Ali Həyatda – adi həyatdan yüksək, kamil və sonsuz olan həyatda, insan tam ruhani xilqət kimi yaşaya bilər.

Həyat insana bu imkanı yaratmır.

İnsan həyatda özünə heç zaman tam sahib olmur.

Bu səbəbdən də o, həyatda heç zaman tam azad olmur.

Həyatda azadlıqla əsarətin döyüşü həm də ***insanla cəmiyyətin döyüşü*** şəklində meydana çıxır.

***Cəmiyyət*** insana heç vaxt tam, bütöv, müstəqil, ruhani varlıq kimi yaşamaq imkanı vermir, o, müstəqilliyi, özünəməxsusluğu insanın əlindən alır, onun taleyinə, ağlına, qəlbinə sahib olmağa çalışır, onu çansızlaşdırır, əşyalaşdırır.

***Cəmiyyət*** insanı bütöv, müstəqil, ruhani varlıq kimi qiymətləndirmir, onun özünəməxsusluğunu qorumur, onu cəmə tabe olan, cəm tərəfindən idarə olunan qeyri-müstəqil varlıq sayır.

***Cəmiyyətin*** gözündə insan cəmiyyətlə məhdudlaşır, cəmiyyətə sığmamaq, ruhani mahiyyət kəsb etmək həqiqəti cəmiyyətə yabançıdır.

***Cəmiyyət*** öz təsəvvüründə insanı özümləşdirir, istədiyi şəklə salır, istədiyi kimi yaşadır.

***Cəmiyyət*** üçün insani mövcudluq – cəmiyyətlə eyniləşməkdir.

Ruhanilik cəmiyyətə sığmamaqdırsa – deməli, çəfəngiyyatdır. İnsan müstəqilliyə can atırsa, özünə sahib olmaq istəyirsə, özü-özünə sahib olmaq diləyirsə, deməli, müstəqillik – çəfəngiyyatdır.

İnsan öz mahiyyətini cəmiyyətdə yox, ruhanilikdə tapırsa, deməli, o, nankordur, naşıdır.

İnsanda nə varsa – cəmiyyət tərəfindən verilir, insan nə olacaqsa – cəmiyyət vasitəsi ilə olur, onun səadəti, gələcəyi, böyüklüyü, qüdrəti cəmiyyətdən asılıdır.

O, özündən yox, cəmiyyətdən nicat gözləməlidir, çünki o, özünün yox, cəmiyyətin ixtiyarındadır, cəmiyyətin məntiqinə görə pis insan, yaxşı insan yoxdur, pis cəmiyyət və yaxşı cəmiyyət var.

Yaxşı yaşamaq istəyirsənsə, pis cəmiyyəti yaxşı cəmiyyətlə əvəz et! Özünü cəmiyyətdən azad etmək xülyasına düşmə! Bunu bacarmazsan! Çünki cəmiyyətdən azad olmaq – özündən azad olmaqdır.

İnsan cəmiyyəti eşidəndə belə, ona qarşı vuruşur, özünü cəmiyyətin məhsulu sayanda belə, cəmiyyətlə döyüşür, çünki əsarətlə heç vaxt barışmır.

Ancaq bu döyüşdə azadlıq tam qələbə çalmır, çünki cəmiyyət insana tam azadlıq vermək səviyyəsinə qalxmır.

İnsan özünə sahib ola bilmir, onu təzədən əsarətə salırlar.

Bu səbəbdən də həyatda insanın azadlıq arzusu tam qələbə çalmır, əsarət həyatı tərk etmir, həyatdan qopmur.

Azadlığın əsarətlə döyüşü – ***əsarətə düşən xalqla əsarətə salan xalq*** arasında mübarizə şəklində də meydana çıxır. Əsarətə salan xalq deyir ki, digər xalqı əsarətə salmaqla, onun müstəqilliyini əlindən almaqla mən onu xilas etmişəm, ona tərəqqi gətirmişəm.

Müstəqilliyini əlindən almışamsa da, onun özü üzərində sahibliyinə son qoymuşamsa da, əvəzinə onu inkişaf yoluna çıxarmışam. Bu səbəbdən də mənim əsarətimdən qurtarmaq əslində məhv olmaqdır. Bu cəhətdən, əsarətim əslində səadətdir!

Əsarətə salınan xalq isə gec-tez deyir ki, sənin mənə gətirdiyin bəxtiyarlıqlar, qələbələr, nailiyyətlər, tərəqqilər, inkişaflar aldıqlarının yanında bir heçdir.

***Əgər mən xalqamsa***, müstəqil olmalı, müstəqil düşünməli, müstəqil fəaliyyət göstərməliyəm. Sən məni özümün əlimdən alırsan, xəlqilik keyfiyyətindən məhrum edirsən. Özümə sahib deyiləmsə – xalq deyiləm! Müstəqil yaşaya bilmirəmsə – yaşamıram! Özüm öz taleyimi həll edə bilmirəmsə – bir xalq kimi yoxam. Sən məni yoxa çıxardırsan və mənə nailiyyətlər, inkişaflar bəxş edirsən. Mən sənə yox kimi lazımam! Mən xalq olmuram, xalq çağırılmıram və sənin əsarətin altında tərəqqiyə çatıram.

Əsarətə düşən xalq əsarətə salan xalqla döyüşür, fəqət bu döyüş azadlığın tam qələbəsiylə bitmir, azadlıq həyata sahib olmur, əsarət bəzən geri çəkilirsə də, məğlub olan görünürsə də, o, yenidən bərqərar olur, fəaliyyətini davam etdirir, özünü təsdiq etməyə çalışır. Bu baxımdan, azadlıq əsarəti dünyadan silə bilmir. Həyat əsarətlə azadlığı qoşalaşdırır.

Əsarət həyatda özünü yalançı ehkamlar, xurafatlar, kəlamlar şəklində də göstərir. İnsanlar həmin ehkamların, kəlamların, xurafatların əsiri olurlar. İnsanlara deyirlər ki, taleyin səndən asılı deyil, o, səndən kənardakı qüvvədən asılıdır, sənin aqibətini həmin qüvvə yaradır. Bu səbəbdən də sən insan özünü öz gücünlə, ağlınla, iradənlə, qüdrətinlə xilas edə bilməzsən, sən səndən kənardakı Qüdrəti dinləməlisən, ümidini ona bağlamalısan.

Bir zaman bu insandan üstün Qüvvəni Allah adlandırırdılar, sonra onu maddiyyat Qanunları saydılar və insanı onun əsarətinə salmağa çalışdılar. İnsan gah Allahdan nicat gözlədi, gah da maddi qanunlardan, ancaq nicat tapmadı, çünki nicat insanın özündə, maddiyyatdan yüksək olan ruhani xilqətindədir.

İnsanı yalnız insan xilas edə bilər. İnsan maddiyyatdan artıqdır, o, maddiyyata yox, maddiyyat ona tabe olmalıdır.

İnsanın mahiyyəti yeri-göyü yaradan Allah yalanını qəbul eləmir, onun Allahı ruhani mahiyyətində aşkara çıxan Mütləqdir. Həyatda insan həm də cənnət-cəhənnəm dünyası, cin-şeytan, huri-mələk cəhalətinə baş əymişdir və əyir. Dünyada pak, doğru, xeyirli yaşamağın mənasını cəhalət – axirət mükafatıyla bağlayır, insan öz ruhani ləyaqətini təsdiq eləmək əvəzinə cismani nəşə hərisinə çevrilir. Bununla da cəhalət insana “Sən heçsən! Çünki mükafatsız heç nə görmürsən, sənin fəaliyyətinin müstəqil mənası yoxdur!” – deyir. Həyatda azadlıq – ehkam, xurafat adlanan əsarətlə vuruşur. Ancaq bu vuruşda azadlıq tam qələbə çalmır, insanlar ehkam və xurafat əsarətindən qurtara bilmirlər, son nəticədə əsarət yaşayır, onu həyatdan silmək mümkün olmur.

Həyatda azadlıqla əsarətin döyüşü həm də ***cəsarətlə qorxunun döyüşü*** şəklində təzahür edir. Qorxu əsarəti insanı həyatla barışdırır, həyatla barışmaq isə əsarətlə barışmaqdır.

Qorxuda həyat ölüm vasitəsiylə qorunur. Qorxaq ölümdən qorxduğu üçün həyatla toqquşmaqdan çəkinir, onun sabit vəziyyətiylə razılaşır. Cəsarət həyatı özündən yüksəyə qaldırmağa çalışır, həyatın adi vəziyyətiylə barışmır, razılaşmır.

Həyatla razılaşmamaq – əsarətlə razılaşmamaqdır.

Cəsarətlə qorxaqlığın döyüşü – qədimdir, ancaq bu döyüşdə cəsarət tam qələbə çala bilməyib, qorxaqlığı həyatdan, insan mənəviyyatından silmək mümkün olmayıb. Yalnız Ali Həyatda cəsarət qorxaqlığın üzərində tam qələbə çala bilər.

Əsarət çox hallarda azadlıq libasında görünür, “mən azadlığam!” – deyə bar-bar bağırır.

“Mən azadlığam, çünki insanları özlərinə güvənmək, tam inanmaq, özlərindən nicat gözləmək təşəxxüsündən qurtarıram” – deyir. “Mən azadlığam, çünki mənim ehkamlarım bəşəri azadlığa çıxaracaqdır!” – deyir.

Əsarət həm də həqiqət libasında görünür, o, sübut eləməyə çalışır ki, azadlıq – əsarətə tabe olmaqdır, insan maddiyyat aləminin cüzi bir hissəsidir, bütün xalqlar azad ola bilməz, bir xalqın böyüklüyü başqa xalqın köləliyini tələb edir.

Həyatda müxtəlif libaslı əsarətlərin əsl mənası gec-tez bilinir, ancaq əsarəti həyatdan həmişəlik silmək mümkün olmur. Əsarətin məhvi Ali Həyat tələb edir.

## Eşq – Şəhvət

***Eşq – cismani cazibədarlıq vasitəsiylə qazanılan ruhani vəhdətdir.***

***Şəhvət – cismani nəşəsevərlikdir.***

Həyatda eşq – şəhvətlə yanaşı yaşayır, onunla döyüşür, ancaq ondan xilas ola bilmir, şəhvəti həyatdan silə bilmir. Bu cəhətdən, həyat eşqlə şəhvətin qoşa yaşamasıdır.

***Eşq*** – cismani cazibədarlığın arxasında ondan daha böyük, yüksək, artıq olan ruhani məna görür. Eşqdə cismanilik, biçim ahəngdarlığı, məlahət – ruhani məziyyət kəsb edir, ruhani mahiyyətin nişanəsi, rəmzi səviyyəsinə yüksəlir.

Gözdə – əbədi, sonsuz, kamil ruhani qüdrət görürsən! Üzdə – əbədi, sonsuz, kamil ruhani qüdrət görürsən! Gülüşdə, baxışda, yerişdə – əbədi, sonsuz, kamil ruhani qüdrət görürsən! Səsdə – əbədi, sonsuz, kamil ruhani mahiyyət görürsən!

Bu səbəbdən də eşq insanı sarsıdır.

Eşq vasitəsiylə əslində insan Mütləqlə görüşür, Mütləqin yaratdığı heyrət onun daxili dünyasına sığmır, onu sarsıdır.

Məhəbbət məqamında qalxdığı zirvəyə cismanilik bir də hec vaxt qalxmır.

Məhəbbət məqamında cismaniliyin təsiri təkraredilməz olur. Bu səbəbdən də eşq – insan həyatının xüsusi, misilsiz, qeyri-adi, ülvi məqamıdır. Aşiq üçün cismani heç vaxt adi maddi varlıq olmur, o, cismanidə həmişə Mütləq ruhanilik görür. Bu baxımdan ***eşq – cismaninin ruhaniləşməsi, nisbinin Mütləqləşməsidir.***

Aşiqlik – kəşfdir, cismanilik arxasında ruhaniliyin, nisbilik arxasında Mütləqin kəşfi! Aşiqlik müdrikliyinin mahiyyəti bundan ibarətdir.

Ancaq həyatda eşq müdrikliyi, aqibəti və qisməti ilə yanaşı, şəhvət ehtiyacı, ehtirası, təzavüzü də var. Şəhvət üçün əslində gözəllik yoxdur, çünki ruhanilik yoxdur.

Gözəllik – ruhaniliyin cismani təzahürüdur. Şəhvət üçün – gözəlliyin gərəkliyi, mənası, əhəmiyyəti – nəşə bəxş etməkdədir. Gözəllik şəhvətin gözündə nəşə alətidir.

Şəhvətin cismanidən umduğu yeganə nemət nəşədir; nəşənin keçiciliyi, aniliyi, adiliyi şəhvəti söndürmür, əksinə alışdırır. Bu cəhətdən şəhvətin gözü kordur, o, gözəlliyi görə bilmir, çünki cismaninin cismanidən böyük mənasını anlamır, hevanilik səviyyəsindən yuxarı qalxmır.

Əgər eşq insanı heyvanat aləmindən ayırırsa, şəhvət insanı həmin aləmə edirir.

İnsanın cinsi əlaqələrində eşqlə şəhvət çulğalaşır, bir-biri ilə döyüşür, ancaq əksər hallarda yanaşı yaşayırlar.

Məhəbbətin ülvi mərhələsində eşq şəhvətə qələbə çalır, onu hissiyyatdan qovur.

Aşiq üçün şəhvət yoxdur, çünki onun nəzərində cismanilik – ruhanilikdir, biçim – ülvi məzmundur, vüsal – ruhani vəhdətdir, sevgilinin üzü – müqəddəs kitabdır, onun mövcudluğunda həyata sığmayan ülviyyət yaşayır. Eşqdə adilik yoxdur – alilik var, biçim yoxdur – məna var, maraq yoxdur – heyrət var.

Ancaq həyatda cinsi münasibət eşq səviyyəsində durmur, bu, həyatın əzəli qaydalarına, doğulma, yaranma, nəsilartımı qanunlarına zidd olardı.

Cinsi əlaqə diriliyə, yaranışa, doğuluşa xidmət eləyir, həmin məqsəd isə şəhvət, cismani nəşə vasitəsiylə həyata keçir, buna görə də şəhvət müəyyən məqamda eşqi üstələyir, qeyri-adi, ülvi, sonsuz məna ifadə edən cismanilik son nəticədə şəhvətə, nəşə tələbinə tabe olur, onun qələbəsini hazırlayır.

Həyat eşq vasitəsiylə yox, şəhvət vasitəsiylə davam edir. Bu, həyatın başlıca xüsusiyyətlərindən biridir. Burada həyatın ruhaniləşmə məhdudluğu özünü göstərir.

Ancaq son nəticədə yenə də eşq, ruhanilik – övlada, ruhani xilqətə mənəvi münasibət təsdiq olunur.

Ancaq bu, şəhvəti həyatdan silmir. Həyat daim təkrarlanır və eşqlə yanaşı, şəhvət daim yaşayır.

Şəhvətin ən böyük eybəcərliyi özünü eşq kimi göstərməsində, eşq libası geyməsində, özünü ruhanilik rəmzi kimi təqdim etməsində, özüylə lovğalanmasında, özünə güvənməsində aşkara çıxır.

Şəhvət – nəşəni sevginin əsası saymaqla, onu vəsf etməklə insanları aldadır.

Cinsi nəşəni vəsf etmək insanın heyvaniliyini vəsf etməkdir.

Həyatda Füzuli aşiqliyi Vaqif nəşəsevərliyilə yanaşı yaşayır.

Şəhvanilik xurafatı qadın məkrinə və kişi əyyaşlığına zəngin imkan yaradır.

***Qadın*** öz cazibədarlığını cəlladlıq, hakimlik, xəbislik, baislik səviyyəsinə endirir, kişiləri miskin hala salır, onların ləyaqətini tapdalayır, ismətə, vəfaya, həyaya qənim kəsilir.

***Kişi*** şəhvət çirkabına batmağı nailiyyət sayır, hərəmxana rəzalətiylə öyünür, cismani murdarlıq, heyvanilik bataqlığını hünər meydanı hesab edir.

Hər iki vəziyyətdə insan əşyalaşır.

Şəhvətpərəst kişi əşyalaşdırır və əşyalaşır. O, şəhvət mənbəyi olan qadınları əşyalaşdırır, çünki onlara yalnız nəşə aləti kimi baxır, onları nəşə aləti kimi mənimsəyir. Eyni zamanda, o özü də əşyalaşır, şəhvət duyğusunun əlində oyuncağa çevrilir.

Şəhvətpərəstlik artdıqca – əsarət də artır.

Həyatdan ən çox götürən – əslində həyatda ən çox əsarətə düşəndir. O, həyatda sərbəst, müstəqil yaşamır, sahibinin – şəhvətin iradəsinə əyilir.

Məkrli qadın da əslində əşyalaşır. Birinci, o, öz qadınlığını varidata, fitnəyə, kinə, hakimiyyət ehtirasına qurban verməklə öz hərcayi həvəslərinin quluna çevrilir. O, kişiləri aldadır, alçaldır, ləyaqətsizləşdirir, ancaq bu "qələbə" analığın, gözəlliyin, qadınlığın alçalmasıyla qazanılır.

Digər tərəfdən, şəhvət aləti səviyyəsinə enməklə o, cinsi murdarlığın dəhşətli oyunlarında iştirak etməli olur, bununla da özünə xəyanət edir.

Beləliklə də əsil ruhani həyat – şəhvətdən kənarda, yüksəkdə mövcuddur. Fəqət insan şəhvətsiz yaşaya bilmir. Bu baxımdan, həyat eşqlə şəhvətin münaqişəsidir. Həmin münaqişə, bir tərəfdən, hər bir fərdin daxili dünyasında baş verir; digər tərəfdən, o, saflarla günahlıların, müqəddəslərlə hərcayilərin döyüşü şəklində aşkara çıxır. İnsanda eşq şəhvətlə birgə doğulur. İnsan başqa cinsdən olanın cismani cazibədarlığında ruhanilik görməklə yanaşı, həm də şəhvanilik görür. Bu, onun daxili dünyasında gərginlik yaradır. Daxili aləmdə iki bir-birinə zidd duyğunun münaqişəsi baş verir. Yalnız

eşqdə, Aşiqlik aqibətində və ülviyyətində cismanilik tam ruhaniləşir, insan nisbilik vasitəsiylə Mütləqlə görüşür. Həmin məqamın şeiriyyəti Mütləqdir.

Ancaq eşq məqamı başa çatanda, cinsi münasibət adiləşəndə, sakitləşəndə, sabitləşəndə şəhvanilik təzədən başını qaldırır. Hökmünü verir, yaranış, doğulma, dirilik suyu rolunu oynayır.

Digər tərəfdən, həyatda həmişə şəhvət üzərində qələbə çalan saf, müqəddəs şəxsiyyətlərlə yanaşı, şəhvəti hər şey sayan, şəhvətlə öyünən, müqəddəsliyi lənətləyən hərcayilər də yaşayırlar.

Müqəddəslərlə hərcayilərin döyüşünün miqyası insan mənəviyyatının səviyyəsini müəyyən edir. İnsan mənəviyyatının yüksək səviyyəsində saflar sevilir. İnsan mənəviyyatının aşağı səviyyəsində hərcayilər meydan sulayırlar. Ancaq həyat heç zaman tək müqəddəslərdən və tək şəhvətpərəstlərdən ibarət olmur.

Şəhvətsiz – həyat yoxdur. Eşqsiz – həyat heyvanidir.

Nəşəsevərlik – ruhanilikdən məhrumdur. Ancaq nəşəsevərlik – doğuluş, yaranış, dirilik deməkdir. Həyatın əsas əcayibliyi, paradoksu bundan ibarətdir.

Ali Həyatda Eşq tam qələbə çalır.

Şəhvət – ruhaniləşir.

## Həqiqət – Yalan

***Həyatda həqiqətlə yalan yanaşı yaşayır,*** bir-biriylə döyüşür, fəqət bu döyüş həqiqətin tam qələbəsiylə bitmir, yalanı həyatdan silmək olmur.

***Həqiqət*** deyir ki, dünyanın mahiyyəti dünyanın özündən böyükdür, bu səbəbdən də dünya göründüyündən artıqdır, yüksəkdir, alidir.

***Yalan*** deyir ki, dünya göründüyündən ibarətdir, onun mahiyyəti gerçəkliyə bərabərdir, bu səbəbdən də dünyanı dərk etmək – görünəni dərk etməkdir.

***Həqiqət*** deyir ki, insanın mahiyyəti insandan böyükdür, bu səbəbdən də insan göründüyündən artıqdır, yüksəkdir, alidir. ***Yalan*** deyir ki, insanın mahiyyəti insana bərabərdir, buna görə də onu dərk etmək onun gerçəklikdəki təzahürlərini dərk etmək deməkdir.

***Həqiqət*** deyir ki, təbiətin mənası özündən böyükdür, ***yalan*** deyir ki, təbiətin mənası özünə bərabərdir.

***Həqiqət*** deyir ki, maddiyyatın arxasında ruhanilik, keçicinin arxasında sonsuzluq, ölümlünün arxasında əbədilik dayanır. ***Yalan***

deyir ki, maddiyyat maddiyyatdan artıq, keçicilik keçicilikdən artıq, ölümlü ölümlüdən artıq deyil.

***Həqiqət*** deyir ki, insan həyatının əsası – Mütləqləşməyə, mənəvi kamilləşməyə, ruhaniliyin tam təsdiqinə meyildir. ***Yalan*** deyir ki, insan həyatının əsası – maddi mənafe uğrunda vuruşmadır.

***Həqiqət*** deyir ki, insan həyatının baş amili – mənəviyyatdır, ***yalan*** deyir ki, insan həyatının baş amili – iqtisadiyyatdır.

***Həqiqət*** deyir ki, ruhani maddini idarə eləyir, ***yalan*** deyir ki, maddi ruhanini idarə eləyir.

***Həqiqət*** deyir ki, insan şəraitdən artıqdır, ən pis şəraitdə belə yaxşı insan olmaq olar, ***yalan*** deyir ki, şərait əsasdır, o, insanı istədiyi şəklə sala bilir.

***Həqiqət*** deyir ki, insanın nicatı – özünü dəyişməkdir, özü üzərində qələbə çalmaq, özünə çatmaqdır. ***Yalan*** deyir ki, insanın nicatı – şəraitin dəyişdirilməsindədir.

***Həqiqət*** deyir ki, insanı dəyişdirmədən – insani cəmiyyət qurmaq olmaz. ***Yalan*** deyir ki, yaxşı cəmiyyət pisləri yaxşıya çevirir, əvvəl yaxşı cəmiyyət qurulmalıdır, sonra həmin cəmiyyət yaxşı insan yetişdirəcəkdir. Öz naqisliklərindən, çirkinliklərindən azad olmayan şəxslər gözəl cəmiyyət qura bilər.

***Həqiqət*** deyir ki, fərdin mənəvi kamilliyi fərdin özündən, iradəsindən, ağlından, duyğularından asılıdır. ***Yalan*** deyir ki, insanın ruhani yüksəlişi cəmiyyətdən asılıdır.

***Həqiqət*** deyir ki, insan cəmiyyətdən artıq, böyük və yüksək olan ruhani varlıqdır. ***Yalan*** deyir ki, insan cəmiyyətlə müəyyənləşən, ictimai varlıqdır.

***Həqiqət*** deyir ki, zora arxalanmaq – bəşərin öz ruhani mahiyyətindən ayrılması, özünə yad olması, yırtıcılaşması deməkdir. ***Yalan*** deyir ki, zor insan həyatının təkanverici qüvvəsidir, bəşər yalnız zor əsasında səadətə çata bilər.

***Həqiqət*** deyir ki, sinfilik çərçivəsində insan özü ola bilmir, insanın ruhani mahiyyəti həmin çərçivəyə sığmır və bu baxımdan, fərdi azadlıq – həm də şəxsiyyətin sinfilik məhdudiyyətindən xilas olmasıdır. ***Yalan*** deyir ki, sinfilikdən kənar fərd ola bilməz.

***Həqiqət*** sinfi əxlaq, sinfi idrak tanımır, ***yalan*** onlara tapınır.

***Həqiqət*** əbədiyə, sonsuza, Mütləqə əsaslanır, ***yalan*** onları tanımır.

***Həqiqət*** Yeri-Göyü yaradan Allah tanımır, fəqət əbədilik sonsuzluq, kamillik mücəssəməsi olan və həyatın, dünyanın, insanın mahiyyətini təşkil edən Mütləqə inanır. ***Yalan*** Yeri-Göyü yaradan Allaha inanır, ondan başqa Mütləq tanımır.

***Həqiqət*** insanın Mütləq kamilləşmə qüdrətinə inanır, ***yalan*** insanı yalnız nisbi məziyyətləriylə tanıyır.

***Həqiqət*** axirət dünyası iddiasına inanmır, ***yalan*** ona tapınır.

***Həqiqət*** insanın cismani ölməzliyinə inanmır, onun dirilməsi, mükafatlandırılması, yaxud cəzalandırılması iddiasını rədd edir, ***yalan*** həmin təsəvvürləri təsdiq edir.

***Həqiqət*** deyir ki, insanın ikinci həyatı ölümündən sonra ağıllarda, duyğularda yaşamasıdır. İnsanın bundan başqa o dünyası yoxdur. ***Yalan*** insanı cənnət-cəhənnəm xurafatıyla şirnikdirir və qorxudur.

***Həqiqət*** deyir ki, əsas fərddir, çünki cəm fərdlərdən ibarətdir, ***yalan*** deyir ki, əsas cəmdir, çünki fərdi o müəyyən edir.

***Həqiqət*** deyir ki, insan mövcudluğunun, inkişafının, tərəqqinin meyarı mənəviyyat olmalıdır. Ən mənəvi olan ən qabaqcıl sayılmalıdır. ***Yalan*** deyir ki, insan mövcudluğunun, inkişafın, tərəqqinin meyarı maddiyyatdır. Ən qabaqcıl ölkə – maddi cəhətcə ən çox inkişaf etmiş ölkədir.

***Həqiqət*** deyir ki, insanın ən böyük qələbəsi – özü üzərindəki qələbəsidir. ***Yalan*** deyir ki, insanın ən böyük qələbəsi – maddi aləm üzərindəki qələbəsidir...

***Həqiqətlə yalanın döyüşünün tarixi qədimdir***. Ancaq bu döyüş-də hələlik həqiqətin tam qələbəsi olmayıb. Həqiqət yalanı üstələyəndə yalan zora əl atıb – zor vasitəsiylə həqiqəti susdurub.

Yalan – ehkamlar vasitəsiylə də həqiqətə qələbə çalmağa çalışıb. O, özünü əsl, ali, böyük kimi qələmə verməyi də bacarıb.

Həyatda ən çox yalan sevilib, həqiqət sevilməyib. Ancaq həyat həqiqətsiz də yaşaya bilməyib. Bu səbəbdən də həqiqət həmişə həyatda mövcud olub; döyülüb, söyülüb, dar ağacından asılıb, tonqallarda yandırılıb, amma həyatdan silinməyib. Nisbi, qeyri-kamil, keçici olduğu üçün həyat yalanı sevib. Ancaq ruhaniləşməyə, Mütləqləşməyə, əbədiliyə meyil etdiyi üçün o, həm də həqiqətə həmişə can atıb. Buna görə də həqiqətlə yalanın birgə mövcudluğu həyatın zəruri xüsusiyyətlərindən biridir. Bu mövcudluqda yalan zahiri əlamətə, həqiqət daxili mənaya arxalanır. Yalan zahiri möhtəşəmliyi vəsf edir, həqiqət onu heç sayır. Yalan zahiri dəbdəbəni vəsf edir, həqiqət onu heç sayır.

Yalan ani ehtirası vəsf edir, həqiqət onu heç sayır.

Yalan suni təntənəni vəsf edir, həqiqət onu heç sayır.

Həqiqət yalanı daim inkar edir, rədd edir, ancaq həyat həqiqəti dinləyəndə belə, yalandan əl çəkmir.

Həqiqət tərəfindən rədd olunan yalan həyatda yaşayır. Həqiqət həyata öz mahiyyətindən aşağı olmasını da bəyan edir. Bu, həyatla

həqiqət arasında münaqişə yaradır. Həmin münaqişə həyatın Ali Həyat səviyyəsinə yüksəlməsiylə başa çatır.

## Gerçəklik – İdeal

***Həyat – gerçəkliklə məhdudlaşmır, ideala can atır***, ona çatmaq istəyir.

Ancaq gerçəklik heç vaxt ideala bərabər olmur.

İdeal gerçəklikdə yalnız öz nişanələriylə, əlamətləriylə yaşayır.

Həyat ideala yüksələ bilmir. Ancaq həyat gerçəkliklə də kifayətlənmir, onu ideal səviyyəsində görmək istəyir.

İdeal gerçəkliyi dəyişdirir, təkmilləşdirir, ancaq bu dəyişdirmə, təkmilləşdirmə nisbi səciyyə daşıyır, mahiyyət etibariylə gerçəklik dəyişmir, onunla ideal arasında yaranan uçurum yox olmur.

İdeal – Mütləq Xeyirin, Mütləq Kamilliyin, Mütləq Gözəlliyin təsdiqi deməkdir. Gerçəklikdə isə nisbi hadisələr, keyfiyyətlər, xassələr təsdiq olunur. Bu səbəbdən İdealla Gerçəklik arasında dərin ziddiyyət yaranır. Gerçəklik ideala meyil edir, ancaq ideala çatmır.

Həyat – ***gerçəklikdən artıq, idealdan aşağı*** bir varlıqdır. Gerçəkliyin mayasında Mütləqlik olduğundan o, İdeala ucalmaq istəyir. Ancaq Mütləqin nisbi təzahürü olduğundan o, İdeala bərabər ola bilmir.

Gerçəklik ideal hadisə, keyfiyyət, xassə yarada bilmir. Onun ideal saydığı nə varsa, əslində nisbi mənada Xeyirli, Kamil, Gözəl olur.

İdeal həyatda həmişə nisbi mənada gerçəkləşir, yəni ideallığını itirir.

Gerçəkliyin yaratdığı ən yaxşı cəmiyyət belə – yalnız nisbi mənada Xeyirli, Gözəl və Kamil olur. Onda naqislik, çirkinlik, şərlik yaşayır. Gerçəklikdə ən mənəvi sayılan insan – əslində ideal mənəviyyat səviyyəsinə qalxmır. Onda naqislik, çirkinlik, şərlik yaşayır. O, haradasa qeyri-mənəvidir. Onun özü üzərindəki qələbəsi, daxili qüdsiyyəti nisbi səciyyə daşıyır.

***Gerçəkləşmək – naqisləşməkdir***.

Gerçəkliyin yaratdığı gözəllik – ideal gözəllik deyil, onda naqislik, çirkinlik, şərlik yaşayır, o, haradasa qeyri-gözəllikdir.

Gerçəkliyin yaratdığı İdrak qeyri-kamil, qeyri-mütləq, qeyri-idealdır, nöqsanlıdır, məhduddur, qeyri-sabitdir.

Həyatın yaratdığı ən möhtəşəm ***iradə*** belə, ideal baxımından qeyri-möhtəşəmdir, insanın Mütləq mahiyyətinə bərabər deyil.

Nisbiylə məhdudlaşan, nisbiyə çağıran, nisbini təsdiq edən İdeal – yalançı idealdır. Çünki Mütləqlik xüsusiyyətinə malik olmayan arzu, niyyət, qayə – ideal sayıla bilməz.

Maddiyyatla məhdudlaşan, maddiyyata çağıran, maddini təsdiq edən ideal yalançı idealdır. Çünki maddiyyat – nisbilik, keçicilik, qeyri-ruhanilik deməkdir.

Mütləqilik, ruhanilik, mənəvi kamillik xüsusiyyətlərinə malik olmayan arzu, niyyət, qayə – ideal sayıla bilməz.

İdeal olan – Mütləq olana, Ruhani olana bərabərdir.

Həyatda ideal özünü gerçəkliyə qarşı qoyur, gerçəkliyin eybəcərliyini, qeyri-ruhaniliyini rədd edir, gerçəkliklə idealın yağılığı başlayır. Gerçəkliyin məntiqiylə idealın məntiqi bir-birini rədd edir. Gerçəklik deyir ki, gerçək olan nə varsa – təsdiqə layiqdir. İdeal deyir ki, Mütləqə zidd nə varsa – inkara layiqdir. Gerçəkliklə münasibətin müəyyən məqamında ideal, həyatda Mütləq Xeyirin, Mütləq Kamilliyin, Mütləq Gözəlliyin qələbə çalmağına inanır.

Bununla da o, gerçəkliyi gerçəklikdən artıq sayır.

Sonradan İdeal gerçəklikdə ani qələbə çalır və Mütləq, Kamil, Gözəl gerçəkliyin yaranmasına inam yaradır. Ancaq son nəticədə gerçəklikdə ideal qalib gəlmir, nisbi xeyir, nisbi kamillik, nisbi gözəllik qalib gəlir, tədricən gerçəklik öz əvvəlki vəziyyətinə qayıdır və idealla gerçəkliyin arasında uçurum yenidən bərqərar olur.

Həyatın əzəli ziddiyyətini həyat çərçivəsində həll etmək olmaz.

Onu yalnız Ali Həyat daxilində həll etmək olar.

## Dostluq – Düşmənlik

Həyatda ən yüksək dostluq belə, mütləq səviyyəyə qalxmır. Bu səbəbdən də həyatdakı ən böyük dostluqda belə düşmənlik yaşayır.

Əgər insan ***xudbinlik*** eybəcərliyindən tam xilas olmayıbsa – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***həsəd*** eybəcərliyindən tam xilas olmayıbsa – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***mənfəətpərəstlik*** eybəcərliyindən tam xilas olmayıbsa – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***xəbislik*** bəlasından tam xilas ola bilməyibsə – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***qorxu*** bəlasından tam xilas ola bilməyibsə – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***hərislik*** bəlasından tam xilas ola bilməyibsə – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***şöhrətpərəstlik*** bəlasından tam xilas ola bilməyibsə – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***şəhvətpərəstlik*** bəlasından tam xilas ola bilməyibsə – onun dostluğu düşmənlikdən azad deyil.

Əgər insan ***hakimiyyətpərəstlik*** bəlasından tam xilas ola bilməyibsə – onun dostluğu düşmənlikdən azad deyil...

***Dostluq – Mütləq Ruhani vəhdət deməkdir və Eşqə yaxındır.***

Eşqdən fərqli olaraq, dostluqda həmin vəhdət gözəllik vasitəsiylə yox, Xeyir vasitəsiylə təsdiq olunur.

***Dostluq Xeyir biçimində həyata keçən Ruhani Vəhdətdir.***

Dostluğun ülvi mənası insanlar arasında yadlığın tam aradan qaldırılmasıdır. Həmin məna həyata sığmır.

Həyatda insan ***xudbinlikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Həsəddən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Mənfəətpərəstlikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Xəbislikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Qorxudan*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Hərislikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Şöhrətpərəstlikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Şəhvətpərəstlikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Hakimiyyətpərəstlikdən*** tam qurtara bilmir və ruhani vəhdət yaranmır.

***Mənəvi vəhdət yaranmayan yerdə düşmənlik peyda olur.***

***Xudbinlik*** – düşmənlik yaradır.

***Həsəd*** – düşmənlik yaradır.

***Mənfəətpərəstlik*** – düşmənlik yaradır.

***Xəbislik*** – düşmənlik yaradır.

***Qorxu*** – düşmənlik yaradır.

***Hərislik*** – düşmənlik yaradır.

***Şöhrətpərəstlik*** – düşmənlik yaradır.

***Şəhvətpərəstlik*** – düşmənlik yaradır.

***Hakimiyyətpərəstlik*** – düşmənlik yaradır.

Buna görə də insanın daxili dünyasında dostluq düşmənliklə daim döyüşür, ancaq bu döyüş dostluğun tam qələbəsiylə qurtarmır, düşmənliyi həyatdan silmək olmur.

Dostluq ***xudbinliyin*** ölümünü tələb edir, ancaq xudbinlik ölmür, bu səbəbdən də dostluğun Mütləq mahiyyəti həyatda təsdiq olunmur.

Dostluq ***həsədin*** ölümünü tələb edir, ancaq həsəd ölmür, bu səbəbdən də dostluğun Mütləq mahiyyəti həyatda tam aşkara çıxa bilmir.

Dostluq ***mənfəətpərəstliyin*** ölümünü tələb edir, ancaq mənfəətpərəstlik ölmür, bu səbəbdən də dostluğun Mütləq mahiyyəti həyatda tam aşkara çıxa bilmir.

Dostluq ***xəbisliyin*** ölümünü tələb edir, ancaq xəbislik ölmür, bu səbəbdən də həyatda dostluğun Mütləq mahiyyəti tam aşkara çıxa bilmir.

Dostluq ***hərisliyin*** ölümünü tələb edir, ancaq hərislik ölmür, bu səbəbdən də həyatda dostluğun Mütləq mahiyyəti tam aşkara çıxa bilmir.

Dostluq ***qorxunun*** ölümünü tələb edir, ancaq qorxu ölmür, bu səbəbdən də həyatda dostluğun Mütləq mahiyyəti tam aşkara çıxa bilmir.

Dostluq ***şöhrətpərəstliyin*** ölümünü tələb edir, ancaq şöhrətpərəstlik ölmür, bu səbəbdən də həyatda dostluğun Mütləq mahiyyəti tam aşkara çıxa bilmir.

Dostluq ***şəhvətpərəstliyin*** ölümünü tələb edir, ancaq şəhvətpərəstlik ölmür, bu səbəbdən də həyatda dostluğun Mütləq mahiyyəti tam aşkara çıxa bilmir.

Dostluq ***hakimiyyətpərəstliyin*** ölümünü tələb edir, ancaq hakimiyyətpərəstlik ölmür, bu səbəbdən də həyatda dostluğun Mütləq mahiyyəti tam aşkara çıxa bilmir.

Həyatda dostluğun nisbi təzahürü, nişanələri mövcud olur.

İnsan yarımdostluqla barışır, ona qane olur. Çünki özü üzərində tam qələbə çala bilmir. Yalnız Ali Həyatda dostluğun Mütləq mahiyyəti təsdiq olunur, çünki burada insan özü üzərində tam qələbə çalır.

Yarımdostluqla barışan insan dostluq libasında görünən düşmənliyi tanımaz, onu dost sayar. Çünki yarımdostluqla, nisbi dostluqla barışmaq – əslində xudbinliklə, həsədlə, mənfəətpərəstliklə, xəbisliklə, qorxuyla, hərisliklə, şöhrətpərəstliklə, şəhvətpərəstliklə, hakimiyyətpərəstliklə barışmaq deməkdir.

Yarımdostluq – üzəvari dostluğa, dostluqvariliyə, dostabənzərliyə çevrilə bilir. Burada dostluğun mahiyyəti yox, zahiri biçimi təsdiq olunur. Dostabənzərlikdə – xudbinlik yaşayır, həsəd yaşayır, qorxu yaşayır, hərislik yaşayır, mənfəətpərəstlik yaşayır, şöhrətpərəstlik yaşayır, şəhvətpərəstlik yaşayır, hakimiyyətpərəstlik yaşayır.

Burada insan yalana tapınmalı olur. Dostluq yoxdur, ancaq olan kimi görünür.

Yarımdostluqda insan ləyaqəti tapdanır. Həyat insanı bu ləyaqətsizlikdən qurtara bilmir. Yalnız Ali Həyat insanı yarımdostluq qismətindən qurtarır....

## Özüylədöyüş və Özüyləbarışma

Həyatda insan özüylə döyüşür, ancaq bu döyüşdə tam qələbə qazanmır, son nəticədə özüylə barışır.

Özüyləbarışmada o, gerçəkliyin məntiqinə əsaslanır. “Yırtıcı olmasam, yaşaya bilmərəm, məni parçalayarlar” – deyir. “Xudbin olmasam, yaşaya bilmərəm, başqasının əsarətinə düşərəm” – deyir. “Şəhvəti sevməsəm, yaşamaram, çünki həyat – cismani nəşələnməkdir” – deyir. “Şöhrəti sevməsəm, yaşamaram, çünki həyat özünütəsdiqdir” – deyir. “Yalana arxalanmasam, məhv olaram, çünki həyat həqiqəti sevmir” – deyir. “Vicdanlı olsam, yaşaya bilmərəm, çünki həyat vicdanı eşitmir” – deyir. “Mərhəmətli olsam, yaşaya bilmərəm, çünki həyat amansızdır, o, mərhəmət tanımır” – deyir.

“Düşmənlikdən imtina etmərəm, çünki həyat mənafe uğrunda döyüşdür, düşmənlikdən imtina etmək – əslində həyatdan imtina etməkdir” – deyir.

“Zordan əl çəkmərəm, çünki həyat ən çox zora baş əyir”, –deyir.

“Məkrsiz yaşamaq – məkrin tələsinə düşməkdir” – deyir.

“Fitnəsiz yaşamaq – fitnənin tələsinə düşməkdir” – deyir.

“Xeyirxah yaşamaq – bədxahlığın tələsinə düşməkdir” – deyir.

“Müqəddəs yaşamaq – hərcayiliyin tələsinə düşməkdir” – deyir.

“Öldürməmək – ölməkdir” – deyir.

“Aldatmamaq – aldanmaqdır” – deyir.

“Cəsarət – ölüm təhlükəsi yaradır, bu səbəbdən də həyata ziddir” – deyir.

“Fədakarlıq – həyatdan keçməkdir, həyat isə hər şeydən artıqdır” – deyir.

“Ədalətsizlik – həyatilikdir, çünki həyat ədaləti təsdiq etmir” – deyir.

“Ruhani kamilliyə meyil etmək – yaşamamaqdır, çünki həyat tam ruhanilik səviyyəsinə qalxmır” – deyir. “Aşiqlik – həyatdan əl çəkməkdir, çünki Aşiqlik həyata yox, həyatdan böyük olan Eşqə xidmət etmək deməkdir” – deyir.

“Amal – həyatın inkarıdır, çünki Mütləqdir, Ruhanidir, Sonsuzdur, Əbədidir – deyir.

“Buna görə də amallı olmaq yaşamamaqdır” – deyir.

“Əxlaq – həyata ziddir, çünki ehtirasları buxovlayır. Buna görə də əxlaqlı olmaq yaşamamaqdır” – deyir.

“Özüylə döyüşən yaşamır, çünki həyatdan ayrılır” – deyir.

***Özüylə barışan yanılır***. O unudur ki, həyat özünü tam şəkildə Ali Həyatda tapır, əslində o, Ali Həyata aparan yoldur. Həyat özünə Ali Həyatda çatır. Həyat öz mahiyyətini gerçəklikdə tam ifadə edə bilmir, bu səbəbdən də o, mahiyyətdən aşağı olur.

Həyatın Mütləq, ruhani, əbədi, kamil mahiyyəti insandan özüylədöyüş ləyaqəti tələb edir. Yalnız ardıcıl, Mütləq, barışmaz özüylədöyüş vasitəsiylə insan həyatın mahiyyəti səviyyəsinə yüksələ bilər. Özüylə barışan unudur ki, insani həyat – insanın daxili dünyasında yaranır, insan özü necədirsə, həyat da elədir. Özüylədöyüşən əslində həyatdakı eybəcərliklə döyüşür və bu döyüşdə qazanılan qələbə həyat üzərində çalınan qələbədir.

Özüylə barışan naqisliyini, çirkinliyini, qeyri-kamilliyini həyat əsasında hifz etməyə çalışır.

O unudur ki, həyatın meyarı insandır, həyat insanın meyarı ola bilməz. Həyatda eybəcərlik varsa, bu, insanın təqsiridir.

Həyatda gözəllik bərpa olunubsa, bunun da səbəbkarı insandır, həmin gözəllik əvvəl insanın daxilində yaranıb.

***İnsan nədirsə, həyat da odur.*** Buna görə də “həyat pis olduğu üçün mən də pisəm, həyat yaxşı olanda mən də yaxşılaşacağam” məntiqi – cahil məntiqdir. “Mən pis olduğum üçün həyat pisdir, mən yaxşı olanda həyat yaxşılaşacaq!” – doğru məntiq budur.

Həyat insanı yaratmır, insan həyatı yaradır. İnsan həyatın təzahürü deyil, həyat insanın təzahürüdür. Bu səbəbdən də pis həyatın günahkarı insandır, pis insanın günahkarı yenə də insandır, həyat deyil. İnsanın öz üzərində yüksəlməsi həyatın özü üzərində yüksəlməsidir. İnsanı dəyişmədən həyatı dəyişmək – kökü dəyişmədən budaqları dəyişməyə bərabərdir.

Özüyləbarışan öz qüdrətsizliyini insan təbiətinin məhdudluğuyla pərdələməyə çalışır. “Nə qədər daxilimdəki qorxuyla vuruşsam da, tam müvəffəq olmayacağam, buna mənim insani təbiətim imkan verməyəcək“ – deyir. “Nə qədər daxilimdəki vəhşiliklə vuruşsam da, tam müvəffəq olmayacağam, buna mənim insani təbiətim imkan verməyəcək“ – deyir. “Nə qədər daxilimdəki zülmətlə vuruşsam da, tam müvəffəq olmayacağam, buna mənim insani təbiətim imkan verməyəcək!” – deyir. “Nə qədər daxilimdəki çirkabla vuruşsam da,

tam müvəffəq olmayacağam, buna mənim insani təbiətim imkan verməyəcək!" – deyir.

Özüyləbarışan yenə də naşılığa tapınır. O, unudur ki, insan öz təbiətinin məhdudluğuna yox, Amalın böyüklüyünə əsaslanmalıdır.

İnsan təbiəti özünə yox, Amala bərabər olmalıdır; o, özündən yüksəyə qalxmalıdır, özü üzərində ucalmalıdır, ruhaniləşməli, mütləqləşməli, öz mahiyyətinə çatmalıdır.

İndiyə qədər insan heç vaxt özünə bərabər olmayıb, nisbi insanilik səviyyəsində yaşayıb.

İndən sonra o, belə yaşaya bilməz. O, ya mütləqləşməli, ya da məhv olmalıdır. Nisbi məziyyətlərlə, nisbi ruhaniliklə, nisbi kamilliklə bəşər bundan sonra yaşaya bilməz, çünki qarşıya çıxan təhlükələr, maneələr Mütləq Qeyrət tələb edir.

İndiyə qədər insan həyat səviyyəsində yaşaya bilirdi. İndi o, Həyat səviyyəsində yaşaya bilməz, labüd şəkildə Ali Həyat səviyyəsinə yüksəlməlidir. İnsan təbiəti Ali Həyatın tələbini ödəyə bilərmi, bu tələb onu sarsıtmazmı?

Bəşərin başqa yolu yoxdur.

Başqa yollar sınanıldı, bəşər öz taleyini özündən xaricdəkinin iradəsinə tapşırdı, ancaq həyat dəyişmədi. İnsan taleyini öz əlinə almalı, özünü dəyişdirməli, həyatın əsl sahibi etməli, yeni həyat yaratmalıdır.

Həyatladöyüş özüylədöyüşlə əvəz olunmalıdır.

Bəşərin məhvinə inanmırıq. Mütləq mahiyyət özünün Mütləq təzahürünü tapmalıdır. Ali Həyat həyatı əvəz etməlidir.

Özüyləbarışan öz gücsüzlüyünü cəmiyyətin məntiqiylə pərdələməyə cəhd göstərir. Cəmiyyət insanı özüylədöyüş ülviyyətindən azad edir. O, insana deyir ki, səni mən yaratmışam, böyütmüşəm, aqibətini, gələcəyini, bəxtiyarlığını mən təyin etmişəm. Bu səbəbdən də məndən kənarda sənin xüsusi sərbəst mənəvi fəaliyyətinə ehtiyac yoxdur. Mənim taleyim sənin taleyindir, bundan qaça bilməzsən.

Cəmiyyət həm də insana deyir ki, sən müstəqil varlıq deyilsən, müəyyən sinifin hissəsisən və öz mövcudluğunda onun əxlaqi, ruhani, əməli təsəvvürlərini təsdiq edirsən. Sənin həmin təsəvvürlərdən ayrı düşünməyin, duymağın, fəaliyyət göstərməyin günahdır.

Sənin yalnız bir mübarizən var – sinfi mənafe uğrunda döyüş!

Cəmiyyət insanı sinfilik çərçivəsinə salır və həyata həmin çərçivədən baxmağı tələb edir.

Cəmiyyət nəinki insanı özüylədöyüşə çağırmır, o, insanı özüylə tək qalmağa belə qoymur, onu öz əlində möhkəm saxlayır.

Özüyləbarışan – xurafatın məntiqindən də bəhrələnməyə cəhd göstərir. Xurafat deyir ki, insanın aqibəti yeri-göyü yaradan Allahın əlindədir, daxili dünya həmin qüdrətin iradəsinə tabedir, insan öz taleyinə sahib ola bilməz, bu səbəbdən də özüylədöyüşə lüzum yoxdur. Özüylədöyüş mənasızdır, çünki Allah tərəfindən yaradılanı bəndə dəyişdirə bilməz! Sənin – insanın necə yaşayacağını, səndən yaxşı və səndən artıq bilən var.

O, Allahdır.

Özüyləbarışan daha bir yalana pənah gətirir.

İnsan həyatında insandan, onun taleyindən, aqibətindən başqa heç nə yoxdur. Mütləq mahiyyət insandan kənarda deyil, onun özündədir. Həmin müstəqil insani mahiyyət – insan daxili aləmində tam qələbə çalanda, onu şərdən, eybəcərlikdən, hərcayilikdən təmizləyəndə Ali Həyat yaranacaq, insan özünə çatacaqdır. Buna görə də insan özüylə barışmamalı, özüylə kifayətlənməməli, özüylə daim döyüşməli, həyatın, gerçəkliyin, cismaniliyin, cəmiyyətin, xurafatın məntiqini rədd etməli, Ali Həyatın məntiqi əsasında yaşamalıdır.

## Özünümühafizə və Özündənkeçmə

İnsan ***cismani*** olduğundan özünümühafizəyə arxalanır.

İnsan ***ruhani*** olduğundan özündənkeçməyə yüksəlir.

İnsan ***nisbi kamilliyə*** malik olduğundan özünümühafizəyə arxalanır.

İnsan ***Mütləq kamillik*** təzahürü olduğundan özündənkeçməyə yüksəlir.

İnsan ***nisbi xeyirliyə*** malik olduğundan özünümühafizəyə arxalanır.

İnsan ***Mütləq xeyirin*** təzahürü olduğundan özündənkeçməyə yüksəlir.

İnsan ***nisbi gözəlliyə*** malik olduğundan özünümühafizəyə arxalanır.

İnsan ***Mütləq gözəllik*** təzahürü olduğundan özündənkeçməyə yüksəlir.

İnsan ***ölümlü*** olduğundan özünümühafizəyə arxalanır.

İnsan ***əbədi*** mahiyyətə malik olduğundan özündənkeçməyə yüksəlir.

İnsan ***keçici*** olduğundan özünümühafizəyə arxalanır.

İnsan ***sonsuzluq*** mahiyyətinə malik olduğundan özündənkeçməyə yüksəlir.

***Cismani*** özünümühafizəyə meyil edir, çünki ölümdən qorxur.

***Ruhani*** özünümühafizədən imtina edir, çünki ölümdən güclüdür.

***Nisbi kamillik*** özünümühafizəyə meyil edir, çünki ölümlüdür.

***Mütləq kamillik*** özünümühafizədən imtina edir, çünki ölümsüzdür.

***Nisbi xeyir*** özünümühafizəyə meyil edir, çünki ölümlüdür.

***Mütləq xeyir*** özünümühafizədən imtina edir, çünki ölümdən qüdrətlidir.

***Nisbi gözəllik*** özünümühafizəyə meyil edir, çünki ölümə məhkumdur.

***Mütləq gözəllik*** özünümühafizədən imtina edir, çünki ölüm tanımır.

***Keçici*** özünümühafizəyə meyil edir, çünki ölməzliyinə inanmır.

***Sonsuz*** özünümühafizədən imtina edir, çünki ölməzliyinə inanır.

***Ölümlü*** ölümdən qorxduğundan özünümühafizəyə meyil edir.

***Ölümsüz*** ölümdən qorxmadığından özünümühafizəyə ehtiyac hiss etmir.

Özünümühafizədə insan özünə bərabər olmur, özündən aşağı olur, özündənkeçmədə – özünə çatır.

Çünki özünümühafizəyə tapınan – cismaniliklə, keçiciliklə, ölümlüklə məhdudlaşır.

***Özündənkeçən*** – ruhani, sonsuz, əbədi mahiyyəti təsdiq edir.

Özünümühafizədə insan “mən cismaniyəm, ona görə də özümü ölümdən qorumalıyam!” – deyir.

Özündənkeçmədə insan “mən ruhaniyəm, bu səbəbdən də özümdənkeçməyim – əsl mövcudluğumdur!” – deyir.

Özünümühafizədə insan əlamətlə, təzahürlə eyniləşir.

“Mən bədənəm, bədənin ölümü – heçə çevrilməyimdir, buna görə də bədənimi ölümdən qorumalıyam” – deyir.

Özündənkeçmədə insan öz mahiyyətinə bərabər olur, “Mən ruham, bədənimin ölümü mənim ölümüm deyil, ruhanilik ölmür” – deyir.

Özünümühafizə insanın öz kiçik “mən”inə pərçimlənməsi, onunla kifayətlənməsi, öz böyük “Mən”inə yad olmasıdır.

İnsanın mahiyyəti təzahüründən böyükdür.

Özünümühafizə insanı təzahürlə eyniləşdirir, özünümühafizədə insan özünü tapmır, təsdiq etmir, çünki insanın özünü tapması,

təsdiq etməsi – özündən kənara çıxmaq, özündən yüksəyə qalxmaq qüdrəti tələb edir.

Özünümühafizə insanı bu əzəli və müqəddəs məqsəddən məhrum edir.

Özündənkeçmədə insan özündən böyüyə, Aliyə, yüksəyə qovuşmaqla öz mahiyyətinə çatır.

Özündənkeçən ***Aşiqlik*** aqibətində özünə çatır. Eşq yolunda özündən keçməklə, öz kiçik "mən"indən kənara çıxmaqla, yüksəyə qalxmaqla öz ruhani mahiyyətini təsdiq edir. Sonsuz əzaba düçar olur, adi insani mövcudluğundan imtina edir, ancaq bir insan kimi kiçilmir – böyüyür, azalmır – artır, özünü özündən böyükdə təsdiq edir, həyatdan əl çəkirsə də, əslində həyata daha çox yaxınlaşır, çünki Ali Həyatda yaşayır.

Fədakar Amal yolunda canından keçməklə özünə, öz ali mahiyyətinə çatır, özünü özündən böyükdə təsdiq edir. Vətənsevər – özünü vətəndə, həqiqətsevər – özünü həqiqətdə, mütləqsevər – Mütləqdə, azadlıqsevər – Azadlıqda, xeyirsevər – xeyirdə tapır.

Özündənkeçmə – özünütəsdiqin Mütləq ifadəsidir.

Ancaq həyatda özündənkeçmə ilə özünümühafizə daim döyüşür və bu döyüşdə özündənkeçmə tam qələbə çala bilmir. Həyat özündənkeçmə ülviyyətini rədd etmir, ancaq özünü mühafizəyə üstünlük verir. Həyat deyir ki, özünümühafizə olmayan yerdə heç nə yoxdur, cismani məhv olanda hər şey məhv olur. Həyat unudur ki, özünümühafizə mövcudluğun ən ibtidai biçimidir, o, zəruridir, labüddür, ancaq həyatın əsl mənası – Ali Həyatdır, Ali Həyat isə – özündənkeçmə tələb edir.

Özünümühafizə olmayan yerdə həyat yoxdur, ancaq özündənkeçmə olmayan yerdə – Ali Həyat yoxdur. Ali Həyat naminə özünümühafizədən keçmək lazımdır. Təbiidir ki, həyat bununla razılaşmır və bu səbəbdən də həyatda özündənkeçmə nadir xüsusiyyət kimi meydana çıxır.

Özündənkeçmə həyatdan keçməyə bərabər olur. Ali Həyata yetmək üçün həyatdan keçmək tələb olunur. Əcaiblik, paradoks yaranır. Özündənkeçən – ölümü qəbul edir. Hamı ölümü qəbul etsə, həyat məhv olar. Bu səbəbdən də həyat özündənkeçmənin Mütləq olmasına yol vermir.

Ancaq özündənkeçən – həyatın məntiqini qəbul etmir, paradoksu, əcayibliyi nəzərə almır, onun üzərindən adlayıb keçir. Həyat məhv olmur, çünki özündənkeçmə həyatda heç vaxt mütləqləşmir, özünümühafizə özündənkeçmənin qarşısında güclü maneə olaraq həmişə qalır.

Həyatda özündənkeçənlərin sayı həmişə özünümühafizə edənlərin sayından az olur. Özündənkeçənlərin məntiqi həyatın məntiqinə uyğun gəlmir.

Həyatla qəhrəmanlar, aşiqlər, amallılar arasında yadlıq yaranır.

Özündənkeçən – həyatdan keçir. Həyatdan keçmək onun sevincindən, nəşəsindən, varidatından, şöhrətindən, möhtəşəmliyindən, hakimliyindən, zənginliyindən, nemətlərindən keçmək deməkdir.

Özündənkeçənlər həyatda yaşasalar da, həyatla yaşamırlar, Eşqlə yaşayırlar, Amalla yaşayırlar, İdealla yaşayırlar.

İnsan ***Vətən*** naminə canından keçəndə həyat naminə canından keçmir, çünki onun üçün Vətən həyatdan artıqdır – o, Amaldır, İdealdır, Eşqdir, Ali Həyatdır.

İnsan ***Bəşər*** naminə canından keçəndə həyat naminə canından keçmir, çünki Bəşər onun üçün həyatdan artıqdır – o, Eşqdir, Amaldır, İdealdır. Özündənkeçən üçün Bəşər – insanların cəmindən böyük, artıq, yüksək olan Ali Mahiyyətdir.

Özündənkeçən həyata bağlanmır, Amala bağlanır.

***Azadlıq*** naminə canından keçən həyat naminə canından keçmir, çünki Azadlıq onun üçün həyatdan artıqdır, o, Eşqdir, Amaldır, İdealdır, Ali Həyatdır.

Sevən ***sevgilisi*** üçün canından keçəndə həyat naminə canından keçmir, çünki onun üçün sevgili – həyatdan artıqdır – o, Eşqdir, Amaldır, İdealdır, Ali Həyatdır.

Valideyn ***Övladı*** üçün canından keçəndə həyat naminə canından keçmir, çünki onun üçün Övlad həyatdan artıqdır – o, Eşqdir, Amaldır, İdealdır, Ali Həyatdır.

İnsan ***Qeyrəti*** üçün canından keçəndə həyat naminə canından keçmir, çünki onun üçün Qeyrət həyatdan artıqdır – o, Amaldır, Eşqdir, İdealdır, Ali Həyatdır.

Özünümühafizəylə özündənkeçmənin döyüşü – həyatla Ali Həyatın münaqişəsini ifadə edir. Həyat özünümühafizə vasitəsiylə özünü, öz keyfiyyətlərini, xassələrini müdafiə edir. “Mən əhəmiyyətliyəm, böyüyəm, yüksəyəm” – deyir. Ali Həyat həyatın naqisliyini, natamlığını, qeyri-kamilliyini sübut edir, “Sənin əsl mövcudluğun mənəm, sən özünü məndə tapmalısan, tapacaqsan!” – deyir.

## Təmənna və Təmənnasızlıq

***Ruhani xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnasız münasibət bəsləyir, onların Ali Mənasına qovuşur, onlarla özü arasında daxili vəhdət tapır.

***Cismani xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnalı münasibət bəsləyir, onların Ali Mənasına yox, faydalı xassələrinə diqqət yetirir, onları mənimsəyir.

***Mütləq mahiyyətə malik olan xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnasız münasibət bəsləyir, onların Ali Mənasına qovuşur, onlarla özü arasında daxili vəhdət tapır.

***Nisbi məziyyətlərə malik olan xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnalı münasibət bəsləyir, onların Ali mənasına yox, faydalı xassələrinə diqqət yetirir, onları mənimsəyir.

***Əbədi xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnasız münasibət bəsləyir, onların Ali Mənasına qovuşur, onlarla özü arasında daxili vəhdət tapır.

***Ölümlü xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnalı münasibət bəsləyir, onların Ali Mənasına yox, faydalı xassələrinə diqqət yetirir, onları mənimsəyir.

***Sonsuz xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnasız münasibət bəsləyir, onların Ali Mənasına qovuşur, onlarla özü arasında daxili vəhdət tapır.

***Keçici xilqət kimi*** insan dünyaya, həyata, insana təmənnalı münasibət bəsləyir, onların Ali Mənasına yox, faydalı xassələrinə diqqət yetirir, onları mənimsəyir.

***Ruhani xilqət üçün*** – təbiət Mütləqin təzahürüdür, Xeyir və Gözəllik mücəssəməsidir, müqəddəsdir, insanla təbiət arasında daxili doğmalıq mövcuddur, təbiət insanidir, insan təbiidir.

***Cismani xilqət üçün*** – təbiət faydalanma vasitəsidir, insan təbiətə qovuşmur, onu mənimsəyir.

***Ruhani xilqət üçün*** – həyat göründüyündən artıqdır, böyükdür, yüksəkdir, insanla həyat arasında daxili doğmalıq var.

***Cismani xilqət üçün*** – həyat görünənə bərabərdir, insan həyata qovuşmur, onu mənimsəyir.

***Ruhani xilqət üçün*** – insan Mütləqin təcəssümüdür, insanla insan arasında daxili doğmalıq var, həmin doğmalıq ruhani qovuşma ilə nəticələnməlidir.

***Cismani xilqət üçün*** – insan Maddiyyatın təcəssümüdür, ona qovuşmaq yox, onu mənimsəmək lazımdır.

***Təmənnasızlıq – ruhanilikdir.***

***Təmənna – cismanilikdir.***

Həyatda təmənnasızlıq təmənnayla daim döyüşür, ancaq bu döyüş təmənnasızlığın qələbəsiylə qurtarmır, həyatda təmənnayla təmənnasızlıq qoşa yaşayır. İnsan ətrafdakılara həm təmənnasız, həm də təmənnalı münasibət bəsləyir.

***Çiçək gözəldir,*** gözəl olduğu üçün də sevimlidir, fərəh gətirəndir, müqəddəsdir, insana doğmadır, çiçəksiz insan həyatı öz təravətini itirərdi. Bu səbəbdən də İnsanla çiçək arasında daxili qovuşma yaranır, çiçək mənəvi sərvətə çevrilir. Eyni zamanda, həyatda çiçək mənimsənilir, insan ondan faydalanır.

***Çöldəki çiçəyə nəğmə qoşan insan evdəki çiçəyi mənimsəyir.***

***Dağ gözəldir***, insanda müqəddəs duyğular oyadır, insanla dağ arasında daxili qovuşma yaranır, dağ mənəvi sərvətə çevrilir. Eyni zamanda, insan dağı mənimsəyir, onu maddi vasitəyə çevirir.

***Çay gözəldir***, insanın ülvi hisslərinin tərcümanıdır, insanla çay arasında daxili qovuşma yaranır, çay mənəvi sərvətə çevrilir. Eyni zamanda, insan çayı mənimsəyir, onu maddi vasitəyə çevirir.

***Göy gözəldir***, insanın ruhani mahiyyətinə doğma olan ülvilik təcəssümüdür, bu səbəbdən də müqəddəsdir. Eyni zamanda, Göy həm də mənimsənilən, istifadə olunan təbii hadisədir.

***Torpaq*** insanın ruhani mənasına doğma olan əzəmətli və müqəddəs mənəvi sərvətdir, insanla torpaq arasında bənzərsiz mənəvi vəhdət yaranır. Eyni zamanda, torpaq həm də mənimsənilən, istifadə olunan təbii hadisədir.

***Günəş*** – insanın ruhani mənasına doğma olan müqəddəs mənəvi sərvətdir, insanla Günəş arasında ülvi vəhdət yaranır. Eyni zamanda, insan Günəşi mənimsəyir, onu cismani nemət vasitəsinə çevirir.

***Vətən*** müqəddəsdir, çünki xalqın, şəxsiyyətin, fərdin Mütləq mahiyyətini təsdiq edir. Ancaq Vətən həm də mənimsənilən, istifadə olunan bir vasitədir, o, insanın həm ruhani mahiyyətidir, həm də evi-eşiyi, maddi nemətidir.

Həyatın yaratdığı ***Dostluqda*** – mənəvi vəhdət təsdiq olunur, ancaq burada maddi baxımdan bəhrələnmək, faydalanmaq da əhəmiyyətli rol oynayır. Dostluqda mənəvilik təsdiq olunur, ancaq həm də maddi mənafe nəzərə alınır.

***Ailədə*** – məhəbbət, valideynlik və övladlıq ruhaniliyi təsdiq olunur, ancaq həm də maddi ehtiyac ödənilir, bu səbəbdən də ailə münasibətlərində təmənnasızlıqla yanaşı, təmənna da yaşayır.

***Ata*** müqəddəsdir, həm də ailənin maddiyyat ağacıdır.

***Ana*** körpəsinin Allahıdır, həm də südverənidir.

***İdrak yolçusu alim*** – həm də idrakdan maddi cəhətcə faydalanan, bəhrələnən, idrak vasitəsiylə maddi rifah qazanan şəxsdir. İdrak alimi həyatda həm ruhani bəxtiyarlığa çatdırır, həm də yedizdirir.

Həyatın yaratdığı ***qəhrəman*** – igidlik vasitəsiylə həm öz insani mahiyyətini təsdiq edir, həm də imtiyaza, şöhrətə çatır.

Həyatın yaratdığı ***Amal yolçuları*** – bəşərə xidmətlə yanaşı, maddi firavanlığa da nail olurlar, Amaldan faydalanır, Amalı mənimsəyirlər.

Həyati ***dahilər*** özgələrə xidmət eləməklə yanaşı, özlərini də unutmurlar, ruhaniliklə cismaniliyi birləşdirirlər, maddi nemətlərdən imtina etmirlər, həyata verdikləri qədər də həyatdan alırlar.

Həyati ***məhəbbətdə*** ülvilik hökm sürür, ancaq maddiyyat unudulmur, ülviyyət maddiyyatı üstələsə də, onu ləğv etmir, maddiyyat ülviyyətlə birgə yaşayır.

***Həyatın sahibləri*** ən müqəddəs idealları həyata keçirəndə belə, təmənnanı unutmurlar, mütləqləşmək, hakimləşmək, tarixləşmək arzusuyla qanadlanırlar.

***Sənətə, bədiiyyata sarılanların çoxu*** tanınmaq ehtirasına xidmət edir.

Həyatda təmənna bir çox hallarda təmənnasızlıq biçimində aşkara çıxır.

Şöhrətpərəst – Amalpərəst libasında görünür.

Şəhvətpərəst – sevgipərəst libasında görünür.

Hakimiyyətpərəst – vətənpərəst libasında görünür.

İmtiyazpərəst – idrakpərəst libasında görünür.

Mənfəətpərəst – dostpərəst libasında görünür.

Özünüsevən – bəşərsevər libasında görünür.

Göyçəkliyi mənimsəyən – gözəlliyi sevən kimi görünür.

Xeyirini güdən – Xeyiri sevən kimi görünür.

Kef çəkən – dərd çəkən kimi görünür.

Təmənna – həyatda gizlənə bilir.

Təmənnasızlıq – həyata sığmır, həyatdan yüksəyə qalxır, Ali Həyata aparır.

## Təbiilik – Sünilik

***Mütləqin təzahürü olan*** İnsan təbiiliyə tapınır, süniliyi rədd edir.

***Nisbiliyin ifadəsi olan*** İnsan süniliyə meyil edir, təbiiliyə sadiq qalmır.

***Əbədiliyin təzahürü olan*** İnsan təbiiliyə tapınır, süniliyi rədd edir.

***Ölümlünün ifadəsi olan*** İnsan süniliyə meyil edir, təbiiliyə sadiq qalmır.

***Sonsuzluğun təzahürü olan*** İnsan təbiiliyə tapınır, süniliyi rədd edir.

***Keçiciliyin ifadəsi olan*** İnsan süniliyə meyil edir, təbiiliyə sadiq qalmır.

***Kamilliyin təzahürü olan*** İnsan təbiiliyə tapınır, süniliyi rədd edir.

***Qeyri-kamilliyin ifadəsi olan*** İnsan süniliyə meyil edir, təbiiliyə sadiq qalmır.

Təbiilikdə – görünən var olana bərabər olur.

Sünilikdə – görünən var olanı rədd edir.

Təbiilikdə hadisə aşkara çıxır, sünilikdə aldadır.

Həyat təbiiliklə süniliyin döyüşüdür, ancaq bu döyüşdə təbiilik tam qələbə çala bilmir, həyat süniliksiz keçinmir, bu səbəbdən də təbiiliklə süniliyi qoşalaşdırır.

Təbiilik həyata sanki azlıq eləyir, o, təbiiliyi süniliklə bəzəyir və bununla da Mütləq mahiyyətdən ayrılır.

Sünilik yalnız özündən artıq görünməyə yox, həm də təbiilikdən artıq görünməyə cəhd edir. Sünilikdə təbiiliyə daxili qibtə var, həmin qibtə təbiilikdən artıq görünmək niyyətində söndürülür.

Süni təbəssüm – özünü təbii təbəssümdən artıq sayır.

Süni gülüş – özünü təbii gülüşdən artıq sayır.

Süni baxış – özünü təbii baxışdan artıq sayır.

Boyalı üz – özünü həyalı üzdən artıq sayır.

Süni vüqar – özünü təbii vüqardan artıq sayır.

Süni sevinc – özünü təbii sevincdən artıq sayır.

Süni kədər – özünü təbii kədərdən artıq sayır.

Süni heyrət – özünü təbii heyrətdən artıq sayır.

Süni əzəmət – özünü təbii əzəmətdən artıq sayır.

Süni saflıq – özünü təbii saflıqdan artıq sayır.

Süni gözəllik – özünü təbii gözəllikdən artıq sayır.

Süni qəhrəmanlıq – özünü təbii qəhrəmanlıqdan artıq sayır.

Süni müdriklik – özünü təbii müdriklikdən artıq sayır.

Süni məhəbbət – özünü təbii məhəbbətdən artıq sayır.

Süni dahilik – özünü təbii dahilikdən artıq sayır.

Süni ülvilik – özünü təbii ülvilikdən artıq sayır.

Süni müqəddəslik – özünü təbii müqəddəslikdən artıq sayır.

Hadisənin, keyfiyyətin, xassənin həqiqi mənası – əsillikdir. Süniliyin eybəcərliyi ondadır ki, o, öz mahiyyəti etibariylə göründüyünə ziddir.

Süni təbəssüm – təbəssümün yoxluğudur.

Süni gülüş – gülüşün yoxluğudur.

Süni baxış – baxışsızlıqdır.

Boyalı üz – üzsüzlükdür.

Süni vüqar – vüqarsızlıqdır.

Süni sevinc – sevincsizlikdir.

Süni kədər – kədərsizlikdir.

Süni heyrət – heyrətsizlikdir.

Süni əzəmət – əzəmətsizlikdir.

Süni saflıq – günahdır.

Süni gözəllik – çirkinlikdir.

Süni qəhrəmanlıq – qorxaqlıqdır.

Süni müdriklik – naşılıqdır.

Süni dahilik – istedadsızlıqdır.

Süni məhəbbət – məhəbbətsizlikdir.

Süni müqəddəslik – hərcayilikdir.

Cəmiyyət süniliyi qəbul edir, yaşadır, onu təbiilik libasında təqdim edir.

Süni ədalət özünü əsil ədalətdən üstün sayır.

Süni tərəqqi özünü əsil tərəqqidən üstün sayır.

Süni azadlıq özünü əsil azadlıqdan üstün sayır.

Süni böyüklük özünü əsil böyüklükdən üstün sayır.

Süni zənginlik özünü əsil zənginlikdən üstün sayır.

Süni ləyaqət özünü əsil ləyaqətdən üstün sayır.

Süni qanunlar özünü əsil qanunlardan üstün sayır.

Süni qiymət özünü əsil qiymətdən üstün sayır.

Əslində isə süni ədalət – ədalətsizlikdir, süni tərəqqi – gerilikdir, süni azadlıq – əsarətdir, süni böyüklük – kiçiklikdir, süni zənginlik – yoxsulluqdur, süni ləyaqət – ləyaqətsizlikdir, süni qanunlar – qanunsuzluqdur, süni qiymət – qiymətsizlikdir.

Cəmiyyət həmişə süniliyi lənətləmiş və həmişə onu hifz etmişdir.

İdrak çox hallarda gurultulu həqiqəti əsil həqiqətdən artıq saymışdır.

***Şirin həqiqəti*** əsil həqiqətdən artıq saymışdır.

***İşrətli həqiqəti*** əsil həqiqətdən artıq saymışdır.

***Röyalı həqiqəti*** əsil həqiqətdən artıq saymışdır.

***Xülyalı həqiqəti*** əsil həqiqətdən artıq saymışdır.

***Zor həqiqətini*** əsil həqiqətdən artıq saymışdır.

***Qul həqiqətini*** əsil həqiqətdən artıq saymışdır.

Əslində isə gurultulu həqiqət – yalandır, şirin həqiqət – yalandır, işrətli həqiqət – yalandır, röyalı həqiqət – yalandır, xülyalı həqiqət – yalandır, zor həqiqəti – yalandır, qul həqiqəti – yalandır.

İdrak – təbiiliyə çağırır, təbiiliyi təqdir edir, ancaq sünilikdən xilas ola bilmir.

Həyatda sünilik özünü ideal biçimində təqdim etməyə belə cəhd göstərir.

Süni insansevərlik – özünü əsil insansevərlikdən yüksək sayır.

Süni haqsevərlik – özünü əsil haqsevərlikdən yüksək sayır.

Süni mütləqsevərlik – özünü əsil Mütləqsevərlikdən yüksək sayır.

Süni xeyir – özünü əsil xeyirdən yüksək sayır.

Süni gözəllik – özünü əsil gözəllikdən yüksək sayır.

Əslində isə süni insansevərlik – insana nifrətdir, süni haqsevərlik – haqsızlıqdır, süni Mütləqsevərlik – Mütləqsizlikdir, süni xeyir – şərdir, süni gözəllik – çirkinlikdir.

Həyat insana təbiiliyi sünilikdən ayırmaq dərsi verir, ancaq sünilikdən əl çəkmir və bununla da Ali Həyat zəruriyyətini yaradır.

## Zahiri – Daxili

Həyatda zahiri daxiliyə bərabər olmur, zahiriylə daxili arasında ziddiyyət yaranır, onların hər ikisinə həyat qoynunda yer verir.

***Həyatın daxili mahiyyəti*** ruhanidir, zahiri təzahürü cismanidir, cismani ruhaniliyə bərabər deyil, o, ruhaninin nişanələrini, ayrı-ayrı keyfiyyətlərini, xassələrini ifadə edir, bütöv mənasını ifadə etmir. Cismanilikdə ruhanilik aşkara çıxırsa da, öz tam təzahürünü tapmır, cismanilik ruhaniliyə çata bilmir.

***Həyatın daxili mahiyyəti*** mütləqdir, ancaq o, nisbi şəkildə zahirə çıxır, nisbi Mütləqin tam ifadəsi ola bilmir, Mütləqə çatmır.

***Həyatın daxili mahiyyəti*** sonsuzdur, ancaq o, keçici şəkildə zahirə çıxır, sonsuzun tam ifadəsi ola bilmir, sonsuza çatmır.

***Həyatın daxili mahiyyəti*** əbədidir, ancaq o, ölümlü şəkildə zahirə çıxır, əbədinin tam ifadəsi ola bilmir, əbədiyə çatmır

***Həyatın daxili mahiyyəti*** kamildir, ancaq o, qeyri-kamil şəkildə zahirə çıxır, kamilin tam ifadəsi ola bilmir, kamilə çatmır.

Bu səbəbdən də həyatı gözlə görmək olmaz, idrakla görmək olar.

Gerçəklikdə zahiri gözəllik – qəşənglik – daxili gözəlliyə – mənəvi, idraki, əməli gözəlliyə bərabər olmur, onların arasında ziddiyyət yaranır, zahiri qəşənglik daxili eybəcərliyi gizlədə bilir.

Göz zahiri qəşəngliyi görür və qiymətləndirir, idrak və mənəviyyat daxili gözəlliyi görür və qiymətləndirir.

Həyat gözəlliklə qəşəngliyin vəhdətinə meyil edir, fəqət bu vəhdətə nail olmur, çünki qəşənglik daxili gözəlliyi tam ifadə edə bilmir. Yalnız Ali Həyatda qəşəngliklə gözəlliyin vəhdəti yaranır. Digər tərəfdən, zahiri qəşənglikdən məhrum olan daxili gözəllik həyatda lazımınca qiymətləndirilmir, zahiri əlamət daxili mahiyyəti kölgədə qoyur. Gerçəklik çirkin cismani ifadənin arxasında dayanan gözəl ruhani mahiyyəti çox çətin qavrayır və təsdiq edir.

Bu baxımdan gerçəklik daxili mənaya qarşı naşılıq göstərir.

Həyatda zahirə çıxan xeyirli, həyatın daxili mahiyyətində yaşayan xeyirə bərabər olmur, onun natam, naqis, keçici, qeyri-kamil ifadəsi olur, digər tərəfdən, xeyirli görünən, şərin təzahürü kimi də çıxış edə bilər.

Təzahür mahiyyətə bərabər olmadığı kimi, ona zidd də ola bilər, çünki əlamətdə, biçimdə aldanış, xülya, yalan da gizlənə bilər.

Buna görə də hər xeyirli xeyirə bərabər deyil, həm də hər xeyirli şərdən uzaq deyil.

Həyatda zahirə çıxan ***saflıq*** saflığın Daxili mahiyyətinə bərabər deyil, onun natam, naqis, keçici, qeyri-kamil ifadəsidir, digər tərəfdən onda ***günah*** da gizlənə bilər.

Həyatda zahirə çıxan ***ülvilik*** Ülviyyət adlanan Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***bəsitlik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***müqəddəslik*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***hərcayilik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***həqiqət*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda yalan gizlənə bilər.

Həyatda zahirə çıxan ***müdriklik*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***naşılıq*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***məhəbbət*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***şəhvət*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***ədalət*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***zülm*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***hünər*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***qorxaqlıq*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***dahilik*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***istedadsızlıq*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***idrak*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***idraksızlıq*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***bədiiyyat*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***qeyri-bədiilik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***dostluq*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***düşmənlik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***xalqsevərlik*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***mənfəətpərəstlik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***bəşərsevərlik*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***hakimiyyətpərəstlik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***mütləqsevərlik*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***xurafat*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***sevinc*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***aldanış*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***kədər*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***sünilik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***böyüklük*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***kiçiklik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***atalıq*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***müstəbidlik*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***analıq*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***məkr*** gizlənə bilər.

Həyatda zahirə çıxan ***övladlıq*** həmin Daxili mənanın tam ifadəsi deyil, natam, naqis, keçici, qeyri-kamil ifadəsidir və onda ***nankorluq*** gizlənə bilər.

Bu cəhətdən həyatla kifayətlənmək – yaşamamaqdır. Zahiriylə daxilinin vəhdətinə nail olmayan həyat özünün nisbiliyini büruzə verir. Həyat özündə dayana, qala bilmir, Ali Həyata çatmağa çalışır.

## Səadət – Fəlakət

***Ruhani Mahiyyət*** olan İnsan ***Mütləq*** Səadət diləyir.
***Cismani Təzahür*** olan İnsan ***Nisbi*** Səadətə çatır.
***Əbədi Mahiyyət*** olan İnsan ***Mütləq*** Səadət diləyir.
***Ölümlü Təzahür*** olan İnsan ***Nisbi*** Səadətə çatır.
***Sonsuz Mahiyyət*** olan İnsan ***Mütləq*** Səadət diləyir.
***Keçici Təzahür*** olan İnsan ***Nisbi*** Səadətə çatır.
***Kamil Mahiyyət*** olan İnsan ***Mütləq*** Səadət diləyir.
***Qeyri-kamil Təzahür*** olan İnsan ***Nisbi*** Səadətə çatır.

Yalnız Mütləq Səadəti – əsil İnsani Səadət saymaq olar. Bu baxımdan, həyat insana əsil səadət vermir. Həyatda insan səadət arzusuna tam nail olmur.

Çünki ***Qələbəsi*** tam, Mütləq qələbə olmur.
Çünki ***Sevinci*** tam, Mütləq sevinc olmur.
Çünki ***Heyrəti*** tam, Mütləq heyrət olmur.
Çünki ***Gözəlliyi*** tam, Mütləq gözəllik olmur.
Çünki ***Qüdrəti*** tam, Mütləq qüdrət olmur.
Çünki ***Ömrü*** tam, Mütləq ömür olmur.
Çünki ***Xeyiri*** tam, Mütləq xeyir olmur.
Çünki ***Məhəbbəti*** tam, Mütləq məhəbbət olmur.
Çünki ***Həqiqəti*** tam, Mütləq həqiqət olmur.
Çünki ***İdrakı*** tam, Mütləq idrak olmur.
Çünki ***İdeal*** həyatda tam, Mütləq təsdiq olunmur.
***Çünki İmtinası tam, Mütləq olmur.***

İnsan ***şəhvətdən*** tam imtina edə bilmir!
İnsan ***kin-küdurətdən*** tam imtina edə bilmir!
İnsan ***xudbinlikdən*** tam imtina edə bilmir!
İnsan ***hərcayilikdən*** tam imtina edə bilmir!
İnsan ***qorxudan*** tam imtina edə bilmir!
İnsan ***düşmənlikdən*** tam imtina edə bilmir!
İnsan ***cəlladlıqdan*** tam imtina edə bilmir!
İnsan ***fitnədən*** tam imtina edə bilmir!

İnsan ***məkrdən*** tam imtina edə bilmir!
İnsan ***zülmdən*** tam imtina edə bilmir!
İnsan ***əsarətdən*** tam imtina edə bilmir!
İnsan ***naşılıqdan*** tam imtina edə bilmir!

İnsani səadət – ruhani səadətdir. Ruhanilik – mütləqilik, əbədilik, sonsuzluq, kamillik deməkdir.

***İnsan həyatda yalançı səadətlərə tapınır.***

***Varidat*** səadətinə!
***Ehtişam*** səadətinə!
***Cismani nəşə*** səadətinə!
***Maddi nemət*** səadətinə!
***Şöhrət*** səadətinə!
***Rəyasət*** səadətinə!
***Mənsəb*** səadətinə!

***Yalançı səadət*** – əslində fəlakətdir, çünki antiruhanidir.

***Varidat səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

***Ehtişam səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

***Cismani nəşə səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

***Maddi nemət səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

***Şöhrət səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

***Rəyasət səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

***Mənsəb səadəti*** – fəlakətdir, çünki insanı ruhanilikdən ayırır.

Həyat səadətdən çox, fəlakətə meyil edir, çünki onun nisbi, naqis, qeyri-kamil, ölümlü təbiəti səadətdən çox, fəlakətə yaxındır.

Fəlakət zəngin çeşidlərə malikdir, onlardan mütləqsizlik, həqiqətsizlik, məhəbbətsizlik, imtinasızlıq – ən bariz fəlakətlərdir.

***Səadətdən çox fəlakətə meyil edən həyat fəlakətin özünəməxsus bir növünü – əsillərin, xalislərin, təmizlərin, mütləqlilərin fəlakətini yaradır.***

Ancaq bu fəlakət **–** əslində səadətdir, çünki ruhaniliyin təsdiqidir.

Maddiyyat həyatın zəruri xassəsidir, ancaq o, səadət bəxş etmir.

Həyat – ruhaniliyin maddiyyatda ifadəsidir, bu səbəbdən də tam ruhani deyil, tam ruhani olmadığından da səadətin məskəni deyil.

Maddini səadət sayanlar heç vaxt bəxtiyar olmurlar və başqasına bəxtiyarlıq gətirmirlər. Məqam yetişir və maddiyyatda səadət arayan ayılır və anlayır ki, onun səadət saydığı əslində fəlakət imiş, bu vaxt Ali Həyat öz hökmünü verir və İnsanın əsil insani mövcudluğu başlayır.

## Loğmanlıq – Naşılıq

İnsan həyatda ***Mütləq Loğmanlıq*** səviyyəsinə qalxmır, çünki o, Mütləq həqiqəti dərk etmir. Onun dərk etdiyi həqiqət nisbi, nöqsanlı, qeyri-kamil həqiqət olur. Buna görə də həyatda əsil loğmanlıq yoxdur, çünki Mütləq həqiqət olmayan yerdə həqiqətdən danışmaq olmaz.

İnsan həyatda – dünyanı, həyatı, insanı böyük mənada tanımır, onlar haqqında nisbi təsəvvürlərə malik olur. ***Həyatda Loğmanlıq naşılıqla yanaşı yaşayır.***

İnsan həyatda ***dünyanı*** tanımır, çünki dünyanın dünyadan böyük mənasını dərk etmir, onun əlamətləriylə məhdudlaşır, mahiyyətinə enmir.

İnsan həyatda ***təbiəti*** tanımır, çünki təbiətin təbiətdən böyük mənasını dərk etmir, onun üçün təbiət öz nisbi təzahürünə bərabər olur.

İnsan həyatda ***İnsanı*** tanımır, çünki onun özündən böyük Mütləq, ruhani, əbədi, sonsuz, kamil mahiyyətini dərk etmir, onun üçün İnsan öz cismani, nisbi, sonlu, ölümlü, qeyri-kamil təzahürünə bərabər olur.

Buna görə də insan ***ömrünün mənasını*** da düzgün anlamır, onu cismaniylə, maddiylə məhdudlaşdırır, ruhanilik səviyyəsində dərk etmir.

İnsan həyatda həm də özünün fərdi daxili aləmini Mütləq mənada tanımır, əslində o, ***özü üçün naməlum şəxs*** olur, bu səbəbdən də həyatda özünü tam realizə edə bilmir.

Eyni zamanda o, ***başqalarını*** da dərindən tanımır, insani münasibətlərdə Mütləq mənəvi vəhdət yaranmır, bu səbəbdən də ***başqasını*** tanımaq – onun daxili dünyasını öyrənmək yox, zahiri xüsusiyyətlərini öyrənmək olur.

***İnsanlar bir-birinə məlum olanda belə, naməlumluq aradan qalxmır.*** Hətta həyatdakı aşiqlər belə, bir-birinə tam məlum olmurlar, hətta evladlar valideynlərinə tam məlum olmurlar.

Naməlumluq həyatın başlıca xüsusiyyətlərindən biridir. Bu səbəbdən də insanı bilmək loğmanlığı əslində insanı bilməmək naşılığından o qədər də fərqli deyil.

İnsan ***cəmiyyəti*** də Mütləq mənada dərk etmir, onun mahiyyətini yox, əlamətlərini tanıyır, buna görə də onu insan aqibətinin sahibinə çevirir; əslində isə cəmiyyətin sahibi insandır, cəmiyyətin taleyi insanların əlindədir. Bu səbəbdən də cəmiyyəti tanımaq loğmanlığı – cəmiyyəti bilməmək naşılığından o qədər də fərqli deyil.

İnsan həyatda ***Mütləqin ruhani mahiyyətini*** də düzgün dərk etmir, onu yeri-göyü yaradan Allahda görür, xurafat səviyyəsinə enir və Mütləqdən ayrılır.

Bu səbəbdən də insanın Mütləqi tanımaq loğmanlığı Mütləqi tanımamaq naşılığından o qədər də fərqlənmir.

İnsan həyatda ***öz idrakı haqqında da mütləq həqiqəti bilmir,*** idrakın ruhani mahiyyətini qavramır, onu ağılla məhdudlaşdırır, ruhani rolunu anlamır.

Bu səbəbdən də insanın İdarkı bilmək loğmanlığı idrakı bilməmək naşılığından o qədər də fərqlənmir.

Dünya, həyat, insan, cəmiyyət, idrak haqqında Mütləq həqiqətə nail olmaq üçün həyatın məntiqinə yox, Ali Həyatın məntiqinə əsaslanmaq gərəkdir. Əsil loğmanlıq yalnız bu zaman yarana bilər.

## İnsan – İnsansızlıq

***Həyatda insan var, həm də yoxdur.***

Var, çünki həyat ruhaniliyin təzahürüdür.

Yoxdur, çünki ruhanilik həyatda nisbi, qeyri-kamil, nöqsanlı biçimdə təzahür edir. Bu səbəbdən də insan həyatda özünü tam ifadə edə bilmir, özü olmur.

***Həyatda insan var, həm də yoxdur.***

Var, çünki həyat əbədiliyin təzahürüdür.

Yoxdur, çünki əbədilik həyatda ölümlü biçimdə təzahür edir. Bu səbəbdən də insan həyatda özünü tam ifadə edə bilmir, özü olmur.

***Həyatda insan var, həm də yoxdur.***

Var, çünki həyat sonsuzluğun təzahürüdür.

Yoxdur, çünki sonsuzluq həyatda keçicilik biçimində təzahür edir. Bu səbəbdən də insan həyatda özünü tam ifadə edə bilmir, özü olmur.

***Həyatda insan var və yoxdur.***

Var, çünki həyat kamilliyin təzahürüdür.

Yoxdur, çünki həyatda kamillik qeyri-kamil biçimdə təzahür edir. Bu səbəbdən də insan həyatda özünü tam ifadə edə bilmir, özü olmur.

***İnsan həyatda həm yaşayır, həm də yaşamır.***

Yaşayır, çünki mütləq, əbədi, sonsuz, kamil mahiyyəti fəaliyyətində, əməllərində, düşüncələrində, duyğularında, azrularında, niyyətlərində ifadə edir. Yaşamır, çünki bu ifadə onun mahiyyətindən

aşağıdır, insan öz həyatında həmin mahiyyəti heç vaxt mütləq mənada təsdiq etmir, buna görə də özü olmur.

***İnsan sevir, həm də sevmir.***

Sevir, çünki öz sevgisində ruhani mahiyyətini ifadə edir.

Sevmir, çünki bu ifadə mahiyyətdən aşağı olur.

***İnsan hünərlidir, həm də hünərsizdir.***

Hünərlidir, çünki hünər vasitəsiylə öz mahiyyətini ifadə edir.

Hünərsizdir, çünki ifadə mahiyyətdən aşağı olur.

***İnsan həm mənəvidir, həm də mənəvi deyil.***

Mənəvidir, çünki mənəviyyat vasitəsiylə öz mahiyyətini ifadə edir. Mənəvi deyil, çünki ifadə mahiyyətdən aşağı olur.

***İnsan xeyirlidir, həm də xeyirsizdir.***

Xeyirlidir, çünki xeyir vasitəsiylə öz mahiyyətini ifadə edir. Xeyirsizdir, çünki ifadə mahiyyətdən aşağı olur.

***İnsan Mütləqlidir və Mütləqsizdir.***

Mütləqlidir, çünki Mütləqə tapınmaqla insan öz ruhani, əbədi, sonsuz, kamil mahiyyətini ifadə edir, Mütləqsizdir, çünki həyatda Mütləqə ülvi münasibətini tam ifadə edə bilmir.

***İnsan ədalətlidir, həm də ədalətsizdir.***

Ədalətlidir, çünki ədalət vasitəsiylə insan öz ruhani, əbədi, sonsuz, kamil mahiyyətini ifadə edir. Ədalətsizdir, çünki ifadə mahiyyətdən aşağıdır.

***İnsan ideallıdır və idealsızdır.***

İdeallıdır, çünki ideal vasitəsiylə öz ruhani, əbədi, sonsuz, kamil mahiyyətini ifadə edir. İdealsızdır, çünki ifadə mahiyyətdən aşağıdır.

***İnsan safdır, həm də saf deyil.***

Safdır, çünki saflıq vasitəsiylə insan öz ruhani, əbədi, sonsuz, kamil mahiyyətini ifadə edir. Saf deyil, çünki ifadə mahiyyətdən aşağıdır.

***İnsan gözəldir və gözəl deyil.***

Gözəldir, çünki gözəllik vasitəsiylə o, öz ruhani, əbədi, sonsuz, kamil mahiyyətini ifadə edir. Gözəl deyil, çünki ifadə mahiyyətdən aşağıdır.

***İnsan Müstəqildir, həm də qeyri-müstəqildir.***

Müstəqildir, çünki müstəqillik vasitəsiylə o, öz ruhani, əbədi, sonsuz, kamil mahiyyətini ifadə edir. Qeyri-müstəqildir, çünki ifadə mahiyyətdən aşağıdır.

Buna görə də ***həyat həm insanlıdır, həm də insansızdır.*** Mahiyyətə bərabər təzahür yalnız Ali Həyatda yaranır. Yalnız Ali Həyat tam insani həyat olur.

## İmkan – İmkansızlıq

***Ruhani*** xilqət olan İnsan – mütləq imkanlara malikdir.
***Cismani*** xilqət olan İnsan – nisbi imkana malikdir.
***Əbədi*** xilqət olan İnsan – mütləq imkanlara malikdir.
***Ölümlü*** xilqət olan İnsan – nisbi imkana malikdir.
***Sonsuz*** xilqət olan İnsan – mütləq imkanlara malikdir.
***Keçici*** xilqət olan İnsan – nisbi imkana malikdir.
***Kamil*** xilqət olan İnsan – mütləq imkanlara malikdir.
***Qeyri-kamil*** xilqət olan İnsan – nisbi imkana malikdir.

Bu baxımdan, insan həyatda həmişə özündən aşağı olur. Həyat həmişə insanın daxili imkanlarından aşağı olur. İnsan öz daxili mahiyyəti etibarilə mütləq qəhrəmanlıq imkanlarına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

İnsan öz daxili mahiyyəti etibarilə Mütləq Aşiqlik imkanlarına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

İnsan öz daxili mahiyyəti etibariylə Mütləqləşmə imkanlarına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

Öz daxili mahiyyəti etibariylə insan Mütləq müqəddəslik imkanına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

Öz daxili mahiyyəti etibariylə insan Şəri həyatdan silmək imkanına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

Öz daxili mahiyyəti etibariylə insan Mütləq Ruhaniləşmə, Özünəçatma imkanına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

Öz daxili mahiyyəti etibariylə insan Mütləq İmtina imkanına malikdir. Ancaq həmin imkan həyatda məhdud, nisbi çərçivədə reallaşır.

***Həyat insana bərabər olmur.***

Bu səbəbdən də insanın intəhasız imkanları həyatda imkansızlığa çevrilir. İnsanla həyat arasında ziddiyyət yaranır. Həmin ziddiyyət Ali Həyatda aradan qaldırırlır.

## Faciəvilik

Həyat Mütləqə çatmır, nisbiylə qane olmur.
Buna görə də faciəvidir.
Həyat ruhaniyə çatmır, cismaniylə qane olmur.
Buna görə də faciəvidir.
Həyat əbədiyə çatmır, ölümlüklə qane olmur.
Buna görə də faciəvidir.
Həyat sonsuza çatmır, keçiciylə qane olmur.
Buna görə də faciəvidir.
Həyat kamilliyə çatmır, qeyri-kamilliklə qane olmur.
Buna görə də faciəvidir.
Həyat maddidən artıq, mənəvidən azdır.
Bu səbəbdən faciəvidir.
Həyat zahirdən artıq, daxildən azdır.
Bu səbəbdən faciəvidir.
Həyat əlamətdən artıq, mahiyyətdən azdır.
Bu səbəbdən faciəvidir.
Həyat şəhvətdə dayanmır, ancaq məhəbbətə də çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat zülmdə dayanmır, ancaq Mütləq Ədalətə çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat yalanda dayanmır, ancaq Mütləq Həqiqətə çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat hərcayilikdə dayanmır, ancaq Müqəddəsliyə də çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat günahda dayanmır, ancaq Mütləq Saflığa da çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat şübhədə dayanmır, ancaq Mütləq İnama da çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat naşılıqda dayanmır, ancaq Mütləq Müdrikliyə də çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat gerçəklikdə dayanmır, ancaq İdeala da çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat bəsitlikdə dayanmır, ancaq Mütləq Ülviliyə də çatmır.
Bu səbəbdən faciəvidir.

Həyat əsarətdə dayanmır, ancaq Mütləq Azadlığa da çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat eybəcərlikdə dayanmır, ancaq Mütləq Gözəlliyə də çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat düşmənlikdə dayanmır, ancaq Mütləq Dostluğa da çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat təmənnada dayanmır, ancaq Mütləq Təmənnasızlığa da çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat fəlakətdə dayanmır, ancaq Mütləq Sədaqətə də çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat təzahürdə dayanmır, ancaq Mahiyyətə də çatmır.
Bu səbəbdən faciəvidir.
Həyat adama çatır, İnsana çatmır.
Bu səbəbdən də faciəvidir.

## Həyat – Ölüm

***Həyatın kökü – Mahiyyətdir***. Mahiyyət ölümsüzdür.

***Həyatın budaqları – əlamətdir***. Əlamət ölümlüdür.

Ölüm həyatın budaqlarını qırır. Fəqət kökünü qopara bilmir. Bu nöqteyi-nəzərdən ölümlə həyatın döyüşündə həyat qalib gəlir.

Həyat mahiyyətdən aşağıdır, çünki mahiyyətin özü yox, təzahürüdür. Bu şəkildə o, ölümlüdür.

Həyatda nə varsa, ölümə məhkumdur. Ancaq həyatın Mahiyyəti həyatdan böyükdür. Bu səbəbdən də həyatdakılar ölürlərsə də, həyat ölmür.

***Həyatı saxlayan, qoruyan, ölümsüzləşdirən həyatın özündən böyük, yüksək, ali Mahiyyətiir.***

Ancaq həyat Mahiyyətə bərabər deyil, Mahiyyət özünü Mütləq şəkildə ifadə edə bilmir, bu səbəbdən də o, Ali Həyata can atır.

Lakin ***həyat ölmür.***

Çünki ***həyatsız Ali Həyat yoxdur.***

# IV. ALİ HƏYAT

## Mütləq Həyat

Ali Həyat insanın daxili dünyasında yaranır, insan öz mahiyyətinə bərabər olur, özünə çatır.

İnsan gerçəkliyin yox, öz Ruhani Mahiyyətinin hökmünə tabe olur. İnsani Mahiyyət insan həyatının sahibinə çevrilir. İnsan İnsani Mahiyyət qanunları əsasında yaşayır. Ruhani Mahiyyət insan həyatının meyarı olur. Yalnız Mahiyyətə bərabər olan həyat əsl həyat sayılır. İnsan mahiyyət səviyyəsinə yüksəlir. O, özündən xaricdəkinə həmin yüksəklikdən baxır.

İnsan cəmiyyətə yox, cəmiyyət insana layiq olmağa çalışır.

İnsan cəmiyyətə yox, cəmiyyət insana – Ruhani Mahiyyətə tabe olur. Cəmiyyət İnsani Mahiyyət Qanunları əsasında fəaliyyət göstərir. Mütləq insani səviyyə mütləq ictimai səviyyə yaradır. Dünyadakı düşmənləri üzərində qələbə çalan insan indi özü üzərində qələbə çalır, daxilindəki vəhşini, çirkini, şəri, naqisi öldürür.

Özündən kənardakını dəyişən indi özünü dəyişməyə müvəffəq olur. Mənafe ziddiyyətlərini həll eləyən, öz təbiətiylə mahiyyəti arasındakı ziddiyyəti həll eləyir.

Qatil əvəzinə İnsan yaranır.

Naşı əvəzinə İnsan yaranır.

Həris əvəzinə İnsan yaranır.

Zəlil əvəzinə İnsan yaranır.

Daxildən ***zülmkarlıq*** silinir və zülmə son qoyulur.

Daxildən ***müstəbidlik*** silinir və müstəbidliyə son qoyulur.

Daxildən ***sinfilik*** məhdudiyyəti silinir və sinfiliyə son qoyulur.

Daxildən ***bərabərsizlik*** eybəcərliyi silinir və bərabərsizliyə son qoyulyr.

Daxildən ***əsarətə salmaq ehtirasi və əsarətə əyilmək miskinliyi*** silinir və əsarətə son qoyulur.

Daxildən ***qəsbkarlıq*** eybəcərliyi silinir və qəsbkarlığa son qoyulur.

Daxildən ***mülkədarlıq*** eybəcərliyi silinir və mülkədarlığa son qoyulur.

Daxildən ***kapitalistlik*** silinir və kapitalistliyə son qoyulur.

***İnsanın xarici həyatı onun daxili həyatının güzgüsüdür.*** Daxili həyat necədirsə, xarici həyat da elədir.

İndiyə qədər dünyayla, başqalarıyla döyüşən insan indi özüylə döyüşür, öz mahiyyətinə catır.

Ali Həyat – insanın öz mahiyyətinin məntiqiylə yaşaması, Mütləq Ruhani Tələbə əməl eləməsi deməkdir.

Ali Həyat – mütləqləşməkdir.

Mütləqləşmə – əsrlərə bərabər yoldur. Ancaq bu yolun hər məqamında, mərhələsində insan özündən yüksəyə qalxır.

Bu səbəbdən də əsrlərə bərabər yol olan ***Ali Həyat, həm də insanın hər dövrü üçün zəruri Amaldır.*** O, həm əbədi inkişaf Amilidir, həm də həyat Amalıdır.

O, həm əbədi sabahdır, həm də bugünün idealı, Ruhani Tələbidir.

Ali Həyatın məntiqiylə, tələbiylə yaşamaq – bugünə Mütləqin, Ruhaniliyin, Sonsuzluğun, Əbədiliyin, Kamilliyin **–** Əbədi Sabahın gözüylə baxmaqdır. Həmin məntiq – onu naqislikdən təmizlənməyə, Mütləqə yüksəlməyə, Ruhaniləşməyə aparır.

İndiyə qədər bəşər həyata – nisbiyə, nöqsanlıya, keçiciyə, ölümlüyə tapınıb, indi Ali Həyatda Mütləqə, kamilə, sonsuza, ölümsüzə tapınmalıdır.

Ali Həyat insanların əməllərində təzahür edir, o həm də Mütləq Amaldır.

***Ali Həyatın qələbəsi Əməlin Amala bərabər olması deməkdir.***

## Mütləq Ruhanilik

Öz mahiyyətinə bərabər olan İnsan ***mütləq ruhanilik*** səviyyəsinə ucalır. Maddi fəaliyyət ruhaniliyin təsdiqinə tabe olur.

***Maddi nemətlər istehsalı*** – mütləq, əbədi, sonsuz, kamil mahiyyətə həsr olunur. İstehsalatın meyarı maddiyyat yox, ***ruhanilik*** olur; maddi inkişaf insanın özünütəsdiqinə xidmət edir, istehsalat vasitəsiylə insanın ruhani mahiyyəti təsdiq olunur.

***İstehsalat mənəviyyata tabe olur. İnsanın mütləqləşməsi məqsədinə yönəldilir.***

Maddi nemətlər vasitəsiylə insan özünün yalnız təbiət üzərində sahibliyini yox, həm də özü üzərində sahibliyini təsdiq edir. Maddi nemətlər zənginliyi insanı maddiyyat asılılığından qurtarır və bununla da onun mənəvi kamilliyi üçün yeni imkanlar yaradır. Maddi nemətlər kasadlığı – insanı maddiyyatın köləsinə çevirir.

Maddiyyatın köləsi olan insan öz ruhanilik imkanlarını hədsiz çətinliklə həyata keçirə bilir, onun gerçək həyatı maddiyyatla məhdudlaşır.

***Əslində, maddiyyata qapılıb qalmaq – yaşamamaqdır.***

Ali Həyatda bərqərar olan istehsalat – insanı bu məhdudluqdan qurtarır və onun mahiyyətə qovuşmaq imkanını artırır.

***Maddiyyat ruhaniliyə tabe olanda, istehsalat ruhani məqsədlərə həsr olunanda – maddiyyatın, istehsalatın insanilik səviyyəsi yaranır.***

Şəhərlər salınır, yeni maşınlar icad olunur, ruhanilik əksilmir, əksinə, artır, çünki inkişafın meyarı İnsandır. Təbiətlə insan arasında yadlıq Ali Həyatda tam aradan qalxır.

***Çay*** öz maddi xassələrini, biçimini itirmir. Lakin o, insanın ruhani tərcümanı rolunu indi mütləq mənada oynayır, ***çay vasitəsiylə İnsan özünü ifadə edir.***

***Dağ*** öz maddi xassələrini, biçimini itirmir, ancaq o, insanın ruhani tərcümanı rolunu indi mütləq mənada oynayır, ***dağ vasitəsiylə İnsan özünü ifadə edir.***

***Göy*** öz maddi xassələrini, biçimini itirmir, ancaq o, insanın ruhani tərcümanı rolunu indi mütləq mənada oynayır, ***göy vasitəsiylə İnsan özünü ifadə edir.***

***Torpaq*** öz maddi xassələrini, biçimini itirmir, ancaq o, insanın ruhani tərcümanı rolunu indi mütləq mənada oynayır, ***torpaq vasitəsiylə İnsan özünü ifadə edir.***

İnsanın öz mahiyyətinə çatması ***cəmiyyətin*** ruhaniləşməsini müəyyən edir. ***Ruhaniləşən cəmiyyətdə*** insan icraçılıq, funksiya, əşya aqibətindən xilas olur. Mənəvi Qanunlar əsasında yaşayır, özünü Mütləq mənada realizə edir.

Burada insan ruhani varlıq kimi fəaliyyət göstərir, qiymətləndirilir, təsdiq olunur, o, mexanizm səviyyəsindən – ruhani xilqət səviyyəsinə yüksəlir, ***insani mahiyyət ilə ictimai vəziyyət*** arasında ziddiyyət aradan qaldırılır. Özünə çatan, mahiyyətinə bərabər olan, mütləq tələblərə riayət edən İnsan daxilindəki naqisliklərdən tam xilas olur, özü üzərində tam qələbə çalır.

Yırtıcılıq ölür.

Hərcayilik ölür.

Cəlladlıq ölür.

Xudbinlik ölür.

Şəhvət ölür.

Məkr ölür.

Fitnə ölür.

Zülmkarlıq ölür.

Fatehlik ölür.

Kin ölür.

Qorxu ölür.
Həsəd ölür.
Mütləqsizlik ölür.
İnsan içindəki vəhşini, əşyanı, naşını öldürür. ***İnsan həyatı insani həyat olur.***

## Mütləq Xeyir

Özünə çatan, Mütləqin Tələblərinə riayət edən insan Şərin üzərində tam qələbə çalır, onu həyatdan silir.
Mütləq İdraka, Mütləq Mənəviyyata və Mütləq İradəyə malik olan insan Şərsiz dünya yaradır.
Vicdan günaha qalib gəlir.
Həqiqət yalana qalib gəlir.
Sədaqət xəyanətə qalib gəlir.
Qüdsiyyət fitnəyə qalib gəlir.
İnam şübhəyə qalib gəlir.
Təbiilik süniliyə qalib gəlir.
İnsanilik heyvaniliyə qalib gəlir.
İdrakından şəri silən İnsan, onu həyatdan da silir.
Mənəviyyatından Şəri silən İnsan onu həyatdan da silir.
Fəaliyyətindən Şəri silən İnsan onu həyatdan da silir.
Şərli insan öz mahiyyətindən aşağı yaşayan insan deməkdir.
Şərsiz insan mahiyyətinə bərabər yaşayan İnsan deməkdir. Ali Həyatda insan nisbi xeyiri rədd edir.
Nisbi ədalət – Ali Həyatda Şər sayılır, çünki onun zülmə çevrilmək imkanı həmişə var.
Nisbi dostluq – Ali Həyatda Şər sayılır, çünki onun düşmənliyə çevrilmək imkanı həmişə var.
Nisbi həqiqət – Ali Həyatda Şər sayılır, çünki onun yalana çevrilmək imkanı həmişə var.
Nisbi inam – Ali Həyatda Şər sayılır, çünki onun şübhəyə çevrilmək imkanı həmişə var.
Nisbi saflıq – Ali Həyatda Şər sayılır, çünki onun günaha çevrilmək imkanı həmişə var.
***Ali Həyatda insan həm də Xeyirli Məqsədin Şər vasitəsiylə həyata keçirilməsi qəbahətini rədd edir.***
Xəyanət vasitəsiylə yaranan əzəmət Şərdir, çünki əsil Xeyirdə vasitə məqsədə bərabər olmalıdır.
Cəlladlıq vasitəsiylə yaranan nailiyyət Şərdir, çünki əsil Xeyirdə vasitə məqsədə bərabər olmalıdır.

Günah vasitəsiylə yaranan böyüklük Şərdir, çünki əsil Xeyirdə vasitə məqsədə bərabər olmalıdır.

Ali Həyatda xeyirli Xeyir səviyyəsinə yüksəlir. Buna görə də şəhvət qarışıqlı məhəbbət Ali Həyatda məhəbbət sayılmır.

Küdurət qarışıqlı mərhəmət – mərhəmət sayılmır.

Qorxu qarışıqlı cəsarət – cəsarət sayılmır.

Sünilik qarışıqlı təbiilik – təbiilik sayılmır.

Ali Həyat Şərin labüdlüyü, Xeyirə gərəkliyi naşılığını inkar edir.

Ali Həyat deyir ki, Şər Xeyirə lazım deyil, o, Xeyirin Mütləq Mahiyyətinin ifadəsi yox, naqis, nöqsanlı, nisbi, qeyri-kamil əlamətinin ifadəsidir.

Şərin mövcudluğu Xeyirin özünə bərabər olmamasını, özünə çatmamasını sübut edir. Əsil Xeyir Şərdən – Mütləq Mənada azad olmuş, xilas olmuş, təmizlənmiş Xeyirdir.

Həyat üçün zəruri olan Şər, Ali Həyat üçün gərəksiz olur. Çünki Ali Həyat xeyirli həyat yox, Xeyirə çatmış həyat olur.

## Mütləq Gözəllik

Özünə çatan, Mütləqin Tələbiylə yaşayan İnsan Mütləq Gözəllik səviyyəsinə yüksəlir.

Cismani kamillik – ruhaniliyin tam, hərtərəfli, bütöv ifadəsinə çevrilir. Cismani kamillik vasitəsiylə ruhanilik təsdiq olunur.

Gözəl üz – ali mənəviyyatı ifadə edir.

Göz – ali mənəviyyatın güzgüsü rolunu oynayır.

Gözəl dodaq – həqiqəti söyləyir.

Cismani məlahət – ruhani ülviyyəti aşkara çıxarır.

Sərv boyda – mənəvi ucalıq yaşayır.

Ali Həyatda gözəllik dəyişilir, lakin yox olmur.

Qırışlarla örtülən üzdə – ruhani gözəllik məskən salır.

Qocalıqda – müdriklik gözəlliyi aşkara çıxır.

Sarsılmış bədəndə sarsılmaz ruh yaşayır.

Gözlərin nuru sönmür, deməli, gözəllik ölmür.

Dodaqların şəfası azalmır, deməli, gözəllik ölmür.

Əllərin mehri itmir, deməli, gözəllik ölmür.

Mütləq gözəlliyin təsdiqi gözəlliyin ruhani səviyyəsini yaradır. Bu o deməkdir ki, gözəl cismanilik özündə çirkin mənəviyyat gəzdirə bilməz. Bu o deməkdir ki, gözəlliyin dəyəri ruhaniliyin dəyəriylə ölçülür.

Buna görə də Ali Həyatda çirkin biçimdə aşkara çıxan ruhani gözəlliyə münasibət kökündən dəyişilir.

***Ruhani gözəllik eybəcər biçimdə belə gözəldir.*** Çünki həmin gözəllik eybəcər biçimə ruhani məlahət gətirir. Burada ruhani cismanini təkmilləşdirir.

***Kobud üzdə*** ruhani ülviyyət ifadə olunursa, bu artıq kobud üz olmur, ruhani üz olur.

***İri dodaqlarda*** ruhani kəlam ifadə olunursa, bu artıq iri dodaqlar olmur, ruhani dodaqlar olur.

***Qısa boyda*** ruhani əzəmət ifadə olunursa, bu artıq qısa boy olmur, ruhani boy olur.

Təbiidir ki, cismanilik ən yaxşı halda belə ruhaniliyə bərabər olmur, cismaniliklə ruhaniliyin fərqi həmişə qalır, cismani ruhaninin ifadə biçimidir, o, özünün ən yüksək səviyyəsində belə, ruha çevrilmir, ancaq ruha yad olmaq, ruhdan ayrılmaq çirkinliyindən xilas olur.

Mütləq gözəllik olan yerdə – qeyri-ruhani gözəllik yoxdur; gözəlliyin qəbahəti, xəyanəti, idraksızlığı, məkri, fitnəsi yoxdur.

Bu baxımdan, Ali Həyat xüsusi cismani gözəllik tanımır, cismanidə aşkara çıxan ruhani gözəllik tanıyır.

Özünə çatan, Mütləqin Tələbiylə yaşayan İnsan daxili aləm gözəlliyi səviyyəsinə qalxır, mənəvi dünyasını təmizləməklə, nizamlamaqla, saflaşdırmaqla, ona mütləq ahəngdarlıq gətirir.

Özünə çatan, Mütləqin Tələbiylə yaşayan İnsan ***cəmiyyəti*** ruhani səviyyəyə qaldırmaqla, ona daxili ahəngdarlıq gətirir.

Özünə çatan, Mütləqin Tələbiylə yaşayan İnsan ***İdrakı*** nisbilikdən, naşılıqdan, xurafatdan xilas etməklə ona daxili ahəngdarlıq gətirir.

Ali Həyat Mütləq Gözəlliyi təsdiq etməklə Gözəl Həyat səviyyəsinə qalxır. Nisbi gözəlliklərlə zəngin olan həyat özünü Gözəl Həyatda tapır.

## Mütləq Saflıq

Ali Həyata yüksələn, özünə çatan İnsan Mütləqin məntiqiylə yaşayır, Mütləq Məntiq isə nisbi saflıq tanımır, yalnız Mütləq Safıq tanıyır.

Bu baxımdan, Ali Həyatda insan öz daxili dünyası üzərində tam qələbə çalır, onu naqisliklərdən təmizləyir, Mütləq mənəvi qüdsiyyət yaranır, saflıq günahı həyatdan silir.

Qatillik günahı həyatdan silinir.
Xudbinlik günahı həyatdan silinir.
Xəbislik günahı həyatdan silinir.
Yırtıcılıq günahı həyatdan silinir.
Əyyaşlıq günahı həyatdan silinir.
Xəyanət günahı həyatdan silinir.
Həsəd günahı həyatdan silinir.
Əsarət günahı həyatdan silinir.

Ali Həyatda İnsan çirkabdan tam qurtarır.
Müstəbidlik ***bəşərsevərlik*** libasında görünə bilmir.
Xəbislik ***munislik*** libasında görünə bilmir.
Əyyaşlıq ***aşiqlik*** libasında görünə bilmir.
Nifrət ***şəfqət*** libasında görünə bilmir.
Qəbahət ***ləyaqət*** libasında görünə bilmir.
Qəsbkarlıq ***xilaskarlıq*** libasında görünə bilmir.
Fitnə ***ülfət*** libasında görünə bilmir.
Məkr ***izzət*** libasında görünə bilmir.
Mütləq Saflıqda biçim mənaya, təzahür mahiyyətə tam bərabər olur.
Aşiq – eşqə bərabər olur.
Ana – analığa bərabər olur.
Ata – atalığa bərabər olur.
Ülvi – ülviyyətə bərabər olur.
Həqiqi – həqiqətə bərabər olur.
Qəhrəman – qəhrəmanlığa bərabər olur.
Fədakar **–** fədakarlığa bərabər olur.
İnsan – insanlığa bərabər olur.

Mütləq Saflıqda İnsan özünə tam sahib olur; günah əsarətindən qurtarır, nisbi saflıq əsarətindən xilas olur.
***Mütləq Saflıqda İnsan Mütləqləşir.***

## Mütləq Müqəddəslik

Ali Həyatda Müqəddəslik hərcayilik üzərində qələbə çalır, Mütləq Müqəddəslik təsdiq olunur, hərcayilik həyatdan silinir.
Ali Həyat sübut edir ki, ***Bəşər*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

Ali Həyat sübut edir ki, ***Amal*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

Ali Həyat sübut edir ki, ***Xeyir*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

Ali Həyat sübut edir ki, ***Vətən*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

Ali Həyat sübut edir ki, ***Məhəbbət*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

Ali Həyat sübut edir ki, ***İnam*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

Ali Həyat sübut edir ki, ***Vicdan*** müqəddəsdir, çünki öz ruhani mahiyyətinə bərabərdir. Bununla da hərcayiliyə həyatda yer qalmır.

***Ali Həyat yalançı müqəddəsliyi həyatdan yox edir.*** Fatehliyin dünyasevərlik müqəddəsliyi rədd olunur.

Müstəbidliyin vətənsevərlik müqəddəsliyi rədd olunur.

Hakimiyyətsevərliyin xalqsevərlik müqəddəsliyi rədd olunur.

Ali Həyatda Müqəddəsliyə şübhə aradan qalxır. Çünki təzahür – mahiyyətə, əlamət – mənaya bərabər olur.

***Bəşər*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda Bəşəri mahiyyət mütləq səviyyədə təsdiq olunur.

***Xeyir*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda Xeyir mahiyyəti mütləq səviyyədə təsdiq olunur.

***Amal*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda Amal öz mahiyyətini mütləq səviyyədə təsdiq edir.

***İnam*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda İnam öz mahiyyətini mütləq səviyyədə təsdiq edir.

***Vətən*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda Vətən öz mahiyyətini mütləq səviyyədə təsdiq edir.

***Məhəbbət*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda Məhəbbət öz mahiyyətini mütləq səviyyədə təsdiq edir.

***Vicdan*** – müqəddəs deyil, çünki gerçəklikdə nisbi, nöqsanlı, qeyri-kamil şəkildə aşkara çıxır – deyən şübhə susur, çünki Ali Həyatda Vicdan öz mahiyyətini mütləq səviyyədə təsdiq edir....

Bir sözlə, Ali Həyatda bəşər – bəşəri mahiyyətə, xeyir – xeyiri mahiyyətə, amal – amali mahiyyətə, vətən – vətəni mahiyyətə, inam

– inami mahiyyətə, məhəbbət – aşiqanə mahiyyətə, vicdan – vicdani mahiyyətə bərabər olur.

Ali Həyat səviyyəsinə qalxan həyat – müqəddəsləşir.

## Mütləq İnam

Ali Həyatda İnam Şübhə üzərində tam qələbə çalır, Mütləq İnam təsdiq olunur, şübhə həyatdan silinir.

İnam həyatın Ali səviyyəsini, öz böyük mənasına yüksəlməsini, təzahürlə mahiyyətin vəhdətini təsdiq edir. O, sübut edir ki, həyat özünün özündən böyük mənasına yüksələ bilər, cismani – ruhaniyə, keçici – sonsuza, ölümlü – əbədiyə, qeyri-kamil – kamilə bərabər ola bilər.

Özünə bərabər olmaq üçün həyat – Ali Həyat səviyyəsinə ucalır.

Öz mahiyyəti etibariylə Mütləq olan – özünü Mütləqdə tapır. ***Mütləqlik naqisliklərdən, nöqsanlardan, hərcayilikdən tam azad olmaq deməkdir.***

Ali Həyat Mütləq Həyat olduğundan o, şübhə zəruriliyini ləğv edir.

***Mütləq İnam*** İnsanın Ali Səviyyəsini, öz böyük mənasına yüksəlməsini, təzahürlə mahiyyətin vəhdətini təsdiq edir. O, sübut edir ki, İnsan Mütləq kamilliyə çata bilər, naqisliklərini, nöqsanlarını aradan qaldıra bilər, öz böyük mənasına tam qovuşa bilər, bu səbəbdən də Həyatda Şübhəyə yer yoxdur.

Ali Həyat Şübhə zəruriliyini rədd edir.

Mütləq İnam Şübhəyə deyir ki, sənin keçici saydığın əslində sonsuzluqmuş – bunu Ali Həyat sübut elədi; nöqsanlı saydığın – kamilmiş – bunu Ali Həyat sübut elədi; cismani saydığın – ruhaniymiş – bunu Ali Həyat sübut elədi; ölümlü saydığın – əbədiymiş – bunu Ali Həyat sübut elədi; nisbi saydığın – Mütləqmiş – bunu Ali Həyat sübut elədi.

***Mütləq İnam*** deyir ki, əsil həyat – Mütləq mənada ***ədalətli*** olmalıdır, çünki yalnız Mütləq ədalət həyatın mahiyyətinə bərabərdir, nisbi ədalət – zülm qarışıqlı ədalət – həmin mahiyyətə bərabər deyil, bu səbəbdən də Ali Həyat deyil.

***Mütləq İnam*** deyir ki, əsil həyat – Mütləq mənada ***məhəbbətli*** olmalıdır, çünki yalnız Mütləq məhəbbət həyatın mahiyyətinə bərabərdir, nisbi məhəbbət – şəhvət qarışıqlı məhəbbət – həmin mahiyyətə bərabər deyil, bu səbəbdən də Ali Həyat deyil.

***Mütləq İnam*** deyir ki, əsil həyat Mütləq mənada ***həqiqətli*** olmalıdır, çünki yalnız Mütləq həqiqət həyatın mahiyyətinə

bərabərdir, nisbi həqiqət – yalan qarışıqlı həqiqət – həmin mahiyyətə bərabər deyil, bu səbəbdən də Ali Həyat deyil.

***Mütləq İnam*** deyir ki, yalnız Mütləq mənada ***mənəvi*** həyat əsil həyatdır, çünki yalnız Mütləq mənəvilik həyatın mahiyyətinə bərabər ola bilər, nisbi, nöqsanlı mənəvilik həyatın mahiyyətinə bərabər deyil, bu səbəbdən də Ali Həyat deyil.

***Mütləq İnam*** deyir ki, yalnız Mütləq mənada ***vicdanlı*** həyat – əsil həyatdır, çünki yalnız Mütləq vicdan – həyatın mahiyyətinə bərabərdir, nisbi, nöqsanlı, günah qarışıqlı vicdan həmin mahiyyətə bərabər deyil, bu səbəbdən də Ali Həyat deyil.

Şübhə – mənəvi, məhəbbətli, həqiqətli, ədalətli, vicdanlı olmağı – yaşamamaq sayırdı. Bu iddiasında o, həyatın məntiqinə arxalanırdı. Ali Həyat həyatın bu məntiqini rədd edir və sübut edir ki, Mütləq vicdan, Mütləq mənəviyyat, Mütləq həqiqət, Mütləq ədalət, Mütləq məhəbbət olmayan yerdə əsil İnsani mövcudluq yoxdur.

Yaşamaq – Mütləq mənada saflaşmaq deməkdir. Həyat Mütləq saflığa can atanları özündən təcrid edir, əslində isə onlar həyatdan yüksəyə qalxırlar və Ali Həyatda özlərini təsdiq edirlər.

Ali Həyatda yalançı İnamlara son qoyulur.

Yeri-göyü yaradan Allah ideyasına son qoyulur, çünki o, Mütləq ülviyyətini bayağılaşdırır, dünyanı, həyatı, insanı özlərindən ayırır, mahiyyəti təzahürə qarşı qoyur.

Ali Həyat təsdiq edir ki, İnsanın mahiyyəti təzahüründən artıqdır, böyükdür, yüksəkdir, ***ancaq ona yad deyil, bu səbəbdən də gec-tez təzahür mahiyyətə bərabər olur.***

Dünyanın, Həyatın, İnsanın sahibi Dünya, Həyat, İnsan özüdür.

Dünyanı, Həyatı, İnsanı heç kəs yaratmayıb, təzahürlə mahiyyət arasındakı ziddiyyəti də özləri həll edirlər, göydəki Allah həll etmir, çünki o – yoxdur. O dünya cəfəngiyyatı, cənnət-cəhənnəm xurafatı insan naqisliyinin, naşılığının, hərcayiliyinin törəmələridir. Həmin hərcayilik Ali Həyatda mütləq mənada rədd edilir.

***Ali Həyat Mütləq İnam dünyası yaradır.***

## Mütləq Ədalət

Ali Həyatda Ədalət Zülm üzərində tam qələbə çalır, Mütləq Ədalət təsdiq olunur. Şübhə həyatdan silinir.

Mütləq Ədalət – "Dünya hamınındır", – deyir və güclünün, zorlunun dünya üzərində ağalığına son qoyur.

Mütləq Ədalət – "Cəmiyyət hamınındır", – deyir və güclünün, zorlunun cəmiyyət üzərində ağalığına son qoyur.

Mütləq Ədalət – "İnsan ali sərvətdir", – deyir və güclünün, zorlunun insan üzərində ağalığına son qoyur.

Mütləq Ədalət – "Həqiqət ali sərvətdir", – deyir və güclünün, zorlunun həqiqət üzərində təzyiqinə son qoyur.

Mütləq Ədalət – "Bütün xalqlar eyni hüquqa malikdir", – deyir və güclünün, zorlunun xalqlar üzərində ağalığına son qoyur.

Mütləq Ədalət – "Ləyaqəti tapdamaq günahdır", – deyir və güclünün, zorlunun ləyaqəti tapdamasına son qoyur.

Mütləq Ədalət – "Qan tökmək günahdır!", – deyir və güclünün, zorlunun vəhşi üstünlüyünə son qoyur.

Mütləq Ədalət – "Ölkələri viran qoymaq günahdır!", – deyir və güclünün, zorlunun yırtıcı üstünlüyünə son qoyur.

Mütləq Ədalət – "İnsanı əşyaya çevirmək günahdır!", – deyir və güclünün, zorlunun qəddar üstünlüyünə son qoyur.

Mütləq Ədalət cismaniliyin ruhanilik üzərində hakimiyyətini həyatdan silir.

Mütləq Ədalət nifrətin məhəbbət üzərində hakimiyyətini həyatdan silir.

Mütləq Ədalət hərcayiliyin müqəddəslik üzərində hakimiyyətini həyatdan silir.

Mütləq Ədalət yalançı ədaləti həyatdan qovur.

Həqiqət libasında görünən cəhalət həyatdan silinir.

Nicat libasında görünən fəlakət həyatdan silinir.

Azadlıq libasında görünən əsarət həyatdan silinir.

Mərhəmət libasında görünən azğınlıq həyatdan silinir.

Səadət libasında görünən işgəncə həyatdan silinir.

Ali Həyat zülmsüz həyatdır. Bu baxımdan o, həyata bənzəmir.

Zülmsüz həyat yoxdur.

Ali Həyat bu əzəli Məntiqi rədd edir.

Həyatdan böyük Həyat yaranır.

## Mütləq Azadlıq

Ali Həyatda azadlıq əsarət üzərində qələbə çalır, Mütləq azadlıq təsdiq olunur, əsarət həyatdan silinir.

Ali Həyat İnsanı ruhani varlıq kimi təsdiq edir.

***Ruhanilik – Mütləq Müstəqillik deməkdir. Ali Həyat İnsanı Mütləq Müstəqil Qüvvə sayır.***

Ali Həyatda öz Mütləq ruhani mahiyyətinə bərabər olan İnsan – tam Müstəqillik əldə edir.

Ali Həyat İnsana Mütləq azadlıq verir. Əsarət həyatdan qovulur.

Ali Həyat əsarətsiz yaşayış yaradır. Bu baxımdan o, həyata bənzəmir, çünki əsarətsiz həyat yoxdur. Lakin həyatın məntiqini rədd edən Ali Həyat həyatdan böyük həyat yaradır və bu həyatda insan özünün özündən böyük qismətinə yetişir.

***Ali Həyat İnsanı öz naqisliyinin, nisbiliyinin, natamlığının əsarətindən qurtarır.***

Ali Həyatda İnsan özünün üzərində tam qələbə çalır, daxilini eybəcərliklərdən, nöqsanlardan tam xilas eləyir, mütləq saflıq səviyyəsinə yüksəlir və bununla da insani zəifliyin insan üzərində qələbəsinə son qoyulur.

Xalisləşən, təmizlənən, mütləqləşən, mahiyyətinə bərabər olan insan özünə sahib olur.

***Ali Həyatda İnsan cəmiyyət əsarətindən qurtarır, cəmiyyəti özünə tabe edir, onu insanın ruhani mahiyyətini təsdiq edən vasitəyə çevirir.***

Bir vaxt cəmiyyətdə yadlaşan, özgələşən, əşyalaşan İnsan indi cəmiyyəti ruhaniləşmə, Mütləqləşmə, insaniləşmə məqsədinə tabe edir. Cəmiyyətə bənzəməyən cəmiyyət yaranır, insanı özündən yüksək sayan, ruhaniliyə xidmət edən cəmiyyət! Həmin cəmiyyət maddiyyatı yox, mənəviliyi üstün tutur, insan maddiyyat əsarətindən qurtarır, cəmiyyətin sahibi olur.

***Ali Həyat xalqlar üzərində əsarətə son qoyur***. Öz ruhani mahiyyətinə bərabər olan xalq başqasını əsarətə salmaz. Eyni zamanda, öz Ruhani Mahiyyətinə bərabər olan xalq – başqasının əsarətinə dözməz.

Xalqların əsarətə düşməsi – insan naqisliyinin, qəddarlığının, naşılığının ifadəsidir.

Əsarətə salan xalq yaşamır, çünki öz ruhani mahiyyətinə yad olur.

Eyni zamanda, əsarətə dözən xalq da yaşamır, çünki öz ruhani mahiyyətinə yad olur. Hər iki vəziyyətdə əsarət – qeyri-insanidir. Həyat bu qeyri-insaniliyi qəbul edir. Ali Həyat onu rədd edir. Bu nöqteyi-nəzərdən, Ali Həyat həyata bənzəmir, o, həyatdan böyük Həyat yaradır. Həmin Həyatda insanın özündən böyük mənası təsdiq olunur.

Ali Həyat yalan əsarətinə son qoyur. O, insan aqibətinin Allahların, maddi qanunların, qeyri-insani qüvvələrin əlində olması Ehkamını rədd edir. İnsanın taleyi insanın öz əlindədir, insani

problemlərin hamısını insan özü həll edir, insan həyatdan yox, həyat insandan asılıdır.

***Gözəl həyat yaratmaq üçün gözəl insan olmaq lazımdır.***

***Kamil cəmiyyət qurmaq üçün kamil insan olmaq lazımdır.***

***İnsan yalnız özünə arxalandıqda özünə bərabər olur.***

***İnsanın nicatı – İnsanilikdədir.***

Ali Həyat İnsaniliyi həyatın hakimi eləyir, bununla da İnsanı özünə qaytarır.

## Mütləq Eşq

Ali Həyatda Eşq Şəhvət üzərində tam qələbə çalır, Mütləq Eşq təsdiq olunur, şəhvət həyatdan silinir.

Öz ruhani mahiyyətinə çatan İnsan Mütləq mənəviyyata sahib olur. Mütləq mənəviyyat şəhvət tanımır, ruhani vəhdət tanıyır. Bu səbəbdən də ***Ali Həyatda şəhvətə yer olmur***. İnsan cismani nəşəpərəstlik əsarətindən qurtarır. Eşqin həyata sığmayan Ülvi mənası Ali Həyatda tam təsdiq olunur.

Eşqdə insan nisbi, cismani, ölümlü, keçici vasitəsiylə Mütləqlə, ruhaniylə, əbədiylə, sonsuzla görüşməyə can atır. Ancaq o, öz arzusuna çatmır, çünki nisbi – Mütləqə, cismani – ruhaniyə, ölümlü – əbədiyə, keçici – sonsuza bərabər olmur. Buna görə də Mütləqlə görüşə can atan əslində nisbiylə görüşür, ruhaniliyə can atan – cismaniylə görüşür, əbədiylə görüşə can atan – ölümlüylə görüşür, sonsuzla görüşməyə can atan – keçiciylə görüşür.

Eşq – həyatda özünü tam, hərtərəfli təsdiq edə bilmir, Aşiq öz arzusuna çatmır, Mütləq saydığı nisbi olur.

Ali Həyatda Aşiq Mütləqi tapır, çünki İnsan burada Mütləq səviyyəyə yüksəlir və İnsanı sevən əslində Mütləqi sevmiş olur.

Ali Həyat Mütləq İnsan yaratdığından, Ali Həyatda İnsan öz mahiyyətinə bərabər olduğundan ***Aşiqlik – Mütləqlə görüş ülviyyətinə qalxır.*** İndi Aşiqin Mütləq saydığı – doğrudan da Mütləq olur, ruhani saydığı – doğrudan da ruhani olur, sonsuz saydığı – doğrudan da sonsuz olur, əbədi saydığı – doğrudan da əbədi olur.

Təbiidir ki, Mütləqlə görüşdə şəhvətə yer qalmaz. Təbiidir ki, Mütləq həmişə Mütləq olaraq qalır və bu baxımdan, illərin, ayların hökmü Eşqin qüdsiyyətini azaltmır.

Mütləq Məhəbbəti təsdiq etməklə Ali Həyat həyatda həlli mümkün olmayan bir ziddiyyəti həll edir.

Aşiqlik – nisbiyə, nöqsanlıya, natama məhəbbət deyil, Mütləqə, kamilə, nöqsansıza məhəbbətdir. Həyat isə kamil, nöqsansız, Mütləq insan yarada bilmir.

Aşiq həmin İnsanı arzularında, xəyalında, təsəvvüründə yaşadır, ancaq gerçəklik həqiqəti təsdiq edir: Mütləq sayılanın nisbi xisləti aşkara çıxır.

***Eşqlə gerçəklik arasında ziddiyyət yaranır.*** Mütləqə, Mahiyyətə, Ruhaniliyə xidmət etməyə can atan Aşiq – əslində nisbiyə, təzahürə, cismaniyə xidmət edir. Aşiqlik həyatda özünü tam ifadə edə bilmir. Bu ziddiyyət Ali Həyatda həll olunur.

***Ali Həyat Aşiqi Mütləqlə görüşdürür.***

***Eşq özünə bərabər olur.***

***Mütləq xilqətə malik olan məhəbbət özünü Mütləqdə tapır.***

## Mütləq Həqiqət

Ali Həyatda Həqiqət Yalan üzərində tam qələbə çalır, Mütləq Həqiqət təsdiq olunur. Yalan həyatdan silinir.

Ali Həyat Həqiqəti Mütləq mənada təsdiq edir.

“Dünyanın mənası dünyadan böyükdür”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada dünya öz böyük mənasına yüksəlir.

“İnsanın mənası insandan böyükdür”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada insan öz böyük mənasına yüksəlir.

“Təbiətin mənası təbiətdən böyükdür”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada İnsan təbiətin ülvi mənasını mütləq mənada dərk edir.

“Maddiyyatın mahiyyəti ruhanidir” – deyən həqiqət Ali Həyata əsaslanır, burada maddiyyat öz ruhani mahiyyətinə yüksəlir.

“İnsan həyatının mənası Mütləqə meyildir”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada insan Mütləqə yüksəlir.

“İnsan həyatının baş amili mənəviyyatdır”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada mütləq mənəviyyat təsdiq olunur.

“Ruhani maddidən güclüdür”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada mütləq ruhanilik təsdiq olunur.

“İnsan şəraitdən artıqdır”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada İnsan Mütləqləşir.

“İnsanı dəyişdirmədən insani cəmiyyət qurmaq olmaz”, – deyən həqiqət Ali Həyata əsaslanır, burada insanı dəyişdirmək yoluyla insani cəmiyyət bərqərar olur.

“Zora arxalanmaq bəşərin öz ruhani mahiyyətindən ayrılmasıdır, – deyən həqiqət Ali Həyata əsaslanır, burada zor hakimiyyətinə son qoyulur.

Ali Həyatda axirət dünyası xülyasına yer olmur, çünki burada Mütləq İnsani dünya yaranır.

Yalan ***Həyatda*** özünə yer tapırdı, çünki həyat öz mahiyyətinə bərabər deyildi! Ali Həyatda yalansız mövcudluq yaranır. Bu, həyatın məntiqinə sığmır.

Ali Həyat həyatın məntiqini rədd edir, Mütləq həqiqətin məntiqini təsdiq edir.

## Mütləq İdeal

Ali Həyatda Mütləq İdeal təsdiq olunur, gerçəkliklə həyat arasında ziddiyyət aradan qalxır, gerçəklik İdeala bərabər olur.

Bu o deməkdir ki, İdeal Ali Həyatda Mütləq, naqisliklərdən, nöqsanlardan azad olmuş ***Mövcudluq*** yaradır.

Bu o deməkdir ki, Ali Həyatda Mütləq, naqisliklərdən, nöqsanlardan azad olmuş ***İnsan*** yaranır.

Bu o deməkdir ki, Ali Həyatda Mütləq, naqisliklərdən, nöqsanlardan azad olmuş ***cəmiyyət*** yaranır.

Bu o deməkdir ki, həyatdakı Xeyir İdeal Xeyirə, həyatdakı Gözəllik İdeal Gözəlliyə, həyatdakı Kamillik İdeal kamilliyə bərabər olur.

Bu o deməkdir ki, Ali Həyatda Mütləq İdrak, Mütləq Mənəviyyat və Mütləq İradə təsdiq olunur.

İdeal həyata sığmırdı, həyatda özünü tam realizə edə bilmirdi, adiləşir, bəsitləşir, naqisləşir, bəzən öz əksinə çevrilirdi, çünki həyat öz Mütləq Mahiyyətinə çatmamışdı.

Ali Həyatda İdeal özünü tam, hərtərəfli realizə edir, çünki Ali Həyat öz Mütləq Mahiyyətinə çatmış həyatdır. Burada İdeal gerçəkləşir, gerçəklik ideallaşır.

## Mütləq Dostluq

Ali Həyatda Dostluq Düşmənliyin üzərində tam qələbə çalır. Düşmənlik həyatdan silinir, Mütləq Dostluq təsdiq olunur.

***Xudbinlik ölür*** – düşmənlik yox olur,
Mütləq dostluq yaranır.
***Həsəd ölür*** – düşmənlik yox olur,

Mütləq Dostluq yaranır.
***Mənfəətpərəstlik ölür*** – düşmənlik ölür,
Mütləq Dostluq yaranır.
***Xəbislik ölür*** – düşmənlik yox olur,
Mütləq Dostluq yaranır.
***Qorxu ölür*** – düşmənlik yox olur,
Mütləq Dostluq yaranır.
***Hərislik ölür*** – düşmənlik yox olur,
Mütləq Dostluq yaranır.
***Şöhrətpərəstlik ölür*** – Mütləq Dostluq yaranır.
***Şəhvətpərəstlik ölür*** – Mütləq Dostluq yaranır.
***Hakimiyyətpərəstlik ölür*** – Mütləq Dostluq yaranır.

Dostluq – Mütləq mənəvi vəhdət deməkdir. Həyatda həmin vəhdət yaranmırdı. Çünki xudbinlik ölmürdü, həsəd ölmürdü, mənfəətpərəstlik ölmürdü, hərislik ölmürdü, şöhrətpərəstlik ölmürdü, şəhvətpərəstlik ölmürdü, hakimiyyətpərəstlik ölmürdü.

Həyat yarımdostluqla – xudbinlik qarışıqlı dostluqla, hərislik qarışıqlı dostluqla, həsəd qarışıqlı dostluqla, mənfəətpərəstlik qarışıqlı dostluqla, şəhvətpərəstlik qarışıqlı dostluqla, şöhrətpərəstlik qarışıqlı qostluqla, hakimiyyətpərəstlik qarışıqlı dostluqla – barışır.

***Mütləqilik – dostluğun əsas cəhətidir.***

Mütləq olmayan dostluq – əslində dostluq deyil!

Həyatda mənəvi vəhdət heç vaxt Mütləq səviyyəyə qalxmır. Buna görə də Mütləq dostluq həyata sığmır.

Buna görə də əslində həyatda dostluq yox, onun nişanələri, əlamətləri mövcud olur.

Ali Həyat həyatın bu əzəli ziddiyyətini həll edir. Ali Həyatda Dostluq öz Mütləq mahiyyətinə yüksəlir, özünə çatır.

## Mütləq Özüylədöyüş

Ali Həyatda Mütləq özüylədöyüş təsdiq olunur, insan Mütləqin tələbiylə yaşayır, özüylə barışmır.

Ali Həyat deyir ki, ***yırtıcılıq*** – əksinsanilikdir, bu səbəbdən də yırtıcılıqla barışmaq – özündən ayrılmaqdır.

Ali Həyat deyir ki, ***xudbinlik*** – əksinsanilikdir, bu səbəbdən də xudbinliklə barışmaq – özündən ayrılmaqdır.

Ali Həyat deyir ki, ***şəhvətpərəstlik*** – əksinsanilikdir, bu səbəbdən də şəhvətpərəstliklə barışmaq – özündən ayrılmaqdır.

Ali Həyat deyir ki, ***yalan*** – əksinsanilikdir, bu səbəbdən də yalanla barışmaq – özündən ayrılmaqdır.

Ali Həyat deyir ki, ***vicdansızlıq*** – əksinsanilikdir, bu səbəbdən də vicdansızlıqla barışmaq – özündən ayrılmaqdır.

Ali Həyat deyir ki, ***düşmənlik*** – əksinsanilikdir, bu səbəbdən də düşmənliklə barışmaq – özündən ayrılmaqdır.

Ali Həyat deyir ki, ***eşqsiz yaşamaq*** – yaşamamaqdır.

***Amalsız*** yaşamaq – yaşamamaqdır.

***Əxlaqsız*** yaşamaq – yaşamamaqdır.

***Məkrli*** yaşamaq – yaşamamaqdır.

***Fitnəli*** yaşamaq – yaşamamaqdır.

Ali Həyat həyatın məntiqini rədd edir. Həyat mütləq özüylədöyüş səviyyəsinə yüksəlmir, insanın nisbi, natam, nöqsanlı özüylədöyüşüylə kifayətlənir, barışır.

***Ali Həyat isə İnsandan Mütləq özüylədöyüş tələb edir.***

Həyatdan silinməyən ***yırtıcılıq*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***xudbinlik*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***şöhrətpərəstlik*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***şəhvətpərəstlik*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***yalan*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***vicdansızlıq*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***düşmənlik*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***məkr*** – Ali Həyatdan silinir.

Həyatdan silinməyən ***fitnə*** – Ali Həyatdan silinir.

Ali Həyat sübut edir ki, İnsan öz üzərində tam qələbə çala bilər, daxilini çirkinliklərdən, naqisliklərdən təmizləyə bilər. İnsan Mütləqdir, bu səbəbdən onun özüylədöyüşü də mütləq səciyyə daşımalıdır.

Ali Həyat sübut edir ki, İnsanın sahibi İnsan özüdür.

***Cəmiyyət İnsani səviyyənin ifadəsidir.***

Mütləq səviyyəni cəmiyyət yaratmır **–** fərd, şəxsiyyət yaradır. Həmin səviyyə insanın daxili dünyasına bərabər olur. Onu mütləq özüylədöyüş yaradır.

Cəmiyyət özüylədöyüşün səciyyəsini əks etdirir. Əgər özüylədöyüş Mütləq səciyyə daşıyırsa **–** cəmiyyət də Mütləq səviyyəyə yüksəlir, əgər o, nisbidirsə **–** cəmiyyət də nisbi səviyyədə qalır; əgər özüylədöyüş yoxdursa, yaxşı cəmiyyət də yoxdur. Əgər insan öz naqisliyiylə barışırsa, cəmiyyət də öz naqisliyiylə barışır.

***Ali Həyat İnsanı cəmiyyətin Mütləq Hakiminə çevirir.***

O həm də xurafatın İnsan üzərində ağalığına son qoyur. "İnsan özünün yaradıcısıdır – deyir, – onun allaha ehtiyacı yoxdur.

İnsan özüylə döyüşməlidir, Allahın dəyişilməz, sabit bəndəsi yoxdur, həyatda öz mahiyyətinə bərabər olmayan varlıq var. O, özüylədöyüş vasitəsiylə mahiyyətinə çatır".

***Müstəqil olmayan əslində heçdir.***

İnsan müstəqildir və yalnız özündən asılıdır. İnsanın Mütləq Mahiyyəti Mütləq özüylədöyüş tələb edir və bu tələb əsasında insan İnsaniliyə nail olur.

## Mütləq Özündənkeçmə

Ali Həyatda insan ***Mütləq ruhani varlıq*** kimi mövcud olur. Bu səbəbdən də o, Mütləq özündənkeçmə ülviyyətinə yüksəlir. Özündənkeçmə Mütləq ruhaniliyi təsdiq edir. Bu səbəbdən də Mütləq özündənkeçmə vasitəsiylə İnsan Mütləq özünütəsdiqə nail olur.

Ali Həyatda İnsan ***Mütləq Xeyir*** kimi mövcud olur. Bu səbəbdən də o, Mütləq özündənkeçmə ülviyyətinə yüksəlir. Özündənkeçən Mütləq Xeyiri təsdiq edir. Bu səbəbdən də Mütləq özündənkeçmə vasitəsiylə İnsan Mütləq özünütəsdiqə nail olur.

Ali Həyatda İnsan ***Mütləq Gözəllik*** kimi mövcud olur. Bu səbəbdən də o, Mütləq özündənkeçmə ülviyyətinə yüksəlir. Özündənkeçən Mütləq Gözəlliyi təsdiq edir. Bu səbəbdən də Mütləq özündənkeçmə vasitəsiylə İnsan Mütləq özünütəsdiqə nail olur.

Ali Həyatda İnsan ***Mütləq mənada Kamil Varlıq*** kimi mövcud olur. Bu səbəbdən də o, Mütləq özündənkeçmə ülviyyətinə yüksəlir. Özündənkeçən Mütləq Kamilliyi təsdiq edir. Bu səbəbdən də Mütləq özündənkeçmə vasitəsiylə İnsan Mütləq özünütəsdiqə nail olur.

Ali Həyatda İnsan ***Əbədi varlıq*** kimi mövcud olur. Bu səbəbdən də o, Mütləq özündənkeçmə ülviyyətinə yüksəlir. Özündənkeçən – Əbədiliyi təsdiq edir. Bununla da o, Mütləq özündənkeçmə vasitəsiylə Mütləq özünütəsdiqə nail olur.

Ali Həyatda İnsan ***Sonsuz varlıq*** kimi mövcud olur. Bu səbəbdən də o, Mütləq özündənkeçmə ülviyyətinə yüksəlir. Özündənkeçən – sonsuzluğu təsdiq edir. Bununla da o, Mütləq özünütəsdiqə nail olur.

Özündənkeçməni Mütləq səviyyəyə qaldıran Ali Həyat həyatın məntiqinə qarşı çıxır. ***Həyat – yalnız nisbi özündənkeçməni qəbul edir.***

Ali Həyat həyatın imkanlarından kənara çıxır, özündənkeçməyə Mütləqilik qətiyyəti gətirir.

Buna görə də Ali Həyatda ***əməl – Amala çatır***, çünki insanın özündənkeçmə qüdrətinə bərabər olur.

Buna görə də Ali Həyatda ***vətənsevər*** – ***Vətənə çatır,*** çünki Vətən yolunda özündənkeçmə qüdrətinə bərabər olur.

Buna görə də Ali Həyatda ***Ana – Analığa çatır***, çünki özündənkeçməsi analığına bərabər olur.

Buna görə də Ali Həyatda ***Aşiq – Eşqə çatır***, çünki özündənkeçməsi məhəbbətinə bərabər olur.

Buna görə də Ali Həyatda ***həqiqətsevər – Həqiqətə çatır,*** çünki özündənkeçmə qüdrəti həqiqətə bərabər olur.

Buna görə də Ali Həyatda ***azadlıqsevər – Azadlığa çatır,*** çünki özündənkeçmə qüdrəti Azadlığa bərabər olur.

Mütləq özündənkeçmə – həyatdan keçmədir.

Həyat özündənkeçmənin Mütləq təzahürü səviyyəsinə heç vaxt qalxmır. Ali Həyat özündənkeçməni Mütləq səviyyəyə qaldırmaqla onu özünə bərabər edir.

Özündənkeçmə yalnız Ali Həyatda tam və hərtərəfli təsdiq olunur, çünki yalnız Ali Həyatda Mütləq səviyyəyə qalxır.

## Mütləq Təmənnasızlıq

Ali Həyatda İnsan ***Mütləq ruhani*** xilqət kimi təsdiq olunur. Bu səbəbdən də o, dünyaya, həyata, insana Mütləq təmənnasız (umacaqsız) münasibət bəsləyir.

Ali Həyatda İnsan ***əbədi*** xilqət kimi təsdiq olunur. Bu səbəbdən də o, dünyaya, həyata, insana Mütləq təmənnasız münasibət bəsləyir.

Ali Həyatda İnsan ***sonsuz*** xilqət kimi təsdiq olunur. Bu səbəbdən də o, dünyaya, həyata, insana Mütləq təmənnasız münasibət bəsləyir.

Ali Həyatda İnsan ***kamil*** xilqət kimi təsdiq olunur. Bu səbəbdən də o, dünyaya, həyata, insana Mütləq təmənnasız münasibət bəsləyir.

Mütləq, ruhani, sonsuz, əbədi, kamil xilqət üçün ***təbiət*** Mütləqin təzahürüdür, Xeyir və Gözəllik mücəssəməsidir, təbiət insanidir, insan təbiidir.

Mütləq, ruhani, sonsuz, əbədi, kamil xilqət üçün ***həyat*** Mütləq mahiyyətin ifadəsidir. İnsanla həyat arasında daxili doğmalıq mövcuddur.

Mütləq, ruhani, sonsuz, əbədi, kamil xilqət üçün ***İnsan*** Mütləqə bərabərdir.

Ali Həyat təmənnalı münasibəti həyatdan qovur.

Mütləqləşən, ruhaniləşən, əbədiləşən, sonsuzlaşan, kamilləşən İnsan Mütləq təmənnasızlığı təsdiq edir və bununla da həyatı ötüb keçir.

Təmənnasız (umacaqsız) həyat yoxdur.

Həm də təmənnalı (umacaqlı) Ali Həyat yoxdur.

***Ali Həyat həyatın əzəli məntiqinə qarşı çıxır.***

Ali Həyat deyir ki, ***dağ*** müqəddəsliyin, ülviliyin təsdiqi kimi qiymətlidir – mənimsənildiyi üçün yox.

Ali Həyat deyir ki, ***çay*** müqəddəsliyin, ülviliyin təsdiqi kimi qiymətlidir – mənimsənildiyi üçün yox.

Ali Həyat deyir ki, ***torpaq*** müqəddəsliyin ifadəsi kimi qiymətlidir – təkcə mənimsənildiyi üçün yox.

Ali Həyat deyir ki, ***Günəş*** müqəddəsliyin ifadəsi kimi qiymətlidir, təkcə mənimsənildiyi üçün yox.

Ali Həyat deyir ki, ***Vətən*** müqəddəsdir, çünki İnsanın Mütləq mahiyyətinin ifadəsidir. Bu səbəbdən də İnsanın Vətənə münasibəti Mütləq mənada təmənnasızdır.

Ali Həyat deyir ki, ***Dostluq*** müqəddəsdir, çünki İnsanın Mütləq mahiyyətinin ifadəsidir. Bu səbəbdən də İnsanın dostluğa münasibəti Mütləq mənada təmənnasızdır.

Ali Həyat deyir ki, ***Ailə*** müqəddəsdir, çünki İnsanın Mütləq mahiyyətinin ifadəsidir. Bu səbəbdən də İnsanın ailəyə münasibəti Mütləq mənada təmənnasızdır.

Ali Həyat deyir ki, ***Amal*** müqəddəsdir, çünki İnsanın Mütləq mahiyyətinin ifadəsidir. Bu səbəbdən də İnsanın Amala münasibəti Mütləq mənada təmənnasızdır.

Ali Həyat insanı Mütləqə çatdırır və bununla da onu Mütləq təmənnasızlıq (umacaqsızlıq) qüdsiyyətinə yüksəldir.

## Mütləq Təbiilik

Ali Həyat süniliyi həyatdan silir.

Çünki ***Mütləq ruhanilik – Mütləq təbiilikdir.***

***Mütləq əbədilik – Mütləq təbiilikdir.***

***Mütləq sonsuzluq – Mütləq təbiilikdir.***

***Mütləq kamillik – Mütləq təbiilikdir.***

Öz mahiyyətinə bərabər olan İnsan təbiiliyə bərabər olur. ***Həyat*** süniliksiz keçinə bilmirdi, çünki həyatda Mütləq bərqərar olmurdu, buna görə də həyat nisbini süniliklə bəzəyirdi.

Ali Həyat süniliksiz keçinir, çünki burada Mütləq bərqərar olur, bəzəyə ehtiyac yaranmır.

Ali Həyat
Süni vüqarı həyatdan silir.
Süni sevinci həyatdan silir.
Süni kədəri həyatdan silir.
Süni əzəməti həyatdan silir.
Süni heyrəti həyatdan silir.
Süni möhtəşəmliyi həyatdan silir.
Süni gözəlliyi həyatdan silir.
Süni qəhrəmanlığı həyatdan silir.
Süni müdrikliyi həyatdan silir.
Süni dahiliyi həyatdan silir.
Süni ülviliyi həyatdan silir.
Süni müqəddəsliyi həyatdan silir.
Süni təbiiliyi həyatdan silir.
Süni həqiqəti həyatdan silir.
Süni tərəqqini həyatdan silir.
Süni xeyiri həyatdan silir.
Süni məhəbbəti həyatdan silir.

***Ali Həyat təbiiliyə tapınır. Çünki Mütləqləşir.***

## Mütləq Vəhdət

Ali Həyatda zahiri daxilini tam, hərtərəfli, Mütləq ifadə edir. Çünki

Ali Həyatda Təzahür Mahiyyətə çatır.
Əlamət mənaya çatır.
Mütləq Mütləqi ifadə edir.
Sonsuz sonsuzu ifadə edir.
Əbədi əbədini ifadə edir.
Kamil kamili ifadə edir.
Göyçəklik gözəlliyə çatır.
Xeyirli xeyirə çatır.
Müqəddəs müqəddəsliyə çatır.
Həqiqi həqiqətə çatır.
Aşiq eşqə çatır.
Müdrik müdrikliyə çatır.
Qəhrəman qəhrəmanlığa çatır.
Dahi dahiliyə çatır.

Qadın qadınlığa çatır.
İdraklı idraka çatır.
Bədii bədiiyyata çatır.
Dost dostluğa çatır.
Böyük böyüklüyə çatır.
Ülvi ülviliyə çatır.
Zahiri daxilini gizləmir, daxili zahirdə əyan olur.
Mütləq mənada ahəngdar həyat yaranır.

## Mütləq Səadət

Ali Həyat İnsana Mütləq səadət – fəlakətdən tam azad olmuş səadət verir.

Mütləq səadət – ruhani səadətdir, sonsuz səadətdir, əbədi səadətdir, kamil səadətdir.

Mütləq səadət – həyatda yaranmır, çünki həyat ruhaniliyi, əbədiliyi, sonsuzluğu, kamilliyi tam ifadə edə bilmir.

Ali Həyat Mütləq səadət yaradır, çünki Mütləq mahiyyəti təsdiq edir. Buna görə də o,

Mütləq Sevincə nail olur.
Mütləq Heyrətə nail olur.
Mütləq Gözəlliyə nail olur.
Mütləq Qüdrətə nail olur.
Mütləq Xeyirə nail olur.
Mütləq Məhəbbətə nail olur.
Mütləq Ədalətə nail olur.
Mütləq İmtinaya nail olur.

Ali Həyat Xudbinlikdən tam imtina edir.
Vəhşilikdən tam imtina edir.
Hərcayilikdən tam imtina edir.
Qorxudan tam imtina edir.
Düşmənlikdən tam imtina edir.
Cəlladlıqdan tam imtina edir.
Zülmdən tam imtina edir.
Əsarətdən tam imtina edir.

Ali Həyat süni səadətləri rədd edir.
Varidat səadətini rədd edir.
Rəyasət səadətini rədd edir.

Mənsəb səadətini rədd edir.
Cismani nəşə səadətini rədd edir.

Ali Həyat sübut edir ki, ***fəlakət insanın daxilində yetişir, daxili fəlakətdən xilas olan – fəlakətsiz, Mütləq səadətli həyat qura bilər.***

## Mütləq Müdriklik

Ali Həyatda insan Mütləq müdriklik səviyyəsinə yüksəlir.
Dünyanın dünyadan böyük mənasına qovuşur,
dünyanı Mütləq mənada tanıyır.
Həyatın həyatdan böyük mənasına qovuşur,
həyatı Mütləq mənada tanıyır.
İnsanın insandan böyük mənasına qovuşur,
insanı Mütləq mənada tanıyır.
Cəmiyyətin cəmiyyətdən böyük mənasına qovuşur, cəmiyyəti Mütləq mənada tanıyır.
Mütləqin Mütləq mənasına qovuşur,
onu Mütləq mənada tanıyır.

## Mütləq İnsan

Ali Həyatda İnsan Mütləq mənada var olur.

Çünki burada o, Mütləqə bərabər olur, Mütləq isə yoxluq tanımır.

Ruhaniliyə bərabər olur. Ruhanilik isə yoxluq tanımır.

Sonsuzluğa bərabər olur. Sonsuzluq isə yoxluq tanımır.

Əbədiliyə bərabər olur. Əbədilik isə yoxluq tanımır.

Kamilliyə bərabər olur. Kamillik isə yoxluq tanımır.

İnsan Ali Həyatda Mütləq mənada sevir. Çünki Mütləq ruhanilik, sonsuzluq, əbədilik, kamillik – nisbi tanımır.

İnsan Ali Həyatda Mütləq hünər göstərir. Çünki Mütləq ruhanilik, sonsuzluq, əbədilik, kamillik – nisbi tanımır.

İnsan Ali Həyatda Mütləq mənada mənəvi olur. Çünki Mütləq ruhanilik, sonsuzluq, əbədilik, kamillik – nisbi tanımır.

İnsan Ali Həyatda Mütləq mənada Xeyirlidir. Çünki Mütləq ruhanilik, sonsuzluq, əbədilik, kamillik – nisbi tanımır.

İnsan Ali Həyatda Mütləq mənada gözəldir. Çünki Mütləq ruhanilik, sonsuzluq, əbədilik, kamillik – nisbi tanımır.

İnsan Ali Həyatda Mütləq mənada İnsandır, çünki nisbi tanımır.

## Mütləq İmkan

Ali Həyatda İnsan Mütləq imkana nail olur. Çünki Mütləq Ruhanilik – Mütləq İmkan deməkdir.
Mütləq Sonsuzluq – Mütləq İmkan deməkdir.
Mütləq Əbədilik – Mütləq İmkan deməkdir.
Mütləq Kamillik – Mütləq İmkan deməkdir.
Mütləq İnsan – Mütləq İmkan deməkdir.

## Faciəsizlik

Ali Həyat ***Mütləqə*** çatır. Buna görə də faciəsizdir.
Ali Həyat ***Ruhaniliyə*** çatır. Buna görə də faciəsizdir.
Ali Həyat ***Əbədiyə*** çatır. Buna görə də faciəsizdir.
Ali Həyat ***Sonsuzluğa*** çatır. Buna görə də faciəsizdir.
Ali Həyat ***Kamilliyə*** çatır. Buna görə də faciəsizdir.
Ali Həyatda ***Təzahür Mahiyyətə*** bərabər olur.
Buna görə də faciə aradan qalxır.
Ali Həyatda ***zahiri daxiliyə*** bərabər olur.
Buna görə də faciə aradan qalxır.
Ali Həyat ***Mütləq Səadətin*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq Məhəbbətin*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq Ədalətin*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq Həqiqətin*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq Müqəddəsliyin*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq Saflığın*** təsdiqidir.
Bu səbəbdən də faciəsizdir.
Ali Həyat ***Mütləq İnamın*** təsdiqidir.
***Bu səbəbdən də faciəsizdir.***
Ali Həyat ***Mütləq Müdrikliyin*** təsdiqidir.
Bu səbəbdən də faciəsizdir.
Ali Həyat ***İdeala çatır***. Bu səbəbdən də faciəsizdir.
Ali Həyat ***Mütləq Xeyirə*** çatır. Bu səbəbdən də faciəsizdir.
Ali Həyat ***Mütləq Ülviyyətə*** çatır.
Bu səbəbdən də faciəsizdir.

Ali Həyat ***Mütləq Dostluğun*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq Təmənnasızlığın*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq İmtinanın*** təsdiqidir.
Buna görə də faciəsizdir.
Ali Həyat ***Mütləq İnsaniliyin*** təsdiqidir.
Buna görə də faciəsizdir.

## Ölümsüzlük

Ali Həyat Mütləq Mahiyyətə bərabər olan həyatdır.
***Mütləq Mahiyyət – Ölümsüzdür.***
Ali Həyatda İnsan – ruhaniliyə bərabər olur.
***Ruhanilik ölümsüzdür.***
Ali Həyat – ölümsüz həyatdır.
***Mütləq İnsan – ölümsüz insandır.***

## Amal

İnsan – nisbidə təzahür edir, Mütləqdə özünə çatır; cismanidə təzahür edir, ruhanidə özünə çatır; həyatda təzahür edir – Ali Həyatda özünə çatır.

***Əsil yaşamaq – Ali Həyat üçün yaşamaqdır.***

***Sərt ayı 5-ci il. Bakı.***
***(Dekabr 1983-cü il).***

# İ N T İ B A H

# I. FƏRDİ İNTİBAH – ÖZÜNƏ SAHİBLİK

## Cismaniyə Sahib Olmaq

***Özündən yüksək yaşayan – İntibaha çatır.***
***Gerçəkliyi ötən – İntibaha çatır.***
***İmkana sığmayan – İntibaha çatır.***

Cismaniyə sahib olan İntibahın tələbiylə yaşayır. Cismani – naqislikdən təmizlənir, ruhanilәşir. Bununla da onun insan üzərində ağalığına son qoyulur.

Cismani ruhaniyə pənah gətirir. Bədən ruha həmdəm olur, çünki çirkinlikdən xilas olur.

***Cismanilikdən – şəhvət silinir və məhəbbət cismaniyə tam sahib olur.***

***Cismanilikdən – yırtıcılıq silinir və mehr cismaniyə tam sahib olur.***

***Cismanilikdən – hərislik silinir və ləyaqət cismaniyə tam sahib olur.***

***Cismanilikdən – mütilik silinir və vüqar cismaniyə tam sahib olur.***

***Cismani cismanilikdən kənara çıxır, cismaniliyi ötür.***

İntibaha qədər cismani nisbiyə bərabər idi. İndi o, Mütləqə bərabər olur. Cismaniyə bənzəməyən cismani yaranır – Həyatasığmaz, ağlasığmaz!

Bu – təbiidir. ***Çünki Mütləq ağlasığmazdır, həyatdan artıqdır.***

Ağlasığan, həyata bərabər olan cismani – nöqsanlıdır, naqisdir, çirkinə meyillidir, onunla ***həyatda*** yaşamaq olar.

İntibah – Ali Həyatdır. Burada insan özündən yüksək, artıq, böyük yaşayır, həmin yaşayış imkana sığmayan, gərgin, əsil həyatdır.

Yalnız burada, bu imkana sığmayan, gərgin həyatda İnsan öz mahiyyətinə bərabər olur.

İmkana sığan həyatda İnsan özündən aşağı yaşayır.

***Özünə bərabər yaşamaq üçün İnsan özündən yüksək yaşamalıdır.***

***İntibah həyatdan yüksək Həyatın məntiqinə əsaslanır.***

Cismaninin ruhanilәşməsi, insanın bədənə tam sahib olması – həyata uyğun deyil, ancaq ruha, insani Mahiyyətə, həyatın özündən böyük Mənasına uyğundur.

Buna görə də ***İntibah həyatın məntiqinə əsaslanmır, İnsanın Mahiyyətinə əsaslanır,*** bilir ki, İnsan Mütləq xislətlidir, həyatdakı təzahüründən böyükdür.

İntibah İnsana Ali, Mütləq Tələblə yanaşır.

Həyata bənzəyirsənsə – İnsan deyilsən!

Bədən üzərində tam qələbə çalmamısansa – İnsan deyilsən!

Bədənin Ruha tam itaət etmirsə – İnsan deyilsən!

İndiyə qədər bəşər nisbi tələblə yaşayıb və bu səbəbdən də yaşamayıb.

***İnsan həyata bənzəyib – özünə bənzəməyib.***

***İntibahda İnsan özünə bənzəyir, ona görə də həyata bənzəmir.***

## Maddiyyata Sahib Olmaq

***Maddiyyata sahib olan – İntibaha çatır.***

***Maddiyyatı Mənəviyyata tabe edən – İntibaha çatır.***

***Maddiyyat əsarətindən xilas olan – İntibaha çatır.***

Maddiyyata sahib olan – maddiyyatı şahlıq taxtından salır, onu Ruhani Məqsədin iradəsinə tapşırır.

***İntibahda maddiyyat Mənəvinin hökmünə tapınır. Maddi Mənəviyə xidmət edir.***

***İntibah xüsusi, müstəqil maddi tərəqqi tanımır, Mənəvi tərəqqiyə xidmət edən maddi inkişaf tanıyır.***

***İntibah xüsusi, müstəqil maddi nemət tanımır, mənəvi nemətə xidmət edən maddiyyat tanıyır.***

***Maddiyyat vasitə səviyyəsinə enəndə Xeyir səviyyəsinə qalxır.***

***Maddiyyat məqsəd səviyyəsinə qalxanda şər səviyyəsinə enir.***

***Maddi sərvətlərə aşiq olmaq – şərə aludə olmaqdır.***

***Maddiyyata sədaqət – ruha xəyanətdir.***

Maddiyyatsız həyat yoxdur, ancaq insan həyatında maddiyyat əsas rol oynamır, çünki İnsani həyat – ruhani həyatdır.

Maddi olmayan yerdə ruhani də yoxdur. Ancaq ruhani cismanidən yüksəkdir. Bu səbəbdən də Mənəvi maddidən üstündür.

Maddiyyata sahib olan ***İdrak*** bilir ki, İnsani Mahiyyət baxımından Mənəvi birincidir, maddi ikinci!

Maddiyyata sahib olan ***Mənəviyyat*** bilir ki, İnsani Mahiyyət baxımından mənəvi birincidir, maddi ikinci!

Maddiyyata sahib olan ***İradə*** bilir ki, İnsani Mahiyyət baxımından mənəvi birincidir, maddi ikinci!

***İntibah yalnız mənəvi qələbələr tanıyır, maddi qələbələrə o, vasitə kimi baxır.***

***İntibah yalnız mənəvi varlı tanıyır, maddi varlı tanımır.***

***Maddi üstünlük adlanan eybəcərliyə İntibah son qoyur.***

## Cəmiyyətə Sahib Olmaq

***Cəmiyyətə sahib olan – İntibaha çatır.***

Cəmiyyəti İnsana tabe edən – İntibaha çatır.

Cəmiyyət əsarətindən xilas olan – İntibaha çatır.

İntibahda İnsan ***icraçılıq, əşyavarilik və sinfilik*** köləliyindən qurtarır.

İntibahda İnsan öz mahiyyətinə bərabər olur. Öz mahiyyətinə bərabər olmaq – icraçılıq, əşyavarilik və sinfilik zəncirini qırmaq deməkdir.

İcraçılıqda, əşyavarilikdə və sinfilikdə insan öz imkanlarından aşağı yaşayır.

***İntibahda o, imkana sığmır.***

İntibah icraçılığı, əşyavariliyi və sinfiliyi yaradan amilləri həyatdan silir. O, maddiyyat üstünlüyünü inkar edir. Bununla da maddi amil aradan qalxır.

O, Zor üstünlüyünü inkar edir. Bununla da ictimai amil aradan qalxır.

***O, İnsaniliyi ruhanilik sayır.***

Bununla da cismani amil aradan qalxır.

İntibahda İnsanlar varlılara və yoxsullara bölünmür, mənəvi zirvəyə ***çatanlara*** və ***çatmayanlara*** bölünür.

***İntibahın ən varlı adamı ən mənəvi adamdır.***

Cəmiyyət varlıya yox, zorluya yox, Vicdanlıya baş əyir.

İntibah ruhani hakimiyyət yaradır, İnsanı Vicdana tapşırır.

***İntibahda İnsanlar inzibati qanunlar*** əsasında yox, ***Mənəvi Qanunlar*** əsasında yaşayırlar. Bu səbəbdən də cəmiyyət İnsanı icraçı, əşyavari, sinfi xilqət kimi yox – ruhani varlıq kimi tanıyır.

İntibah maddi fərqlənmə eybəcərliyini rədd edir, idrakın, iradənin, mənəviyyatın gücünü ruhaniləşmə məqsədinə yönəldir. İnsanilik – cəmiyyətin meyarına çevrilir.

## Xurafatdan Xilas Olmaq

***Xurafatdan xilas olan – İntibaha çatır.***

İnsan özünə bərabər olur, anlayır ki, xurafat yalan danışır.

***“Şərait hər şeydir, İnsan heç şey” – deyən xurafat İnsanı aldadır***. Çünki İnsan şəraitdən artıqdır, böyükdür, yüksəkdir. Çünki İnsan Ruhanidir, Mütləq Mahiyyətlidir. O, şəraitin üzərində qələbə çala bilər, ona sahib ola bilər.

***“Cəmiyyət hər şeydir, İnsan heç şey” – deyən xurafat İnsanı aldadır.*** Çünki İnsan cəmiyyətdən artıqdır, böyükdür, yüksəkdir. Çünki İnsan Ruhanidir, Mütləq mahiyyətlidir. Bu səbəbdən də o, cəmiyyət üzərində qələbə çala bilər, ona sahib ola bilər.

***“İstehsalat hər şeydir, İnsan heç şey” – deyən xurafat İnsanı aldadır.*** Çünki İnsan istehsalatdan hədsiz dərəcə böyükdür, artıqdır, yüksəkdir. Çünki İnsan Ruhanidir, Mütləq mahiyyətlidir. O, istehsal edən varlıqdan çox, Mütləqə can atan varlıqdır.

***“Hissiyyat hər şeydir, İnsan heç şey”*** – ***deyən xurafat İnsanı aldadır.*** Çünki İnsan hissiyyatdan sonsuz dərəcə artıqdır, böyükdür, yüksəkdir. Çünki İnsan Ruhanidir, Mütləq mahiyyətlidir, hissiyyat üzərində tam qələbə çala bilər, ona sahib ola bilər.

***“Mütləq hər şeydir, İnsan heç şey” – deyən xurafat İnsanı aldadır.*** Çünki İnsan Mütləq mahiyyətlidir, özündə Mütləqi gəzdirir, Mütləqləşməyə qadirdir.

***“O dünya səadətindən” dəm vuran xurafat İnsanı aldadır.*** Çünki İnsan özünü xəyalda deyil, gerçəklikdə təsdiq edir, gerçəkliyi öz mahiyyəti səviyyəsinə qaldırır.

Xurafatı eşitməyən – Həqiqəti eşidir.

# II. XƏLQİ İNTİBAH – MÜSTƏQİLLİK

## İctimai Müstəqillik

***Müstəqilliyə çatan – İntibaha çatır.***
Çünki müstəqil olmayan – ruhani ola bilməz.
Çünki asılı olmaq – maddiləşməkdir.
İctimai Müstəqilliyə yüksəlmək – xalq səviyyəsinə yüksəlməkdir.
Çünki xalq ***– müstəqil ictimai varlıq*** deməkdir.
Çünki xalq ***– müstəqil tarixi varlıq*** deməkdir.
Çünki xalq ***– müstəqil xalqlararası əlaqə*** deməkdir.
Çünki xalq ***müstəqillik vasitəsiylə özünü tanıyır və tanıdır.***
İctimai müstəqillik – xalqın həddi-büluğa çatmasıdır.
İctimai müstəqilliyə nail olmaq – yetkin olmaq deməkdir.
İctimai müstəqillik – xalq İradəsinin təsdiqi deməkdir.
İctimai müstəqillikdən məhrum olmaq – xəlqi iradədən məhrum olmaqdır.
İctimai müstəqillik – xalqın öz taleyinə sahib olmasıdır.
İctimai müstəqillikdən məhrum olmaq – talesizlikdir.
İctimai müstəqillik – xalqın dünyada özünəməxsus yer tutmasıdır.
İctimai müstəqillikdən məhrum olmaq – dünyasızlıqdır.
Müstəqil olmayan – həqiqi ola bilməz.
İctimai müstəqillik olmayan yerdə – həqiqi bəşərsevərlik də yoxdur.
Müstəqil olmaq – var olmaq deməkdir.
***Yalnız müstəqil olan yaşayır...***

## Mənəvi Müstəqillik

***Müstəqilliyə çatan – İntibaha çatır.***
Mənəvi müstəqillik – ruhanilikdir.
Öz müstəqil dilini yaratmayan xalq – xalq deyil.
Öz müstəqil adət-ənənələrini yaratmayan xalq – xalq deyil.
Öz müstəqil Mənəvi Qanunlarını yaratmayan xalq – xalq deyil.
Öz müstəqil bədiiyyatını yaratmayan xalq – xalq deyil.

Müstəqil ***dil*** vasitəsiylə xalq öz mənəvi vahidliyini təsdiq edir.
Müstəqil ***adət-ənənələr*** vasitəsiylə xalq öz ruhani qadirliyini təsdiq edir.

Müstəqil ***Mənəvi Qanunlar*** vasitəsiylə xalq öz Mütləq mahiyyətini ifadə edir.

Müstəqil ***bədiiyyat*** vasitəsiylə xalq özünün əbədi mənasını təsdiq edir.

Buna görə də ***dilin itməsi*** – xalqın mənəvi vahidliyinin itməsi deməkdir;

***adət-ənənələrin itməsi*** – xalqın ruhani qadirliyinin itməsi deməkdir;

***mənəvi qanunların itməsi*** – xalqın Mütləq mahiyyətinin itməsi deməkdir;

***bədiiyyatın itməsi*** – xalqın əbədi mənasının itməsi deməkdir.

***Mənəvi müstəqillik – xalqın zəruriliyi deməkdir.***

İntibah mənəvi müstəqilliyin təsdiqidir.

İntibahda xalq dili – Mütləq mənada yaşayır, xalq adət-ənənələri – Mütləq mənada yaşayır, Mənəvi Qanunlar – Mütləq mənada yaşayır, bədiiyyat – Mütləq mənada yaşayır.

***İntibah üçün bəşərin inkişafı – xalqların inkişafı deməkdir, xalqların bir-birinə can atması – onların bir-birindən fərqlənməsi deməkdir, bəşəri vəhdətin təsdiqi – xəlqi müstəqilliyin təsdiqi deməkdir.***

Xalqları mənəvi müstəqillikdən məhrum etmək – ölü bəşəriyyət yaratmaqdır, çünki ***müstəqilliyin ölümü – xalqların ölümüdür***.

Ölü xalqlardan yalnız ölü bəşəriyyət yarana bilər.

***Bəşər vəhdətə meyil etdiyi dərəcədə xalqlar müstəqilliyə meyil edirlər.***

Yalnız Müstəqil olan həqiqidir.

Yalnız müstəqil dil başqa dilə can atır. Qeyri-müstəqil başqasına can atmır, tabe olur.

Yalnız müstəqil adət-ənənə başqasına can atır. Qeyri-müstəqil can atmır, tabe olur.

Yalnız müstəqil Mənəvi Qanun başqasına can atır. Qeyri-müstəqil can atmır, tabe olur.

Yalnız müstəqil bədiiyyat başqasına can atır. Qeyri-müstəqil can atmır, tabe olur.

Yalnız müstəqil xalqlar bir-birinə can atır, kölə can atmır, tabe olur.

***Bəşəriyyət öz mahiyyətini yeganə bir dildə, bir Mənəvi Qanunda, bir adət-ənənədə, bir bədiiyyatda ifadə edə bilməz. Bəşəri mahiyyətə zəngin mənəviyyat və bədiiyyat müxtəlifliyi gərəkdir.***

Buna görə də xalqların Mənəvi Müstəqilliyi bəşərin ruhani siqlətinə uyğundur.

Mənəvi Müstəqillik – bəşərilikdir.

## İdraki Müstəqillik

***İdraki müstəqilliyə can atan – İntibaha çatır.***

Xalq müstəqil fəlsəfi fikirə malik olmalıdır.

Xalq müstəqil siyasi fikirə malik olmalıdır.

Xalq müstəqil ruhani kəlama malik olmalıdır.

Müstəqil fəlsəfi fikir vastəsiylə xalq öz idraki xislətini təsdiq edir.

Müstəqil siyasi fikir vasitəsiylə xalq öz ictimai qayəsini ifadə edir.

Müstəqil ruhani kəlam vasitəsiylə o, Mütləqə münasibətini bəyan edir.

***Xalq fəlsəfi fikri özgədən yox, özündən almalıdır.***

***Xalq siyasi fikri özgədən yox, özündən almalıdır.***

***Xalq ruhani kəlamı özgədən yox, özündən almalıdır.***

Əks təqdirdə onun İdrak, Siyasət, Müqəddəslik dünyasında öz yeri olmur.

Əks təqdirdə o, dünyanı özgə ağlıyla dərk edir, siyasi həyatı özgə gözüylə görür, müqəddəsliyi özgə qəlbiylə duyur.

Əks təqdirdə o, özgədən asılı olur; fəlsəfi, siyasi, ruhani tabeçilik yaranır.

İntibahda xalq mütləq mənada özümləşir, özümləşdikcə də bəşəriləşir.

Bəşəri mahiyyət özünü yeganə bir fəlsəfi fikirdə, siyasi ehkamda, ruhani kəlamda tam ifadə edə bilməz. O, zəngin fəlsəfi, siyasi, ruhani müxtəliflik tələb edir.

Buna görə də özünə çatan – müstəqil fəlsəfə, siyasi fikir və ruhani kəlam yaradan xalq – həm də bəşərə çatır.

***Özümləşən – bəşəriləşir.***

## III. BƏŞƏRİ İNTİBAH – MÜQƏDDƏSLİK

### Müqəddəs İnam

İntibah deyir ki, dünyanın mənası dünyadan böyükdür.
Bu səbəbdən də dünya müqəddəsdir.
İntibah deyir ki, həyatın mənası həyatdan böyükdür.
Bu səbəbdən də həyat müqəddəsdir.
İntibah deyir ki, insanın mənası insandan böyükdür.
Bu səbəbdən də insan müqəddəsdir.

İntibah ***dünyanı*** təzahürünə görə yox, mahiyyətinə görə qiymətləndirir.

İntibah ***həyatı*** təzahürünə görə yox, mahiyyətinə görə qiymətləndirir.

İntibah ***insanı*** təzahürünə görə yox, mahiyyətinə görə qiymətləndirir.

İntibah deyir ki, dünya əvəzsiz ruhani sərvətdir.
İntibah deyir ki, həyat əvəzsiz ruhani sərvətdir.
İntibah deyir ki, insan əvəzsiz ruhani sərvətdir.

***İntibah deyir ki, dünyanın yaradıcısı dünya özüdür, buna görə də “yeri-göyü yaradan” Allaha yox, dünyaya heyrətlənmək lazımdır.***

***İntibah deyir ki, həyatın yaradıcısı həyat özüdür, buna görə də “yeri-göyü yaradan” Allaha yox, həyata heyrətlənmək lazımdır.***

***İntibah deyir ki, insanın sahibi insan özüdür, buna görə də “yeri-göyü yaradan” Allaha yox, insana heyrətlənmək lazımdır.***

İntibah deyir ki, dünyanın dünyadan böyük mənasını dərk etmək üçün müqəddəs insan olmalısan.

İntibah deyir ki, həyatın həyatdan böyük mənasını dərk etmək üçün müqəddəs insan olmalısan.

İntibah deyir ki, insanın insandan böyük mənasını dərk etmək üçün müqəddəs insan olmalısan.

***İntibah deyir ki, Müqəddəsliyi Müqəddəslik vasitəsiylə dərk etmək olar.***

***İntibah Müqəddəs İnsan imperativi yaradır.***

İnsani mahiyyətə bərabər olmaq, dünyanın və həyatın mənasına layiq yaşamaq.

Cismaniyə, maddiyyata, cəmiyyətə tam sahib olmaq, xurafatdan tam xilas olmaq.

Saflıqdan yüksək saflıq. Heyrətdən yüksək heyrət.

## AMALLAŞMAQ

### Ruhani Cəmiyyət

***İntibah – ruhani cəmiyyət tələb edir.***

Ruhani cəmiyyət – iqtisadiyyat əsarətindən qurtaran cəmiyyətdir.

Bütün gücünü, vaxtını, iradəsini iqtisadiyyata həsr edən cəmiyyətdə ruhanilik unudulur.

İctimai həyat iqtisadiyyata bərabər olanda ruhanilik itir.

İqtisadiyyat cəmiyyəti özünə tabe edəndə **–** cəmiyyət öz ruhani mənasından məhrum olur.

Cəmiyyət iqtisadiyyata qulluq edirsə, ruhaniliyə xidmət etmir.

Cəmiyyət özünü iqtisadiyyatda tapırsa, ruhaniliyindən əl çəkir.

***Ruhaniliyin süqutu iqtisadi cəmiyyət yaradır.*** İnsani həyat iqtisadiləşir. İqtisadiyyat məqsədə çevrilir, onun vasitə olduğu yada düşmür.

Cəmiyyət istehsalçı xassəsinə pərçimlənib qalır.

O, əşya yetirməklə məhdudlaşır, insan yetirməyə qüdrəti çatmır.

İqtisadiyyat cəmiyyətə hakim olur, onu dəyirman daşı kimi fırladır. Cəmiyyət iqtisadiyyatın havasıyla oynayır, insan iqtisadiyyat baxımından qiymətləndirilir, yəni əslində inkar edilir.

***İntibah iqtisadi cəmiyyəti ruhani cəmiyyətlə əvəz edir, iqtisadiyyatı mənəviyyata tapşırır.***

# IV. RUHANİ İNTİBAH – MÜTLƏQLƏŞMƏ

## Mütləq İnam

***İntibah Mütləqə İnam əsasında yaranır.***

İntibah Mütləq İnam yaradır.

İntibah deyir ki, dünya, həyat, insan Mütləq Mahiyyətə malikdir.

İntibah deyir ki, dünya, həyat, insan öz mahiyyətinə bərabər ola bilər.

Dünya Mütləqləşə bilər.

Həyat Mütləqləşə bilər.

İnsan Mütləqləşə bilər.

***Bu həqiqətə intibahın İnamı Mütləqdir.***

## Mütləq Hissiyyat

***Mütləqləşən İnsan – Mütləq hissiyyata malik olur.***

Mahiyyətə bərabər olan hissiyyata!
Həyata sığmayan hissiyyata!
Hissiyyata sığmayan hissiyyata!
Gerçəklikdən yüksək saflığa, kamilliyə!
İmkandan yüksək saflığa, kamilliyə!

## Mütləq Mənəviyyat

***Mütləqləşən İnsan – Mütləq Mənəviyyata malik olur.***

Mahiyyətə bərabər olan Mənəviyyata!
Mənəviyyata sığmayan Mənəviyyata!
Gerçəklikdən yüksək Mənəviyyata!
İmkandan yüksək Mənəviyyata!

## Mütləq İdrak

***Mütləqləşən Mütləq İdraka malik olur.***

Mütləq hissiyyatla Mütləq Mənəviyyatın birliyinə bərabər olan İdraka!

Mahiyyətə çatan İdraka!
Həyata sığmayan İdraka!
İdraka sığmayan İdraka!

Gerçəklikdən yüksək İdraka!
İmkandan yüksək İdraka!

## Mütləq İradə

***Mütləqləşən İnsan – Mütləq İradəyə malik olur.***
Mahiyyətə bərabər olan İradəyə!
İradəyə sığmayan İradəyə!
Gerçəklikdən yüksək İradəyə!
İmkandan yüksək İradəyə!
Həyatı Ali Həyata yüksəldən İradəyə!

Yaşamayan yaşayacaq,
Görünməyən görünəcək,
Bilinməyən bilinəcək...

***Yağış ayı, 5-ci il. Bakı.***
***(1983-cü il noyabr).***

# İÇƏRİSİ

**Mütləqə İnam Sivilizasiyası**……………………………...………..4
**İnsanlaşmaq**……………………………………………...........13
**Sabahdaşlara**……………………………………...................14

**İNSAN**

1. İnsanilik……………………………………….. ... 17
2. Dünyayla Görüş…………………………………... 29
3. Təbiətə Etiraf…………………………………….…33
4. Cəmiyyətlə Görüş……………………………….…36
5. Özüylə Görüş

Hissiyyat……………………………………………...41
Mənəviyyat…………………………………….….....56
İdrak………………………………………….....…....59

6. İdealla Söhbət……………………………………....62
7. Mütləqlə Görüş…………………………………..….66
8. Ölümlə Görüş…………………………………….....68
9. Aqibət…………………………………………….......68

**İNAM**

***I FƏSİL*: MÜTLƏQƏ İNAM**

Ürəkdən Gələn Səs…………………………….........71
Təbiətdə Mütləq……………………………………....76
Cəmiyyətdə Mütləq……………………………….....78
İnsanda Mütləq………………………………….…...80
İdealda Mütləq…………………………………….....85
Mütləq Tələb……………………………………….....88

***II FƏSİL*: DÜNYAYA İNAM**

Xeyirli Dünya…………………………………………..89

Şərli Dünya........................................................90
Sevincli Dünya....................................................90
Kədərli Dünya.....................................................91
Nəşəli Dünya......................................................92
Əzablı Dünya......................................................93
Gəlimli Dünya.....................................................94
Gedimli Dünya.....................................................95
Gözəl Dünya.......................................................97
Çirkin Dünya......................................................98
Çağıran Dünya.....................................................99
Aldadan Dünya....................................................100
Natam Dünya......................................................102
Özünə Sığmayan Dünya.............................................103

***III FƏSİL*: İNSANA İNAM**

İnsan Ləyaqəti...................................................105
İnsan Qəbahəti...................................................106
İnsan Xeyiri.....................................................108
İnsan Şəri.......................................................109
İnsan Sevinci....................................................111
İnsan Kədəri.....................................................112
İnsan Möhtəşəmliyi...............................................113
İnsan Kiçikliyi..................................................114
İnsan Ülviyyəti..................................................116
İnsan Bəsitliyi..................................................117
İnsan Müdrikliyi.................................................118
İnsan Naşılığı...................................................119
İnsan Gözəlliyi..................................................121
İnsan Çirkinliyi.................................................123
İnsan Azadlığı...................................................125
İnsan Əsarəti....................................................127
İnsan Fədakarlığı................................................129
İnsan Günahkarlığı...............................................131
İnsan Yüksəkliyi.................................................133
İnsan Alçaqlığı..................................................135
Özüylə Barışan İnsan.............................................136
Özüylə Döyüşən İnsan.............................................138
İnsan Natamlığı..................................................140

İnsan Sığmazlığı....................................................142
Mütləq İnam..........................................................144

## RUH

**1. RUHANİLİK**..........................................................146

**2. RUHANİ TƏZAHÜR**..................................................153
İnsan Mahiyyəti....................................................153
Xalq.......................................................................155
Fərd.......................................................................159
Tarix......................................................................162
Cəmiyyət...............................................................164
Ailə........................................................................166
Gözəllik.................................................................168
Xeyir......................................................................171
Ədalət....................................................................174
Məhəbbət..............................................................176
Həqiqət..................................................................178
Qəhrəmanlıq........................................................180
Müqəddəslik.........................................................182

**3. RUHANİ İDRAK**

Vəhy.......................................................................186
Vəcd.......................................................................187
Səcdə.....................................................................188
Ehtizaz...................................................................189
Etiqad.....................................................................191
Aşiqlik....................................................................192

**4. RUHANİ MÖVCUDLUQ**

Zamandan Yüksək Yaşamaq................................194
Məkandan Yüksək Yaşamaq................................196
Gerçəklikdən Yüksək Yaşamaq...........................198
Özündən Yüksək Yaşamaq...................................200
Ölümdən Yüksək Yaşamaq...................................202

**HƏYAT**

**I. HƏYATİLİK**..........................................................................205

**II. ANTİHƏYAT**

İnsansızlıq..............................................................209
Mütləqsizlik............................................................210
Sürüləşmə...............................................................214
Ruhsuzluq...............................................................216
Amalsızlıq...............................................................219

**III. HƏYAT**

Maddiyyat – Ruhanilik..............................................222
Xeyir – Şər..............................................................225
Gözəllik – Eybəcərlik................................................228
Saflıq – Günah........................................................230
Müqəddəslik – Hərcayilik..........................................232
İnam – Şübhə..........................................................236
Ədalət – Zülm..........................................................240
Azadlıq – Əsarət......................................................242
Eşq – Şəhvət...........................................................246
Həqiqət – Yalan.......................................................249
Gerçəklik – İdeal......................................................252
Dostluq – Düşmənlik.................................................253
Özüylədöyüş və Özüyləbarışma...............................256
Özünümühafizə və Özündənkeçmə..........................259
Təmənna və Təmənnasızlıq......................................263
Təbiilik – Sünilik......................................................265
Zahiri – Daxili..........................................................268
Səadət – Fəlakət.....................................................271
Loğmanlıq – Naşılıq.................................................273
İnsan – İnsansızlıq..................................................274
İmkan – İmkansızlıq.................................................276
Faciəvilik................................................................277
Həyat – Ölüm..........................................................278

**IV. ALİ HƏYAT**

Mütləq Həyat..........................................................279

Mütləq Ruhanilik........................................................280
Mütləq Xeyir..............................................................282
Mütləq Gözəllik..........................................................283
Mütləq Saflıq..............................................................284
Mütləq Müqəddəslik...................................................285
Mütləq İnam................................................................287
Mütləq Ədalət.............................................................288
Mütləq Azadlıq............................................................289
Mütləq Eşq..................................................................291
Mütləq Həqiqət...........................................................292
Mütləq İdeal................................................................293
Mütləq Dostluq...........................................................293
Mütləq Özüylədöyüş..................................................294
Mütləq Özündənkeçmə..............................................296
Mütləq Təmənnasızlıq................................................297
Mütləq Təbiilik............................................................298
Mütləq Vəhdət............................................................299
Mütləq Səadət.............................................................300
Mütləq Müdriklik.........................................................301
Mütləq İnsan...............................................................301
Mütləq İmkan..............................................................302
Faciəsizlik....................................................................302
Ölümsüzlük..................................................................303
Amal............................................................................303

## İNTİBAH

### I. FƏRDİ İNTİBAH – ÖZÜNƏ SAHİBLİK

Cismaniyə Sahib Olmaq..............................................305
Maddiyyata Sahib Olmaq.............................................306
Cəmiyyətə Sahib Olmaq..............................................307
Xurafatdan Xilas Olmaq..............................................308

### II. XƏLQİ İNTİBAH – MÜSTƏQİLLİK

İctimai Müstəqillik.........................................................309
Mənəvi Müstəqillik.........................................................309
İdraki Müstəqillik...........................................................311

**III. BƏŞƏRİ İNTİBAH – MÜQƏDDƏSLİK**

Müqəddəs İnam....................................................312

**AMALLAŞMAQ**
Ruhani Cəmiyyət....................................................313

**IV. RUHANİ İNTİBAH – MÜTLƏQLƏŞMƏ**

Mütləq İnam..........................................................314
Mütləq Hissiyyat....................................................314
Mütləq Mənəviyyat.................................................314
Mütləq İdrak..........................................................314
Mütləq İradə..........................................................315

**Türkün (ilk) Ruhaniyyat Ocağı –**
**İnam Atanın (Asif Atanın)**
**Mütləqə İnam Ocağı**


Bizimlə əlaqə
**www.asifata.com**

ocak@asifata.com
yolruh@mail.ru

İnam Evi + 99412 514-62-08


**İNAM ATA**
**(Asif Ata)**
**(Əfəndiyev Asif Qasım oğlu)**

**On Kutsal Bitiq'in Birinci Bitiqi:**

# Mütləqə İnam

**(Türk dilində)**

**Инам Ата (Асиф Ата)**

# МЦТЛЯГЯ ИНАМ

Нашир:
**Шащбаз Худуоьлу**

Öç ãàáûüûíûí äèçàéíû âÿ
êîìïéóòåð òÿðòèáàòû:
**Йолрущ Аталы**

Дцзялишчи:
**Садиг-Йадулла**

×àïà èìçàëàíìûøäûð: 23.08.2010
Ôîðìàòû 64õ84 1/16.
Ôèçèêè ÷/â 20,25
Òèðàжû 500.

**“Ãàíóí” íÿøðèééàòû**

Áàêû, ÀÇ 1102, Òáèëèñè ïðîñ., ÛÛ Àëàòàâà 9.
Òåë: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
å-ìàèë: èíôî@ãàíóí.àç